ISSN 2221-8432

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Slavyan Universiteti

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

(ALİ MƏKTƏBLƏR ARASI ELMİ MƏQALƏLƏR MƏCMUƏSİ)

Актуальные проблемы изучения гуманитарных наук

Межвузовский сборник научных статей

The actual problems of study of humanities

Interuniversity collection of scientific articles

2 /2021

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ 2/2021

ISSN 2221-8432

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Ali məktəblərarası elmi məqalələr məcmuəsi

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ГУМАНИТАРНЫХ НАУК

Межвузовский сборник научных статей

THE ACTUAL PROBLEMS OF STUDY OF HUMANITIES

Interuniversity collection of scientific articles

№2

2021

Məcmuə 1997-ci ildən nəşr olunur.

İldə 6 nömrə çıxır.

Redaksiyanın ünvanı:
Bakı şəh., Rəsul Rza küç., 125/139b
Tel.: 596 21 44
Faks: 5962144
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Bakı – 2021

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri
Rüblük elmi nəşr

Redaksiya heyəti:

Dilçilik
filol. e. d., prof. **Məmmədov Nəsirağa**
filol. e. d., prof. **Veysəlli Fəxrəddin**
filol. e. d., prof. **Cahangirov Fikrət**
filol. e. d., prof. **Nurqali Kadişa (*Qazaxstan*)**
filol. e. d. **Qurbanova Fidan**
filol. e. d., prof. **Cəfərov Mikayıl**
filol. f. d. **Babaşova Xalidə**
filol. f. d. **Korotışev Aleksandr (*Rusiya*)**

Ədəbiyyatşünaslıq
filol. e. d., prof. **Qocayev Məmməd**
filol. e. d., prof. **Novruzov Rafiq**
filol. e. d., prof. **Xəlilli Şahin**
filol. e. d., prof. **Qeybullayeva Rəhilə**
filol. e. d., prof. **Rəsulov Rüstəm**
filol. f. d. **Ağamirzəyev Əliş**
filol. e. d., prof. **Travnikov Serqey** (***Rusiya***)

Pedaqogika
ped. e. d., prof. **Abbasov Akif**
ped. e. d., prof. **Rəcəbov Oqtay**
ped. e. d., prof. **Tağıyev Şahin**
ped. e. d., prof. **Xəlilov Vidadi**
ped. e. d., prof. **Cəbrayılov İntiqam**
ped. e. d., prof. **Quliyeva Ellada**
ped. f. d., dos. **Səmədov Oktay**
filol. f. d., dos. **Carçıyeva İlahə**
ped. e. f. d., dos. **Tağıyeva Ellada**

İctimai elmlər
tarix e. d., prof.,
AMEA-nın müxbir üzvü **Qasımlı Musa**
tarix e. d., prof. **İbrahimli Fəzail**
fəlsəfə e. d. **Məmmədov Cahangir**
tarix e. d., prof. **Əmrahov Mais**
fəlsəfə e. d., prof. **Əliyev Məmməd**
tarix e. d., prof. **Məmmədov Habil**
tarix f. d., dos. **Əhməd Əsgər**
siyasi elmlər f. d. **Abdullayev Natiq**

Buraxılışa məsul: filol.e.d., prof. **Cəfərov Telman**

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. **№ 2/2021.** – Bakı: Mütərcim, 2021. – 304 s.

Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

Сборник включен в Перечень рекомендуемых Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики научных журналов, в которых должны быть опубликованы основные научные результаты диссертаций.

Məcmuənin bu sayından başlayaraq müəlliflərin müraciəti və redaksiya heyətinin rəyi əsasında bəzi elmi məqalələrə xüsusi identifikator nömrəsi (DOİ) verilməsi qərara alınmışdır. Bu, Scopus və ya Web of Science platformalarında yerləşdirilmiş məqalə və elmi-tədqiqat işində DOİ verilmiş işə istinad zamanı onun göstərilən bazalara daxil edilməsinə və bu publikasiyaya beynəlxalq status verilməsinə şərait yaradır.

Начиная с этого номера сборника, на основе обращения авторов и отзыва редакционной коллегии некоторым статьям присваивается специальный идентификатор (DOI). При ссылке на эти статьи работ, размещённых на платформах Scopus или Web of Science, это создаст возможность включения данных статей в указанные базы и придаст публикациям международный статус.

© Məqalə müəllifləri, 2021
© "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsi redaksiyası, 2021

DİLÇİLİK - ЛИНГВИСТИКА

V.V.ABBASOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ SOSİAL-KULTUROLOJİ METAFORALAR

***Açar sözlər**: ingilis dili, metafora, siyasi-iqtisadi, assosiasiya, model, struktur model, koqnitiv model.*
***Ключевые слова:** английский язык, метафора, политико-экономическая, ассоциация, модель, структурная модель, когнитивная модель.*
***Key words:** English language, metaphor, political-economical, association, model, structural model, cognitive model.*

İngilis dili dünyanın ən zəngin dillərindən biri və miqyasına görə ən geniş yayılmış ünsiyyət vasitəsidir. Bu dil vasitəsi ilə dünyanın əksər yerlərində ünsiyyət qurmaq, fikir mübadiləsi aparmaq olar. İngilis dilinin dünyada belə geniş yayılmasının əsas səbəbi ingilislərin ekspansiya siyasəti və həmin yerlərdə aborogenlərlə qaynayıb qarışa bilməsi, beynəlxalq aləmdəki siyasi-iqtisadi qüdrəti və nüfuzu ilə bağlıdır. Bu səbəbdən ingilis dilinin bir neçə variantı formalaşmışdır və hətta müstəqil dil kimi diferensiallaşma prosesini keçirir. Britaniya ingiliscəsi həmin dillər üçün bünövrə, əsas dildir. Buna baxmayaraq, istər ingilis dilinin variantlarında, istərsə də standart ingilis dilində dil bir neçə parametrdə inkişaf edir. Buraya həm dilin qrammatik, həm də leksik sistemi daxildir. Standart ingilis dilində ictimai-mədəni şəraitdən asılı olaraq leksik sistemdə yeni metaforaların meydana çıxması istiqamətində güclü inkişaf vardır. Cəmiyyətdə metaforaların meydana gəlməsi mühüm, cəmiyyət üçün çox əhəmiyyəti olan məsələlərlə bağlıdır. Metaforalar, eləcə də bütövlükdə məcazlar dilin dinamik-leksik sisteminə daxildir: onlar situativ olaraq yaranır, zaman keçdikcə obrazlılığını itirir və silinmiş metaforalara çevrilir. Britaniya ingiliscəsində bu proses bütün üslublarda-bədii, publisistik, elmi, siyasi və məişət üslubunda fəaldır. Fəallığa səbəb qeyd etdiyimiz kimi, ingilis ictimai, siyasi və iqtisadi reallığıdır.

İngilis bədii mətnlərində metaforalar müxtəlif leksik vahidlərin semantikası üzərində formalaşır. Adətən, poeziya dilində, eləcə də nəsr əsərlərində “heart” (ürək) leksemi işlənmə fəallığına malikdir. Misallara nəzər salaq:

1. “In addition to what has been already said of Catherine Morland's personal and mental endowments, when about to be launched into all the difficulties and dangers of a six weeks' residence in Bath, it may be stated, for the reader's more certain information, lest the following pages should otherwise fail of giving any idea of what her character is meant to be, that her heart was affectionate; her disposition cheerful and open, without conceit or affectation of any kind – her manners just removed from the awkwardness and shyness of a girl; her person pleasing and when in good looks, pretty – and her mind about as ignorant and uninformed as the female mind at seventeen usually is” (Jane Austen. Northanger Abbey. Chapter 1).

2. “When the hour of departure drew near, the maternal anxiety of Mrs. Morland will be naturally supposed to be most severe. A thousand alarming presentiments of evil to her beloved Catherine from this terrific separation must oppress her heart with sadness and drown

her in tears for the last day or two of their being together; and advice of the most important and applicable nature must of course flow from her wise lips in their parting conference in her closet. Cautions against the violence of such noblemen and baronets as delight in forcing young ladies away to some remote farm-house, must, at such a moment, relieve the fulness of her heart. Who would not think so? But Mrs. Morland knew so little of lords and baronets, that she entertained no notion of their general mischievousness, and was wholly unsuspicious of danger to her daughter from their machinations. Her cautions were confined to the following points. "I beg, Catherine, you will always wrap yourself up very warm about the throat, when you come from the rooms at night; and I wish you would try to keep some account of the money you spend; I will give you this little book on purpose" (Jane Austen. Northanger Abbey. Chapter 1).

Bu misallarda ("that her heart was affectionate", "from this terrific separation must oppress her heart with sadness") "onun yumşaq ürəyi vardır", "ayrılıq onun ürəyini sıxacaqdı") metaforaları bədii üslubda olduğu kimi, məişət üslubunda da işlədilir. Bədii üslubda isə onun yüzlərlə metaforik variantı vardır. Bu semantikalı metaforalar təkcə ingilis dili üçün deyil, həm də dünyanın bir çox dillərində işlənir. Ona görə də bu tipli metaforaları semantik baxımdan universal assosiasiyalı metaforalar adlandırmaq olar. Eyni zamanda qeyd olunan metaforalarda assosiasiya modelləri "əlamət-predmet" və "əşya-subyekt" strukturu əsasında formalaşmışdır. Digər misal: "No one who had ever seen Catherine Morland in her infancy would have supposed her born to be an heroine. Her situation in life, the character of her father and mother, her own person and disposition, were all equally against her. Her father was a clergyman, without being neglected, or poor, and a very respectable man, though his name was Richard – and he had never been handsome. He had a considerable independence besides two good livings – and he was not in the least addicted to locking up his daughters. Her mother was a woman of useful plain sense, with a good temper, and, what is more remarkable, with a good constitution. She had three sons before Catherine was born; and instead of dying in bringing the latter into the world, as anybody might expect, she still lived on – lived to have six children more – to see them growing up around her, and to enjoy excellent health herself. A family of ten children will be always called a fine family, where there are heads and arms and legs enough for the number; but the Morlands had little other right to the word, for they were in general very plain, and Catherine, for many years of her life, as plain as any. She had a thin awkward figure, a sallow skin without colour, dark lank hair, and strong features – so much for her person; and not less unpropitious for heroism seemed her mind. She was fond of all boy's plays, and greatly preferred cricket not merely to dolls, but to the more heroic enjoyments of infancy, nursing a dormouse, feeding a canary-bird, or watering a rose-bush. Indeed she had no taste for a garden; and if she gathered flowers at all, it was chiefly for the pleasure of mischief – at least so it was conjectured from her always preferring those which she was forbidden to take. Such were her propensities – her abilities were quite as extraordinary. She never could learn or understand anything before she was taught; and sometimes not even then, for she was often inattentive and occasionally stupid. Her mother was three months in teaching her only to repeat the "Beggar's Petition" and after all, her next sister, Sally, could say it better than she did. Not that Catherine was always stupid – by no means; she learnt the fable of "The Hare and Many Friends" as quickly as any girl in England. Her mother wished her to learn music; and Catherine was sure she should like it, for she was very fond of tinkling the keys of the old forlorn spinner; so, at eight years old she began. She learnt a year, and could not bear it; and Mrs. Morland, who did *not insist on her daughter*s being accomplished in spite of incapacity or distaste, allowed her to leave off**.** The day which dismissed the music-master was one of the happiest of Catherine's life. Her taste for drawing was not superior; though whenever she could obtain the outside of a letter from her mother or seize upon any other odd piece of paper, she did what she could in

that way, by drawing houses and trees, hens and chickens, all very much like one another. Writing and accounts she was taught by her father; French by her mother: her proficiency in either was not remarkable, and she shirked her lessons in both whenever she could. What a strange, unaccountable character! – for with all these symptoms of profligacy at ten years old, she had neither a bad heart nor a bad temper, was seldom stubborn, scarcely ever quarrelsome, and very kind to the little ones, with few interruptions of tyranny; she was moreover noisy and wild, hated confinement and cleanliness, and loved nothing so well in the world as rolling down the green slope at the back of the house" (Jane Austen. Northanger Abbey. Chapter 1).

Əvvəlki misallarda olduğu kimi, "was always stupid" (ümidsiz küt) "əşya-insan" assosiasiya modeli əsasında formalaşan bu metaforaya ingilis bədii mətnlərində tez-tez rast gəlinir. "Küt əşya" ilə dərrakəsiz və ya melanxolik insanın metaforik tərzdə müqayisə olunması, yəni əşyaya aid əlamətin insan üzərinə köçürülməsi metaforaların yaranmasının bir modelidir.

İngilis dilində qadın və kişilərə aid metaforalar, adətən, peşəsinə maddi vəziyyətinə, qadınların xarici görünüşlərinə görə və digər xüsusiyyətlərinə görə əmələ gəlir. Məsələn, kişilərə aid: uzaq məsafələrə işləyən sürücülər, mühərriklər, şalvarları, kaskası və s. (bikers, truckers, engines, trousers, hardhats) qadınlara aid: parikləri, dırnaqları, incə əşyaları, geyimləri, köhnə pulqabıları və s (doll, little doll, wig, nails, ball-and-chain, cute thing, stuff, used goods, old bag, old sack, skirt, petticoat, slip, sweater set, roller, etc.) ilə assosiasiya olunur (2).

Qeyd olunan misallarda meydana çıxan assosiasiya modelləri ictimai-sosial şərtlərlə də bağlıdır. İngilis cəmiyyətində kişi və qadınların fəaliyyəti, onların həmin cəmiyyətdə tutduğu mövqe, davranışı, onlara münasibət, yumor və s xüsusiyyətlər metafora mənbəyidir. Bu cəmiyyətdə diqqəti cəlb edən adət-ənənə, ona münasibət, insanların bir-birinə münasibəti metaforik ifadələrdə öz əksini tapır. Məsələn: "pig" ingilis linqvokulturologiyasında artıq çəkili adam, bəzən də təhqir semantikalı metaforadır. Başqa bir misal, "cow" adi günlərdə kommunikasiya zamanı hansısa sosial qrupa aid neqativ əlaməti bildirir. Bəzən də diqqəti cəlb etməyən qadınlara ("a large, obese woman") aid metaforalar sosial məzmunu ilə daha geniş işləklik qazanır. Adətən, cəmiyyətdə insanın ağlı, xüsusi qabiliyyəti, xarici görkəmi, cəmiyyətdəki mövqeyi metaforaların yaranması üçün stimul ola bilir. Bu vaxt metaforik nominasiya insanı əhatə edən müxtəlif varlıqlarla assosiasiya olunur. Məsələn: rotten apple (qara gavalı) qrupun pis üzvü; cookie (qadın); cookie-woman (cəlb edici xanım); sharp cookie (çətin aldanılan insan); sausage (səfeh); beefeake'(yaxşı cüssəli adam); beef-eater '(ingilis); cold fish (soyuq insan),: cheesecake (cəlbedici qadın) biscuit (aldadılmış qadın) və s. (3, s.96).

Bunlar ingilis mühitində özlərinə və digərlərinə yanaşmanı əks etdirən sosial linqvistik reaksiyasıdır. Eləcə də digər xalqlara metaforik reaksiyasını aşağıdakı misallar təmsil edə bilər. Etnizmlərin timsalında aşağıdakı misallara nəzər salaq:

1. Yemək və mədəniyyət etnik obyekt kimi: latın amerikalılar – Beanbag; çilililər – acı bibər; kanadalılar: pendir – Cheeser; fransızlar – cheeser frog; qaradərili: toyuq – Chicken Bandit; italyanlar – Spaghetti-Twister; sarımsaq – Garlic Bread və s.

2. Xarici görkəminə görə: dərinin rəngi-ağlar – Milk, Milky; qara dərili – Brownie Choco; asiyalı – Lemonhead; simaca asiyalı – Pancake və s.

3. Qastronomik adlandırma: Hökumət pendiri – Cheddar; asiyalılar – düyü yığanlar – Rice-Picker

4. Qarışıq cinsi bildirənlər: Cookies'n Cream – ağlar və qaralardan ibarət qarışıq cins; Qaradərili italiyalı – Eggplant Parmesan və s.

5. Cinslərlə bağlı metaforalar: Egg – asiyalı ilə görüşən ağ dərili; Milkman – ağdərili ilə görüşən qaradərili; Chocolate-Dipper – qaradərili ilə görüşən ağdərili qadın və s. (2).

Metafora ingilis həyatının bütün sferalarında, yəni məişətdən tutmuş elmi üsluba qədərki bütün üslublarda işlənir. O, dili təkcə üslubi baxımdan deyil, həm də estetik cəhətdən

gözəlləşdirir. Gündəlik danışıqda metaforalar sözlər, söz birləşmələri və tərkiblər vasitəsi ilə, eləcə də cümlələrlə ifadə oluna bilər.

Həmin metaforalar struktur modelinə görə belədir:

Metaforalar bir sözdən də ibarət ola bilər: velvey-gəlir, frost-şaxta, uğursuzluq, silly-səfeh, rak-arıq adam, cow-nayöndəm insan, ass-səfeh insan, qosse-səfeh adam, rabbit-qorxaq və s.

Söz birləşməsi strukturunda: Naked position (qiymət riski ilə tənzimlənməyən pozisiya, naked option (lazımi hallarda hüquqları qorunmayan satıcı), naked contract (hüquqi əsası olmayan razılaşma) və s.

Cümlələrdən ibarət: He gave me a cold look (o mənə soyuqluqla nəzər saldı), After a long battle with this disease she has finally recovered (uzun çəkən mübarizədən sonra o sağaldı), She was eaten up with hatred (Nifrət onu daxildən yeyirdi, parçalayırdı), Don't put ideas into his head (başını ağrıtma) və s. Belə cümlələri metaforik cümlələr də adlandırmaq olar.

İngilis dilinin struktur modeli də çox zəngindir. İstənilən dildə metaforaların koqnitiv modeli universal olmaqla yanaşı, milli-mental xüsusiyyətlərinə görə fərqlənən konnotasiyalara malikdir. Bu xüsusiyyət standart ingilis dilində və onun variantlarında özünü göstərir. Əvvəldə qeyd etdiyimiz kimi, həmin fərqlər ictimai-sosial və mədəni bazaya əsaslanır. Cəmiyyət və onun qanunları, əxlaq kodeksi, milli özəlliklər və siyasi reallıqdan qaynaqlanan metaforalar, hətta dil variantı olsa da, yeni dünyagörüşün, həyatı dərketmə tərzinin təzahürü kimi özünü göstərir. Buraya iqtisadi, siyasi, publisistik, bədii və məişət üslubuna aid metaforaları aid etmək olar. Biz ingilis dilində metaforaların koqnitiv əlamətlərindən bəhs edərkən həmin üslublar üzrə metaforaların assosiativ xüsusiyyətlərindən bəhs edə bilərik. Məsələnin belə qoyuluşu metaforik assosiasiyaların incəliklərini görməyə imkan verir. Bu, problemə yanaşmanın xüsusi formasıdır. Lakin, ümumən, ingilis düşüncəsində metaforaların koqnitiv modellərini də yaratmaq mümkündür. Bu istiqamətdə koqnitiv modelləri nəzərdən keçirək:

1. İnsan-iqtisadi-siyasi hadisələr:

Now the Instituto per la Riconstruzione Industriale (IRI), the Italian state holding corporation, is to be killed. (End of an IRI. The Economist June 24th 2000). (5). "The Italian state holding corporation, is to materials be killed" – "İtalyan holdinq korporasiyası ölməlidir" misalında "ölmək" insanlara, eləcə də digər canlılar aləminə aiddir, o, holdinq korporasiyanın üzərinə köçürülməklə insanla iqtisadiyyat arasında assosiasiya yaradılmışdır. Bunun da əsasında "İqtisadiyyat canlı orqanizmdir" metaforası dayanır. Digər bir misal: "The recent revival is a sign that some reform is happening" – Yaxın vaxtlardakı canlanma (iqtisadiyyatda) baş verən hansısa reformun əlamətidir. Canlanma – hərəkətə gəlmə canlılara aiddir, o, nəinki iqtisadiyyata, eləcə də digər assosiasiyalar üçün də mənbə ola bilir. (Məsələn, torpaq canlanır).

2. Digər canlılar-iqtisadiyyat:

İngilis dilində bu model əsasında yaranan metaforalar iqtisadi mövzularda çox fəaldır. Məsələn, turkey-hind quşu. Bu uğursuz invistisiya ilə assosiasiya olunur. Başqa bir misal, duck-ördək. Bu assosiasiya çətin vəziyyətdə olan kompaniyanın yırtıcı qarşısında dayanması ilə assosiasiya olunur. İngilis bədii mətnlərində "lamb","cat","car","dog" və s. ev heyvanları, eləcə də vəhşi heyvanlar "bear", "wolf", "fox" iqtisadi həyatla, reallıqla assosiasiya olunur. Başqa misallara müraciət edək: "Daniel Drew spoke truly when he said"; "To speculate as an outsider is like black pigs in the dark" (The Economist July 17th 2000); "The boom in India's knowledge industries may have created the illusion that India can thrive even if it does not tackle such political sacred cows as its labour laws, its infrastructure and its rules that hamper the development of small industry" (4). Verilmiş misallarda "qara donuz", "inək" iqtisadiyyatın assosiativ daşıyıcılarıdır.

3. İnsan-qida məhsulları:

Joe Biden brought donuts for the government employees. That is very nice. A donut and Joe Biden are very different, of course. One's a thing that Hillary Clinton's going to eat for breakfast and the other is a doughnut. Craig Ferguson. Corc Bayden dövlət qulluqçuları üçün "ponçk" – yağlı kökə gətirib. Nə qədər də xeyirxahdır. Yağlı kökə və Bayden fərqli şeylərdir. Onlardan Xillari – səhər yeməyi, C.Bayden isə yağlı kökədir (12). Başqa misal: İngiltərə mətbuatında Fransanın prezidenti E.Makron "Təzə parlaq butulkada köhnə çaxır" ilə assosiasiya olunur (The old wine in a shiny new bottle (Who is Emmanuel Macron? BBC News 8.05.17) (4).

4. İnsan-təyyarə; digər canlılar-təyyarə:

Machines are human beings - təyyarə insandır - uçan maşın insandır. Bu tipli metaforalarda insanın digər üzvləri ilə təyyarənin hissələri assosiasiya olunur.

Məsələn: cylinder neck, hand pump, stressed skin, head of pressure, rotor head, venture throat. **(**Поталуй В.В., Воронко Д.С. Метафоры в авиационном английском).

5. İnsan-cansız obyektlər: Aviasiyada insanla təyyarənin hansısa hissəsi assosiasiya olunur: *body of an airplane, body station, nose of the aircraft, venture throat, hand controls, aircraft skin, stressed skin, cylinder head, pilot head, rotor head, cylinder neck.*

6. İnsan-məkan:

Aerodrome is a human being – insandır. (Aerodrom insandır). İnanimate objects are human beings (Cansız obyekt-insan).

Göründüyü kimi, insan-ətraf aləm kontekstində metaforik assosiasiyalar çoxdur, biz onlardan yalnız insan-iqtisadiyyat; insan-aviasiya timsalında onlardan daha mühümlərini nəzərdən keçirdik. Ancaq qeyd olunan aspektdə assosiasiyaların sayı çoxdur. Nəzərə alsaq ki, bizi əhatə edən ətraf aləm daha çoxdur və assosiativdir, onda onların koqnitiv modelini mövzular üzrə konkretləşdirməyin üstünlüyünü görə bilərik.

Məsələn əqli fəaliyyətlə bağlı metaforaların koqnitiv modellərini Ş.N.Yuryevna aşağıdakı kimi təqdim edir:

I. "Əqli fəaliyyət – qarşıya qoyulan məqsədə nail olmaqdır":

1. It was John who cottoned on everything'
2. It was not easy to put across this marvelous idea
3. Let's strike a bright, old man [DoHS]

II. Əqli fəaliyyət – məqsəd strukturudur.

1. The idea of her being alone lit my mind
2. Suddenly, it dawned on me that she was completely wrong
3. Then I flashed on a great idea [DoHS]

III. Əqli fəaliyyət – məqsəd strukturuna daxil olan oyundur:

1. Fancy playing with such a serious matter'
2. He only flirted with the idea of going to college, believe me
3. Don't toy with this, my dear [Encarta]

IV. Əqli fəaliyyət – məqsəd strukturuna aid olan hazırlıqdır:

1. It took me a lifetime to reckon it
2. She was the best at manufacturing ideas
3. I've gestated this plan for a year [DoES]

V. Əqli fəaliyyət hesabatdır:

1. He is always trying to size them up
2. I calculate I'll never be a farmer" [DoES] (9).

Yaxud iqtisadiyyatla bağlı metaforik modellərə nəzər salaq:

1. İqtisadiyyat canlı orqanizmdir;
2. İqtisadiyyat müharibədir;
3. İqtisadiyyat evdir;

4. İqtisadi xəstəlik; və s. metaforaların koqnitiv modelləri ingilis iqtisadi reallığının ən effektli göstəriciləridir.

Metaforalar, xüsusilə, konseptual metaforalar bədii mətnlərdə çox fəal olur. Çünki müəllif obrazları fərdiləşdirərkən və ya nəql edən şəxs kimi onun öz dilində metaforalara tez-tez müraciət edir. Əsərin obrazlı ifadəsi, obrazların hansısa ideya daşıyıcısı kimi həmin ifadələrdən istifadə etməsi bu mətnlər üçün qanunauyğun haldır. Digər tərəfdən, bədii mətnlərdə metaforaların bol-bol və konseptual şəkildə işlənməsinin bir səbəbi də müraciət olunan mövzulardır. Məsələn, ingilis ədəbiyyatında V.Şekspirin sonetlərində, ümumən, yaradıcılığında "sevgi", "məhəbbət" xüsusi yer tutur: "love is disease" (məhəbbət xəstəlikdir) və "love is madness" (məhəbbət ağlını itirməkdir): I should grow mad, and in my madness might speak ill of thee, (sən mənim ağlımı alacaqsan) (7).

Məhəbbət xəstəlikdir – My reason, the physician to my love / Angry that his prescriptions are not kept. /Hath left me (Həkim mənim xəstəliyimə əsəbləşdi və dedi ki, bunun əlacı yoxdur) konseptual metaforaları sonetlərdə çox fəaldır. V.Şekspirin "Hamlet"əsərindən bir parçaya nəzər salaq: "You would play upon me; you would seem to know my stops; you would pluck outthe heart of my mystery; you would sound me from my lowest note to the top of my compass; and there is much music, excellent voice, in this little organ, yet cannot you make it speak. 'Sblood, do you think I am easier to be played on than a pipe? Call me what instrument you will, though you can fret me, you cannot play upon me".

Bu parçada Hamlet Rozenkrantı və Gildensteri günahlandıraraq deyir ki, siz məni" musiqi aləti" kimi çala bilməzsiniz. Yaxud "Romeo və Cülyetta" əsərində "light" (günəş şüası/ işığı/ günəş) metaforasından Cülyettanın gözəlliyini ifadə etmək üçün istifadə edir (8, s.340). V.Şekspir əsərlərində siyasi anlamlardan istifadə edərək konseptual metaforalar yaratmışdır. Məsələn: "Məhəbbət əsirlikdir", "məhəbbət – qul olmaqdır".

"*But my five wits nor my five senses can / Dissuade one foolish heart from serving thee, / Who leaves unsway's the likeness of a man, / Thy proud hearts slave and vassal wretch to be".* (1) **(Mənim hislərim, düşüncəm, ürəyimə hökm etməyə qadir deyil, mən zahirən insan kimiyəm, bir qarabuğdayı xanımın əsiriyəm, quluyam.)** (11)

"*Being your slave (...) I have no (...) services to do, till you require***" (Sənin əsirin olacağam, əmr et sənə xidmətdə olum.)** (11) **"Qızılgül – gözəllik"**

The rose looks fair, but fairer we it deem / For that sweet odour which doth in it live… / I have seen roses damasked, red and white, / But no such roses see I in her cheeks (7, s.123).

Love's not Time's fool, though rosy lips and cheeks / Within his bending sickle's compass come (Məhəbbət qızılgülün ötüb gedən gözəlliyindən fərqli olaraq daimidir, onun üçün heç bir dəyişiklik təhlükəli deyil) (2).

Qeyd olunan metaforalar XV-XVI əsr ingilis ədəbiyyatında "sevgi"nin (məhəbbət) konseptual metaforasıdır. Bunlar müəllif metaforalarıdır. XIX-XX əsr ingilis ədəbiyyatında həmin konseptin müvafiq metaforaları meydana gəlmişdir. Bunu U. S. Moemin əsərləri üzrə faktlar əsasında izah edək. Bunun üçün onun üç əsərini əhatə edən tədqiqatın nəticələrinə.("Mrs. Craddock", "The Hero", "The Theatre" və "Of Human Bondage".) müraciət edəcəyik:

1. Məhəbbət gur axan seldir:

The love that he had held banked up for so many years would burst its sluices like a great torrent in a flood overwhelms he, Her love was like the tide covering a barren rock.

2. Məhəbbət insanı boğan dənizdir:

Love was a great sea into which she boldly plunged whether she would swim or sink.

3. Məhəbbət mistik alovdur: The love was wonderful, it surrounded her like a mystic fire and lifted her up so that she seemed to walk on air; Her love was a fire playing ineffectually upon a rock of basalt (bir alovdur, onu söndürmək üçün böyük güc lazımdır. He would make nofurther effort to stifle his love.

4. Məhəbbət alovdur**:** But the love which had taken such despotic possession of Bertha's nature could not be overthrown by any sudden means. When she recovered her health and was able to resume her habits, it blazed out again like a fire, momentarily subdued, which has gained new strength in its coercion (Məhəbbət insana təbiət stixiyası kimi təsir edir; o insanı sıxır, insanın canını külə döndərir).

4. Məhəbbət xəstəlikdir: Love is illness.

6. "Have been sick with love for you ever since I saw you" Məhəbbət orqanizmdə olan yırtıqdır, o, insana həmişə iztirab gətirir. He had thought of love as a rapture which seized one so that all the world seemed spring-like, he had looked forward to an ecstatic happiness; but this was not happiness; it was a hunger of the soul, it was a painful yearning, it was a bitter anguish, he had never known before.

5. Məhəbbət ürək xəstəliyidir**:** She looked forward already to the future with something like terror; her love for Edward was a bitter heartache.

6. Məhəbbət xəncərdir: Of course, I can never come back to Court Leys - there are some chains that having broken you can never weld together; and no fetters are so intolerable as the fetters of love (7).

Göründüyü kimi, zaman dəyişdikcə konseptual metaforaların assosiativ tipləri iki şəkildə özünü göstərir: Birincisi, universal assosiasiyalar və xüsusiləşmiş assosiasiyalar. V.Şekspir və U.S. Moemin əsərləri timsalında bunu müşahidə etdik.

Ədəbiyyat

1. Баймуратова У.С. Английская флористическая метафора в сонетах. У.Шекспира: izron.ru › articles › angliyskaya-floristicheskaya-metafo.

2. Голодная В.Н. Метафора «идентичность человека» в английском языке: концептуальное содержание, языковая объективация, прагматические функции и социально-культурные контексты: cheloveknauka.com › Языкознание › Германские языки

3. Голодная В.Н., Правикова Л.В. Концептуализация этнической идентичности: семантика и символика гастрономической метафоры [Текст] / В.Н. Голодная, Л.В. Правикова // Русский язык и межкультурная коммуникация: научный журнал. – Пятигорск: ПГЛУ, 2014. -№ 1(13). – С. 93-1083

4. Горностаева А.А. Иронические метафоры в политическом дискурсе: www.researchgate.net › publication › fulltext › Ironic-met...

5. Колотнина Е.В. Метафорическое моделирование действительности в русском и английском экономическом дискурсе: politlinguist.ru › materials › thesis › kolotnina.

6. Облецова Е.В., Гурин В.В. Метафорическая репрезентация эмоционального концепта love в художественной картине мира. У. С. Моэма. Текст научной статьи по специальности «Языкознание и литературоведение»:cyberleninka.ru › article › metaforicheskaya-reprezentatsi.

7. Русова И.А. Социально-политическая метафора в сонетах В. Шекспира и их переводах на русский язык**.** Политическая лингвистика. – Выпуск (2) 22. - Екатеринбург, 2007. – С. 120-124

8. Турдикулова Б.Т. Понятие метафоры и способы её выражения в произведениях Шекспира / Б. Т. Турдикулова. –Текст : непосредственный // Молодой ученый. – 2014. – № 11 (70). – С. 345-346).

9. Шабалина Н.Ю. Кгнитивные модели субстандартной семантической деривации: http://cheloveknauka.com/kognitivnye-modeli-substandartnoy-semanticheskoy-derivatsii#ixzz6h9TLTiWi

10. The Complete Works of William Shakespeare 1994: 1242. [Шекспир 2004: 418.

Шекспир У. Сонеты / Пер. с англ. С.Я. Маршака. - СПб.: Азбука-классика, 2004. - 432 с.

The Complete Works of William Shakespeare 1994: 1232.

11. The Complete Works of William Shakespeare. The Shakespeare Head Press Edition; Wordsworth Poetry Library, 1994.

12. http://politicalhumor.about.com/od/hillaryclinton/fl/Hillary-Clinton-Jokes_2.htm.

13. The old wine in a shiny new bottle (Who is Emmanuel Macron? BBC News 8.05.17. The Economist July 17th 2000;
14. Jane Austen .Northanger Abbey. Chapter 1.

В.В.Аббасова

Социально-культурологические метафоры в английском языке

Резюме

Статья посвящена английскому языку, который является одним из самых богатых и наиболее распространенных языков в мире. Многие люди во всем мире общаются друг с другом на этом языке. Этот язык имеет богатую лексическую систему, и в результате с его помощью легко выражать идеи с большим превосходством. Нельзя отрицать роль метафор в нашей речи как средства продуктивного общения. Метафоры называют барометром общества. Метафоры, основанные на различных структурных и когнитивных моделях, используются во всей английской стилистике, особенно в литературной и публицистической. Вот почему важно объяснить появление метафор в английском языке с лингвистической и экстралингвистической точек зрения.

V.V.Abbasova

Social-culturological metaphors in English

Summary

Article deals with the English language that is one of the richest as well as the most world spread languages in the world. Many people over the world communicate with each other via this language. This language has rich lexical system and as a result it is easy to express ideas with great excellency with the help of this language. The role of metaphors in our speech as a mean of productive communication can’t be denied. Metaphors are called a barometer of society. Metaphors based on various structure and cognitive models are used in all English stylistics, especially in literary and publicistic ones. That’s why it is important to explain an occurring of metaphors in English from the linguistic and the extra linguistic point of view.

Rəyçi: filol.e.d., prof. Ş.Q.Hüseynov

Redaksiyaya daxil olub: 21.05.2021

A.Q.ABDULLAYEVA
e-mail: a.abdullayeva1992@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

SİNTAQMIN SÖZ, SÖZ BİRLƏŞMƏSİ VƏ CÜMLƏYƏ MÜNASİBƏTİNƏ DAİR

Açar sözlər: *sintaqm, xitab, ara söz, müəllif sözü, əlavə.*
Ключевые слова: *синтагма, обращение, вводные слова, слова автора, приложение.*
Key words: *syntagm, vocative, parentheses, reporting phrase, apposition.*

Müasir dilçilikdə sintaqm anlayışına müxtəlif cəhətdən yanaşırlar və onun mahiyyəti müxtəlif baxımdan izah edilir. "Sintaqm" termin kimi ilk dəfə İ.A.Boduen de Kurtene və F.de Sössür tərəfindən işlədilmişdir. İ.A.Boduen de Kurtene sintaqmı söz və onların müxtəlif formaları, daha doğrusu leksem mənasında işlətmişdir (2, s.128).

F.de Sössür isə sintaqmı iki və daha artıq linqvistik elementlərin birliyi mənasında işlətmişdir. Sintaqmın hansı dil vahidinin tərkib hissəsi olduğunu izah edən İ.A.Boduen de Kurtene yazır: "Sintaqmlar cümlənin, morfemlər sintaqmın, fonemlər isə morfemin ayrılmaz tərkib hissələridir" (2, s. 64).

Z.V.Şerba sintaqmı belə izah edir: "Fikir – nitq prosesində mənaca bölünməz tamı ifadə edən və bir, yaxud bir neçə ritmik qrupdan ibarət olan fonetik vahidi mən sintaqm adlandırıram" (3, s. 64).

Sintaqmı müəyyən edən əsas əlamət onun fonetik xüsusiyyətlərə malik olmasıdır. Sintaqmı sintaqmatik vurğusuz təsəvvür etmək mümkün deyil. Sintaqmatik vurğu sintaqmda bilavasitə yeni fikri ifadə edən, sintaqmın əsas mənasını özündə daşıyan sözün üzərinə düşür. Sintaqmatik vurğular sintaqm arası səddi göstərməklə delimitativ və ya ayırıcı funskiya daşıyır.

H.E.Palmer qeyd edir ki, cümlə mənası tamamilə sintaqmatik bölgüdən asılıdır (1, s. 64).

Sintaqmlar intonasiyanın yaradıcılarıdır. Sintaqm və ya məna qrupları intonasiya ilə sıx bağlıdır. Onlar bir tərəfdən intonasiyanın məhsulu digər tərəfdən isə onun tənzim ediciləridir. Sintaqmsız cümlə, cümləsiz isə sintaqm mövcud deyil.

Sintaqmın quruluşu müxtəlif ola bilir. Kontekst və situasiyadan asılı olaraq, o quruluşuna görə bir sözə də, söz birləşməsinə də, cümləyə də uyğun gəlir. Bəzən sintaqm qrammatik cəhətdən bir-biri ilə əlaqədar olmayan və ayrı-ayrı söz birləşmələrinə aid olan sözlərdən də əmələ gələ bilər. Nitqin parçalanmasında fonetik xüsusiyyəti əsas götürən A.Axundov bu prosesdə qrammatik və semantik xüsusiyyətlərin də iştirak etdiyini vurğulayır (6, s.78). Hər bir mürəkkəb cümlə komponenti yəni, tabesiz mürəkkəb cümlədə cümlə, tərkiblər, əlavə və xüsusiləşmələr, qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər yəni, xitablar, ara sözlər və ara cümlələr, həmcins üzvlər, zaman və yer zərfliklər adətən müəyyən sintaqmlar təşkil edir. Lakin xüsusi nitq şəraitində cümlənin belə sintaqmatik üzvlənməsi olmaya da bilər. Əksinə sintaktik amillərə əsaslanmayan semantik üzvlənmə də gedə bilər. Azərbaycan dilində sintaqmların iki növünü qeyd etmək olar: 1) bitmiş və ya tam sintaqmlar, 2) bitməmiş, yarımçıq və ya natamam sintaqmlar. Həmin sintaqmların cümlədə yerləşmə xüsusiyyətlərinin şərh edilməsindən aydın olur ki, bitmiş sintaqmlar cümlədə solda işlənən sintaqmlardır, bu da xəbərin solda işlənməsi ilə bağlıdır. Tərkibində xəbər olan sintaqmlar eyni zamanda predikativ sintaqmlar adlanır. Danışıq aktı tələffüz zamanı ümumi məna bütövünün ifadəçisi olan cümlələrə, cümlələr isə öz növbəsində nisbi məna bütövünü ifadə edən daha kiçik danışıq vahidlərinə – sintaqmlara, sintaqmlar isə özlərindən kiçik fonetik vahidlərə – ritmik

qruplara və daha sonra sözlərə bölünür. Deməli, danışıq aktının bölünməsindən alınan vahid kimi cümlələri, sintaqmları, ritmik qrupları, sözləri göstərmək olar.

Danışıq prosesində nitqin ümumi fonetik axını davamlı fonetik birləşmələrə parçalanır. Parçalanmadan yaranan bu birləşmələrin əmələ gəlməsində fasilə və nəfəsalma prosesi əsas götürülür. Danışıq aktının parçalanmasından alınan cümlələr bir sözdən, bir və ya bir neçə ritmik qrupdan ibarət ola bilər. Sözdən yuxarıda duran vahidlər yəni, söz birləşmələri, sintaqm, cümlə ona görə mövcuddur ki, çünki söz mövcuddur. Söz olmadığı halda onlar da ola bilməz. Müasir dilçilik sözü dilin ən mühüm, ən əsas mərkəzi vahidi hesab edir. Sözlər dil vahididir və onların sayı bəllidir. Sözdən fərqli olaraq, sintaqm danışıq prosesinin gedişatında yaranır. Hər bir söz dildə əvvəlcədən məlum mənaya malik olduğu halda, sintaqm belə xüsusiyyətdən məhrumdur. Sintaqmın mənası danışıq aktında formalaşır və nitqin ümumi məzmunu ilə bağlı olur. Hər bir sintaqmın məna tərəfi ilə yanaşı, onun ifadə edən tərəfi də var. Sintaqmlar da sintaqmı əmələ gətirən elementlər sintaktik cəhətdən əlaqələnərək fonetik cəhətdən bölünməz bir bütövə çevrilir. Bütöv ümumilikdə nisbi bitmiş mənanı təmsil edir. Canlı danışığın məhsulu olan sintaqmlar müxtəlif nitq hissələrinin semantik, sintaktik və fonetik cəhətdən birləşməsi ilə əmələ gəlir. Qeyd edək ki, cümlələrin sintaqmlara bölünməsində semantik və sintaktik faktorlarla yanaşı, cümlədaxili fasiləyə riayət olunmasının da əhəmiyyəti böyükdür. Cümlənin intonasiya xüsusiyyətlərinin tərkib hissələrindən olan fasilə cümlələrin sintaqmatik üzvlənməsi zamanı sintaqmlar arasında meydana çıxır. Sintaqm fəal ünsiyyət prosesinin məhsuludur. Danışıq zamanı nitq axınının sintaqmlara ayrılması subyektiv şərtlərlə deyil, obyektiv dil normaları ilə müəyyənləşir. Sintaktik fonetikanın əsas mahiyyətini nitqin intonasiya quruluşu və onun intonasiya-sintaktik vahidlərə – sintaqmlara bölünməsi təşkil edir. Nitq axınının üzvlənməsindən əmələ gələn sintaqmların formalaşmasında və onların sərhədlərinin müəyyənləşdirilməsində fonetik vasitələri təmsil edən intonasiya və cümlə vurğusu da həlledici rol oynayır. Sintaqm dildə ünsiyyət vasitəsi kimi çıxış edən əsas faktorlardandır.

Sintaqm çərçivəsində intonasiya bölünməzdir (5, s. 128). Danışıqda sintaqm kimi təktərkibli cümlələr, subyekt, predikat, cümlənin əsas üzvlərindən biri, söz birləşməsi, frazeoloji vahidlər, atalar sözləri, çoxtərkibli sintaktik konstruksiyaların bir hissəsi çıxış edə bilir. Heca bir halda səsə, bir halda sözə, başqa halda şəkilçiyə uyğun gələ bildiyi kimi, sintaqm da nitqin deyiliş zamanı ayrılan hissəsi olub, sözə, söz birləşməsinə, cümləyə uyğun gələ bilir. Hecanı səs, söz, şəkilçi ilə eyniləşdirə bilmədiyimiz kimi, sintaqmı da söz, söz birləşməsi və cümlə ilə eyniləşdirmək olmaz. Söz sırası hər bir sintaqmın daxilindən irəli gəlir və onun mövcudluğunu təmin edir. Sintaqmın söz sırası, onun daxilində sözlərin düzülüşü danışıq prosesində sintaqmla birlikdə yaranır. Sintaqmın strukturuna dair vahid tələbat və qayda olmadığı üçün sintaqmların sintaktik strukturu müxtəlifdir. Sintaqm danışıq prosesində özündən kiçik hissələrə bölünməyən intonasiya vahididir. Bu vahidin əmələ gəlməsində və formalaşmasında intonasiyanın müxtəlif komponentləri cümlə vurğusu, fasilə, melodiya, temp fəaliyyət göstərir. Sintaqm fonetik xüsusiyyətlərinə görə sözdən fərqlənir və onunla müqayisədə daha mürəkkəb xarakterlidir. Sintaqmın formalaşmasında onun üçün xarakterik olan vurğunun rolunu qeyd etmək lazımdır. Sintaqmlar xüsusi ritmik vurğuya malik olur və bir-birindən pauza ilə ayrılır. Sintaqm nitq axınının özündən kiçik hissələrə bölünməyən danışıq vahididir. Sintaqmı vurğusu daşıyan sözün formativlik baxımından remanın daşıyıcısıdır.

İngilis və Azərbaycan dillərində parantezalı cümlələr özlərinə məxsus aksent-melodik strukturla səciyyələnir. Məsələn, As you see,/ I have 'rather small feet.

We shall 'go to the yard, I expect.

İngilis dilində xitablar üç mövqedə işlənir. Cümlənin əvvəlində işlənən mövqedə xitablar bir qayda olaraq vurğu daşıyır və əsas cümlədən fasilə ilə ayrılır. Bu mövqedə xitablar ayrıca sintaqm təşkil edir və müxtəlif tonlarla tələffüz olunur. Cümlənin əvvəlində işlənən xitablar bir sıra məna çalarları səciyyəvidir (10, s.16). Məsələn, Children /'stop talking.

Cümlələrin son mövqeyində gələn xitablar əsasən vurğusuz olur və əsas cümlənin taktardı hecaları kimi çıxış edir. Məsələn, That's right, mr.Jones.

Cümlələrin ortasında xitabların işlənməsinə az təsadüf edilir. Cümlənin orta mövqeyində işlənən xitablarda da əsasən vurğusuz olur. Orta mövqedə gələn xitablar cümlənin birinci hissəsinə aid olur və birinci sintaqm taktardı hecaları kimi çıxış edir. Məsələn, And now my child,/ it's you 'went to bed.

İngilis dilində ara sözlərin ən çox işləndiyi mövqe cümlənin əvvəlidir. Cümlənin ön mövqeyində ara sözlər vurğulu olur və ayrıca sintaqm təşkil edir. Danışanın niyyətindən və şəxsi münasibətlərindən asılı olaraq ön mövqeli ara sözlər müxtəlif tonlarla tələffüz edilə bilər. Məsələn, Do you play chess?- Of 'course, /I do.

Bir qrup ara sözlər vardır ki, onlar əsasən cümlənin əvvəlində işlədilir. Belə ara sözləri şəxsi münasibət ifadə etməkdən çox ani fikirləşmək üçün, əsas fikri formalaşdırmaq üçün vaxt əldə etmək məqsədi ilə işlədilir. Bu növ ara sözlər ingilis dilində, giriş ifadələri, yaxud temporayzələr adlanır. Məsələn, Well, let me see, er-, you see.

İngilis dilində orta mövqeli ara sözlər bir qayda olaraq vurğusuz olur. Bu halda əsas cümlə melodik baxımdan iki sintaqma bölünür və bir sintaqm özünün aksent-melodik xüsusiyyəti ilə səciyyələnir. Orta mövqeli ara sözlər melodik baxımdan birinci sintaqma qoyulur və onun vurğusuz hecalarını təşkil edir. Birinci sintaqma hansı tonla deyilirsə, ara söz də o melodiyanı zəif halda davam etdirir. İkinci sintaqma isə müstəqil sintaqm təşkil edir və əsasən düşən tonla tələffüz edilir. Məsələn, You know, of course,/ he is my brother.

Cümlənin əvvəlində gələn ara sözlər bir qayda olaraq vurğulu olur, ayrıca sintaqm təşkil edir. Ən azı iki aksent mərkəzə malik olur. Ön mövqeli ara cümlələr tam, müstəqil fikir ifadə etmədiyindən onlar əsas cümlədən həm məna, həm də melodik baxımdan asılı olurlar. Odur ki, ön mövqeli ara cümlələr bir qayda olaraq, qalxan tonla tələffüz edilir . Məsələn, To' tell the truth, / I 'don't want to go there.

Cümlənin sonunda gələn ara cümlələr aksent-melodik baxımdan iki formada tələffüz edilə bilər. İki elementdən ibarət olan ara cümlələr son mövqedə əsasən vurğusuz olur və taktardı hecalar kimi əsas cümlənin melodik axınının istiqamətini davam etdirir (4, s.42). Məsələn, We shall 'go to the sea, I expect.

Parantezlərin dildə ən çox işlənən böyük bir qrupunu da müəllifin sözləri təşkil edir. Müəllifin sözü vasitəsiz nitqin əvvəlində, ortasında və sonunda gələ bilər. A 'man said: "Then 'have your answer". He said: "Are you tired?"

Cümlənin əvvəlində gələn müəllifin sözləri ilə ən çox alçaq qalxan ton işlədilir.

Cümlənin ortasında gələn müəllifin sözləri cümləni iki sintaqma bölür. Bu halda müəllifin sözləri birinci sintaqma daxil olur və vurğusuz olmaqla birinci sintaqmın melodik istiqamətini davam etdirir. Məsələn, Well, said the young man,/you may 'call it an 'accident.

Əgər son mövqedə müəllifin sözləri iki və bəzən də üç elementdən ibarət olarsa, bu halda müəllifin sözləri vurğusuz olur və əsas cümlənin melodik istiqamətini davam etdirir. Məsələn, 'Are you in a 'hurry? she said.

Əgər cümlənin sonunda müəllifin sözləri ikidən artıq sözdən ibarət olarsa, bu halda müəllifin sözləri zəif vurğu ilə tələffüz edilir. Məsələn, "Come here!" she ordered in a sharp 'voice (6, s.148).

Tərkibində bir neçə həmcins üzv olan nəqli cümlələrdə həmcins üzvlərin hər biri ayrıca sintaqm yaradır və bitməmiş məna qrupları tərkibindəki həmcins üzvlər qalxan tonla, bitmiş məna qrupundakı (sonuncu) həmcins üzv enən tonla xarakterizə olunur. Məsələn, 'When 'winter comes,/ponds/'lakes/' rivers and 'streams/ are frozen.

Cümlə ortası və cümlə sonu mövqedə (nəqli cümlələrdə) işlənən əlavələr ayrıca məna qrupu yaradırlar. Cümlə ortası mövqedə işlənən əlavə qalxan tonla, son mövqedə işlənən əlavə isə enən tonla tələffüz edilir. Məsələn, We are now' in the 'heart of London, in Trálgar 'Square.

Sintaqmın daxilində olan sözlər semantik və qrammatik cəhətdən də əlaqəli olmalıdır. Bu isə o deməkdir ki, sintaqm ritmik, sintaktik və semantik cəhətdən bölünməz bir bütöv olmalıdır. Nitq üzvlənməsi daha çox fonetik səciyyə daşısa da, yəni tələffüz mexanizmi ilə bağlı olsa da, nitqimizin müxtəlif parçalara bölünməsində, başqa sözlə üzvlənməsində qrammatik-semantik amillərə əsaslanan qanunauyğunluqlar vardır.

Ədəbiyyat

1. Ağayeva F. Azərbaycan dilinin intonasiyası. Bakı, 1978.
2. Axundov A., Babayev S., Zeynalov F.H. İngilis və Azərbaycan dillərində vurğunun ritmik melodik xüsusiyyətləri. Bakı, Bakı Universiteti nəşriyyatı, 1996.
3. Aslanov F.M. Alman və Azərbaycan dillərində cümlələrin sintaqmatik üzvlənməsinin obyektiv və subyektiv təhlilinə dair. Azərbaycan Təhsil Nazirliyi. Ali məktəblərin Elmi əsərləri, 1979.
4. Бодуен де Куртенэ И.А. Изобранные труды и по общему языкознанию. М., Изд-во АНСССР, 1963, Т1.
5. Щерба Л.В. Языковая система и речевая деятелъностъ. Л., «Наука», 1974.
6. Palmer H.E. English Intonation with systematic exercises. Cambridge, 1924.

А.Г.Абдуллаева

Об отношении синтагмы к слову, комбинации слов, словосочетанию и предложению

Резюме

В статье рассматривается отношение синтагмы к слову, комбинации слов словосочетанию и предложению. В статье предпринята попытка изучить основные особенности синтагмы. Прежде всего анализируются типы синтагм и их использование в предложениях, содержащих обращения, вводные слова, обстоятельства, слова автора и приложения. Также изучалась тесная связь синтагмы с интонацией. В статье изучается отношение к понятию «синтагма» в трудах известных лингвистов.

A.G.Abdullayeva

On a relation of syntagm to the word, word combination and sentence

Summary

The article deals with the relation of syntagm to the word, word combination and sentence. In the article an attempt is made to study the main pecularities of syntagm. First of all, types of syntagm and their usage in the sentences containing vocatives, parentheses, adverbials, reporting phrases, appositions are analyzed. The close relation of syntagm with intonation has also been studied. In the article, an attitude to the notion of “syntagm” is studied in the works of the famous linguistics.

Rəyçi: filol.f.d., dos. K.A.Alırzayeva

Redaksiyaya daxil olub: 06.05.2021

R.İ.BAĞIROVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ALMAN DİLİNDƏ İŞLƏNƏN PARTİSİPLƏRİN ATTRİBUTİV XÜSUSİYYƏTLƏRİ
(Alman və Azərbaycan dillərinin müqayisəsi əsasında)

Açar sözlər: *attributiv funksiya, feili sifət, morfoloji əlamət, semantik əlaqə, universal xüsusiyyət.*
Ключевые слова: *атрибутивная функция, причастие, морфологический признак, семантическая связь, универсальное свойство.*
Key words: *attributive function, participle, morphological sign, semantical connection, universal feature.*

Alman dilində olduğu kimi, Azərbaycan dilində də partisiplər cümlə daxilində işlənərkən ilk növbədə onun hansı funksiyanı yerinə yetirdiyi və cümlədəki yerinin müəyyənləşdirilməsi məsələsi mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, partisiplər cümlədə attributiv, adverbial və predikativ funksiyalarda işlənə bilir. Bu məqalədə partisiplərin attributiv cəhətdən işlənməsinə toxunulacaq. Aparılmış tədqiqatlardan məlum olur ki, alman dilində partisiplər təyin funksiyasını yerinə yetirərkən sifətə xas qrammatik kateqoriyaların əlamətlərini qəbul edir. Təyinolunanın qarşısında işlənən feili sifət onun cinsini, halını, kəmiyyətini bildirir. Məs.: *Man müsste den störenden Entfernungsfaktor zwischen uns irgendwie ausschalten können* (*Aramızdakı mane olan məsafə faktoru bir təhər aradan götürülə bilər*) (10, s.44).

Nümunədə verilmiş cümlənin təhlili göstərir ki, attributiv funksiyada işlənən partisiplər Azərbaycan dilində təyin kimi ifadə olunur. „Störenden" partisipi „Entfernungsfaktor" tamamlığının təyini kimi çıxış edir. Bu vəziyyətdə partisip I ismin qarşısında işlənərək sifət kimi zəif hallanmış və ismin təsirlik halında işlənmişdir. Həmin birləşməni ismin digər halları üzrə də hallandırmaq olar. Məs.:

N. der störende Entfernungsfaktor
G. des störenden Entfernungsfaktors
D. dem störenden Entfernungsfaktor
Akk. den störenden Entfernungsfaktor

„Störende" feili sifəti müəyyən artikellə isim arasında işləndiyindən sifətin zəif hallanması kimi hallanmışdır. Bu vəziyyətdə „störende" partisipi I-i daha çox sifətə yaxınlaşmışdı. „Entfernungsfaktor" ismindən əvvəl işlənən „störende" partisip I-i həmin ismin hərəkətlə ifadə olunan əlamətini göstərir. Əlbəttə, burada hərəkətlə ifadə olunan əlamətin indiki zamanla əlaqəli olduğu da əks olunur. Sifətə xas xüsusiyyətləri öz üzərinə götürən bu partisip „Entfernungsfaktor" isminin təyinedicisi kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, alman dilində feili sifət aid olduğu ismin qrammatik xüsusiyyətlərini bildirmək üçün müxtəlif şəkilçilər qəbul etdiyi halda, Azərbaycan dili üçün bunlar səciyyəvi deyil, yəni ismin qarşısında işlənən feili sifət dəyişməz olaraq qalır. „Störenden" partisipi Azərbaycan dilinə tərcümə edilərkən (mane olan) təyin olunan sözlərin qarşısında işlənərək heç bir formal dəyişikliyi əks etdirən şəkilçi qəbul etmir. Təyin olunan isimlər isə müxtəlif hallarda işlənərək (məsafə faktoru) müəyyən hal şəkilçilərini qəbul edir. Bu forma Azərbaycan dili üçün xarakterikdir.

Alman dilində işlənən istər prezens, istərsə də perfekt partisiplər attributiv kimi işlənərkən Azərbaycan dilində feili sifətlə ifadə olunur. Məs.: *Auf der Straße gingen noch Leute mit schwenkenden Fahnen von der Parade nach Hause* (*Küçədə hələ də insanlar dalğalanan bayraqlarla paraddan evə gedirdilər.*) (13, s.167).

Bu cümlədə işlənən „schwenkenden Fahnen" ifadəsindəki „schwenkenden" partisipi „schwenken" feilindən düzəlmişdir və „bayraqlar" sözünü təyin edir, onun hərəkətlə ifadə olunan əlamətini müəyyənləşdirir. Cümlədə ifadə olunan hərəkət (gingen) keçmiş zamanla bağlı (Imperfekt) olduğundan burada işlənən feili sifət indiki zamanda işlənsə də, o, keçmiş zamana aiddir. Cümlədə işlənən partisip I cəmdə yönlük halda işlənmişdir, çünki ondan əvvəl yönlük hal tələb edən sözönü (mit) işlənmişdir. Həmin cümlənin Azərbaycan dilinə transformasiyasından aydın olur ki, Azərbaycan dilində „dalğalanan" feili sifəti „bayraqlar" təyin olunanını təyin edir və sözün işlənməsində heç bir formal dəyişiklik baş vermir, kəmiyyət xüsusiyyətini bildirmək üçün heç bir əlavə morfoloji əlamət qəbul etmir. Kəmiyyətə və hala görə təyin olunan isim dəyişir. Azərbaycan dilindən fərqli olaraq alman dilində təyin olunanla birlikdə təyin edən də cəm formada işlənir.

Bundan başqa alman dilində Azərbaycan dilindən fərqli olaraq cins kateqoriyası mövcud olduğundan bu xüsusiyyət dildə müxtəlif vasitələrlə ifadə olunur. Daha doğrusu, ismin cinsini bildirən artikel və yaxud onu əvəz edən sözlər işlənmədikdə bu funksiyanı həmin ismin təyinedicisi kimi çıxış edən partisip yerinə yetirir. Məs.: *Clara sah Kerschenbaums erschrockenes Gesicht* (*Klara Kerşenbaumun qorxmuş sifətini gördü*.) (11, s.11).

Bu cümlədə işlənən „erschrockenes" „erschrecken" feilinin partisip II formasıdır. O, „Gesicht" isminin önündə işlənərək onun orta cinsə mənsub olduğunu göstərir. Bu xüsusiyyət partisip II-nin qəbul etdiyi „-es" şəkilçisi ilə ifadə edilir. Təyin olunanın cinsini bildirməklə yanaşı, həmin şəkilçi vasitəsilə partisip II „Gesicht" isminin təsirlik halda işlənərək tamamlıq funksiyasında işləndiyini bildirir.

Perfekt partisipdə işlənən „erschrockenes" təyinolunanın hərəkətlə ifadə olunan əlamətinin keçmiş zamana aid olduğunu göstərir. Cümlədə əsas feil kimi hökm ifadə edən „sah" feili də imperfekt keçmiş zaman formasında işlənmişdir.

Ümumiyyətlə, təhlillərdən məlum olur ki, feili sifətlərdə hərəkət məzmunu vardır. Lakin feil ilə feili sifətdəki hərəkət məzmununu eyniləşdirmək olmaz. Həsən Mirzəyev haqlı olaraq qeyd etmişdir ki, feillər əşyanın hərəkətini hökm yolu ilə bildirdiyi halda, feili sifətlər əşyanın hərəkətini əlamətləndirmək yolu ilə bildirir, çünki feili sifətlərdəki hərəkət əlamət anlayışı ilə eyni vaxtda özünü göstərir (3, s.52).

Yuxarıda qeyd etdiyimiz nümunələrdə attributiv kimi işlənən partisip I və partisip II-lər mübtəda və tamamlığın təyini kimi işlənmişdir. Bununla yanaşı attributiv partisiplər həm də zərflik funksiyasını yerinə yetirən cümlə üzvünün təyinedicisi kimi çıxış edə bilir. Məs:.

Ich blieb erstarrt im begossenen Bett liegen und überlegte (*mən islanmış çarpayıda donmuş vəziyyətdə uzanib fikirləşirdim*.) (10, s.11).

Bu cümlədə işlənən „im begossenen Bett" birləşməsində „begossenen" „begießen" (islanmaq) feilinin perfekt partisipi formasıdır və feil ayrılmayan ön şəkilçili olduğundan morfoloji əlamətlərdən biri, yəni sözün əvvəlinə artırılmalı olan „ge-" prefiksi işlənməmişdir. O, özündən sonra işlənən „Bett" sözü ilə semantik və sintaktik əlaqədə olub, onu izah edir. Çarpayının hansı olduğu məhz „begossenen" perfekt partisipi ilə dəqiqləşmişdir. „Çarpayıda" ismi „harada?" sualına cavab verir və hərəkətin baş vermə məkanını bildirir: Deməli, „begossenen" partisipi qeyd olunmuş cümlənin sintaktik strukturunda yer zərfliyinin təyinedicisidir. Cümlədə əsas feilin zamanı ilə partisipin bildirdiyi zamanı müqayisə etdikdə aydın olur ki, perfekt partisipdə işlənən hərəkət əsas feilin hərəkətindən nisbətən əvvəl baş vermişdir. „Begossenen" partisip II-i cümlədə predikativ qrupun tərkib hissəsidir.

V.Yunq hesab edir ki, partisip II cümlədə ifadə olunan hərəkətlə müqayisədə əvvəl baş verir. Məs.: *Die angekommenen Gäste wurden begrüßt. – Gəlmiş qonaqları salamladılar* (7, s.210).

Bu cür cümlələr alman dilindən Azərbaycan dilinə tərcümə edilərkən alman dilindəki fərqli xüsusiyyətlər burada da özünü göstərir. Bu da o deməkdir ki, qonaqların gəlişi ilə bağlı hərəkət onların salamlanmasından əvvəl baş vermişdir.

Y.V.Qulıqa, M.D.Natanzon qeyd edirlər ki, alman dilində təyin kimi işlənən feili sifət həm də keçmiş zamanla bağlı ola bilər. Məs.:

Die Mutter beobachtet spielende Kinder. – Ana oynayan uşaqları müşahidə edir.

Die Mutter beobachtete spielende Kinder. – Ana oynayan uşaqları müşahidə edirdi. (5, s.98).

Bu tipli cümlələrin Azərbaycan dilində ifadəsindən məlum olur ki, partisip I Azərbaycan dilində yalnız indiki zamanla ifadə olunur. Zaman fərqi yalnız cümlədə işlənən təsriflənən feilin zamanı ilə müəyyənləşir.

Alman dilində partisip I çox vaxt cümlədə feilin valentini idarə edir. O, feil kimi cümlə yarada bilir. Daha doğrusu, bu cür birləşmələr alman dilində feili sifət konstruksiyaları adlanır (4, s.162). Azərbaycan dilində isə belə konstruksiyalar iki formada, yəni feili sifət və feili bağlama konstruksiyaları kimi transformasiya olunur. Məs.:

Mein Freund wohnte damals in Berlin.

Mein damals in Berlin wohnender Freund//

Mein Freund, damals in Berlin wohnend, ...

Azərbaycan dilində tərcümədə birinci və ikinci ifadələr olduğu kimi verilir. Üçüncü ifadə isə ya feili sifət tərkibi, ya da əlavə kimi tərcümə edilir. Onu da qeyd etmək lazımdır ki, partisipli konstruksiyalarda feilin subyekti olmur. Məs.:

Peter las, auf der Treppe sitzend, in einem kleinen Buch.

Man fand Peter auf der Treppe sitzend.

Birinci cümlədə əsas hərəkəti ifadə edən feil kimi „las” çıxış edir. Xəbər funksiyasını yerinə yetirən həmin söz özündən əvvəl duran „Peter” aktantı ilə semantik və sintaktik əlaqədədir. Partisip konstruksiyasını yaradan „sitzend” partisip I-lə ifadə olunan hərəkətin subyekti yoxdur. Partisip konstruksiyalar cümlənin həcminin genişləndirilməsində xüsusi əhəmiyyət kəsb edir.

„Peter las in einem kleinen Buch” cümləsində ifadə olunan fikir əlavə olunan „auf der Treppe sitzend” partisip konstruksiyası ilə genişlənmişdir. „Auf der Treppe sitzend” cümlədə xüsusiləşmiş cümlə üzvü kimi çıxış etmişdir. Partisipin bu xüsusiyyəti ilə bağlı V.Admoni „Müasir alman dilinin sintaksisi” əsərində qeyd etmişdir ki, partisip konstruksiyalar xüsusiləşmiş təyin və predikativ təyin kimi geniş şəkildə işlədilir (4, s.163).

Aparılan tədqiqatlardan məlum olur ki, feilin məlum və məchul növünə görə təsirli feillərin partisip I-ni partisip II-yə qarşı qoymaq olar və bu vəziyyətdə partisip I-də aktivlik, partisip II-də isə passivlik özünü göstərir. Bu cür vahidlər Azərbaycan dilinə tərcümə edilərkən, hər iki partisip attribut kimi işlənir. Partisip I-də hərəkəti icra edənin fəallığını müəyyən etmək mümkün olsa da, partisip II-də hərəkətin icrası qeyri-mümkündür. Məs.:

der schreibende Schüler – yazan şagird

das geschriebenes Buch – yazılmış kitab

„Schreibende” indiki zamanla, „geschriebenes” isə keçmiş zamanla ifadə olunur.

Alman dilində inkarda işlənən partisipli cümlələri Azərbaycan dilində ifadə etmək üçün „-ma²” şəkilçisindən istifadə olunur. Məs.:

unbedeutend – mənası olmayan, əhəmiyyətsiz

unbeachtet – görünməyən, hiss edilməyən

unbeantwortet – cavabsız qalmış,cavablanmayan

Dil materialları əsasında aparılmış təhlillərdən aydın olur ki, alman dilində partisip I artıq başlamış və davamlı olan müəyyən prosesi bildirir. Məs.:

lachende Augen / gülən gözlər /

strahlende Sonne / parlayan günəş /

ein verleckendes Angebot / cəlbedici təklif / və s.

„Strahlende Sonne” birləşməsinin Azərbaycan dilində ifadəsində də „parlamaq” prosesinin başlandığı və bunun davam etdiyi bildirilir. Daha doğrusu, „günəşin” parlamasının

bitmədiyi, onun hələ də parıldayaraq təsir göstərdiyini bildirir. ,,Strahlende" feili sifəti təyin etdiyi təyin olunanın qadın cinsinə aid olduğunu, onun adlıq halında işləndiyini göstərir. Bu dil hadisəsinin alman dilində necə işləndiyini tanınmış alman dilçisi V.Şmidt özünün ,,Alman dilinin qrammatikasının əsasları" əsərində partisip I-in hərəkətin başlandığını və davamlı olduğunu qeyd etmişdir. (*Das Partisip I einen Prozess bezeichnet, der schon begonnen hat und eben durch einen Ablauf wirkt....*) (8, s.236).

Göstərilən nümunələrdən ,,lachende" partisip I-i ,,Augen" isminin, ,,strahlende" partisip I-i ,,Sonne" isminin, ,,verlockendes" partisip I-i isə ,,Angebot" isminin hərəkətlə ifadə olunan əlamətini bilidirir.

Attributiv kimi işlənən partisip II təyin olunanından sonrakı mövqedə işlənərkən məchul mənanın ifadə olunmasını bildirir. Məchul mənasını ifadə edən partisipli cümlələr Azərbaycan dilində keçmiş zaman feili sifəti şəklində ifadə olunur. Şübhəsiz ki, Azərbaycan dilində cümlənin strukturu fərqli formalaşır. Daha doğrusu, partisip Azərbaycan dilində təyin olunandan sonra deyil, əvvəl işlənir.

,,Ein Buch, aufgeschlagen auf der ersten Seite, lag auf dem Tisch" cümləsini təhlil edən Y.Şendelsin fikri də qeyd olunanları təsdiq edir (7, s.112). Onun bu cümləsini Azərbaycan dilində ifadə etmiş olsaq, aşağıdakı variantdan istifadə etmiş olarıq. Məs.: *Birinci səhifəsi açılmış kitab stolun üstündə idi.*

Burada təyin olunanın əlaməti kimi onun birinci səhifəsinin açıq olduğu göstərilir və ,,birinci səhifəsi açılmış" feili sifət tərkibi ,,kitab" isminin qarşısında işlənmişdir.

Feili sifətlərin ifadə etdikləri zaman münasibəti cümlədə işlənən təsriflənən feilin zamanından çıxış edilərək müəyyənləşmişdir. Alman dilində təyin kimi işlənən feili sifətlər qəzet məqalələrinin başlığı kimi işlənərkən isim kimi tərcümə edilir. Bu cür ifadə başlığın ifadəli səslənməsinə səbəb olur. Məs.:

,,Steigende Wollpreise" feili sifətli birləşməni Azərbaycan dilində ifadə etmək üçün ,,yun qiymətində artım" birləşməsindən istifadə olunur. Bunun əvəzində ,,yunun artan qiyməti" birləşməsinin işlənməsi o qədər də yaxşı səslənmir.

Alman dilində işlənən ,,der Bekannte", ,,der Gelehrte", ,,der Verwandte" kimi isimləşmiş partisiplər də sifət kimi hallanır. Qeyd edək ki, həmin partisipli cümlələr Azərbaycan dilinə tərcümə edilərkən partisiplər isim kimi hallanırlar. Məs.:

Mən istərdim ki, bizi izləyənlərə kim olduğumu anladım (9, s.212).

Azərbaycan dili materialından götürülmüş bu nümunəldə işlənmiş ,,izləyənlərə" feili sifəti isimləşmişdir və o, isim kimi cəmlənir və hallanır. Məs.:

Der Alte Amtmann kam auf die Nachricht hereingesprengt, er küsste den Sterbenden unter den heißesten Tränen (12, s.166).

Burada işlənmiş ,,der Sterbende" partisipi isimləşib və sifətin zəif hallanması üzrə hallanıb.

Nümunələrdən məlum olur ki, müqayisə olunan hər iki dildə partisiplər isimləşə bilir, lakin onların işlənmə qaydaları fərqlidir. Alman dilində isimləşən partisip sifət kimi, Azərbaycan dilində isə isim kimi hallanır. Attribut kimi işlənən feili sifətlərin müqayisə olunan dillərdə müqayisəsindən aydın olur ki, partisiplər bu funksiyada hər iki dildə işlənir və bu funksiya hər iki dil üçün partisiplərin universal xüsusiyyəti hesab olunur.

Ədəbiyyat

1. Cəfərov C., Abdullayev N. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı: ADPU-nun mətbəsi, 2004.

2. Fəxrəddin Y. German dilçiliyinə giriş. Bakı: Təhsil, 2003.

3. Mirzəyev H.İ. Azərbaycan dilində feili sifət və təsirli-təsirsiz feillər. V cild, Bakı: Elm nəşriyyatı, 2006.

4. Адмони В.Г. Синтаксис современного немецкого языка: Система отношений и система построений. Л.: Наука, 1973.

5. Гулыга Е.В., Натанзон М.Д. Грамматика немецкого языка. М: 2008.
6. Jung W. Grammatik der deutschen Sprache. 2. Auflage, Leipzig. Max Hueber Verlag 1967.
7. Schendels E. Deutsche Grammatik. Morphologie, Syntax, Text. M.: Vissaja skola, 1979.
8. Schmidt W. Grundfragen der deutschen Grammatik. Eine Einfuhrung in die funktionale Sprachlehre. Berlin: Volk und Wissenvolkseigener Verlag, 1966.
9. Elatlı E. Görünməyən izlər. Roman, Bakı: Elgün Nəşriyyatı, 2013.
10. Böttcher B. Megaherz. Hamburg: Rotbuch Verlag, 2004.
11. Friedrich S. İmmerwahr. Roman, München: Deutscher Taschenbuch Verlag, 2007.
12. Goethe J.W. Die Leiden des jungen Werthers. Frankfurt am Main: Insel Verlag, 1982.
13. Handke P. Der kurze Brief zum langen Abschied. Taschenbuch, I Auflage, Frankfurt am Main: 1974.
14. Müller H. Herztier. Roman, 4.Verlage, Frankfurt am Main: Fischer Taschenbuch Verlag, 2009.

Р.И.Багирова

Атрибутивные особенности причастий в немецком языке
(На основе сравнения немецкого и азербайджанского языков)
Резюме

В азербайджанском и немецких языках важно определить функцию причастия и его место в предложении. Причастие в предложении может использоваться как определение, обстоятельство и функция предиката в рамках предложения. В немецком языке причастие принимает особые грамматические категории прилагательного, выполняя функцию определения. Глагол, находящийся после существительного, показывает его пол, статус и количество. В отличие от немецкого, для азербайджанского языка это не характерно, т.е. прилагательное использованное, перед существительным остается без изменений. Однако обозначенные существительные употребляются по-разному в обоих языках и принимают падежные окончания.

Когда глагол выражается прилагательным, его роль в предложении определяется временем описываемого глагола. Глагольные прилагательные, которые используются как определение, это особенность причастий двух языков.

R.I.Bagirova

Attributive features of participles in German
(Based on the comparison of German and Azerbaijani languages)
Summary

In the Azerbaijani and German languages, it is important to determine the function of the participles and their place in a sentence. Particles can be used in attributive, adverbial and predicative functions within a sentence. In German, participles take on the features of adjective-specific grammatical categories while performing the function of designation. The verb used in front of the nominee indicates his gender, status, and quantity. Unlike the German language, these are not typical for the Azerbaijani language, i.e. the adjective used before the noun remains unchanged. However, designated nouns are used in different ways in both comparable languages and adopt certain case suffixes.

When a verb is expressed by adjectives, its relation is determined by the time of the described verb used in the sentence. The naming of verb adjectives, which is used as an attribute, is a universal feature of participles for both languages.

Rəyçi: filol.f.d., dos. Ş.V.Aslanova

Redaksiyaya daxil olub: 09.03.2021

G.V.ƏHMƏDOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ALMAN DİLİNDƏ TƏYİN BUDAQ CÜMLƏLƏRİNİ FORMALAŞDIRAN VASİTƏLƏR

Açar sözlər: *mürəkkəb cümlə, tabeli mürəkkəb cümlə, baş cümlə, budaq cümlə, təyin budaq cümləsi, bağlayıcılar, nisbi əvəzliklər.*

Ключевые слова: *сложное предложение, сложноподчинённые предложения, относительные придаточные предложения, главное предложение, придаточное предложение, союзы, относительные местоимения.*

Key words: *compound sentence, complex sentence, main clause, subordinate clause, relative clauses, the conjunctions, relative pronouns.*

Təyin budaq cümlələri baş cümlədəki hər hansı bir üzvün müfəssəl təyin edilməsinin ifadəsinə xidmət edir. Təyin budaq cümləsinin birləşdirici vasitələri kimi *der,die, das; welcher, welche, welches nisbi əvəzlikləri; wer, was, wo, wohin, warum, wie, wieweit, worüber, womit və s.* kimi nisbi zərflər (Realativadverbien) çıxış edir. Həmçinin *vieles, manches, etwas, nichts, alles* kimi sözlər də isimləşmiş sifətlərlə təyin budaq cümləsi yarada bilir. Məsələn,

/etwas Schönes, das dich erfreuen könnte/
/səni sevindirə bilən gözəl bir şey/
/nichts Wichtiges, was dich interessieren könnte/
/səni maraqladırmayacaq vacib heç bir şey/
/vieles Interessantes, was du erlebt hast/
/sənin yaşadığın çoxlu maraqlı şey/
/Es ist genau dies, womit ich rechne/
/Bu onun ümid etdiyi şeydir/
/Das gerade der Fall, worüber ich mich sehr freue/
/Bu mənim sevinəcəyim həmin haldır/

O.Moskalskaya ismin eləcə də əvəzliyin hansı sintaktik funksiya yerinə yetirməsindən asılı olaraq təyin budaq cümlələrin aşağıdakı modellərini fərqləndirir (1, səh. 321):

$$(S(S - P) - P);\ (S\ cop - P_s\ (S - P));\ (S - P - O_s\ (S - P));$$
$$\uparrow___| \qquad \uparrow\ _| \qquad \uparrow___|$$
$$(S - P - Umst_s\ (S - P))$$
$$\uparrow_____|$$

O.Moskalskaya qeyd edir ki, təyin budaq cümləsi hər hansı isimləşmiş təyinə tabe ola bilər (1, səh. 321):

$$(S - Attr\ (S - P) - P);\ (S\ cop\ P_s - Attr\ (S - P))$$
$$\uparrow \quad | \qquad \uparrow \quad |$$

Alman dilində "həqiqi" və "qeyri-həqiqi" təyin budaq cümlələri fərqləndirilir (2, s. 265). Belə ki, Y.Frey qeyd edir ki, "həqiqi" təyin budaq cümlələrinin fərdiləşdirilmiş korrelyatı var və o, öz təyin etdiyi sözü eyni cinsdən olan digər əşyalardan fərqləndirir (2, s. 266). Son olaraq məfhumun əsasında digər interpolasiyalı semantik bağlılıq kriteriyası durur.Y.Freyin fikrincə, budaq cümləsiz baş cümlə heç bir məna daşımazdı. Buna görə də, təyin budaq cümləsi bu mənada kənara atıla bilməz. Hər bir "həqiqi" təyin budaq cümləsinin */der/, /derjenige/, /ein solcher/* müəyyən əvəzlikləri ilə işlənməlidir.

"Qeyri-həqiqi" təyin budaq cümlələrində budaq cümlə kənarlaşdırılsa belə, məna kəsb edir (2, s. 266). Bununla bağlı Y.Frey qeyd edir ki, budaq cümlənin əsasında duran fikir həmçinin baş cümlə formasında da ifadə edilə bilər. Belə ki, bu halda budaq cümlə müəyyən fikir üçün xarici bir formadır və özündə əsas fikri daşıyır. Ona görə də bu təyin budaq cümlə "qeyri-həqiqi" təyin budaq cümləsi adlanır (2, s. 267). Belə ki, bura */was/* ilə başlayan təyin budaq cümlələr aid edilir. F.Bauerin fikrincə, */der/, /derjenige/* əvəzlikləri ilə başlayan təyin budaq cümlələri də bəzi hallarda "qeyri-həqiqi" təyin budaq cümlələri kimi qəbul edilə bilər. Bu zaman bu bağlayıcılar təkcə bir sözə deyil, bütöv baş cümləyə aid olur (2, s. 267). Məsələn: */Versäumt die Zeit nicht, die gemessen ist/* (Nicht */diejenige Zeit, welche gemesen ist/* sondern */denn sie ist gemessen/*)

G.Helbiq qeyd edir ki, alman dilində təyin budaq cümlələri bir mənalı şəkildə ayrmaq olmur, çünki onlara həm "vasitəli sual cümlələri" həm də bağlayıcılı budaq cümlələrlə "kəsişmələrə" malikdirlər (3, s. 508). Bu budaq cümləni yaradan sözdən asılıdır. Bu dilçi öz fikrini aşağıdakı nümunələr vasitəsilə aydınlaşdırır. Məsələn:

a) /Er hat das Buch gekauft, das er sich wünscht//
/O, arzuladığı kitabı aldı//
b) /Er hat das Buch gekauft, auf das er gewartet hat//
/O, gözlədiyi kitabı aldı//
c) /Er hat alles bekommen, was er gewünscht hat//
/O, özünə arzuladığı hər şeyi əldə etdi//
d) /Er hat alles bekommen, worauf er gehofft hat//
/O, ümid etdiyi hər şeyi əldə etdi//
e) /Ich fühle mich da zu Hause, wo meine Freunde sind//
/Mən özümü dostlarım olan yerdə evdəki kimi hiss edirəm//
f) /Kurt schenkte Hilde zum Geburtstag einen Ring, worüber sie sich sehr freute//
/Kurt Hildeyə ad gününə elə bir üzük bağışladı ki, o buna çox sevindi//

Təyin budaq cümlələrin "özəyini" şübhəsiz ki, nisbi əvəzliklərlə (sözönlü və ya sözönsüz) düzələn budaq cümlələr təşkil edir (3, səh.508). G.Helbiq hesab edir ki, (a) və (b) cümlələri bura daxildir və ona görə də hər bir qrammatika kitabında ilk növbədə bu cümlələr təyin budaq cümlələri adı altında birləşir. İkinci təbəqəni isə (c) və (d) nümunələri təşkil edir. Belə ki, müəyyən şərtlər daxilində *das* və *was* bir-birilərini əvəz etməlidirlər və sözönüdən asılılığı şəraitində "əvəzlik zərfləri" ilə reallaşır. */Was/* tez-tez "ümumiləşdirilmiş nisbi əvəzlik" kimi, daha dəqiq deyilərsə "nisbi funksiyalı sual əvəzliyi" kimi və yaxud "sual əvəzliyi formasında nisbi əvəzlik" kimi ifadə olunur (3, s. 508). Bununla da artıq "təyin budaq cümləsi" və "vasitəli sual cümləsi"nin kəsişməsinin əsasında duran bölgü kriteriyalarının heterogenliyi ifadə olunur. Belə ki, bu halda interroqativlik formaya (w- formasına), realitivlik isə sintaktik funksiyaya əsaslanır. Üçüncü təbəqəni isə (e) cümləsindəki sözönlərlə başlayan nisbi əvəzliklər kimi sintaktik baxımdan eyni bir funksiyanı yerinə yetirən nisbi zərflər təşkil edir. Nisbi zərflər nisbi əvəzliklərdən əvəzlik zərfləri kimi hallanma xüsusiyyətinə malik olmaması ilə fərqlənir. Sözönü+nisbi əvəzlik və nisbi zərf işləndiyi zaman, bu yalnız baş cümlədəki təyin olunan sözün xarakterinə görə tənzimlənir (3, səh. 508). Nisbi əvəzliyin və nisbi zərfin ümumi funksiyası ona gətirib çıxarmışdır ki, əksər hallarda hər iki qrup təyin budaq cümlələrinin növləri - sintaktik funksiyanın eyniliyi eyni zamanda forma eyniliyi mənasını verməməyindən asılı olmayaraq - kimi nəzərdən keçirilir. Belə ki, nisbi zərflər zamanı söhbət "nisbi funksiyalı sual zərfləri"ndən gedir. Nisbilik burada özünü bağlayıcının formal xarakterinə deyil, sintaktik funksiyaya aid olan bir termin kimi göstərir (3, s. 508). Sintaktik funksiya "təyin budaq cümləsi" anlayışının genişlənməsini də nəzərdə tutur, ancaq onun hansı məna kəsb etməsi, hələ də praktik şəkildə yerinə yetirilməmişdir (3, s. 509). Dördüncü təbəqəni isə (f) cümləsindəki "nisbi bağlayıcılar" ilə olan genişlənmə təşkil edir və bunlar sintaktik olaraq nisbi əvəzliklərə (həmçinin sözönlü) uyğundur. G.Helbiq bu

zaman A.V.İsaçenkoya istinad edərək qeyd edir ki, o, burada "nisbi əvəzliklər"dən danışır. Bu ifadə ikinci hissədə yanlışlığa yol açsa da, o, ikinci hissədə formadan deyil, sintaktik funksiya nöqteyi-nəzərindən anlaşılır. "Təyin budaq cümlə"sinin formadan funksiya itiqamətindəki genişlənməsi birmənalıdır. Dördüncü təbəqədə genişlənmə həmçinin funksiyanın forma üzərindəki dominantlığı o qədər uzağa gedir ki, təyin və bağlayıcılı cümlələrin fərqləndirilməsində suallar meydana çıxır. Bağlayıcılarla düzələn təyin budaq cümlələrin qəbul edilməsi ya "bağlayıcılar ilə düzələn təyin budaq cümlələrin" kiçik bir qrupunun yaranmasına, ya da "nisbi əvəzliklər"ə daxil edilməsinə gətirib çıxarır (3, s. 509).

G.Helbiq təyin budaq cümlələrin statusunu müəyyən etmək üçün sintaktik birləşmənin növünü əsas götürür (3, s. 512). O, bu bölgüyə əsasən bağlayıcılı budaq cümlələri, təyin budaq cümlələri və "vasitəli sual cümlələrini" ayırır. Sintaktik birləşmə zamanı söhbət müstəqil bölgü prinsipindən getdiyini G.Helbiq aşağıdakı sadə nümunələr əsasında əyaniləşdirir. Məsələn:

a) Er ist nicht zur Arbeit gekommen, weil er krank ist.
← Er ist nicht zur Arbeit gekommen + weil + Er ist krank.
O, işə gəlmədi, çünki xəstə idi.
O, işə gəlmədi + çünki + O, xəstə idi.
b) Er kauft das Buch, das im Schaufenster liegt.
← Er kauft das Buch. Das Buch (=das) liegt im Schaufenster.
O, vitrində olan kitabı aldı.
O, kitabı aldı. Kitab vitrində idi.
c) Er fragt sie, wann sie kommt.
← Er fragt sie: "Wann kommst du?"
O, ondan (qadından) nə vaxt gələcəyini soruşdu.
O, ondan (qadından): "Sən nə vaxt gələcəksən?"

G.Helbiq qeyd edir ki, bağlayıcılı cümlənin sadə cümləyə çevrilməsi zamanı bağlayıcı heç bir üzv cümlədə saxlanılmır. O, hər iki üzv cümlə arasındakı semantik münasibəti ifadə edir. Təyin budaq cümlənin də sadə cümləyə çevrilməsi hər iki üzv cümlədə çevrilmədən əvvəl artıq mövcud olan və çevrilmə zamanı məcburi şəkildə isimlə əvəz olunan oxşar element tələb edir (3, s. 512). İsimlə əvəz olunan bu əvəzlik bir qayda olaraq baş cümlədəki təyin olunan sözə eyniləşdirmə münasibətini ifadə edir, ancaq bağlayıcılı cümlə zamanı isə bu hər iki üzv cümlə arasındakı semantik münasibəti ifadə edir (3, s. 513). Vasitəli sual cümləsindəki sual sözü isə nə baş cümlədəki referens eyniləşdirici sözü nə də üzv cümlələr arasındakı semantik münasibət növünü ifadə edir. Belə ki, o, sadə cümləyə çevrilmə zamanı da eyni qaydada qalır (3, s. 513).

K.Pitner və Y.Berman qeyd edirlər ki, təyin budaq cümlələrinin bir növü də müstəqil təyin budaq cümlələridir (121, s. 103). Onların fikrincə, sərbəst təyin budaq cümlələrinin təyin etdiyi söz yoxdur. Məsələn:

/Wer/Der lachen kann, hat mehr vom Leben//
/Həyatdan çox şey qazanan gülür //
/Wo er wohnt, ist es schön//
/Onun yaşadığı yer gözəldir//

Onlar qeyd edirlər ki, müstəqil təyin budaq cümləsi baş cümlədə olan cümlə üzvünü təyin edən budaq cümləyə də çevrilə bilər. Məsələn:

/Derjenige, der lachen kann, hat mehr vom Leben//
/Gülə bilən kəslər həyatdan çox şey qazanıblar//
/Dort, wo er wohnt, ist es schön//
/Onun yaşadığı yer gözəldir //

Bu müəlliflər daha sonra yazırlar ki, təyin budaq cümləsinin təyin etdiyi söz olduğu halda, müstəqil təyin budaq cümlələri özləri cümlə üzvü rolunda çıxış edirlər (4, s. 104). Belə

ki, */Wer/Der lachen kann, hat mehr vom Leben/* və */ /Wo er wohnt, ist es schön//* cümlələri mübtəda budaq cümləsi eləcə də yer budaq cümləsi, */Derjenige, der lachen kann, hat mehr vom Leben// və /Dort, wo er wohnt, ist es schön//* cümlələri isə əksinə olaraq təyin budaq cümlələridir. Belə ki, */derjenige, der lachen kann/* mübtəda funksiyasında, */dort, wo er wohnt/* isə yer zərfliyi funksiyasında işlənir. Maraqlısı odur ki, müstəqil təyin budaq cümləsi feil tərəfindən seçilmir, yalnız arqument ismi fraza ilə çıxış etdiyi zaman çıxış edir. Məsələn:

/Hans gewinnt//

/Hans qazanır//

/Wer etwas wagt, gewinnt//

/Risk edən qazanır//

K.Pitner və Y.Berman daha sonra qeyd edirlər ki, müstəqil təyin budaq cümləsinin digər bir xüsusiyyəti baş cümlədəki sözü təyin edən təyin budaq cümləsi kimi eyni bir sintaktik funskiyanı yerinə yetirməsidir (4, s. 104). Belə ki, */Wer/Der lachen kann, hat mehr vom Leben//* cümləsindəki wer eləcə də der nisbi əvəzliyi təyin budaq cümləsinin mübtədasıdır. Təyin budaq cümləsi isə öz növbəsində mürəkkəb cümlənin mübtədasıdır. */Wo er wohnt, ist es schön//* cümləsindəki nisbi zərf yer zərfliyinin funksiyasını, müstəqil təyin budaq cümləsi isə öz növbəsində mürəkkəb cümlənin yer zərfliyi funksiyasını yerinə yetirir.

Nisbiliyin daha çox sintaktik funksiya deyil, morfoloji formadan getməsini bu dilçilər aşağıdakı cümlə timlasında izah edirlər:

/Er macht, was ihm gefällt//

/O, xoşuna gələni edir//

Müstəqil təyin budaq cümləsi bu zaman təsirlik hal tamamlığı funksiyasında işlənsə də, */was/* nisbi əvəzliyi təyin budaq cümləsinin mübtədası rolunda çıxış edir. Belə ki, */was/* həm, adlıq həm də təsirlik halda dura bilər və beləcə təyin budaq cümləsinin mübtədası qismində və eyni zamanda təsirlik halda işlənə bilər (4, s. 105).

Alman dilində təyin budaq cümlələrin formalaşmasında müxtəlif bağlayıcılar çıxış edir. Bura *ob, daß, als, wenn, als ob, da, als wenn* və s. bağlayıcılar daxildir. Məsələn,

/die Frage, dass du kommst, ist entschieden/

/Onun gəlmə məsələsi qətidir/

/ich weiß nicht, dass du zu mir kommst/

/Mənim yanima gəldiyini bilmirəm/

/die Frage, ob du kommen darfst, ist noch nicht entschieden/

/Sənin gələ bilmək məsələn hələ qəti deyil/

/Wir haben die Hoffnung noch nicht aufgegeben, daß sich die politische Lage wieder verbessern wird//

/Siyası vəziyyətin yenidən düzəlməsi ilə bağlı ümiddən hələ əl çəkməmişik//

/Mich beruhigt die Tatsache, daß er so viel trinkt//

/Onun çoxlu içməsi məni narahat edir//

/Wir bekommen die Wohnung nur dann, wenn sie unterschreibt//

/O imza atdığı zaman biz mənzili alırıq//

/Am Tag, als der Schnee kam/

/Qar yağan gün/

/Eine Frisur, als ob man sie in Marmelade getaucht hatte/

/Sanki cemə batirilmiş saç düzümü /

Müstəqil təyin budaq cümləsindən fərqli olaraq, interroqativ cümlə və yaxud bağlayıcılı cümlə feil tərəindən seçilir (4, s. 104). Belə ki, interroqativ cümlə və bağlayıcılı cümlə feilin ismi fraza tələb etdiyi zaman işlənə bilməz. Məsələn:

/Hans gewinnt//

**/Dass Hans etwas wagt, gewinnt// (mümkün deyil)*

**/Warum Hans etwas wagt, gewinnt// (mümkün deyil)*

Biz təyin budaq cümlələrinin formalaşmasında nisbi əvəzlik və zərflərin habelə bağlayıcıların əsas rol oynadığını qeyd etmişdik. Müasir alman dilində *daß* bağlayıcılı təyin budaq cümlələri müstəsna olmaqla digər bağlayıcı vasitələrin işlənməsi də (*wo, wohin, wieweit və s.)* təsbit olunmuş faktlardandır. Alman dilində baş cümlələrdə işlənən qarşılıq sözlər (korrelyatlar) taraclaıcı, tənzimləyici faktorlar kimi təyin budaq cümlələrinin formalaşmasında əhəmiyyətli rol oynayır. Asindetik (bağlayıcısız) təyin budaq cümlələri də bu sistemdə özünəməxsus yer tutur.

E.Hentşel və H.Veydt qeyd edirlər ki, alman dilində təyin budaq cümlələri nisbi əvəzliklərlə, nisbi formada istifadə edilən sual əvəzliklərindən və *wo* ilə başlayan əvəzlik zərfləri ilə işlənir (5, s.383). Məsələn:

/Der Spion, der aus der Kälte kam/
/Soyuqdan gələn cəsus/
/Etwas, was ich noch sagen wollte/
/Mənim hələ demək istədiyim/
/Das, worum es geht/
/Söhbət getdiyi şey/

Onların fikrincə, bu cür budaq cümlələr təyin budaq cümlələrinin prototipləridir. E.Hentşel və H.Veydt həmçinin qeyd edirlər ki, alman dilində təyin budaq cümlələri bağlayıcılar vasitəsilə də düzələ bilər. Məsələn:

/Der Moment, als seine Mutter hereinkam/
/Anasının gəldiyi an/
/Der Gedanke, dass es zu spät sein könnte/
/Gec ola biləcək fikir/
/Die Frage, wie das Problem gelöst werden könnte/
/Problemin həll oluna bildiyi sual/

Bəzən alman dilində gərəkli və gərəkli olmayan (notwendige və nicht-notwendige Relativsätze) təyin budaq cümlələri fərqləndirilir. E.Hentşel və H.Veydtin fikrincə, bu zaman söhbət yalnız bağlayıcısız işlənən təyin budaq cümlələrdə tətbiq edilən sintaktik kriteriyadan gedir. Gərəkli təyin budaq cümlələrinə */Wer das sagt, macht sich schon verdächtig/ - /Özünü şübhəli aparan kəs bunu dedi/ Bunu o kəs dedi kiç o özünü şübhəli aparırdı/* kimi cümlələr aiddir (5, s. 384). Bu zaman həmçinin söhbət xatırladılmayan mübtəda budaq cümləsindən gedir. E.Hentşel və H.Veydt bütün budaq cümlələri baş cümlədə mümkün korrelyatın mövcudluğu əsasında təsvir edirlər və buna müvafiq olaraq da təyin budaq cümlələri müəyyənləşdirirlər . Bu zaman korrelyat "mənaca naqis isim" kimi çıxış edir (5, s. 385). Məsələn: */Dass du gekommen bist, freut mich// - /Sənin gəlməyin məni sevindirir//* kimi mübtəda budaq cümləsini /*die Tatsache/* korrelyatını artırmaqla */Die Tatsache, dass du gekommen bist, freut mich// - /Sənin gəlmə faktı məni sevindirir//* və yaxud /*das/* koerrelyatını artırmaqla */Dass du gekommen bist, das freut mich// - /Sənin gəlməyin məni sevindirir//* kimi təyin budaq cümləsinə, */Ich weiß, dass es in den Bergen schon schneit// - /Mən bilirəm ki, dağlarda artıq qar yağıb//* tamamlıq budaq cümləsini /*es/* korrelyatı artırmaqla */Ich weiß (es), dass es in den Bergen schon schneit// - /Mən onu bilirəm ki, dağlarda qar yağıb//* kimi təyin budaq cümləsinə və yaxud */Er kam, als alles längst vorbei war// - /Hər şey uzun müddət ötüb-keçəndə o, gəldi//* zaman budaq cümləsinə /*dann/* korrelyatı artırmaqla */Er kam (dann), als alles längst vorbei war// - /O, onda gəldi ki, hər şey üzun müddət ötüb-keçmishdi//* kimi təyin budaq cümləsinə çevirmək olar (5, s. 385).

Araşdırılmış fikirlərdən məlum olur ki, alman dilində təyin budaq cümlələrinin formalaşmasında nisbi əvəzliklərlə yanaşı, müxtəlif bağlayıcılar, nisbi zərflər çıxış edir. Müxtəlif dilçilərin fikirlərinə və nümunə gətirdiyi cümlələrə əsaslanaraq deyə bilərik ki, təyin budaq cümlələri alman dilində daha çox bağlayıcı inventarına malik budaq cümlələrdir.

Ədəbiyyat

1. Moskalskaya O. Grammatik der deutschen Gegenwartssprache. Moskau, 1983, 344 S.
2. Forsgren K. Satz, Satzarten, Satzglieder. Zur Gestaltung der deutschen traditionellen Grammatik von Karl Ferdinand Becker bis Konrad Duden 1830-1880. Nodus Publikationen, Münster, 1992, 319 S.
3. Helbig G. Bemerkungen zu den Relativsätzen (Als Subklasse der deutschen Nebensätze). In: Kleinere Schriften zur Grammatik. IUDICIUM Verlag GmbH, München, 2004, 1114 S.
4. Pittner K., Berman J. Deutsche Syntax. 3. aktualisierte Auflage, Gunter Narr Verlag, Tübingen, 2008, 200 S.
5. Hentschel E., Weydt H. Handbuch der deutschen Grammatik. 4., völlig neu bearbeitete Auflage. de Gruyter Studienbuch, Walter de Gruyter GmbH&Co, Berlin, 2013, 472 S.

Г.В.Ахмедова

Средства выражения определительных придаточных предложений на немецком языке

Резюме

Предложение – это минимальная единица общения, обладающая следующими признаками: коммуникативность, предикативность, модальность, относительная смысловая законченность, грамматическая и интонационная оформленность. Цельным предложением является и сложное предложение – единица высшего яруса синтаксического уровня. Сложное предложение реализуется в двух коррелятивных категориях: сложноподчиненном предложении и сложносочиненном предложении.

В статье анализируются источники лингвистики и мнения лингвистов в связи с определительного придаточного предложения в лингвистике. Здесь одновременно, дается информация о тех союзах, которые используются в построении определительных придаточных предложений на немецком языке. В том числе отмечается, что определительное придаточное предложение в силу своей способности предоставления широкой информации сравнивается с другими придаточными предложениями по своему содержанию.

G.V.Ahmedova

Means of expression of attributive subordinate clauses in German

Summary

A sentence is the minimal unit of communication, which has the following features: communicativeness, predicativity, modality, relative semantic completeness, grammatical and prosodic statefulness. A whole sentence is also a complex sentence - a unit of the higher layer of the syntactic level. The compound sentence is realized in two correlative categories: complex sentence and compound sentence.

The paper analyzes the sources of linguistics and the opinions of linguists in relation to the defining appendage sentence in linguistics. Here at the same time, information is given about those unions that are used in the construction of definitional appendage proposals in German. Among other things, it is noted that the determinative appendage proposal, because of its ability to provide wide-ranging information, is compared with other appendage proposals in its content.

Rəyçi: f.e.d., prof. S.Ə.Abdullayev

Redaksiyaya daxil olub: 27.04.2021

G.N.HÜSEYNOVA
dosent

K.İ.ƏLƏKBƏROVA
dosent

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

ONOMASTİK VAHİDLƏR BƏDİİ İFADƏ VASİTƏLƏRİ KİMİ

Açar sözlər: *onomastik vahidlər, bədii ifadə vasitələri, metonimiya, sinekdoxa.*
Ключевые слова: *ономастические единицы, средства художественного выражения, метонимия, синекдоха.*
Key words: *onomastic units, means of artistic expression, metonymy, synecdoche.*

Azərbaycan dilinin lüğət tərkibinin müəyyən bir qismini onomastik adılardan yaranan sözlər təşkil edir. Azərbaycan onomastik vahidləri əsasında yaranan sözlər bir çox sahələrə aid olduğu kimi bəziləri də dildə ifadə vasitələri kimi üslubi imkanlarda işlənir. Onlar nitqdə ifadəlilik, obrazlılıq yaradır, emosional çalarlara malik olur. Bu isə bir daha göstərir ki, dilimiz geniş və zəngin ifadəlilik, obrazlılıq imkanlarına malikdir.

Dildə leksik vahidlər kimi bu cür obrazlılıq yaradan sözlərin bir qismini təşkil edən onomastik adlardan törəyən terminlərə istənilən qədər rast gəlmək olur. Belə sözlər şəxs, yer adlarından və s. yaranır. Həmin leksik vahidlər isə real formada əfsanəvi planda işlənir. Sözlərin bir çoxu isə metafora, metonimiya, sinekdoxa və epitet şəklində özünü göstərir (2, s.56).

Əfsanəvi adlara əsasən, nağıl və dastanlarda, eləcə də xalq ədəbiyyatının başqa nümunələrində rast gəlirik. Məsələn, əjdaha, div, təpəgöz, Qırat, Dürat və s. bu kimi sözlər qədimdən bəri dildə formalaşmışdır.

Dini termin olan Əzrail məcazi mənada *qəddar, zalım* mənasında işlənir. Məsələn, *"... burada bizim xanım və onun oğlu kimi <u>əzraillər</u> yoxdur ..."* (M. İbrahimov).

O cümlədən *yezid* sözü də *zalım, qəddar, insafsız* mənalarında işlənir. Məsələn, *"Bu yezid oğlu yezid gərək gəlib mənim eşşəyimi aparaydı ki, başıma bu qədər qalmaqal gəlsin?"* (C. Məmmədquluzadə)

Astronomik adlardan da bədii ifadə vasitəsi kimi iştifadə edilir. Belə adlardan ibarət səma cisimlərini bildirən sözlərin hər birinin poetik üslubda işlədilməsi fikrimizi bir daha təsdiqləyir. *Qəmər, Şəms, Ay, Zöhrə, Ülkər* və s. bu kimi sözlər səma cisimlərinin adını bildirir və bədii ədəbiyyatda poetik üslubda işlənir. Şerdə bu adlar *gözəlliyi, ucalığı* və *ülvi* keyfiyyətləri göstərir, yəni müəllif müəyyən anlayışları öz təmizliyinə, gözəlliyinə görə çox zaman Aya, ulduza, Günəşə bənzədir. Məsələn:

<u>Günəş</u> camallısan, gül yanaq ilən
Mən incəlib yengi aya dönmüşəm. (M.P. Vagif)
<u>Ay</u> üzünü görmək istər sevdiyim,
Söylə görüm bəs yaşınmaq nədəndir? (Qurbani)

O cümlədən *günəşli* sözü məcazi mənada *xoşbəxt, fərəhli, işıqlı* deməkdir.

Göründüyü kimi onomostik vahidlər əsasında digər eln sahələrinə aid terminlər bu cür formalaşmışdır. Kosmonim terminlər hesab edilən *Səyyarə, Sürəyya, Sitarə* və s. bu kimi sözlərdəndir. *Sitarə, Səyyarə, Sürəyya* sözləri ilə bərabər *Qəmər, Zöhrə, Səadət* və s. adlar da ilk dəfə şəxs adı kimi formalaşmış, sonralar astronomik terminlərə çevrilmişdir. Bu terminlərdən Şərq poeziyasında olduğu kimi, Azərbaycan ədəbiyyatında da geniş istifadə olunur.

Həmin terminlər bədii dil vahidləri kimi – müqayisə, metafora, təşbeh və s. məqamlarda işlədilir.

Terminləşmiş onomastik vahidlər bədii əsərlərdə daha çox üslubi məqsədlərlə işlədilir. Məsələn, - *izm* şəkilçisinin şəxs adlarına artırılması bədii üslubda bəzən komik üslubi çalar yaradır. Məsələn:

"Biz əfsərizm, xıdırizm dövründə yaşayırıq" (S. Əhmədov).

Burada yazıçı sosializm dövrünün bəzi eybəcərliklərini xüsusi isimlərin (şəxs adlarının) ümumiləşməsi əsasında lağa qoyur. Yazıçı bu üsulla Əfsər, Xıdır kimi kolxoz sədrlərinin kənddə özbaşnalığını oxucuya çatdırır.

Dilimizdə tarixi və əfsanəvi şəxsiyyətlərin adlarından formalaşmış bir sıra sözlər də onomastik vahidlərdən yaranmış və işlənməkdədir. Belə sözlər yalnız metoforik və simvolik mənalarda işlənir. Məsələn, Firon – qədim Misir padşahlarına verilən addır. Bu ad məcazi mənada çox *zülmkar, qudurğan, harın adam* mənalarında işlənir. Məsələn, *O, Fironun biridir.* O cümlədən də Fironluq məcazi mənada *qudurğanlıq, lovğalıq, zülmkarlıq* kimi mənalarda işlənir. Nümunələrə diqqət yetirək: *Qurban kişi, daha durmaq vaxtı deyil, bu zalımı gərək cəzasına çatdıraq, bu qədər fironluq elədi, bəsdir.* (B. Talıblı)

Əflatun qədim Yunanıstanda ən böyük filosoflardan birinin adı olmuşdur. Bu ad məcazi mənada *filosof, nadir həkim* mənasında işlənir. Məsələn:

Onlar hər fəziləti və şərəfi pulda görür, yoxsul, Əflatun belə olsa, onların nəzərində heçdir. (A. Şaiq)

Danışıq dilində *Əflatun* bəzən *çoxbilmiş, hiyləgər, hərif* mənasında da işlənir.

Metonimiya da məcazın bir növüdür və əsas etibarilə əşya və hadisələrin qarşılaşdırılması sayəsində yaranır, yəni əşya və hadisələr arasında müxtəlif əlaqələrin mövcudluğu sayəsində meydana çıxır.

Metonimiyanın bir qismi də məkana görə yaranan sözlərdir. Belə xüsusiyyət bu və ya digər məqamlarda insanları bildirir. Bunu da ancaq mətn müəyyənləşdirir. Məsələn:universitet *əhvali-ruhiyyəsidir* kimi cümlədə *universitet* sözü metonimiya olmaqla orada işləyən və təhsil alan adamları bildirir. Başqa bir misal. *Salon canlandı* cümləsində *salon* sözü metonimiyadır və bu söz altında məkan anlayışı deyil, orada olan insanlar nəzərdə tutulur.

Çox vaxt bədii ədəbiyyatda təsadüf etdiyimiz şəxs və ölkə adları bildirən metonimiyalarda adamlar və xalq nəzərdə tutulur. Məsələn S. Vurğunun məhşur Azərbaycan şerində belə bir misranı nəzərdən keçirək:

Keç bu dağdan, bu arandan
Astaradan, Lənkərandan
Afrikadan, Hindistandan
Qonaq gəlir bizə quşlar,
Zülm əlindən qurtulmuşlar…

Burada *Astara, Lənkəran, Afrika* və *Hindistan* deyəndə həmin ölkə deyil, oradakı insanlar nəzərdə tutulur.

Metonimiya çox vaxt şəxs adları əsasında meydana gəlir. Bu cür metonimiyalar məntiqi əlaqələr nəticəsində yaranır.

Məsələn, *Şekspiri oxuyuram* və ya *Nizamini mütaliə edirəm* dedikdə *Şekspir* və *Nizami* metonimiyası onun əsərlərinin və yaxud da kitablarının adı əvəzinə işlənir. Və yaxud *Ü. Hacıbəyovu dinləyirəm* dedikdə onun operasını - musiqi əsərlərini dinləmək kimi işlədilir və s.

Bu cür nümunələrdən xeyli sayda göstərmək olar. Lakin dildə şəxs adları ilə əlaqədar metonimiyaların başqa bir növü də vardır ki, bu da xüsusi isimlərdən ümumi isimlərin düzəldilməsidir. L.M. Şetininin fikri ilə desək xüsusi isimlərin ümumi isimlərə meylliliyi çoxalır (5, s.26).

Məlumdur ki, belə xüsusiyyət hər cür xüsusi isimlərə məxsus deyildir. Buraya yazıçının yaratdığı obrazların xarakteri, tarixi şəxsiyyətlər və s. aid edilir.

Dünya ədəbiyyatında tanınmış bir çox qəhrəmanların adı bu baxımdn maraq doğurur. Məsələn, *Don Kixot* və *Don Juan* adlarından onlara xas olan sifətləri, keyfiyyətləri göstərmək üçün *donjuanlıq, donkixotluq* metonimiyaları işlənir. Məsələn: *Mollayevin donjuanlığını mən çoxdan bilirəm.* (M. Hüseyn)

Azərbaycan ədəbiyyatında məhəbbət rəmzi Leyli və Məcnun,Əsli və Kərəm, Fərhad və Şirin, xəsislik rəmzi Hacı Qara, Hacı Qəmbər, Məşədi İbad və s. adlardan formalaşan sözlər dildə xarakterik formada metonimiya funksiyası daşıyır.

Z. Budaqova haqlı olaraq göstərir ki, metonimiya insan və ya əşyaya verilmiş ad onların bəzi səciyyəvi əlamətlərini əks etdirə bilən sözlərlə əvəz edilir (3, s.32).

Bəzən də ölkə və şəhər adları azadlıq, bir sığınacaq rəmzi kimi verilir. Azərbaycan əvəzinə Odlar diyarı, Odlar yurdu, Odlar ölkəsi, Azəri ölkəsi; Amerika əvəzinə Yeni dünya; Kuba əvəzinə Azadlıq adası; Bakı əvəzinə Cənub şəhəri, küləklər şəhəri və s. kimi perifrazalar da işlədilir.

Ümumiyyətlə, xüsusi isimlərin ümumi isimlərə çevrilib metonimiya yaratması aydın şəkildə bir daha bunu sübut edir ki, onlar bədii ədəbiyyatda emosionallıq və ekspressivlik kəsb edir, dildə üslubi çalarlar yaradır (4, s.45).

Sinekdoxa da məcazın növlərindəndir, metonimiyanın bir növüdür. Dilimizdə leksik vahidlərin yaranmasında sinekdoxanın da müəyyən qədər rolu vardır. Dildə sinekdoxanın işlədilməsi ümumi bir cəmliyi bildirir və adətən dildə - *lar, lər* şıkilçisindən düzəlir. Bu şəkilçilər onomostik adlara artırılaraq yeni mənalar ifadə edir. Məsələn, bu şəkilçiləri şəxs adlarına artırdıqda dildə güclü ifadə, həm də təsvir vasitəsi yaradır. Məsələn:

Ol baxəbər olub necə əyanlar aşiqi,
Molla həbiblər, hacı qurbanlar aşiqi. (M.Ə. Sabir)

Şair burada *həbiblər* və *qurbanlar* sözlərində öz kinayəsini satira yolu ilə ifadə etmişdir.

Tacirlərimiz sonyalara bənd olacaqmış,
Bədbəxt tükəzbanları neylərdin, ilahi!

M.Ə.Sabir öz satirik şerlərində millətinin, xalqının qədrini bilməyənləri satira yolu ilə tənqid etməklə bəarabər, millət qədri, xalq qədri bilən binəvaların timsalında isə sinekdoxa yaratmışdır.

Sizdən əlhəq qəlbi-millət, ruhi-ümmət şad olur.
Binəva sabirlərin ancaq işi fəryad olur...

Hər hansı bir sahə, iş üzrə obrazların qəhrəmana və yaxud görkəmli bir şəxsiyyətə bənzədilməsi onların müsbət xarakterini aşkarlayır. Məsələn: Yurdumuz *Şah Abbaslar, Mübarizlər, Poladlar* neçə belə igidlər yurdudur. Burada Şah Abbasa, Mübarizə, Polada bənzər, onlar kimi qəhrəmanlar nəzərdə tutulur.

Hədsiz dərəcədə də sevgi və məhəbbətə mübtəla olnaları bildirmək üçün Məcnun adından, *Məcnunlar, məcnunlaşmaq, məcnunlaşdırılmaq* və s. sözləri işlənir.

Ümumiyyətlə, onomastik vahidlər əsasında yaranan sözlər bədii ifadə vasitələri olmaqla dildə ifadəlilik, obrazlılıq, məna dəqiqliyi və incəlikləri yaradır. Belə leksik vahidlər eyni zamanda lüğət tərkibini zənginləşdirməklə bərabər, onlar metafora kimi bədii obrazların yaranmasında mühüm rol oynayır, bəzi hallarda emosionallığa və ekspressivliyə də malik olur.

Ədəbiyyat

1. Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri. Bakı, 1992.
2. Adilov M., Paşayev A. Azərbaycan onomastikası. ADY, 1987.
3. Budaqova Z.Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1970.
4. Vəliyev K. Azərbaycan onomastikasına giriş. Bakı, 1978.
5. Шетинин Л.М. К вопросу о переходе собственных имен нарицательные, Сб. Исследования по английской лексикологи. Москва, 1961.

Г.Н.Гусейнова, К.И.Алекберова

Ономастические единицы как средство художественного выражения

Резюме

В статье рассматривается использование слов, образованных на основе ономастических единиц Азербайджана, как средства художественного выражения. Отмечается, что слова, образованные на основе ономастических единиц, как средство художественного выражения, создают в языке выразительность, образность, смысловую точность и тонкость. Такие лексические единицы не только обогащают словарный запас, но и играют важную роль в создании художественных образов, таких как метафоры, а в некоторых случаях обладают эмоциональностью и выразительностью.

G.N.Huseynova, K.I.Alakbarova

Onomastic units as means of artistic expression

Summary

The article discusses the use of words formed on the basis of onomastic units of Azerbaijan as a means of artistic expression. It is noted that words formed on the basis of onomastic units, as a means of artistic expression, create expressiveness, imagery, accuracy of meaning and subtlety in the language. Such lexical units not only enrich the vocabulary, but also play an important role in the creation of artistic images such as metaphors, and in some cases have emotionality and expressiveness.

Rəyçi: dos. T.Quliyev

Redaksiyaya daxil olub: 29.03.2021

N.M.İMANOVA
e-mail: nahide-adu@mail.ru

Azərbaycan Milli Elmlər Akademiyası
(Bakı şəh., H.Cavid pr., 31)

VİRTUAL DİLÇİLİYİN İKİNCİ VƏTƏN (QARABAĞ) MÜHARİBƏSİNDƏ ROLU

Açar sözlər: *müharibə, virtual, dilçilik, ünsiyyət, tvitter, diskurs, dil.*
Ключевые слова: *война, виртуальная, лингвистика, общение, твиттер, дискурс, язык.*
Key words: *war, virtual, linguistics, communication, twitter, discourse, language.*

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu ərazidə yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verilib. Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsinə çevrilmişdir (8).

Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında Birinci Qarabağ müharibəsindən sonra yaradılmış təmas xətti boyunca başladı. Bunun ardınca Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycan isə hərbi vəziyyət, komendant saatı və qismən səfərbərlik elan etdi. Türkiyə, bu dəstəyin dərəcəsi mübahisəli olsa da, Azərbaycana hərbi dəstək verdi.

Dünyadakı çoxsaylı münaqişələrin və müharibələrin gedişinə nəzər salsaq görərik ki, son nöqtəni güclü tərəf qoyur. Azərbaycan xalqının Qarabağ uğrunda 44 günlük Vətən müharibəsi buna ən yeni nümunədir. Ötən 17 ildə güc topladıq, düşmənin başını dəmir yumruqla vurub əzdik. Otuz il davam edən işğala, ədalətsizliyə 44 gündə son qoyuldu (9).

İkinci Qarabağ müharibəsi yalnız cəbhədə aparılmadı. Hər bir Azərbaycan vətəndaşı arxa cəbhədə müharibə üçün əlindən gələnin daha artığını etdi. O cümlədən, Bakı Ali Neft Məktəbinin müəllim və tələbə heyəti də cəbhədə vuruşan Azərbaycan əsgərlərinə, müzəffər Ali Baş Komandamız İlham Heydər oğlu Əliyevə yardım etmək üçün əlindən gələni əsirgəmədi. Müharibə müddətində onlar cəmiyyətin intellektual əsgərləri rolunda çıxış edərək ön cəbhəyə dəstək olmuşlar.

İkinci Vətən Müharibəsi zamanı virtual ünsiyyət ön planda oldu. İnternet ünsiyyəti artıq kütləvi informasiya vasitələrini aktivliyi, səmərəliliyi ilə arxada qoymuşdu. Azərbaycan vətəndaşları bu müharibə zamanı sosial şəbəkələrdən geniş istifadə etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətini öz net hesablarından, xüsusilə də rəsmi tvitter səhifəsindən çatdırırdı. Əsasən də işğaldan azad olunmuş torpaqlar haqqında məlumat, ön cəbhədə baş verənlər prezidentin tvitter hesabından aktiv şəkildə xalqa bildirilirdi.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin sabiq rəhbəri Hikmət Hacıyev də sosial şəbəkənin fəal istifadəçilərindən biri olaraq, xalqa cəbhə ilə bağlı lazımi məlumatı öz tvitter hesabından paylaşırdı.

Ali Baş Komandanın tvitter hesabından oxuyuruq:

The war is over. Nagorno Karabakh conflict already belongs to history. We have accomplished our historical mission. New opportunities have emerged today. Transportation options are among the primary opportunities. (Azərbaycan dilində tərcüməsi: Müharibə başa çatdı. Dağlıq Qarabağ münaqişəsi artıq tarixə məxsusdur. Biz öz tarixi missiyamızı yerinə

yetirdik. Bu gün yeni imkanlar meydana çıxıb. Nəqliyyat imkanları əsas imkanlar arasındadır) (10).

İndi isə Hikmət Hacıyevin tvitter hesabından oxuduğumuz məlumatı təqdim edək:

Panoramic view of completely destroyed Jabrayil city of Azerbaijan. Graves were vandalized and even bones for taken out during 30 years of occupation? How Armenia dares to speak about civilization or cultural values after such barbaric behavior? (Azərbaycan dilində tərcüməsi: Azərbaycanın Cəbrayıl şəhərinin tam dağıdılmış panoramik mənzərəsi. 30 illik işğalı zamanı qəbirlər xarab edildi və hətta sümüklər çıxarıldı? Bu cür barbar davranışdan sonra Ermənistan necə sivilizasiya və ya mədəni dəyərlər barədə danışmağa cürət edir?) (10).

Ünsiyyətin, o cümlədən virtual ünsiyyətin baş verməsi üçün məlumat olmalıdır. Virtual ünsiyyətin reallaşması dil vasitəsilə yazılı və şifahi formada həyata keçirilir. İstənilən dil vahidləri – cümlə, mətn, diskurs (yazılı və şifahi), dil vahidi olmayan vasitələr, məsələn, qrafemlər, qrafem birləşmələr, prosodik vasitələr, məsələn, heca vurğusu, intonasiya, fasilə və s. virtual informasiya daşıyıcısı hesab oluna bilər. Virtual ünsiyyət iştirakçıları kommunikasiya prosesində ünsiyyətin ikitərəfli olması üçün mütləq bu vasitələrdən birindən istifadə etməlidir (11, s.155). Baş verən ünsiyyətdə məna və məzmuna diqqət vermək lazımdır. Söz kiçik məna daşıyan vahid hesab olunur. Virtual ünsiyyət zamanı tək bir söz, tək bir işarə belə fikir yarada bilər (12, s.55).

Ünsiyyət zamanı interaktivlik əsas məsələlərdən biridir. Texnologiyanın psixoloji gücü olduqca güclüdür. Televizor, radio, mobil telefon, yaxud müasir dünyada daha ön planda olan tvitter, feysbuk və digər veb sahələr virtual ünsiyyətin reallaşmasında mühüm rol oynayır. Hər bir texniki kontekst öz linqvistik imkanlarını ehtiva edir və bu zaman interaktiv digital televiziyalar, interaktiv video yayımlar, interaktiv filmlər və s. də unudulmamalıdır. Yeni texnologiya özündə aktiv linqvistik nəticələri ehtiva etməyə qadirdir. 1990-cı illərdə mobil telefon sənayesi *qısa ismarıc (mesaj)* xidmətini (ingilis dilində *short message service*; abbreviated (SMS)) inkişaf etdirdi. Bu dünyada yeni bir inkişaf idi. Araşdırmalara görə, 2000-ci il avqust ayında mobil telefonlardan 8 milyon qısa mesaj göndərilmişdir. Bu rəqəm dekabr ayında 15 milyarda çatmışdı.

Web (World wide web) dünya şəbəkəsi yaradıcılarından olan Tim Berners-Li internet dilini belə ifadə edir: "situasiya və dil" (11, s.9). Situasiya və dil (internet dilinin müxtəlifliyi və zənginliyi) insanın vizual linqvistik həyatını veb səhifələrdə tam şəkildə əks edə bilir, yaxud buna qadirdir. Bir neçə dəqiqəlik veb brauzerlər (baxış) qrafik linqvistik mövcudiyyəti işıqlandırmağı bacarır. Bu zaman işlədilən mətnlərdə geniş həcmdə kəsilmiş xətti mətnlər ehtiva olunur. Bu mətnlər bir ölçülü diskursları əks etdirir, lakin bu çıxışlardakı kəsilmişlik, anlaşıqlılıq əsasən sözlər arasındakı fasilədən və mətnin cümlələrinin xətlərə və səhnələri bölünməsi ilə müşahidə olunur (3, s.79).

Məlumdur ki, mətn müəyyən yolla qaydaya salınmış, kommunikativ vəzifənin vahidliyi ilə birləşmiş cümlələr çoxluğu başa düşülür. Lakin iddia etmək olar ki, mətn məfhumunu birmənalı qəbul etmək olmaz. Bu anlayışa bir cümləni və sadə söyləmdən bütöv romana, novelə, poemayadək cümlələr qrupu daxil edilir. Bu zaman fərqli terminoloji vahidlərdən istifadə olunur. Ə.Abdullayev yazır ki, mətnin formalaşması zamanı semantik yanaşma sintaktik yanaşmaya nisbətən daha adekvat təsəvvür olunur. Bu yanaşma çərçivəsində yerinə yetirilmiş bir çox tədqiqatlarda əsaslı qüsurlar var. Bu da o anlama gəlir ki, mətnin xətti bağlılığı iki cümlənin qarşılıqlı münasibəti kimi dərk edilir, lakin əslində isə mətndə kontakt təmaslı və məsafəli frazalararası əlaqə mövcuddur.

K.Abdullayev mətnin xəttiliyinin əhəmiyyəti belə ifadə edir: "Qeyd etmək lazımdır ki, əlaqəli cümlələrin nitq axarında mətnin ayrılmasının müxtəlif meyarlarının irəli sürülməsi ilə qarşılaşmaq mümkündür" (1, s.247). Elmi ədəbiyyatda belə meyarlara rast gəlmək olur. Qeyd etmək lazımdır ki, Q.A.Veyxmanın mətnin sərhədlərinin müəyyənləşdirilməsi məsələsi ilə bağlı yazdığı əsərdə bu məsələyə bir qədər toxunulur. O, mətnin sərhədlərini abzasın

sərhədləri ilə eyniləşdirənlərə qarşı çıxır və yazır ki, əgər abzası frazafövqü vahidlərin sərhədi kimi qəbul etsək, o zaman daxili sintaktik əlaqələrin qırmızı xətdən əvvəl bitən və yaxud ondan sonra davam edən sintaktik bilikləri frazafövqü birlik kimi qəbul etməməliyik (1, s.247).

Qeyd edək ki, dilin aspektləri barədə hər hansı bir görüşə sahib olmaq üçün təbii ki, dilçi olmağa ehtiyac yoxdur. Boduen de Kurtenenin yazdığına əsasən dil mədəniyyət paytaxtı kimi qəbul edilən bir formadır. İnsanlar dildən istifadə edərək onu sosial dünyada mətn vasitəçiliyi kimi istifadə edirlər. İnsanlar getdikcə dilin sosial dəyərini daha çox anlayır. Dil istifadəçiləri dilin və istifadənin aspektlərini asanlıqla yeniləyə bilərlər və bu zaman onlar ləhcədən, qrammatikadan, və danışanın nitqi və dili öyrənmədə öyrənmənin çətinliyi ilə üzbəüz qalırlar. Məsələn, biz bəzi veb istifadəçilərinin dil barədə görüşlərini verək:

1.Facebook

THEY'RE going THERE with THEIR friends. It's called grammar, use it.!!! (Azərbaycan dilində tərcüməsi: ONLAR ORAYA ÖZ dostları ilə gedirlər. Bu qrammatika adlanır və onu işlət (istifadə et).!!!)

2.Flickr

Some languages are hard, like Chinese. Some are easy, like Spanish. You can learn both, with this group!! (Azərbaycan dilində tərcüməsi: Bəzi dillər çətindir, məsələn Çin dili. Bəzi dillər asandır, məsələn, İspan dili. Sən bu qrupla hər ikisini öyrənə bilərsən).

3. YouTube

Funny teacher saying foul language (Azərbaycan dilində tərcüməsi: Komik müəllim kobud sözlər deyir)

Bu sitatlardan birincisi Feysbuk fan səhifəsinin başlığından götürülüb. Bu klubda bir qrup feysbuk istifadəçiləri ingilis dilində qrammatika ilə əlaqəli mövzuları müzakirə etmək üçün toplaşır. Başlıqda ingilis dilində asanlıqla səhv yazıla bilən bəzi homofonlar ehtiva olunur. Bu da "qrammatikanın" əhatə dairəsinə aiddir (they're, there, their). İkinci nümunə Flickr-da başladılan "Yeni dil öyrən" qrupunun istifadə etdiyi şüardır. Bu cümlələrdə dil öyrənmənin çətinliyi irəli sürülsə də, eyni zamanda dil öyrənmənin asan olması da dəstəklənir. Çin dili dil öyrənmədə çətinliyin göstəricisi olsa da, ispan dilinin asan olması ilə bu anlam yumuşaldılır. Nəhayət, üçüncü başlıq YouTube-dan götürülmüş bir video yazıdır. Bu video Honq Konqdakı orta məktəblərdən birində bir orta məktəb şagirdi tərəfindən çəkilmişdir. Həmin vloqu çəkən tələbə imtahanda nəzarətçinin ingilis dilində səhv etməsini və necə səhv etməsini göstərməyə çalışır. Qeyd edək ki, dil barədə olan inamlar (danışıqlar, söhbətlər və s.) və dilə olan münasibətlər hamısı geniş şəkildə metadil (metalanguage) adlanır. Bu termini "dil barədə dil" kimi müəyyən edirlər (6, s.108). S.Cavorski və digərləri bu termini bir qədər "literal" qəbul edirlər və belə iddia edirlər ki, *metalanguage* "linqvistik görüşləri və təkamülü əks etdirmək üçün olan dildir" (6, s.109). Belə məlum olur ki, insanlar metalinqvistik söhbət zamanı (bu online və yaxud offline ola bilər) dilin daha geniş forması olan müxtəlif *metalinqvistik diskurslarından* istifadə edirlər. Bu dildə standart, yaxşı, pis və s. dil formalarını müşahidə etmək olar. Hazırda metalinqvistik diskurs geniş işlədilir və diqqət mərkəzindədir. Qeyd edək ki, dilin qeyri-linqvistik görüşlərinin əsasında kütləvi informasiya vasitələri (mass media), xüsusilə də xəbərlər dayanır. İddiaya görə, internet dilçiliyində, yaxud internet kommunikasiyasında istifadə edilən qısaltmalar, yaxud emojilər, emosiya bildirən müxtəlif şəkillər, işarələr və s. metalinqvistik diskursda əsasən linqvistik vasitələr hesab edilir. K.Surlo xeyli sayda ingilis dilində yazılan məqalələri və müxtəlif veb saytlardan götürülən yazışmaları, başlıqları və s. təhlil edərək müəyyən edir ki, gənclərin (yaxud insanların) yeni internet dilçiliyində istifadə etdiyi dil düzgün təqdim edilmir. O iddia edir ki, insanların online yazışmalarında işlətdikləri diskursiv dil özünü üç mövzuda göstərir:

Mövzu 1: "gəncliyin homogenləşdirilməsi" – gənc insanlar çox halda tək bir nəsil kimi təqdim edilir və belə etiketləşdirilir: "Nəsil (generasiya) mətni" və "internet gəncləri";

Mövzu 2: “dilin degenerasiyası” – gənc insanların yeni media dili praktikası dilin standartları üçün qorxuludur;

Mövzu 3: “fərqlərin şişirdilməsi” – internet dili çox halda şişirdilir (7, s.108).

Bu mövzuların aydın əks olunması ifadə edən bir internet yazısını nəzərdən keçirək. Qeyd edək ki, bu media yazısı bir şotland məktəblinin “Daily Telegraph”-da yazılan diskursudur. O, həmin esseni belə başlayır (3 March 2003):

My summer hols wr CWOT. B4, we used 2 go2NY 2C my bro, his GF & thr3 :- kids FTF. ILNY, it’s a gr8 plc. (Translation: My summer holidays were a complete waste of time. Before, we used to go to New York to see my brother, his girl friend and their three screaming kids face to face. I love New York. It is a great place.) (Azərbaycan dilində tərcüməsi: Mənim yay tətilim tamamilə vaxt itkisi idi. Əvvəllər biz qardaşımı, onun qız dostunu və onların üç ağlaq övladlarını görmək üçün Nyu-Yorka gedərdik. Mən Nyu-Yorku sevirəm. Ora əla yerdir).

Müşahidələr göstərir ki, bu cür yazılar fərqli ixtisas sahibləri tərəfindən, xüsusilə də müəlimlər və hökumət rəsmləri tərəfindən böyük diqqət cəlb etmişdir. İndi isə qızın mesajına müəllimin necə münasibət bildirməsini oxuyaq:

I could not believe what I was seeing. This page was riddled with hieroglyphics, many of which I simply could not translate. When I challenged the pupil, she told me that was how she preferred to write because she found it easier than standard English. (Sunday Herald 2003) (Azərbaycan dilində tərcüməsi: Mən gördüyümə inana bilmədim. Bu səhifə heroqliflərlə dolu idi və onlardan çoxunu mən sadəcə olaraq tərcümə edə bilməzdim. Mən şagirdi sorğu-sual edəndə, o mənə hansı səbəbdən bu cür yazmağı üstün tutduğunu dedi. Onu bu cür yazmağa məcbur edən şey o idi ki, bu yazı üslubu standart ingilis dilindən daha asan idi).

Bu cür yazışmaların, yaxud yazılan təhlili onu göstərir ki, insanlar internet dilini özlərinə, ətrafdakılara yaxın, asan, təbii hiss etdikləri üçün istifadə edirlər.

Ədəbiyyat

1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1998, 281 s.
2. Məmmədov A.Y. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi. Bakı: Elm, 2001, 54 s.
3. Crystal D. Internet Linguistics. New York: Routledge, 2011, 179 p.
4. Crystal D. Language and the Internet. 2nd edition. Cambridge: Cambridge University Press, 2006, 272 p.
5. Berners-Lee T. Weaving the Web. London: Orion Business Books, 1999, 280 p.
6. Jaworski A., N.Coupland and D.Galasinski. Metalanguage: Social and Ideological perspectives. Berlin: Mouton de Gruyter, 2004, 210 p.
7. Thurlow C. Fabricating youth: new media discourse and the technologization of young people. In S.Johnson and E.Ensslin (eds) Language in the Media. London: Continuum, 2007, 198 p.
8. https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html.
9. https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html.
10. https://twitter.com/hikmethajiyev
11. Catalina B. The Semiotics of Visual Languages. New York: Columbia University Press, 2002, 200 p.
12. Saint-Martin F. Semiotics of Visual Language. Bloomington: Indiana University Press, 1991, 255 p.

Н.М.Иманова

Роль виртуального лингвистики во Второй Отечественной (Карабахской) войны

Резюме

В статье рассматривается роль виртуальной лингвистики во Второй Отечественной (Карабахской) войне, подчеркивается важность веб-сайтов для общения во время войны. В статье особо подчеркивается тот факт, что во время Второй Отечественной войны Верховный

главнокомандующий сэр Ильхан Алиев и его помощники, особенно помощник Президента Азербайджанской Республики, заведующий отделом внешней политики Администрации Президента Хикмет Гаджиев, часто использовали их аккаунты в Твиттере. Они доставляли информацию о войне через свои твиттер-аккаунты. Люди также использовали свои сети во время войны, чтобы быстрее доставлять и получать информацию. В статье широко исследуется важность виртуальной лингвистики.

N.M.Imanova

The role of the virtual linguistics in the Second Patriotic (Karabakh) war

Summary

The article deals with the role of the virtual linguistics in the second patriotic (Karabakh) war. It states the importance of the web sites while communicating during the war. The article especially highlights the fact that during the Second Patriotic war the Supreme Commander-in-Chief Sir Ilham Aliyev and his assistants especially Assistant of the President of the Republic of Azerbaijan, Head of Foreign Policy Affairs Department of the Presidential Administration Hikmet Hajiyev often used their twitter accounts. They would deliver the war information though their twitter accounts. The people also used their nets during the war in order to deliver and get the information more quickly. The importance of virtual linguistics has been widely investigated in the article.

Rəyçi: filol.e.d. L.M.Cəfərova

Redaksiyaya daxil olub: 19.04.2021

F.İSMAYİLOVA
e-mail: fehmineismayilova@gmail.com

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
(Bakı şəh., H.Cavid pr., 31)

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ XƏBƏRLİYİN İFADƏ VASİTƏSİ

Açar sözlər: *dil, cümlə, xəbər, ifadəlilik, kontekst, azaltma.*
Ключевые слова: *язык, предложение, предикат, выразительность, контекст, сокращение.*
Key words: *language, sentence, predicate, expressivity, context, reduction.*

Ellipsis bütün dillərdə mövcud olan sintaktik bir dil fenomenidir. Ellipsis ilkin məzmunda sözlərin və ya şəkilçilərin ixtisarı hesabına cümlənin vəhdətinə nail olmaq üçün istifadə olunur. Ellipsis bütün dillərdə mövcud olan linqvistik vahiddir, lakin ellipsisin işlədilməsi ayrı-ayrı dillərdə fərqli şəkildə baş verir. Ellipsis cümlənin bir və ya daha çox hissəsinin kontekstdən bərpa edilə biləcək şəkildə ixtisar olunmasına əsaslanır. Yazılı və şifahi nitqdə ellipsis hələ də öz əhəmiyyətini itirməmişdir. Cümlə quruluşunda üslubiliyi, vəhdəti, qənaəti və ritorikanı təmin etməkdə ellipsisin əvəzedilməz rolu vardır (14, s. 196) və burada məzmun və ifadənin formalaşmasında linqvistik və ekstralinqvistik amillər mühüm rol oynayır (6, s. 95). Vəziyyətdən və nitqin kontekstindən asılı olaraq mətnin tamamlanması müxtəlif üsullarla baş verə bilər. İlkin olaraq əsas ideyası hamıya aydın olacaq belə bir ifadə forması götürsək, bu ifadənin və ya ideyanın digər formaları tamamlanmamış qalacaq (5, s. 100).

Bütün dillər quruluşca fərqli olduğundan, xəbərliyin ayrı-ayrı dillərdə ifadəsi də fərqlidir. İngilis dili xəbərliyin ifadəsində öz rəngarəngliyi ilə seçilir. Bu nöqteyi nəzərdən ellipsis bu prosesdə aktiv iştirak edir. İngilis dilində ellipsis leksik feilin, köməkçi feilin, bütövlükdə xəbərin və ya feillə vasitəli tamamlığın birlikdə ixtisar edilməsi hesabına baş verir. Leksik feilin ixtisarı əsas feilin ixtisarı ilə baş tutur, məsələn; *Will you make your bed? – yes, I will.*

Xəbərliyin leksik feillərin ixtisarı ilə ifadəsi bəzən anaforik ellipsis də adlanır və Qrin Baumun da qeyd etdiyi kimi daha çox budaq cümlələrdə rast gəlinir (12, s. 125).

Fathers play football, mothers (play) volleyball, and children (play) basketball.

Feili ixtisarın ikinci növü dedikdə: əsas və köməkçi feilin birlikdə buraxılması nəzərdə tutulur. *All the girls in the class are playing the piano, but the boys (are playing) violin.*

İngilis dilində xəbər bir çox hallarda öz arqumentləri ilə birlikdə ixtisar olunur, bu arqumentlərə ismi xəbər və onun tərkib hissəsi (*Not only the students were excited for the match, but also the teachers (were excited) too; I am a teacher; my sister (is a teacher) too),* xəbər və tamamlıq (*Arzu will make meals for today and Ayan (will make meals) for tomorrow)* və çox nadir hallarda mübtəda və xəbərin (*Last Sunday I gave the book to my friend, yesterday (I gave the book) to my classmate)* birlikdə ixtisarı daxildir.

İngilis dilində ellipsisin ən geniş yayılmış növü feili xəbərin ixtisarıdır. Tədqiqatlara əsasən, əsrlər boyu bu növ ixtisar ingilis dilinin ümumi qrammatikasında hökmranlıq etmişdir.

İngilis dili ilə müqayisədə bu proses Azərbaycan dilində tamamilə fərqlidir. İngilis dilində ixtisar feilin özü ilə baş verirsə, Azərbaycan dilində bir neçə üsul mövcuddur; həm feil, həm də ona qoşulmuş xəbərlik şəkilçisi ixtisar oluna bilər.

Azərbaycan dilində bir sıra paradiqmalarda xəbərlik şəkilçisi iştirak etmir. Belə hallarda bu şəkilçini bərpa etmək qeyri-mümkündür. Tarixən yaranan bu cür birləşmiş formalar dil normasına çevrilmişdir. Məsələn, müasir Azərbaycan dilində üçüncü şəxs xəbərlik şəkilçisinin istifadə edilməməsi meyli aşkar edilmişdir. Onlar dilin öz daxili qanunları hesabına formalaşdıqları üçün belə xəbər formaları ellipsis kimi götürülə bilməz. Xüsusilə Azərbaycan dilində, indiki, qeyri-qəti gələcək, şühudi keçmiş zamanda, eləcə də arzu və şərt şəkillərində

üçüncü şəxs xəbərlik şəkilçisinin olmaması artıq bir norma xarakteri qazanmışdır. Eyni qayda əmr şəkilinin ikinci şəxsinə də aiddir, belə ki, onun da xüsusi bir xəbərlik göstəricisi yoxdur. Qəti gələcək və nəqli keçmiş zaman formalarında üçüncü şəxs təkinin xəbərlik göstəricisi tələbə uyğun olaraq, saxlanıla və ya ixtisar edilə bilər. Dilin daxili qanunlarına əsasən, bu zaman formlarında üçüncü şəxs təkinin xəbərlik göstəricisi buraxıla bilər. Feilin lazım və vacib şəkillərində isə üçüncü şəxs təkinin xəbərlik şəkilçisinin işlədilməsi sabitdir.

Şəkilçilərin ixtisar edilmə halları qohum dillərdə də müşahidə edilir. "Müasir Azərbaycan dili" kollektiv monoqrafiyasında qeyd edilir ki, əsas və köməkçi nitq hissələri xəbərlik funksiyası daşıyarkən adətən şəxs şəkilçiləri qəbul edir. Lakin, bu və ya digər məqsədlə bəzən dildə xəbərlik şəkilçilərinin ixtisar edilməsi halları baş verir, bu zaman ən çox mübtəda cümlədə xüsusi bir sözlə ifadə edilir. Türkmən, Qazax və Özbək dillərində, şəxs şəkilçilərinin ixtisar edilməsi stilistik cəhətdən müəyyənləşdirilməyib, ancaq ümumi qanun xarakteri qazanmışdır." (9, s. 109).

Dilin daxili imkanları hesabına yaranan və normallaşan elə bölmələr vardır ki, onlarda azalma prosesi gedir, lakin bu ellipsis ilə qarışdırılmamalıdır. Ellipsis, dilə deyil, birbaşa nitq məhfumuna istinad edərək müəyyən emosionallıqla əlaqəli olaraq ortaya çıxır və ifadəli xarakter daşıyır. Beləliklə, ellipsis intralinqvistik faktorlarla deyil, ekstralinqvistik faktorlar ilə əlaqələndirilir. Elliptik formaların tərkibində praktik olaraq dəyişikliklər edə bilərsiniz. Beləliklə, ekspressivlik əlaməti elliptik formalardan xaric olunarsa, onun yerini sırf ünsiyyət işarəsi tutacaqdır. Başqa sözlə, üzvün emosionallığını yaratmaq üçün qısaldılmışları bərpa edərkən emosionallıq aradan qaldırılır və qrammatik normativlik yaranır. Lakin bütün hallarda belə bir əməliyyatın aparılması səhv olardı, belə ki, dil vahidlərində ünsiyyətliliklə yanaşı ifadəlilik də əsas rol oynayır. Dilin ifadəlilik funksiyasının reallaşmasında, dil vahidlərinin ellipsisinin yaradılmasında, düşüncə və onların birliyi prosesində o mühüm yer tutur. Reduksiya amillərinin mövcudluğu səbəbindən elliptik vahidlərdə bir çox halda dilçilikdə elipsis anlayışı dəqiq azalma ilə müəyyən edilir. (3, s. 184)

Göründüyü kimi ellipsis dildə normallaşma və müəyyən ifadəlilik faktorları, xüsusilə də xəbərlik şəkilçilərinin ixtisarı ilə əlaqəli bir məfhumdur. Başqa sözlə, xəbərlik sahəsində bir elipsis və digər qısaltmalar arasındakı sərhədin təyin edilməsi cümlə üzvlərinin qısaltmaları arasındakı fərqlərin müəyyənləşdirilməsindən daha asandır. Beləliklə, burada yalnız mübtəda ilə predikat arasındakı əlaqə çərçivəsində müşahidə olunan qısaltma linqvistik normativ kimi qiymətləndirilə bilər. Genişlənmiş və mürəkkəb cümlələrdə olduğu kimi, emosional cümlələrdə də paralel və eynicinsli xəbərlərdəki ixtisarlar ellipsis kimi qiymətləndirilir.

Azərbaycan dilində xəbərlik şəkilçisinin ellipsi ilə yanaşı xəbərin özünün də ellipsi meydana çıxır. Bundan əlavə, hər hansı bir cümlənin və ya sintaktik kateqoriyanın xəbəri ixtisar olunarkən xəbərlik şəkilçiləri də ixtisar olunur. Xəbərin ellipsi sintaktik kateqoriya olsa da, xəbərlik şəkilçiləri burada da qısaldılmışdır. Azərbaycan dilində xəbər və xəbərlik affikslərinin ellipsi aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

a) Paralel komponentlərdə ixtisar: Paralel komponentlərdə ixtisar aşağıdakı formalarda təzahür edir.

1. Hər iki komponentdə xəbərin ixtisarı: belə formalarda şəkilçilərin ixtisarı cümləyə xüsusi ifadəlilik verir. Məsələn: *Ucqar rayonlarda, kəndlərdə nə məktəb var**(dır)**, nə də müəllim var**(dır)** ("Xalq"qəzeti. 2000.* № 08*). Belə də iş olar: nə iş var**(dır),** nə də iş yeri **(vardır)*** ("Azərbaycan" qəzeti. 1999. № 3).

Bu nümunələrdə, dilin kommunikativ funksiyasının ifadə edilməsi prinsipinə əsaslanaraq, xəbərlik şəkilçilərini bərpa etmək mümkündür. Bununla birlikdə, ifadəlilik itdiyindən dəyər əvvəlki effektivliklə artıq ifadə edilmir. *Ucqar rayonlarda kəndlərdə nə məktəb **vardır,** nə də müəllim **vardır;** Belə də iş olar: nə iş **vardır,** nə də iş yeri **vardır*** və.s.

Bu hal haqda L.V. Papova yazır: "Sıfır bağlanma forması yalnız "olmaq" bağlama paradiqmasında tanınır– bu, indiki dövrün formasıdır" (10, s. 140). K.A.Habibova belə bir

ellipsi qrammatik adlandırır (5, s. 58). "Cümlə daxilindəki qrammatik ellips rəsmi qrammatik və qrammatik meyarlarla müəyyən edilir" (8).

Azərbaycan dilində belə formalarda, cümlələrdə ifadə tərzindən, ifadə qabiliyyətindən asılı olaraq daha çox komponent iştirak edə bilər və hər komponentdə xəbər şəkilçilərinin ellipsisi mənanın ifadəsində inkişaf etmiş emosionallığın meydana çıxmasına səbəb olur:

*Hava aydın**(dır)**, səma aydın**(dır)**, yol aydın**(dır)***

Ey sevgilim, yanımda sən olaydın (Azərbaycan mahnısı).

Kontekstdə və ya nitq vəziyyətində ifadə olunmayan qısaltmalar bu cür nümunələrdən fərqləndirilməlidir. Bu kimi nümunələr "bağ ellipsi (liqamentoz ellipsis)" fenomeni kimi qəbul edilə bilər (10, s. 141). Nominal bir predikatdakı ellipsis məhsuldar olmayan, nizamsız bir fenomendir, buraxılmış bağlar (liqamentlər) şifahi ellipsisdəki kimi müəyyən semantik qrupların leksemaları ilə təmsil edilə bilməz. Bu qanunauyğunluq, bağlama mənasını, ifadədəki nəzərdə tutulmuş mənaların mövcudluğunu anlamaqda bəzi səhvlərə səbəb ola bilər.

2. Xəbərlik şəkilçisi komponentlərdən birində saxlanılır, digərində buraxılır. Bu vəziyyətdə ixtisar edilmiş şəkilçinin aid olduğu şəxs ikinci komponentdəki affiks ilə müəyyən edilir. İfadəlilik ixtisar edilmiş şəkilçi olan komponentdə, elliptik olmayan şəkilçi olan komponentdən daha çox nəzərə çarpır. Birinci komponentdəki xəbərlik şəkilçisi ixtisar olundu: İş var (dırsa), dolanarsan, yoxdur (sa), qalırsan avara ("Azərbaycan" qəzeti. 2000. №14). (Tərcümə: İşiniz vardırsa, yaşaya bilərsiniz, yoxdursa boşa gedəcəksiniz); Əvvəla, mənim adım heykəl deyil (dir), Bəhməndir.

Paralel komponentlərin ikincisində xəbərlik şəkilçilərinin ixtisarı birincisindən daha çox olur. Göründüyü kimi, ifadə yükü, əsasən, sonrakı komponentdə düşür və cümlənin sonuna doğru duyğusallıq daha da artır: Siz yenidən cavansız, məndə yaşlı **(yam)** ("Azərbaycan" qəzeti. 2018. № 09). (Tərcümə: Hələ cavansan, mən də qocaman); Göstərilən təki bilirlər: hə, bu anadır, bu ata **(dır)** ("Azərbaycan" qəzeti. 1998. № 12). (Tərcümə: Göstərdikləri kimi, bilirlər: bəli, bu ana**(dır)**, bu atadır); Qədimov bizim sexdə gözümün qabağında böyüyüb **(dür),** partiyaçıdır, özü də cavan **(dır)**… ("Azərbaycan" qəzeti. 2008. № 06). (Tərcümə: Qədimov mağazamızda gözümün qabağında böyüdü, partiya üzvüdür və gəncdir); İndi ya jurnalistdir, ya da yazıçı **(dır).** ("Azərbaycan" qəzeti. 2008. № 08).

"Xəbərin əsas mənası nominal komponentdə ifadə olunduğundan, nəticə və əlaqənin buraxılması predikatın mənasının səhv başa düşülməsinə gətirib çıxarmır, lakin predikativ əlaqənin mənasını və ya daha doğrusu, "mübtəda - atribut" münasibətinin mahiyyətini məntiqi və modallıq kimi xüsusiyyətlərinə görə başa düşmək çətinliyə səbəb ola bilər" (11, s. 259). İxtisar ingilis dil sistemində möhkəmlənmiş bir məhfum olsa da, Azərbaycan dilində yazılı olaraq, demək olar ki, sistematik olmamasına görə az əhəmiyyət daşıyır. Orada rast gəlinən tək buraxılma halları diskursivdən daha çox morfo-fonoloji olan ellips halları hesab edilə bilər.

b) Təkrarlanan komponentlərdə ellipsis.

Təkrarlanan komponentlərdən birincisində özünü daha güclü konkretlik, ikincisində isə emosionallıq göstərir. Buna görə də adətən ikinci komponentdəki xəbər affiksinin qısaldılması ümumiyyətlə müşahidə olunur: Mən dərsdəydim. Uşaqlar bayırda çığıra-çığıra deyirdilər: – On nəfərdirlər… on nəfər **(dirlər)…** ("Azərbaycan" qəzeti. 2017. № 05). Qafar kişinin yuxulu səsi eşidildi:– Adam döyül ki, divdir, div **(dir)**… ("Azərbaycan" qəzeti. 2008. № 03).

Buraxılmış feilin anlaşılması üçün cümlənin əsas və ya kiçik üzvlərinin eləcə də, cümlə komponentlərinin köməyi lazımdır. Bəzi hallarda, bu komponentlər, itmiş əlaqəni bərpa etməyə imkan verir.

c) Həmcins üzvlərdə ellipsis.

Həmcinslik baxımından xəbər şəkilçilərinin ellipsisində, orfoqrafik qaydaların ortaya çıxması xüsusilə aydın şəkildə izlənilir. Komponentlərdən birində xəbərlik indeksi qorunur, digərlərində isə lazımsız kimi ixtisar edilir. İfadəlilik funksiyası ilə əlaqədar olaraq bəzən əvvəlki komponentlərdə, bəzən də sonrakı hissələrdə xəbərlik şəkilçisi buraxılır.

I. Əvvəlki komponentlərdə xəbərlik şəkilçisinin ixtisarı.

Həmcinsliyin əvvəlki üzvlərində ifadəli yük azalır, sonra xəbərlik göstəricisi ixtisar edilir, sonuncu hissə kommunikativ funksiyanı yerinə yetirir. Buna görə də bu müddətdə xəəbərlik şəkilçisinin istifadəsi vacib sayılır: Mərhəmətin üç oğlu **(var idi)**, bir qızı var idi. ("Azərbaycan" qəzeti. 2006. № 06).

Həmcins terminlərlə paralel komponentlərdə olduğu kimi, aşağıdakı komponentlərdəki xəbərlik şəkilçisinin ellipsi xüsusilə geniş şəkildə müşahidə olunur, qeyd etmək lazımdır ki, "var" sözündə konkretlik və kommunikasiya funksiyası ilə əlaqədar olaraq xəbərlik şəkilçisi "-dır"ın istifadəsi normaldır: Onun kitabı vardır; onun evi vardır və s. "-dır" şəkilçisinin mənası düşüncədə ümumiləşdirildiyindən tez-tez istifadəsinə ehtiyac qalmır. Başqa sözlə, xəbərlik göstəricisindən spesifikliyi vurğulamaq üçün lazım olduqda istifadə olunur, əks halda buraxılır. Bu konstruksiyaları müqayisə etməklə görə bilərik: onun kitabı var**dır** - onun kitabı var ; onun evi var**dır** - onun evi var və s. "var" sözündən sonra "-dır" qısaltma affiksi müəyyən emosional çalarlar yaratmağa kömək edir: Camaat, bizim indi yeməyimiz də var **(dır),** içməyimiz də **(vardır)** ("Azərbaycan" qəzeti. 2016. № 07).

Yalnız xəbərin komponentləri deyil, cümlənin kiçik üzvləri də buraxılmış feilin mənasını anlamağa kömək edir. Məsələn, cümlənin düzgün oxunması üçün onların rolu əhəmiyyətlidir, çünki ixtisaslaşmış birləşdirici feillərin əksəriyyəti ilə nominativ-substantiv komponentin forması əlaqənin idarəetmə imkanları ilə deyil, xəbərin forması ilə bağlıdır. "Bu, ellipsisin bəzi formalarının, ümumiyyətlə, dildə aktiv olduğu, mövzuya yaxınlaşma ehtimalının üstündə olduğu üçün güclü bir göstəricidir" (13, s. 22).

d) Birləşdirici konstruksiyalarda predikat affikslərinin ellipsi.

Bağlayıcı konstruksiyalar, əsasən, danışıq dilinin xüsusiyyətlərini əks etdirdiyindən emosionallığın ifadəsi mühüm rol oynayır. Buna görə də, bu cür konstruksiyalarda emosionallığın ötürülməsinin digər vasitələri ilə yanaşı, xəbərlik affiksinin azalması ilə mühüm yer tutulur.

Bu quruluşlarda, göstəricinin ixtisarında, əsasən, aşağıdakı xarakterik xüsusiyyətlər müşahidə olunur:

1. Əsas üzvdən ayrılmış birləşdirici konstruksiyalar bir tam üzvdən ibarət ola bilər. Bu üzvdə ixtisar edilmiş xəbərlik göstəricisi əsas üzvün göstəricisi ilə müəyyən edilir: *Mənim üçün bir qanun var **(dır),** o da hökumətin qanununu **(dur)** (*"Azərbaycan" qəzeti. 2002. № 10).

2. Cümlədə xəbər bir neçə həmcins komponentdən ibarət ola bilər. Üstəlik, eliptik xəbərlik göstəricisi də əsas hissənin predikat affiksi ilə bərpa olunur:… əsl mən deyən adam**dır**, təmizkar **(dır)**, işlək **(dir),** yanımlı **(dır),** qayğıkeş **(dir)** ("Azərbaycan" qəzeti. 2007. №02).

e) Seçim bildirən quruluşlardakı xəbərlik affikslərinin elipsi.

Seçim bildirən cümlələrdə xəbərlik şəkilçilərinin ixtisarının xarakterik xüsusiyyətləri aşağıdakı kimi səciyyələndirilə bilər:

1. Seçim bildirən cümlə quruluşlarında ixtisar hər iki komponentdə baş verir: Otaqların ikisindən birindədir, ya sağdakında **(dır),** ya da soldakında **(dır)**; İkisindən biri, ya hə (**dir)**, ya da yox **(dur)** ("Azərbaycan" qəzeti. 2009. № 11).

2. İxtisar yalnız ikinci komponentdə baş verir:

Onu da heç bilmək olmur, gah elədir, gah da belə (**dir**) ("Azərbaycan" qəzeti. 2002. №11).

f) Sual-cavab dialoqlarında xəbər şəkilçilərinin ellipsi.

"Xalq dilindəki ellips sərbəst ifadə meyli və dil vasitələrinin qənaətcilliyinə canatma, müxtəlif söz növlərinin geniş yayılması və dil vahidlərinin hərəkətliliyi ilə xarakterizə olunur" (4, s. 75). Azərbaycan dilində, ümumiyyətlə, danışıq nitqinin təsiri altında, sual-cavab dialoqlarında, sual cümləsində iştirak edən xəbər şəkilçisi cavab işarəsində buraxılır:

*– Yaxşı, bir de görüm, haradasan, nə işləyirsən? – Əhmədoba kəndində məktəb müdiri**(yəm)*** ("Azerbaijan" newspaper. 2010. № 07).

Bir cümləni sual-cavab dialoq birliyinin tərkib hissəsi kimi qurmağın eliptik forması, yarandığı şəraitdə semantik-kommunikativ yetərlilik əldə etdiyi və ondan təcrid olunmuş dialoq mətninin semantik-kommunikativ uyğunluğunun təzahürüdür, hansı ki onu itirir. Bu vəziyyətdə "eliptik cümlələrin öyrənilməsi inteqrasiya olunmuş praqmalinqvistik yanaşma tələb edir. Bu, onların dünya dillərindəki əsas struktur modellərini, oxşar və fərqli cəhətlərini ortaya qoymağa, həm əsas, həm də ikinci dərəcəli semantik funksiyaları təsvir etməyə imkan verir" (7, s. 70). Bu dil forması sual və cavabın struktur-semantik və praqmatik qarşılıqlı əlaqəsinin məhsulu kimi çıxış edir. Semantik təsvir üçün zəruri olan müəyyən modellərə malikdir.

Ədəbiyyat

1. Abdullaev K. M Azərbaycan dilində sadə cümlə sintaksisi məsələləri / K. M. Abdullayev. Baku, 1983. 256 p.

2. Həbibova K.Ə. Müasir Azərbaycan dilində elliptik cümlələr və onların üslubi xüsusiyyətləri / K. Ə. Həbibova. Bakı: Elm və Təhsil, 2009. 192 p.

3. Z. İ. Budaqova. Müasir Azərbaycan dili. III cild. Bakı, 1981, səh. 184.

4. Ибраева Д. А. Статистика явления эллипсиса / Д. А. Ибраева // European Journal of Literature and Linguistics. 2016. № 1. С. 74-77.

5. Князева Н.А. Речевой аспект употребления эллипсиса в устном англоязычном контексте / Н. А. Князева, К. В. Бабенко // В сборнике: сборник статей XXV Международной научно-практической конференции: в 2 ч. 07 февраля 2020 г., Пенза, «Наука и Просвещение». Пенза, 2020. С. 99-104.

6. Колотилова Н. С. Эллиптические структуры с редукцией прилагательных актантов в языке прессы / Н. С. Колотилова // Текст и дискурс: традиционный и когнитивно-функциональный аспекты исследования. Рязань. 2002. С. 94-97.

7. Косоножкина Л. В. Эллипсис как языковая универсалия / Л. В. Косоножкина // В сборнике: Лингвистические и психологические особенности преподавания иностранных языков. Сборник материалов межвузовской научно-методической конференции. 25 января 2018, «Ростовский государственный медицинский университет». Ростов-на-Дону, 2018. С. 67-73.

8. Михайлова Л. В. Эллипсис как один из приемов структурно-семантического преобразование / Л. В. Михайлова. Москва: «Просвещение», 1987. 134 с.

9. М. Гусейнова. Категория сказуемости в современном Азербайджанском язике. Баку. 1984, ст. 109

10. Попова Л. В. Эллипсис глагольной связки как прием экспрессивного синтаксиса / Л. В. Попова // В сборнике: Рациональное и эмоциональное в русском языке – 2018.Сборник трудов Международной научной конференции. отв. ред.: Н.Б. Самсонов. 23-24 ноября , 2018 г., «Московский государственный областной университет». Москва, 2018. С. 139-143.

11. Силу С.Ж. Сжатие и эллипсис с позиции нарратологии и социолингвистики / С. Ж. Силу // Политическая лингвистика. 2017. № 5 (65). С. 257-265.

12. Greenbaum, Sidney and Nelson, Gerald. An Introduction to English Grammar. Harlow: Pearson Education Limited. 2002, pg. 125

13. Gribanova V. Predicate formation and verb-stranding ellipsis in Uzbek / V. Gribanova // Glossa: a journal of general linguistics. 2020. Vol. 5(1): 124. P. 1-40. DOI: https://doi.org/10.5334/gjgl.1042

14. Halliday M. A. K. Cohesion in English / M. A. K. Halliday, R. Hassan. London: Longman, 1976. 374 p.

Ф.Исмайлова

Способы выражения сказуемого в азербайджанском и английском языках

Резюме

Есть много способов выражения сказуемого в разных языках. Одно из них - его выражение через эллипс. В этой статье многоточие исследуется как средство выражения сказуемого в английском и азербайджанском языках. Оттенки, выраженные эллипсом с его красочными,

выразительными, коммуникативными функциями, широко отражены в этой статье. В этом случае четко прослеживаются изменения в языках. Отмечены сходства и различия в обоих языках.

F.Ismayilova

Means of expression of predicate in Azerbaijani and English languages

Summary

There are many means of expression of predicate in different languages. One of these is its expression through an ellipse. In this article, ellipsis is investigated as a means of expressing the predicate in English and Azerbaijani. The shades expressed by the ellipse with its colorful, expressive, communicative functions are widely reflected in this article. In this case, the changes in languages are clearly observed. Similarities and differences in both languages are noted.

Rəyçilər: akad. M.Z.Nağısoylu,
dos. A.Ə.Məşədiyeva

Redaksiyaya daxil olub: 30.04.2021

M.O.MƏMMƏDLİ
e-mail: mmehbuba@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

MÜASİR İNGİLİS DİLİNDƏ YARIM MODAL FEİLLƏR

Açar sözlər: *modal feil, reallıq, münasibət, düşüncə, icazə, məsdər.*
Ключевые слова: *модальный глагол, реальность, отношение, мысль, разрешение, инфинитив.*
Key words: *modal verb, reality, attitude, thought, permission, infinitive.*

İngilis dilində modal feillər bir sıra qrammatik xüsusiyyətlərə malik deyil. Həmin qrammatik kateqoriyalar bunlardır: 1) Onlar adi feillərdən fərqli olaraq indiki zamanın qeyri-müəyyən formasında üçüncü şəxs təkdə **-s** şəkilçisi qəbul etmir; 2) onların məsdər və analitik formaları yoxdur və s. Elə bu səbəbdən də bu cür feillərə naqis, yəni defektiv feillər də deyilir.

Modallıq danışanın ifadə olunan fikrə münasibətini, ifadə olunan fikrin obyektiv varlığa münasibətini əks etdirən qrammatik-semantik kateqoriyadır (1, s.110).

Rus dilçiliyində də modallıq kateqoriyasının tədqiqi geniş şəkildə aparılmışdır. Bu baxımdan A.A. Potebnya, E.M.Peşkovskiy, İ.İ.Meşaninov və başqalarının modallıqla bağlı fikir və mülahizələri daha çox diqqət çəkir. L.V.Kauşanskaya modallığın tədqiqi sahəsindəki çalışmalarını xüsusən qeyd etmək lazımdır. Onun fikrincə, modallıq ilk növbədə cümlə daxilində özünü göstərir (2, s.64).

B.A.İlyiş modallıqla bağlı mülahizələrində qeyd edir ki, müasir ingilis dilində modallığın ifadə vasitələri, əsasən, modal sözlər, modal feillər, bəzi modallıq ifadə edən feillər, intonasiya və feilin vasitəli şəkilləridir (3, s.164).

Azərbaycan dilçiliyində modallığı tədqiq edənlərdən N.Ağayeva, F.F.Cahangirov və başqalarını misal göstərmək olar. Bundan başqa O.Musayev, G.Məmmədova da ali məktəb tələbələri üçün yazdıqları dərs vəsaitlərində modallıqla bağlı görüşlərini müəyyən dərəcədə vermişlər.

O.S.Axmanova "Dilçilik terminləri lüğəti"ndə modallığın müxtəlif vasitələrlə-qrammatik, leksik vasitələrlə ifadə olunduğunu izah edir. Modallığın qrammatik ifadə vasitələri kimi O.S. Axmanova feilin şəkillərini, modal feilləri və s. misal gətirir (2, s.286-287).

Onu da qeyd etmək lazımdır ki, uzun müddətdir tədqiq olunmasına baxmayaraq feilin modallıq kateqoriyası ilə bağlı hələ də mübahisəli məsələlər var. Bunlardan ilki modallığın hansı kateqoriyaya şamil edilməsi ilə bağlıdır.

R.A.Budaqova modallığı qrammatik, B.D.Arakin leksik, L.S.Yermolayeva sintaktik, C.Q.Admoni kommunikativ-qrammatik, V.V.Vinoqradov, İ.B.Xlebnikov, Q.V.Kolşanskiy isə modallığı semantik kateqoriyaya aid edirlər.

F.F.Cahangirov isə modallığın funksional-semantik kateqoriyaya aid olduğunu qeyd edir (1, s.18). Qeyd etmək lazımdır ki, dilçilər modallığın hansı kateqoriyaya aid olmasına dair fikirlərini onun ifadə vasitələrinə əsasən əsaslandırırlar.

Modallıqla bağlı öz həllini hələ də tapmamış digər bir təzadlı problem isə onun hansı tiplərinin olmasıdır.

L.S.Yermolayev, N.A.Kruşelnitskaya, Q.Zolotova modallığın üç tipi olduğunu göstərir.

1. Obyektiv modallıq tipində danışanın nöqteyi-nəzərindən deyilmiş cümlənin məzmununun həqiqətə uyğunluğu ifadə olunur.

2. Subyektiv modallıq tipində danışanın söyləmin məzmununa münasibəti əks olunur.

3. Törəmə tipli modallıq daha mürəkkəb struktura malikdir. Burada əlamətin daşıyıcısı subyektlə predikativlik əlaməti arasında əlaqənin həqiqiliyinə münasibət bildirir (6, s.18).

Məsələn,

You ought to follow her advice.

Bu cümlələrin hər ikisində məsləhət mənası ifadə edilmişdir.

Should modal feilinin arzu, məsləhət bildirdiyi bir neçə nümunəni daha gözdən keçirək:

"You should be thankful to him and bless his memory, son", she said.

"It is the will of the Lord that we should be different", he said.

He brought it with him. She wears lovely clothes.

You should see it sometime.

Qeyd etdiyimiz kimi, should feilindən sonra bitmiş zamanda olan məsdər işlədilə bilər. Əgər should + bitmiş zamanda olan məsdər təsdiqdə verilərsə, bu o deməkdir ki, arzu olunan hərəkət gerçəkləşməyib, məsələn:

"I should have made a fuss!" said Mrs.Bantry. - Xanım Bentri dedi: "Gərək çox hay-küy salmayaydım".

Misaldan göründüyü kimi, should + perfect infinitive icra olunan, lakin icrası təəssüf edilən hərəkətləri ifadə etmək üçün işlədilir.

Should + bitmiş zamanda olan məsdər inkarda işləndikdə isə icrası arzu olunan hərəkət, əksinə, icra olunmur, məsələn:

Sir Henry thought, looking disapprovingly at Mark, that fellow should not have spoken to. - Ser Henri Marka narazılıqla baxaraq düşünürdü ki, gərək bu cavan heç dindirilməyəydi.

Should modal feili deyilən fikrə emosional rəng vermək üçün də işlədilə bilər. Should feilinin bu mənada işlənməsi emosional should (emosional should) adlanır. Emosional should xüsusi emfatik konstruksiyada işlədilir (10):

1.Why ilə başlayan ritorik suallarda, məsələn:

a) Why should I do it? - Xeyir ola, mən niyə bunu etməliyəm?

Why should not you invite him? - Nə üçün onu dəvət etməyəcəksən?

b) Why ilə başlayan tamamlıq budaq cümlələrində, məsələn:

I do not know why he should want to see George. - Bilmirəm, Corc onun nəyinə lazımdır?

c) reason sözünü təyin edən və baş cümləyə why ilə birləşən təyin budaq cümlələrində, məsələn:

I do not see any reason why he should not be happy. - Mən onun xoşbəxt olmamasının səbəbini bilmirəm və ya Mən bilmirəm nə üçün o, xoşbəxt deyil.

d) Who should do something? ilə başlayan konstruksiyalarda, məsələn:

1) The door opened and who should come in but Tom. - Qapı açıldı və sizcə, içəri Tomdan başqa kim girsə yaxşıdır?

2) As I was crossing the street, whom should I meet but Aunt Ann. - Küçəni keçərkən kimlə qarşılaşsam yaxşıdır? Anna xala ilə!

3) How should I know? ilə başlayan konstruksiyalarda, məsələn:

How should I know? - Necə bilim?

He went into business with her as her partner. Why should not I have done it? - O, onunla həmkarı kimi ticarətlə məşğul oldu. Nə üçün mən etməyəydim? (8, s.103)

a) should come və should have happened ifadələrində, məsələn:

1) That is should come to this! - İş gör bir hara çatıb?!

2) To think that it should have happened to me! - Görün başıma nə gəlib?! (11, s.22)

Should modal feili ought modal feili kimi Azərbaycan türkcəsinə *gərək* sözü vasitəsilə tərcümə olunur. Should modal feilindən sonar məsdər qeyri-müəyyən zamanda işlədildikdə should modal feilindən sonra işlədilən əsas hissə dilimizə indiki zamanda, bitmiş zamanda olan məsdərə gəldikdə isə keçmiş zamanda tərcümə edilir, məsələn:

1) You should consult the doctor. - Siz gərək həkimə müraciət edəsiniz.

2) You should have consulted the doctor. - Siz gərək həkimə müraciət edəydiniz.

Bundan başqa should modal feili əxlaqi cəhətdən irəli gələn vaciblik bildirir. Şübhəsiz burada nitq situasiyası mühüm rol oynayır, məsələn:

Lanny had returned and it was right that his mother should be the first to greet him (10).

Onun anası gərək onu salamlayanlardan birincisi olaydı.

They should look at my son.

Gərək onlar mənim oğluma baxsınlar.

It is his will that colored people should live and work and learn among colored people.

Rəngli adamlar gərək rəngli adamların içində yaşasın, işləsin və öyrənsinlər.

Do you think I should tell him about his father?

Should feili inkar mənasında işlənərkən müəyyən dərəcədə qadağa bildirir:

You should not be so impatient.

Qeyd etmək lazımdır ki, hərəkət keçmişə aid olduqda should feilindən sonra məsdərin perfekt forması işlədilir. Yuxarıda qeyd olunduğu kimi yenə də təsdiq formada olan cümlə arzu olunan hərəkətin yerinə yetirilmədiyini bildirir. İnkar formada isə arzu olunmayan hərəkətin yerinə yetirildiyi bildirilir. Bu zaman should feili müəyyən qədər məzəmmət bildirir, məsələn:

Your shoes are wet. You should have stayed at home. – Ayaqqabıların yaşdır. Gərək evdə qalaydın.

You should have put more sugar in the pie. It is not sweet enough. – Gərək piroqa daha çox şəkər qoyardın. Yetəri qədər şirin deyil.

He has not brought the book back thought he should have brought it last week.

“You should not have boasted”, Mad Sam said.

Gərək lovğalanmayaydınız - o, dedi.

“My eyes are week. I should have died a long time ago. I cannot see you.

Mən gərək xeyli müddət bundan əvvəl öləydim.

I wish I knew where she was. I should have given her a letter to some friend of mine.

Mən gərək ona məktub verəydim.

Yuxardakı abzaslarda verilən əksər nümunələrdən də görüldüyü kimi should feili formal olaraq yarımçıq cümlənin xəbəri vəzifəsində çıxış edir. Bu danışıq dilində, dialoji nitqə xas olan bir xüsusiyyətdir. Ancaq mətndə should feilinin aid olduğu əsas feili bərpa etmək olar.

Qeyd etmək lazımdır ki, həmin cümlənin azərbaycanca variantında should feilinin adekvat vəzifəsini saxlamaq olmur. İş burasındadır ki, Azərbaycan dilində feilinə uyğun gələ biləcək köməkçi feil yoxdur. Onun müqabili olaraq Azərbaycan dilində əsas feilin müəyyən şəkli işlənir. She interrupted: “Yes, you should. You are entitled to ask”. – Qız onun sözünü kəsdi: - Əksinə, soruşmalısan. Sənin soruşmağa haqqın var (O, (qız) onun sözünü kəsdi: - Bəli, sən soruşmalısan. Soruşmağa sənin haqqın var).

İkincisi, should feili əsas feillə bir başa əlaqədə işlənir. Məsələn: I should say you are twenty eight. - Məncə yaşınız iyirmi səkkizdən çox olmaz.

Demək lazımdır ki, tərcümədə sərbəstliyə yol verilmişdir. Cümlə quruluşunu və feili formaları saxlamaqla onu belə vermək olar. Mən deməliyəm ki, sizin iyirmi səkkiz yaşınız var (yaxud siz iyirmi səkkiz yaşında olmalısınız).

Eyni sintaktik məqamda (yalnız sual cümləsində) should feili başqa cür başa düşülməyə imkan verir.

Should he return to the radar room now? - İndi radar otağına qayıtsınmı?

Yalnız cümlə çərçivəsində qalmaqla belə bir cümlənin düzgün olub-olmadığı barəsində heç nə demək mümkün deyildir. Sual daxili nitqə aiddirsə, onun yuxarıdakı şəkildə verilməsi məqbuldur, sual cavab almaq məqsədi güdürsə həmin cümləni bu şəkildə vermək olar: İndi o, radar otağına qayıtmalıdırmı?

Should feilinin sual əvəzliyi ilə işlənməsi qeyri-müəyyənliyi aradan qaldırır. “Why should I sing anything?” Mrs.Harried Du Barry Mossman demanded. Aydındır ki, burada sual feili xəbərə yox, ona aid olan zərfliyə (why sual əvəzliyinin müqabilinə) mənsubdur.

Müasir ingilis dilində işlənən will modal feili qədim ingilis dilində işlənən willan feilinin mövcud paradiqmaları izləməsi nəticəsində yaranmışdır.

İngilis dilində will feili həm tam predikasiya vasitəsi, həm də modal feil kimi işlənir. Will feili bu məqamda əsas feil kimi (regular verb – wills, willed) işlənə bilər. Bu məqamda o, özünü biruzə etmək, əmr etmək, məcbur etmək, təlqin etmək mənasında işlənir (5, s. 183).

Tədqiqatçılar will və would feillərini shall və should feilləri ilə müqayisə edərək göstərirlər ki, müasir ingilis dilində shall və should feilləri iki müstəqil feil kimi izah edildiyi halda will və would feilləri başlıca olaraq paralel şəkildə işlənir, onların ilkin formasıda iradi aktdır (istək). Bununla yanaşı, will feili bəzi məqamlarda would feilinə paralel olaraq işlənib keçmişdə baş verən aktual hərəkəti bildirir. Will başqa hallarda would feilindən təcrid olunmuş mövqe tutur. Bu, would feili hal-hazırda real olmayan hərəkəti bildirdiyi zaman, ya da will feilinin daha yumşaq və nəzakətli forması kimi özünü göstərir (7, s.18).

Will modal feilinin nitqdə işlənməsi məqamlarını nəzərdən keçirdikdə ilk növbədə gözə dəyən onun özündən əvvəl və özündən sonrakı sözlərlə əlaqələridir. Əlimizdə olan materiallara əsasən deyə bilərik ki, will feili özündən qabaq ikinci və üçüncü şəxslərə aid əvəzliklərdən savayı that, there, one əvəzlikləri və isimlərlə işlənir. Bu elə bir mühüm linqvistik əhəmiyyət kəsb etmir.

Dillərarası tipoloji oxşarlıq baxımından will modal feilinin özündən sonrakı sözlərlə əlaqəsi diqqətə layiqdir. Biz bunlardan tam predikasiyalı feilləri – be, have kimi köməkçi feilləri qeyd edə bilərik.

İndi isə will feilinin işlənmə məqamlarını həmin ardıcılıqla da nəzərdən keçirək.

a) Will modal feilinin əsas feillərlə işlənməsi:

We are taking off more weight, hoping that will help. - Yükü boşaldırırıq ki, bəlkə köməyi dəydi (Biz bunun köməy edəcəyi ümidi ilə daha çox yük boşaldırıq).

Həmin cümlənin azərbaycanca variantlarını diqqətlə öyrənməyə dəyər. Mətbu tərcümədə budaq cümlə “bəlkə köməyi dəydi” şəklində verilmişdir. Burada bəlkə modal sözü “köməyi dəydi” xəbəri ilə birlikdə icrası gələcəyə aid olan hərəkəti, hadisəni bildirir. Həmin xəbərin ifadə olunduğu feil şühudi keçmiş zamandadır. Demək lazımdır ki, həmin ifadə tərzi qrammatik cəhətdən that’ll help budaq cümləsini ehtiva etməsə də, semantik və üslubi cəhətdən onu tamamilə ehtiva edir.

Bizim təklif etdiyimiz cümlələrdə feili hissə “əsas+feili sifət” formasındadır. Onların “ümid” sözünün iştirakı ilə əmələ gətirdiyi tərkib bir-birinə aid deyildir: “bunun kömək edəcəyi ümidilə” mürəkkəb təyini söz birləşməsi, “bunun bir köməyi olacağına ümid edərək” feili bağlama tərkibidir. Sonuncu variant orijinala daha yaxındır.

Will feilinin əsas feillə işlənməsinə dair daha bir neçə misal:

I believe you’ll get it - İnanıram ki, o vəzifəni tutacaqsan (Mən inanıram ki, sən ona nail olacaqsan).

Aralarındakı üslubi fərqlərə baxmayaraq, hər iki feili birləşmə qəti-gələcək zaman formasındadır.

b) Will modal feilinin be feili ilə işlənməsi:

“If anyone get that airplane moved tonight”, Mel conceded, “it’ll be Joe” - Mel dedi: - hə, əgər o təyyarəni yerindən tərpətsə, yalnız Cou tərpədəcək (Əgər bir kəs bu axşam o təyyarəni yerindən tərpədə bilsə – deyə Mel zənn edirdi – o, Cou olacaqdır).

This advice will be a free sample, but like toothpaste - any subsequent tubes will have to be paid for. – Bu məsləhət reklam edilən ilk diş pastası kimi havayı olacaq, ancaq sonrakı məsləhətdən ötrü pul vermək lazımdır (Bu məsləhət müftə olacaq – diş pastası kimi – hər bir sonrakı pullu olacaqdır (hər bir sonrakına pul vermək lazım gələcəkdir).

c) Will modal feilinin have feili ilə işlənməsi:

Will feilinin bu cür işlənməsi ilə bağlı bir neçə misala nəzər salaq.

I believe you will have no difficulty in proving it here. – Ümid edirəm ki, bunu sizə geniş izah etməyə ehtiyac yoxdur (Mən inanıram ki, burada bunu sübut etməkdə sizin heç bir çətinliyiniz olmayacaq).

Yuxarıda danışılanlardan əlavə will feili ilə bağlı digər məqamları da nəzərdən keçirək: Will modal feil kimi yarımmodal olub, shall feili kimi ikili xüsusiyyətə malikdir. Belə ki, will feili gələcək qeyri-müəyyən zaman formasında (The Future Indefinite Tense form) ikinci və üçüncü şəxsin təkində və cəmində köməkçi feil kimi işlənir.

Ədəbiyyat

1. Cahangirov F.F. İngilis və Azərbaycan dillərində modallığın struktur-semantik tədqiqi (müqayisəli tipoloji tədqiqat). Bakı: Elm, 2005, 312 s.

2. Ахманова О.С. Словаръ лынгвитических терминов, Издание 2-е, М.: Советская литературная энциклопедия, 1996, 608 с.

3. Ilyish B. The Structure of Modern English. Leningrad: Prosvescheniye, 1971, 366 p.

4. Musayev O. İ. İngilis dilinin qrammatikası. Bakı: Maarif, 1996, 385 s.

5. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Bakı: Mütərcim, 2015, 376 s.

6. Бархударов Л.С., Щтелинг Д.А. Грамматика английского языка. Москва: Прогресс, 1973, 422 с.

7. Иванова П.И., Бурлаков В.В., Почебсов Q.Q. Теоретическая грамматика современного английского языка. М.: Прогресс, 1981, 281 с.

8. Börjars K. and Burridge K. Introducing English Grammar. London: Edward Arnold, 2001, 328 p.

9. Collins P. English Grammar. London: Longman, 1999, 918 p.

10. Howard L. Kill and Tell. USA: Pocket Star Books, 2003.

11. Mark T. The Adventures of Tom Sawyer. UK: Pinguin Books, 1876.

М.О.Мамедли

Полумодальные глаголы на современном английском языке

Резюме

В статье рассматриваются полумодальные глаголы в современном английском языке. Модальные глаголы в английской грамматике: can, could, may, might, must, need not, Should / will, should / should to и т. д. Они выражают такие вещи, как способность, разрешение, возможность, обязательство и т. д. Модальные глаголы имеют только один форма. Они не принимают простое настоящее и не имеют формы причастия прошедшего простого или прошедшего времени. Однако у некоторых модальных глаголов есть альтернативные формы, которые позволяют нам выражать одни и те же идеи в разных временах.

Полумодальные глаголы - это глаголы, которые иногда ведут себя как модальные вспомогательные глаголы. Как и «правильные» модальные глаголы, они используются с базовой формой глаголов (инфинитив без до) для создания уникального значения.

M.O.Mammadli

Semi-modal verbs in modern English

Summary

The article deals with the semi-modal verbs in modern English. The modal verbs in English grammar are *can, could, may, might, must, need not, shall/will, should/ought to*, etc. They express things like *ability, permission, possibility, obligation*, etc. Modal verbs only have one form. They do not take *-s* in the simple present and they do not have a past simple or past participle form. However, some modal verbs have alternative forms that allow us to express the same ideas in different tenses.

Semi-modal verbs are verbs that *sometimes* behave like modal auxiliary verbs. Like the "proper" modal verbs, they are used with the base form of verbs (the infinitive without *to*) to create a unique meaning.

Rəyçi: filol.f.d., dos. S.B.Mustafayeva

Redaksiyaya daxil olub: 22.04.2021

R.X.MƏMMƏDZADƏ
e-mail: rena.m6556@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

KOQNİTİV DİLÇİLİKDƏ ZAMAN VƏ MƏKAN ANLAYIŞININ KONSEPTUAL XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *məkan, konsept, zaman, hadisə, münasibət, qavrayış, xüsusiyyət.*
Ключевые слова*: пространство, понятие, время, случай, рассмотрение, восприятие, свойство.*
Key words*: space, concept, time, occasion, consideration, perception, feature.*

Zaman və məkan kateqoriyaları ümumbəşəri kateqoriyalara aiddir (və bu təbii ki, nə milli, nə də fərdi-müəllif qavrayış xüsusiyyətlərini inkar etmir) və dünyanın qavranması prosesində əsas rollardan birini oynayır. Bu kateqoriyalar insan şüuru üçün koordinat sistem kimi çıxış edərək, dünyada predmetləri və hadisələri nizama salmağa imkan verir və mətndə konseptual mənaların eksplikasiyasının mental əsasını təşkil edir.

Məkan və məkan münasibətlərinin modelləşdirilməsi, məkan kateqoriyalarında dünyanın qavrayış xüsusiyyətlərinin əks olunması və bu xüsusiyyətlərin insan dilində ötürülməsi müasir elmin aktual problemlərindən biridir.

Təcrübələr göstərir ki, insan tərəfindən qavranılan məkan onu əhatə edən fiziki dünyanın real təsviri ilə uyğunluq təşkil etmir. Bu səbəbdən məkan fiziki və konseptual məkan olmaqla fərqləndirilir. Konseptual məkan dedikdə real mövcud olan məkan deyil, müəyyən mücərrədlik başa düşülür. Dildə tədqiqat obyekti olan koseptual məkan öz sahəsinə görə fiziki məkandan daha genişdir. Məsələn, məkan mənalı konstruksiyaların semantik strukturu real məkanın stukturu ilə əlaqədar deyil (Шаранда, А.Н. 1981: 49). Dünyanın koqnitiv qavrayışı predmet-məkan və hadisə-zaman kateqoriyalarında baş verir. A.V. Kravçenkonun fikrinə müvafiq olaraq dildə məkan münasibətlərinin indeksasiyası dil vasitələri ilə ifadə olunur və bu zaman danışan və ya nitq prosesinin digər iştirakçısı öz vəziyyətini (və ya digər obyektin vəziyyəti) üçhədli məkanda qavrayır, onun əsas ölçüləri dildə vahidlərlə təqdim olunur, məsələn ingilis dilində *up – down* (şaquli), *front – back, left – right* (üfüqi), *in – out* (qarışıq) (Кравченко, А.В. 1992: 110).

Məkan və zaman orqanik olaraq qarşılıqlı əlaqədə olduqları üçün konseptual topoloji məkan-zaman münasibətləri ilə birlikdə mövcud olur (Шаранда, А.Н. 1981: 50).

"Zamanın konseptuallaşması prosesi və müvafiq konseptin formalaşması mürəkkəb və çoxsəviyyəli proses kimi təsvir edilir. İlkin olaraq "zaman", "məkan", "təbiət" kimi ümumi anlayışların yaranması, obyektlərin ayırd edilməsi, onların digər obyektlərə və hadisələrə münasibətlərinin dərk olunması prosesini müşayiət etmişdir" (Любинская, Л.Н. 1966: 25).

C. Lakoffun və M. Consonun nəzəriyyələrinə müvafiq olaraq zaman bilavasitə deyil, əsasən, hadisələrin, məkanın və hərəkətin terminlərində vasitəli qaydada konseptuallaşır. Bu zaman konseptuallaşma prosesində mərkəzi rolu hadisə oynayır. Müəlliflərin qeyd etdikləri kimi, insanda zamanı substansiya kimi müşahidə etmək imkanı yoxdur və buna görə də, o, hadisələri müşahidə və müqayisə edərək zamanı qavrayır (Lakoff, Johnson 1999: 137-139). Lakin bu, insanda real zaman təcrübəsinin olmaması demək deyildir. Sadəcə olaraq real zamanla bağlı insan təcrübəsi hər zaman hadisələrin təcrübəsi ilə qarşılıqlı münasibətdə olur və onlara əsaslanır. Başqa sözlə desək, zaman necə ki şüurda, eləcə də dildə, daha çox hadisə terminlərində təcəssüm edir (elə orada). Bu da hadisələr prizmasından zamanın bir sıra ontoloji xarakteristikalarının dərk olunmasını təmin edir.

“Zamanın istiqaməti” “zaman” konseptinin məzmununda müvafiq konseptual xarakteristikaların formalaşması və indiki, keçmiş, gələcək zaman kimi hadisələrin ardıcıllığının, eləcə də dönmə, müxtəlif istiqamətlilik və qeyri-ardıcıllıq kimi xarakteristikaların dərk olunması üçün əsas yaradır. Hadisələrin təsiri altında zamanın ölçülü olması çoxhədlilik kimi konseptuallaşır (Тураева, З.Я. 1979: 13-30).

Hadisə ilə yanaşı, zamanın konseptuallaşmasında onun məkanla qarşılıqlı əlaqəsi də vacibdir. Yada salmaq lazımdır ki, məkan-zaman münasibətlərinin indiyə kimi şərhi diskussiyalı olaraq qalır. Lakin bununla belə, məkan və zaman münasibətlərinin ayrılmaz əlaqəsi keçmişdə vahid məkan-zaman xüsusiyyətlərinin mövcudluğu təsdiq olunur. Buna sübut kimi məkan münasibətlərinə aid olan və zaman münasibətlərinin xüsusiyyətləri üçün tətbiq olunan “uzaq”, “arxada”, “irəlidə” kimi sözlərin dildə mövcudluğu faktı göstərilir.

Məkan münasibətlərinin zaman münasibətlərindən daha əvvəl qeyd edilməsi haqqında fikirlər mövcuddur. İnsanın ontogenezində məkanda oriyentasiya etmək bacarığının daha əvvəl mövcud olduğu, zamanda oriyentasiya etmək bacarığının isə sonradan inkişaf etməsi haqqında psixolinqvistlərin məlumatları əsas kimi çıxış edir (ətraflı bax (Любинская, Л.Н. 1966)).

Əhəmiyyətli məqam kimi qeyd etmək lazımdır ki, məkan terminlərində zamanın konseptuallaşması təcrid olunmuş qaydada baş vermir, yalnız məkan və hadisənin qarşılıqlı fəaliyyəti əsasında baş verir. Məhz onların təsiri altında “uzunluq” konseptual xarakteristikası formalaşır (Lakoff, Johnson 1999).

Aristotel belə hesab edirdi ki, zaman orqanik olaraq hərəkətlə əlaqədardır və kəmiyyət xarakteristikasını təmsil edir (Aristorel 1936: 75). Konseptual sistemdə hərəkət ilkin olur və zaman hərəkət terminlərində başa düşülür. Buradan belə qənaətə gəlmək olar ki, “zaman” konsepti “hadisə”, “hərəkət”, “məkan” kimi konseptlərlə sıx şəkildə əlaqəlidir. Başqa sözlə desək, hadisələr, məkan və hərəkət haqqında təsəvvürlər insan şüurunun fundamental konseptlərindən biri olan “zaman” konseptinin formalaşması üçün ilkin bazanı təşkil edir.

“MƏKAN”, “HƏRƏKƏT”, “HADİSƏ” konseptlərinin müəyyən vəziyyətini və “ZAMAN” konseptinə qarşı münasibətdə ümumiləşdirici rolunu aşağıda təqdim olunan sxemdə görmək mümkündür.



Yuxarıda qeyd olunanlardan belə bir nəticə çıxartmaq mümkündür: zaman özündə ən ümumi xassələri cəmləşdirən inteqral, sintetik fenomendir, dördüncü ölçü vahidi olmaqla digər ölçü vahidlərinin xüsusiyyətlərinin ümumiləşdirilməsidir. Bununla əlaqədar olaraq L.N.Lyubinskaya zamanı “bir-biriləri ilə qarşılıqlı əlaqədə olan bir çox xüsusi sistemlər arasındakı münasibət” kimi müəyyən edir (Любинская, Л.Н. 1966: 7). Nəticə olaraq, “zaman” öz strukturuna və məzmunun spesifik xüsusiyyətlərinə görə konseptual məkanın təşkili üçün zəruri olan ən mürəkkəb konseptlər sırasına daxildir.

İnsanın koqnitiv fəaliyyətində fiziki və xüsusilə də, məkan təcrübəsi böyük əhəmiyyət kəsb edir. Dildə zamanın modelləşməsi məkan mənalarından “yan ötüb keçə bilməz”, çünki “məkan bilavasitə qavrayış üçün münasibdir və onun modelləri adi şüurda daha sabitdir” (Арутюнова Н.Д., 1999: 689).

İnsan üçün zaman və məkan anlayışlarının fundamentallığı, eləcə də onların insan şüuru tərəfindən qavranmasının oxşarlığı ilə əlaqədar olaraq zaman əksər hallarda məkan xüsusiyyətlərini təyin edən dil vasitələri ilə verballaşır. Məkan mənalı leksik vahidlərdən istifadə etməklə zaman haqqında danışmaq mümkündür. İngilis dilində zaman münasibətləri məkan münasibətlərini reprezentasiya edən bir çox sözönülərin və zərfin köməyi ilə təsvir olunur: *at, on* (Fauconnier G., 1997: 26), eləcə də: *in, by, about, away, before, behind* və s. Əksər sözönülərin mənasının əsasını metaforik məna təşkil edir (Платонова, О.В. 1996: 64).

Məkan və zamanın ümumi xassəsi kimi ölçü *long, short (day), endless (night), infinite (time)*və s. kimi nominal vasitələrlə; *last, pass, dragon, crawl, flow, fly, run* və s. kimi feil vasitələri ilə ifadə olunur. Uzunluğun reprezentasiyası üçün məsafə və ya yerə işarə edən söz və ifadələr metaforik və ya metonimik istifadə oluna bilər: *in a short space of time, not long ago from here, two hours away,* etc.

Buradan belə qənaətə gəlmək olar ki, ingilis dilində məkan xüsusiyyətlərinin nominasiya vasitələri zaman mənalarının ötürülməsi üçün məhsuldar şəkildə istifadə olunur.

ZAMAN və ya ingilis dilinin daşıyıcıları üçün "TIME" universal xarakter daşıyır, bütün dillərdə reprezentasiya olunur, həm təbiət, həm də humanitar elmlərdə öyrənilir. Zaman bir neçə antinomiyalarda öyrənilir: xəttilik – qeyri-xəttilik (dövrülük); fasiləlilik – fasiləsizlik; müvəqqətilik – sonsuzluq (məhdudiyyətlilik – qeyri-məhdudiyyətlilik); dinamiklik – sabitlik; diskretlik – qeyri-diskretlik, eləcə də onun istiqamətlilik, uzunluq, ardıcıllıq və s. kimi xüsusiyyətləri nəzərdən keçirilir.

Zamanın bu və ya digər xarakteristikaları, əsasən, məkan təbiətinə malik olan müəyyən koqnitiv sxemlərin hesabına dildə reprezentasiya əldə edirlər. Bu sxemlər istənilən xarakterli məlumatı strukturlaşdırmaq qabiliyyəti ilə seçilir. Onların hamısı zamanın konseptuallaşmasının üç əsas modelinə: məkan, metaforik və metonimiya modellərinə şamil edilə bilər.

Bu və ya digər leksik vahidlə ifadə olunan (*a period: minutes, hours, years; a point in time: at 5 o'clock,* etc) zaman xarakteristikalarından hər biri belə güman etməyə imkan verir ki, zamanın leksik konseptuallaşmasının əsasını müəyyən məkan sxemləri, məhz: *tutum, hissə – bütöv, nöqtə, kəsik, vektor, xətt, punktir, dairə, spiral* təşkil edir. Hər bir məkan sxemi TIME konseptini strukturlaşdıraraq dildə reprezentasiyanın və leksik konseptuallaşmanın obyekti olan konkret xüsusiyyətləri qeyd edir.

HİSSƏ – BÜTÖV koqnitiv sxemi əsasında zamanın konseptuallaşmasının leksik üsulu insan şüurunun zamanı fraqmanetlərə, epizodlara, dövrlərə bölməyə, onda "hissələri" ayırd etməyə qadir olduğunu təsdiq edir. İstənilən zaman kəsiyi və ya zaman fasiləsi növbəti nümunədə göstərildiyi kimi bütövün hissəsi, fraqmenti və ya hissələrdən, yəni dövrlərdən biri ola bilir:

At the end of the first week in May, Rabin came to Washington for a policy conference of the American-Israel Public Affairs Committee. (Itamar R.1998: 178)

Zamanın istiqamətlilik kimi xüsusiyyəti şüurda VEKTOR məkan sxemi şəklində təqdim olunur. İki mümkün istiqamətin seçildiyi istənilən zaman kəsiyi vektor adlanır və o, iki ardıcıl nöqtələrin mövcudluğu ilə müəyyən olunur. Bu nöqtələrdən biri zaman kəsiyinin başlanğıcı, digəri isə sonu olur. Zaman vektoru ilə bağlı hallarda onun başlanğıc və ya son nöqtələri haqqında zaman oxundakı nöqtələr kimi danışa bilərik. Onlar ya konkret zamana işarə etməklə, ya da bu və ya digər anda və ya zaman dövründə baş verən hadisələrə konkret zamana işarə etməklə xarakterizə oluna bilər.

VEKTOR koqnitiv sxemi zamanın uzunluq, davamlılıq (adətən, *for* sözönülü birləşmələrlə reprezentasiya olunan) və istiqamətlilik kimi xüsusiyyətlərini ayırd edir. Bu da dildə *from, since, after, before* sözönülərinin birləşməsi ilə zaman dövrünün başlanğıc və ya son nöqtələrinə işarə etməklə (məs.: *for three months after)* ötürülür.

Fasiləsizlik bizim şüurumuzda XƏTT koqnitiv sxem şəklində əks olunur və o, həndəsədə düz xətt və ya zaman oxu adlandırılaraq, hər iki tərəfə birhədli, fasiləsiz, sonsuz, qeyri-

məhdud qaydada uzanır və zaman mənası daşıyan *always eternally, constantly, continuously, never, ever, at no time, for ages, a week of Sundays*, etc və s. kimi leksik vahidlərin köməyi ilə dildə konseptuallaşır.

Fasiləliliyi intervallarla ayrılan, ayrı-ayrı nöqtələrdən və ya cizgilərdən əmələ gələn, xətti ifadə edən PUNKTİR kimi sxematik ötürmək mümkündür. İngilis dilində fasiləlilik *often, from time to time, occasionally, repeatedly, seldom, sporadically, once in a while, now and then, on and off*, və s. kimi vasitələrlə reprezentasiya olunur. Qeyd edilən leksemalar hadisələri okkazional, müəyyən dövrülüyə malik olmayan və müəyyən zaman intervalı ilə vaxtaşırı baş verən hadisələri xarakterizə edir. Başqa sözlə desək, punktir əmələ gətirən "nöqtələr" və ya "cizgilər" hadisələri və ya hərəkətləri ifadə edir və onlar arasındakı intervallar bu hadisələr arasındakı zaman intervalları ilə qarşılıqlı əlaqədə olur.

Zamanın dövrülük kimi xarakteristikası DAİRƏ və ya SPİRAL kimi koqnitiv sxemlərlə təqdim oluna bilər. Bu halda zamanın və ya hadisələrin zamana görə hərəkəti bu sxemlərə əsasən nəzərdən keçirilir. Məsələn, dairəvi hərəkət fasiləsiz hərəkəti, ilkin vəziyyətə qayıdışla xarakterizə olunan prosesi nəzərdə tutur, bu da ingilis dilində növbəti leksik vasitələrlə reprezentasiya olunur: *over and over (again), all over again, time and (time) again,* və s.

Spiralvari hərəkət müəyyən fazalığı nəzərdə tutaraq daimi sürətlə, bərabər qaydada fırlanan düzxətli burumlar boyu fasiləsiz hərəkətdir (Гришина Е.А.,2009: 663). SPİRAL sxemi *every hour on the hour, every day, annually, regularly, hour by hour, week by week* və s. kimi leksik vahidlərlə reprezentasiya olunur. *As individuals and as families, few of us can produce energy by ourselves. But all of us can conserve energy – every one of us, every day of our lives.* (Jimmy Carter State of the Union Address 1980. January 23, 1980)

We've increased annually our real commitment for defense, and we will sustain this increase of effort throughout the Five Year Defense Program (Jimmy Carter. State of the Union Address 1980. January 23**,** 1980).

Beləliklə, bütöv, strukturlaşdırılmamış TIME konsepti nəzərdən keçirilən konseptin müxtəlif xarakteristikalarını təmsil edən koqnitiv məkan sxemlərinin toplumu şəklində təqdim oluna bilir. Məkan təcrübəsi əsasında formalaşan sxemlərin koqnitiv təbiəti onları zaman kimi mürəkkəb mental mahiyyətin strukturlaşdırılması üçün istifadə etməyə imkan verir.

TIME konseptinin strukturlaşdırılmasının məkan sxemləri bir tərəfdən ingilis dili daşıyıcılarında zamanın leksik mənalarının formalaşmasının əsasını təşkil edir, digər tərəfdən isə zamanın konseptuallaşdırılmasının məkan modelində qruplaşır (zamanın konseptuallaşdırılmasının leksik modelləri haqqında daha ətraflı bax (Болдырев Н.Н., 2012).

Bəzi alimlərin fikrincə, zaman və zaman dəyişiklikləri yalnız metaforik və metonimik qaydada konseptuallaşır (Lakoff G.,1999). Zaman məkan terminlərində metaforik dərk oluna bilər. Belə güman olunur ki, bu interpretasiyada metafora məhdud mənada bir konseptual mahiyyətin digər konseptual mahiyyət vasitəsilə qavranmasının konkret mexanizmi kimi başa düşülür. Bu cür metaforik köçürmə məkanın və zamanın qavranmasının oxşarlığına əsaslanmışdır və bunun nəticəsində məkanın koseptuallaşması zamanın koseptuallaşması üçün bir növ model kimi çıxış edir.

Konseptual metafora assoisativ-obrazlı əsaslarla yaradılır və problemli-koqnitiv situasiyaların həlli üçün bir növ vasitəsidir. Konseptual metafora insan tərəfindən asanlıqla qavranılan mücərrəd konseptləri və anlayışları yenidən yaradır, kontekst üçün daha vacib olan konseptin xüsusiyyətlərini işıqlandırır. Konseptual metafora aydından daha az aydın mənaya keçid vasitəsi olaraq bir sahənin digər prizmadan anlaşılmasını nəzərdə tutur və ayrı-ayrı xarakteristikaların və ya strukturların mənbə konseptual sahədən hədəf sahəsinə köçürülməsinə əsaslanaraq hədəf sahənin təkrar strukturlaşdırılmasına səbəb olur (Лакофф Дж.,, 2008, s. 25-27).

Zamanın məkan metaforasından bəhs edərək qeyd etmək lazımdır ki, indiki zamanda yerləşən, danışan şəxs (və ya müəyyən müşahidəçi), üzü gələcəyə və kürəyi keçmişə doğru dayanır, yəni belə güman olunur ki, zamanın istiqaməti məkan etibarilə irəliyə doğru yönəlir.

Gələcək müşahidəçinin qarşısında dayanır və bu da *in front of, forward, ahead* kimi məkan sözönüləri ilə reprezentasiya olunur, keçmiş isə arxada qalır (*back, behind*). İnsan və digər obyektlər isə bir zamandan digərinə keçiddə zaman oxu üzrə "yerdəyişməyə" uğrayır (Fauconnier G.1997: 26).

Zaman hərəkətsiz olduğu zaman məkan metaforasının ikinci tipi meydana çıxır və insan (müşahidəçi) və ya obyekt zaman boyu hərəkət edir və ya hər hansı bir hadisə zaman boyu çevrilərək məkan kimi konseptuallaşır (*ahead of the time, keep up with the times, against time, spread over time*).

Konseptual metonimiya zaman mənalarının formalaşması mexanizmi kimi strukturlaşdırılmış sahənin bir elementinin digərinin yerdəyişməsi üçün istifadə olunmasını nəzərdə tutur. Metonimik konseptlər sistemli qaydada təşkil olunur və insanın adi şüurunun tərkib hissəsini təşkil edir.

TIME konsepti SPACE konsepti ilə, və ya əksinə metonimik qaydada təqdim oluna bilir. Belə ki, zaman müddəti məsafəni əvəz edə bilər. Məsələn: *a few minutes' walk away, three hours from home* və s. kimi ifadələrdə zaman məkan kimi konseptuallaşır və məsafənin dəf olunmasına sərf olunmuş bu zaman bilavasitə bu məsafə ilə qarşılıqlı nisbətdə olur. Digər tərəfdən, məsafə metonimik olaraq zamanın yerini dəyişə bilər.

Gerçəkliyin bu iki aspekti o qədər sıx şəkildə əlaqədardır ki, insan zamanın konseptuallaşmasının leksik vasitələrini seçərək məkan münasibətlərinin təsviri vasitələrinə və formalarına müraciət edir, yəni analoji koqnitiv sxem və modellərdən istifadə edir.

Ədəbiyyat

1. Аристотель Физика /Аристотель. – М.: Соцэкгиз, 1936. – 188 с.
2. Болдырев Н.Н., Маховикова Д.В. Лексический способ концептуализации времени в современном английском языке // Вопросы когнитивной лингвистики. – 2012. № 2. С. 5-15.
3. Гришина, Е.А. Новейший иллюстрированный словарь иностранных слов. М., – 2009.
4. Кравченко, А.В. Вопросы теории указательности: Эгоцентричность. Дейктичность. Индексальность. – Иркутск: ИГУ, – 1992. – 212с.
5. Любинская, Л.Н. Философские проблемы времени в контексте междисциплинарных исследований (Электронный ресурс)/ Л.Н. Любинская, С.В. Люпилин. – Режим доступа: www. chronos.msu.ru.
6. Платонова, О.В. Национальное языковое сознание сквозь призму предлогов // Россия и Запад: диалог культур: Материалы 2-й междунар. конференции 28-30 ноября 1995г. / Отв. ред. А.В. Павловская. – М., Центр по изучению взаимодействия культур, – 1996. – С. 64-72.
7. Тураева, З.Я. Категория времени. Время грамматическое и время художественное. М., – 1979.
8. Шаранда, А.Н. Сравнительная типология категории предлога: На материале немецкого, русского и белорусского языков. – Мн.: Наука и техника, – 1981. – 230с.
9. Fauconnier, G. Mappings in Thought and Language. Cambridge University Press, 1997.
10. Itamar, R. The Brink of Peace: The Israeli-Syrian Negotiations. Princeton University Press, 1998. – 283pp.
11. Lakoff, G., Johnson M. Metaphors we live by. Chicago: University of Chicago Press, 2008, – 242 pp.
12. Lakoff, G., Johnson M. Philosophy in the Flesh: The Embodied Mind and its Challenge to Western Thought. N. Y., – 1999, 624 pp.

Р.Х.Мамедзаде

Концептуальные особенности восприятия времени и пространства в когнитивной лингвистике

Резюме

В данной работе подчеркивается одна из актуальных проблем современной науки, как единство представлений о времени и пространстве. Категории времени и пространства играют ключевую роль в процессе восприятия мира. Формирование соответствующей концепции описывается, как сложный и многоуровневый процесс.

Процесс концептуализации времени выражается в терминах действия. Человек понимает время, сравнивая и наблюдая за событиями.

В статье отражена важность его взаимодействия с пространством в концептуализации времени. Неразрывная связь между временем и пространством подтверждается существованием единого пространственно-временного признака в прошлом.

В большинстве случаев время в вербализуется с помощью языка, который определяет характеристики пространства.

Большое значение в познавательной деятельности человека имеет пространственный опыт. В концептуальной системе действие является первичным, и время понимается с точки зрения действия. Восприятие и понимание мира неразрывно связаны с восприятием пространства. Интерпретация пространственно-временных отношений до сих пор остается спорной.

R.Kh.Mammadzada

Conceptual features of perception of time and space in cognitive linguistics

Summary

In the written work, one of the urgent problems of modern science is emphasized as the unity of the concepts of time and space. Categories of time and space play a key role in the process of perceiving the world. The formation of an appropriate concept is described as a complex and multilevel process.

The process of conceptualization of time is expressed in terms of action. Human comprehends time by comparing and observing events.

The importance of its interaction with space in the conceptualization of time is reflected in the article. The inseparable connection between time and space is confirmed by the existence of a single time-space feature in the past.

In most cases, time is verbalized by means of language that determine the characteristics of space.

Spatial experience is of great importance in human cognitive activity. In a conceptual system, action is primary and time is understood in terms of action. Perception and understanding of the world are inextricably connected with the perception of space. The interpretation of time-space relations remains disputable until now.

Rəyçi: prof. A.Y.Məmmədov

Redaksiyaya daxil olub: 05.05.2021

G.Z.RƏHİMOVA,
S.Ə.TAHİROVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

MƏDƏNİYYƏTLƏRARASI ÜNSİYYƏTDƏ VASİTƏSİZ NİTQ AKTININ İSTİFADƏSİNƏ DAİR

Açar sözlər: *nitq aktı, mədəniyyətlərarası ünsiyyət, illokutiv qüvvə, nəzakət, kommunikativ-praqmatik xüsusiyyətlər.*

Ключевые слова*: речевой акт, межкультурная коммуникация, иллокутивная сила, вежливость, коммуникативно-прагматические особенности.*

Key words*: speech act, intercultural communication, illocutionary force, politeness, communicative-pragmatic features.*

İyirmi birinci əsrin əvvəllərində hər zamankından daha aktual olan beynəlxalq əməkdaşlığın peşəkar, elmi-texniki, mədəni, şəxsi məsələsi durur. Mədəniyyətlərarası ünsiyyət müxtəlif mədəniyyətlərin nümayəndələri arasında məlumat mübadiləsini və ünsiyyəti nəzərdə tutur. Bu fərqlər ünsiyyət hadisəsinin müvəffəq və ya uğursuz olmasına əhəmiyyətli dərəcədə təsir edir. Mədəniyyətlərarası ünsiyyət iştirakçıların birbaşa təmasda olduqları xüsusi dil variantlarından və diskursiv strategiyalardan istifadə etmələri ilə xarakterizə olunur. Bütün bunlar mədəniyyətlərarası əməkdaşlıq prosesində ünsiyyət quranların milli və mədəni spesifik xüsusiyyətlərini dərk etmə aktuallığından danışır. Məqalənin məqsədi mədəniyyətlərarası ünsiyyət prosesində vasitəsiz nitq aktlarının aktuallaşdırılmasında həmsöhbətlərin dialoq həmmüəllifliyinin araşdırılmasıdır.

Nitq aktı (speech act) insanın nitq davranışının minimal, elementar vahidi hesab olunur. Həqiqətən, hər ünsiyyət anında məlumat vermək, təhdid etmək, sifariş vermək, məsləhət vermək, təbrik etmək, tərifləmək, qınamaq və s.kimi müxtəlif nitq aktları icra edirik. Mədəniyyətlərarası ünsiyyət prosesində vasitəsiz nitq aktlarının tədqiqi bizə çox maraqlı görünür, xüsusən də müxtəlif linqvokultural icmaların nümayəndələri həmsöhbətin davranışını mədəni və dil maneələri fonunda idarə etməyə çalışırlar. Əgər vasitəli aktda bir məna varsa (buna hərfi, fərdi, əsas da deyilir), o zaman vasitəsiz, dolayı ifadələrdə birdən çox illokutiv qüvvə olur, yəni dil vasitəsi ilə açıq şəkildə ifadə edilmiş illokutiv qüvvə fonunda başqası meydana çıxır, daha doğrusu, nitq aktında onun səthi quruluşunun çatdırdığından daha çox məna var və dinləyən onun haqqında təxmin etməlidir. Burada danışanın ifadəsinin mənası demək olar ki, həmişə cümlənin mənasından fərqlənir, praqmatik mənası semantik mənadan daha genişdir. Dolayılıq danışanın kommunikativ niyyətlərinin dolğunluğunu nəzərdə tutur. Nitq aktında bir neçə illokusiyanın həyata keçirilməsinin mümkünlüyü nəzərdə tutulur və onların həyata keçirilməsində ierarxiyaya riayət edilməsinə xüsusi diqqət yetirilməlidir. Çox vaxt birinci illokulyasiya qüvvəsi ikinci qüvvə ilə eyni vaxtda həyata keçirilir. J. Serl bu nitq aktını dolayı bir nitq aktı olaraq təyin edir (məsələn, sual və əmr cümlələrinin iloksiyasiya qüvvələrinin tipik bir ifadəsi: Have you got an extra book? = Give me the book (danışan əlavə bir kitab olduğuna əmindirsə) təsdiq və əmr: It is cold in the room = Close the window. (3)

Müasir praqmatikada vasitəsiz nitq aktının bir neçə növü vardır: 1.Adresatın amilinə görə. Vasitəsiz nitq aktı bir və ya bir neçə şəxsə ünvanlana bilər. Buna görə, bunlar birbaşa və dolayı olaraq bölünürlər, burada adresat birbaşa ona müraciət olunan şəxs deyil, başqa bir şəxs və ya insanlar qrupudur (5). Məsələn: Father (dog next to his son): Lassie, Daniel is going for a walk with you. Vasitəsiz nitq aktının köməyi ilə ata oğluna iti gəzməyə çıxarmağı əmr edir. Cümlə iki sintaqma bölünmüş halda ,cümlənin birinci hissəsi enib-qalxan ton, ikinci

hissəsi isə enən tonla tələffüz olunur. 2. Konvensiyalaşma dərəcəsinə görə. Bir çox vasitəsiz nitq aktının illoksiyasiya gücü dinləyicilər tərəfindən birmənalı şəkildə qəbul olunur. Bu cür nitq aktlarının məzmunu, yalnız vəziyyətə əsaslanaraq, kontekst olmadan adresat tərəfindən asanlıqla tanınır. E.V. Klyuev, XX əsr diqqət mövzusundan forma (simvolizm, futurizm və s.) köçürüldüyü zaman dilin təmizlənməsi işarəsi altında keçdiyini yazır (2). Tədqiqat üçün bütün vasitəsiz nitq aktları arasında ən maraqlısı, mədəniyyətlərarası dialoq danışıqlarında olduqca tez-tez rast gəlinən, semantikasında "dinləmə" komponentini ehtiva edən direktiv nitq aktlarıdır, çünki adresat tərəfindən məcburi cavab verilməsini nəzərdə tutur. Məsələn, İngilis dilində sorğu vasitəsiz nitq aktları araşdırılarkən I.V. Vinantova onların aşağıdakı kommunikativ və praqmatik xüsusiyyətlərini önə çıxarır (1):1. Məzəmmət mənası ifadə edən sorğu vasitəsiz nitq aktları. İngilis ünsiyyətçiləri məzəmmət edərkən, adresatın dünyasının sərhədlərini pozmadan duyğularından danışır və bununla da praqmatik nəzarət prinsipinə riayət edirlər. Məzəmmət - məzəmmət edən üçün potensial təhlükəli bir hərəkət olduğundan, danışan məzəmməti dolayı yolla ifadə etmə strategiyası seçir. That`s all right, but what`s the use of all this secrecy? Why can`t you come out and tell what`s the matter with you? What`s the use of this whispering behind doors? 2.Təklif və tövsiyə mənası ifadə edən sorğu vasitəsiz nitq aktları . Burada nəsihət edən şəxs adətən böyük bilik və ya səlahiyyət sahibi olan bir adamdır. İngilis dil mədəniyyətinin əksər nümayəndələri istənilməyən tövsiyələrin qəbuledilməz olduğuna inanırlar, çünki ingilislər çox aqressiv və özlərinə inamlı görünməkdən qorxurlar. 3.Xahiş mənası ifadə edən sorğu vasitəsiz nitq aktları . Bütün ingilisdilli lüğətlərdə sorğunun rəsmiliyi və nəzakəti qeyd olunur. Xahiş mənası ifadə edən nitq aktı müraciət edən şəxsin müsahibin niyyət və arzularının təmin edilməsinə sövq etmək məqsədi güdür. Sorğunun yerinə yetirilməsi birbaşa adresatdan asılıdır, adresatın davranış qaydaları tətbiq etmək hüququ yoxdur, lakin şəxsi maraqlarına baxmayaraq əməkdaşlığa çağırır. “Look, will you leave me alone, please?” Anna said. “I`m minding my own business, mind yours why don`t you.” She stood up, her towel sliding off, and tried to get past him to the land, but he side stepped in front of her. Bu cümlədə emfatik enən ton üstünlük təşkil edir. Ritorik sualların məqsədi ünsiyyət edənlərin onlara əvvəlcədən məlum olan “cavab” ı və ya danışanın fikrincə dinləyicinin ona istər-istəməz məlum olan cavaba nəzər salmaqdır. Don`t you know what a pleasure it was to me to help you a little? Dəvət mənası ilə soruşulan vasitəsiz nitq aktları arasında iki növ önə çıxır: açıq (unambiguous) və gizli (phony). "Gizli dəvət’’ birbaşa yollarla ifadə edilir və çox vaxt yalnız etiket formulu kimi xidmət edir (Drop in before you leave London-deyilən hərəkətin yerinə yetirilməsini nəzərdə tutmur). Dolayı sual, baş cümlədə xəbərin dəyərini, budaq cümlədə isə arzu olunan məlumatın mahiyyıtini izah eden tabeli mürəkkəb bir cümlədir, məsələn: I’m not quite sure how long you’ve known the Fieldings (Fowles); “I’m dying to know what you did with all the lions you slaughtered,” said Susie Boyd (S. Maugham). Nəzakətli bir sualın bir variantı həm də “sualdakı sual” dır, burada həqiqi məlumatverici sual dinləyicinin məlumatlılığının səviyyəsi barədə soruşulan ümumi sual ifadəsinə əlavə olaraq daxil edilmişdir. Bu cür ifadələr dinləyiciyə yalnız rəsmi şəkildə ifadə olunmuş suala cavab verməklə “oyundan çıxmaq” üçün yaxşı bir şans verir: “Do you happen to know when it is open?” – “Oh, no, no. I haven’t been there myself” (L. Jones). Cümlənin birinci sintaqmı nisbətən tez, axırıncı isə güclü vurğu ilə tələffüz olunur. Dolayı direktiv nitq aktının mədəniyyətlərarası ünsiyyət prosesindəki funksiyalarından biri də fatik funksiyadır. Dolayı direktiv aktların fatik funksiyasının adresata təsirin zəifləmə/ artırma funksiyası ilə əlaqəli olduğu hesab olunur. Dolayı direktiv aktın axınına üstünlük verən şərtlər yalnız həmsöhbətlərdən asılı olmayan xarici şəraitini deyil, həm də dolayı direktiv aktın subyektini təmin edir. Belə bir vəziyyət danışanın əvvəlki fəaliyyəti, səriştəsi ilə hazırlanır və buna görə də bu vəziyyətdə reallaşdırılan fürsət bir hərəkətin həyata keçirilməsinə icazə ilə məhdudlaşır. Bu halda “may/bacarmaq” modal feli ifadənin kategorik mahiyyətini azaltmağa, həmsöhbətlər arasında fatik əlaqə yaratmağa kömək edir. She moved her hand to his lips, letting him taste

the fear on her fingers. "**You may see the witness right now**," she said. Bu nümunələrdə dolayı direktivlər son dərəcə örtülüdür: adresata yalnız danışanın ümumilikdə spontan dialoq danışığı kimi xarakterik olan xidmətdən istifadə etmək üçün sadə bir fürsət verilir. Bu problemin öyrənilməsi işində mədəniyyətlərarası ünsiyyət prosesində nəzakət nəzəriyyəsi baxımından vasitəsiz nitqin istifadəsi çox vacibdir. P. Braun və S. Levinsonun "Politeness: Some universals in language usage" və onların əvvəllər dərc olunmuş "Universals in language usage: politeness phenomena" dərslik monoqrafiyası mədəniyyətlərarası aspektdə nəzakət formasının öyrənilməsinə təkan idi. (4) Mədəniyyətlərarası aspektdə nəzakət məsələsini nəzərdən keçirərkən müxtəlif xalqların nəzakət anlayışının fərqli olduğunu güman etmək lazımdır. Artıq qeyd edildiyi kimi, bəzi xalqlar nəzakəti hörmətlə, bəziləri təvazökarlıqla, bəziləri də başqalarına nümayişkar diqqət ilə əlaqələndirə bilər. Hər mədəniyyətin öz nəzakət anlayışı var. Bu konsepsiyanın fərqli məzmunu dildə və nitqdə əks olunur və özünü leksik-qrammatik, funksional, praqmatik və diskurs xüsusiyyətlərində göstərir. Belə ki, nəzakət ünsiyyət tərəfdaşları arasında işgüzar ünsiyyət hədəflərinin sonrakı tədbiq edilməsi üçün əlaqələrin qurulmasına kömək edir. Nəzakət insanın social vəziyyətinin qiymətləndirilməsi kimidir. Nəzakət prinsipini həyata keçirməyin etibarlı yolu, onu həyata keçirmək istəyi şəklində kommunikativ bir niyyəti ifadə etməkdir. Belə bir xahişi ifadə etməyin müxtəlif üsulları var: ayrı bir ifadə, ifadənin bir hissəsi, mürəkkəb bir cümlə köməyi ilə, məsələn: **May I ask you** where you are staying (C. Snow); **Might I inquire** if you are the owner? (L. Jones). Bir daha vurğulayaq ki, nəzakət yalnız "keyfiyyət" münasibətində (nəzakətli sayılan) deyil, həm də "kəmiyyət" baxımından nisbi bir anlayışdır . Əlbəttə ki, nəzakətin mütləq "xahiş edirəm" işarələri var, lakin dildə çox deyil. Çox dil vahidi bu xüsusiyyəti müəyyən bir kontekstdə əldə edir. Bu və ya digər linqvokultural cəmiyyətin hər bir nümayəndəsi ünsiyyətə girərək, yerli mədəniyyətin arxetiplərini şüuraltı səviyyədə daşıyır. Buna görə də mədəniyyətlərarası ünsiyyət prosesində vasitəsiz nitq aktlarından istifadə, ünsiyyətin "kəskin künclərini" hamarlamaq, beynəlxalq ünsiyyətin iştirakçılarına daha rahat bir atmosfer yaratmaq üçün hazırlanmışdır.

Ədəbiyyat

1. Винантова И. В. Исследование коммуникативно-прагматических особенностей интерогативних косвенных речевых актов – Челябинск, 2011. – 22с.

2. Клюев Е. В. Критерии лингвостилистического анализа текста. Часть 2. / Е. В. Клюев – М.: ВИПК работников печати, 1989.С. 15-16.

3. Серль Дж. Р. Что такое речевой акт? / Дж. Р. Серль // Новое в зарубежной лингвистике. Вып. 17. – М., 1986 (1). – С. 151-169.

4. Brown P. Universals of Language Usage: Politeness Phenomena / P. Brown, S. Levinson // Questions and Politeness. – Cambridge, 1978.

5. Clark H. H. Speech acts and hearers` beliefs / H. H. Clark, T. B. Carlson // Mutual knowledge. – London: Academic press, 1982. – P. 270-322.

Г.З.Рагимова, С.А.Тахирова

К вопросу об использовании косвенных речевых актов в межкультурной коммуникации

Резюме

В статье рассматриваются разные типы косвенных речевых актов с точки зрения их использования в межкультурной коммуникации. Употребление многих речевых актов рассматривается с точки зрения постулатов вежливости. Автор уделяет особое внимание на структурные особенности выражения данного речевого акта. Структура вежливости зависит от ряда прагматических факторов. Среди них можно назвать такие особенности, как стремление соответствовать принципам вежливости, вежливость как сохранение "лица", вежливость как этическая и прагмалингвистическая категория.

G.Z.Rahimova, S.A.Tahirova

On the use of indirect speech acts in intercultural communication

Summary

The article examines different types of indirect speech acts from the point of view of their use in intercultural communication. The use of many speech acts is considered from the point of view of the postulates of politeness. The author pays special attention to the structural features of the expression of this speech act. The structure of politeness depends on a number of pragmatic factors. Among them are such features as the desire to comply with the principles of politeness, politeness as preserving the "face", politeness as an ethical and pragmalinguistic category.

Rəyçi: f.f.d. C.H.Yaqubova

Redaksiyaya daxil olub: 12.03.2021

Z.S.SALAMOVA
e-mail: zeynabsalamova83@gmail.com

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
(Bakı şəh., H.Cavid pr., 31)

LEKSİK SEMANTİKADA "GÖZƏLLİK" KONSEPTİNİN İFADƏSİ

Açar sözlər: *leksik semantika, konseptin formalaşması, təkamül nöqteyi-nəzərindən, elmi yenilik, əsas əlamətlər, ətraf aləmin linqvokulturoloji modelləşməsi, dilçiliyin istiqamətləri, estetik dəyərin linqvokulturoloji xüsusiyyəti, fərqli etnomədəniyyətlər, dəyər prioritetləri sistemi.*

Ключевые слова: *лексическая семантика, формирование концепта, с точки зрения эволюции, научная новизна, основные признаки, лингвокультурологическое моделирование действительности, направления лингвистики, лингвокультурная специфика эстетической оценки, различные этнокультуры, система ценностных приоритетов.*

Key words: *lexical semantics, the formation of concept, from the point of view of evolution, scientific innovation, main features, linguocultural modeling of the environment, directions of linguistics, linguocultural features of aesthetic value, different ethnocultures, the system of value priorities.*

Giriş.

Ətraf aləmin linqvokulturoloji modelləşməsi dilçiliyin daha aktiv inkişaf edən istiqamətlərindən biridir. "Gözəllik" konsepti insan davranışının mühüm istinadlarından biri, estetikanın əsas elmi konseptidir.

"Gözəllik" konseptinin leksik-semantik sahəsini tədqiq edən alimlərin fikrincə, bu sahənin komponentlərini vahid semantik əlamət birləşdirir. Lakin bu vahid semantik əlamət bəzən ekstralinqvistik səviyyə daşıyır. Dilçilik ədəbiyyatında sahə məhfumu bəzən kateqoriya və ya sistem ifadələri ilə təqdim olunur. Bu məlumatlar bir tərəfdən məkan sahəsi, zaman sahəsi, rəngbildirmə sahəsi, gözəllik sahəsi adlanırsa, digər tərəfdən məkan kateqoriyası, zaman kateqoriyası, rəngbildirmə kateqoriyası adlanır.

Müqayisə zamanı dəyərləndirmə yalnız ekvivalent seçimi deyil, həm də dəyərləndirmə meyarlarının seçimi ilə əlaqələndirilir. Müəyyən bir ekvivalentin məzmunu dəyərləndirilən obyektin məzmunu ilə eyni olmalıdır, yəni dəyərləndirilən obyektdə olan bütün keyfiyyətləri və xassələri ekvivalent özündə ehtiva etməlidir. Obyektin və təxmin edilən ekvivalentin müqayisəsində müəyyən uyğunsuzluq ola bilər. Dəyərləndirmə meyarının başlanğıcı və əsas məqamları müəyyən bir obyektlər sinfinin dəyərləndirilməsində təmsil olunmalıdır.

Əsas hissə

Şüurda estetik dəyərləndirməni müəyyənləşdirmək üçün dil və mədəniyyət anlayışlarının təhlilində istifadə olunan tədqiqat üsulları aşağıdakılardır:

1) Anlayışların adını ifadə edən sözlərin semantik təhlili;
2) Bu adların etimoloji təhlili;
3) Məcazi semantik təhlil anlayışlarını özündə birləşdirən sözlərin assosiativ mənaları;
4) Mətnlərin şərhində semantik təhlili ifadə etmək üçün istifadə olunan anlayışlar, ifadələr və sözlər;
5) Müəyyən bir konseptlə ("gözəllik" konsepti ilə) bağlı olan assosiasiyaların kulturoloji təhlili;
6) Müəyyən anlayışları ifadə etmək üçün istifadə olunan atalar sözləri, aforizmlər və iqtibaslar (2, s.18-25)

"Gözəllik" konsepti ilə əlaqəli leksik vahidlər qeyd edilən məna əlamətlərindən birini özündə ehtiva edir. Kimsə və ya nəsə haqqında olan məlumatları dəyərləndirmək, bu və ya digər rəyin və münasibətlərin təzahürləri; insanın,ona münasibət yaradan hər hansı daxili və ya xarici əlamətlərin səciyyəsi.

Dil sistemində "gözəllik" konseptini ifadə edən leksik vahidlər öz semantik strukturunda mütləq dəyər komponentini saxlayır (13, s.48-52).

Azərbaycan dilində "gözəllik" konseptini ifadə edən söz və söz birləşmələrini rus və ingilis dillərindəki ekvivalentləri ilə müqayisə edək:

1) Gözəllik – красота – beauty

Gözəl (bir insanda və ya bir əşyada olan keyfiyyət, intensiv estetik zövq və ya ağla, hisslərə təsir edən əlamət)

2) Cəlbedici və ya gözəl; bəzək, gözəl bir əşya, sənət əsəri – привликательная или красивая черта, украшение – a beautiful thing, as a work of art.

3) Cazibədarlıq, gözəllik (istehza məna çaları ilə) – ироническом смысле прелесть; (ironically) something remarkable or excellent.

4) Gözəl, gözəllik, yaraşıqlı, gözəl insan – красавица, красотка, красавец – a beautiful person.

5) Şairanə gözəllik, rəngarənglik (təbiətdə və ya süni mühitdə gözəl olan) – поэтическая красота, краса, цвет – something that is beautiful in nature or in some natural or artificial environment.

6) Üstünlük, ləyaqət – преимущество, достоиство – a particular advantage.

Rus dilində "gözəllik" konsepti aşağıdakı mənaları özündə ehtiva edir:

1) Свойство доставлять наслаждение взору, слуху, интеллекту – baxışa,eşitməyə və zəkaya zövq vermək bacarığı;

2) Красивые, прекрасные места – gözəl yerlər;

3) Все красивое, прекрасное – Экая красота! – xoş, gözəl bir şey haqqında-Hər şey gözəldir;

4) Красивая, привлекательная внешность: одарить красотою и талантом – gözəl,cəlbedici görünüş, gözəllik və istedad bəxş edilmiş;

5) Красота, красивый – gözəllik, gözəl.

İngilis dilində də "gözəllik" anlayışı çoxmənalı "beauty" sözü ilə ifadə olunur. "Gözəllik" konseptinin məzmunu aşağıdakı leksik vahidlərlə ifadə olunur:

1) Təbiətən gözəl – красивый от природы;

2) Öz ləyaqətini, gözəlliyini qiymətləndirməyi bacaran, çatışmayan cəhətlərini bacarıqla gizlədə bilən;

3) Симпатичный-вызывающий к себе чувство расположения вследствие наличия красивых черт – cazibədar, gözəl görünüşü ilə özünə qarşı rəğbət hissi qazanan;

4) Некрасивый, но обоятельный. В неправильности черт скрывается внутренная гармония – çirkin, lakin cazibədar. Daxili harmoniyası olan şəxs.

5) Смазливый: Наличие всех канонических красивых черт не гармонирующих между собой. Создается общее впечатление приторности из-за отсутствия мелких недостатков – Bütün kanonik gözəlliklərin mövcudluğuna baxmayaraq harmoniyadan məhrum olma.

6) Высоконравственный-полный внутренного содержания – tam daxili məzmuna, yüksək əxlaqa malik.

Dəyər dominantlarının öyrənilməsi metodikası "freym" anlayışı ilə sıx bağlıdır. Bizim tədqiqatımızda freym – hadisə və proseslərin ümumiləşdirilmiş obrazı kimi yaddaşda saxlanılan strukturdur, bir növ çərçivədir. Freym dinamik struktur olub, genişlənmə və daralma xüsusiyyətlərinə malikdir. Freymlə müxtəlif növ assosiasiyalar əlaqələndirilir. Elmi ədəbiyyatda freym və konsept eynimənalı şərh olunmur (4, s.74-84).

Fikrimizcə, konsept daha geniş anlayışdır, belə ki, konsept obyekti üç cəhətdən-obrazlılıq, təsviri və dəyər aspektlərindən aydınlaşdırır. Freym isə obyektin yalnız obraz aspekti ilə əlaqədardır. Bununla bərabər qeyd etmək lazımdır ki, obyektin üç aspektdən araşdırılması

elmi abstraksiyadır, obyektin təsvirinə obraz aspektindən başlamaq deskriptiv və aksioloji cəhətləri də bura əlavə etmək daha düzgün yanaşma olardı.

Lüğətlərdə "gözəl" anlayışı iki əsas əlamətlə səciyyələnir:

1.Fiziki keyfiyyətlərin mütənasibliyi və həmahəngliyi;

2. Öz görkəmi ilə zövq bəxş etmək xüsusiyyəti.

"Gözəllik" freymi ən yığcam şəkildə xarici görkəmə aid edilir və gözəl qadın obrazında təsəvvür olunur. Bu əlamətlər dəyərlilik və gözəllik anlayışlarını yaradır. İnsan daima mükəmməlliyə və gözəlliyə can atır. İnsan ətraf aləmi və onun təzahürlərini özünün gözəllik haqqındakı mülahizələrinə uyğunlaşdırır. İnsanın xarici görkəminin estetik dəyərləndirmə freymi mütənasib və ahəngdar inkişaf etmiş cizgilərə malik fiziki və mənəvi obrazdır. Gözəl insanın xarici görkəmi onun gözəllik haqqındakı psixoloji, şüuri təsəvvürlərinə tam uyğun olur. Gözəl yalnız zahirən gözəl deyil, onun gözəl mənəvi keyfiyyətlərə malik olması da tələb olunur. Yalnız zahiri gözəllik kifayət deyil. İnsan daima öz daxili aləmini də gözəlləşdirməli və mənəviyyatını zənginləşdirməlidir (8, s.102-106).

Dil sistemində "gözəllik" konseptinin leksik-semantik sahəsini ifadə edən vasitələrdən biri də kök söz yuvalarıdır. Kök söz yuvaları dilin konseptuallaşma vasitələrindən biridir. Söz yaradıcılığında və onun bariz nümunəsi olan kök söz yuvalarında dilin antroposentrikliyi və milli-mədəni özəlliyi daha aydın ifadə olunur. Müasir dövrümüzdə söz yaradıcılığı semantikası sahəsində tədqiqatlar aparmaq üçün kifayət qədər faktik material toplanmışdır.

Müasir semantik və konseptoloji tədqiqatlarda leksik semantikanın və sintaqmatikanın təsvirinə daha geniş yer verilir, söz yaradıcılığı faktları isə o qədər də nəzərə alınmır. Sözün daxili formasına müraciət ümumi qanunauyğunluqları aşkara çıxarmağa imkan verir, çünki subyektiv motivlər daha ümumi obyektiv qanunları təmsil edir (10, s.87-93).

"Gözəllik" konsepti çərçivəsində söz yaradıcılığı yuvalarının araşdırılması aşağıda sadalanan qanunauyğunluqların aşkar edilməsinə şərait yaratdı:

1) Subyektiv-dəyərləndirici mənaların dildə necə ifadə edildiyini müəyyənləşdirmək; müsbət dəyərləndirmənin aydınlaşdırılması; keyfiyyət dərəcəsinin ifadə edilməsi; müasir reallıqları və bunları ifadə edən yeni anlayışların leksik vahidlərinin formalaşması.

2) Ümumiləşdirilmiş kateqorial mənaların aydınlaşdırılması, söz yaradıcılığı səviyyəsində bəzi koqnitiv modellərin müəyyənləşdirilməsi. Kök söz yuvaları dedikdə söz yaradıcılığı münasibətləri əsasında mərkəzləşən və ümumi köklə səciyyələnən leksik qruplar nəzərdə tutulur. "Gözəllik" konseptinin söz yaradıcılığı sahəsi "gözəllik" seminin əsasında yaranmış bir neçə kök söz yuvasını özündə ehtiva edir.

"Gözəllik" konseptinin kök söz sahəsinin məna nüvəsi Azərbaycan, rus və ingilis dillərindəki "gözəl", "крас-" və "beaut-" kök və əsaslarından yaranmışdır; "gözəl", "gözəllik", "gözəlləşdirən"; "красавец", "красавица", "красотка", "красоточка"; "beauty", "beautiful", "beautifier", "beautifician".

İnsan və gözəllik, xüsusən qadın gözəlliyi konsepti müxtəlif milli mədəniyyətlərdə fərqlidir. Azərbaycan etnomədəniyyətində qadın gözəlliyi xüsusi ilə vurğulanır. Milli folklorumuzda, xalq yaradıcılığında, klassik ədəbiyyatda gözəl görünüşlə yanaşı zəka, əqli və mənəvi keyfiyyətlər yüksək qiymətləndirilir:

"Əzizim, gözəl alma,
Yeməyə gözəl alma,
Çirkin al, əsil olsun
Bədəsil gözəl alma!"

M.P.Vaqifin qoşmalarında Azərbaycan gözəllərinin sanki rəsmi çəkilir, saray xanımlarının bəzəkli, boyalı, zəngin gözəlliyi ilə sadə xalq arasından çıxmış qız-gəlinlərin yaraşığı, təbii cazibəsi müqayisə edilir.

"Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası, hayıf ki, yoxdur!

Ucu tər cığalı siyah tellərin,
Hərdən tamaşası, hayıf ki, yoxdur!”
“Elə gözəl var ki, bunlar içində,
Ələ düşməz hərgiz Çinü-Maçində
Söyləgən, oynağan, dürüst biçimdə,
Bəzəyi, libası, hayıf ki, yoxdur!”
“Ucu əşrəfili bulut kimi saç,
Dal gərdəndə hər hörüyü bir qulac,
Kəlağayı əlvan, qəsabə qıyğac
Altından cunası, hayıf ki, yoxdur!”

Rus dilində nominativ söz yaradıcılığı nəticəsində aşağıdakı leksik vahidlər yaranmışdır: красавец (gözəl kişi, oğlan); раскрасавец (çox gözəl kişi, oğlan); раскрасавица (çox gözəl qız, qadın); красотка (gözəl qadın); красавчик (gözəl oğlan); краса (gözəllik); красновайка (gözəl danışan qadın) (10, s.87-93).

Bir kök söz yuvası daxilində xarici gözəlliyi olan və ya gözəl danışa bilən insanı təsvir etmək üçün yuxarıda göstərilən leksik vahidlər işlənilir. Bu sözlər müəyyən kateqorik əlamətlərlə səciyyələnir:

1) gender aidiyyatı;
2) üslubi rəngarənglik (neytral, ənənəvi-poetik, adi danışıq üslublarında işlənməsi)
3) subyektiv dəyərləndirmə.

İngilis dilində yuxarıda sadalanan əlamətlər aşağıdakı leksik vahidlərlə ifadə olunur: “a handsome man” (gözəl kişi); “a beauty/a beautiful woman”/“a belle” (gözəl qadın); “a picture of beauty” (qeyri-adi, gözəl qadın); “a dazzling/raving/ravining/striking beauty” (göz qamaşdıran, qeyri-adi gözəlliyi olan qadın).

Rus dilində “крас-” kökü ilə yaranmış sözlər həm kişi cinsinə, həm də qadın cinsinə aid ola bilər. İngilis dilində isə “beaut-” kökü belə semantikaya malik deyildir. İngilis dilində “beaut” kökü əsasən qadın gözəlliyini ifadə edir.

Rus dilində “крас-” kökü gender münasibətlərindən asılı olmayaraq həm qadın, həm də kişi gözəlliyini ifadə edir. Rus dilində subyektiv dəyərləndirmə çox geniş təmsil olunmuşdur. Söz yaradıcılığı bu sahədə xüsusi yer tutur.

Azərbaycan, rus və ingilis dillərində təbiət gözəlliyi xüsusi ifadə vasitələrinə malik olub özünəməxsus şəkildə təqdim olunur. Azərbaycan dilində təbiətin gözəlliyi: dağlar, çaylar, göllər, meşələr, bulaqlar, səma, torpaq, ucsuz-bucaqsız tarlalar, mavi dəniz, çəmənliklər böyük heyranlıq və məhəbbətlə təsvir olunur (6, s.102-106).

Dil sistemində “gözəllik” konseptinin semantik nüvəsini təşkil edən sözlərin zəngin sinonim sıraları və sintaqmatik xüsusiyyətləri mövcuddur. İnsanların, təbiətin, bitkilər və heyvanlar aləminin, sənət əsərlərinin gözəlliyi sinonim sıralarla və sintaqmatik strukturlarla ifadə olunur. Bu sahənin tədqiqat metodunun əsasını Ş.Ballinin, Q.İpsenin, V.V.Vinoqradovun, A.M.Kuzenotsovun və digər alimlərin əsərləri təşkil edir.

Nəticə.

Bu tədqiqatlara əsaslanaraq “gözəl”, ”красивый” və ”beautiful” leksik vahidlərinin sinonim mənalarını və sintaqmatik münasibətlərini araşdırmışıq. Bu yanaşma hər üç xalqa məxsus mədəni stereotiplərin formalaşmasına, xüsusi milli dəyərlərin araşdırılmasına; Azərbaycan, rus və ingilis dil şüurunda “gözəllik” konseptinin kateqoriyallaşmasına və qavranılmasına şərait yaradır. “Gözəl” leksik-semantik vahidi mənaca differensiallaşmamışdır və çoxsaylı obyektlərin təsvirində istifadə oluna bilər. “Gözəl” leksik-semantik vahidinin məna nüvəsi ətrafında birləşən leksemlər müsbət dəyərləndirmənin intensivlik dərəcəsi, semantik uyarlıq, emosional rəngarənglik və mövzu aidiyyəti kimi amillərlə bir-birindən fərqlənirlər. Bu leksik-semantik sahəyə aid olan sinonimləri səciyyələndirdikləri obyektlərin özəl xüsusiyyətləri əsasında tematik qruplara ayırmaq olar.

Ədəbiyyat

1. Полевая природа частей речи// Сб.: Вопросы теории частей речи. (на материале языковразличных типов). Ленинград: Наука, 1968, стр.80-92

2. Алефиренко Н.Ф. Проблемы вербализации концепта. Волгоград: Перемена, 2003, стр.18-25

3. Бережан С.Г. Теория семантических полей и синонимии.//Сб.:Проблемы языкознания. Москва: Наука, 1967, стр.28-32

4. Бухаров В.М. Концепт в лингвистическом аспекте.// Сб.:Межкультурная коммуникация. Нижний Новгород: Декон, 2001, стр.74-84

5. Демьянков В.З. Понятие и концепт в художественной литературе и в научном языке.// Вопросы филологии. Москва, 2001, №1, стр.35-47

6. Евтушенко Е.Н. Концепт «пространственная ориентация» в английской и русской лингвокультурах. Волгоград: Просвещение, 2004, стр.102-106

7. Карасик В.И.,Слышкин Г.Г. Лингвокультурный концепт как единица исследования. //Сб.: Методологические проблемы когнитивной лингвистике. Воронеж: ВГУ, 2001, стр.71-80

8. Карасик В.И. Языковой круг: личность, концепты, дискурс. Волгоград: Гнозис, 2004, стр.102-106

9. Кобозева И.М. Лингвистическая семантика. Москва: Дом книга, 2007, стр.82-85

10. Кубрякова Е.С. Типы языковых значений: Семантика производного слова. Москва: Наука, 1981, стр.87-93

11. Кузнецов. А.И. Структурно-семантические паратетры в лексике. Москва: Наука,1980, стр.23-35

12. Кузнецов. А.И. Понятие семантической системы языка и методы ее исследования. Москва: Наука, 1963, стр.42-50

13. Кузнецов. А.И. О применении метода комплектного анализа в лексике//Сб.: Синхронно-сопоставительный анализ языков разных систем. Москва: Наука, 1971, стр.48-52

14. Макаева И.И. Языковые концепты в истории русского языка.//Сб.: Язык о языке. Москва: Академия, 2000, стр.63-156

15. Мещерякова Ю.В. Концепт «красота» в английской и русской лингвокультурах. Волгоград: Наука, 2004, стр.41-45

16. Пенковский А.Б. Очерки по русской семантике. Москва: Языки славянской культуры, 2004, стр.104-109

З.С.Саламова

Выражение концепта «красота» в лексической семантике

Резюме

В настоящей статье всесторонне рассматривается вопрос формирования концепта «красота» в лексической семантике.

Формирование концепта «красота» изучается как в общих чертах, так и с точки зрения эволюции. Особое внимание уделяется свойствам и причинам, влияющим на процесс формирования концепта «красота».

Научная новизна данной статьи состоит в определении основных признаков концепта «красота», установление общих и специфических характеристик этого концепта в азербайджанской, английской и русской лингвокультурах. Заслугой автора является доказательство того, что данная статья вносит определенный вклад в лингвокультурологию.

Актуальность данной статьи определяется следующими моментами:

1) Лингвокультурологическое моделирование действительности является одним из наиболее активно развивающихся направлений лингвистики, вместе с тем многие вопросы в этой области знания еще недостаточно исследованы.

2) Лингвокультурная специфика эстетической оценки еще не до конца изучена. Изучение понятия «красота» в разных этнокультурах позволит более четко представить систему ценностных приоритетов разных языковых систем.

Z.S.Salamova

Expression of the Concept of "Beauty" in Lexical Semantics

Summary

This article deals with the problem of the formation of the concept of "beauty" in lexical semantics. The formation of the concept of "beauty" is studied both from the point of view of general theories and from the point of view of evolution.

The factors influencing the formation of the concept of "beauty" are specially highlighted in the article. The scientific novelty of this article is based on the definition of the main features of the concept of "beauty", the study of general and specific features of Azerbaijani, English, Russian linguocultures. The author pays special attention to linguoculturology in this article. The relevance of the article is as follows:

1) Linguocultural modeling of the environment is one of the most actively developing areas of linguistics, but many questions in this area have not yet been adequately explored;

2) The problem of aesthetic value has not yet been fully explored. The study of the concept of "beauty" in the context of different ethnocultures can form the basis for the formation of a system of value priorities of different language systems.

Rəyçi: filol.e.d. Z.M.Əliyeva

Redaksiyaya daxil olub: 20.04.2021

İ.Ə.ŞIXIZADƏ

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

BƏDİİ ÜSLUBDA DİALEKTİZMLƏRİN İŞLƏNMƏSİ

Açar sözlər: *bədii üslub, dialektizm, əsər, dialekt, semantika.*
Ключевые слова: *художественный стиль, диалектизм, произведение, диалект, семантика.*
Key words: *artistic style, dialectism, work, dialect, semantics.*

Ədəbi dilin xarakterik cəhətlərindən biri onun üslublara malik olmasıdır. Üslublar vəzifəsinə, işlənmə və anlaşma dərəcəsinə görə bir-birindən fərqlənir. Onların yanaşma istiqamətləri fərqlidir. Dildə mövcud olan bütün üslubları geniş, sistemli, hərtərəfli şəkildə öyrənmək üslubiyyatın obyektidir. Üslub dil vasitələrindən məqsədyönlü şəkildə istifadədir. Azərbaycan dilində funksional üslubların hər birinin konkret üslubi göstəricisi olur. Bunların içərisində bədii üslubun özünəməxsus yeri vardır. Bu üslubda fikir bədii ifadə və təsir vasitələri ilə ifadə olunur. Bədii üslub ədəbiyyat və dilin kəsişməsində özünü reallaşdırır. Burada iki müxtəlif aspekt nəzərə çarpır. Birinci halda dil vasitələrindən istifadə üsulu kimi, ikinci halda isə fərdi bədii yaradıcılıqda fikrin obrazlı, emosional tərzdə ifadə edilməsi kimi. Dilin üslubu, şairin üslubu, yazıçının üslubu və s. bir-birindən fərqli anlayışlardır, onları qarışdırmaq olmaz. Dilin üslubu dedikdə, ümumi üslublar, şairin, yazıçının üslubu dedikdə fərdi üslub nəzərdə tutulur. Bunları bir-birindən tam şəkildə ayırmaq mümkün deyil. Hər ikisində dil materialından istifadə əsasdır. Bədii üslub bəzən bədii dil də adlandırılır. Yazıçı obrazlılıq, emosional-ekspressiv münasibət formalaşdırmaq üçün yalnız normativ dil formasından istifadə etməklə yanaşı, normadan kənar ifadə formalarından istifadə edərək onu öz məqsədinə tabe edir. Bu zaman ifadənin deyim tərzi, verilmə forması əhəmiyyətli rol oynayır. Bədii üslubda bu məsələlər kompleks şəkildə öyrənilir.

T.Hacıyev bu barədə yazır: "Söz ustasının yenilik məharəti sözdə olan potensial mənalardan birini bədii məqsədə, üslubi maneraya uyğun fəallaşdırmaqda, hərəkətə gətirməkdə özünü göstərir. Sözdəki mənaları yazıçı qayəsinə görə növbələşdirmək, onlardan bədii məqsədə ən çox münasib olanını görmək isə əsl sənətkarların həmişə icad etdiyi dil əməliyyatıdır. Üslubi seçmə budur" (1, s.5). Hər bir üslub ədəbi dilin fonetik, leksik və qrammatik normalarına tabe olur. Bədii üslub ədəbi dilimizin tərkibində həmişə aparıcı olmuşdur. Bədii üslubda obrazlılıq, emosionallıq həm fonetik, həm leksik, həm də qrammatik səviyyədə özünü büruzə verir. Bu üslub digər funksional üslublara nisbətən xalq danışıq dilinə daha yaxındır və onun bir sıra özünəməxsus xüsusiyyətləri vardır ki, bu da onu başqalarından fərqləndirir. Məlumdur ki, bədii üslub nəzm üslubu və nəsr üslubu formasında olur. Bədii üslubda üslubi məqamla əlaqədar, yaxud surətin nitqini fərdiləşdirmək üçün danışıq dili vahidlərindən – dialektizmlərdən, arqodan, jarqondan, varvarizmlərdən, və s. geniş istifadə olunur. Bədii ədəbiyyatın dilində dialektizmlərin işlənməsi ədəbi dilin normalarının pozulması hesab olunmur. Belə ki, bədii üslubda yerində istifadə olunmuş dialektizmlər bədii əsərlərin uğurlu alınmasında mühüm vasitələrdən biridir. Ədəbi dil ilə dialektlərin daim əlaqəli olması lüğət tərkibinin zənginləşməsini təmin edir. Dialekt leksikası dil üçün elə bir bazadır ki, ondan ədəbi dilin bədii üslubu geniş şəkildə bəhrələnir.

Ədəbi dilin lüğət tərkibinə dialektizmlərin daxil olması üçün bədii ədəbiyyat keçid rolu oynayır, ədəbi dildə işlədilmə lüzum görülən dialektizmlər yazıçılar tərəfindən bədii ədəbiyyata gətirilir. Bunlardan ümumxalq dilində işlənmə səciyyəsi qazananlar ədəbi dilin lüğət fonduna keçirlər. Bədii üslubda işlənən sayrışmaq dialektizmi ədəbi dilin lüğət fondunda iş-

lənmək hüququ qazanmışdır. Bu söz "titrək, zəif işıq saçmaq, parlamaq, şəfəq buraxmaq" mənasını ifadə edir. Məsələn: Məğrib səmtində hələ ulduzlar göy üzündə *sayrışırdı.* (F.Köçərli).

"Ədəbi dil şivələrdə işlənən lazımlı, həyati əhəmiyyəti olan sözləri seçib öz lüğət tərkibinə daxil edir və onu zənginləşdirir. Digər tərəfdən ədəbi dil normaları yerli şivələrə daxil olur və onları sıxışdırır. Bunun nəticəsində şivələrin tədricən aradan çıxması və ədəbi dilin ümumiləşməsi prosesi baş verir" (2, s. 78-79).

Bədii dildə nəzm üslubuna nisbətən nəsrdə dialekt sözləri daha çox işlənir, çünki şair hər hansı obrazı, hadisəni, təbiəti təsvir edərkən öz fərdi dili ilə danışır. Nəsr üslubunda surətlərin dilində dialekt sözlərinin işlənməsi üçün real şərait mövcuddur. Yazıçı çox zaman personajların bir-biri ilə danışığında, dialoqlarında dialektizmlərə üstünlük verir. Bədii əsərdə üslubi məqsədlə işlədilən dialektizmlər yerli kolorit yaratmağa, surətin dilini səciyyələndirməyə, fərdiləşdirməyə, obrazın məxsus olduğu bölgəni müəyyənləşdirməyə xidmət edir.

Bədii dildə dialektizmlər işlənmə dərəcəsi və sahəsi etibarı ilə fərqlənir. Həmin cəhət dialektizmləri aşağıdakı növlərə ayırmağa imkan verir: 1) məhdud dialektizmlər; 2) ümumişlək dialektizmlər. Məhdud dialektizmlər bir-iki dialektə aid olur. Ümumişlək dialektizmlər müəyyən qrup dialekt və şivələrdə işləndiyi üçün anlaşıqlı olur (3, s.110-111). Bədii üslubda işlənən dialektizmlərdə dialekt və şivələrin müxtəlif xüsusiyyətləri əks olunur.

Ə.Dəmirçizadə yazır: "Bədii əsərdə bu və ya digər surətin, yaxud surətlər kompleksinin müəyyən yerli-məhəlli şəraitlə üzvi bağlılığını bildirmək belə məhəlli çalarlıqla onları canlandırmaq zərurəti olduqda, tipik şivə sözlərinin işlədilməsi məqsədəuyğun sayılır və ümumiyyətlə, bədii əsərin dilini məzəli, duzlu edir" (4, s. 89).

Yazıçı və şairlər əsərin bədii dəyərini artırmaq, oradakı emosional-ekspressiv çaları gücləndirmək, məzmun və forma vəhdətini yaratmaq məqsədi ilə ədəbi priyom kimi dialektizmlərdən istifadə edirlər. Burada həm səslərə, həm mənaya, həm də qrammatik quruluşa aid xüsusiyyətlər əks olunduğu üçün dialektizmlərin aşağıdakı növləri vardır: fonetik dialektizmlər, lüğəvi dialektizmlər, qrammatik dialektizmlər.

Dilçiliyimizdə fonetik dialektizmlərin üslubi xüsusiyyətlərindən müxtəlif araşdırmalarda bəhs edilmişsə də, bu sahədə sistemli tədqiqat əsəri yoxdur. Azərbaycan dilçiliyində "fonetik dialektizm" terminindən ilk dəfə Ə.Dəmirçizadə istifadə etmişdir. O yazır: "Bədii əsərlərdə, əsasən, tipikləşdirmə məqsədi ilə bu və ya digər şivəyə xas olan fonetik cəhətlərdən biri fonetik-üslubi vasitə kimi istifadə edilir ki, belə vasitələri fonetik dialektizm adlandırmaq olar" (4, s. 58).

Müasir Azərbaycan dilində "bir dəfə ağıza qoyulan tikə, dişdəm" mənasında işlənən loğma sözünə bədii əsərlərdə loxma şəklində rast gəlinir. Azərbaycan dilinin Gəncə dialekti, Gədəbəy, Mingəçevir şivələrində loğma leksik vahidi "loxma" şəklində işlənir. Bu söz N.Xəzrinin dilində "loxma" dialekt variantında işlənmişdir.

Kimin gözü doymayır,
Kimə bəsdir *loxma* da.

Sözlərin ayrı-ayrı ərazilərdə fərqli fonetik tərkibdə tələffüzü müxtəlif şəkillərdə özünü göstərir. Dialektlərdə ən çox özünü göstərən fonetik hadisələrdən biri səsdəyişməsidir. İncələşmə-qalınlaşma, səsdüşümü-səsartımı, karlaşma-cingiltiləşmə və s. hallar dialektlərdə bir-birini izləyən hadisələrdir. Bu hadisələrin hər birinin özünəməxsus qanunauyğunluqları vardır. Fonetik dialektizmlərdə sözlərin tələffüzündə bu və ya başqa dialektin, şivənin ədəbi dildən fərqli olan müəyyən fonetik xüsusiyyəti özünü göstərir: *Əmbə* güllənin içinə qırma yerinə duz doldurasan (F.Eyvazlı. "Qaçaq Kərəm").

Ədəbi dildə işlənən leksik vahidlərdən fərqli olaraq fonetik dialektizmlərin tələffüzündə müəyyən bir dialektə xas olan saitlərin incələşməsinə rast gəlinir. Məsələn: *Qədeş*!..Bizim qızı Hacı Abtalıbın oğlu üçün istəyirlər (H.Sarabski). Mən sizə mərdimazarlıq eləmişəm, Balağa *qədeş* (H.Abbaszadə).

Nümunələrdə verilən incələşmə hadisəsi müvafiq kolorit yaratmaq üçün bədii üslubda işlədilmişdir. Obrazı fərdiləşdirmək, səciyyəvi xüsusiyyətlərinin göstərmək, onun ictimai mənşəyini, məkan münasibətini yaratmaq üçün yazıçı fonetik dialektizmdən istifadə edir. Fonetik dialektizmlərə ədəbi dildə işlənən leksik vahidlərdən fərqli olaraq saitlərin tələffüzündə qalınlaşmaya da rast gəlinir:

Mən bir uşaq, sən bir ana, Odur ki, bağlıyam *sana*. (S.Vurğun)

Adam gərək xasiyyətini bir *barabarda* saxlasın. (Y.Səmədoğlu)

Verilən nümunələrdə bərabərdə sözü barabarda, sənə əvəzliyi sana formasında fonetik dialektizm olaraq işlənmişdir. Saitlərin qalınlaşması Azərbaycan dilinin cənub, Şimal-qərb regionunda özünü göstərir.

Bədii üslubda lüğəvi dialektizmlərdən daha çox istifadə olunur. Məlumdur ki, bu və ya başqa dialekt və şivəyə məxsus olub, ədəbi dildə işlənmiş sözlərə, ifadələrə lüğəvi dialektizmlər deyilir. Ədəbi dilin bədii üslubunda işlənən dialektizm kimi tanınan vahidlərin çoxu elə dialektizm olaraq qalır. Dialektizmlərdən yerində uğurlu istifadə həm də əsərin uğurlu alınmasına imkan verir. Bədii üslubda bəzən yersiz dialektizmlərdən çox istifadə etmək əsərin çətin başa düşülməsinə gətirib çıxarır.

Lüğəvi dialektizmlər üç yerə ayrılır: leksik, leksik-semantik, semantik. Ümumxalq dilindəkindən fərqli mənada işlənən dialekt sözləri semantik dialektizmlərdir. Semantik dialektizmlərə dialekt və şivələrdə az da olsa rast gəlmək mümkündür.

Leksik-semantik dialektizmlərə etnoqrafik dialektizmlər də deyilir. Etnoqrafik leksika və etnoqrafik dialektizm fərqli anlayışlardır. X.Heydərova Azərbaycan dilinin etnoqrafik leksikasını iki böyük leksik-semantik qrupa ayıraraq yazır: 1) maddi mədəniyyət leksikası; 2) mənəvi mədəniyyət leksikası. Azərbaycanlıların maddi mədəniyyəti ilə bağlı leksikasına aiddir: ev peşəsi (gərgənc, marramaq, eymə, tuluq, qarın və s.) və sənətkarlıq (zərgərlik, çaxma sənəti, daş və ağacişləmə, xalçaçılıq, toxuculuq və s. bədii sənət) leksikası; yaşayış məskənlərinin adları (yaylaq, aran, oba, şenlik, dəngə, düşəlgə və s.); tikinti adları (qazma, daxma, koma, him, cımqa, kürsülü ev, çatıayaq ev, balıqbeli ev və s.); ev əşyaları və təsərrüfatı idarə etmək üçün lazım olan avadanlıqların adları (ələk, sağan, təknə, tabaq, oxlov, qulaqlı fırçın, ərsin və s.); geyim (can köynəyi, pencək, bürmə, başlıq, cüttuman, kəlağayı və s.) və bəzək əşyalarının adları (tana, alınlıq, silsilə, kəmərbənd və s.); yemək (kətəməz, sulux, cəngək çörəyi, şan-şan, kəllə-paça bozbaşı, cücə kababı və s.) və içkilərin adları (işgəncəvi, xoşab, əzgil suyu, ayran, şərbət və s.). Azərbaycanlıların mənəvi mədəniyyəti ilə bağlı leksikasına aiddir: mərasim və adətlərlə bağlı sözlər (toy, yas, Novruz bayramı və s.); inanclar (bərəkət, bədnəzər, çiləyədüşmə, uğur, gözün səyriməsi, qulağın cingildəməsi, ayağın ağır və ya yüngül olması və s.); dini sözlər (namaz, qüsl, nəzir, məhərrəmlik ayı və s.); xalq təbabəti leksikası (dəmrov, göyöskürək, qara qızdırma, qızılyel, mal qızdırması, çiçək və s.); mifoloji leksika (qulyabanı, hal anası, div, xortdan, əjdaha və s.); xalq mahnılarının və alətlərin adları (rast, segah, saz, qopuz, qıfılbənd, gözəlləmə və s.); rəqslər (ceyranı, innabı, mirzeyi və s.); oyunların adları (xan-xan, maral oyunu, kilim arası və s.) (3, s.93).

Etnoqrafik leksika, etnoqrafizmlər dedikdə etnoqrafiyaya aid leksik vahidlər nəzərdə tutulur. Etnoqrafik dialektizmlər milli adət-ənənələri, həyat tərzi ilə əlaqədar anlayışları ifadə edən dialekt və şivə sözləridir. Leksik-semantik dialektizmlər və ya etnoqrafik dialektizmlər müəyyən ərazidə yaşayan kütlə üçün xarakterik məfhumu bildirən sözlərdir. Bu cür dialektizmlərə müəyyən ərazi ilə bağlı geyim, hadisə, əşya və sair adlarının misal göstərmək olar. Məsələn: dələmə. Tovuz, Borçalı, Qazax, Zəngilan bölgələrində pendir hazırlamaq üçün südün maya tutmuş formasına deyirlər. Gahi pendir suyudur, gahi qatıq, gah *dələmə;* Kim ki, tənqidinə layiqdir, onu al qələmə. (Ə.Vahid)

Dialekt sözlərinin bədii üslubda işlənməsi sadəcə sözü işlətmək xatirinə deyil, üslubun tələbi baxımından olmalıdır.

Ədəbiyyat

1. Cəfərov S. Müasir Azərbaycan dili [leksika]: II hissə. Bakı: Maarif, 1982, 215 s.
2. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərtədrisnəşr, 1962, 270 s.
3. Hacıyev T. İ. Satira dili. Tədris vəsaiti. Bakı: "ADU nəşri", 1975, 178 s.
4. Heydərova H. Azərbaycan filoloji lüğətlərində ümumişlək olmayan sözlərin verilməsi. Bakı: Avropa, 2019, 222 s.
5. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Elm, 2010, 388 s.

И.А.Шыхызаде

Использование диалектизмов в художественном стиле

Резюме

Использование наших диалектизмов на языке художественной литературы не считается нарушением норм литературного языка. Диалектизмы, уместно использованные в художественном стиле, являются одним из важных средств для создания удачного художественного произведения. Постоянная связь литературного языка с диалектами обогащает словарный запас. Диалектная лексика является той основой для языка, откуда художественный стиль литературного языка широко подпитывается. Диалектизмы, используемые с стилистическими целями в художественном произведении, служат для создания местного колорита, характеристики, индивидуализации языка образа, определения региона, которому принадлежит образ. Уместное и успешное использование наших диалектизмов также дает возможность получить успешное произведение. Иногда употребление в большом количестве неуместных диалектизмов в художественном стиле приводит к тому, что произведение становится трудным для понимания. Существуют следующие виды наших диалектизмов: фонетические диалектизмы, лексические диалектизмы, грамматические диалектизмы. В фонетических диалектизмах произношение слов отражает определенную фонетическую особенность того или иного диалекта, говора, отличного от литературного языка. Лексические диалектизмы чаще всего используются в художественном стиле. Лексические диалектизмы делятся на три типа: собственно-лексические, лексико-семантические и семантические диалектизмы.

I.A.Shikhizade

Using dialectisms in artistic style

Summary

The use of our dialectisms in the language of fiction is not considered a violation of the norms of the literary language. Dialectisms, appropriately used in artistic style, are one of the most important means of creating a successful artistic work. The constant connection of the literary language with dialects enriches the vocabulary. Dialectal vocabulary is the basis for the language, from where the artistic style of the literary language is widely nourished. Dialectisms used for stylistic purposes in artistic work serve to create local color, characterize, individualize the language of the image, and determine the region to which the image belongs. Appropriate and successful use of dialectisms also makes it possible to obtain a successful work. Sometimes the use of a large number of inappropriate dialectisms in an artistic style leads to the fact that the work becomes difficult to understand. There are the following types of our dialectisms: phonetic dialectisms, lexical dialectisms, grammatical dialectisms. In phonetic dialectisms, the pronunciation of words reflects a certain phonetic feature of a particular dialect, a dialect that is different from the literary language. Lexical dialectisms are most often used in artistic style. Lexical dialectisms are divided into three types: proper lexical, lexical-semantic and semantic dialectisms.

Rəyçi: filol.e.d. T.Baxşıyeva

Redaksiyaya daxil olub: 16.03.2021

H.H.TANRIVERDİYEVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS VƏ AZƏRBAYCAN MƏTBUATINDA METONİMİYALAR

Açar sözlər: *metonimiya, mexanizm, köçürmə, dominant, məcaz.*
Ключевые слова: *метонимия, механизм, передача, доминант, метафора.*
Key words: *metonymy, mechanism, transfer, dominant, metaphor.*

Metonimiya bir predmetin adının digərinin üzərinə köçürülməsidir (5). Yunan dilindən götürülən bu termin yenidən adlandırma mənasını verir. Metonimiya çox işlənən ritorik vasitə kimi qədim tarixə malikdir. Tamın hissəsini və ya hissənin tamı əvəzləməsi əsasında formalaşan bu ritorik fiqur qədim Yunanıstan və Roma ritorikləri tərəfindən ətraflı şəkildə öyrənilmişdir. Hətta müasir dövrümüzdə ritoriklər metonimiyalardan danışarkən onların fikirlərinə konseptual baza kimi yanaşırlar. Metonimiyalar spesifik xüsusiyyətlərinə görə metaforalardan fərqlənsələr də, yenə bir nöqtədə, məna köçürməsində birləşirlər (3). Orta əsrlər ritorikasında metonimiyalar metaforalara nisbətən diqqətdən kənarda qalmışdır. Lakin düşüncə tərzi kimi metonimiyaların daha qədim tarixə malik olması barədə filosof, psixoloq və filologlar arasında fikirlər vardır. Psixoloji proses kimi köçürmə mürəkkəb əməliyyatdır: anlayış, predmet və hadisələrin birindən digərinin üzərinə köçürülməsi deməkdir. Belə olan halda köçürmə təbiət və cəmiyyət haqqında insan şüurunda mövcud olan biliklər əsasında aparılır: bir anlayış daha çox yüklənərək semantik cəhətdən genişlənir. Məsələnin fəlsəfi tərəfi ondadır ki, insan düşüncəsi real həyatı həm məcazi, o cümlədən metonimik, həm də həqiqi mənada dərk edir. Hər iki halda metonimiyaların formalaşma mexanizminin müəyyənləşdirilməsi insanın idraki sistemi ilə bağlıdır (1; 2).

İnsan düşüncəsi ətraf aləm haqqındakı biliklərlə zənginləşdikcə metonimiyaların dildə funksiyası və işlənmə tezliyi də artır. Bu mənada metonimik düşüncə dinamizmi ilə səciyyəvidir. O, mövcud olduğu müddətdə şaxələnə-şaxələnə inkişaf edir, müxtəlif ifadə formaları meydana gəlir. Əvvəlcə qeyd etdiyimiz kimi metonimiyalarda məna köçürülməsi mənanın qarışdırılması əsasında baş verir. Mənanın qarışdırılması son nəticədə bir leksemin onunla əlaqədə olan digərinin mənasını öz üzərinə götürməklə struktur sadələşməsi əsasında formalaşması ilə müşahidə olunur (4).

Deməli, qarışdırılan mənalardan biri dominantlıq qazanaraq aktivləşir, aparıcı mövqeyə keçir. Məs: *"Prezidentlərin noyabr görüşünə razılıq verilməsi tam təsdiqlənsə də, görüşün harada olacağına hələ ki, aydınlıq gətirilməyib. Belə ehtimallar var ki, bu görüş noyabrın 28-29-da Litva paytaxtı Vilnüsdə keçiriləcək "Şərq tərəfdaşlığı" sammitində baş tutacaq. Amma belə bir xəbər də var ki, Ermənistan Dömrük Birliyinə qoşulmaqla bağlı qərar verdikdən sonra bu sammitə maraq qalmayıb. Hətta Sarkisyanın bu sammitə getməyəcəyi deyilir. Rusiya bu görüş üçün ev sahibliyi edə bilər. Çünki Rusiyanın Qarabağ məsələsinin həlli ilə bağlı fəallaşması xəbəri intensivləşib. Bu günlərdə "Yeni müsavat" Qərb mənbələrinə istinadən Rusiyanın Qarabağ ətrafında beş rayonun boşaldılması üçün hərəkətə keçdiyi barədə məlumat dərc etmişdir. Məlumatda deyilirdi ki, Rusiya Azərbaycanın mövqeyini yumşaltmaq üçün beş rayonun boşaldılmasına razılıq verib. Azərbaycan isə bunun əvəzində Rusiyanın patronajlıq etdiyi Gömrük və Avrasiya İttifaqına qoşulmalıdır. Kreml rəhbərliyi yaxşı anlayır ki, ağlı başında olan heç bir hakimiyyəti təzyiqlər yolu ilə ərazi münaqişəsində olduğu digər bir dövlətlə hər hansı iqtisadi əlaqələr qurmağa razı salmaq olmaz."* (Müsavat. "Prezidentlər Vilnüsdə görüşə bilər". 9 noyabr 2013) Bu mikromətndə "Rusiya" metonimiyadır. "Rusiyanın siyasi dairələri" anlayışının ifadəçisidir. Burada iki məqam diqqəti cəlb edir: Birincisi "Rusi-

ya" ölkə adının məkanın siyasi dairələr anlayışını öz üzərinə götürüb daha yığcam, ifadə vasitəsinin semantik-struktur cəhətcə formalaşması; ikinci isə məkan anlayışı ilə siyasi dairələr anlayışının qarışdırılmasından və onlardan birinin aktivləşərək dominanta çevrilməsindən ibarətdir. Nəticə isə metonimik mexanizmin sonunda yeni semantika ilə yüklənmiş leksik vahidin formalaşması ilə başa çatır. Başqa bir misal: *"Politoloqlara görə Türkiyə çalışır ki, Ermənistanla düşmən yox, qonşuluq münasibəti qursun. Nə Türkiyənin, nə də Azərbaycanın Ermənistanla problemi yoxdur. Problem Ermənistanın bu iki dövlətə qarşı sürdüyü torpaq iddiasıdır. Sərhədin açılması ilə nə Ermənistan qurtulacaq, nə də ABŞ bu ölkəni Rusiyanın əlindən ala biləcək. Amma Türkiyə ciddi şəkildə mənəvi cəhətdən uduzacaq. Hazırda Amerikanın Türkiyəyə təzyiqi soyqırımla bağlı deyil, ermənі-türk protokolları ilə bağlıdır. ABŞ Ermənistanı Rusiyanın nəzarətindən, Rusiyanı isə Cənubi Qafqazdan tamamilə sıxışdırıb çıxarmağa çalışır. Bu mübarizədə yeni lokal toqquşmalar baş verə bilər. Mən burada Gürcüstanı və Dağlıq Qarabağı nəzərdə tuturam. Bu silahlı toqquşmaları təşkil etməklə Rusiya öz mövqeyini gücləndirməyə çalışa bilər".(yenə orada)* Yuxarıdakı misalda "Türkiyə" Türkiyənin siyasi dairələrini əvəz edir, yəni məna subyekti əvəz edir. Son dövrlər siyasi məzmun daşıyan publisistik yazılarda belə metonimiyalara tez-tez rast gəlinir. Hətta belə düşünmək olar ki, həmin anlayışın metonimik və qeyri-metonimik ifadəsi kontekstində birinci daha çox işlənir. Məsələ ondadır ki, Türkiyə metonimiyası Türkiyənin dövlət siyasi statusuna malikdir, hansısa bir siyasətçinin və ya hansısa fərdin fikri deyil. Ona görə də Türkiyə metonimiyası məkani və siyasi iradənin ifadəçisinə çevrilir. Bu mənada məkani metonimiyalar semantik baxımdan müxtəlif statuslara malikdir. Məsələn*: "Azərbaycan qələbənin əldə olunmasında çox böyük rol oynamışdır – həm ön cəbhədə, həm də arxa cəbhədə. Altı yüz mindən çox Azərbaycan nümayəndəsi müharibədə iştirak, onlardan 300 mini həlak olmuşdur. Azərbaycan xalqı müharibə illərində qəhramanlıq göstərmişdir. Azərbaycanın bir çox nümayəndələri yüksək orden və medallarla təltif olunmuşdur. Arxa cəbhədə – Azərbaycanda böyük işlər görülmüşdür. Bizim zavodlarımızda hərbi texnika istehsal olunurdu. O texnika və silahlar ki, müharibənin ən ağır anlarında sovet ordusuna əvəzsiz xidmət edirdi. Azərbaycan neftçiləri bu illər ərzində yorulmadan çalışmış və sovet ordusunu yanacaqla təmin etmişlər. Sovet ordusunun yanacağının mütləq əksəriyyəti Azərbaycan neftçiləri tərəfindən təmin edilirdi. Bütün bu amillər deməyə əsas verir ki, Azərbaycan Respublikası faşizm üzərində Qələbənin əldə edilməsində çox böyük rol oynamışdır. Bu gün mən müharibə veteranları ilə görüşmüşəm, onlarla söhbət etmişəm, onları təbrik etmişəm. Onlar bu gün bu mərasimdə iştirak edirlər və bir daha onlara öz hörmətimi ifadə etmək istəyirəm***.** ("Ədəbiyyat" qəzeti "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və faşizm üzərində Qələbənin 71 illiyi münasibətilə rəsmi qəbul". Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. 14 may 2016). Bu misallarda Azərbaycan (Azərbaycan xalqı) daha geniş mənaya malik metonimiyadır, bir qrup insanlara deyil, bütövlükdə xalqa aiddir. Deməli, metonimiyaların məzmunu və əhatə dairəsi əvəz etdiyi vahidin və ya vahidlərin semantikasından asılıdır.

İngilis dilində nümunələrə nəzər salaq:

"In the wake of a coup attempt last July, Mr. Erdogan secured his authority over the military when he declared – and Parliament endorsed – a state of emergency. Under the state of emergency, the president has authority over military appointments. These powers have also limited the role of Parliament. ***The Cabinet*** *can now draft laws for the president's approval, with only a simple yes-or-no vote from Parliament. Judicial review is moot, as the Constitutional Court has no jurisdiction during this period."* (The New York Times, Is It Too Late For Turkey's Democracy?, April 13, 2017, p.1)

Və ya:

"For Mr. Trump's camp, the abrupt turnaround simply proved how false the conspiracy narrative was from the start. "If there was anything that Syria did, it was to validate the fact that there is no Russia tie," said Eric Trump, the president's son.

For some critics, it seemed to be a cynical way of distracting attention from the multiple investigations into possible contacts between associates of Mr. Trump and Russia even as ***Moscow*** *was trying to help Mr. Trump win the presidency."* (The New York Times, Trump's Shift on Russia Brings Geopolitical Whiplash, April 13, 2017, p.1)

Birinci mətn parçasında işlədilmiş "The Cabinet" (Nazirlər Kabineti) metonimiyası bütovlükdə Türkiyə nazirlərinin birliyini ifadə edir və bir qrup insanın adını əvəz edir və ya adından çıxış edir. İkinci nümunədə isə "Moscow" (Rusiya hökuməti) metonimiyasının əvəz etdiyi vahidin əhatə dairəsi böyük olduğu üçün daha geniş semantik yükə malik köçürmədir.

Ümumiyyətlə, istər metaforalara, istərsə də metonimiyalara linqvistik dəyərləndirmə vasitəsi kimi yanaşsaq hər iki məcazın məfhum və ad mübadiləsi nəticəsində semantik sıçrayışlara, reproduktiv perspektivlərə qadir olduğunun şahidi oluruq. S.Abdullayevin də qeyd etdiyi kimi: "Bu cəhətdən məcazlara, metaforaya spesifik, kifayət qədər geniş və əhatəli, daim daha da genişlənə, özünü doğura bilən dərketmə mexanizmləri kimi yanaşmaq lazımdır. Məhz buradan – köhnədən yeniyə, məlum olandan hələ məlum olmayana, real olandan qeyri-reala, konkret olandan mücərrədliyə məna sıçrayışları başlayır. Dərketmənin, mental proseslərin gücləndiyi, ruhun maddiləşməyə can atdığı kreativ, yaradıcı mikromühitdə metaforada həmişə bir mistik-irrasioanal başlanğıc, xəyal gücü, gerçəkliyə fəal emosional müdaxilə və təkid-təhrik elementi olur". (S.Ə.Abdullayev. Qeyri-səlis dilçilik təcrübəsi. Bakı - "Victory" - 2013, 596 s. (s.504))

Metonimiyaların bir qismi zaman məzmunludur. Zaman metonimiyası, əsasən, zaman anlayışı üzərində qurulur; metalepsis ona misal ola bilər. Canlı danışıqda işlənən "bir bahar səndən böyüyəm", "qayıdaram durnalar qayıdanda", "gözümü torpaq örtəndə" və s. kimi ifadələr metalepsislərdir. Onlarda məna köçürməsi zamana görədir. Əgər deyilirsə "səndən bir bahar//bayram böyüyəm", deməli, bir il nəzərdə tutulur, yaxud: "qayıdaram durnalar qayıdanda" yaz//bahar vaxtı nəzərdə tutulur. Metalepsisdə sinonimik xüsusiyyəti var.

İngilisdilli mənbələrdə metalepsis həm köçürmə, həm də əvəzləmə xassəsinə malik olduğu üçün metonimiya və metaforaya bənzədilir. Ancaq, yuxarıda da qeyd olunduğu kimi, metalepsis üstün tutulan obyektin üstün tutulduğu obyektlə əvəzlənməsinə əsaslanan ayrıca bir üslubi vasitə, metonimiyanın xüsusi növüdür. Müasir ingilisdilli ədəbiyyatlarda metalepsis çoxxassəli funksiyalar yerinə yetirir. Onlardan ən fəallarına ideya və obyektlərə dərin məna verən, mətndəki dərin və gizli mənalara işarə edən simvolizmi, alluziya və mübaliğəni misal göstərmək olar. Nümunələrə nəzər salaq:

"I've got to catch the worm tomorrow" (Gərək sabah erkən oyanam).

İngilis dilində "The early bird catches the worm" (Ən erkən oyanan quş qurdu tutar, yəni, "Tez evlənənlə yuxudan tez oyanan udar") günə tez başlayan kəsin gününün uğurlu olmasını təbliğ edən ümumişlək bir aforizmdir. Nümunədəki uğur qazanmaq üçün tezdən oyanmaq qərarı vermiş danışan (mübtəda "mən") aforizmdəki "quş"la müqayisə olunur. Digər bir nümunəyə baxaq: He experienced a pallid death (O, solğun ölümü yaşadı). Ölüm bədəni soldurmaq effektinə malik olduğundan "ölüm"ü "solğun" sifəti vasitəsilə təyin etməklə metaleptik ifadə yaranmışdır.

İngilisdilli publisistik mətnlərdə işlənən metalepsis isə, əsasən, manipulyativ səciyyə daşıyır. Oxucunun diqqətini lazım olan obyektə yönəltmək məqsədilə məntiqi ardıcıllığa görə əvvəlki məfhum özündən sonrakını əvəz edir və ya əksinə. Məsələn:

"By Tuesday, after Mr. Trump ordered a missile strike against Syria in retaliation for using chemical weapons on its own people, Secretary of State Rex W. Tillerson arrived in Moscow with a harsh warning that ***Russia*** *had better give up its support of Mr. Assad. He was greeted with a cold shoulder, denied a meeting with Mr. Putin as no secretary of state has been on a first visit to Moscow going back to the days of Cordell Hull in World War II. Back in Washington,* ***the White House*** *held a briefing accusing Russia of shielding Syria's*

chemical weapons attack on civilians." (The New York Times, Trump's Shift on Russia Brings Geopolitical Whiplash, April 13, 2017, p.1)

Mətn parçasını oxuyarkən kontekstdən aydın olur ki, burada işlədilmiş "Russia" (Rusiya) və "the White House" (Ağ Ev) metonimiyaları əslində konkret olaraq Rusiya prezidenti Putini və Amerika prezidenti Trampı əvəz edir. Məqalədə, oxucuda Suriya hökumətinin öz sivil vətəndaşlarına qarşı olan "münasibət"inə prezidentlərin subyektiv yanaşmasını pərdələmək üçün, yəni manipulyativ məqsədlə metaleptik metonimiyalara üstünlük verilmişdir.

Üçüncü qrup metonimiyalar isə məntiqi metonimiyalardır. Onu, adətən, belə təsnif edirlər:

1. Qab adının həcm ifadə etməsi. Məs: stəkan, fujer və s. (Məsələn: bir stakan su içdim). İngilis dilində: "*Presently* ***the tribe*** (qəbilə, yəni, qəbilənin üzvləri) *returned noisily to the neck."* (Golding)

2. Materialın adının predmetin üzərinə köçürülməsi Məs: Bürünc medal- bürünc (O, qızıl, mən isə bürünc aldım). İngilis dilində:*"Evelyn Glasgow, get up out of that chair this minute.* ***Your satin*** (atlaz ətəkli qadın). *The skirt'll be a mess of wrinkles in the back."* (Ferber)

3. Müəllifin adının əsərləri əvəz etməsi: Məs: Mən Qoqolu oxudum: S.Vurğunu əzbər bilirəm və s. İngilis dilində:*"Some remarkable pictures in this room, gentlemen.* ***A Holbein*** (Renesans dövründə yaşamış alman və isveç rəssamı olan Hans Holbaynın bir ədəd rəsm əsəri), ***two Van Dycks*** (Orta əsrlər hollandiyalı barokko rəssamı Van Deykin iki ədəd rəsm əsəri) *and if I am not mistaken,* ***a Velasquez*** (İspaniya "Qızıl dövr"ünün aparıcı barokko rəssamı Diyeqo Vilaskesin bir rəsm əsəri)*."* (Christie)

4. Hərəkət adının əşyanın üzərinə köçürülməsi

İngilis dilində:*"The* ***round game table*** ((qumar) oynayan dairəvi masa) *was boisterous and happy." (Dickens)*

5. Baş verən hadisələrin yer üzərinə köçürülməsi: Məsələn: Ermənilər Lələtəpədə məğlub oldular. İngilis dilində: *"Let's not let Thailand become another* ***Vietnam*** (Vyetnam müharibəsi və onun törətdiyi bütün faciələr)*."*

6. Əlamətin predmeti əvəz etməsi: Məs: Ağılsızlar buna razı olar. (ağılsızlar-ağılsız adamlar) və s. (http//www. Bibliotekar.ru/russkiy-yazik-2/10 htm)

İngilis dilində:*"****Blue suit*** (mavi kostyumlu) *grinned, might even have winked. But* ***big nose*** (iri burunlu) *in the grey suit still stared."* (Priestley)

7. Alət adının hərəkət üzərinə köçürülməsi:

İngilis dilində:*"As* ***the sword*** (qılınc, yəni, savaşmaq) *is the worst argument that can be used, so should it be the last." (Byron)*

Yuxarıda verilən bölgü ilə şərti olaraq razılaşmaq olar. Çünki bu bölgüdə sinekdoxa nəzərdən qaçmışdır. Ən çox oxunan qəzetlərdən olan "525-ci" qəzetdə yazılıb//deyilir ifadəsi işlənir. Görünür, məqalə müəllifi sinekdoxaları metonimiyalardan ayırır. Son dövr publisistik mətnlərdə sinekdoxaların aktivliyi hiss olunur. Biz metonimiyalardan danışarkən metalepsis və sinekdoxadan metonimiyaların bir növü kimi bəhs edəcəyik.

Metonimiyalar dildə işləndikcə sanki novatorluq xüsusiyyətini itirir və adiləşir, bəzən onu müəyyənləşdirmək çətinləşir. Bunu da onların dildə aktivlik xüsusiyyəti ilə əlaqələndirmək olar. Konkret fakta müraciət edək: *"Bu gün təkcə ədəbiyyatımız yox, ümumən həyatımız, təfəkkürümüz də dünyadan geri qalır. Həyata ədəbiyyatçı, romançı gözü ilə baxmayana qədər, təfəkkürümüz tam yenilənməyincə, nə haqqında yazmağımızdan asılı olmayaraq, arzulanan səviyyədə əsərlər meydana gəlməyəcək. Şair daha çox intuitivdir, spontandır, bəlkə, ancaq roman rasional məsələdir. Əslində, çoxdandır ki, dünya poeziyasında fərqli proses gedir, yəni qəlblə, duyğuyla yanaşı ağılın, məntiqin də iştirakı ilə yaranır poetik nümunələr. Biz bəzən şairin konstruksiya tərəfini dünyadan götürüb mənimsəyirik, belə olanda da şeirin emosional tərəfi yaddan çıxır. Halbuki şeirimizin həm konstruktiv, həm də intuitiv qollarının uzlaşdığı vaxtlar olub. Eləcə də bizdə posmodernist mətnlər az-çox yaranıb*

artıq, ancaq bütövlükdə biz o düşüncədən doğan həyatı yaşamamışıq deyə vəziyyət birtərəflidir. Deyəsən, heç yaşamağa meylimiz də yoxdur o düşüncəni və elə həyatı. Fərd olaraq, ayrı-ayrı imzalar olaraq irəliyə gedənlər, indi hardasa ədəbiyyatda mistikanın əhəmiyyətinə vurğu salanlarımız ola bilər, amma ümumən postmodern düşüncəni köhnəltmədən, tükətmədən yeni bir mərhələyə keçmək inkişafı axsadar, yarımçıqlıq duyğusu yaradar". ("Ədəbiyyat" qəzeti. "Təkcə ədəbiyyatımız yox, ümumən təfəkkürümüz dünyadan geri qalır". 12-19 aprel 2014) Yuxarıdakı misalda "dünya poeziyasında", "dünyadan" ifadələri metonimiyalardır. O, "dünya xalqları poeziyası"nı əvəz edir. Nitqdə özümüz də hiss etmədən hər gün bu tipli metonimiyalardan istifadə edirik. Sanki onların metonimikliyi bu axının içərisində əriyir.

İngilis dilində nümunələrə nəzər salaq:

"Mr. Mnuchin argues that an ambitious tax cut would unleash businesses that now feel constrained by one of the highest corporate tax rates in the world. Corporations would be freed to build plants and create jobs in the United States instead of in foreign countries, and would bring ***home*** *money that currently is sheltered overseas."* (The New York Times, 70's EconomicTheory Comes To Life Once More, April 27, 2017, p.6)

Və ya:

"Fingerprint sensors have turned modern smartphones into miracles of convenience. A touch of a finger unlocks the phone – no password required. With services like Apple Pay or Android Pay, ***a fingerprint*** *can buy a bag of groceries, a new laptop or even a $1 million vintage Aston Martin. And pressing a finger inside a banking app allows a user to pay bills or transfer thousands of dollars."* (The New York Times,That Fingerprint Sensor on Your Phone Is Not as Safe as You Think, April 13, 2017, p.9)

Birinci mətn parçasında işlədilmiş "home" (ev, yəni, ölkədaxili) və ikinci nümunədə verilmiş "a fingerprint" (barmaq izi, yəni, öz barmağını toxundurmaqla sensorlu "ağıllı" mobil avadanlıqlarda müxtəlif əməliyyatları yerinə yetirmək) sözləri müasir ingilisdilli ünsiyyətin ən ümumişlək metonimiyalarına çevrilmişlər. Bizcə, məhz bu ümumişləklik və diskursiv fəallıq bu qəbildən olan metonimiyaların məcazlıq xassəsinin zəifləməsinə səbəb olmuşdur.

Qeyd olunan əlamət metaforalarda da vardır. Deməli, dil bu hadisələri müxtəlif mərhələlərdə yaşadır. Söz semantikasındakı müxtəlif çalarlar bu prosesdən keçərək sabitləşir.

Metonimiya dilin lüğət tərkibinin zənginləşdirilməsində mühüm rol oynayır. Metonimikləşən söz yeni çalarlar qazanır. Məs*: "M.Ağayev çıxışlarında* ***Azərbaycanın*** *tolerantlıq və multikulturalizm ənənələrinin ictimai-tarixi köklərini izah edərək bu gün ölkəmizdə müxtəlif dinlər və millətlər arasında mövcud olan qardaşlıq münasibətlərindən bəhs edib. Diplomat qeyd edib ki, mürəkkəb coğrafi-siyasi məkanda yerləşməsinə baxmayaraq,* ***Azərbaycanın*** *yarada bildiyi uğurlu multikulutulizm və tolerantlıq nümunəsi bu gün artıq beynalxalq aləmdə mütərəqqi model kimi qəbul olunur və öyrənilir. Baş konsul vurğulayıb ki, prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda dinlər və millətlərarası qarşılıqlı hörmət və etimad mühiti hər gün daha da güclənməkdə, müxtəlif mədəniyyətlər arasında mübadilə imkanları genişlənməkdədir. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunduğunu diqqətə çatdıran M.Ağayev bildirib ki, Azərbaycanın bu yöndəki səyləri artıq yalnız ölkə daxilində deyil, regional və beynəlxalq miqyaslarda da öz bəhrəsini verməkdədir. Baş konsul bu səpkidə aprelin 25-27-də Bakıda keçirilən, 140 ölkədən 3 minədək nümayəndənin qatıldığı BMT sivilizasiyalar Alyansının VII Qlobal Forumunun böyük uğurla keçməsini nümunə kimi qeyd edib".* ("İki sahil" qəzeti. "Rəqabətədavamlı iqtisadiyyatın formalaşdırılması prioritetdir". 14 may 2016)

Azərbaycan dilinin izahlı lüğətində "Azərbaycan" leksemi ilkin olaraq coğrafi məkan, habelə "respublika" dövlət kimi verilir. Verdiyimiz mətndə "Azərbaycan tolerantlıq və multikulturalizm ənənələri" birləşməsi həmin semantik bazanın əsasında həm Azərbaycan dövlətini, həm də onun xalqını qovuşuq şəkildə ifadə edərək semantik cəhətdən daha geniş mənanı ifadə edir. Onun mənasının genişlənməsi coğrafi və dövlət anlamında olan "Azərbaycan" sözünün onun əhalisini də bildirməklə (əhalisi mənasını da öz üzərinə götürməklə) məna

sturukturunu genişləndirir. Bu mətnlə bağlı digər metonimik hadisəni də qeyd etmək lazımdır: *"prezident İlham Əliyev"*. Bu ifadədə tərəflərdən biri digərinin məzmununu öz üzərinə götürərək işlənə bilər. Məs: prezident və ya İlham Əliyev. Hər iki halda həmin leksemlərin məzmununda yeni çalar xüsusiləşmiş şəkildə formalaşır. Zənnimizcə, bu da yeni keyfiyyətli metonimik hadisədir. Məs: *"Azərbaycan Prezidenti Türkiyədəki terrora qarşı etirazını konkret addımı ilə nümayiş etdirdi"*. ("525-ci qəzet" qəzeti. "Yeni liderlik modeli". 19 mart 2016) Burada Azərbaycan Prezidenti xüsusi ismin – İlham Əliyevin ifadəçisidir.

Eyni linqvistik hadisələrlə ingilisdilli publisistik mətnlərdə də rastlaşmaq mümkündür:

""One of the most important messages," Mr. Erdogan said in November 2015 regarding the spate of violence, "is that ***Turkey*** *must resolve this Constitution issue right away" and transfer executive powers to the president. That is the way, he claims, that* ***Turkey*** *will be able to finally "defeat the terrorists."*

Mr. Erdogan has also abandoned the ambitious foreign policy that boosted Turkey's economy and helped increase the country's role in international affairs, replacing it with a crude nationalism. ***Turkey*** *today is increasingly isolated, particularly from* ***the West****. In recent years, Mr. Erdogan has accused* ***Washington*** *and* ***Brussels*** *of "dirty plots" against* ***Turkey****. Last month, he lashed out at* ***Germany*** *for using "Nazi tactics" and called the Dutch "fascists" and "Nazi remnants" for blocking efforts to campaign for the referendum in* ***the Netherlands****."* (The New York Times, Is It Too Late For Turkey's Democracy?,April 13, 2017, p.1)

Nümunədən göründüyü kimi, kiçik bir publisistik mətn parçasında çoxlu sayda metonimiyalara rast gəlmək mümkündür. Burada işlənmiş "Turkey" (Türkiyə hökuməti və Türkiyə xalqı), "the West" (Qərb, yəni, qərb dövlətləri), "Washington" (Vaşinqton, yəni, ABŞ hakimiyyəti), "Brussels" (Brüssel, yəni, Belçika hökuməti), "the Netherlands" (Niderland, yəni, Niderland hökuməti) sözləri metonimikləşmə sayəsində yeni çalarlar əldə etmişlər. Hər biri ilk növbədə coğrafi ad ifadə edən bu sözlər işləndikləri kontekstlərdə "xalq"ın və "hökumət" in üzərinə konseptual köçürülməyə məruz qalmışlar və daha geniş semantik çalar əldə etmişlər. Nəticə etibarilə, kontekstdən asılı olan söz semantikasının metonimikləşmiş variantının şahidi oluruq.

Bəzən metonimikləşən leksemin mənası yalnız işləndiyi mətndə dəqiqləşir: *"...Putin ilk açıqlamasında "biz məqsədimizə çatdıq" desə də, faktlar bunun əksini göstərir. Bu sözləri "Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu deyib. Mərkəz sədri qeyd edib ki, Rusiya təyyarələrinin Suriya ərazisini bombalaması zamanı İŞİD üzvləri ilə yanaşı, xeyli mülki insan da qətlə yetirdi..."* ("525-ci qəzet" qəzeti. "Rusiyanın Suriyaya müdaxiləsinin başlıca səbəbi nə idi?" 19 mart 2016) Bu misalda "Mərkəz sədri" "Atlas Araşdırmalar Mərkəzi"ni də əvəz edir, onların ifadə etdiyi mənanı öz üzərinə götürür. Beləliklə, "mərkəz sədri"nin mənası həmin mətnə görə müəyyənləşir. Onun tam variantı müstəqil olsa da, metonimikləşmiş variant mətndən asılıdır. Başqa mətnlərdə o, fərqli mərkəzlərin sədrlərinin ifadəçisi ola bilər. Metonimikləşmə bəzən söz birləşməsinin xüsusiləşməsinə yol açır. Bu vaxt həmin ifadə yeni status qazanır. Məs*: "Rusiyanın Ukraynaya hərbi müdaxilə cəhdlərinə Qərb ölkələrindən sərt təpkilər gəlib. Ötən gün Ağ Evdə Prezident Obama müdafiə naziri Çan Heygel də daxil olmaqla ölkənin ən yüksək vəzifəli hərbi və Milli təhlükəsizlik şəxsləri ilə intensiv görüşlər keçirib. Ağ Evdən jurnalistlərə sızdırılan məlumatlar ondan ibarətdir ki, hazırda Ağ Ev bütün çıxış yollarını müzakirə etməkdədir. Bu isə o deməkdir ki, müzakirə obyekti yalnız diplomatik yol deyil, eyni zamanda hərbi variant da stol üstündədir"*. ("Yeni Müsavat" qəzeti. "Rusiyanın Ukraynaya müdaxiləsi dünyanı ayağa qaldırdı". 3 mart 2014-cü il) Burada "Ağ Ev" Amerika siyasi dairələrini əvəz edir. Habelə, o, sadəcə olaraq təyin və təyinolunan deyil, həm də siyasi məzmunla yüklənmiş xüsusiləşdirilən söz birləşməsi — xüsusi addır. Siyasi məzmunlu publisistik yazılarda belə metonimiyalara tez-tez rast gəlinir. Bu qəbildə "Böyük Səkkizlik" söz birləşməsini də qeyd edə bilərik: *"Bu arada rusiyalı müxalifət liderləri Mixail Vasyanov isə twitter səhifəsində Qərb ölkələrinin səfirini Moskva-*

dan geri çağırdığını yazaraq əlavə edib: "ABŞ və Kanada Rusiya Fedarasiyası ilə "Böyük Səkkizlik" çərçivəsindəki qarşılıqlı əməkdaşlığı dayandırıb. Rusiyanın özünün özünü təcrid etməsi prosesi artıq başlayıb". ("Yeni Müsavat" qəzeti. "Rusiyanın Ukraynaya müdaxiləsi dünyanı ayağa qaldırdı". 3 mart 2014) Verdiyimiz misalda "Böyük Səkkizlik" I növ təyini söz birləşməsi olaraq metonimikləşmiş və həmin ifadənin mənasına aid olan səkkiz ölkəni bildirir. Göründüyü kimi, istər məkan, istərsə də, saylar yeri gəldikcə metonimik məzmun kəsb edə bilir.

Metonimiyaların kriteriyası metaforalara uyğun olsa da, onlardan fərqlənir. Əvvəla metonimiya köçürmə prinsipinə əsaslansa da, bir sıra mühüm əlamətləri ilə səciyyəvidir: buraya hissənin tamı, tamın hissəni əvəz etməsi, predmetlərdən birinin digərini əvəz etməsi kimi məsələlər daxildir. Digər tərəfdən, yuxarıdakı prinsiplər daxilində kəmiyyətin predmetləri əvəz edə bilməsi də həmin xüsusiyyətlərə daxildir. Yuxarıda qeyd olunan xüsusiyyətlər kontekstində metonimiyaları aşağıdakı cür təsnif etmək olar:

1. Metonimiya
2. Sinekdoxa
3. Metalipsis
4. Perifrazlar

Bütün ritorika kitablarında sinekdoxanı metonimiyanın bir növü kimi qəbul edirlər. Onlara "yeddilər", "üçlər", "91-lər", "93-lər", "Böyük Səkkizliklər" və başqalarını misal göstərmək olar. Metalepsisdən isə çox az-az hallarda bəhs olunur. Əslində metalepsis prinsip etibarilə perifrazlara daha çox oxşayır, lakin onların nə qədər oxşarlıqları olsa da, yenə fərqlənir. Metalepsis hadisə və ya hadisənin başqa cür adlandırılmasıdır. Məs: Mən səndən bir bayram böyüyəm. "bir bayram" bir ili ifadə edir: onlar arasındakı fərq ekspressivlikdə, emosionallıqdadır. Onun işləndiyi mətndə müəllif məkan və hadisələrə münasibət fonunda daha təsirli görünür. Metalepsisdə əvəzetmə perifrazlardakı kimidir, lakin onları fərqləndirən, adətən, metalepsisin zamana köklənməsidir. Məs: gələrəm durnalar qayıdanda (baharda) Metalepsislər poetik dil üçün daha səciyyəvidir. Perifrazlar isə milli-mental xüsusiyyətlərlə əlaqələnə bilir. Məsələn: ərim – uşaqların atası, Gülyanağın atası, yaxud arvadım – uşaqların anası və s.

Ritoriklər belə hesab edirlər ki, metonimiyalar metaforalara nisbətdə daha qədim tarixə malikdir. Zənnimizcə, perifrazların daha qədim tarixə malik olduğunu qeyd etməliyik. Yuxarıda sadalanan faktlar bəşəriyyətin nisbətən sonrakı dövrlərini əhatə edir. Vaxtilə şər ruhları ziyan vurmasın deyə başqa adla adlandırıblar. Dünya xalqlarının bəzilərində, xüsusən simod xalqlarında dünyasını dəyişən adamın adını yox, onu başqa cür adlandırırlar. Məqsəd bəd ruhlardan uzaq olmaq idi. Bu mənada perifrazlar müasir dövrə yaxınlaşdıqca məzmun cəhətdən də transformasiyaya uğramışdır. Bu mənada, perifrazlar bəzi xalqların milli-mental düşüncəsi ilə də bağlıdır. Müasir dövrdə Azərbaycanın bəzi bölgələrində uşağa bəd ruhlar ziyan verməsin deyə digər ad verib onunla çağırırlar. Məqsəd uşağın sağlamlığına bəd ruhların ziyan verməməsidir. Perifrazlara publisistik üslubda üslubi vasitə kimi tez-tez müraciət olunur.

Ədəbiyyat

1. Лакофф, Джордж (1980). Метафоры, которыми мы живем. Чикаго, Иллинойс: Издательство Чикагского университета. ISBN 978-0-226-46801-3. Метонимия - https://ru.qaz.wiki/wiki/Metonymy.

2. Якобсон, Роман (1995) «Два аспекта языка и два типа нарушений». В Линде Во и Моник Монвиль-Бёрстон (ред.). О языке. Кембридж, Массачусетс: Издательство Гарвардского университета. ISBN 978-0-674-63536-4

3. https://ru.wikipediya.org//wiki

4. Когнитивные основы метонимий и метафор в ...https://www.science-education.ru› article› view.

5. russkiiy yazik/leksika/chto-takoemetonimiya-v-russkom–yazyike.html.

У.Г.Танрывердиева

Метонимии в английской и азербайджанской прессе

Резюме

Статья посвящена метонимии, используется в азербайджанской и английской прессе. Метонимии и их специфические особенности, на языке прессы поясняются фактическими материалами на английском и азербайджанском языках. Особенно подчеркнут в языке прессы механизм метонимии и прагматическая нагрузка в тескте.

H.H.Tanriverdiyeva

Metonymies in English and Azerbaijani press

Summary

The article is dedicated to the metonymies used in English and Azerbaijani press. Metonymies and their specific features, the peculiarities of their using in press language are explained with the factual materials in English and Azerbaijani languages. The mechanism of formation of metonymies in press language and their pragmatic role in a text are especially highlighted.

Rəyçi: filol.e.d., prof. A.Y.Məmmədov

Redaksiyaya daxil olub: 28.04.2021

M.T.UMUDOVA
e-mail: mahbuba@yahoo.com

Azərbaycan Turizm və Menecment Universiteti
(Bakı şəh., Koroğlu Rəhimov küç., 23/822)

STANDART İNGİLİS DİLİNDƏ METAFORİK İSTORİZMLƏR

Açar sözlər: *praqmatika, metafora, sistem, mətn, məna, xüsusiyyət.*
Ключевые слова: *прагматика, метафора, система, текст, значение, характеристика.*
Key words: *pragmatics, metaphor, system, text, meaning, feature.*

Mətnin, xüsusilə də bədii mətnin qurulmasında fəal iştirak edən vasitələrdən biri kimi metaforalar mədəni-koqnitiv freymə daxildir. Bu əlamətin linqvo-koqnitiv vahid kimi şərh olunması üçün dilçilikdə söylənilən nəzəriyyələri, eləcə də metafora ilə bağlı modelləri nəzərdən keçirməyi lazım bilirik. Metaforaların bu istiqamətdə öyrənilməsi XX əsrin 80-90-cı illərinə aiddir və C.Lakoff, M.Consonun adı ilə bağlıdır (1, s.29). Dilçilikdə onların bu nəzəriyyəsi metaforalar barədə diskreptor nəzəriyyə adlanır. Bu nəzəriyyəyə görə, metaforikləşmə iki bilik strukturunun qarşılıqlı təsirinə əsaslanır. Onlardan biri "mənbə"nin koqnitiv strukturu, ikincisi isə "məqsəd"in strukturudur (2). Metaforikləşmə prosesində bir sıra məqsəd sahəsi mənbə bazası əsasında qurulur, yəni metaforik proyeksiya baş verir. Mənbə quruluşunun məqsəd quruluşunda təkrarı invariantlıq hipotezi adlanır. F.Devis qeyd edir ki, C.Lakoff ayrı-ayrı məqsəd sahələrinin əsas xüsusiyyətlərini cümlə və mətnlər səviyyəsində öyrənirdi (3, s. 499).

Hər şeydən əvvəl, onu qeyd etmək istərdik ki, metaforikləşmədə məqsəd sahəsi ilə mənbə sahəsi bir-birindən tamamilə fərqlənir, ekvivalent deyildir. Məqsəd sahəsi konkretlik, aydınlıq və bilik baxımından tam aydın deyil. Bununla bağlı C.Lakoff qeyd edir ki, metaforalar bizə təbiəti etibarilə daha konkret terminlərlə ifadə olunan mücərrəd mənanı başa düşməyə imkan verir. Bu ideya onun metaforik proyeksiyanın bir istiqamətliliyi ilə bağlı tezislərində öz əksini tapmışdır. Vaxtilə onun bu ideyası güclü tənqidə məruz qalmışdı (4, s.26).

Metaforaların mənbə sahəsi koqnitiv nəzəriyyədə ümumiləşmiş şəkildə insanın həyat təcrübəsi ilə bağlıdır. Mənbənin bilik sahəsi obrazlar sxemi şəklində təşkil olunmuşdur. Bu, insanla təbiətin bir-birinə daim fiziki təsiri dairəsində yaranan nisbətən sadə koqnitiv quruluşdur (5, s.126).

Müəyyən cəmiyyətin dil və mədəniyyət ənənəsi əsasında qeyd olunan mənbə sahəsi ilə məqsəd sahəsi arasındakı sabit uyğunluq konseptual metafora adlanır (6, s.144). Qərb mədəniyyətində konseptual metaforalar kifayət qədər çoxdur (məsələn: time is money (vaxt puldur); life is travelling (həyat bir səyahətdir) və s.). Konseptual metaforalar daha qlobal məzmunlu koherent konseptual strukturlar yarada bilər ki, bu koqnitiv modellər adlanır. Koqnitiv model koqnitiv psixologiyada geştaltlann (alman dilində *gestalt* - şəxsiyyət, obraz, struktur, XX əsrdə meydana çıxmış psixologiya ilə bağlı termindir) xüsusiyyətlərini xatırladan sırf psixoloji və koqnitiv kateqoriya adlanır (7, s.127).

Metaforanın diskreptor nəzəriyyəsində metaforik proyeksiya mənbə sahəsi elementlərinin məqsəd sahəsində funksionallığı özündə əks etdirir. Mənbə sahəsi ötürmə, daha doğrusu, çıxış sahəsidir, istinad nöqtəsidir, məqsəd obyekti isə gəlib çatma sahəsidir. Beləliklə, bu iki amilin qarşılıqlı əlaqəsi əsasında köhnəlmiş, hətta metaforalardan çıxmaq üzrə olan əlamətlərdən tutmuş, yeni yaranan funksional vahidlərə – metaforalara qədər cəmiyyətin mədəni həyatında möhkəm yer tutan, onun şüurunda mədəni freym kimi özünə yer tapan freymlər meydana gəlir (8, s.145).

Qeyd edək ki, metaforalarda göndəriş sahəsi ilə təyin olunmuş sahələr mürəkkəblik baxımından müəyyən məhdudiyyətlərə malik deyil. Əgər elementlər öz-özlüyündə mürəkkəb

13. Martine A. Elements of Functional Syntax. “Word”, 1960, № 1, p. 1

İ.İ.Qənbərova

Ənənəvi və müasir linqvistik istiqamətlər haqqında

Xülasə

Bu məqalə müasir dövrdə dilin öyrənilməsində yeni metodların axtarışı və öyrənilməsinə həsr edilmişdir. Ənənəvi metodları ciddi müzakirələrə səbəb olur. Bir çox ənənəvi metodlar müasir dövrlə ayaqlaşmır. Məlum məsələdir ki, həyat, dövr, texnika və texnologiya inkişaf etdikcə, bu proseslər dilə və onun öyrənilməsi metodlarına təsir edir və yeniliklər ortaya çıxır. Yaşadığımız bu günlər özü də buna bariz bir sübutdur ki, pandemiya ilə əlaqədar olaraq bütün dünyada dərslər “online” keçirilir. İnternetin imkanlarından istifadə etmək “Microsoft”-un “teams”, “room” kimi proqramlarının öyrənilməsi məcburiyyəti yaranır.

I.I.Ganbarova

About traditional and modern linguistic trends

Summary

This article devoted to the search and study of new methods of language learning in modern times. Many traditional methods don’t keep pace with the modern era. It is a well-known fact that as life, cycle techniques and technology develop, these processes affect language and its methods of learning and innovations emerge. These days, there is clear pandemic evidence related lessons are being taught online all over the world it made as to learn capabilities of using the internet and Microsoft’s, an obligation to study programs such as Zoom, Teams.

Rəyçi: dos. S.Musayeva

Redaksiyaya daxil olub: 19.03.2021

G.R.JAHANGIROVA

Azerbaijan University of Languages
(Baku, R.Bahbudov street, 60)

CULTURE'S INFLUENCE ON THE BUSINESS CONTEXT

Key words: *culture, business context, intercultural relations, competence.*
Açar sözlər: *mədəniyyət, biznes kontekst, mədəniyyətlərarası münasibətlər, səriştəlilik.*
Ключевые слова: *культура, бизнес контекст, межкультурные отношения, компетентность.*

The business context is increasingly intercultural. Just as those working and receiving services in the health-care and educational contexts must look to the development of competent intercultural communication, intercultural competence in our work lives is a critical asset. Commerce and trade are global and affect us daily. Indeed, bookstores now regularly stock reference materials that provide insights into specific cultures and suggest some of the do's and don'ts of conducting business with individuals from those cultures (4, p.13). If we look at our possessions and we will see ample evidence of the products that have crossed national and cultural boundaries. People, however, are the key ingredients in the intercultural business world.

Throughout most people's working lives, they will be within an intercultural business context; customers, coworkers, supervisors, and subordinates may all come from cultures that differ from their own. Unfortunately, many United States employees have been poorly prepared for these intercultural assignments. United States managers, for instance, who have been on temporary overseas assignments for United States multinational corporations, are far more likely to fail in their missions and to return home prematurely than are their Japanese or European counterparts. Whereas over one-half of the Western European and three-fourths of the Japanese firms have failure rates that are under 5 percent, a majority of United States multinational corporations have failure rates in the 10 to 20 percent range (5, p.117). The underlying problem, experts agree, is top management's ethnocentricity and its corresponding failure to provide adequate preparation and rewards for these intercultural assignments (3, p.364). Even within corporations and small businesses that are wholly owned and operated in the United States, there is an enormous degree of commerce and connection with people from a variety of cultural backgrounds, again creating the need to communicate competently in the intercultural business context.

Cultural variations in people's relationships to their organizations are important in understanding the intercultural business context. Specific areas of intercultural business that are associated with variations in individualism-collectivism include:

- In organizations within individualistic cultures, a single person may represent a company in its negotiations. In collectivistic cultures, a group of representatives would likely be involved in negotiations.

- Organizations within individualistic cultures likely empower their negotiators to make decisions that are binding on the company. Such decisions are often made rapidly and without consultation from the home office once the negotiations have begun. Organizations within collectivistic cultures often require extensive consultations among the delegation members and with the home office at each step in the negotiation process, as no single individual has the exclusive power for decision-making.

- People are motivated by the possibility of individual rewards, as is common in individualistic cultures. Reward systems to encourage employees' best efforts vary widely. In Mexico, for instance, though the individual is valued, rewards for independent actions and

individual achievements that are successful with United States. Americans may not be strong motivators. Thus production contests and "employee of the month" designations to encourage Mexican employees are often unsuccessful.

- In collectivistic cultures, it is vital that businesspeople establish cordial interpersonal relationships and maintain them over time. The assumption that it is possible to have a brief social exchange that will produce the degree of understanding necessary to establish a business agreement is simply incorrect. In many African cultures, for example, friendship takes precedence over business. Similarly, most Middle Easterners extend their preference for sociability to business meetings, where schedules are looser and the first encounter is only for getting acquainted and not for business. A similar regard for establishing social relationships as a prelude to doing business is also common in China, Japan, and Korea.

Another scholar-practitioner who has studied the impact of cultural patterns on communication competence in the intercultural work force is Fons Trompenaars (2, p.44). After many years of studying companies around the globe, Trompenaars identified the cultural dimension of universalism-particularism as especially useful in understanding how business practices vary because of culture. Universalistic cultures prefer to make business decisions based on a consistent application of rules, whereas particularistic cultures choose instead to adapt the rules to specific circumstances and relationships. Willam B. Gudykunst and Yuko Matsumoto indicate that universalism-particularism is related to the individualism-collectivism dimension. They suggest that businesspeople from individualistic cultures tend to be universalistic and apply the same value standards to all, whereas those from collectivistic cultures tend to be particularistic and apply different value standards to ingroups and outgroups (6, p.19). Some features of the impact of this variation on the conduct of international business include:

- Someone from a universalistic culture may view the signed contract as binding on all, whereas someone from a particularistic culture may view the contract as valid only if the circumstances remain unchanged, which may include whether the person who signed the contract is still part of his or her company. For example, the Chinese concept of legal or contractual agreements differs from the U.S. concept. In the United States, of course, a business contract is binding and should be implemented precisely as agreed. In China, however, contracts are regarded more as statements of intent rather than as promises of performance. Therefore, they are binding only if the circumstances and conditions that were in effect when the contract was signed are still present when the contract should be implemented.

Within universalistic cultures, all individuals in similar jobs are evaluated using standardized criteria. Within particularistic cultures, the performance criteria depend upon people's relationships with others and their standing within the organization.

In universalistic cultures, directives from corporate headquarters are valued and are heeded throughout the organization. In particularistic cultures, such directives are often ignored or circumvented because they don't apply to the particular circumstances of a specific subsidiary or branch office.

There are many illustrations of the influence of cultural patterns on the conduct of business across cultures. Business practices display cultural differences in interaction preferences, the importance and strategic use of interpersonal relationships, the desired social hierarchies for decision-making, the expectations regarding work and gender roles, the nature of performance appraisals and specific achievements, and indeed the entire gamut of issues that businesspeople must confront.

Cultures differ in the preferred flow or pacing of business negotiations. In the initial stages of a negotiation, for example, German business managers may ask numerous questions about technical details. In Scandinavia, there is a great deal of initial frankness and a desire to get right down to business. Among the French, however, the early emphasis is on laying out

all aspects of the potential deal. In contrast, many Italian and Asian managers may use these same initial stages to get to know the other person by talking about subjects other than the business deal. Likewise, preliminaries in Spain may take several days (1, p.56).

Cultural differences in business practices are also evident in the use of interpersonal relationships for strategic purposes. In Columbia and other Latin American countries, for example, achieving objectives by using interpersonal connections to obtain jobs, contracts, supplies and other contracts – that is, giving and receiving personal favors to create an interdependent network of relationships – is regarded very positively. Similar customs exist in India and elsewhere.

The importance and value of social hierarchy is illustrated by many Chinese businesses. Chinese businesspeople will likely have to check with their superiors before making any real decisions. In Chinese organizations, superiors are expected to participate in many decisions that United States managers might routinely delegate to subordinates. The Chinese process of consulting the next higher level in the hierarchy often continues up the bureaucratic ladder to the very top of the organization. Thus, autonomy that is expected and rewarded in the United States may be regarded as insubordination in China. Similarly, Mexicans often emphasize status differences in business and prefer formality in their business relationships, whereas European Americans prefer informality and minimal status differences in their business relationships.

Work roles also differ across cultures. Among the Japanese, work roles are an extension of the family hierarchy. That is, presidents are "family heads", executives "wise uncles", managers "hard-working big brothers", workers "obedient and loyal children". American workers employed in Japanese-managed companies do not see themselves as "loyal and obedient children" and instead hold traditional American values of individualism, competitiveness, and social mobility.

Another area in which cultural differences affect the business context is in gender expectations. Cultures differ in their prescriptive roles for men and women, and in many cultures women are unlikely to have managerial or supervisory positions in business. Women from the United States may have to make careful adjustments in order to be interculturally competent in the business setting.

Literature

1. Blackwell A. Negotiating in Europe. Hemispheres, 1994.
2. Fons Trompenaars. Riding the Waves of Culture: Understanding Diversity in Global Business. Irwin, 1994.
3. Gary Oddou and Mark Mendenhall. Expatriate Performance Appraisal: Problems and Solutions. International Human Resource Management. Ed. Mark Mendenhall and Gary Oddou. Boston. 1991, pp. 364-374.
4. Roger E. Axtell. The Do’s and Taboos of Hosting International Visitors. New York: Wiley, 1990.
5. Rosalie L. Tung. Expatriate Assignments: Enhancing Success and Minimizing Failure. Academy of Management Executive, 1987, pp. 117-126.
6. William B. Gudykunst and Yuko Matsumoto. Cross-Cultural Variability of Communication in Personal Relationships. Thousand Oaks: Sage, 1996, pp. 19-56.

G.R.Cahangirova

Mədəniyyətin biznes kontekstinə təsiri

Xülasə

Məqalədə mədəniyyətin biznes kontekstinə təsirindən bəhs edilir. Qeyd edilir ki, sosial epizodlar insanın başqaları ilə qarşılıqlı münasibətlərinin quruluşunu təşkil edən, təkrarlanan, proqnozlaş-

dırılan və gündəlik davranışlardır. Üç xüsusi sosial kontekst – səhiyyə, təhsil və biznes – bir çox mədəniyyətdən olan insanların yaxınlaşdığı və ünsiyyət qurduğu məkana çevrildi. Məqalədə gündəlik təcrübələrdə mədəniyyətlərarası səriştənin əhəmiyyətini göstərmək üçün biznes konteksti ətraflı şəkildə şərh edilmişdir.

Г.Р.Джахангирова

Влияние культуры на бизнес-контекст

Резюме

В статье рассматривается влияние культуры на бизнес-контекст. Отмечается, что социальные эпизоды– это повторяющиеся, предсказуемые и рутинные формы поведения, которые формируют структуру взаимодействия человека с другими. Три особых социальных контекста– здоровье, образование и бизнес –стали местом, где люди разных культур собираются вместе и общаются. В статье подробно описывается бизнес-контекст, чтобы проиллюстрировать важность межкультурной компетенции в повседневной практике.

Rəyçi: dos. K.Cəfərova

Redaksiyaya daxil olub: 07.05.2021

ƏDƏBİYYATŞÜNASLIQ - ЛИТЕРАТУРОВЕДЕНИЕ

S.N.ASLANOVA
e-mail: aslanova-saadat@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

MİLLİ ADƏT-ƏNƏNƏLƏRİMİZ XARİCİ MƏNBƏLƏRDƏ

Açar sözlər: *adət-ənənələr, milli dəyərlər, bayramlar, mərasim nəğmələri.*
Ключевые слова: *традиции, национальные ценности, праздники, обрядовые песни.*
Key words: *traditions, national values, holidays, ritual songs.*

Azərbaycan xalqının yaratdığı minillik mədəniyyət özünün estetik zövqü, milli xüsusiyyəti ilə səciyyələnir. Qədim Azərbaycan ərazisində xalq formalaşmağa başlayandan onun incəsənəti, musiqisi, təsviri sənəti, bədii, elmi təfəkkürü də müəyyən şəkil almağa başladı. Təbii ki, elə formalaşdığı dövrdən xalqımızın adət-ənənələri Azərbaycan mədəniyyətinin əsas tərkib hissəsi kimi öyrənilməyə və tədqiq edilməyə başlandı. Bu gün əhalinin məişət həyatında göz bəbəyimiz kimi qoruyub saxladığımız bu milli dəyərlər böyük əhəmiyyət kəsb edir.

Belə ki, Azərbaycan öz müstəqilliyini qazanmamışdan öncə Azərbaycanın milli adət-ənənələri müstəqil ədəbi fakt kimi digər xalqların oxucularına, o cümlədən, ingilis dilli oxucuya çatdırmaq mümkün olmamışdır. İngilis dilli qaynaqlarda Azərbaycanın mədəniyyəti, adət-ənənələri daha çox ümumtürk mədəniyyətinin tərkib hissəsi kimi öyrənilmişdir. Onu da qeyd edək ki, Azərbaycan folklor nümunələrinin sayı olduqca azdır. Tərcümə olunmuş nümunələr öncə rus dilinə çevrilmiş, daha sonra isə ingilis dilinə tərcümə edilmişdir. Təkcə bu fakt Azərbaycan folklor nümunələrinin ingilis dilinə tərcüməsinin hansı səviyyədə olmasını göstərir.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra Azərbaycan xalqının milli varlığının daha geniş miqyasda – beynəlxalq səviyyədə öyrənilməsi, xalqımızın bağlı olduğu və yaratdığı elmi, ədəbi, mədəni dəyərlərin araşdırılması və tanıdılması zəruri bir məsələyə çevrilmişdir.

Qeyd etmək istərdik ki, ingilis dilli qaynaqlarda ən çox öyrənilmiş ədəbi nümunələrimizdən biri "Kitabi-Dədə Qorqud"dur. Kitabi Dədə-Qorqud və oradakı boyları ingilis dilinə tərcümə edən ingilis alimlərindən K.S.Mandini, Lyuis Ceofrey, Hikman Uvilyamı və başqaları bu əsərləri tədqiq edərkən bu araşdırmalarda irəli sürülən fikirlərə müsbət münasibət bildirmişlər.

İngilis dilli mənbələrdə Azərbaycan mədəniyyəti, adət-ənənəsi ilə bağlı araşdırılan məsələlərdən ikincisi Novruz bayramıdır. Doğrudur, bu bayramla bağlı ingilis dilli qaynaqlarda elə də çox mənbə yoxdur. Bu mövzu ilə bağlı məqalələrin əksəriyyəti İran alimləri tərəfindən yazılmışdır. Yazılmış məqalələrdə qədim adət-ənənələrin və xalqların varlığının qorunmasında onların rolu göstərilmişdir.

Bildiyimiz kimi Novruz bayramı hər il eyni vaxtda təkrarlanır. Lakin, bu təkrar olunma bizi bezdirmir. Çünki, buna xalqların, təbiətin, cəmiyyətin, tarixin ehtiyacı var. Bu təkrar nəticəsində xalq sanki yenidən canlanır, özünə qayıdır, öz dəyərlərini yenidən öyrənir və yaşamaq, inkişaf etmək üçün güc qazanır.

Xalqımızın milli bayramı olan Novruz bayramı təntənə ilə keçirildiyi üçün demək olar ki, cəmiyyətin bütün təbəqələri bu mərasimdə iştirak edir və hər kəs özündə bir yenilənmə duyur. Novruz bayramının önəminin biri də odur ki, bu bayramda keçmişi xatırlama gücü var. İnsanlar onlar üçün önəmli olan dəyərləri hər il yenidən xatırlayır və bu dəyərləri yaşatmağa çalışırlar. İran alimi Əli Şəriəti Novruz bayramı ilə bağlı məqaləsində yazır ki, "Novruz istirahət və əyləncə bayramı deyil. Novruz əcdadlarla əlaqə yaratmaq, onlardan güc almaq bayramıdır." Müəllif Novruz bayramının tarixi ilə bağlı qısa bir məlumat vermişdir. Ona görə, bu bayramın yaşını təyin etmək çətindir. Novruz təbiətin bayramıdır. O, İslamdan qabaq da, sonra da keçirilmişdir. Ürəyində bu bayrama böyük sevgi olduğundan xalq ayrı-ayrı dövrlərdə qadağalara, zülmə baxmayaraq, hər zaman Novruz bayramını şəraitə uyğun olaraq gizli və açıq şəkildə qeyd etmişdir.

Daha sonra müəllif Novruzla bağlı adətlərə də toxunmuşdur. Allah təbiətin bu mərhələsini elə yaratmışdır ki, Novruz bayramında gecə ilə gündüz bərabərləşmiş, insanların xoşlamadığı qış sona çatmış, barlı-bərəkətli bir mərhələ başlamışdır. Bu mərhələdə təbiət canlanır, insanlar əkməyə, becərməyə başlayır, hər şey yenilənir. İnsanlar təbiətin bu yeni mərhələsini qeyd etmək, yadda saxlamaq, onu nəsildən-nəslə ötürmək istəyirlər.

İngilisdilli qaynaqlarda Azərbaycanın milli adət-ənənələrini, mədəniyyətini təhlil edərkən onu qeyd etdiyimiz kimi, ilk sırada ayrı-ayrı türk xalqlarının şifahi ədəbiyyatı ilə, eləcə də dünya xalqlarının folklor nümunələri ilə müqayisə etməyə çalışırlar.

İngilis tədqiqatçısı C.Lyuisin Azərbaycan folklorundan etdiyi tərcümələr xüsusilə diqqətə layiqdir. Azərbaycan mədəniyyəti və adət-ənənələri ilə yaxından maraqlanan alim Azərbaycanın mərasim nəğmələri ilə maraqlanmış və onların bir qismini öz ana dilinə çevirmişdir. Bu tərcümələr poetik olduğu qədər də axıcıdır. O, mərasim nəğmələrini poetik üslubun tarixi inkişaf prinsipləri əsasında araşdırmağı daha məqsədəuyğun hesab etmişdir. Mərasim nəğmələri özünəməxsus janr tərkibinə malikdir. Azərbaycan folklorunun ən qədim incilərindən hesab olunan mərasim nəğmələri xalqın çoxəsrlik həyat təcrübəsi əsasında yaranıb formalaşmışdır. Bu poeziyanın hər bir nümunəsi, həmçinin müəyyən məişət mərasimi və ayini ilə qovuşmuşdur. Buraya insanın doğulması, evlənməsi, vəfat etməsi daxildir. İnsanın həyatının bu mərhələlərinin hər biri xüsusi mərasimlərlə icra olunmuşdur (3, s.63). Bu hal bütün xalqların mərasimlərində eyni inkişaf yolu keçmişdir ki, bunun da təbii səbəbləri vardır. Belə ki, hər bir mərasim və mərasimin sözü, nəğməsi məxsus olduğu xalqın həyatını, yaşayışını ən başlıcası isə təbiət və cəmiyyət hadisələrinə baxışının ayrı-ayrı tərəflərini konkret biçimdə ifadə edir. Bundan savayı onlar xalqın keçdiyi tarixi yolu, onun poetik təfəkkür tərzini, irəliləyişini, səmtini aydınlaşdırmaqla öyrədici əhəmiyyət daşıyır. İnsan həyat boyu üç başlıca hadisə ilə qovuşur. O, doğulur, nəsil artırır, nəhayət cismən əbədi yaşayışından üzülür (1, s.80). Bütün bu məsələlərlə bağlı mərasim nəğmələri yaranmışdır ki, onların hər biri ayrı-ayrı adət-ənənə və marasimlərlə bağlı meydana gəlmişdir.

Azərbaycan şifahi ədəbiyyatında mərasim nəğmələrinin izləri özünü geniş şəkildə bir sıra janrlarda göstərir. Məsələn, dualara nəzər salsaq, burada məişət mərasimlərindən olan doğum, adqoyma, yaş mərasimlərinin ayrı-ayrı elementlərinin təsirini aydın görmək mümkündür. Məsələn, "Allah sənə bir övlad versin" deyimi övladsızlıq, övlad əldə etmə motivi ilə bağlıdır.

Azərbaycan xalqının bu maraqlı adət-ənənələrini yaxından izləyən və tədqiq edən V.P.Anikin yazırdı: "Qanadlı sözlər, alqış və qarğışlar, yaxud uşaq təfəkkürü üçün önəmli olan saymaq, rəngini, formasını, başlıca əlamətlərini yadda saxlamaq, nəyi nəyəsə bənzətmək təcrübəsi əsasında yaranan tapmacalar xalqın bədii yaradıcılığının ilkin bədii formulaları idi. Onların hər birində bədii təfəkkürün inkişaf izlərini görmək mümkündür. Uşaqların nitqini açmaq, zehnini itiləmək, düşüncə çevrəsini genişləndirməklə yanaşı şüurunun yüksəlişinə təsir göstərə biləcək kiçik bir janr nümunəsi də vardır. Bu nümunələr sözün bədii ifadəsinin meydana gəldiyi ilkin mərhələdə böyüklərin nitq vərdişlərinə yiyələnmə dövründə insanların dil

ünsiyyətinə olan ehtiyacı ilə bağlı meydana çıxmış, uzun yüzilliklər ərzində ağızlarda yaşamış, boyüklərin buna artıq ehtiyacı olmadığı vaxtda uşaq yaradıcılığına miras qalmışdır" (4, s.87).

Azərbaycanın digər milli mənəvi dəyərlərindən biri sayılan aşıq sənəti, aşıq poeziyası da daim diqqəti cəlb etmişdir. J.H.Villiam öz tədqiqatlarında yazır ki, son dövr nümunələri aşıq poeziyasında – bağlama, qıfılbənd, deyişmə nümunələrində özünü qoruyub saxlamışdır. Daha əzəli formalar isə təkərləmə, açıqlandırma kimi poetik nümunələrdə müəyyən dərəcədə nəzərə çarpır (6, s.354).

M.Adilov yazdığı əsərdə A.Eydenberqdən sitat gətirərək yazır ki, "mərasim düşüncəsindəki məzmunla folklor mətninin sərhədləri çox yaxındır. Bir sıra hallarda ayrı-ayrı mərasimlərdə, ayinlərdə, rituallarda folklor mətnləri yarandığı kimi, bir çox mərasim və adət-ənənələr də öz növbəsində folklor mətnləri yaradır. Yeni etnoqrafiya ilə folklorun sərhədləri çox asanlıqla bir-birinin üzünə açılır" (2, s.128).

A.Eydenberq fransız mərasimlərindən söz açaraq onu Azərbaycan mərasimləri ilə eyniləşdirir. O, fransız kəndlisinin yayın əvvəlində yeni biçilməyə başlayan zəmidə keçirdiyi "Buğda" mərasimini misal gətirərək yazır ki, bu fransız kəndlisinin etnik dünyasında ən mühüm mərasimlərdən biridir. O, burada məhsul bolluğu, insanın çətinliklərə sinə gərib torpaqdan məhsul götürməsi, bolluq, firavanlıq etiqadları mərasiminin başlıca məzmununu əhatə edir. Müəllif bunu fransız kəndlisinin etnoqrafiyası kimi təqdim edir. "... amma Buğda bərəkətdir", "Buğda ağ güzarandır", "Buğda yaşayışdır" və s. kimi aforistik ifadələr, buğda haqqında fransız kəndlisinin oxuduğu nəğmələr bədii dəyərlərdir" (2, s.132).

Müəllif bu xüsusiyyəti Azərbaycan xalqının etnoqrafiyası və şifahi yaradıcılığında da özünü göstərdiyini qeyd edir. Bir çoxu isə bilavasitə Zərdüşt təsəvvür və etiqadları ilə bağlı olub, daha geniş zaman hüdudunu əhatə edir. Zərdüştlərin ayrı-ayrı mərasim adətləri onlarla bağlı bir çox adət-ənənə, rituallarla deyil, nəğmə və başqa folklor mətnləri də mənbələrdə və yaddaşlarda qalmaqdadır.

Qeyd edildiyi kimi xalqın etnoqrafik həyatı dünyanı dərk etməsi dövründə yaratdığı adət, ənənə, mərasim və ənənələrin məcmusudur. Qədim insan özünün ilk nəğmələrinin böyük bir qismini elə həmin məqsədlə yaratmışdır. Bu mərasimlərin daxilində xalqın erkən mədəniyyəti və milli dəyərləri yaranmışdır.

Ədəbiyyat

1. Abdullayev B. Azərbaycan folklorunda ailə-məişət mərasimləri və onların poetik mətnləri // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (kitab VII). Bakı: Elm, 1987, s. 80-140.
2. Adilov M. Niyə belə edirik. Bakı: Gənclik, 1984, 368s.
3. Nəğmələr, adətlər, alğışlar / Top. və nəşrə hazırlayanı A. Nəbiyev. Bakı: Yazıçı, 1992, 326 s.
4. Аникин В.П. Об историческом приуроченности пословиц, поговорок, загадок. Москва, 1960, 123 с.
5. Azerbaijanian poetry (classic, modern, traditional). Ed. by M. Ibrahimov. Moscow, 1969, 662 p.
6. William H. Jansen. Turkish Folklore: An Introduction // Journal of American Folklore, 1950, volume XII, p.354-361.

С.Н.Асланова

Национальные традиции Азербайджана в иностранных источниках

Резюме

Статья посвящена отражению наших национальных традиций в зарубежных источниках. Отмечается, что до обретения Азербайджаном независимости не было возможности донести до англоязычного читателя национальные традиции Азербайджана как самостоятельный литературный факт. В англоязычных источниках культура и традиции Азербайджана изучаются как составная часть общетюркской культуры. Однако после обретения Азербайджаном независи-

мости традиции азербайджанского народа привлекли внимание многих зарубежных ученых и вышли на мировую арену.

S.N.Aslanova

National Traditions of Azerbaijan in Foreign Sources

Summary

The article deals with the reflection of our national traditions in foreign sources. It is noted that before Azerbaijan gained its independence, it was not possible to convey the national traditions of Azerbaijan to the English-speaking reader as an independent literary fact. In English-language sources, the culture and traditions of Azerbaijan have been studied as an integral part of all-Turkic culture. However, after the independence of Azerbaijan, the traditions of the Azerbaijani people attracted the attention of many foreign scholars and entered the world arena.

Rəyçi: filol.f.d., dos. İ.N.Sərdarova

Redaksiyaya daxil olub: 30.03.2021

Ş.T.BÜNYADOVA
tarix üzrə elmlər doktoru, professor
e-mail: Shirin_bunyad @mail.ru

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

XAQANİ VƏ MƏHSƏTİNİN ƏSƏRLƏRİNDƏ BƏZƏKLƏR

Açar sözlər: *etnoqrafiya, Xaqani, Məhsəti, əsər, bəzək, orta əsrlər.*
Ключевые слова: *этнография, Кагани, Махсати, произведение, украшение, средние века.*
Key words: *ethnography, Khagani, Mahsati, work, jewelry, middle ages.*

Xalqın məişətində əsrlər boyu formalaşan maddi mədəniyyət ünsürü kimi bəzəklərin əhəmiyyətli yeri olduğu bəllidir. Geyim mədəniyyətində əsas vasitələrdən biri bəzəklərdir. Bəzəklər geyimlərin daha təntənəli və gözəl görünməsini təmin edir. Onlar geyimlərin sahibləri haqda fikir yürütməyə imkan verən elementlərdir. Bundan əlavə onlar həm də müxtəlif xalqlar arasında ticari əlaqələrin olduğunu göstərir.

Bəzəklər həm qadın, həm də kişi geyimləri üçün xarakterikdir. Lakin qadın bəzək əşyaları nisbətən zəngindir. Onlar baş, sinə, bel, qulaq, əl və s. üçün hazırlanan məmulatlardan ibarətdir. Bəzəklər barədə orta əsr şairləri Əfzələddin Xaqani və Məhsəti Gəncəvi öz yaradıcılıqlarında müəyyən qədər məlumat vermişlər. İlk öncə baş bəzək növləri haqqında xatırlatmalara nəzər yetirək. Xaqani tac barədə belə deyir:

Mənimsə dünyaya gələndən bəri,
Nur saçır tacımın dəndənələri (1, s.19).

Burada şair taca qoyulan daşlardan söz açır. Tac üzərinə yumru oyuqlara oturdulan daşlar hər biri ayrıca dən-dən olur, aralarında müəyyən məsafə gözlənilməklə bir-birinə yanaşı yerləşdirilirdi.

Boyuna taxılan həmayil haqda Xaqani belə yazır:

Aldı kainatdan yeddi dəmir mil,
Bir halqa boynuma etdi həmail (1, s.35).

Mənbələrdə adı çəkilən həmayil boğazaltı bəzək əşyası, çiyindən asılan bəzək və boyundan asılan dua da ola bilər. Bədnəzərdən qorunmaq üçün magik məna daşıyan həmayili müxtəlif bəzək əşyası kimi (üzük, bilərzik, sırğa və s.) istifadə edirdilər. Lakin bir bəzək əşyası kimi həmayilin boğaz altına taxıldığı məlumdur. Arxeoloji qazıntılar zamanı da həmayillər aşkar olunmuşdur. Bu onların geniş yayıldığına dəlalət edir. Bunu bir növ müqəddəs sayılan əşyaların gəzdirilməsi kimi dəyərləndirmək olar (3, s.206). Xaqani boyuna gərdənbənd salındığını qeyd etmişdir (1, s.225). Bununla yanaşı, o, boyunbağının adını çəkmişdir (1, s.132).

Bəzək növlərindən Məhsəti yalnız üzük və sırğanı qeyd etmişdir (2, s.31; s.62). Bundan əlavə nadir mirvari daşından söz açmışdır (2, s.25). Sırğa barədə Xaqani belə yazır:

Sırğasının, məlum deyil, nə təqsiri vardır ki,
Mişkin saçın kölgəsində tərs asılmış qulaqdan (1, s.175).

Xaqani bəzəklərdə istifadə olunan müxtəlif qiymətli və yarımqiymətli daşlar, ləl (1, s.21), sədəf, mirvari, cəvahir (1, s.60), dürr, gövhər (1, s.43), yaqut (1, s.128), füruzə (1, s.225) və s. haqqında yazmışdır.

Ənənəvi olaraq üzüklər müxtəlifliyi ilə seçilirdi. Belə ki, qaşsız olmaqla yanaşı, eyni zamanda qaşlı və minalı olanlar da var idi. Xaqani bənzətmələrində üzük və xalxal haqqında

söz açmışdır (1, s.23; s.132). Xalxal halqavari quruluşa malik olub zınqırovlarla əhatələnmiş qızıl və ya gümüşdən hazırlanmış bəzək əşyasıdır ki, xüsusən rəqqasə qadınlar onu topuqlarına taxardılar. Rəqs havasının ritminə uyğun gəlsin deyə, orta əsrlərdə rəqqasələr tərəfindən istifadə olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, müasir Hindistan rəqslərində hələ də belə xalxallardan istifadə olunur. Bu da onun Hindistandan Azərbaycana keçdiyini ehtimal etməyə əsas verir. Yeri gəlmişkən onu da əlavə edək ki, rəqqasələr ayaqlarına keçirdildəri xalxallarla bərabər, eyni zamanda əllərinə də çalpara (yəni kiçik zillər və ya zilpara) taxıb oynayırdılar. Barmaqlara keçirilən bu zillər qoşa olduğundan bir-birinə dəydikdə səs çıxarırdı.

Adı çəkilən müəlliflərin əsərlərində bel bəzəklərindən söz açılır. Orta əsrlərdə istifadə olunan müxtəlif bəzək növlərindən biri də qadın və həmçinin kişi geyimlərinə xas olan kəmərlərdir. Kəmər qadın paltarının daha yaraşıqlı görünməsində əsas rol oynayır, onu tamamlayır və gözəlləşdirir. Qadın geyimlərinə xüsusi yaraşıq verən kəmər onu cazibədar göstərir. Xaqani də kəmərdən yazmışdır (1, s.89). Kəmərlərin müxtəlif növləri olurdu. Bəzən də onlar daş-qaşla bəzədilirdi. Sikkəli kəmərlərin varlığını isə Nizami Gəncəvi qeyd etmişdir (5, s.231). Belə kəmərlərə XX əsrdə də rast gəlinmişdir. Bu barədə F.Vəliyev məlumat vermişdir (6, s.103). Deməli, sikkəli kəmərlərin istehsalı uzun əsrlər davam etdirilmiş və zərgərlik ənənəsi sabit qalmışdır. Bu davamlılıq xüsusiyyəti məhz bu kəmərlərin sırf yerli istehsalla bağlılığını təsdiq edir. Bəzən isə kəmərlər sadəcə gümüş və qızıldan ibarət olmaqla müxtəlif zərgərlik üsulları ilə hazırlanırdı.

Geyimləri tamamlayan, onlara xüsusi yaraşıq verən bəzək əşyaları bəzək məqsədilə işlənən müxtəlif quruluşlu məmulatların toplusudur. Bəzəklər onu gəzdirən insanlar barədə təsəvvür mənbəyidir, insanın daxili aləminin, əhval-ruhiyyəsinin göstəricisidir. Bəzək növləri təbii şəraitdən, tarixi dövrdən, iqtisadi təminatdan və digər ölkələrin xalqlarıyla ticari əlaqələrdən asılıdır. Onlar həm yaş həddinə görə, həm də quruluşu, ornamentləri və hazırlanma texnikasına görə də fərqlənirlər. Şairlərin hər ikisinin əsərlərindən aydın olur ki, zinət əşyaları üçün istifadə olunan əsas metal qızıl və gümüş olmuşdur.

Adları çəkilən bəzək əşyalarının quruluşları barədə məlumat əldə etmək mümkün deyildir. Bu da ondan irəli gəlir ki, müəlliflər sadəcə yeri gəldikcə bir bənzətmə kimi bəzəklərin adlarını çəkmişlər. Müqayisəli təhlillər onu deməyə imkan verir ki, Nizami Gəncəvinin təsvirləri daha əhatəlidir. Bu da onun əsərlərinin məzmunundan və yaradıcılığının genişliyindən irəli gəlir.

Orta əsr bəzəkləri haqda arxeoloji tədqiqat B.Ə.Rəcəbovanın "Azərbaycanın orta əsr qadın bəzəkləri" (4-13 əsrlər) kitabında yer almışdır (4). Bundan əlavə bəzəklərin etnoqrafik tədqiqinə K.Hadıyevanın "XIX-XX əsrin əvvəllərində Azərbaycanda ənənəvi qadın bəzəkləri" adlı kitabı həsr olunmuşdur (9). Bu əsərlər bizə orta əsrlərin sonlarına qədər bəzəklərin inkişaf dinamikasını və sabitləşmiş ənənəvi üsulların zərgərlik sənətindəki mövcudluğunu göstərmək baxımından maraq doğurur.

Bəzək daşlarına insanlar tərəfindən yüklənən məna çalarları da mövcud olmuşdur. R.Əfəndiyev Nizaminin poemalarına istinadən füruzə qaşın evə səadət, xoşbəxtlik gətirməsindən bəhs edir (7, s.23). Məlumatçının dediyi kimi, qızıl əşyalar bütün dövrlərdə dəyərli hədiyyə hesab olunmuşdur (8).

Beləliklə, orta əsr şairlərindən Xaqani və Məhsətinin verdiyi məlumatlara əsaslanaraq deyə bilərik ki, XII əsrdə bəzəklərin əksəriyyəti qızıl və gümüşdən hazırlanırdı. Bəzəklərin orta əsrlər boyunca ənənəviliyə uyğun formada hazırlandığını söyləmək olar. Onlar zamanla inkişaf etmiş, ənənəvi xüsusiyyətlər və özünəməxsusluq qazanmışdır. Zərgərlərin əl işləri olan bəzəklər vahid dəsti-xəttin olduğunu nümayiş etdirmişdir. Onlar zərgərlikdə tətbiq olunan müəyyən üsulların varlığını təsdiq etmək imkanı verir. Bəzəklər eyni zamanda bədnəzərdən qorunmaq üçün vasitə sayılırdı.

Ədəbiyyat

1. Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı: Az SSR EA, 1956, 477 s.
2. Gəncəvi M. Rübailər. Bakı: Azərnəşr, 1961, 68 s.
3. Bünyadova Ş. Azərbaycanın təsərrüfatı və maddi mədəniyyəti. XII-XVI əsrlər. Bakı: Elm, 2007, 360 s.
4. Rəcəbova B.Ə. Azərbaycanın orta əsr qadın bəzəkləri (IV-XIII əsrlər). Bakı: Elm, 2000, 136 s.
5. Gəncəvi N. Xosrov və Şirin. Bakı: Elm, 1981, 374 s.
6. Vəliyev F. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (geyimlər, bəzəklər). Bakı: Elm, 2006, 172 s.
7. Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı. Bakı: Azərnəşr, 1966, 38 s.
8. Məlumatçı Musayeva Esmira Ələkbər qızı, 1949-cu il təvəllüdlü (Binəqədi kənd sakini)
9. Hadıyeva K. XIX-XX əsrin əvvəllərində Azərbaycanda ənənəvi qadın bəzəkləri. Bakı: Xəzər Universiteti Nəşriyyatı. 2009, s. 172.

Ш.Т.Бунядова

Украшения в творчестве Хагани и Махсати

Резюме

Таким образом, основываясь на сведениях средневековых поэтов Хагани и Махсати, можно сказать, что в XII веке большая часть украшений была сделана из золота и серебра. Можно сказать, что в средние века орнаменты были выполнены в традиционной форме. Со временем они приобрели новые черты и индивидуальность. Работы ювелиров показывают сохранение ими до сих пор традиционные черты. Они позволяют нам подтвердить существование определенных методов. При этом украшения считались средством защиты от дурного глаза.

Sh.T.Bunyadova

Jewelry in the works of Khagani and Mahsati

Summary

Thus, based on the information of medieval poets Khagani and Mahsati, we can say that in the XII century most of the jewelry was made of gold and silver. We can say that in the Middle Ages, ornaments were made in a traditional form. Over time, they acquired new features and personality. The works of jewelers show that they still retain traditional features. They allow us to confirm the existence of certain methods. At the same time, jewelry was considered a means of protection from the evil eye.

Rəyçi: filol.e.d., prof. T.H.Cəfərov

Redaksiyaya daxil olub: 05.06.2021

S.İSMİZADƏ
e-mail: sabriyya@inbox.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ÇİNUA AÇEBENİN "PARÇALANMA" ROMANINDA "İBO CƏMİYYƏTİ"NİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİN TƏSVİRİ

Açar sözlər: *kolonializm, postkolonializm, İbo cəmiyyəti, irqi ayrı-seçkilik.*
Ключевые слова: *колониализм, постколониализм, общество Игбо, расовая дискриминация.*
Key words: *colonialism, postcolonialism, Igbo society, race discrimination.*

Dünyanın bir çox ölkələrində irqi, dini və milli ayrı-seçkiliyin olması zaman-zaman fərd və cəmiyyət qarşıdurması, etnik azlıqların müstəqillik iddiaları kimi radikal dəyişikliklərin başlamasına səbəb olmuşdur. Mövcud problemlər cəmiyyəti və siyasətçiləri narahat etməklə yanaşı, ədəbi mühitə də öz təsirini göstərirdi. Ədəbiyyat bəşər tarixinin bütün dövrlərində sosial-siyasi həyatın, cəmiyyətin, kütlənin və fərdin problemlərinin ən əsas göstəricilərindən biri olduğundan dünyada baş verən ictimai-siyasi hadisələr hər zaman ədəbiyyatın da mövzu prizmasına daxil olur. XX əsrin II yarısından başlayaraq qloballaşan dünya çərçivəsində müstəmləkə sistemlərinin dağılması, multikultural qarışıqlıq, dini və irqi toqquşmalar müşahidə olunurdu. Müstəmləkədən azad olmaq cəhdləri, hegemon dövlətlərin yeni müstəmləkələr yaratmaq arzusu siyasi zəmində qarşıdurma yaratdığı kimi etnosların mədəni və sosial problemlərinin də qabardılmasına şərait yaradırdı. Koloniya şəraitində yaşayan xalqlar azadlıq ideyası ilə mövcud rejimə qarşı çıxaraq, etnos kimi özlərini təsdiqə can atırdılar və onların bu "səssiz harayları" yaratdıqları ədəbi nümunələrə də siraət edirdi. Kolonial ədəbiyyat termini məhz həmin xalqların ədəbiyyatını ifadə edən anlayışdır. Bəzən multikulturalizm anlayışı ilə eyniləşdirilən postkolonializm anlayışı isə müstəmləkə rejimindən azad olmuş xalqların sonrakı həyatını tədqiq edir, bu zaman yaranan ədəbiyyat isə poskolonial ədəbiyyat adlanır. Afrika ölkələrinin, Avstraliya, Banqladeş, Kanada, Hindistan, Yeni Zelandiya, Pakistan, Sinqapur kimi ölkələrin ədəbiyyatı postkolonial ədəbiyyata aiddir. Xüsusi və fərqli regional xüsusiyyətlərinə əlavə olaraq bu ədəbiyyatların hər birinin müstəmləkəçilik təcrübəsindən irəli gələn ortaq cəhətləri var (2). Qloballaşan dünya fonunda dəyər qazanan multikulturalizm anlayışı cəmiyyətin mozaikliyini təcəssüm etdirməklə yanaşı, müxtəlif xalqların bərabərlik ideyasına olan müsbət yönümlülüyü ilə seçilir və bu baxımdan postkolonializm anlayışından fərqlənir.

Bütün dünyanı əhatə edən siyasi dəyişikliklər təbii ki, İngiltərədən də yan keçməmiş, müstəmləkə siyasəti və onun nəticələri ədəbi simaların da diqqətindən yayınmamışdır. Bir tərəfdən yazıçılar Avstraliya, Kanada, Asiya, Afrika kimi kənarda qalmış periferiyalara maraq göstərir, digər tərəfdən miqrant yazarlar yaşadığı mühitə uyğun əsərlər yaradır və həmçinin hibrid yazıçılar ordusu meydana gəlirdi. Bu müəlliflərin əsərlərinin mövzusu, üslubu, süjeti və bir çox poetik elementləri Avropa oxucusuna yad olsa da, onları birləşdirən əsas nüans ənənəvi ingilis paradiqmalarına və milli xüsusiyyətlərə sadiqlik idi. Bundan başqa, dil faktorunun da rolu təkzib edilməzdir. İngilis dilinin millətlərarası ünsiyyət üçün universal bir kod kimi təqdim edilməsi nəinki Britaniya adalarında yaradılan ədəbiyyatı ehtiva edir, həmçinin bu dildə yazılmış bütün ədəbi nümunələri eyni istilah – "ingilis ədəbiyyatı" adı altında birləşdirir (5). İngilis ədəbiyyatında kolonializm və postkolonializm psixologiyasının tədqiqi digər multikultural yazıçılar kimi Nigeriya əsilli ingilisdilli yazıçı Çinua Açebenin (1930-2013) də yaradıcılığının əsas istiqamətini təşkil edir. Ağlarla qara dərililər arasındakı keçilməz səddlərin səbəb olduğu düşmənçilik duyğusu, azadlıq tələb edən, irqi ayrı-seçkiliyə qarşı çıxan qara dərililərin problemlərini öz həyat təcrübəsinə və yaradıcılıq kredosuna uyğun dəyərləndirmə-

yə çalışan Çinua Açebe ingilis dilinin üslub və ifadə imkanlarından istifadə edərək müstəmləkə rejiminin qurbanı olan nigeriyalıların problemlərini demək olar ki, bütün əsərlərində göstərməyə çalışmışdır.

Ç.Açebedən əvvəl Afrika xalqlarının həyat tərzindən bəhs edən əsərlər yazılsa da, onlar bir mənalı şəkildə bu xalqların mənfi xüsusiyyətlərinin təsvirinə əsaslanırdı. C.Konrad "Qaranlığın ürəyi" əsərində afrikalıları "vəhşi", "qara" və "mədəniyyətdən uzaq" xalq adlandırmışdı. Bundan başqa, C.Keri "Cənab Conson" əsərindəki baş obraz Consonu Afrika haqqındakı kolonialist stereotipləri gücləndirən savadsız bir afrikalı kimi təqdim etmişdir (3, s.32).

"Bundan sonra rifahda", "Tanrının oxu", "Kütlənin insanı", "Biafrada Milad", "Savannanın qarışqa yuvası", "Ev və sürgün" romanlarının müəllifi olan Ç.Açebe isə yaşadığı qitənin problemlərini göstərməklə yanaşı Avropalı yazıçıların Afrikanı dünyaya fərqli təqdim etməsinə də öz kəskin münasibətini bildirir, qitənin gerçək mənzərəsini dünyaya təqdim etməyə çalışırdı. Yazıçının ilk qələm təcrübəsi olan "Parçalanma" romanı da bu qəbildəndir.

1958-ci ildə ilk dəfə nəşr olunan "Parçalanma" romanı ilə Ç.Açebe avropalıların afrikalıları hər yerdə maarifləndirilməli, öyrədilməli olan "barbarlar" kimi təqdim etməsinə etirazını göstərməyə çalışmışdır. Romanın adı U.B.Yitsin "İkinci gəliş" (4, s.11) şeirinin invariantı kimi təqdim edilmişdir.

Məlum olduğu kimi, XIX əsrin sonlarında Avropa dövlətlərinin əksəriyyəti koloniyalar qurduqları Afrikaya və dünyanın digər bölgələrinə köç edirdilər. Nigeriya müstəmləkəçilik missiyasında olan "qonaqları" qəbul edən digər Afrika xalqları arasında idi və İbo cəmiyyəti qeydsiz-şərtsiz onlara tətbiq olunan dinlərini və mədəniyyətlərini tanımağa məcbur edilirdi. Nəticə etibarı ilə, müstəmləkəçilərdən tamamilə fərqlənən Umuofia xalqının mədəniyyəti (İbo mədəniyyəti), dini inancları və hətta ailə dəyərləri də son dərəcədə təhlükə altında idi. Çinua Açebenin "Parçalanma" romanını yazmaqda əsas məqsədi də oxucularına Afrika xalqının mədəniyyətinin dəyəri haqqında məlumat vermək istəməsidir.

Romanın süjeti Nigeriyanın kənarında xəyali bir kənd olan Umuofiada ağ missionerlərin gəlməsindən bir qədər əvvəlki hadisələrin təsviri ilə başlayır. Missionerlərin gözlənilməz gəlişi səbəbindən kəndlilər xalq olaraq onların varlığını təhdid edən yeni siyasi quruluşa və ani mədəni dəyişikliklərə necə reaksiya verəcəklərini bilmirlər. Əsas süjet xətti baş obraz Okonkuonun həyatı üzərində qurulub. Belə ki, bir nəfərin qətlində günahlandırılan Okonkuo və ailəsi Umuofiadan sürgün edilir və onun sürgün illərində ağ dərili missionerlər kəndi özlərinə təhkim edərək dəyişməyə çalışırlar. Kəndə qayıtdığı zaman sürgündən əvvəlki və indiki şəraiti müqayisə edən obraz hər şeyin tamamilə dəyişdiyinin şahidi olur. Bu dəyişikliklə barışa bilməyən yerli xalq "ağları" öz ərazilərindən qovmağa cəhd edirlər, yığıncaqlarını dağıtmağa gələn qasidi öldürürlər və beləliklə, ağlara olan aqressiv münasibətləri ilə öz daxili qəddarlıqlarını da ifşa etmiş olurlar.

Roman dərin təhkiyə quruluşuna və obrazlar sisteminə malik olmasa da, millli-mənəvi dəyərlərin təsviri, Afrika xalqlarının genezisindəki dağıdıcı meyillər, dini inanclarına və ritullarına bağlılıq, öz yaratdıqları miflərə əlahiddə inam təhkiyənin ahəngdarlığına səbəb olmuşdur.

Əsərdə təsvir olunan ərazi ağların müstəmləkəsinə çevrildikdən sonra İbo cəmiyyətinin üzvləri arasında dini ayrılıqlar yaranmağa başlayır: bəziləri ağların dini olan xristianlığı bir mənalı şəkildə qəbul etməyə meyilləndiyi halda, digərləri öz dini inanclarına sadiq qalmağa davam edirlər.

Bundan başqa, İbo cəmiyyətinin onları avropalılardan tamamilə ayıran başqa qəribə adət ənənələri də mövcuddur. Məsələn, bu cəmiyyət "əsl" kişinin iki və ya üç həyat yoldaşı olmasının tərəfdarıdır. Qəbilənin qadınları bu adətdən xəbərdardırlar və sorğu-sualsız hər biri bu ritualın icrasında iştirak edirlər. Gənc qadın özündən əvvəlki qadına hörmət etməlidir və onlar hər ikisi əmin-amanlıq içərisində ailənin qayğısına qalmalıdırlar. Lakin ağ missionerlər İbo cəmiyyətinin bu adətinə şiddətlə qarşı çıxırlar, onlara görə xristian dini belə izdivacları qadağan etmişdir.

Cəmiyyətin digər bir ənənəvi ritualı isə uşaq və böyük fərq etmədən insanların öldürülməsi ilə bağlıdır. İbolara görə əkiz uşaqlar şeytanın simvoludur və mütləq şəkildə öldürülməlidir, az yaşlı oğlan uşaqları allahlara sülh naminə qurban verilməlidir və s. Müstəmləkəçilər həyatın başlanğıcının və sonunun yalnız Allahın əlində olduğunu təbliğ etdiklərinə görə, İbolar onları dinsiz adlandırırdı.

Okonkuonun həyatının faciəvi sonluğu da məhz İboların radikal dini inancları ilə bağlı idi. Oğlunu allahlara qurban verməli olan Okonkuanın digər oğlu Nuoe qardaşının öldürülməsinə qarşı çıxır və kilsəyə sığınır, onun bu addımını dinə qarşı üsyan hesab edən qəbilə Okonkuonu övladından imtina etməyə sövq edir və nəticədə seçim qarşısında qalan Okonkuo intihar edir. Müstəmləkəçilərin dinini ədalətli hesab edən digər bir şəxs isə hamilə qadın olur. Əkiz övlad dünyaya gətirəcəyini bilən qadın, bunun İbo cəmiyyətinin inanclarına zidd olduğunu bildiyindən övladını qorumaq üçün kilsəyə sığınır. Romanın bir çox hissəsi İboların atalar sözlərinə və miflərinə həsr olunub. Bu cəmiyyətin milli-mənəvi dəyərlərindən xəbərdar olmayan oxucu üçün anlaşılmaz olan atalar sözlərini izah etmək üçün yazıçı obrazların dialoqlarından istifadə etmişdir.

Adətləri qədər dillərinə də sahib çıxan İbolar uşaqlarını məktəbə göndərməkdən də imtina edirlər, Cənab Braunun təkidlərinə baxmayaraq, qəbilədən heç kim övladının ingilis dilini öyrənməyini istəmir. Bunun bir səbəbi ağlara olan nifrətə dəlalət edirsə, digər səbəbi onların cəmiyyətində dilin sosial dərəcə üçün əhəmiyyət kəsb etməsi və onları digər cəmiyyətlərdən fərqləndirməsində idi. Çünki, ağlarla yekdil olduqları təqdirdə, cəmiyyət kimi mövcudluqları təhlükə altında olacaqdı. Onların Umuofiadan kənar ərazilərdəki hadisələrə və qəbilələrə maraq göstərməməsinin də səbəbi məhz bu idi. İbo cəmiyyətinin ədalət anlayışı və "məhkəmə" quruluşu da fərqli idi. Qəbilədən seçilmiş yaşlı bir nəfər allahların elçisi, yəni hakim təyin olunurdu və onun verdiyi heç bir qərar qəbilə tərəfindən sorğulanmırdı. Müstəmləkəçilərin məhkəmə quruluşunu və qaydalarını bilməyən cəmiyyət üzvləri hətta onlara təhkim olunduqdan sonra da öz qaydaları ilə yaşamağa davam edirdilər. Bu səbəbdən də, missionerlərin kilsəsini yandırdıqdan sonra niyə cəzalandırıldıqlarını dərk edə bilmirdilər. Şübhəsiz ki, İboların məlumatsızlığında müstəmləkəçilərin də nöqsanları danılmazdır, onlar sadəcə bu cəmiyyəti dağıdaraq özlərinə tabe etmək yolunu seçmişdilər, cəmiyyət isə bununla mübarizə apardığından dini, milli və mədəni toqquşmalar qaçınılmaz idi. Digər tərəfdən, İboların bəzi qanunları müstəmləkəçilərin qanunlarından daha humanist idi. Məsələn, Okonkua "sülh həftəsi" (1, s.124) həyat yoldaşına əl qaldırdığına görə cəzalandırılmışdı.

Heterogen cəmiyyətin yetirməsi olan Açebe İbo festivallarını, xalqın ibadət üsullarını, ritual və dini mərasimlərdəki təcrübələrini, spesifik mədəniyyətlərini, müstəmləkə dövrünün onların bəzi adətlərini qadağan etdiyini, həmçinin ingilislərin onlara müsbət keyfiyyətlər aşıladığını təsvir edərək əhəmiyyəti və qüsurları ilə öz xalqının tarixini oxucuya təqdim edir. Yazıçı ağ missionerlərin müstəmləkəçilik siyasətini və ya işğalını, müstəmləkədən sonrakı məzlum İbo mədəniyyətinin dəyişikliklərinə (sözsüz ki, bu dəyişikliklər afrikalılara görə mənfi aspektdə idi) görə günahlandırır, bu qəddarlığı fərdlə cəmiyyət arasındakı sosial uyğunluq baxımından dəyərləndirir. Avropa müstəmləkəçiliyinin İbo cəmiyyətinə təsirləri Afrika nöqteyi-nəzərindən araşdırılmağına baxmayaraq romanda avropalıların afrikalılara müsbət təsiri də təkzib edilmir, hətta müəllif romanın bir neçə hissəsində xalqının maariflənməsində rolu olan avropalılara öz rəğbətini bildirir.

Ədəbiyyat

1. Achebe C., Things fall apart. Oxford: Heinemann Educational Publishers, 1996
2. Bill A., Griffiths G. and Tiffin H., The Empire Writes Back: Theory and Practice in Postcolonial Literatures. London: Routledge, 1989, p.526. https://www.academia.edu/
3. Sickels A., Critical insights: things fall apart. Critical Reception of Things Fall Apart. Salem Press. Web. 15 Jun. 2012

4. Yeats B.W., “The second coming.” PotW Org. (1921). Web. 24 Nov. 2012
5. http://217.64.17.124:8080/xmlui/bitstream/handle/
6. https://www.cambridge.org/core/journals/african-studies-review/article/abs/colonial-intrusion-and-stages-of-colonialism-in-chinua-achebes-things-fall-apart/A29545A66F1F4DB5036B8A6F160487B5
7. https://www.diva-portal.org/smash/get/diva2:648320/FULLTEXT01.pdf

С.Исмизаде

Описание национально-нравственных ценностей общества игбо в романе Чинуа Ачебе «Распад»

Резюме

Статья посвящена анализу колониальных и постколониальных проблем, национально-нравственных ценностей общества Игбо в контексте романа Ч. Ачебе «Распад». В романе Ачебе представляет читателю историю своего народа с сильными и слабыми сторонами, описывая, например, праздники Игбо, поклонение их богам и практики их ритуальных церемоний, их богатую культуру и другие социальные практики.

S.Ismizade

The description of the national-moral values of Igbo society in Chinua Achebe’s novel “Things Fall Apart”

Summary

This article is devoted to the analysis of the colonial and postcolonial issues, the national-moral values of Igbo society in the context of C. Achebe`s novel “Things Fall Apart”. In the novel Achebe presents to the reader his people’s history with both strengths and imperfections by describing for example, Igbo festivals, the worship of their gods and the practices in their ritual ceremonies, their rich culture and other social practices.

Rəyçi: dos. G.Hüseynli

Redaksiyaya daxil olub: 13.04.2021

F.Ə.KAZIMLI

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

ETNİK-MİLLİ ƏNƏNƏLƏRİN TƏZAHÜRÜ
(“Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposları əsasında)

Açar sözlər: *epos, adət-ənənə, yas, öymə, qaxınc.*
Ключевые слова: *эпос, традиция, траур, хвала, упрёк.*
Key words: *epic, tradition, mourning, praise, grief.*

Yüzilliklərin sınağından çıxan, formalaşan adət və ənənələr xalqın gündəlik həyatında, məişətində özünü sıx-sıx göstərən əxlaqi məsələlərdəndir. Qədim tarixə malik olan vətənimiz Azərbaycanın zəngin milli, əxlaqi və mənəvi dəyərləri, özünəbənzər adət və ənənələri, yüksək mənəviyyatı ilə diqqəti cəlb edib.

Əski təsəvvür və etiqadlarla bağlı olan mənəvi-əxlaqi dəyərlər – xeyir, tərəqqi, yaxşılıq, bəşərilik “Kitabi-Dədə Qorqud” eposunda oğuz humanizminin necə yüksək olduğunu bizə göstərmiş olur. Süjetlərdə öz əksini tapan bu humanizm oğuzların mənəvi-əxlaqi dəyərlərinə uyğun şəkildə göstərilir. Eposda bu cəhət Oğuz tayfalarının Dədə Qorquda münasibətində daha aydın görünür. Müqəddimədə deyilir: “Qorqud Ata Oğuz qövmünün müşkülünü həll edərdi. Hər nə iş olsa Qorqud Ataya danışmayınca işləməzlərdi. Hər nə ki, buyursa qəbul edərlərdi. Sözün tutub tamam edərlərdi” (2, s.11).

Oğuzların ataya, böyüyə necə hörmətlə yanaşıldığını “Baybörənin oğlu Bamsı Beyrək boyu”nda da görürük: “Qalın Oğuz bəyləri ayıtdılar:

– Bu qızı istəməyə kim vara bilir?-dedilər.

Məsləhət gördülər ki, Dədə Qorqud varsın” (2, s.49). Çünki qızın qardaşı Dəli Qacar belə olsa, təsəvvür edirdilər ki, o Dədəyə əl qaldırmaz. Lakin bu boyda etik qaydalar pozulur – “Dədəyi qova-qova Dəli Qarcar on yelək yer aşırdı. Dədə Qorqud ardından Dəli Qarçar irdi. Dədənin ünsü ünütdü, tanrıya sığındı, ismiəzəm oxudu. Dəli Qarcar qılıncın əlinə aldı. Yuxarısından öygə ilə həmlə qıldı... Dədə Qorqud ayıtdı:

– Çalarsan əlin qurusun! - dedi” (2, s.50).

Heç süphəsiz ki, Qarcarın əli göydə quruyub qalır.

Тайны моря, которые, как видим, объединяют двух героев, оказывают заметное влияние и на их память – кратковременную, словно вспышки молний, для Джун, и долговременную – для Кио Филипа. Память при этом становится хаотической и нестабильной. Причина проста. Каждые новые свидетельства вызывают у двух героев всё новые воспоминания, меняя прошлое. А это, в свою очередь, приводит к непредсказуемым и чаще всего тяжёлым последствиям, «переворачивают» прошлые судьбы персонажей, постепенно превращая его из одного человека в другого.

Так, Джун по простоте душевной верит в раскаяние Кио Филипа и его словам. Но прежнее его желание остаться на острове на определённое время – это только пустые обещания. Он не воспринимает слова и поступки девочки всерьёз, и одной из самых, пожалуй, сильных кульминационных сцен в этой повести становится разговор на эту тему героя с матерью Джун, в котором он утверждает обратное. Оказывается, Кио Филипом недавно принято решение вскоре покинуть остров навсегда. И он признаётся в этом, намекая на новую любовь. Это известие сильно подействовало на неокрепшую психику Джун, посчитавшего его предателем.

По словам О.Ф.Жилевич, «Ж.М.Г.Леклезио уделяет большое внимание материальности человеческого состояния. Для прозаика путь к экзистенциальному искуплению и духовному назиданию неотделим от биотической сети жизни, с которой мы неразрывно связаны. Учитывая, что в космическом вакууме ничего не существует в полной изоляции от других материальных организмов Ж.М.Г.Леклезио призывает современного субъекта разобраться в соблазнительной, антропоцентрической идеологии и принять реальность» (3, с.78).

Мэри – натура поэтическая, и автор ясно даёт понять, что до её любви нужно ещё и дорасти. Если о взаимоотношениях Кио Филипа с Мэри Сонг говорится в мягких, пастельных тонах (как того и заслуживает героиня), то о новой любви героя с аптекаршей говорится то с иронией, то с откровенной неприязнью. Сарказмом веет от их встреч, так как женщины, подобные ей не ступают по жизни, но именно следят, порхают по ней, словно мотыльки.

Это завершение любовной линии «Бури», только со знаком минус. Кио Филип ведёт себя как сластолюбец, но это не приносит ему той желанной радости, которую он испытывал при общении с Мэри. Так первоначальные страстные любовные порывы почти незаметно для самих действующих лиц плавно перетекают в стадию взаимной «человеческой глухоты», не позволяющей расслышать друг друга, отозваться. В финале повести выясняется, что эта любовь без продолжения. По ходу повествования возникает некий пограничный момент, когда чистое и откровенное взаимное общение прерывается, едва начавшись.

Окончание повести необычно. Последняя надежда девочки связана с приходом к Богу. Это может показаться очень странным, так как не только Леклезио, но и вообще многие другие европейские писатели постмодернистского направления не приемлют божественной концепции. А между тем у героя постепенно наступает прозрение. Он задумывается над тем, что ему «надо было бы вновь и вновь перебирать все логические цепочки прошедших историй – от исчезновения Мэри до встречи с Джун» (4, с.88-89). Раскаяние – это значит, по его собственному признанию, испить чашу горечи до дна, вкусить, наконец, сладкий яд несчастья.

Но тут неожиданно выясняется, что девочка Джун в составе хора поёт в церкви. Божественная литургия наполняет её душу не только пением, но и новым смыслом.

Она ставит цель – «привести к Богу Кио Филипа». Правда, речь у Леклезио-постмодерниста идёт не о каноническом боге. В итоге бесконечных «блужданий по лабиринтам человеческих душ» Джун уезжает с острова, «чтобы более не вернуться сюда никогда» (4, с.124), а Кио Филип остаётся с аптекаршей, которая вряд ли сможет принести ему счастья. Он лжёт самому себе, автоматически продолжая верить в эту ложь, понимая, что окончательно запутался. Вот такое у него – Кио Филипа – позднее раскаяние.

Литература

1. Балашов Н.И. Французская литература 1945-1990. М.: Наследие, 1995, 928 с.
2. Балашова Т.В. Другие миры рядом с нами // Леклезио Ж.-М-Г. Путешествие по ту сторону. М.: Радуга, 1993, с. 7-17.
3. Жилевич О.Ф. Философско-эстетическая система Ж.М.Г.Леклезио и ее художественная реализация // Вестник Полесского госуд. унив-та. Серия обществ. и гуманит. наук. 2019. №2. с.73-79.
4. Леклезио Ж.-М.-Г. Буря. Женщина ниоткуда. Повести М.: Азбука, 2018, 216 с.
5. Сюрреализм и авангардизм. Материалы российско-французского коллоквиума, состоявшегося в Институте мировой литературы. Под ред. Т.Балашовой. М: Гитис, 1999, 190 с.

R.F.Əsədzadə

J.M.G.Leklezionun "Fırtına" hekayəsində xarakter tipologiyası

Xülasə

Məqalədə J.M.G.Leklezionun "Fırtına" hekayəsində xarakter tipologiyasını araşdırmağa cəhd göstərilmişdir. Leklezionun əsərlərində insanların bir-birinə qarşı dərin düşmənçilik hissi bəslədikləri və yad olduqları absurd dünyada insanın daimi və qarşısıalınmaz tənhalığı təsvir olunur. Fransız yazıçısının yaradıcılığının əsas xüsusiyyətlərindən biri ekzistential dünyagörüşüdür. Müəllif "Fırtına" əsərində "retro-analiz" ədəbi üsulundan istifadə edir. Hekayə yalnız əsas qəhrəman Kio Filipin otuz il əvvəl baş vermiş hadisələrin xatirələrinə əsaslanır. Müharibənin qəddar və amansız həqiqəti Leklezionun əsərində yeni bədii anlama çevrilir.

İddiaçı əsas qəhrəmanın əhval-ruhiyyəsinin psixoloji dəyişmələrini müəyyən edən xarakter konseptini təyin etməyə çalışır. Müəyyən sərhəd məqamında müəllif fırtınanı talenin əsas əlaməti olaraq təqdim edir. Belə xüsusi simvolik üsulun köməyi ilə yazıçı qəhrəmanın davranış motivlərini izah etməyə can atır. Əsərdə "Fırtına" ikiqat məna daşıyır: simvolik və mistik. Birinci halda, fırtına qəhrəmanın daxili azadlığını təcəssüm etdirir. İkinci halda tamamilə mistisizm hökm sürür. Çünki, fırtınanın başlanğıcı ilə, Kio Filipin xəstə təsəvvüründə dənizin dibindən Meri görünür. Və bu qarabasma fırtına dayanana qədər davam edir. Bu mənada "Fırtına" povestində real gerçəkliyin və mistik başlanğıcın özünəməxsus şəkildə üst-üstə düşməsi müşahidə olunur.

R.F.Asadzade

Typology of character in the story "Storm" by J.M.G.Leclesio

Summary

The article attempts to investigate the typology of character in the story of J.M.G.Leclesio "Storm". Leclesio's works deal with the constant and irresistible loneliness of man in a world of the absurd, in which people are deeply hostile to each other and alien. One of the central features of the French writer's work is an existential worldview. In the work "Storm" the author uses the literary technique of "retro-analysis". The story is based solely on the memories of thirty years ago, the main character Kio Philip. The cruel and unforgiving truth of war gets a new artistic interpretation from Leclesio.

The applicant tries to establish a character concept that determines the psychological mood swings of the main character. At a certain borderline moment, the author introduces the storm as a sign of fate, a kind of symbolic device that explains the motives of the hero's behavior. In the work, "the storm" has a double meaning: symbolic and mystical. In the first case, the storm represents the inner freedom of the hero. In the second case, mysticism reigns supreme. With the onset of the storm, Mary

appears from the depths of the waters in Keo Philip's sick imagination. And this hallucination continues until the storm subsides. In this sense, in the story “Storm” there is a peculiar interweaving of real reality and the mystical beginning.

Rəyçi: filol.f.d., dos. X.İ.Əliyeva

Redaksiyaya daxil olub: 18.05.2021

Л.М.МАМЕДОВА
e-mail: lmf653@mail.ru

Ш.М.КУЛИЕВА
e-mail: kshargiya@gmail.com

Азербайджанский медицинский университет
(г. Баку, ул. Бакиханова, д. 23)

ХУДОЖЕСТВЕННОЕ СВОЕОБРАЗИЕ РОМАНА А.С.ПУШКИНА «КАПИТАНСКАЯ ДОЧКА»

Ключевые слова: *своеобразие, образ, литература, роман, «Капитанская дочка».*
Açar sözlər: *xüsusiyyət, obraz, ədəbiyyat, roman, "Kapitan qızı".*
Key words: *originality, image, literature, novel, "The Captain's Daughter".*

Проза А.С.Пушкина была качественно новым этапом в развитии русской литературы вообще и русской прозы в частности. Пушкин первым в России стал писать художественную прозу, которая осталась в веках. Сжатость сюжетной линии в его произведениях предполагало сжатость и самих произведений. Действительно, у Пушкина нет больших по объему произведений в прозе. Литературоведы причисляют к самому крупному прозаическому произведению «Капитанскую дочку». Но и этот роман по объему занимает чуть более ста страниц. Автор называет это произведение историческим романом, так как, по его мнению, этот жанр является «вымышленным повествованием исторической эпохи».

Большинство прозаических произведений Пушкина характеризуется четкостью композиции. Они разделяются на главы или же эти произведения легко разделить по смыслу на несколько частей, причем каждая из этих частей может восприниматься как законченный отрывок. Подобное деление осуществляется часто с помощью особых приемов повествования.

Исторические произведения художественной литературы – один из способов освоения конкретно-исторического содержания той или иной эпохи. Всякое историческое произведение познавательно. Но главным назначением исторической прозы является не столько воссоздание прошлого, сколько попытка связать прошлое и настоящее, «охватить» движение истории, заглянуть в будущее. Поэтический синтез истории и вымысла в «Капитанской дочке» отражен в самом ее сюжете о судьбе дворянской семьи в обстановке крестьянского восстания.

Пушкин делает главным героем своих прозаических произведений среднего человека, который является источником новых тем, новых сюжетов, нового художественного эффекта. Кроме того, введение в прозу среднего человека как главного героя позволяет Пушкину выявить особые, типические черты той или иной эпохи, обстановки. Пушкинский герой является, прежде всего, живым человеком со всеми его страстями, мало того, Пушкин демонстративно отказывается от романтического героя.

При сжатости и концентрированности повествования в «Капитанской дочке» все мотивировано, все вытекает из взаимодействия обстоятельств и характеров героев, как определенных типов русской жизни данной эпохи. Великое искусство исторического романа Пушкина и состоит как раз в его крайней безыскусственности. Как отмечает Н.В.Гоголь «решительно лучшее русское произведенье в повествовательном роде. Сравнительно с «Капитанской дочкой» все наши романы и повести кажутся приторной размазней. Чистота и безыскусственность взошли в ней на такую высокую степень, что

сама действительность кажется перед нею искусственной и карикатурной. В первый раз выступили истинно-русские характеры: простой комендант крепости, капитанша, поручик; сама крепость с единственной пушкой, бестолковщина времени и простое величие простых людей, все — не только самая правда, но еще как бы лучше ее» (1, с.384).

«Капитанская дочка» вызывает не только интерес к определённой исторической эпохе, но и любовь ко всему творчеству А.С.Пушкина. Пушкин раскрывает сложные противоречия, возникающие между политическими и этическими коллизиями в судьбах его героев. Справедливое с точки зрения законов дворянского государства оказывается бесчеловечным. Но и этика крестьянского восстания XVIII в. раскрылась Пушкину с весьма жестокой стороны. Сложность мысли Пушкина отражена и в построении романа. Композиция романа построена исключительно симметрично. Сначала Маша оказывается в беде: суровые законы крестьянской революции губят ее семью и угрожают ее счастью. Гринев отправляется к крестьянскому царю и спасает свою невесту. Затем Гринев оказывается в беде, причина которой на сей раз кроется в законах дворянской государственности. Маша отправляется к дворянской царице и спасает жизнь своего жениха.

Поэтический синтез истории и вымысла в «Капитанской дочке» отражен в самом ее сюжете о судьбе дворянской семьи в обстановке крестьянского восстания. С большой симпатией обрисована Пушкиным семья капитана Миронова. Мироновы не являются владельцами «крещеной собственности». Пушкин показывает, что именно в такой семье и могла вырасти замечательная русская девушка Маша Миронова с ее простым, чистым сердцем, высокими моральными требованиями к жизни, с ее мужеством.

В образе старика Гринева Пушкин воплощает идею гуманного отношения к крепостным крестьянам. Поэт вовсе не идеализирует семью Гриневых. Пушкин показывает, что и старик Гринев и молодой Гринев способны к проявлению жестокого помещичьего самовластия. Достаточно вспомнить расправу с воспитателем молодого Гринева французиком Бопре или незаслуженную обиду, нанесенную Савельичу. Пушкин показывает, таким образом, несовместимость «подлинной гуманности», благородства и чести с крепостническими нравами.

Пушкин использует лаконичность при изображении и главных героев произведения. Особое внимание уделено в произведении изображению главной героини. «Тут вошла девушка лет осьмнадцати, круглолицая, румяная, с светло-русыми волосами, гладко зачесанными за уши, которые у ней так и горели» (6), – так описывает Пушкин дочь капитана Миронова. Если подумать, то она не была красавицей, но и небезобразна. Мы можем отметить, что героиня застенчива, скромна, поминутно краснеет и всегда молчалива. Можно сказать, что Маша «вначале не нравится», «не производит никакого впечатления» на Гринева. Но нельзя судить по первому впечатлению, тем более что мнение о Маше вскоре у Гринева меняется. «Марья Ивановна скоро перестала со мною дичиться. Мы познакомились. Я в ней нашел благоразумную и чувствительную девушку» (6), – читаем у Пушкина.

Как отмечает Г.П.Макогоненко: «Жизнь бедной капитанской дочки протекала спокойно и воистину безмятежно в глуши России под сенью родительского крова. Неожиданный приезд в Белогорскую крепость Петра Гринева внес в ее бессобытийную жизнь радости и страдания. Молодые люди полюбили друг друга. Но родитель Петруши Гринева разгневался, когда узнал о намерении сына жениться на бесприданнице Маше. Верный своей морали, он с легкостью разрушает счастье любимого сына и не дает благословения. К тому же еще грозит «добраться» до него да «проучить» как мальчишку, несмотря «на офицерский чин»» (3, с.296).

Автор постоянно подчеркивает благородную естественность героини, отсутствие кокетства, жеманства, любого притворства в чувствах и речах. В обращении с людьми

ее отличает чуткость, нежность и доброта – мудрый Савельич зовет ее ангелом, говоря, что такой невесте и приданого не нужно.

Присущая ей милая женственность побуждает к осторожному обращению с оружием и вообще со всем, связанным с войной: выросшая в военной крепости девушка страшно боится звука стрельбы.

По словам Н.Н.Петруниной: «Рассказчик не пытается проникнуть в мысли девушки, которые были скрыты от юного Петруши. Его память сохранила немного слов капитанской дочки, и неудивительно: сила ее не в словах, а в том, что слова ее и действия всегда безошибочны, и это говорит о необыкновенной внутренней цельности героини. С простотой Маша Миронова соединяет непогрешимое нравственное чувство. Она не только умеет сразу верно оценить человеческие возможности Швабрина и Гринева. И в дни испытаний, когда Марья Ивановна, в отличие от героини Крюкова, оказывается беззащитной сиротой во власти Швабрина, она сохраняет присутствие духа и непоколебимую стойкость, которые равно характеризуют ее и в дни любви, и в дни утраты надежд на соединение с Петрушей, и перед лицом опасности, а быть может, и самой смерти» (5, с.277).

Марья Миронова избегает конфликтов и ссор: не говорит ничего плохого о Швабрине, безмерно огорчается из-за дуэли Гринева и немилости его отца. Она душевно мудра, видит людей сердцем. Остроумный и хорошо образованный Швабрин не смог одержать любовную победу над глуповатой по его же словам барышней – потому что за блестящими манерами нет истинно благородного человека.

Главная героиня произведения является дочерью коменданта Белогорской крепости. Она отказывается выйти за Швабрина, и готова умереть голодной смертью, оставшись верной Петру. Марья Миронова прилагает все усилия для спасения любимого даже после того, как на него махнул рукой собственный отец. Для Пушкина Марья является идеальным женским образом. Ее характер украшают бескорыстие, смелость, преданность и сила духа. Даже несмотря на то, что шанс выйти замуж без приданного был минимален, она не согласилась стать супругой нелюбимого человека.

Любящая Марья желает счастья, прежде всего для дорогого человека – даже если это означает брак с другой женщиной. И все это без романтического пафоса и презрения к быту: понимает, что для счастья человеку нужна не только любовь, но также мир и покой в семье, какой-то достаток и определенность.

Маша Миронова из тех героев «Капитанской дочки», в которых, по словам Гоголя, было воплощено «простое величие простых людей». Маша – человек сильной воли. По словам Ю.М.Лотмана: «из робкой, бессловесной «трусихи» она вырастает в смелую и решительную героиню, способную отстоять свое право на счастье. Именно поэтому роман назван в честь нее «Капитанская дочка». Она истинная героиня. Ее лучшие черты разовьются и проявятся в героинях Толстого и Тургенева, Некрасова и Островского» (2, с.122).

Чрезвычайно ценной художественной особенностью произведения является строгая объективность повествования. Автор совершенно скрывается в нем за личностью рассказчика, бесхитростно и искренно рассказывающего о том, что он видел и пережил. Язык романа является образцом классической простоты, образности, сжатости и живости. В «Капитанской дочке» нашли отражение слова Пушкина о создании «краткой и точной» прозы. Также хотелось обратить внимание на прием использования Пушкиным эпиграфов, при помощи которых искусно раскрывается содержание каждой главы романа.

Важной особенностью романа является обилие фольклорного мате-риала, вплетенного в ткань повествования в виде пословиц, поговорок, сказки, разбойничьей песни. Используя этот фольклорный материал, Пушкин удачно передал дух народной стихии, изображенной в романе. В романе есть замечательные образцы пейзажа. Пушкин

гениально сочетал в романе занимательность сюжета с исторически-бытовой и психологической правдой повествования.

В «Капитанской дочке» Пушкин углубляет реалистический метод художественного изображения исторического прошлого народа. Жизнь народа показывается Пушкиным в ее национально-историческом своеобразии, в ее социально-сословных противоречиях. Рисуя деятельность выдающихся исторических личностей, Пушкин показывает в этой деятельности отражение духа времени. Замечательно, что в последние годы творчества Пушкина его реализм приобретает социальную заостренность. В «Дубровском», «Капитанской дочке», в «Сценах из рыцарских времен» поэт начинает изображать борьбу классов, противоречия и столкновения крестьянства и дворянства. «Капитанская дочка» вслед за «Арапом Петра Великого» положила начало русскому историческому роману.

Литература

1. Гоголь Н.В. Полн. собр. соч., М.: Просвещение. Т. 8, 1984, 400 с.
2. Лотман Ю.М. В школе поэтического слова. Пушкин, Лермонтов, Гоголь. М.: Просвещение, 1988.
3. Макогоненко Г.П. Творчество А.С.Пушкина в 1830-е годы (1830-1833). Л.: Художественная литература. 1974. 376 с.
4. Петров С.М. Художественная проза Пушкина // А.С.Пушкин Собр. соч. в 10 тт. Т. 5. Примечания. с. 613-631.
5. Петрунина Н.Н. Проза Пушкина (пути эволюции). Л.: Наука. 1987. 336 с.
6. Пушкин А.С. Капитанская дочка // А.С.Пушкин Полн. собр. соч., М.: Художественная литература. Т. 5, 1960, с.286-412.

L.M.Məmmədova, Ş.M.Quliyeva

A.S.Puşkinin “Kapitan qızı” romanının bədii özünəməxsusluğu

Xülasə

Məqalədə dahi rus yazıçısı A.S.Puşkinin “Kapitan qızı” romanının bədii özünəməxsusluğu araşdırılır. Məqalənin müəllifləri qeyd edirlər ki, Puşkinin nəsr əsərləri kompozisiyanın dəqiqliyi ilə xarakterizə olunur. Puşkin əsərin əsas qəhrəmanların təsvirində də lakonikliyi istifadə edir. Əsərdə əsas qəhrəmanın təsvirinə xüsusi diqqət yetirilir. Puşkin üçün Marya mükəmməl qadın obrazıdır. Onun xarakterini fədakarlıq, cəsarət, sədaqət və ruhunun gücü səciyyələndirir.

L.M.Mammadova, Sh.M.Guliyeva

Artistic originality of A.S.Pushkin's novel «The Captain's Daughter»

Summary

The article examines the artistic originality of the novel «The Captain's Daughter» by the great Russian writer A. S. Pushkin. The authors of the article note that Pushkin's prose works are characterized by the clarity of composition. Pushkin uses conciseness in the image and the main characters of the work. Special attention is paid to the image of the main character in the work. For Pushkin, Marya is the perfect female image. Her character is decorated with selflessness, courage, loyalty and strength of spirit.

Рецензент: д.ф.филол. Х.А.Аббасова

Redaksiyaya daxil olub: 27.04.2021

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПЕДАГОГИКА. МЕТОДИКА. ПСИХОЛОГИЯ

İ.V.ABDULLAYEVA
e-mail: ismetabdullayeva@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

TƏHSİLİN KEYFİYYƏTİNİN MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Açar sözlər: *təhsilin monitorinqi, fəaliyyətin qiymətləndirilməsi, peşəkarlıq səviyyəsi, müəllim obyektivliyi, müəllim-şagird münasibətləri.*
Ключевые слова: *мониторинг образования, оценивание деятельности, уровень профессионализма, объективность учителя, отношения учитель-ученик.*
Key words: *monitoring of education, evaluation of activities, level of professionalism, teacher objectivity, teacher-student relations.*

Müasir dövrdə ümumtəhsil məktəblərinin, onun işçilərinin və rəhbərlərinin fəaliyyətinin, eləcədə şagirdlərin təlim naliyyətlərinin monitorinqi və qiymətləndirilməsi nəzəri pedaqogikanın və pedaqoji praktikanın ən aktual problemlərindən biridir. Cəmiyyətin müxtəlif inkişaf dövrlərində təlim keyfıyyətinin və fəaliyyətin nəticələrinin ölçülməsi, həmçinin ölçmələrin nəticələrinin bu və ya digər şəkildə təhlili həmişə təhsil işçilərinin böyük marağına səbəb olmuşdur.

Nəzəri-pedaqoji və metodiki ədəbiyyatın təhlilindən aydın olur ki, ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə məsələsinə sistemli, məqsədyönlü, elmi - pedaqoji cəhətdən əsaslandırılmış yanaşmalardan istifadə təmin edilmədiyindən, məktəbdə təlim-tərbiyə prosesinin keyfiyyət göstəriciləri getdikcə aşağı düşmüşdür. Son illərdə təhsil sistemində monitorinq və qiymətləndirmə probleminə dair müxtəlif təhsil tədqiqatları aparılmış və onun nəticələrindən alınmış dəyərli təkliflər və mülahizələr irəli sürülməsinə baxmayaraq, onlar vaxtında pedaqoji ictimaiyyətə çatdırılmamış və alınmış nəticələrin tətbiqi təmin edilməmişdir. Pedaqoji monitorinq müəllimin bacarıq səviyyəsini, fəaliyyətinin müsbət cəhətlərini müəyyən etməyə və fərdi xüsusiyyətləri fonunda onları inkişaf etdirməyə imkan verir. Digər tərəfdən, A.N. Əliyevin qeyd etdiyi kimi, müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin pedaqoji monitorinqinin aparılması məktəbdə bilik, inkişaf və tərbiyə məqsədlərinin həyata keçirilməsi baxımından zəruridir (1, s.51). Ona görə də müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin pedaqoji monitorinqi üçün göstəricilər müəyyənləşdirilərkən onun şəxsi keyfiyyətləri, pedaqoji bacarıqları, dərs dediyi şagirdlərin nailiyyətləri və müasir təlim texnologiyalarına yiyələnmə səviyyəsi, onları öz işində tətbiqetmə bacarığı nəzərə ahnmalıdır. Müəllim əməyinin qiymətləndirilməsi ilk növbədə onun fəaliyyətinin mahiyyətini, məzmununu aydın dərk etməkdən irəli gəlir. Müəllim əməyinin qiymətləndirilməsidə aşağıdakı göstəriciiəri əsas götürülür: Tədris-tərbiyə prosesini keyfiyyətli təşkil etmək; şagirdlərin yeni materialı bilavasitə müəllimin rəhbərliyi altında dərsdə maksimal mənimsəmə imkanlarına nail olmaq; təlimin müasir metod, forma və vasitələrindən istifadə etməyi bacarmaq, konkret şərait üçün

onların optimal birləşməsini seçmək; tədris prosesində müasir texniki vasitələrdən istifatə etmək; təlim və tərbiyə prosesində məktəblilərə fərdi yanaşmaq; onların biliyinə, davramş mədəniyyətinə səylərini, əməyə yönümünü müəyyənləşdirmək, qabiliyyət və marağını inkişaf etdirmək (2, s.99).

Bəzi tədqiqatçılar müəllimin peşəkarlığını və əməyini qiymətləndirərkən onun şəxsi keyfiyyətlərini, yəni vicdanlılıgını, pedaqoi istedadını, həmkarlarına və şagirdlərinə hörmətlə yanaşmasını, əmək sevərliyini, fəallığını, şəxsi intizamını nəzərə almağı təklif edirlər. Əslində, pedaqoji monitorinqin nəticələri özünüməqsədə çevrilməməlidir, onun nəticələri ciddi şəkildə təhlilə cəlb olunmalı və bu müəllim fəaliyyətinin korreksiyası üçün əsas olmalıdır.

Deməli, məktəbdə müəllim fəaliyyətinin pedaqoji monitorinqinin əsas məqsədi təlim-tərbiyə işinin müxtəlif sahələri üzrə təlimin planlaşdırılmış və real nəticələrinin müqayisəsindən ibarətdir. Həmin pedaqoji monitorinq zamanı toplanmış məlumatlar sistemləşdirilməli və müzakirə edilməli, alınan nəticələrin təlimin məqsədlərinə uyğunluğu qəbul olunmalıdır.

Bu problem tədqiqatın əsas məqsədlərindən biri olduğundan, əvvəlcə orta ümumtəhsil məktəblərində müəllimin peşəkarlıq fəaliyyətinin pedaqoji monitorinqinin və qiymətləndirilməsinin mövcud vəziyyətinin təhlili aparılmalıdır.

Respublikamızda müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin qiymətləndirilməsinin vahid mexanizmi olmadığından rəhbər təhsil işçiləri bu işi özlərinin dərk etdiyi kimi aparır, bu da təhsilin keyfiyyətinə mənfi təsir edir. Ona gorə də müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin pedaqoji monitorinqi və qiymətləndirilməsinin mexanizminin yaradılmasına ciddi ehtiyac vardır.

Prof. M.C. Mərdanov və b. tərəfindən hazırlanmış «Təhsil sistemində monitorinq və qiymətləndirmə» (3) adlı monoqrafiyada ümumtəhsil məktəblərində müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin pedaqoji monitorinqi və qiymətləndirilməsi üçün göstəricilər (parametrlər) və müvafiq çəki əmsalları verilmişdir. Burada müəllimin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi göstəriciləri - dərsin strukturu, məzmunu, dərsin texnoloji təminatı, dərsin əyani və texniki təchizatı, müəllim-şagird münasibətlərinin xarakteri, dərsin pedaqoji səmərəliliyi və onların alt komponentləri geniş şərh olunmuş, çəki əmsalları işlənmişdir.

Ümumtəhsil məktəblərində müəllim fəaliyyətinin qiymətləndirməsinin nəticələri əsasında məktəb rəhbərliyi müəllimin gələcək pedaqoji fəaliyyəti barədə müvafiq qərar qəbul etməli və onun işinin təkmilləşdirilməsi üçün müvafıq tədbirlər görməlidir.

Araşdırmaların nəticələrinin təhlili göstərir ki, müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin pedaqoji monitorinqi və qiymətləndirilməsi üçün aşağıdakı başlıca istiqamətlər həmişə diqqət mərkəzində saxlanılmalıdır:

1. Məktəbdə təlim-tərbiyə işinə rəhbərlik və pedaqoji monitorinq planlaşdırılarkən məktəbin direktoru əsas diqqətini müəllimin elmi-pedaqoji və metodiki hazırlığının artırılmasına yönəltməlidir.

Təlim işində məktəbdaxili monitorinq təkcə onu nəzərdə tutmur ki, müəl-limin dərsinin və işinin nöqsanları müəyyən edilsin, eyni zamanda onu aradan qaldırmaq üçün müəyyən göstərişlər verilməli, həm də rast gələ biləcəyi çətinliklərin qarşısını almağa əvvəlcədən öyrədilməli, nöqsanların yenidən baş verməsinin qarşısı vaxtında alınmalıdır.

2. Məktəbdaxili monitorinqin başlıca məsələlərindən biri də şagirdlərin bilik səviyyəsinin və fərdi keyfiyyətinin düzgün müəyyən edilməsidir. Məktəbdə müəllimin peşəkarlıq səviyyəsinin və pedaqoji fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi zamanı onun dərs dediyi sinifdə şagirdlərin mənimsəmə səviyyəsinin müəyyənləşdirilməsi müəllim əməyinin müsbət və nöqsanlı cəhətləri haqqında fıkir deməyə imkan verir.

3. Təlim prosesində məktəbdaxili monitorinqin istifadə olunan formalarından biri də müəllimlərin dərsə hazırlığına, gündəlik dərs planlarına nəzarətin təşkili, fənn metodbirləşməsinin işindəki fəaliyyəti, irəli sürdüyü fıkir və ideyaların faydalılığı, şagirdin sinif və ev tapşırığı dəftərinin, məktəbli kitabça-sının və sinif jurnalının təlimata müvafiq işlənməsidir.

Məktəbdaxili monitorinqin səmərəli təşkili məktəbdə təlim-tərbiyə işinin səviyyəsinin xeyli yüksəlməsinə öz müsbət təsirini göstərir.

4. Məktəbdə təlim-tərbiyə işinin monitorinqi zamanı müəllimin şəxsi təhsili, müasir dərsə verilən tələbləri nəzəri cəhətdən bilmələri, həmin biliklərin təlim prosesinə tətbiqi, təlimdə texniki vasitələrdən istifadə bacarığının dərs prosesində tətbiqi səriştəsi və tədris vaxtından səmərəli istifadəsi öyrənilməlidir. Pedaqoji kollektivin təlim-tərbiyə işi üzərində monitorinqin kompleks surətdə təşkili zamanı məktəbdaxili nöqsanların və bu nöqsanları doğuran səbəbləri vaxtında aşkara çıxarıb aradan qaldırılmasına nail olmaq olar.

5. Məktəbdaxili monitorinq zamanı məktəb rəhbərliyi müəllimin nitqinə də fikir verməlidir. Müəllimin nitqi də şagirdlər üçün aydın olmalıdır. Müəllim qısa, məntiqi və ifadəli danışmağı bacarmalıdır. Müəllimin nitqi aydın, rabitəli olmasa şagirdləri biliklərin əsasları ilə silahlandıra bilməz. Nitq qabiliyyəti müəllimlik peşəsinin güzgüsüdür. Müəllimin fikirlərini şagirdlərə aydın çatdıra bilməsi, onlarda təlimə maraq oyadır, şagirdlərin dərsi başa düşməsini asanlaşdırır.

6. Məktəbdə təlim prosesinin monitorinqi zamanı müəllimin bilik, bacarıq və pedaqoji səriştəsini qiymətləndirməklə yanaşı, həm də müəllim şəxsiyyətinin müsbət mənəvi-əxlaqi keyfiyyətləri qiymətləndirilməlidir. Müəllimin şəxsi mədəniyyəti onun biliyində, qabaqcıl təcrübəyə yiyələnməsində, hərtərəfli nəzəri və praktik hazırlığında özünü göstərir. Müəllim yüksək mədəniyyətə malik olmalıdır. Oturuşunda, duruşunda, cəmiyyətdə davranışında, insanlarla ünsiyyətində nümunə olmalıdır. Müəllim pak, təmiz əxlaq sahibi olmalıdır.

Ədəbiyyat

1. Əliyev A.H. Ümumtəhsil məktəbi müəlliminin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi. // TPİ-nin Elmi əsərləri, Bakı. 2003, №1, s. 199-204.
2. Kərimov Y.Ş. İbtidai təlim: problemlər, vəzifələr. Bakı. Nasir, 2010, 127s.
3. Mərdanov M.C., Ağamalıyev R.A., Mehrabov A.O., Qardaşov T.B. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı. Çaşıoğlu, 2003, 416 s.

И.В.Абдуллаева

Мониторинг и оценивании качества образования

Резюме

В статье анализирован мониторинг деятельности учителя и возможности их оценивания в результате применения современных технологий обучения, определены рациональные пути и средства. Проведенные обобщения и выведенные результаты имеют теоретическую и практическую значимость в направлении деятельности мониторинга и его оценивания. Статья может быть полезна исследователям и учителям-практикам.

I.V.Abdullayeva

Monitoring of the quality of education and its evaluation

Summary

In this article analyzes the monitoring of teachers' activities and the possibility of their evaluation as a result of the application of modern teaching technologies, and rational ways and means are identified. The generalizations carried out and the results obtained are of theoretical and practical importance in the direction of monitoring activities and their evaluation. The article can be useful to researchers and practical teachers.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 07.04.2021

T.ABDULLAYEVA
e-mail: abdullayevatamilla@yahoo.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

AŞAĞI KURS TƏLƏBƏLƏRİNDƏ İNGİLİS DİLİNİN LEKSİK ASPEKTİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

Açar sözlər: *lüğətin komponentləri, leksik aspekt, fəaliyyət seçimi.*
Ключевые слова: *словарные компоненты, лексический аспект, выбор деятельности.*
Key words: *vocabulary components, lexical aspect, activity selection.*

C.Zeynaloğlu dilin leksik aspektinin əhəmiyyətini vurğulayaraq qeyd edir ki, leksika dilin aspektidir, onsuz dili təsəvvür etmək olmaz (9, s.38). Dilin əsasını lüğət ehtiyatının zənginliyi təşkil edir. Bu zənginlik dil baxımından əhəmiyyətli biliklərə sahib olmağa imkan yaradır. Reseptiv və produktiv bacarıqların formalaşdırılması üçün dilin leksik tərkibinin zənginləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Şifahi və yazılı nitq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün əldə edilmiş leksik vahidlərlə yeni sözləri əlaqələndirmək və yerində istifadə etməyi bacarmaq, eşidib-anlama və oxu zamanı isə səs tərkibi ilə hərf tərkibi arasındakı semantik əlaqəni müəyyənləşdirmək lazımdır. Xüsusilə, ingilis dilinin tədrisi zamanı ana dili ilə ekvivalenti olmayan sözləri fərqləndirmək dil bazasının yaradılması üçün əsas məsələlərdən biridir.

Təkcə söz ehtiyatının artırılması leksik biliklərin təkmilləşdirilməsi üçün yetərli deyil. Tələbələrin həmin lüğət fondunu aktiv şəkildə tətbiq edərək üslubi cəhətdən düzgün istifadə etməsi də önəmlidir. L.V.Şerba leksik bazanın inkişaf etdirilməsini mühüm hesab edərək qeyd edir ki, leksika dilin canlı materiyasıdır, o, fikrin məzmununu ifadə etməyə–adlanmaya xidmət edir (10, s.52). Əgər tələbə kommunikasiya zamanı fikrini ifadə edə bilmək üçün leksik bazadan yararlana bilmirsə, o zaman, dərsin effektivliyi azalır. Tapşırıqların həlli zamanı fikrini aydın izah etməzsə, kommunikativ tapşırıqların yerinə yetirilməsində məlumatı digər yoldaşları ilə paylaşa bilməzsə, dil biliklərin təkmilləşdirilməsi prosesi ləngiyər. R.Ellis tapşırıqların yerinə yetirilməsi üçün böyük həcmli leksik materialın tədrisinə önəm verilməsini mühüm hesab edir. O qeyd edir ki, tapşırıqların icra edilməsi zamanı məlumatın digərləri ilə paylanması təhsilalanlardan yüksək səriştəlilik bacarığı tələb edir. Belə tapşırıqların yerinə yetirilməsi zamanı zəngin lüğət ehtiyatına ehtiyac vardır. Məhz bu baxımdan dilöyrənənlərə böyük həcmli leksik materialların tədris edilməsi vacibdir (2, s.101).

Tələbələrin leksik biliklərini möhkəmləndirmək üçün onların lüğətlə bağlı bir sıra fəaliyyətlər icra etməsi lazımdır. Penny Ur lüğət ehtiyyatını zənginləşdirmək və onları möhkəmləndirmək üçün çoxlu fəaliyyətlər təklif edir. Bunlara aşağıdakılar daxildir:

1. Tələbələri leksik biliklərini təkrarlamağa sövq edin – burada tələbələrə lüğət biliklərinin təkrar olunmasının əhəmiyyəti izah edilir. Onlara yeni sözlərin təkrarı üçün qeyd dəftəri tutmasına kömək olunur və evdə özlərinin hər zaman bu sözləri təkrarlamaları olduqları barədə məlumat verilir.

2. Söz kartlardan istifadə edin – söz kartlarının bir tərəfində sözlər, digər tərəfində isə həmin sözlərin tərcüməsi verilir. Hər yeni məlumatın öyrənilməsi zamanı tələbələrin bu fəaliyyəti icra etməsi onların dərsdənkənar, rahat mühitdə öz vərəqlərinə baxıb təkrarlamağı üçün faydalıdır. Hər bir kartda verilmiş sözləri toplayaraq hər zaman onlara baxmaları və həmin kartdakı sözləri tam mənimsəyənə qədər yanlarında saxlamaları önəmlidir.

3. Mobil telefonda yeni sözləri sırala – tələbələrə yeni sözləri dərsdən kənarda istifadə edə biləcəkləri vasitələrdə–telefonda və ya başqa mobil elektronik cihazlarda qeyd etməsi təklif edilir. Nəticədə, onlar mümkün olan anda həmin sözləri yenidən yoxlaya bilərlər.

4. Daim yeni sözləri nümayiş etdir – yeni sözlər hər zaman lövhədə və yaxud da sinfin divarlarında qeyd edilir ki, tələbələr onu rahatlıqla görsünlər və mənasını müəyyənləşdirsinlər.

5. Dərsin sonunda yenidən xatırlat – dərsin bitmə vaxtında tələbələrlə birlikdə gündəlik dərsdə əldə etdikləri biliklərin refleksiyası aparılır.

6. Əvvəlki öyrəndiklərinizə qayıdın – təsadüfən dərsdən əvvəl öyrəndiyiniz sözləri təkrarlayın (8, s.71).

Təkcə sözlərin fərdi qaydada öyrənilməsi ilə deyil, digər fəaliyyətlərlə də leksik biliklər əldə edilə bilir. Xarici dil dərslərində istər qrammatikanın, istər tələffüzün, istərsə də dil bacarıqlarının tədrisi zamanı lüğət ehtiyyatı zənginləşir. Tələbələrin lüğət ehtiyyatını zənginləşdirmək üçün dilin aspektləri və bacarıqlarına tətbiq edilən fəaliyyətlərdən də istifadə etmək olar. Jeremy Harmer lüğətin tədris olunması zamanı istifadə ediləcək fəaliyyət növlərini aşağıdakı kimi qruplaşdırır:

a) lüğətin təqdim edilməsi zamanı istifadə olunan fəaliyyətlər–sıralama, qaçış, gəzinti, tullanma və s.;

b) lüğətin yoxlanması–söz dairəsi, söz xəritəsi və s.;

c) söz oyunları–əldə etdim, lövhəyə qayıdış;

d) lüğət fəaliyyətləri–dinləmə, evdə fəaliyyət (3, s.274).

Lüğətin yoxlanmasına dair təqdim edilən üsullar sırasında söz assosiyalarından istifadə tələbələrin mövzu haqqında biliklərini təkmilləşdirmək baxımından əhəmiyyətlidir. Bu üsulda əsas söz lövhədə yazılır və onu ifadə edəcək əlavə mənalar tələbələr tərəfindən deyilir. Beləliklə, tələbələr mövzunu dərindən öyrənməklə yanaşı söz ehtiyyatını da genişləndirirlər (4, s.89). Nümunə olaraq qeyd etmək olar ki, üsulun tətbiqi zamanı lövhədə canlıların yaşaması üçün vacib olan amillər yazılır. Tələbələr isə buna uyğun olaraq su, hava, qida və s. sözləri qeyd edirlər. Digər bir üsul isə şaxələndirmə üsuludur ki, burada hörümçək toruna oxşar qrafik təsvir olunur. Həmin üsul daha çox terminlərin öyrənilməsi zamanı istifadə edilə bilər. Buna misal olaraq, lövhədə dairə içərisində sifət yazılır. Tələbələr onun quruluşca növlərə, dərəcələrə ayrılma xüsusiyyətlərini qeyd edirlər. Daha sonra həmin hissələri də genişləndirərək dərəcələrin və quruluşuna görə növlərin adlarını qeyd edirlər. Beləliklə, bu şaxələnmə mövzunu təkrarlamağa və lüğət ehtiyatını təkmilləşdirməyə kömək edir (4, s.89).

Xarici dildən ünsiyyət vasitəsi kimi istifadə edə bilmək üçün söz ehtiyyatının artırılması mühümdür. S.Kraşen söz ehtiyatının zənginləşdirilməsində oxunun rolunu xüsusi vurğulayır. O qeyd edir ki, oxu vasitəsilə dil öyrənmək yeganə səmərəli yoldur (6, s.134).

Dosent Ə. Şirəliyev isə vurğulayır ki, xarici dildə təhsil alan tələbələrin gələcəkdə fəaliyyətlərini uğurla icra edə bilmələri üçün onların əvvəlki biliklərinin geniş olması önəmlidir. Bu baxımdan, səmərəliliyi artırmaq üçün tələbələrin biliklərini möhkəmləndirmək lazımdır (7, s.32).

Belə hesab edilir ki, xarici dillərin tədrisi zamanı leksik biliklərin öyrədilməsi üçün sözlərin tərcüməsini və ya onun sinonimini verməklə izah edilərsə, həmin söz tələbələrdə aşağı dərəcəli səmərə verir və tez unudulur (1, s.34). Belə ki, sözlərin öyrədilməsi zamanı onların hədəf dildə mənasının izah olunması və müxtəlif situasiyalarda təqdim olunması məqsədəuyğun hesab olunur. Tələbələr sözlərin mənasını tapmaqda problem yaşayarlarsa, bu zaman onlara onun təxmin edilməsi üçün köməklik göstərilir və daha sonra tərcüməsi deyilir.

Ümumiyyətlə, leksik vahidlərin tədrisi linqvistik, metodoloji və psixoloji komponentlər olmaqla üç qrupa ayrılır. Leksik materialların tədris olunmasının linqvistik komponentində nitq fəaliyyəti üzrə müəyyən olunmuş məqsədlərin reallaşmasını təmin edən söz ehtiyyatından istifadə və onun xüsusiyyətləri nəzərdə tutulur. Metodoloji komponent isə lüğətlərdən istifadə və onların müxtəlif səviyyələr üzrə bölgüsünü əhatə edir. Leksikanın tədrisinin psixoloji

komponentinə isə lüğət ehtiyyatının uzunmüddətli yaddaşda saxlanılması prosesləri və tələbələrin ehtiyacları daxildir (11, s.43).

Leksikanın tədrisinin metodoloji aspekti tələbələrdə leksik ehtiyatın artırılmasının mümkün yollarını araşdırır. Tələbələrin leksik bazasına istinad edərək onlarla müxtəlif fəaliyyətlər icra olunaraq bilikləri yoxlanılır və daha da təkmilləşdirilir. Fikirlər sözlər vasitəsilə ümumiləşdirilir. Xarici aləmin predmetləri arasındakı əlaqələri əks etdirmək üçün dərin söz ehtiyatına ehtiyac vardır. Cəmiyyətdə baş verən hadisələri, xarici dildə ehtiyaclarını ifadə edə bilmək üçün sözləri təhlil edərək yerində düzgün istifadə etmək önəmlidir. Bunun üçün söz ehtiyatının artırılması və onların əlavə mənalarının müəyyənləşdirilməsi hədəf dili öyrənənlər üçün əsas şərtlərdəndir.

İngilis dilində sərbəst ünsiyyət qura bilmək üçün təkcə sözlərin tərcüməsini bilmək yetərli deyil. Sözün mənasını bilməklə yanaşı onun əlaqədə olduğu sözləri, mətn daxilində ifadə etdiyi mənaları da müəyyənləşdirmək önəmlidir. Lüğətin öyrənilməsi üçün sözlərin cümlədə işlənmə xüsusiyyətlərini bilmək lazımdır. M.Graves səmərəli lüğət proqramının dörd əsas komponenti olduğunu vurğulayır:

1. söz ehtiyatını zənginləşdirmək üçün geniş oxu mətnlərindən istifadə etmək;
2. mətnin başa düşülməsi üçün lazım olan xüsusi sözlərin öyrənilməsi barədə təlimat;
3. müstəqil sözöyrənmə strategiyaları barədə təlimat;
4. sözanlama və söz oyunu fəaliyyətləri ilə öyrənməni inkişaf etdirmək və motivasiya etmək (5, s.186).

Tələbələrə ilkin mərhələdə gündəlik həyatda daha çox istifadə olunan sözlər öyrədilir. Lakin getdikcə təhsilalanların lüğət ehtiyatı daha da zənginləşdirilir. Sözlərin yaxşı yadda qalması üçün onların sinonim, antonim, müxtəlif ifadə formaları, qrammatik quruluşu və söz yarada bilmək xüsusiyyətləri barədə məlumat verilir. Tələbələr yeni öyrəndikləri sözləri müxtəlif cümlələlərdə işlədərək sözlərin mənasını uzunmüddətli yaddaşda saxlamağa çalışırlar. Bu baxımdan, öyrənənlərin bir dərs müddətində çoxlu söz öyrənməsi məsləhət deyil. Məlumdur ki, söz ehtiyatını artırmaq üçün müxtəlif öyrənmə strategiyaları tətbiq edilir. Bu strategiyaların həyata keçirilməsi uzun müddət tələb etdiyindən yeni sözlərin çox olması məqsədəuyğun deyildir. Lüğətin zənginləşdirilməsi üçün tələbələrin ehtiyac duyduğu sözlər və ifadələrə üstünlük verilməsi lazımdır.

Ədəbiyyat

1. Billows F.L. The Techniques of Language Teaching. Longman, 1967, 260 p.
2. Ellis R. Task – Based Language Teaching. Oxford: Oxford University Press, 2003, 398 p.
3. Harmer J. The practice of English language teaching. England: Pearson, 2015, 446 p.
4. Hüseynova G. Kurikulum. Bakı: Hədəf, 2019, 276 s.
5. İsmailova A.D. Teaching English as a foreign language. Bakı: Mütərcim, 2011, 319 p.
6. Richard C.J., Rodgers S.T. Approaches and methods in language teaching. England: Cambridge University Press, 2001, 270 s.
7. Şirəliyev Ə. Teaching practice handbook. Bakı: Mütərcim, 2012, 179s.
8. Ur P. A course in English language teaching. United Kingdom: Cambridge University Press, 2012, 325 p.
9. Zeynaloğlu C. Təlim fəaliyyətinin psixoloji prosesi. Bakı: Print – S, 2017, 144 s.
10. Пассов Е.И. Теоретические основы обучения иноязычному говорению. Воронеж: Изд-во ВГУ, 1983, 199 с.
11. Соловова Е.Н. Методика обучения иностранным языкам: Базовый курс лекций. М.: Просвещение, 2005, 239 с.

Т.Абдуллаева

Пути развития лексический аспект в обучении английскому языку k студентам низкий курс

Резюме

В данной статье рассматривается словарные компоненты, лексикология и выбор деятельности в обучении словарь. В статье описывается процесс, помогая преодолевать трудности, с которыми они сталкивается. Существует огромное количество исследований того, как учащиеся учатся лучше всего и как учителя могут лучше всего учить. В статье также отражены факторы, развивающие словарь в процессе обучение языку.

T.Abdullayeva

Ways to develop the lexical aspect of the English language in lower grade students

Summary

The article deals with the vocabulary components, lexicology and an activity selection in teaching vocabulary. It describes the process of helping learners overcome the difficulties they face. There is a vast amount of research into how learners learn best and how teachers might best teach. Factors improving vocabulary in the teaching process are reflected in the article as well.

Rəyçi: ped.f.d. J.F.Mehrəliyeva

Redaksiyaya daxil olub: 29.04.2021

A.B.ALLAHVERDİYEVA
e-mail: allahverdiyeva.afina@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

PEDAQOJİ PROSESDƏ MÜƏLLİM VƏ ŞAGİRD FƏALLIĞI ARASINDAKI ƏLAQƏ

Açar sözlər: *müəllim və şagird fəallığı, təlimin qanunauyğunluğu, pedaqoji proses, təlim keyfiyyəti, mənimsəmə, təlim ziddiyyətləri.*
Ключевые слова: *активность учителя и ученика, закономерности обучения, педагогический процесс, качество обучения, усвоение, противоречия в обучении.*
Key words: *teacher and pupil activity, regularity of teaching, pedagogical process, quality of teaching, mastery, learning contradictions.*

Azərbaycan Respublikası Təhsil Qanununun 9-cu maddəsində deyilir: "Təhsil sisteminin başlıca vəzifələrindən biri də Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan insan tərbiyə etməkdir" (1, s.9).

Akademik H.M. Əhmədov yazır: "Bu bir reallıqdır ki, müasir dövrdə ölkənin inkişafı yalnız təhsil vasitəsilə əldə edilə bilər. Dünya təcrübəsi göstərir ki, bu və ya digər ölkənin inkişaf səviyyəsini ölkənin təbii sərvətlərinin bolluğu deyil, bu sərvətlərin yüksək potensiala malik insan kapitalına çevrilməsi təmin edir.

İlham Əliyev demişdir: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra da təmin edəcəkdir..."

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dediyi kimi "Son 20 ildə biz ölkəmizdə təhsil sisteminin inkişafına və müasirləşdirilməsinə xüsusi diqqət yetirmişik". Dövlət başçısı tərəfindən təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası da insan kapitalının inkişafını ön plana çəkmişdir" (3, s.394).

Prof. O.Q. Həsənlinin "Şagird şəxsiyyətinin formalaşması" adlı məqalə-sində isə göstərilir ki, Amerika futuroloqlarından Con Nesbitt və Patrisiya Eburdinin nöqteyi-nəzərincə, iyirmi birinci yüzillikdə çox böyük kəşflər elm və texnika tərəfindən deyil, "insan" anlayışına yeni baxış sayəsində həyata keçiri-ləcəkdir (6, s.489).

Qeyd edək ki, "insan" anlayışına yeni baxış öz növbəsində insanın bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan təlim prosesinə yeni baxış tələb etməkdədir. Əlbəttə ki, insana biliklərin verilməsi, onda müəyyən ideyaların, arzuların tərbiyə edilməsi, maraq və tələbatın, əxlaqi və estetik keyfiyyətlərin, dünyagörüşünün formalaşdırılması insan şəxsiyyətini zənginləşdirir. Bu baxımdan ibtidai siniflərdə təlim zamanı şagird şəxsiyyətinin inkişafının təmin edilməsi təlim, tərbiyə və təhsildə müvəffəqiyyət qazanmağın da əsas şərtlərindən biridir. Tədqiqatdan aydın olur ki, ibtidai təlim prosesində şagirdlərin fəallığı və şüurluluğu artdıqca, təşəbbüskarlıqları gücləndikcə, müəllimin rəhbərliyi altında müstəqil işləmək meylləri inkişaf etdikcə, təlimin səmərəli təşkilinin imkanları da günişlənir.

Ümumiyyətlə, bir pedaqoji problem kimi, təlimdə fəallıq və şüurluluq yeni ideya deyil. Hələ qədim dünyanın məşhur müdrikləri şagirdlərin başını boş kəllə hesab edib, içini özgələrin fikri ilə doldurmağı yaramaz ideya hesab etmişlər. Uşağı məşəl kimi yandırmaq lazımdır ki, həyatı bu məşəlin işığında özü müstəqil dərk etsin. Sonralar görkəmli pedaqoqlardan N.Tusi, Y.A.Komenski, A.Disterveq, K.D.Uşinski və başqaları bu fikri inkişaf etdirərək tə-

limdə başqalarının müşahidələrinə deyil, uşaqların öz müşahidələrinə üstünlük verməyi və beləliklə də, uşaqları fəallaşdırmağı, onlara verilən biliyin şüurlu mənimsəmə səviyyəsini yüksəltməyi daha məqsədəuyğun sayırdılar.

Görkəmli pedaqoqların irəli sürdükləri bu tələblər çağdaş zamanımızda da öz əhəmiyyətini itirməmişdir. Budur, müasir ibtidai siniflər üzrə mövcud fənn kurikulumu ibtidai sinif şagirdini təlimin ən fəal və bərabərhüquqlu subyektinə çevirməyi tələb edir.

Təlim prosesində şagirdlərin fəallığı dedikdə, onların öyrəndikləri materiala, mənimsədikləri bacarıqlara, həyat həqiqətlərinə şüurlu, yaradıcı münasibətləri başa düşülür. Pedaqoqlar tərəfindən aparılan xüsusi tədqiqatlar dərsdə şagirdlərin müstəqilliyini və fəallığını hər vasitə ilə inkişaf etdirməyin zəruri olduğunu təsdiq etmişdir (2).

Şagirdlərin dərs prosesində müstəqilliyi və yaradıcı fəallığı haqqında Y.K. Babanski yazır: "Müasir didaktika şagirdlərin müstəqilliyinə və yaradıcı fəallığına xüsüsi əhəmiyyət verir. Dərs prosesində şagirdlərin müstəqil işləmələrinə (müstəqil təcrübə aparmalarına, müşahidələrinə, məsələlərin həll edilməsinə) şərait yaradılmalıdır" (4, s.361).

Hesab edirik ki, ibtidai təlim prosesində də məktəblinin materialı həmişə şüurlu dərk etməsi, müstəqillik göstərməsi və fəal olması üçün şərait yaratmaq müəllimin ümdə vəzifəsidir. Şübhəsiz ki, təlim prosesində müəllimin özü də fəal olmalı, şagirdləri müqayisələr aparmağa, təhlillər etməyə, səbəb-nəticə əlaqələrini axtarmağa cəlb etməli, onları fəallaşdırmalı və nəticədə bilik və bacarıqların şüurlu mənimsənilməsinə nail olmalıdır. Çünki şüurlu surətdə mənimsənilən bilik uzunmüddətli olur.

Ümumiyyətlə, təlim-tərbiyə prosesində müəllim fəalllığı və şagird fəallığı məsələsi elmi-pedaqoji ədəbiyyatda ən mübahisəli problemlərdən biri olmuşdur.

M.A. Danilov "Didaktika sredney şkolı" adlı əsərində müəllim və şagird münasibətləri haqqında yazır: "Qeyd etmək lazımdır ki, müəllim şagirdlərini nə qədər çox öyrədir və onların müstəqil bilik əldə etmələri və müstəqil fikir yürütmələri üçün nə qədər az şərait yaradırsa, təlim prosesi bir o qədər səmərəsiz olur və əksinə, təlim prosesinin müəllimin izahı və şagirdlərin idrak fəallığı şəraitində aparılması biliklərin mənimsənilməsinə və şagirdlərin şüurunun inkişafına müsbət təsir göstərir" (5, s.92).

Həqiqətən, dərsin səmərəsi müəllimin dərs ərzində çox öyrətməsindən yox, şagirdləri öyrənmək üçün fəalllaşdıra bilmək məharətindən asılıdır. M. A. Danilov da adı çəkilən əsərində şagird fəallığı ilə yanaşı müəllim fəaliyyətinə də toxunmuş və göstərmişdir ki, təlim prosesinin həqiqi yaradıcısı olmaq üçün müəllim pedaqoji prosesin mahiyyətini dərk etməli, onun obyektiv qanunauyğunluqlarını mükəmməl bilməlidir (5, s.288).

Problemin həllinə tam pedaqoji cəhətdən yanaşdıqda belə nəticəyə gəlirik ki, ibtidai təlim prosesi şagirdlərin idrak fəallığı şəraitində aparıldıqda, həqiqətən, şagirdlərin mənimsəmə fəaliyyəti yüksəlir, onların idrak maraqları inkişaf edir. Yəni şagirdlər təlim prosesində daha fəal olur, hadisələrin təsviri ilə kifayətlənmir, hadisələr arasındakı əlaqələri anlamağa çalışırlar. İdrak marağı davamlı olan şagirdlər, adətən, daha sərbəst, daha inamla işləyərək mühakimələrdə tam müstəqil fəaliyyətə can atırlar.

Kiçik yaşlı məktəblilərin idrak maraqlarının inkişafı onların öyrənmədə fəallıq və müstəqillik dərəcəsi ilə şərtlənir. Yeni dərs zamanı şagirdlərini fəallıq göstərməyə və müstəqil işləməyə öyrədən müəllim özü çox danışan və çox işləyən, şagirdlərini isə çalışdırmayan müəllimə nisbətən daha çox müvəffəqiyyət əldə edər. Araşdırmalarımızdan belə nəticəyə gəlmək olur ki, ibtidai siniflərdə təlim prosesi müəllim və şagird arasında olan çox mürəkkəb və dinamik fəaliyyətin məcmusudur. Bu fəaliyyəti düzgün təşkil etmək və ona rəhbərlik etmək üçün, onun quruluşunu, komponentlərini və onlar arasında olan qanunauyğun əlaqələri düzgün müəyyən etmək lazımdır.

Pedaqoji ədəbiyyatda öyrətmə və öyrənmə proseslərinin qarşılıqlı əlaqədə olduğu, pedaqoji prosesdə təlimin səmərəliliyinin müəllimin və şagirdlərin fəaliyyətində asılılığı qeyd edilsə də, bu qarşılıqlı fəaliyyət qanunauyğunluq səviyyəsində öyrənilməmişdir. Halbuki

pedaqoji prosesdə təlimin səmərəliliyinin əsas səbəbi təlimdə müəllim və şagird fəaliyyətlərinin bir-birini şərtləndirməsi ilə bağlıdır.

Azərbaycan pedaqoji fikir tarixində bu və ya digər dərəcədə təlim zamanı müəllim və şagird fəallığı məsələsinə toxunulsa da (prof. M.Ə.Muradxanov, prof. B.A.Əhmədov, Z.İ.Qaralov, Y.Ş.Kərimov və b.), müəllim fəallığı ilə şagird fəallığı arasındakı qanunauyğun əlaqə və asılılıqlar öz həqiqi elmi həllini tapmamışdır.

Dərsdə müəllim və şagird fəallığından bəhs edən professor Nurəddin Kazımov "Məktəb pedaqogikası" adlı kitabında yazır: "Məktəb təcrübəsindən məlumdur ki, bəzi müəllimlər dərsdə az danışır, şagirdlərini isə daha çox danışdırır; bəziləri isə əksinə, özü çox düşünür, şagirdlərini isə az düşündürür. Nəticə isə başqa-başqa olur: dərsdə özü az danışıb az işləyən, lakin şagirdlərini çox danışdırıb çox işlədən müəllimin təlim işinin səmərəsi artır; lakin dərsdə özü çox danışıb çox işləyən, şagirdlərini isə az danışdırıb az işlədən müəllimin təlim işində səmərəsi azalır. Burada müəyyən qanunauyğunluq vardır: dərsdə müəllimin fəallıq dərəcəsi artdıqca şagirdlərin fəallığı azalır; mənimsəmənin səviyyəsi o qədər də artmır və, əksinə, şagirdlərin fəallığı artırıldıqca müəllimin fəallığı azaldılır, mənimsəmənin səviyyəsi isə artır" (2, s.151-152).

Lakin ibtidai siniflərdə bu və ya digər fənlərin tədrisi zamanı həmin qanunauyğunluqların özünü necə doğruldacağı hələ də elmi-praktiki həllini gözləməkdədir. Başqa sözlə, ibtidai sinif müəllimlərinə nəinki nəzəri müddəalar, həm də fikrin konkret məqamlarda necə reallaşdığını nümayiş etdirən nümunələr də lazımdır. Beləliklə, ibtidai təhsilin inkişafı baxımından ümumtəhsil məktəblə-rində biliklərin mənimsədilməsi zamanı müəllim fəallığı ilə şagird fəallığı arasındakı asılılığın təlimin keyfiyyətinə təsirinin tədqiqi aktual və gərəklidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, Öyrətmən, 2003.
2. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, OKA ofset, 2009.
3. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı, Elm, 2010.
4. Бабанский Ю.К. Педагогика. М., Просвещение, 1988.
5. Данилов М.А. Дидактика средней школы. М., Просвещение, 1975.
6. Həsənli O.Q. Şagird şəxsiyyətinin formalaşması. Bakı, Elm, 2004.

А.Б.Аллахвердиева

Взязь между активностью учителя и ученика в педагогическом процессе

Резюме

С точки зрения развития начального образования при получении знаний в общеобразовательных школах проблема влияния на качество обучения взаимосвязимежду активностью учителя и активностью ученика по-прежнему актуальна и важна. В результате нашего исследования было доказано, что эффективность педагогической работывозрастаету того учителя, который самв классеменьше говорит и меньше работает, но много общается с учениками и больше их привлекает к работе; напротив, уменьшаетсяэффективность в обучении у учителя , который сам слишком много говорит и работает в классе, а с учениками мало разговаривает и меньше привлекает их к работе.

A.B.Allahverdiyeva

Relationship between teacher and pupil activity in the pedagogical process

Summary

From the point of view of the development of primary education, problem of the impact of the relationship between teacher and pupil activity on the quality of education in the acquisition of knowledge in secondary schools is still relevant and necessary. As a result of our research, it has been

proved, that the effectiveness of the teaching work of a teacher who speaks less and works less in the classroom, but talks and works more with his pupils, increases; on the contrary, a teacher who talks too much in the classroom and works too hard, and who talks and works too little with his students, is less effective in teaching.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 03.05.2021

S.N.ATAYEVA
e-mail: samayaatazadeh2203@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

ŞAGİRDLƏRƏ MÜQAYİSƏ BACARIQLARINI AŞILAMAĞIN İMKANLARI

Açar sözlər: *müqayisə bacarıqları məvhumu, ağıl tərbiyəsinin məntiqi və psixoloji kökləri, müqayisə priyomu, ağlın sönməz məşəli, elmi ümumiləşdirmə.*

Ключевые слова: *понятие сравнения, логические и педагогические корни умственного воспитания, прием сравнения, научное обобщение.*

Key words: *comparison abilities conception, logical and pedagogical roots of mind education, method of comparison, unquenchable fire of mind, scientific generalization.*

Həyatımızın bütün sahələrində yaradıcı düşünməyə, qurub yaratmağa, xalq təsərrüfatının, elm və mədəniyyətin inkişafını sürətləndirməyə qadir olan adamlara müstəqillik qazanmış respublikamızın ehtiyacı indi xeyli artmışdır. Belə bir ehtiyacın ödənməsinə təfəkkür tərzlərinin özəyi hesab etdiyimiz müqayisə bacarığı əhəmiyyətli dərəcədə kömək edə bilər.

Müqayisəyə dair təsəvvürü ümumi olan şəxslər obyektləri müqayisə edərkən bir sıra məntiqi səhvlərə yol verirlər: bəzən müqayisədə istinad obyekti dəyişdirilir, bəzən müqayisə yarımçıq aparılır, bəzən müqayisədən lazimi nəticələr çıxarılmır. Bir çox halda müqayisə təsvir kimi başa düşülür: müqayisə olunmalı obyektlərdən əvvəlcə biri, sonra isə digəri ayrılıqda təsvir edilir. Hətta bir-birindən kəskin şəkildə fərqlənən iki obyektin və ya hadisənin müqayisəyə gələ bilmədiyini sözlə etiraf edib mühakimə zamanı onların müqayisəsinə təşəbbüs etmək hallarına da rast gəlmək olar.

Təcrübə göstərir ki, müqayisəli mühakimənin müvəffəqiyyətli olmasına biliklə yanaşı təcrübə də təsir göstərir. Müqayisə sahəsində bilik əldə etmək azdır, bu sahədə təcrübə qazanmaq da gərəkdir. Öz mühakimələrində müqayisəyə alışan şagird konkret halda tam müqayisədən, tutuşdurmadan, yoxsa qarşılaşdırmadan istifadə edəcəyini, müqayisəni hansı əsaslarda aparacağını, aşkara çıxarılacaq oxşar və ya fərqli əlamətlərin səbəblərini açacağını, müvafiq nəticə çıxaracağını müəyyənləşdirir və həyata keçirir.

Müqayisə edilən cisimlərin və ya hadisələrin əyanilik dərəcəsi də müqayisənin gedişinə təsir göstərir. Xüsusi olaraq isbat etməyə ehtiyac yoxdur ki, əlamətləri göz qabağında olan, duyulub qavranılan obyektlərin müqayisəsi təsəvvürdə və ya təxəyyüldə canlandırılan obyektlərin müqayisəsinə nisbətən asandır. Başqa sözlə desək, birincilərə nisbətən ikincilərin müqayisəsi o qədər də müvəffəqiyyətli olmur. Müqayisə zamanı bu cəhət də nəzərə alınmalıdır.

Obyektlərin oxşarlıq dərəcəsi də müqayisə zamanı müəyyən rol oynayır. Az oxşar olan obyektlərin müqayisəsi və çox oxşar olan obyektlərin müqayisəsi eyni dərəcədə cərəyan etmir, oxşar əlamətlərin müəyyənləşdirilməsi birinci qrup obyektlərin müqayisəsinə nisbətən ikinci qrup obyektlərdə daha asan cərəyan edir.

Təlimdə müqayisə bacarığı ilə silahlanmaq üçün müqayisənin nəzəri və əməli məsələlərindən hali olmaq əsas şərtdir. Bu məqsədlə müqayisə etmək qaydalarını bilmək və hər dəfə onları nəzərə almağa çalışmaq lazımdır.

Müqayisə bacarığına yiyələnmək sahəsində atılacaq ilk addım müqayisə üçün seçilən obyektlərin müqayisəyə gələ bilməsini müəyyənləşdirməkdən ibarətdir. Nəyi nə ilə müqayisə etmək olar? Müqayisəyə gələn obyektləri! Məsələn, bir ağacı başqa ağacla, bir dram əsərini digər dram əsəri ilə, bir heyvanın skeletini başqa bir heyvanın skeleti ilə, bir müharibəni başqa müharibə ilə, bir obrazı başqa bir obraz ilə, bir anlayışı başqa anlayışla və s. müqayisə etmək

istənilən nəticəni verir. Burada özünü göstərən qayda belədir: müqayisə üçün müqayisəyə gələn obyektlər seçilir.

Müqayisə etmək yolunda atılmalı ikinci vacib addım müqayisə obyektlərinin qoşalığını təmin etməkdir. Yuxarıdakı izahatdan göründüyü kimi, müqayisədə iki tərəf olur: bir obyekt digəri ilə, bir hadisə digəri ilə, bir proses digəri ilə ya tutuşdurulur, ya qarşılaşdırılır yaxud, da tam müqayisə edilir.

Müqayisə etmək bacarığına yiyələnməyin tərkib hissələrindən biri müqayisədə istinad obyektini muəyyənləşdirməkdir. Qoşa obyektlərdən hansına istinad edərək digərinin oxşarlığını və ya fərqini müəyyənləşdirmək lazımdır? Adətən daha çox tanış olan obyektə istinad edərək digər obyektin oxşar, yaxud fərqli əlamətləri göstərilir. Müqayisə zamanı istinad obyektini dəyişmək, yəni gah bir obyektə, gah da digər obyektə istinad etmək məntiqsizliyə səbəb olur. Odur ki, nəinki müqayisədən əvvəl istinad obyektini təyin etməyə, həm də müqayisənin gedişində onu daim nəzərdə tutmağa alışmaq vacibdir. Burada mövcud olan qayda belədir: müqayisə zamanı qoşa obyektlərdən biri istinad obyekti kimi götürülür.

Müqayisəni eyni əsaslar üzrə aparmaq müqayisə bacarığının ayrılmaz ünsurüdür. Müqayisə üçün seçilmiş obyektləri necə gəldi müqayisə etmək istənilən nəticəni vermir. Müqayisəni düzgün aparmaq üçün onun əsaslarını əvvəlcədən müəyyənləşdirmək tələb olunur. Öyrənilən obyektlərin xarakterindən asılı olaraq müqayisə üçün götürülən cəhətlər, yəni əsaslar olduqca müxtəlif ola bilir: formasına, həcminə, rənginə, mənşəyinə, dadına, istilik və ya elektrik keçirmə qabiliyyətinə və s. və i. a. cəhətlərinə görə müqayisə. Burada vacib olan budur ki, müqayisə üçün seçilən cəhət və ya cəhətlər baxımından əvvəlcə istinad obyekti, sonra isə digər obyekt nəzərdən keçirilir və müvafiq nəticə çıxarılır; müqayisəyə cəlb olunmuş obyektlərdən birini bir əsas üzrə, digərini başqa əsas üzrə tutuşdurmaq və ya qarşılaşdırmaq məntiqi cəhətdən yol verilməzdir. Prof. N. Kazımova istinad edərək deyə bilərik ki, müqayisə bacarığının inkişafında əldə rəhbər tutulmalı qaydalardan biri belədir: Müqayisədə obyektlərin oxşarlığı və ya fərqi eyni əsaslar üzrə müəyyənləşdirilir.

Müqayisə bacarığının tərkib hissələrindən biri də müqayisə qarşısında qoyulan vəzifənin müəyyənləşdirilməsidir. Öyrənmək istədiyimiz obyektləri müqayisə etməzdən əvvəl onun qarşısında qoyulmalı vəzifəni aydınlaşdırmaq tələb olunur. Müqayisə qarşısında isə müxtəlif vəzifələr qoymaq mümkündür. Bir halda vəzifə öyrənilən obyektlərdəki oxşar əlamətlərin üzə çıxarılması ilə məhdudlaşdırıla bilir; digər halda bizi maraqlandıran obyektlərdəki fərqli cəhətləri aşkara çıxarmaqla kifayətlənirik; üçüncü halda vəzifə iki obyekt arasındakı həm oxşarlığı, həm də fərqi müəyyənləşdirməkdən ibarət ola bilər! Göründüyü kimi, burada müqayisə bacarığının formalaşmasına xidmət edən qayda vardır: müqayisə qarşısında qoyulacaq vəzifə qabaqcadan dəqiqləşdirilir.

Müqayisədə müəyyən ardıcıllığın gözlənilməsi müqayisə bacarığının formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Müqayisə yalnız oxşar əlamətlərin müəyyənləşdirilməsi ilə məhdudlaşsa da, yaxud yalnız fərq əlamətlərinin öyrənilməsi ilə kifayətlənsə də müəyyən ardıcıllıq gözlənilməlidir. Müqayisə bir deyil, bir neçə əsas üzrə aparıldıqda bu cür ardıcıllığa daha çox ehtiyac duyulur.

Müqayisədən müəyyən nəticələr çıxarılması müqayisə bacarığını formalaşdırmağın vacib ünsürlərindən biridir. Müqayisə yalnız oxşarlığı müəyyənləşdirməklə məhdudlaşsa da, yaxud fərqi aşkara çıxartmaqla kifayətlənsə də, ya da həm oxşarlığı və həm də fərqi öyrənməyi məqsəd qoysa da hər dəfə müqayisədən müvafiq nəticə çıxarmaq lazım gəlir. Nəticə çıxarılmayan müqayisə yarımçıq olur.

Müqayisədən alınan nəticənin izahı müqayisə bacarığını formalaşdırmağın son mərhələsidir. Müqayisə müqayisə xatirinə tətbiq olunmur. Cisim və hadisələri müqayisə edərkən onlardakı oxşar və ya fərq əlamətlərini üzə çıxarmaqla və onlardan müvafiq nəticə almaqla bəzən kifayətlənmək olmur. Bir çox halda alınan nəticənin səbəbini aydınlaşdırmaq lazım gəlir. Quldarlıq cəmiyyəti ilə əlaqədar gətirdiyimiz misala qayıdaq. Qədim Romada və Yuna-

nıstanda qul əməyi xüsusiyyətlərinin müqayisəsindən alınan nəticə belə idi: quldarlıq cəmiyyəti Yunanıstana nisbətən Romada daha çox inkişaf etmişdi.

Sual olunur: Bunun səbəbi nə idi? Quldarlıq cəmiyyəti nə üçün Yunanıstana nisbətən Romada daha çox inkişaf etmişdir?

Bu cür sualların cavabını yenə müqayisənin özündə tapmaq mümkün olur. Müqayisə zamanı üzə çıxarılan xüsusiyyətlərdən birisi belə idi:

Yunanıstana nisbətən Romada qul çox idi. Deməli, Romada qul çox olduğundan təsərrüfatın bütün sahələrində onlardan istifadə olunmuşdur.

Göründüyü kimi, qayda var: müqayisədən çıxarılan nəticə izah olunur.

Ümumi şəkildə səciyyələndirdiyimiz qaydaları bilən və onlara daim əməl edən hər bir şagird təbiət və cəmiyyət hadisələrini daha dərindən dərk edir, onları uzun müddət yadda saxlayır və lazım gəldikdə öz biliklərindən müvəffəqiyyətlə istifadə edir. Müqayisə bacarığına yiyələnmiş şəxs onu öz ağlının sönməz məşəlinə çevirmiş olur.

Biz istərdik ki, bu bacarıqlara uşaqlar məktəb yaşlarında sahib olsunlar; müəllimlərimiz ayrı-ayrı fənlərin tədrisi imkanlarından istifadə edərək müqayisə bacarığını şagirdlərə aşılasınlar.

Ədəbiyyat

1. Kazımov N.M. Məktəb pedaqogikası. Dərslik. Bakı, OKA offset, 2009.
2. Kazımov N.M. Müqayisə üzərində işin nəzəriyyəsi və təcrübəsi. Bakı, OKA Ofset, 2007.
3. Kazımov N.M. Ağılın sönməz məşəli. Bakı, OKA Ofset, 2006.

С.Н.Атаева

Возможности привития умения сравнения учеников

Резюме

В статье изложены логические основы умственного воспитания, выявлены и обоснованы их логические корни. В связи с этим освещены современные научные идеи, сформировавшиеся на педагогических мыслях проф. Н.Кязимова. Статья может сыграть важную роль в развитии современной педагогической науки

S.N.Atayeva

Opportunities of the forming confront abilities in pupils

Summary

In article explained the logical basis of mind education, revealed the logical roots and also grounded. In this direction lighted the genially pedagogical ideas of prof. N.Kazımov. Article would be having a main role in development of contemporary pedagogical science.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 08.04.2021

A.X.AXUNDOVA
e-mail: samirrustamov02@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

DƏRSDƏNKƏNAR SOSİAL PEDAQOJİ İŞİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *sosial tərbiyə, ailə tərbiyəsi, ata nüfuzu, tərbiyə sistemi, uşaq psixologiyası.*
Ключевые слова: *социальное воспитание, семейное воспитание, влияние отца, система воспитания, детская психология.*
Key words: *national education, family education, penetration of father, educational system, psychology of a child.*

İnsan bəşəriyyətin çoxəsrlik mənəvi dəyərlərini, cəmiyyətin normalarını hazır şəkildə mənimsəyir və bu keyfiyyətləri mənimsədikcə ictimailəşir, cəmiyyətin ümumi axarına qoşulur. Qeyd olunan nöqteyi-nəzərlərin ən ümumi cəhəti ondan ibarətdir ki, cəmiyyətdə qəbul edilmiş ümumi normativ standartlar ayrı-ayrı fərdlərin tələbatlarının motivləşmə strukturunun tərkib hissəsinə çevrildikcə onların sosial fəaliyyətinə istiqamət verir. Deməli, belə olduğu halda insan sosiallaşma prosesini keçir.

Məktəbdənkənar tədbirlər isə dərs çərçivəsindən kənarda məktəblə əlaqə zəminində məhz məktəbdənkənar tərbiyə müəssisələri – uşaq və gənclərin yaradıcılıq sarayları və evləri, uşaq idman məktəbləri və sair belə müəssisələrin özləri tərəfindən aparılan işlərdir (1).

Dərsdən və məktəbdənkənar tədbirlər kiçik yaşlı məktəblilərin asudə vaxtının səmərəli təşkilinə şərait yaratmaqla onları xoşagəlməz təsadüfi hadisələrdən və müəyyən sosial qrupların mənfi təsirindən qoruyur. Tədqiqatdan aydın olur ki, şagirdin sosiallaşmasında zamanın xüsusi yeri var. Onların əsas istiqamətlərindən biri şagirdin asudə vaxtı ilə bağlıdır. Məhz asudə vaxtın səmərəli təşkili kiçik yaşlı məktəblilərlə aparılan sosial pedaqoji işin əsas məzmun elementlərindən biridir.

İngilis alimləri (M. Doel, S. Şardlov) tərəfindən bu faktın müəyyənləşməsi bizə onu deməyə imkan verir ki, ilk növbədə kiçik yaşlı məktəblilərin asudə vaxt ərzində fəaliyyəti öyrənməli və aparılmış tədqiqatlarda bu problem sosial pedaqoji ölçülərlə təhlil olunmalıdır.

Müşahidələr göstərir ki, şagirdlərin cəmiyyətə zidd qruplarının yaranması və formalaşması zamanı yaşlı şəxslər, demək olar ki, iştirak etmir. Ancaq cinayət qruplarının yaranması gedişində, hər dördüncü haldan birində yaşlı şəxslər iştirak edirlər. Onlar əksər hallarda qrupun təşkilatçısı və lider rolunda çıxış edirlər, yalnız bəzi hallarda qrupun həyatında təsadüfi üzv kimi iştirak edirlər. Mütəxəssislər bu məsələdən danışarkən qeyri-formal antisosial və cinayətkar uşaq qruplarının yaş xüsusiyyətlərinə diqqəti cəlb edirlər. Onların az hissəsi 7-13 yaşında oğlan və qızlardan ibarətdir. Beləliklə, kiçik yaşlı məktəblilərdə xırda oğurluq halları aşkarlandığı hallarda yeniyetmə və gənclərin törətdikləri cinayətlərin böyük əksəriyyəti qrup halında baş verir.

Uşaq cinayətkarlığının pedaqoji profilaktikası yollarını təhlil edəndə, ilk növbədə asudə vaxt problemi diqqəti cəlb edir.

Asudə vaxt probleminə həsr edilmiş tədqiqatların, demək olar ki, hamısında onun səmərəli təşkili yolları əsasən bir meyar baxımından – asudə vaxtın məzmununa görə təhlil olunur. Asudə vaxtın məzmunlu təşkili pedaqoji nöqteyi-nəzərdən də xüsusi əhəmiyyətə malikdir. Lakin asudə vaxtın məzmunu, öz özlüyündə onun istiqamətini biləvasitə müəyyən etmir. Asudə vaxtı əsasən sosial pedaqoji ölçülərlə ünsiyyət fenomeni kimi təhlil etmək lazımdır. Son zamanlar fəlsəfə və soiologiya elmlərində də "asudə vaxt sosiumu" anlayışı

yaranmışdır. Bu sosiumda başlıca yeri başqa adamlar – şagirdin dostları və yoldaşları tuturlar. Şagirdin öz asudə vaxtını kiminlə keçirməsi məsələsi ilk baxışda bəlkə də adi görünür, əslində isə sosial pedaqoji işin kökü məhz həmin məsələnin həlli ilə biləvasitə bağlıdır. Xüsusilə kiçik yaşlı məktəblilərin üzv olduqları qeyri formal qrupların həyatında kütləvi sosial-psixoloji hadisələr, xüsusilə təqlid mühüm yer tutur. Bu qruplarda kiçik yaşlı məktəblilər bir-birlərini asanlıqla təqlid edirlə, bir-biri vasitəsilə qeyri-adi şeyləri asanlıqla mənimsəyirlər, moda, qəribə bəzək əşyaları, qeyri adi rituallar və s. ilə ətrafdakılardan seçilməyə çalışırlar. Qeyri formal qrupların sosial-psixoloji siması da "asudə vaxt sosiumunda" biləvasitə və ya dolayısı ilə əks olunur.

Buradan isə elmi-əməli baxımdan mühüm pedaqoji nəticə çıxır. Kiçik yaşlı məktəblilərin ünsiyyət tələbatının təmin edilməsində sinif rəhbərlərinin və yoldaşlarının rolunun artırılması neqativ sosial təsirlərin neytrallaşdırılmasının başlıca yoludur. Əksər pedaqoqlar dərsdənkənar işin məktəb təcrübəsində geniş yayılmış formalarını 3 qrupa bölürlər: fərdi iş, qrup halında iş, kütləvi iş

Fərdi iş dedikdə kiçik yaşlı məktəblilərin öz arzusu və marağına əsasən müstəqil surətdə yerinə yetirdiyi işlər nəzərdə tutulur. Belə işlərə misal olaraq sinifdənxaric oxunu, kiçik yaşlı məktəblilərin ədəbi yaradıcılıqla, idmanla, rəsmlə məşğul olmasını, müəyyən musiqi alətində çalmağı öyrənməsini, əyani vəsait hazırlanmasını və s göstərmək olar.

Qrup halında iş formasından istifadənin mümkünlüyü də kiçik yaşlı məktəblilərdə sosial pedaqoji cəhətdən bir neçə parametrlər üzrə faydalı istiqamətin formalaşmasına real imkanlar yaradır. Beləliklə, ibtidai sinif şagirdi bu zaman həm kollektivçiliyə, həm ictimai münasibətlər sisteminə, həm ictimai fəallığa, həm də qarşılıqlı mənəvi fayda verən ünsiyyət tələbatının ödənilməsi prosesinə qoşulur.

Kiçik yaşlı məktəblilərlə sosial pedaqoji işin aparılmasında dərsdən və məktəbdənkənar tədbirlər prosesində onlarla sosial reablitasiya işinin həyata keçirilməsi də vacib məsələlərdən sayılır. Sosial reablitasiya işi xüsusi təşkilatlarda qüsur və çatışmazlıqları aradan qaldırmaql, yaxud zəiflətməklə sosiumunhəyatına qoşulmaq üçün şagirdlərə adekvat şəraitinin yaradılmasıdır. Sosial pedaqoji işin bu növü sosiallaşmanın xoşagəlməz şəraitinin qurbanları olan əlillərə, görmə, eşitmə, nitq qüsurları, fiziki inkişaf çatışmazlıqları olan, həmçinin ağıldankəm, psixi inkişaf ləngimələri olan uşaqlara, bəzi kateqoriyadan olan qanun pozucularına tətbiq edilir.

Sosial pedaqoji işin ən mühüm aspekti ailə və yaxın ətrafla aparılan işdir. Çünki sosial pedaqoqun bütün səylərinin taleyi xeyli dərəcədə şagirdin ailəsinin onu müdafiə edib tamamlamasından asılıdır. Məhz sosial reablitasiya işinin köməyi ilə şəxsiyyət xüsusiyyətləri, əxlaq və qanun pozucularla sosial məzmunlu həyat və fəaliyyətə uyğunlaşma işi yerinə yetirir.

Elm və sosial pedaqoji iş təcrübəsi təsdiq edir ki, qanun pozucuları arasında müxtəlif qüsur və inkişaf anomaliyalarına malik çoxsaylı insanlar olduğu üçün istər məktəbdə təlim zamanı, istərsə də məktəb məkanından kənarda bu şagirdlərlə sosial reablitasiya işi o zaman səmərəli aparıla bilər ki, psixoloji və pedaqoji tədbirlər kompleks həyata keçirilsin.

Sinifdənxaric tədbirlər kiçik yaşlı fiziki, psixoloji, sosial normalardan kənara çıxmasının dinamik meyllərinin islah olunmasında ən mükəmməl vasitələrindən biri sayılır. Bu istiqamətdə proflaktika məqsədilə ümumi, xüsusi prinsipləri, məqsəd və vəzifələri, görüləcək işin məzmununu, formalarını müəyyənləşdirməklə həmin normalardan kənaraçıxma hallarının minimuma endirilməsi, kompensasiyası, zəiflədilməsi və tamamilə aradan qaldırılması üsullarını nəzəri təcrübi cəhətdən sistemləşdirmək üçün sinifdənxaric tədbirlərin sosial imkanları geniş və əhatəlidir. Sinifdənxaric tədbirlər zamanı kiçik yaşlı məktəblilərin sosiallaşmasında mənfi meylləri müəyyənləşdirib, onların gələcək inkişaf proqnozlarını da hazırlamaq mümkündür.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Dərs vəsaiti. Bakı, Mütərcim, 2016.
2. Меджидова С.М. Уличные дети: социологический и психологический портрет. Баку: Зия - Нурлан, 2003, с.37-39.
3. Əliyev R.İ., Əliyeva G. Şəxsiyyət psixologiyası. Bakı, "ADPU" nəşriyyatı, 2010, 144 s.

А.Х.Ахундова

Особенности организация внеклассных социально-педагогических работ

Резюме

В статье исследована роль семьи в национальном воспитании и намного глубже выяснена роль отца и матери и других членов семьи в процессе современного воспитания, а также приводятся новшества. Введение этих новшеств, прививает у азербайджанских детей чувство национальной чести и достоинства, единства, пристрастия к Родине. Статья необходима каждой молодой семье и каждому педагогу. Приведенные примеры несут огромный воспитательный характер.

A.Kh.Akhundova

Edge from lesson forming of the social pedagogical work

Summary

In article is investigated the role of family in national education, also analysis and showed the roles and importance of father, mother, member of family in a contemporary education process. The new feature and application of this character learned to Azerbaijani children national proudness, unity, honor, fanaticism to motherland. Article is necessary for each young family and pedagogue. Different models, notes have a great educational importance.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 07.04.2021

L.H.BAĞIROVA
e-mail: lalebagirova21@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

TƏRBİYƏYƏ TƏSİR EDƏN SOSİAL-PSİXOLOJİ AMİLLƏR

Açar sözlər: *sosial-psixoloji amil, natamam ailələr, çətin tərbiyə olunan uşaqlar, müəllim-şagird münasibətləri, demoqrafik amillər.*
Ключевые слова: *социо-психологический фактор, неполные семьи, трудные дети, отношения учителя и ученика, демографические факторы.*
Key words: *socio-psychological factor, single families, difficult bringing up children, attitudes between teachers and pupils, demographical features.*

Müasir internat-məktəblərdə istər tibbi-psixoloji, istərsə də pedaqoji baxım-dan köklü dəyişikliklər əmələ gəlmişdir. Respublikamızda, Heydər Əliyev fondunun dəstəyi və köməyi ilə ailə tipli uşaq evləri yaradılmışdır. Bu sahədə axtarışları davam etdirmək zəruridir. Bizim fikrimizcə qoca evləri ilə yetim uşaq evlərinin birləşdirilməsi zəminində ailə tipli internatların yaradılması daha səmərəli olar. Qocalardan hər biri özünün yaşına və sağlamlıq səviyyəsinə müvafiq olaraq 2-3 yetim uşaqla birlikdə yaşasa, onların arasında nənə-baba, münasibətləri yaradılsa, bu tək qalmış qocaların da, yetim uşaqların da ünsiyyət tələbatının təmin olunmasında mühüm rol oynaya bilər.

Demoqrafik proseslərin nəticəsində müxtəlif tipli uşaqlar formalaşır. Onların böyük əksəriyyəti yetim evlərində tərbiyə olunurlar, bir çoxu isə ailə şəraitində böyüyür və ümumtəhsil müəssisələrində təhsil alırlar.

Yaxın gələcəkdə yetim uşaqların məhz ümumtəhsil məktəblərində təhsil alması hallarının artması gözlənilir. Bu meyl ailənin effektiv həyatında uşaqların rolunun tədricən genişlənməsi ilə bilavasitə bağlıdır. Son zamanlar yetim uşaqların oğulluğa və qızlığa götürülməsi halları artmağa başlamışdır. Maddi çətinlik ucbatından uşağını vaxtilə istər-istəməz kiçik yaşlarında internata verən bir çox ailələr artıq onu evdə ana qayğısı ilə tərbiyə etməyi hər şeydən üstün tuturlar.

Yetim evlərində və internat məktəblərində uşaqların tərbiyəsi üçün nə qədər əlverişli şərait yaradılırsa-yaradılsın, o, ailəni (və ümumtəhsil məktəbini) əvəz edə bilməz. Artıq valideynlər bu həqiqəti yaxşı dərk etmişlər. Onlar min cür əzab-əziyyətə qatlaşaraq uşaqlarını ana (və ya ata) qayğısı ilə böyüdür, ümumtəhsil məktəblərində yaxşı oxumaları üçün əllərindən gələni əsirgəmirlər.

Ümumtəhsil məktəbləri yetim, valideynləri boşanmış, oğulluğa və ya qızlığa götürülmüş uşaqların demoqrafik-pedaqoji xarakteristikasını nəzərə almalıdırmı? Məktəbin sosial funksiyasının genişləndiyi bir şəraitdə bu artıq nəzəri-pedaqoji məsələ deyil, ümdə əməli məsələdir. Məktəbin gələcəyi yüz minlərlə uşağın taleyi, xoşbəxt həyat yolunun müəyyən edilməsi baxımından xüsusi əhəmiyyətə malik olan həmin məsələnin elmi-pedaqoji axarda uğurla həll edilməsindən asılıdır.

Ana və ya atanın ölməsi, boşanması, ikinci dəfə ərə getməsi və ya ailə qurması uşağın psixi inkişafının səviyyəsində bilavasitə əks olunur. Anna Freyd uşağın anadan ayrılmasının ağır nəticələrinə diqqəti cəlb etmiş, A.Rene Şpits bu köklü amili deprivasiya aspektində öyrənmişdir. M.Aynovora müəyyən etmişdir ki, deprivasiya effekti uzun müddət davam etdikdə, uşaq şəxsiyyətinin formalaşma-sına mənfi təsir göstərir.

Gəncə SOS uşaq məktəbində yetim uşaqlarla müəyyən fərdi söhbətlər keçirilir. Bu zaman onların maraqları nəzərə alınır, gələcək perspektivləri araşdırılır, rastlaşdıqları çətinliklər

təhlil olunur, öyrənmənin səmərəli yolları barəsində məsləhətlər verilir. Həmin məktəbdə həm də müəyyən profilaktik tədbirlər həyata keçirilir. Valideynlərin vəfatı nəticəsində ailədə çətin şərait yarandıqda, müəllimlər şagird (və ya şagirdlərə) xüsusi diqqət yetirir, onun təlimdə geri qalmasının qarşısını vaxtında almağa çalışırlar.

Bu məktəblərin iş təcrübəsi öz-özlüyündə maraqlı olsa da, onlarla tanış olarkən iki cəhət aydın nəzərə çarpır. Bir tərəfdən, onlar müəyyən bir elmi metodik konsepsiyaya əsaslanmır, digər tərəfdən isə sistemli xarakter daşımır.

Məktəbdə əsasən natamam olan şagirdlərlə bu və digər formada müəyyən tərbiyə işi aparılır, bilavasitə demoqrafik amillərin təsiri ilə müxtəlif tipli ailələrdə əmələ gəlmiş sosial inkişaf şəraitinin xüsusiyyətləri isə təlim-tərbiyə prosesində çox vaxt nəzərə alınmır. Ən başlıcası isə məktəblərdə natamam ailədən olan şagirdlərlə aparılan tərbiyə işləri ümumi xarakter daşıyır və ailə üçün səciyyəvi olan özünəməxsus tipoloji xüsusiyyətləri əks etdirir. Təsadüfi deyildir ki, respondentlərin çoxu öz cavablarında ailənin demoqrafik tipləri, demoqrafik xarakteristikası üçün səciyyəvi olan xüsusiyyətləri, hətta ötəri şəkildə olsa da, qeyd etməmiiş və onların pedaqoji nəticələrinə diqqəti cəlb etməmişdi.

Anket materiallarında xüsusilə "Yetim uşaq" və "çoxuşaqlı ailə" ifadələrinə az təsadüf olunmur, lakin onlar elmi-pedaqoji termin kimi deyil, adi güzəran ifadələri kimi işlədilir. Respondentlər yetim uşağın ailədaxili münasibətlərdəki vəziyyətini bilmirlər, çoxuşaqlı ailənin xüsusiyyətlərinin çox vaxt onun maddi vəziyyətinə, eləcə də uşaqların yaşına (böyük və ya kiçik olması), cinsinə görə araşdırırlar. Müəllimlərin hətta özünəməxsus hallarda (məsələn, şagirdin valideynlərindən hər hansı biri vəfat etdikdə və boşandıqda) belə çox vaxt səmərəli pedaqoji üsul və vəsaitlərdən istifadə etməmələri də, ilk növbədə, məhz bununla izah olunmalıdır.

Neqativ demoqrafik təsirlərin islah olunub aradan qaldırılması sahəsində Gəncə şəhəri 8 sayı məktəbin iş təcrübəsi diqqəti daha çox cəlb edir. Həmin məktəbdə Vətən müharibəsinin sosial-iqtisadi nəticələri, şəhid və qazilərimizin mövcud ailə vəziyyətləri, həmçinin müxtəlif demoqrafik proseslərin - doğum, ölüm, boşanma, təkrar nigah, miqrasiaya və s.-nin pedaqoji nəticələri daha ətraflı öyrənilir, təlim-tərbiyə prosesində müxtəlif yollarla nəzərə alınır. Məktəbin müəllimləri, xüsusən də ibtidai sinif müəllimləri (məsələn, Aynur müəllimə) ailələrlə yaxından əlaqə saxlayır, kiçikyaşlı uşaqlarla məqsədyönlü fərdi iş aparır, şagirdlərin müsbət keyfiyyətlərinə istinad edir, onlara kollektiv vasitəsilə təsir göstərir, şagird özünüidarə orqanları ilə birlikdə uşaqların yaxşı oxuması üçün əlverişli şərait yaratmağa çalışırlar. Onlar şagirdlərin gün rejimi ilə yaxından maraqlanır, uşaq evdə nəzarətsiz qaldıqda onları ictimai işlərə cəlb edir, əlaçı şagirdlərə təhkim edir, əlavə məşğələlərə, dərnək və klublara cəlb edirlər.

Bu tədbirlər mahiyyətcə iki məqsədə yönəlmişdir. Məktəblərdə, bir tərəfdən, şagirdlərin təlimdə geri qalması hallarının qarşısını almaq üçün müxtəlif tədbirlər müəyyən edilib həyata keçirilir. Digər tərəfdən, valideyn nəzarətinin zəifləməsi və ya öz təsirini itirməsi şəraitində şagirdin təlim fəaliyyətinin səmərəsinin artırılmasına xüsusi diqqət yetirilir. Müəllimlər ailələrlə müxtəlif formalarda iş apararkən məhz bu cəhətə daha çox fikir verirlər. Onlar valideynlərə uşağın gün rejimini düz təşkil etməyin əhəmiyyətini aydınlaşdırır, onlara bu sahədə faydalı məsləhətlər verir, uşağın asudə vaxtının təşkilində məktəbin rolunu artırmaq məqsədilə onları əlavə məşğələlərə və dərnəklərə cəlb edirlər.

Nəzərdən keçirdiyimiz üsul, priyom və vasitələrdən hər biri özünəməxsus xüsusiyyətlərlə seçilir. Onlar pedaqoji cəhətdən öz-özlüyündə böyük əhəmiyyətə malikdir və məktəb təcrübəsində uğurla istifadə oluna bilər.

Lakin regionun bir sıra ümumtəhsil məktəblərinin iş təcrübəsinin təhlili göstərir ki, müəllimlər neqativ demoqrafik təsirləri aradan qaldırmaq məqsədi ilə hətta öz-özlüyündə səmərəli olan üsul, priyom və vasitələrdən istifadə etsələr də, çox vaxt istədiklərinə nail ola bilmirlər. Onlar xüsusilə küçə qruplarının ("küçə uşaqları"nın) şagirdlərə göstərdikləri neqativ təsiri neytrallaşdırmaqda çətinlik çəkirlər. Şagird əlavə məşğələlərə sadəcə olaraq gəlmir. Müəllimlər, sinif rəhbəri danlasa da, hədələsə də o, "öz bildiyindən əl çəkmir", nəinki əlavə məşğələ-

yə, çox vaxt dərsə belə gəlmir. Sinif rəhbəri, müəllimlər belə hallarda şagirdlərlə daha əsaslı şəkildə məqsədyönlü iş aparmaq əvəzinə, asanlıqla ruhdan düşürlər, işdən soyuyurlar. Şagird müxtəlif yollarla məktəbə müqavimət göstərdikdə onu "çətin uşaq" sayır və inzibati təşkilatların köməyi ilə yenidən tərbiyə etməyə çalışırlar.

Şagird, görəsən, əlavə məşğələlərə nə üçün gəlmir? İlk növbədə, ona görə ki, bu məşğələlər ənənəvi üsullarla təşkil olunur. Bundan başqa, məşğələlər şagird üçün şəxsi məna kəsb etmədiyinə görə onun asudə vaxtının təşkilində epizodik yer tutur. Halbuki məktəb şagirdləri asudə vaxtını ancaq sistemli şəkildə təşkil etdikdə, küçə qruplarının neqativ təsirlərini məqsədyönlü şəkildə neytrallaşdıra bilər.

Neqativ demoqrafik təsirlərin neytrallaşdırılması və islah olunması yollarının öyrənilməməsi, tərbiyə işinin məzmunu, xüsusiyyətləri və sisteminin bu baxımdan elmi araşdırmalar əsasında müəyyənləşdirilməməsi məktəb təcrübəsində köklü nöqsanların əmələ gəlməsi ilə nəticələnir.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2016.
2. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Monoqrafiya. Bakı: Elm və təhsil, 1996.
3. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya. Dərslik. Bakı: ADPU-nun nəşriyyatı, 2010.
4. Əliyev, R.İ. Şəxsiyyət psixologiyası . Bakı: ADPU-nun nəşriyyatı, 2010.

Л.Г.Багирова

Социо-психологический фактор влияющий воспитания

Резюме

В статье исследованы факторы, нарушающие целостность семьи, а также выявлены причины появления неполных семей. Далее изучены уровень влияния этих факторов на учебную деятельность учащихся, определены пути их устранения. Данная статья имеет значение в практике современного преподавания и образования в школьном и семейном воспитании.

L.H.Bagirova

Socio-psychological factors influencing to upbringing

Summary

In article have been revealed the factors, disturbed the completeness of the modern families, also causes of formation of incomplete families. Learned the levels of influence of these factors to the education activities of pupils and defined the abilities of their elimination. This article is very useful for teachers- tutors, chives of schools, also for fusiliers.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 14.04.2021

Ü.B.BAĞIROVA
e-mail: bagirovaulker98@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MÜASİR DÖVRDƏ GƏNCLƏRİN HƏRBİ-VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ

Açar sözlər: *hərbi-vətənpərvərlik tərbiyəsi, təlim, milli ordu, milli qəhrəman, xain düşmən.*
Ключевые слова: *военно-потриотического воспитание, обучение, национальное армия, героичества, враг.*
Key words: *extra-curricular activities, military knowledge, the parabolic trajectory, the knowledge of physics, fire preparation.*

Xalqın tarixi ilə bilavasitə bağlı olan, çox əsrlik praktik fəaliyyətdə, yaradıcılıq prosesində təfəkkür və təxəyyülün məhsulu kimi meydana gəlmiş, ictimai şüuru daha da inkişaf etmiş nəsillərin bədii-estetik zövqünü oxşayan, etnopsixologiya və etnopedaqogikaya, etnoqrafiya və dünya duyumuna dair zəngin informasiya yaşadan maddi və mənəvi milli dəyərlər təbii, sabit və əbədi tərbiyəvi təsir gücünə, həmişə aktual və ideya məzmununa malikdir.

1991-ci ilin oktyabrında Azərbaycan Respublikasının Ali Soveti Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Bu sənədin giriş hissəsində deyilir: "Azərbaycan 1806-1808-ci illərdə və 1920-ci il aprelin 27-28-də Rusiya tərəfindən işğal edilmiş və onun müstəqilliyinə son qoyulmuşdur. Azərbaycan əraziləri XX əsrdə bir neçə dəfə xarici dövlətlərin təcavüzünə məruz qalmışdır. 1920-ci ilin noyabrında Azərbaycan əraziləri olan Zəngəzur və Göyçə mahalları Rusiya Sovet hökümətinin XI ordusu tərəfindən Ermənistana verilərək, Ermənistan Respublikası yaradılmışdır. 1923-cü ildə Azərbaycan ərazisi Qarabağın dağlıq hissəsində ermənilər üçün Dağlıq Qarabağ muxtar vilayəti yaradıldı. Bütün bu işğallar dünya azərbaycanlılarının birliyinə və həmrəyliyinə zərbə olmuşdur. Bununla belə müstəqil Azərbaycan dövlətinin mövcudluğu Dünyada olan 50 milyon azərbaycanlı üçün ata yurdudur, Vətəndir.

Azərbaycandan kənarda 70-ə qədər ölkədə toplu şəkildə yaşayan azərbaycanlıların Azərbaycan adlı Ümumi Vətənlə birlik və həmrəylik hərəkatı bütün dövrlər üçün xüsusi əhəmiyyət kəsb etmişdir. Prezident Heydər Əliyev demişdir: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar... heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı, azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şerlərimiz, mahnılarımız, xalqımıza mənsub olan adət-ənənələrimizdir".

Dünya Azərbaycanlılarının Azərbaycandan kənarda yaşayan hissəsini şərti olaraq iki hissəyə bölmək olar: 1) Tarixən Azərbaycanın olmuş və indi də Azərbaycan ilə həmsərhəd ərazilərdə toplu yaşayan azərbaycanlılar (İran dövlətinin tərkibində olan Cənubi Azərbaycan, Rusiyanın tərkibində olan Dərbənd, Gürcüstan dövlətinin tərkibində olan Borçalı, Qarayazı, Başkeçid, Qaraçöp və digər bölgələr), 2) Dünyanın təxminən 65 dövlətində toplu şəkildə yaşayan azərbaycanlı icmaları və cəmiyyətləri.

Cənubi Azərbaycanda, Qərbi Gürcüstanda və Dərbənd ərazisində əsrlər boyu yaşamış azərbaycanlıların öz dillərini və mədəniyyətlərini qoruyub saxlamaq üçün mövcud tarixi və coğrafi şəraitin olması nəticəsində Azərbaycanla mədəni əlaqələr indi də davam edir.

Digər ölkələrdə yaşayan Azərbaycan diasporu içərisində ən böyük icmalar Türkiyədədir. Hazırda Türkiyədə əslən Azərbaycanlı olan 3 milyona qədər vətəndaş yaşayır. Dil birliyi, adət və ənənələrdə, mədəni irsdə təkrar olunan və ya çox oxşar olan mədəni və mənəvi

dəyərlər Türkiyədə yaşayan azərbaycanlı icmaları ilə mədəni əlaqələrin geniş və əsaslı olaraq inkişafı üçün hərtərəfli imkanlar yaratmışdır.

Sovet dövlətinin siyasi qapalılıq şəraitindən fərqli olaraq hazırda Dünyanın müxtəlif ölkələrində məskunlaşmış Azərbaycan diasporu ilə əlaqələrin genişlənməsi üçün imkanlar vardır.

Dahi öndərimiz Heyder Əliyevin beynəlxalq miqyasda şəxsi hörməti və böyük diplomatik səyləri nəticəsində Azərbaycan həqiqətləri bütün ölkələrə geniş yayılmağa başlamışdır. Bu işdə diasporumuzun da fəaliyyətində canlanma hiss olunur. Hazırda dünya ölkələrində azərbaycanlıların 100-dən çox ictimai, milli-mədəni cəmiyyət və təşkilatları mövcuddur və fəaliyyət göstərirlər.

Dünya azərbaycanlıların Vətəni olan Azərbaycan xarici ölkələrdə yaşayan öz soydaşları ilə əlaqələrini genişləndirir və möhkəmləndirirlər. Bu əlaqələrin ilk növbədə Cənubi Azərbaycanda yaşayan soydaşlarımızla daha geniş miqyasda aparılması üçün indi şərait (Sovet dövrünə nisbətən) əlverişlidir.

İranın bəzi şovinist dairələrinin müqavimətinə baxmayaraq Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın Azərbaycanda yaşayan qardaşları ilə mehriban münasibətləri heç bir zaman qırılmamışdır.

Cənubi Azərbaycanda doğulmuş və burada da yazıb yaratmış şair və yazıçılar, alim və siyasi xadimlər Azərbaycanı (Şimal və Cənub birlikdə) həmişə öz Vətəni hesab etmişlər və edirlər. Cənubi Azərbaycan şairi Məmmədəli Məhzun "Azərbaycanlı qardaşlarıma" adlı şeri, yenə də cənubi Azərbaycanın digər şairi, "Həqiqət sərhəd tanımaz" deyən Səhəndin "Azərbaycanım" şeri buna nümunədir.

Dünya azərbaycanlılarının Vətəni olan Azərbaycanda dövlət dili olan Azərbaycan dilinin inkişafına xüsusi qayğı göstərilir və onun yazısı latın əlifbasına keçirilmişdir. Qərbi Gürcüstanda və Dərbənddə yaşayan azərbaycanlı məktəblilər üçün Azərbaycan dilində dərsliklərin Azərbaycandan göndərilməsinə xüsusi qayğı göstərilir.

2001-ci ilin noyabrında Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayının qərarında xüsusi olaraq göstərilir: "Nəzərə alınsın ki, müstəqil Azərbaycan Respublikası dünyanın harasında məskunlaşmasından asılı olmayaraq, bütün azərbaycanlıların mənəvi dayağı, milli-mədəni maraqlarının ifadəçisidir. Azərbaycanın ərazi bütövlüyünün qorunması, müstəqil respublikaya hər hansı formada daxildən yaxud xaricdən göstərilən təcavüzün qarşısının alınması, onun demokratik dünyəvi, hüquqi, milli bir dövlət olaraq inkişaf edib möhkəmlənməsi yalnız respublika vətəndaşlarının deyil, habelə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın, hər bir azərbaycanlının müqəddəs işidir".

Milli əxlaqımızın mühüm hissəsini təşkil edən islami dəyərlərə hörmət milli vətənpərvərlik tərbiyəsinin uğurlarında xüsusi rolu olan bir amildir. Azərbaycan xalqının həyatında islami dəyərlərin əhəmiyyətini nəzərdə tutaraq Heydər Əliyev demişdir: "Bizdə tolerantlıq, xalqımızın dini dözümlülüyü yüksək səviyyədədir".

Milli dəyərlərimizə və ilk növbədə Ana dilimizə hörmət və sədaqət milli hərbi-vətənpərvərlik ruhunda tərbiyənin mühüm tərkib hissəsidir.

Qədim tarixə malik olan Azərbaycan dili dünyanın ən zərif və incə dillərindən biridir. İstambul Universitetinin dil və ədəbiyyat müəllimi Betul Parlaq (türk, azərbaycan, italyan və digər bir neçə dildə sərbəst danışır) dilimiz haqqında demişdir: "Azərbaycan dili çağlayan bir bulaqdır. Nə qədər danışırsan-danış, düzümü, şirinliyi, ədəbiliyi öz-özünə süzülüb gəlir. Bu dili başa düşənlər, incəliyini duyanlar ona vurulmaya bilməzlər".

Azərbaycan xalqının milli mənəvi dəyərləri sırasında ədəbiyyat və xüsusilə incəsənət mühüm yer tutur. İncəsənətin millətin qədimdən gələn milli kökləri üzərində inkişafı ümumibəşəri qanunauyğunluqdur.

Milli mənsubiyyət hər bir insan üçün qürur mənbəyidir. Dünya Azərbaycanlılarının I qurultayındakı çıxışında Heydər Əliyev demişdir: "İnsan hansı ölkədə yaşamasından asılı

olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın... Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır...

Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir.

Ədəbiyyat

1. Əliyev H.Ə. Müstəqil Azərbaycanın gələcəyi gənclərdir. Bakı: Azərbaycan, 1996, 143 s.
2. Tağıyev.Ş.T. Fənlərarası əlaqə və gənclərin çağırışaqədərki hərbi hazırlığı. Monoqrafiya, Bakı, 2012, 280 s.
3. Əsgərov İ.B. Hərbi – vətənpərvərlik tərbiyəsinin əsasları. Bakı, Az. İMU-nun mətbəəsi, 2000, s.38-47.

У.Б.Багирова

Основные направления военно-патриотического воспитания молодёжи в современно этапе

Резюме

В статье анализируется содержание учебных предметов по физике, математике, истории и географии. А так же исследуются возможности усовершенствования военных знаний на этих занятиях, а также выясняется взаимосвязь физико-математических знаний со знаниями военной подготовки. Выясняется что, снаряд и пуля движущаяся по параболической траектории эффективно падает в мишень. Статья полезна в работе военных руководителей, исследователей, учителей физики и математики.

U.B.Bagirova

Military-patriotism of the young in the modern time basic directions of upbringing

Summary

The article analyzes the content of extracurricular activities on the physical and mathematical knowledge. We investigate the possibility of the improvement of military knowledge on these lessons, as well as the relationship turns physical and mathematical knowledge with knowledge of fire training. It turns out that the projectile and the bullet moving along a parabolic trajectory falls into the target. Be useful in the work of military leaders, researchers, teachers of physics and mathematics.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 10.04.2021

L.M.CƏFƏROVA
e-mail: lemanceferova1999@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MƏKTƏBLİ GƏNCLƏRİN İCTİMAİ FƏALLIQ TƏRBİYƏSİ

Açar sözlər: *ictimai fəallıq, motivlər, ictimai borc, vərdiş, yaradıcılıq, təşkilatçılıq, milli vətənpərvərlik.*
Ключевые слова: *общетвенная активность, мотивы, общественная обязанность, привычка, деятелъность, организаторство, национальный патриотизм.*
Key words: *social aktivity, motives, social duty, nabit, creativity, orqanizational, national patriotism.*

Respublikamızda demokratiyanın inkişafı ilə əlaqədar olaraq ümumtəhsil məktəblərinin fəaliyyətlərinin yeni dövrü başlamışdır və Azərbaycan Respublikasının "Təhsil islahatı"nın icrasının həyata keçirilməsi bizim məktəb sahəsindəki qüvvələrimizdən maksimum istifadə etməyi tələb edir. Bu bir həqiqətdir ki, insanın ictimal fəallığının yüksəldilməsi məktəb özünüidarəsinin düzgün tənzimlənməsindən çox asılıdır. Aparılan müşahidələr göstərir ki, məktəblərimizdə demokratik əsaslarla keçirilən şagird komitələrinin seçkiləri və onların fəaliyyətinə pedaqoji istiqamət verilməsi, müstəqilliyinə və təşəbbüskarlığına diqqətlə yanaşılması şagirdlərdə bir sıra müsbət keyfiyyətlər yaratmışdır ki, bu da gələcək ictimaiyyətçi nəslin yaranması deməkdir.

İctimai fəallıq nədir? İctimai fəallıq şəxsiyyətin mürəkkəb əxlaqi-iradi keyfiyyətidir və insana xas olan təbii haldır. Bunun arxasında maraq, məsuliyyət, tələbkarlıq, təşəbbüskarlıq, çalışqanlıq, ictimai işlərdə başqalarına (yoldaşlarına) yardım etmək, təşkilatçılıq bacarığı və s. durur. İctimai fəallıq nəticəsində şəxsiyyət ictimai həyata fəal şəkildə təsir edir, ictimai inkişafda müstəsna rol oynayır.

Heç də təsadüfi deyildir ki, bu günkü Azərbaycanın müstəqilliyinin bərpa olunmasında ictimai fəallığın rolu az olmamışdır.

Hər bir şagird, tələbə sabahın mütəxəssisi, böyük fədakarlıq göstərən şəxsiyyətdir. Fikrimizcə, hər bir gənc ixtisas öyrənməyindən asılı olmayaraq bütünlüklə tərbiyə sahələrini mənimsəməli, həyatda fəal olmalıdır. Axı, bu bir sirr deyildir ki, bu günkü gənc sabahın yaxşı ixtisaslı mütəxəssisi olmaqla yanaşı, dövlət işlərində icraçı vəzifələrinə irəli çəkilirlər. Bu ictimai fəallıq nəticəsində baş verir ki, bunun əsası hələ məktəb partası arxasında şagird özünü idarə orqanlarında qoyulur və bu iş ali məktəblərdə inkişaf etdirilir. Bu inkişaf tələbə özünü idarə orqanları, tələbə elmi cəmiyyəti və s. vasitəsi ilə həyata keçirilir. Lakin pedaqoji təcrübə zamanı əsasən orta və ali məktəblərdə şagird və tələbələrə ictimai fəallıq üçün imkan verilir ki, onlar fəaliyyət göstərsinlər. Axı, bildiyimiz kimi, fərd ona verilən imkanlarda özünü göstərərək ictimai fəallığı üzə çıxarır. Bu zaman onlarla ictimai fəallığın fəaliyyət motivi əsasında iş aparılmalıdır. Bu fəaliyyət, axı, onların yaşlarının və dünya görüşlərinin artdığı vaxta təsadüf edir.

Şəxsiyyətin ictimai fəallığı onun seçdiyi peşədə, gördüyü hər hansı bir işdə cəmiyyətə yararlı olmaqdan ötrü ümumiliyin xeyrinə daha artıq əmək sərf etməkdə özünü göstərir. Həm də bu zaman şəxsiyyət verdiyi faydanı öz şəxsi mənafeyi çərçivəsində məhdudlaşdırmır. Həmin faydanın milyonlara məxsus olduğunu düşünür və hərəkət edir. Bu zaman isə şəxsiyyətin hansı peşədə, hansı vəzifədə çalışması əsas rol oynayır. Başlıcası isə kolllektiv və cəmiyyət üçün faydalı olmağı dərk etmək və əməli fəaliyyət göstərməkdir. Onun gördüyü işin ictimai faydalı xarakter daşımasındadır. İctimai fəallığı hər şeydən əvvəl, onların özlərini kolektivin üzvü kimi hiss etməsində, kollektivin və cəmiyyətin rifahı naminə ictimai fəaliyyətə qoşulmasında, ictimai tapşırıqların yerinə yetirilməsində təşəbbüskarlığı və fəaliyyətin təzahüründə, kollektivin və cəmiyyətin qarşısında duran bir sıra vəzifələrin yerinə yetirilməsi məq-

sədilə təşkilatçılıq fəaliyyəti bacarığını və tələbatına malik olmasında özünü göstərir. Deməli, onların öz bilik, bacarıq və qüvvələrinin, faydalı vəzifələrin yerinə yetirilməsilə vərdişlər yaranır və tələbata çevrilir. Lakin bu müsbət vərdişlər inkişaf etdirilməli, yəni təşkilatçılıq fəaliyyətilə birləşməlidir ki, bu dolğun şəkil alsın. Axı, idraki fəaliyyət, ictimai fəallıq olmadan ictimai borcun yerinə yetirilməsi təlimə müsbət münasibət səviyyəsinə də yüksəlməz. Hər bir dövlətin özünün ictimai fəaliyyət dairəsi vardır. Kimi yüksək rütbəli şəxslərin, kimi dövlətin, kimisə xalq kütləsinin xeyrinə işləyir. Müəllimlər bu məsələni bir problem məsələ kimi dərs prosesində, sinifdənxaric və məktəbdənkənar tədbirlərin icrası vaxtında nəzərə almalıdırlar. İstiqaməti olmadan fəallıq dövlət quruluşuna (və ya cəmiyyətə) zidd fəaliyyətə çevrilə bilər. İctimai fəallığın tərbiyəsi zamanı münasibətlərin sosial şərtlərinin, konkret şəraitin nəzərə alınması lazımdır. Çünki insanların ictimai fəallığı məhz bu şərtlər və şərait daxilində meydana çıxır və yaxud çıxa bilər.

İctimai münasibətlər, konkret tarixi şərait, iqtisadi amillər ictimai fəallığın müvafiq növlərini müəyyən edir. Lakin ətraf mühitin predmetləri, təzahürləri ondan əmələ gələnlər, hər bir şəxs tərəfindən müxtəlif şəkildə qavranılır və həyata keçirilir: eyni predmet və təzahürlər bəzi adamlar tərəfindən faydalı kimi qəbul olunarsa, bir başqaları onlara əhəmiyyətsiz, digər qism isə hətta ziyanlı bir şey kimi baxa bilər. Məsələn, bəziləri Azərbaycanda 1988-ci ilin noyabr-dekabr aylarında baş verən nümayişi xalq hərəkatı kimi qiymətləndirdisə də, bəziləri isə buna əhəmiyyətsiz – ekstremizm kimi, bir başqaları isə mənasız bir proses kimi baxırdılar . Buna 1990-cı ilin 20 yanvar faciəsini də aid etmək olar. Əslində əsas söhbət kamil formalaşdırılmış ictimai fəallıqdan gedir.

İnsanın, insan birliyinin, hər hansı predmet və yaxud təzahürün mənası sərvət anlayışı ilə müəyyən olunur. Cəmiyyət üçün onun inkişafı və möhkəmlənməsi üçün məna ifadə edən bir şey sosial sərvətlərin sisteminə daxildir. Belə bir kəlamı şəxsiyyət haqqında da demək olar. Onun mövcudluğu, inkişafı və təkmilləşməsi üçün vacib sayılan hər şey sosial sərvətlərə daxildir.

İctimai fəallıq müstəqil sərvət kimi özünü göstərir: o, şəxsiyyətin inkişafına kömək edir, mənəvi cəhətdən onu zənginləşdirir, bu və ya digər dərəcədə ona yaradıcı, əxlaqi məzmun gətirir. Beləliklə, göstərə bilərik ki, ictimai fəallıq şəxsiyyətin ayrılmaz keyfiyyəti, ictimai iş isə daxili tələbatıdır.

İnsanı fəaliyyətə maddi tələbatla yanaşı, həm də ictimai və mənəvi tələbatlar, yəni maraqlar, ideallar, hisslər, duyğular və s. təhrik edir. İnsanın qarşılıqlı əlaqələri əmək prosesində yarandığı və inkişaf edib təkmilləşdiyi üçün, fəallıq heç də yalnız şəxsi tələblər və maraqlarla məhdudlaşıb qalmır, həm də ictimai tələblər yə maraqlarla müəyyən olunur.

Hər bir şəxs böyüdükcə, müəyyən yaş həddinə çatdıqca, yəni onun şəxsiyyəti formalaşdıqca, onun maraq dairəsi, dünyagörüşü genişlənir və eyni zamanda, həm də fəallığı artır. Bu zaman mühitin də ona təsiri özünü göstərir.

Tələblər də daimi deyil. Onlar da fəaliyyətin təsiri ilə dəyişir. Ona görə də tələbatın şəxsiyyətin fəallığına və inkişafına təsiri həmin bu tələbata, onun şəxsiyyətə təsirinə münasibətdən asılıdır. İlk növbədə, hansı tələbatdan qane olacağı və yaxud olmayacağı isə şəxsiyyətdən asılıdır. Deməli, müəllimlər və hər bir tərbiyəçi bu məsələyə münasibətdə tələbatların rolunu və vəzifələrini dərindən dərk etməlidirlər. Bu da özünütərbiyədə mühüm cəhətdir. Həmişə zəruri tələbatlar fəaliyyətin motivlərinə çevrilir.

Xatırladaq ki, şagirdlərin və tələbələrin (və ya hər bir adamın) ictimai işdə iştirakı hələ onların ictimai fəallığı demək deyildir. Yalnız ictimai fəallıq onlarda daxili tələbata çevrildiyi və onlar şüurlu surətdə fəaliyyətə qoşulduqları təqdirdə real olur.

Şəxsiyyətin ictimai fəallığının mürəkkəb quruluşunun ayrılmaz komponenti onun iradəsinin xassələridir. Buraya məqsədyönlülük, qətiyyət, təkidlilik, sözü bütöv, intizamlılıq, prinsipiallıq, müstəqillik, səbrli olmaq və s. aiddir.

İctimai fəallıq şəxsiyyətin əxlaqi ləyaqəti, insanın ictimai dəyərlərinin meyarlarından biri, onun vətəndaşlıq yekdilliyi kimi qiymətləndirilir. Bunlar öz növbəsində vətənpərvərlik hisslərini qüvvətləndirən, genişləndirən fəaliyyətdir.

Ədəbiyyat

1. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, OKA Ofset, 2009.
2. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı, Mütərcim, 2016.
3. Qaralov Z.İ. Tərbiyə. 3 cildlik. Bakı, 2012.
4. Sadıqov F.B. Pedaqogika. Bakı, Təhsil, 2014.

Л.М.Джафарова

Общественная активность школьников

Резюме

В статье изучены мотивы общественной деятельности студентов высших педагогических учебных заведений и проблема их зависимости от характера деятельности. Определено, что главным условием для общественной активности студентов является ведущий мотив их деятельности. При целенаправленном мотиве активность студентов более продуктивна.

Статья наряду с обогащением педагогической теории также имеет ценную педагогическую значимость. Статьей могут пользоваться контингент студентов и учителей высших учебных заведений.

L.M.Jafarova

About motives of public activies of students and its influence to the character of ability field

Summary

In article are studied the problem of motives of public activities of students of the pedagogical education establishments, also its influence to the character of their ability field. Has been determined, that the basic feature of public activities of activities of students is the main motive. If the motive is clear, the public activities is more useful and qualities.

Article is necessary not only, as theoretical source, but also has the practical importance. It is useful for teachers and students of the higher education establishments.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 08.04.2021

T.M.ƏHMƏDOVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ MÜRƏKKƏB CÜMLƏLƏRDƏ BUDAQ CÜMLƏLƏRİN MÜQAYİSƏLİ ÖYRƏNİLMƏSİNİN TƏDRİSİ METODİKASI
(kəmiyyət budaq cümləsi)

Açar sözlər: *tərbiyə, təhsil, dərs, tədris, keyfiyyət.*
Ключевые слова: *воспитание, образование, урок, преподавание, качество.*
Key words: *upbringing, education, lesson, teaching, quality.*

Tabeli mürəkkəb cümlə mövzusunun tədrisinə şagirdlərin cümlədə sözlərin əlaqəsi haqqında öyrəndiklərini xatırlatmaqla başlamaq olar. Çünki həmin biliklər tabeli mürəkkəb cümlənin tərkib hissələri arasındakı tabelilik əlaqəsini şüurlu surətdə mənimsəməyə imkan yaradır. Bu məqsədlə bir-iki nümunə üzərində şagirdlərin müşahidəsini təşkil etmək kifayətdir. Məsələn, "*Ata uşaqları muzeyə apardı"* cümləsində sözlər arasındakı tabelilik əlaqəsini aşağıdakı şəkildə nümayiş etdirmək olar:

1) Ata apardı. Ata_____ nə etdi? _____ apardı
2) Uşaqları apardı. Apardı____ kimi? _____ uşaqları
3) Muzeyə apardı. Apardı ___ hara? _____ muzeyə

Şagirdlər bilməlidirlər ki, bu birləşmələrdə suallara cavab olan sözlər asılı, o biriləri isə müstəqil sözlərdir. Deməli, asılı sözlər müstəqil sözləri izah etdikləri üçün suallar tabeedici sözlərdən tabe sözlərə verilmişdir.

Müəllim şagirdlərdəki bu ehtiyat biliyi nəzərə alıb izah edir ki, tabelilik əlaqəsi təkcə sözlər arasında deyil, cümlələr arasında da ola bilər. Bundan sonra şagirdlərə cümlələr təqdim olunur.

Şagirdlər əvvəlcə cümlələri ifadəli şəkildə oxuyur, onları əmələ gətirən sadə cümlələri müəyyənləşdirirlər. Sonra müəllimin təklifi ilə məzmununda yarımçıq olan sadə cümlələrdən suallar verirlər.

Beləliklə şagirdlər asılı və müstəqil cümlələri tapırlar. Müəllim asılı cümlələrin budaq, müstəqil cümlələrin baş cümlə, onların iştirakı ilə düzələn cümlələrin isə tabeli mürəkkəb cümlə olduğunu qeyd edir.

Şagirdlər öyrənirlər ki, tabeli mürəkkəb cümlələrdə baş cümlə ilə budaq cümlə tabelilik əlaqəsi əsasında birləşir. Budaq cümlə baş cümləni ya bütövlükdə, ya da onun bu və ya digər üzvünü izah edir. Bir məsələni də unutmaq olmaz ki, budaq cümlənin baş cümləyə münasibəti müxtəlifdir. Belə ki, baş cümlə qrammatik cəhətdən sərbəstdir və budaq cümləni özünə tabe edir.

Şagirdlərə mürəkkəb cümlədə olan sadə cümlələr arasındakı iki yolla əmələ gələn bağlılığı (tabesizlik və tabeliliyi) yazı lövhəsində və ya plakatlarda misallarla göstərməli və onlara bu sahədə bir sıra çalışmalar verməlidir.

Bu məqsədlə sinfin diqqətini, əvvələn birləşən cümlələrin məzmununa və onların arasında olan qarşılıqlı əlaqəyə, ikinci isə həmin məzmunun ifadə edildiyi formalara və onların mənasına cəlb etməlidir.

Belə tabeli cümlələri əmələ gətirən sadə cümlələr bir-birinə ya bağlayıcı sözlər vasitəsi ilə, ya da bağlayıcısız bağlanır. Müəllim sinfə müraciət edərək deyir ki, "Siz tabesiz mürəkkəb cümlədə işlənən hansı bağlayıcıları tanıyırsınız? Bu bağlayıcılar vasitəsi ilə bir-iki tabesiz mürəkkəb cümlə, bir-iki də bağlayıcısız tabesiz mürəkkəb cümlə düzəldin".

Mürəkkəb cümlələri keçərkən aşağıdakı ardıcıllıq gözlənilməlidir:

1) mürəkkəb cümlənin dildəki əhəmiyyətini və rolunu təhlil etmək;

2) bu cümlələrin quruluşu ilə şagirdləri tanış etmək;

3) qabaqcadan göstərilmiş mətnlərdə mürəkkəb cümlələri tapmaq və onların növünü (tabesiz və ya tabeli mürəkkəb cümlə olduğunu) müəyyən etmək;

4) sintaktik təhlil aparmaq;

5) bunlarla birlikdə, danışıq dili və ədəbiyyatdan (elmi-kütləvi, bədii və s. əsərlərdən) mürəkkəb cümlənin növlərini öyrənməyə aid müstəqil surətdə misallar ayırmaq;

6) öyrənilən mürəkkəb cümlə növünü işlətməklə (şəkil üzrə, müəllimin verdiyi və ya müstəqil olaraq şagirdin seçdiyi mövzu üzrə ifadə, inşa yazmaqla) yaradıcı işlər aparmaq.

Bu məqsədlə müəllim elə mövzular ayırmalıdır ki, bunların məzmunu şagirdlərin həmin cümlə növlərini işlətməyə doğru yönəltsin və onlara düzgün istiqamət verə bilsin.

Bağlayıcısız tabesiz mürəkkəb cümlələri öyrətməyə başlamazdan əvvəl, şagirdləri mürəkkəb cümləni təşkil edən sadə cümlələr arasındakı tabesizlik və tabelilik bağlılığı ilə tanış etmək lazımdır. Eyni zamanda şagirdlərə belə cümlələrə aid müstəqil surətdə misallar seçməyi tapşırmaq da çox faydalıdır.

Müəllim tabeli mürəkkəb cümlələri keçərkən, şagirdlərə anlatmalıdır ki, bu cümlələri əmələ gətirən cümlələrdən biri müstəqil, o biri, yaxud o biriləri qeyri-müstəqil olur.

Sonra şagirdlərə baş və budaq cümlənin nə olduğu, onların əlamətləri izah olunmalıdır. Bundan sonra tabeli mürəkkəb cümlənin tərkibinə daxil olan budaq cümlələrin müxtəlif vəzifə daşıması, bunlardan bəzisinin baş cümlələri izah etdiyini, bəzisinin də baş cümlədəki işin şərtini və bir fikrin başqa bir fikrə qarşı qoyulduğunu misallarla şagirdlərə göstərməlidir. Nəhayət, bu cəhətdən budaq cümlələrin: 1) mübtəda, 2) xəbər, 3) tamamlıq, 4) təyin, 5) zərflik (tərzi-hərəkət, zaman, yer, kəmiyyət, səbəb və məqsəd budaq cümlələri), 6) şərt, 7) qarşılıq-güzəşt budaq cümlələrinə ayrıldığı ilə və bu növlərin ayrılıqda xüsusiyyətləri ilə şagirdləri tanış etməlidir.

Budaq cümlələrin növünü öyrədərkən, ifadə etdikləri sözlərdə onların məna və formalarını müəyyən etməli və hər dəfə bu cümlələrdə bağlayıcı sözlərin əhəmiyyəti aşkara çıxarılmalıdır.

Şagirdlər müəllimin tələbi əsasında əvvəlki siniflərdə öyrəndikləri bağlayıcıları yada salır, onların köməyi ilə cümlələr düzəldirlər. Müəllim şagirdlərin düzəltdikləri cümlələr üzərində təhlil apararaq, tabeli və tabesiz bağlılığı şərh edir.

Nəticədə şagirdlər mürəkkəb cümlə haqqında, ibtidai siniflərdəkinə nisbətən geniş məlumat alırlar. Müəllim onlara bir sıra sadə cümlələr verir və tapşırır ki, həmin cümlələrdən uyğun gələnini birləşdirib mürəkkəb cümlə düzəltsinlər. Cümlələr düzəldilir, oxunur və yazılır. Bununla şagirdlər dərk edirlər ki, mürəkkəb cümləni əmələ gətirən sadə cümlələri xüsusi intonasiya ilə oxumaq olmaz, mürəkkəb cümlə daxilində hər iki sadə cümlənin bir ümumi intonasiyası olur. Məsələn:

1) *Relslər səsləndi, yer titrədi, qatar gurultu ilə stansiyaya çatdı.*

2) *O, yaxşı bilirdi ki, deputat xalqın elçisidir.*

3) *Rəşid bilirdi ki, atası qorxaqları sevmir* və s.

Tabeli mürəkkəb cümləni tədris edərkən onu bir daha sadə və eləcə də tabesiz mürəkkəb cümlə ilə müqayisə etdirmək, hər üçünün əsas əlamətlərini dəqiq xatırlatmaq, bundan sonra tabeli mürəkkəb cümlənin öyrədilməsinə başlamaq lazımdır. (5, s.275)

Məsələn, bu cəhətdən aşağıdakı misallara nəzər salaq:

1. Dəhlizin qapısı açılan kimi otağa bir nəfər daxil oldu.	*Dəhlizin qapısı açıldı və o saat otağa bir nəfər daxil oldu.*	*Elə ki, dəhlizin qapısı açıldı, o saat otağa bir nəfər daxil oldu.*
2. Kino qurtaranda hamı evə dağılmışdı.	*Kino qurtardı və hamı evə dağılışdı.*	*Kino təzəcə qurtarmışdı ki, hamı evə dağılışdı.*

Bu cümlələrdən birinci sütundakılar sadə, ikincidəkilər tabesiz, üçüncüdəkilər isə tabeli mürəkkəb cümlələrdir. Həmin cümlələrin ifadə etdikləri məzmun, təxminən, eyni olsa da, quruluşu (forması) müxtəlifdir. Ona görə də şagirdlər həm sadə, tabesiz və tabeli mürəkkəb cümlələrin oxşar və fərqli cəhətlərini, həm də eyni məzmunun müxtəlif quruluşa malik–sinonim cümlələrdə ifadə edilə bilməsinə aid vərdişlərə yiyələnir, mövzunu daha şüurlu şəkildə başa düşürlər.

Həmin cümlələr üzərində iş apardıqdan sonra şagirdləri tabeli mürəkkəb cümləni təşkil edən baş və budaq cümlə ilə tanış etmək, daha doğrusu *baş cümlə, budaq cümlə* anlayışlarını mənimsətmək lazımdır.

Müəllim budaq cümləsini şagirdlərə daha yaxşı mənimsətmək üçün, onları içərisində həmin cümlə növləri olan mətnlər üzərində işlətməlidir. Bundan başqa o, yenə də həmin məqsəd üçün şagirdlərə inşa yazılar verməli və burada sonra budaq cümləsindən müstəqil surətdə istifadə etməyi onlara tapşırmalıdır.

Mürəkkəb cümlələrin bir-birindən fərqini və bütün xüsusiyyətlərini şagirdlərə yaxşı anlatmaq üçün, müqayisələri mümkün dərəcədə tez-tez aparmalı və bu məqsədlə qrammatik təhlildən geniş istifadə edilməlidir.

Kəmiyyət budaq cümləsinin də öyrədilməsində zaman və yer budaq cümlələrinin tədrisində tədbiq olunan yollardan istifadə etmək mümkündür. Lakin aydındır ki, kəmiyyət budaq cümləsi özünəməxsus əlamətlərə malikdir. Belə ki, o, baş cümlədəki hal-hərəkətin miqdarını bildirir, nə qədər? sualına cavab olur; baş cümlədə işlənmiş **az**, **çox**, **tez**, **gec** kimi say və zərflərə aid ola bilir; məsələn, *Kəşfiyyatçının işi* ***nə qədər*** *ağır və qorxuludursa,* ***o qədər də*** *maraqlı və cazibədardır* (M.S.). *Ölkələr* ***nə qədər*** *sıx birləşsələr, tərksilaha* ***bir o qədər tez*** *nail olarlar*.

Nəticə etibarilə qeyd etmək lazımdır ki, Azərbaycan dilində əksər budaq cümlələr baş cümlədən vergüllə ayrılır. Yalnız xəbər və tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrin bəzilərində baş cümlə ilə budaq cümlə arasında iki nöqtə qoyulur.

Müəllim hər bir budaq cümləni tədris edərkən onları baş cümlədən ayıran durğu işarələri ilə əlaqədar işə də geniş yer verməlidir.

Kəmiyyət budaq cümlələri üç qrupa ayrılır. Bunlar baş cümləyə mənaca birləşdiyindən qruplaşdırılır:

1. Müqayisəli kəmiyyət budaq cümləsi;
2. Qarşılaşdılmalı kəmiyyət budaq cümləsi;
3. Şərtli kəmiyyət budaq cümləsi.

Aşağıdakı cümlələrə nəzər yetirək:

1. Dənizdəki balıq ac adamı **nə qədər** doydururs**a**, məhbuslara da bu ümid **o qədər** təsəlli verirdi. (M.Cəlil).

2.Dağlar **nə qədər** sərin idisə, aran **bir o qədər** isti idi. (M.İbrahimov)

Bu cümlələrdə baş cümlə ilə budaq cümlə müqayisəli şəkildə tərtib olunub.

Başqa cümlələrə baxaq:

1. Yaxşı ad çıxarmaq **nə qədər** çətindirsə, bu adı itirmək **o qədər** asandır. (H.Mehdi).

2. Teymurla Seymur özlərini **nə qədər** möhkəm saxlamışdılarsa, Cəvahir **bir o qədər** davamsız olmuşdu. (H.Seyidbəyli).

3. Qızların yanında özünü **nə qədər** sərbəst aparsa da, Şamxalla **o qədər** açıq danışa bilmirdi. (İ.Şıxlı)

Yuxarıdakı cümlələrdə məzmun etibarı ilə baş cümlə ilə budaq cümlə qarşılaşdırılmış formada verilir.

Növbəti cümlə nümunələrinə diqqət edək:

1. Bu xəbisləri nə **qədər** tez məhv etsək, dünya **bir o qədər** qazanacaqdır. (S.S.Axundov).

2. **Nə qədər** çox kitab oxusan, biliyin **bir o qədər** çox olar.

Bu cümlələrdə budaq cümlə baş cümləyə kəmiyyət nöqteyi-nəzərindən xidmət edir və onun hərəkətinin şərtini bildirir.

Aşağıdakı çalışmalar nümunə kimi Azərbaycan dili müəllimlərinə və pedaqoji fakültə tələbələrinə tövsiyyə oluna bilir.

Çalışma. Budaq cümlədə **nə qədər** bağlayıcı sözü, baş cümlədə müvafiq qarşılıq söz işlədərək kəmiyyət budaq cümləli tabeli mürəkkəb cümlələr düzəldin.

Çalışma. Aşağıdakı cümlələrin hansı kəmiyyət budaq cümləsi qrupuna aid olduğunu göstər.

1. Düşmənin qanını **nə qədər** içsən, mənim qanım **bir o qədər** də artacaqdır. (S.Rəhimov). 2. Abbas **nə qədər** yumşaq ürəkli və mehribandırsa, lazım gəldikdə, **bir o qədər** sərt və inadkardır. (İ.Şıxlı). 3. **Nə qədər** tez desəniz, **o qədər** tez məni nigarançılıqdan qurtarmış olarsınız. (M.İbrahimov). 4. Bir ana öz uşağının ayaq açmasına **nə qədər** sevinirsə, mən də bu çarxların hər dönüşünə **o qədər** sevinirdim. (C.Cabbarlı). 5. Torpağı **nə qədər** əzizləsən, **bir o qədər** çox pambıq götürərsən. (Ə.Vəliyev).

Çalışma. Verilmiş natamam cümlələri tamamlayın.

1. Nə qədər ki insanlar qaydalara riayət etmirlər, ...
2. Orxan nə qədər çalışsa da, ...
3. Ahıl insanlara nə qədər çox hörmət edərsən, ...
4. Millət nə qədər güclü olsa da, ...

Çalışma. Oxuyun, kəmiyyət budaq cümləli tabeli mürəkkəb cümlələri sadə cümləyə çevirib yazın.

1. *Heyvana nə qədər yem lazımdırsa, o qədər də veririk. Heyvana lazım olduğu qədər yem veririk.* 2. Bitkiyə nə qədər su lazımdırsa, o qədər də veririk. 3. Yazda nə qədər işləmişdiksə, payızda iki o qədər işləməli olduq. 4. Dünən nə qədər oxumalı olmuşdumsa, bu gün də bir o qədər oxumalı oldum.

Çalışma. Oxuyun, sadə cümlələri kəmiyyət budaq cümləli tabeli mürəkkəb cümlələrə çevirib yazın.

1. *Bu il keçən ilkindən iki qat artıq məhsul topladıq. Keçən il nə qədər məhsul toplamışdıqsa, bu il ondan iki qat artıq topladıq.* 2. O, bacardığı qədər işlədi. 3. O, ürəyi istədiyi qədər şer söylədi. 4. Səməd lazım olduğu qədər oxuyurdu.

Çalışma. Sxemlər əsasında kəmiyyət budaq cümləli tabeli mürəkkəb cümlələr qurub yazın.

1. (bağl.s. **nə qədər** + fel), [müəy.s. **o qədər** ...]
2. (bağl.s. **nə qədər** + fel), [müəy.s. **bir o qədər** ...]
3. (bağl.s. **nə qədər** + fel), [müəy.s. **o qədər də** ...]

Ədəbiyyat

1. Abdullayev A. Orta məktəbdə Azərbaycan dili tədrisinin metodikası. Azərtədrisnəşr, Bakı, 1964.
2. Balıyev H. Azərbaycan dilinin tədrisi metodikasından mühazirələr. APİ-nin nəşri. Bakı, 1978.
3. Hüseynzadə M. Müasir Azərbaycan dili, Azərtədrisnəşr, Bakı, 1963.
4. Əfəndizadə Ə., Əhmədov H., Kəlbəliyev Ə., Vahidov S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi. Maarif, Bakı, 1977.
5. Əfəndizadə Ə., Əhmədov B., Həsənov M., Əfəndiyev Y., Mikayılov K. Azərbaycan dilinin tədrisi. Maarif, Bakı, 1965.
6. Əhmədov B. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı, Maarif, 1974.
7. Müasir Azərbaycan dili. II hissə. Bakı, 1980.
8. Xəlilov B. Müasir Azərbaycan dili. Bakı, Adiloğlu, 2017, 428 s.

Т.М.Ахмедова

Методика преподавания сравнительного изучения придаточной части (меры и степени) сложноподчиненного предложения в азербайджанском и русском языках

Резюме

Как известно, школьники и студенты учебных заведений с русским языком обучения путем азербайджанского языка знакомятся культурой, историей, литературой и искусством нашей республики. Люди не азербайджанской национальности принимают наш государственный язык, общаются с местным населением на этом языке. Анализируемая тема посвящена одной из речевых приемов – преподаванию сложноподчиненных предложений. Статья состоит из двух частей. В первой части автор дает общее понятие о сложном предложении. Раскрываются общие методические принципы преподавания сложного предложения. Во второй части рекомендуются практические упражнения по теме статьи. Представленные упражнения с научно-методической точки зрения являются эффективными. Статья очень интересная и может быть полезным для изучения азербайджанского языка. Считаю, что представленная работа отвечает требованиям, которые предъявляются к такого рода исследованиям и рекомендую принять ее для публикации.

T.M.Ahmadova

Teaching methods for the comparative study of the complex subordinate sentence in the Azerbaijani and Russian languages

Summary

As well known, schoolchildren and students of Russian language schools can get to know culture, history, literature and art of our republic through the Azerbaijani language. Non-Azeri speaking people accept our state language and communicate with local population in this language. The Theme under analysis is devoted to a method of teaching complex subordinate clauses the article consists of two parts. In this first part the author gives a general idea of complex sentences. The general methodological principles of teaching complex sentences are explained. The second part recommends practical exercises on the topic of the article the exercises are scientifically and methodologically effective the article is very interesting and can be useful for learning the Azerbaijani language. I believe that the submitted work meets the requirements for this kind research and recommend that it be accepted for publication.

Rəyçi: dos. F.İ.Aydəmirova

Redaksiyaya daxil olub: 26.04.2021

Z.S.ƏLİYEV
e-mail: aliyev1999z@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MƏKTƏBLİLƏRLƏ MİLLİ-MƏNƏVİ TƏRBİYƏ İŞİNİN TƏŞKİLİNİN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *milli-mənəvi tərbiyə, formalaşması, milli süur, sosial-pedaqoji irs, ənənə.*
Ключевые слова: *морально-национальное воспитания, формирование, национальное сознание, социально-педагогическое наследство, традиция.*
Key words: *educators, formation, national consciousness, the social-pedagogical inheritance, tradition.*

Respublikamızın demokratikləşmə və müstəqillik yolunda inamlı addımlar atması üçün xalq təhsili sisteminin dövrün tələblərinə uyğun qurulması ən vacib tələblərdəndir. Bu problemin vacibliyini artıq hamı aydın hiss edir. İllər boyu bizi soykökümüzdən ayıran sovet təhsil sistemi milli şüurumuzu, mənliyimizi məhv etmiş, öz tariximizin, mədəniyyətimizin əvəzinə başqalarını öyrənmiş və təbliğ etmişik.

Milli dərketmənin ən ali qüdrəti, dözülməz şəraitdə xalqı oyadıb ayağa qaldıran möhtəşəm bir qüvvəyə çevrilmişdir. Bu qüvvə vətən övladlarının dinc vaxtlarda özünü o qədər də büruzə verməyən, Vətənin dar günlərində isə vulkantək püskürüb, alovlanan Vətənə sevgi, məhəbbət hissidir. Bu hisslərin çox-çox uzaqlara gedən dərin kökləri vardır. Cəmiyyətdə ayrı-ayrı müstəqil vətənlərin təşəkkül tapdığı vaxtlardan adamlarda, xalqlarda öz vətənlərinə məhəbbət hissləri də yaranmağa başlamış, nəsillərdən-nəsillərə keçərək, ən dərin, ən davamlı hisslərə çevrilmişdir. Xalqla milli-mənlik şüurunun intibahı işığında öz ərazisinin qorunmasına, iqtisadi özülünün möhkəmlənməsinə, mədəniyyətinin çiçəklənməsinə və bu mədəniyyətdə təzahür edən mənəviyyat birliyinin yaranmasına və bütövlükdə vətənlərinə heç zaman etinasız, laqeyd olmamışdır. İctimai ədalətsizliyin, hüquqsuzluğun, milli zülmün tüğyan etdiyi ictimai-siyasi qruplaşmalarda belə, xalq öz Vətənindən üz döndərməmiş, onun tərəqqisinə maraq göstərmiş, doğma torpağını, dilini və dinini, adət və ənənələrini qoruyub saxlamağa çalışmışdır.

Xalqından ayrılmamaq, onun müqəddəs adət və ənənələrini qiymətləndirə bilmək, nəcib hisslərini təhqir etməmək, xalqa ana dilini öyrətmək və onunla yanaşı dünya xalqlarının ümumbəşəri dəyərlərini mənimsətmək yolunda millət fədaisi olan görkəmli şair Məhəmməd Hadi təhsilin tərəqqi və inkişafında əsil milli etiqadlı düşüncə sahibləri tərbiyə etməyin necə müstəsna əhəmiyyət kəsb etməsindən bəhs edirdi.

O, milli etiqadla uşaq tərbiyə etməyin ümümbəşəri məzmununu onda görürdü ki, "milli olmayan şey ümumbəşəri də olmaz". M.Hadi əsərlərində milli etiqadla, mənəvi tərbiyə amillərinin təsir gücünü artırmaqla əlaqədar məsələlərə ustalıqla yanaşmış, ədəbi yaradıcılığında, ictimai-siyasi və fəlsəfi şerlərində, pedaqoji məqalələrində bu məsələlərin şəhrinə geniş yer vemiş, həmin problemi professional səviyyədə şərh etmişdir. Onun fikrincə, uşaq əvvəl öz doğulduğu, dünyaya göz açdığı məkanı tanıyıb duysun, sonra, addımlarını kənar məkanlara qoya bilsin. Yaxud, ilkin olaraq ana laylasının həzin duyğularını dərk edib, sonradan bəşəri hikmətləri əxz etsin. Bu cəhətdən milli etiqad anlayışında ehtiva olunan dini inamlar, "ana südü, dağ çiçəyi" kimi xalq hikmətləri mənəvi tərbiyə işində əsil milli yaddaş mənbələridir. Onları qorumaq, gələcək nəslə çatdırmaq bu gün məhz, bizim üzərimizdədir. Milli etiqad amilləri – xeyrlə-şərə bağlılıq, dostu-düşməndən ayırd etmək, xəlqilik, dini fütuhatını qiymətləndirmək, əqidə yolunu müəyyənləşdirmək kimi cəhətlərdə öz əksini tapmalıdır. Milli dirçəlişin həqiqət yolu məhz, etiqadla tərbiyə almağın zəruriliyindədir.

Milli etiqadla insan tərbiyə etməyin gözəl nümunəsi vaxtilə pedaqoji mətbuatımızın qızıl salnaməsi olan "Dəbistan" və "Məktəb" jurnallarının səhifələrində daha bariz görünür. Xüsusən, uşaqlar üçün nəzərdə tutulmuş bu vasitələr bir növ milli düşüncəyə xidmət edəcək ədəb-ərkan məcmuələridir. Dövrünün qabaqcıl məktəbdarları milli etiqadla tərbiyə etməyin mənəvi aləmdə açdığı yenilik elementlərini bu jurnallar vasitəsilə geniş xalq kütləsinə bəyan etmişdir.

Arxiv sənədləri vasitəsi ilə əldə etdiyimiz nüsxələrdə problemin bu cəhətdən qoyuluşu daha tutarlı faktlarla əhatə olunmuşdur.

Onu da qeyd edək ki, 1906-cı ildə millətin maariflənməsinə kömək etmək məqsədilə Məhəmməd Hüseyn Əfəndizadə və Əli İsgəndər Cəfərzadə ilk maarifçilik jurnalımız olan "Dəbistan" jurnalının nəşrinə başladılar. Hədsiz çətinliklərə baxmayaraq jurnal təxminən iki il işıq üzü görmüş və həmin dövrdə dərslik, dərs vəsaitinin yoxsulluğundan çətinlik çəkən məktəblərə faydalı kömək etmişdir. Sonralar böyük maliyyə çətinlikləri ilə üzləşən jurnal bağlanmışdır.

1911-ci ildən başlayaraq Qəfur Rəşəd Mirzə ilə Əbdülrəhman Əfəndizadə birlikdə "Məktəb" jurnalının nəşrinə başladılar. Bu jurnalın ömrü daha uzun, yəni 1925-ci ilə qədər olmuşdur. Bu jurnalın da səhifələrində vaxtaşırı olaraq görkəmli maarifpərvər ziyalılardan Fərhad Ağazadənin, Sultan Məcid Qənizadənin, Əli Ağa Hüseynzadənin, Süleyman bəy Əbdülrəhmanzadənin, Tofiq Gəncəlinin və başqalarının xalq maarifinə və təlim-tərbiyə məsələlərinə aid yazıları nəşr olunurdu. Bu yazarlar bir qayda olaraq, millətin gələcəyi olan uşaqların milli etiqadlar zəminində tərbiyəsi işinə ciddi fikir vermişlər.

"Dəbistan" da dərc olunan məqalələrdə ictimai-pedaqoji fikir tariximiz üçün çox qiymətli olan tarixi nümunələr içərisində xalq üçün döyünən qəlblərin iztirabı, millət çarəsi, ana dili məsələsi və digər milli etiqad aşılayan cəhətlər öz əksini tapmışdır. Bu cəhətdən "Dil millətin həyatinə vasitədir" məqaləsi dediklərimizə yaxşı sübutdur. Həmin məqalədə deyilir:

"… Hər millətin baqi olması üçün lazım gələn şərtlərdən biri də o millətin mükəmməl və məzbut bir dilə malik olmasıdır. Dil hər millətin özü icad etdigi bir vasitə həyatidir və bu vasitə qeyb olduqda o millət dilsiz heyvanət kimi alınıb satılmağa məhkumdur. Hər millətin dili nə qədər əcnəbi təsirdən azad olub müstəqil surətdə tərəqqi etsə də o millətin qiraət və kitabəti asan olub millət müstəqil surətdə tərəqqi edər. Buna görə müstəqil surətdə tərəqqi etmək xahiş edən millət gərək öz dilinin tərəqqi və vüsətinə səy etsin. Biz türklər mədəniyyəti ərəb və İrandan aldığımızdan bu dillərin əlfaz və tərkibatını da götürüb öz ana dilimizi bilməyə qeyb etmişik və etməliyik. Bu səbəbə görə də zənnimcə türk dilini təhsil edən şəxs gərək üç il təhsil etsin".

Dili islah və təshih etmək üçün ən birinci vasitə mətbuat və ədəbiyyatdır. Bir tərəfdən ərbabi-qələm, digər tərəfdən mətbuat öz səhifələrində öz əfkar və əxbarini sadəcə bir dil ilə yazıb intişar etsələr əlbəttə bunları oxuyan, bunlar ilə tərbiyə tapan millət də sadə dil ilə danışar və oxuduğunu layiqincə fəhm və zəbt edib edər. Böylə dil vasitəsi ilə millətə hər gunə elmi və fənni məlumat verib oni tərbiyə etmək və tərəqqi etdirmək olur.

Bu gün həqiqətdir ki, artıq demokratik dəyişikliklər, milli istiqlal ilə məfkurələrdə dərin dəyişiklik aparıb xalqımızı əsarət pəncəsində saxlayan köhnə kiril əlifba əsrliyindən qurtarıb öz təbiətinə, öz istiqlalına uyğun bir əlifba qəbul edildi. Və bunun sayəsində latın qrafikalı milli dil siyasətimizin ümumilik şərəfi mətbuat, məktəb həyatını da sirayət etməkdə dir. Bu yol ilə milli intibahımızın dəyərli keyfiyyətləri sırasında əlbəttədil probleminə hay-küy, süni qondarmaçılıqla nəzər salmağın da qarşısı alınmalı, qurduğumuz müstəqil Azərbaycan Respublikasının Xalq Cumhuriyyətində ehtiyac və həyat üçün bu gün bizdən tələb olunası daha xeyirli, daha elmli yanaşma faktorlarına güvənməliyik. Söhbət Azərbaycan dilinin türk dili ilə əvəz olunması qayıdışından getdiyindən bu işdə, zənnimizcə təkcə Milli Məclis üzvlərinin müvafiq qrupları yox, bütöv xalq iştirak edib öz münasibətini aşkarlamalıdır. Çünki, millətin azadlığa çıxan nicat yolunun başlanğıcı onun dil beşiyindən başlayır. Əlbəttə bu mülahizələr

tədqiqatın baş problemi olmadığı üçün biz sadəcə hadisələr kontekstində bu məsələyə də cüzi marağımızı bildirməklə kifayətlənməyi qət etdik.

Hazırkı şəraitdə ailə, məktəb və ictimaiyyət arasında milli-mənlik şüurunun qoyuluş tərzinin hansı forma və metodlarla həyata keçirməyin imkan və vasitələrini də ciddi şəkildə mənimsəməliyik.

Ədəbiyyat

1. Rüstəmov F.A. Azərbaycanda pedaqoji elmin inkişaf tarixindən. Dərs vəsaiti. Bakı, ADPU, 2012.

2. Rəsulzadə M.Ə. Azərbaycan Cumhuriyyəti. İstambul, 2010.

3. Hüseynzadə R.L. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Dərs vəsaiti. Bakı, Elm və təhsil, 2020.

З.С.Алиев

Особенности в организации национально-нравственного воспитания школьников

Резюме

В статье исследуется педагогическое наследие азербайджанских просветителей. Исследовано формирование национально-нравственного воспитания. Выдвинуты важные факторы, которые значительны по сей день.

Z.S.Aliyev

Statement of a problem of formation of consciousness of national advantage in pedagogical the inheritance

Summary

In article the pedagogical inheritance of the Azerbaijani educators is researched. Formation of national consciousness is researched. The important factors which are significant to this day are put forward.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 08.04.2021

A.R.ƏLİYEVA
e-mail: afet.aliyeva1990@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

DİDAKTİKANIN TƏLİM METODLARININ YENİLƏŞDİRİLMƏSİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI PROBLEMLƏR

Açar sözlər: *didaktika, nəzəri problemlər, təlim metodları, təlimin təşkili, tədris proqramı.*
Ключевые слова: *дидактика, теоретические проблемы, методы обучения, организация обучения, программа обучения.*
Key words: *didactics, theory problems, teaching methods, organization of training courses.*

Təlim metodu öz təbiətinə görə mürəkkəb və çoxcəhətli anlayışdır. Hər bir metod özündə müəllim və şagirdlərin fəaliyyət priyomlarını birləşdirir. Bu fəaliyyətin, əlaqənin yüksək pedaqoji dəyəri isə təlim metodlarının yeniləşdirilməsindən, təkmilləşdirilməsindən və səmərəli tətbiqindən çox asılıdır.

Təlim metodlarının seçilməsi və tətbiqi ilə əlaqədar pedaqoqlar arasında çox müxtəlif, bəzən də bir-birinə əks mövqelər özünü göstərir. Metodların təsadüfən seçilməsi, bəzi metodlara aludəçilik, ayrı-ayrı metodların universallaşdırılması, konkret dərs və sinif üçün optimal metodun müəyyən edilməməsi təlim nəzəriyyəsinin inkişafında və ümumiyyətlə, məktəb təhsilinin səmərəliliyinin yüksəldilməsində problemlər doğurur. Problemin tarixinə nəzər salaq. Təlim metodlarının seçilməsi və tətbiqi ilə bağlı pedaqoqlar arasındakı müxtəlif fikirlilik, problemlə bağlı nəzəri fikirdə hökm sürən pərakəndəlik nəticəsində XX əsrin 80-ci illərində metodların tətbiqində universallığa üstünlük verilmiş, sonlarında "kompleks üsulu" və XXI əsrin əvvəllərində "kompleks-layihə üsulu" universal metod kimi bütün məktəblərdə tətbiq olunmuşdur (1).

Pedaqoji tədqiqatlarda təlim üsullarının təsnifatı ilə yanaşı, onların tətbiqi imkanları da geniş şərh olunurdu. Pedaqoji prosesin ayrı-ayrı anları, məqamları üçün məhz o ana, məqama uyğun metodun tətbiq olunması, müəllimin yaradıcı olub çevik şəkildə konkret hal üçün metod tətbiq etməsi tövsiyə olunurdu. Həmin dövrdə təkrarlama və kitab üzərində iş metoduna xüsusi tədqiqatlar həsr olunmuşdur.

Azərbaycanda alqoritmləşdirilmiş təlimin tədrisdə rolu ilə bağlı tədqiqatlar aparıldı, ona tərif verildi, ana dili dərslərinə (B.Əhmədov, G.Veysəlov və b.), riyaziyyat dərslərinə (A.Nuruşov, F.İbrahimov və b.) tətbiqi ümumiləşdirildi. Bu təlim praktikaya geniş yol tapa bilmədi və təlimdə də heç bir möcüzə yaranmadı.

Proqramlaşdırılmış təlimin də aqibəti belə oldu. Tədqiqatçılar (M.Maxmutov, B.Əhmədov, M.İsmixanov, B.Abdullayev, Y.Bünyadov, R.Əsədov, A.Nuruşov və b.) əsaslandırdılar ki, proqramlaşdırılmış təlim biliyin strukturunu təkmilləşdirməyə, şagirdlərin müstəqil işinə daha da mütəşəkkillik verməyə, dərsə, onun qoyuluşu və gedişinə müəyyən gərəkli yenilik gətirməyə, şagirdlərin dərsdə idrak fəaliyyətini daha səmərəli etməyə şərait yaradır. Buna görə də, nəinki biliyin məzmunu, hətta biliyə yiyələnməyin yolları da proqramlaşdırılmalıdır.

Təlim prosesinin optimallaşdırılması məqsədilə yaradılan didaktik fikirlərin nəzəriyyəyə çevrilməməsinin əsas səbəbləri aşağıdakılar olmuşdur: 1) didaktik problemlərin pedaqoji cəhətdən nöqsanlı ifadə olunması; 2) onların hər birinin ayrılıqda təlim növü kimi təqdim olunması, istər-istəməz mütləqləşdirilməsi; 3) həmin problemlərin tədqiqində aludəçiliyin özünü göstərməsi (6, s.73).

80-ci illərin əvvəllərində təlim metodlarının təkmilləşdirilməsinin nəzəri və praktik məsələləri ilə bağlı ilk fundamental tədqiqat əsəri meydana gəldi. "Təlim metodlarının təkmil-

ləşdirilməsinin nəzəri və praktik məsələləri" (7) kitabında təlimin optimallaşdırılması sistemində təlim metodlarının rolu və əhəmiyyəti aydınlaşdırıldı, onların təsnifi, ayrı-ayrı metodların xarakteri, seçilməsi prinsipləri, ənənəvi və yeni təlim metodlarının vəhdətdə, kompleks şəkildə, yaradıcılıqla tətbiqi, məktəb təcrübəsinə əsasən təkmilləşdirilməsi imkanları tədqiq olundu. Kitabda 70-ci illərin ikinci yarısında və 80-ci illərin əvvəllərində Azərbaycan ETPEİ-də ayrı-ayrı fənlər üzrə təlim metodlarını təkmilləşdirmək məqsədilə aparılan tədqiqatlar öz əksini tapmış, təcrübəli və yüksək ixtisaslı mütəxəssislərin – görkəmli metodist alimlərin (N.Kazımov, Z.Qaralov, Y.Kərimov, Ə.Əfəndizadə, F.Sadıqov, Ş.Mikayılov, V.Xəlilov və b.) elmi-nəzəri fikirləri toplanmışdır (11).

Bu müəlliflər təlimdəki məqsədi, vasitə və metodlarının şagirdlərinkindən fərqli əlamətlərə malik olması fikrini irəli sürdü, təlim prosesinin üç mühüm komponenti (müəllim, vasitə, şagird) arasındakı asılılığı müəyyənləşdirdi. Əsaslandırıldı ki, təlimin məqsədi, müəllimin məqsədi, şagirdin məqsədi ardıcıllığında hər bir sonrakı məqsəd özündən əvvəlki məqsədin transformasiya edilməsi kimi meydana çıxır, bunların arasında əlaqə mövcuddur. Bununla belə, nə təlimin məqsədi ilə müəllimin məqsədi, nə də müəllimin məqsədi ilə şagirdin məqsədi tam eyniyyət təşkil edə bilmir. Pedaqoji fəaliyyətdə müəllimlə şagirdin fəallıq nisbəti üç şəkildə (müəllim daha fəal, şagird daha fəal, hər ikisi fəal) təzahür edir. Müəllimlə şagirdin fəallığı arasındakı münasibətin üç formada cərəyan etməsi öyrənmə və öyrətmə metodları arasında müvafiq nisbətin yaranmasına səbəb olur ki, bunu da B.İ. Əhmədov üç yerə bölür: 1) müəllim daha fəaldırsa, öyrənmə metodlarına üstünlük verilir; 2) şagird daha fəaldırsa, öyrətmə metodları ön plana keçir; 3) müəllimlə şagirdlərin fəallığı təxminən bərabərdirsə, metodların da arasında buna uyğun vəziyyət müşahidə edilir (2, s.145). Tədqiqatlarda bu əlaqənin dinamikliyi, az bir vaxt ərzində bir-birini əvəz etməsi fikri də əsaslandırıldı. Əgər Y.R. Talıbov təlim metoduna təhsilin məzmununun dərki üzrə şagirdlərin idrak və praktik fəaliyyətinin təşkili üsulları kimi yanaşırdısa, N.M. Kazımov metodların təkmilləşdirilməsinə məktəblilərin təlim-tərbiyəsinin kompleks şəkildə həyata keçirilməsi vəzifəsinin yerinə yetirilməsi kimi baxırdı. B.İ. Əhmədov və A.T. Rzayev isə təlim metodlarının başqa pedaqoji kateqoriyalarla əlaqəsini aşkara çıxarır, xüsusi metodikalardakı yeni, orijinal metod və priyomları, proqram və dərsliklərin məzmununu təhlil etməklə təlim metodlarının funksiyasını dəqiqləşdirməyə təşəbbüs göstərirdi (2).

Pedaqoji ədəbiyyatda təlim metoduna tərif verərkən vahid olan təlim prosesini iki yerə (müəllimin və şagirdin fəaliyyətlərinə) ayıran, onların funksiyalarını məhdudlaşdıran (M.Muradxanov), müəllim və şagirdlərin birgə fəaliyyət tərzlərini ön plana çəkməklə, onların başlıca funksiyalarmı kölgədə qoyan (Y.K. Babanski, Q.İ. Şukina), şagirdlərin idrak fəaliyyəti tərzlərini əsas götürən, təlimin mahiyyətinə və mərhələlərinə əhəmiyyət verməyən (M.N.Skatkin, Y.L. Lerner), müəllim və şagirdlərin deyil, təlimin başlıca funksiyalarını ön plana çəkən (N.İ.Boldırev) yanaşmalar mövcuddur. Bu yanaşmaların hər birində səmərəli cəhətlər, məktəb həyatı üçün əhəmiyyətli məqamlar, əməli cəhətdən müəllim üçün böyük əhəmiyyət kəsb edən fikirlər vardır. Lakin onların heç birini tam, bitkin hesab etmək olmaz. Belə ki, bu yanaşmalarda təlimin mahiyyəti tam açıqlanmır, təlim metodlarının qruplaşdırılmasına istiqamətləndirilmir, təlimin mərhələləri nəzərə alınmır, bunlar da təlim metodlarının sistemini yaratmağa imkan vermir. Mövcud nəzəri-pedaqoji fikirləri ümumiləşdirən N.M. Kazımov həmkarlarından fərqli olaraq əvvəlcə təlim metoduna (o, təlim üsulu kimi işlədir) tərif vermək üçün kriteriyaları müəyyənləşdirir, sonralar təlim mərhələlərinə uyğun olaraq müəllimin rəhbərliyi altında şagirdlərin müəyyən biliklərə, bacarıq və vərdişlərə yiyələnməsini, tərbiyə olunmasını və inkişaf etməsi yollarını təlim üsulları" (3, s.144) kimi xarakterizə edir. Elmi cəhətdən düzgün ifadə olunan bu tərif təlim üsullarından istifadənin səmərəliliyini artırmaqla yanaşı, həm də təbii ki, Azərbaycan elmi-pedaqoji fikrinin yeni nailiyyəti kimi diqqəti cəlb edir.

Azərbaycan pedaqoji mətbuatında təlim metodlarının nəzəri və əməli əhəmiyyətinin böyüklüyü, həmişə onun səmərəli təsnifatının əsas şərti kimi irəli çəkilmişdir. Mövcud təsnifatlardakı müxtəliflik təsadüfi deyil, müxtəlif mənbələrə istinadla əlaqədardır.

Təlim metodlarının təsnifi ilə bağlı ayrı-ayrı vaxtlarda B.İ. Əhmədov, Y.R. Talıbov, F.B. Sadıqov maraqlı fikirlər irəli sürmüş, metodların nomenklaturası və təsnifatı ilə bağlı yeni elmi fikirlərin formalaşmasına istiqamət vermişlər (6). Mövcud elmi-pedaqoji və nəzəri fikirlərin fonunda 90-cı illərdə formalaşan təlim metodlarını prof. N.M. Kazımov dörd qrupa ayırır: 1) yeni tədris materialının əsasən qavranılmasına xidmət edən üsullar; 2) bilik, bacarıq və vərdişlərin əsasən formalaşmasına xidmət edən üsullar; 3) bilik, bacarıq və vərdişlərin əsasən tətbiqinə xidmət edən üsullar; 4) təlimdə müvəffəqiyyətə nəzarət üsulları (3, s.145). Müəllifin irəli sürdüyü bu tərifdə təlim üsulları eyni əsasa görə qruplaşdırılmışdır. Həmin əsas bütün təlim üsullarını əhatə etdiyindən didaktik vəzifələrin yerinə yetirilməsinə xidmət edir. Bu bölgüdən həm də aydın görünür ki, bilik, bacarıq və vərdişlərin şagirdlər tərəfindən mənimsənilməsi, onların tərbiyə olunması və inkişaf etməsi üsulları təlimin ayrı-ayrı mərhələlərində fərqlənir; təlimin bu və ya digər mərhələsinə uyğun gələn üsulların tətbiqi zamanı şagirdlərin tədris və idrak fəaliyyətlərinin xarakteri başqa-başqa olur. N.M. Kazımov təlim, təlim metodu, təlim metodlarının qruplaşdırılması və təlim mərhələləri anlayışlarının mahiyyətini dəqiqləşdirməklə, onların arasındakı daxili əlaqəni açmaqla, təlim haqqında orijinal nəzəriyyə işləyə bilmişdir. Bu nəzəriyyəyə görə, təlim metodlarının qrupları təlim metodu anlayışından, təlim metodu anlayışı təlim mərhələləri anlayışından, sonuncu isə təlimin mahiyyəti anlayışından irəli gəlir və nəticədə məntiqi sistem alınır. Onun fikrincə, təlim müəllimin rəhbərliyi altında müəyyən bilik, bacarıq və vərdişlərin şagirdlər tərəfindən mənimsənilməsi, onların tərbiyə olunması və inkişaf etməsi prosesidir. Mənimsəmə isə bir-birini tamamlayan dörd mərhələdən ibarətdir: qavrama, anlama, tətbiq və qiymətləndirmə (3).

Göründüyü kimi, təlim metodları təsnifatında çoxfikirlilik, müxtəlif yanaşmalar mövcuddur. Bu çoxluğun və müxtəlifliyin pedaqoji elmə heç bir ziyanı yoxdur. Təlim metodlarının elmi keyfiyyətinin səviyyəsi, heç də onun mücərrəd mülahizələrlə müəyyənləşdirilmiş təsviri və tərkibi ilə deyil, müəllimə aydın olması, əməli işində ona yardım etməsilə ölçülməlidir.

Ədəbiyyat

1. Abbasov A.N. Pedaqogika. Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2010, 356 s.
2. Əhmədov B.İ., Rzayev A.T. Pedaqogikadan mübarizə konspektləri. B., maarif, 1983, 350 s.
3. Kazımov N.M. Məktəb pedaqogikası. Dərslik. Bakı: OKA Ofset, 2009, 436 s.
4. Лиферон А.П. Интеграция мирового образования – реальность третьего тысячелетия. М.: Педагогика, 1997, 238 с.
5. Mərdanov M.C. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı: Təhsil, 2005, s. 105-124
6. Sadıqov F.B. Pedaqogika (Dərs vəsaiti). Bakı: Adiloğlu, 2009, 600 s.
7. Təlim metodlarının təkmilləşdirilməsinin nəzəri və praktik məsələləri. Bakı: Maarif, 1988, 371 s.

А.Р.Алиева

Проблемы связанные с обновлением и усовершенствованием методов обучения дидактики

Резюме

В статье анализируются ряд методов обучения, сравниваются с современными технологиями обучения, раскрывается новизна содержания методов обучения. Статья значима в работе педагогов-исследователей и учителей практиков.

A.R.Aliyeva

The problems associated with updating and improving the teaching methods of didactics

Summary

The article analyzes a number of teaching methods are compared with modern technology training content reveals the novelty of teaching methods. The article is significant in the work of teachers, researchers and teacher practitioners.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 06.04.2021

S.A.ƏLİYEVA
e-mail: seva_9824@ mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

YENİYETMƏLƏRDƏ MİLLİ TƏRBİYƏNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

Açar sözlər: *hərbi-vətənpərvərlik tərbiyəsi, təlim, milli tərbiyə, Azərbaycanın keçid dövrləri, milli qurtuluş.*
Ключевые слова: *военно-патриотическое воспитание, обучения, национальное воспитание, переходной период Азербайджана, национальное освобождения.*
Key words: *military-patriotism upbringing, training, national upbringing, of Azerbaijan times of to passage, national salvation.*

Müstəqil Azərbaycanımız istiqlaliyyət qazanana qədər keçməkeşli dövrlər yaşamışdır. 1920-1922-ci illər həm Azərbaycan, həm də Türkiyə üçün son dərəcə ağır və məsuliyyətli keçid dövrü idi. Həmin dövrdə Türkiyə xalqının keçmiş Antanta dövlətlərinə, Yunanıstana və erməni-daşnaklara qarşı milli qurtuluş mübarəzəsi Mustafa Kamal paşanın rəhbərliyi altında davam edirdi. Azərbaycan isə Sovet Rusiyasının XI ordusu tərəfindən işğal edilmişdi.

Azərbaycanda sovet üsul-idarəsi Rusiyanın XI ordusunun gücü ilə yaradıldıqda Moskvada Rusiya dövləti Xarici İşlər Naziriliyi sistemində məsul vəzifədə işləyən Nəriman Nərimanov V.İ.Leninin təklifi ilə Azərbaycana rəhbərliyə göndərildi. N.Nərimanov bundan əvvəl 1918-ci ilə qədər Azərbaycanda siyasi fəaliyyətlə geniş məşğul olmuşdu.

Nəriman Nərimanovun Azərbaycana rəhbərliyə başlaması ilə əlaqədar olaraq "Kommunist" qəzeti 1920-ci il 18 may tarixli sayında yazmışdı: "... onun adı Azərbaycan fəhlələrinə və kəndlilərinə yaxşıca məlumdur. Böyük biliyə və geniş məlumata malik olub, Şərq işlərinə yaxşıca bələd olan Nərimanov yoldaş müsəlman (Azərbaycan) Sovet Sosialist Respublikasının rəhbəri sifətilə yeni vəzifədə şübhəsiz ki, işə çox xeyir verəcəkdir" (3).

Azərbaycan Sovet Respublikası hökümətinə başçılığa 1920-ci ilin may ayının ortalarında başlamış Nəriman Nərimanovun fəaliyyətinə burada yerləşdirilmiş XI ordu komandanlıq və Bakıda özlərinə yuva salmış erməni-daşnak qüvvələr ciddi maneçiliklər edir və müqavimət göstərirdilər. 1921-ci ilin iyulun əvvəlində Sergey Kirovun (Moskva tərəfindən) Azərbaycanda Kommunist təşkilatına rəhbər göndərilməsi ilə Nəriman Nərimanova qarşı müqavimətlər daha da artdı.

Nəriman Nərimanovun 1920-ci il 28 may tarixli dekreti ilə Azərbaycan müdafiə şurası yaradılmışdı. Lakin bu qərara əməl edilməsinə müqavimət var idi. Ordu yaradılması haqqında bundan əvvəl qəbul edilmiş dekretə qarşı müqavimət isə daha çox idi.

1920-ci ilin noyabrında Ermənistan da Rusiyanın XI ordusunun gücü ilə sovetləşdirildikdə Azərbaycanın Zəngəzur və Göyçə mahalları Rusiya tərəfindən Ermənistana birləşdirildi. N.Nərimanov Leninə 1920-ci ilin iyununda və bundan sonra da göndərdiyi teleqramlarda qətiyyətlə yazırdı ki, Azərbaycanın "ərazilərinin bir hissəsinin ermənilərə verilməsi müsəlman kütlələri tərəfindən Sovet hakimiyyətinin xəyanəti, ermənipərəstliyi" (1, s.31) kimi başa düşüləcəkdir.

1921-ci ilin 26 aprelində N.Nərimanov Mustafa Kamal paşaya göndərdiyi teleqramda onu və Türkiyə xalqını Antanta dövlətləri silahlı qüvvələri üzərində tarixi qələbələrə görə təbrik edərək yazmışdı. "Azərbaycan hökuməti inqilabi ruhlu türk xalqının onun sərbəstliyini məhv etmək istəyən Antanta dövlətlərinə qarşı müqəddəs müharibəyə qalxdığı həmin günlərin sevincli anlarını təbrik edir və Sizin sevincinizə şərik olduğunu bildirir... Türk xalqı qəhrə-

manlıq mübarizəsinin ikinci ilində onun sərbəstliyini məhv etmək istəyən Antanta dövlətləri üzərində böyük qələbələr qazanmışdır...” (4).

1921-ci ilin 18 oktyabrında Ankarada Azərbaycan Şura Cümhuriyyətinin səlahiyyətli nümayəndəliyinin binasının açılışı münasibətilə səfir İbrahim Əbilov Mustafa Kamal paşanı bu açılışa dəvət etmişdi və Azərbaycan bayrağının səfirliyinin binası üstündə qaldırılması şərəfini ifa etməyi ondan xahiş etmişdi.

Səfirliyin binasının istifadəyə verilməsi münasibətilə keçirilmiş təntənəli tədbirdəki çıxışında Mustafa Kamal paşa demişdi: “Azərbaycan və Türkiyə arasında olan qardaşlıq əlaqələri və bu əlaqələrin səmimiliyi özü-özlüyündə qiymətli olmaqla yanaşı həm də ona görə qiymətlidir ki, Azərbaycan vasitəsilə biz digər dost ölkələrlə əlaqələrimizi həyata keçiririk”.

M.K.Atatürk müasir, dünyəvi Türkiyə dövlətinin yaradıcısıdır. Bu dövlət onun məşhur 6 prinsipi (respublikaçılıq, millətçilik, xalqçılıq, laisizm, etatizm, inqilabçılıq) əsasında təşəkkül tapmış və indi də dünya miqyasında güclü və sayılan dövlətlərdən biridir. Atatürk xarici siyasətdə “yurdda sülh, cahanda sülh” şüarı ilə çıxış etmişdir.

Böyük öndər M.K.Atatürk Azərbaycan xalqına müstəqilliyi uğrunda mübarizədə həmişə dayaq olmuş, lazım gəldikdə köməyini əsirgəməmişdir. Türkiyənin xarici siyasət və hərbi xidmət məmurlarına verdiyi göstərişlərin birində o, demişdir: “Azərbaycanın tamamilə və həqiqətən müstəqil dövlət halına düşməsinin tərəfdarıyıq və bunun üçün ... təşəbbüs göstəriləcək”dir (5, s.68).

Türkiyə dövlətinin inadlı təklifləri nəticəsində Türkiyə və Rusiya arasında 1921-ci ildə bağlanmış Qars müqaviləsində Naxçıvanın Azərbaycana mənsubiyyəti haqqında ayrıca bir maddə yazılmışdır və sonrakı hadisələr göstərdi ki, bu təklif Azərbaycanın dövlət müstəqilliyi istiqamətində atılmış dahiyanə uzaqgörənlikdir.

Eyni xidmətləri Azərbaycan xalqının müstəqilliyi naminə çox ağır bir şəraitdə Nərimanov etmişdir.

1921-ci ilin yayında Türkiyə hökuməti başçısının nümayəndəsi Rza Nur Moskvaya gedərkən yolüstü bir neçə gün N.Nərimanovun şəxsi qonağı olmuşdu, və o, öz xatirələrində yazır ki, doktor Nəriman Nərimanov öz xalqını səmimi sevən və son dərəcə mehriban şəxsiyyətdir. Söhbətlərimizin birində o, dedi: “Biz türkük. Milli hisslərlə yaşayırıq”.

Nəriman Nərimanovun Azərbaycanda fəaliyyət dövrünün iştirakçıları onun Azərbaycana qayıdışını yüksək qiymətləndirmişlər.

Azərbaycan Respublikası Mərkəzi İcraiyyə Komitəsi sədri Səməd ağa Ağamalı oğlu sonralar yazmışdı: “Respublika daxilində etdiyi səfərlərində N.Nərimanov yoldaşı müşaiyət etdiyim vaxt Azərbaycanın zəhmətkeş əhalisi arasında onun nə qədər böyük nüfuza və təsirə malik olduğunu öz gözlərimlə görüb inandım...” (6, s.14).

Görkəmli mühacir, hüquqşünas alim Əhməd bəy Ağayev Azərbaycan hökuməti başçısı N.Nərimanova 1922-ci ilin mayında İtaliyanın Malta adasından göndərdiyi məktubunda yazmışdı: “Sizin kimi doğru və səmimi bir şəxsin bütün türk aləminin və xüsusən, türk mühitinin keçirməkdə olduğu fərqi böhran zamanı Azərbaycanın başında olması bütün türk aləmi üçün xeyirli bir əlamətdir” (7, s.78-89).

1922-ci ilin aprel-mayında çağrılmış Beynəlxalq Genuya konfransında N.Nərimanov iştirak etmiş, Bakı nefti və tərksilah məsələləri üzrə konfransda çıxış etmişdir. Həmin dövrdə İngiltərə və Hollandiya dövlətləri Bakı neftinin istehsalını icarəyə götürmək istəyirdilər və iqtisadiyyatı zəif olan Sovet Rusiyası bu icarədən müəyyən iqtisadi gəlir almaq məqsədilə bu təklifə müsbət yanaşırdı. N.Nərimanov konfransda çıxışında Bakı neftinin Azərbaycan xalqına mənsub olduğunu əsaslandırmışdı və bununla da Bakı neftinin icarəsi haqqında təkliflər rədd edilmişdi.

Vahid Azərbaycan 193 il bundan əvvəl (1828) ikiyə bölündükdən sonra, onun İran dövləti tərəfindən zəbt edilmiş Cənubi Azərbaycan hissəsindən fərqli olaraq Şimali Azərbaycan XX əsr çərçivəsində dörd siyasi qurum şəraitində (Çar Rusiyası, Azərbaycan Xalq Cümhuriy-

yəti, Sovet siyasi sistemi,) yaşadı və dördüncü dövrünü müstəqil dövlət (Müstəqil Azərbaycan dövləti) statusunda yaşayır.

XX əsr Azərbaycanın yaşadığı bu dörd siyasi qurumdan ən uzunmüddətlisi (70 il) Sovet siyasi sistemi olmuşdur.

Ədəbiyyat

1. Əhmədov H.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı, Təhsil, 2015.
2. Əliyev R.İ. Mentalitet. Bakı, Təhsil, 2011.
3. "Kommunist" qəzeti, 18 may, 1920-ci il, №14.
4. "Azərbaycan" qəzeti, 14 aprel 2002.
5. Atatürkün xarici milli siyasəti. 1919-1920-ci illər. Ankara, 1981.
6. Ağamalıyev Z.İ. Yol. N. Nərimanov haqqında xatirələrim. Bakı, 2020.
7. İsmayılov İ.Z. Azərbaycanda dövlətçilik fikri oçerkləri. Bakı, 2016.

С.А.Алиева

Этапы развития национальное воспитания у подростков

Резюме

В статье исследуется этапы проблема военно-патриотического воспитания, устанавливаются разные этапы развития национальное военно-патриотическое воспитании в Азербайджане, возможности усовершенствования военно-патриотическое воспитании в школе.

Статья полезна в работе военных руководителей и исследователей.

S.A.Aliyeva

National military of patriotism stages of development

Summary

The article examines the problem of military-patriotic education of students, opportunities for improvement are established military-technical knowledge for teaching other subjects in high school.

Be useful in the work of military leaders, researchers.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 14.04.2021

T.B.EMİNLİ
pedaqogika üzrə elmlər doktoru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., H.Əliyev pr. 159)

ŞAGİRDLƏRİN PEDAQOJİ PEŞƏYÖNÜMÜNÜN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *peşəyönümü, birgə pedaqoji fəaliyyət, müəllimlik peşəsi, ailə tərbiyəsi, tərbiyədə müəllimin rolu.*

Ключевые слова: *выбор профессии, совместная педагогическая деятельность, профессия учителя, семейное воспитание, роль учителя в воспитании.*

Key words: *oriented on the profession, the activity of the pedagogic connection, profession of the teachers, family discipline, the teachers role in the education.*

Aparılan tədqiqatlardan belə bir nəticə hasil olur ki, valideynlərin əksəriyyəti müəllimliyi qızlar üçün münasib peşə sayırlar. Məktəblilərin müəllimlik peşəsinə münasibəti əslində valideynlərin həmin peşəyə münasibətini əks etdirir. Ata-analar kiçik yaşlarından qızları həmin peşələrə daha çox rəğbətləndiririlər. Müasir ailələrdə tərbiyə baxımından yeni şərait yaranmışdır. Sosioloqlar peşəseçmə sahəsində anaların rolunun artmasını xüsusi qeyd edirlər. Bunu hər şeydən əvvəl qadınların təhsil səviyyəsinin artması ilə izah edirlər. Son tədqiqatlar göstərir ki, qadınların təhsil səviyyəsi artdıqca ailədə uşaqların miqdarı azalır, başqa sözlə, azuşaqlı ailələr formalaşır. Onların içərisində isə təkuşaqlı, eləcə də ikiuşaqlı ailələr xüsusi yer tutur. Aparılan müşahidələr göstərir ki, məhz belə ailələrdə uşaqların peşəyönümü işində ciddi nöqsanlar daha çox meydana çıxır. Valideynlər uşaqların hansı sahə ilə maraqlanmasına əslində əhəmiyyət vermirlər. "Uşağın gələcəyini" özləri vaxtında həll etmək istəyirlər. Onu bilavasitə ananın birtərəfli peşə modeli əsasında tərbiyə edirlər.

Vaxtilə müəllimlik nüfuzlu peşələr arasında xüsusi yer tuturdu. Mahiyyət etibarilə onu kişi peşəsi hesab edirdilər. İndi isə xüsusilə şəhər yerində müəllimliyi qız-qadın peşəsi kimi səciyyələndirən təsəvvürlər geniş yayılmışdır. Bu təsəvvürlərin bərqərar olmasında analar xüsusilə fərqlənirlər.

Müşahidələr göstərir ki, peşəyönümü işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün məktəblə ailənin birgə fəaliyyətini səmərəli şəkildə təşkil etmək lazımdır. Uşaqların peşəseçmə işi ilə bağlı valideynlərə düzgün istiqamət vermək məktəbin qarşısında duran mühüm vəzifə olmalıdır. Çünki valideynlər öz uşaqlarının xarakterinə, anatomik-fizioloji xüsusiyyətlərinə hər kəsdən daha çox bələddir və onların gündəlik davranışını izləmək imkanına malikdirlər. Tutaq ki, ailənin qız övladı müəllim olmaq istəyir. Lakin valideynlər bilirlər ki, övladları əsəbidir, sabit xarakterə malik deyil, son dərəcə həssasdır, üstəlik nitqi də qüsurludur, məktəbdə işləmək onun üçün çox çətin olar. Ona görə də onu başqa əmək sahəsinə istiqamətləndirmək daha məqsədəuyğun olar.

Məlumat xidməti gənclərin peşəyönümü sistemində zəif həlqədir. Peşələr haqqında şagirdlərin məlumatları lazımı səviyyədə deyildir. Bu işdə məktəb və valideynlər öz imkanlarından kordinə edilmiş formada istifadə etməlidirlər. Bu baxımdan məktəbin valideynlərlə apardığı işin başlıca istiqamətləri aşağıdakılardan ibarət olmalıdır:

1. Valideynlərin peşəyönümü üzrə pedaqoji təbliğatla geniş əhatə olunması;

2. Şagirdlərlə aparılan pedaqoji peşəyönümü işinə valideynlərin maksimum dərəcədə cəlb olunması.

Valideynlərin sosial tərkibindən, həmçinin məktəbin imkanlarından asılı olaraq məktəbdə valideynlərlə iş planı tərtib olunması məqsədəuyğundur. Başlıca məqsəd - peşəyönümü

işində valideynləri müəllimlərin, şagirdlərin ən yaxın köməkçisinə çevirmək, onları rayonun (şəhərin) mütəxəssislərə olan tələbatları ilə tanış etmək, konkret peşənin şəxsiyyətə verdiyi tələblərlə bağlı məlumat verməkdir.

Sinif rəhbəri valideyn komitəsi vasitəsilə şagirdlərin peşəyönümü sahəsində məktəbə kömək etməyə imkanı və hazırlığı olan valideynlərin uçotunu və onlarla aparılacaq işin məzmununu müəyyənləşdirməlidir.

Valideynlərlə işin forma və metodları müxtəlifdir: qrup və fərdi şəkildə aparılan söhbətlər, valideyn yığıncaqları, əmək tərbiyəsi və peşəyönümünün müxtəlif məsələlərinə həsr edilmiş konfranslar, müəllimlərin şagirdlərin evlərinə gedişi, anket sorğuları, valideynləri pedaqoji peşəyönümü məsələləri ilə "silahlandırmaq" üçün təşkil edilən pedaqoji lektoriyalar və s.

Ümumiyyətlə, məktəbin valideynlərlə apardığı iş iki əsas formada fərdi və qrup şəklində təşkil edilə bilər.

Fərdi iş formalarına: valideynlərlə söhbətlər; hər hansı konkret halda valideynə kömək məqsədi güdən məsləhətlər; həkim məsləhəti aiddir.

Qrup şəklində aparılan iş formalarına: uşaqların əməyə cəlb edilməsi, onların maraq göstərdiyi sahələr üzrə məlumatlarının genişləndirilməsi, uşaqların fərdi xüsusiyyətlərinin öyrənilməsi, peşənin şəxsiyyətə verdiyi tələblərlə bağlı valideynlərlə söhbətlər; valideyn konfransları; valideyn yığıncaqları; peşəyönümü məsələləri üzrə valideynlər üçün pedaqoji mühazirələr.

Valideynlərlə iş təkcə pedaqoji təbliğatla bitməyib məktəbin pedaqoji peşəyönümü üzrə keçirdiyi tədbirlərə onların daha yaxından cəlb edilməsini tələb edir. Buraya: öz işinin ustası olan qabaqcıl valideynlərin (o cümlədən müəllim işləyən valideynlərin) məktəbə dəvət edilməsi və onlarla görüşlərin təşkil edilməsi; valideyn komitəsi nümayəndələri ilə görüşlərin keçirilməsi və pedaqoji peşəyönümü məsələləri üzrə onlara məsləhətlərin verilməsi; məktəb peşəyönümü kabineti və ya guşəsinin tərtibinə valideynlərin cəlb edilməsi; sərgilərin, yığıncaqların təşkilinə valideynlərin cəlb edilməsi və s. aiddir. Məktəblini ata-anasından yaxşı tanıyan, ona yaxşı bələd olan yoxdur. Uşağın gələcək taleyi də heç kəsi valideynlər qədər maraqlandırmır. Buna görə də müəllimin gördüyü hər bir iş, o cümlədən məktəbin apardığı peşəyönümü işi də valideyn tərəfindən müdafiə olunmalıdır.

Müəllimlərin valideynlərlə sıx əlaqəsi, onların peşəyönümü tədbirlərinə cəlb edilməsi bu işin məqsəd, vəzifə və formalarını başa düşməkdə və uşaqlara təsirin səmərəliliyini artırmaqda valideynlərə kömək edir.

Şagirdlərin pedaqoji peşəyönümü işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün məktəblə ailə arasındakı əlaqə formalarından səmərəli istifadə etmək lazımdır. Pedaqoji bilikləri valideyn ictimaiyyəti arasında yaymaq, pedaqoji peşəyə maraq göstərən şagirdlərin valideynləri ilə iş aparmaqla bu maraqları sabitləşdirmək və möhkəmləndirmək üçün həmin əlaqə formaları böyük əhəmiyyət kəsb edir. Məktəblə ailə arasındakı bütün mövcud əlaqə formaları valideynlər arasında pedaqoji təbliğatı gücləndirmək, uşaqların tərbiyəsi, peşəyönümü məsələlərində qarşıya çıxan çətinlikləri aradan qaldırmaq işində onlara kömək etmək məqsədi güdür. Məktəbin peşəyönümü üzrə valideynlərlə apardığı təcrübə mübadiləsinin əsas forması valideyn yığıncaqlarıdır. Valideyn yığıncağı ümumi tərbiyə, intizam və təlim müvəffəqiyyəti məsələlərinin həllində də əvəzedilməz kütləvi tədbirdir.

Beləliklə, sinif, valideyn yığıncaqları ata-anaları pedaqoji cəhətdən savadlandırır və uşaqların tərbiyəsinin, peşəyönümünün konkret yol və vasitələrini onlara çatdırır.

Ədəbiyyat

1. Bayramov Q.A. Peşəseçmədə sosial amillər. Bakı: Azərnəşr, 2006.
2. Əhmədov Ə.Ə., Məcidov K.M. məktəblilərin peşəyönümü. Bakı: APİ, 2009.
3. İlyasov M.İ. Məktəbdə peşəyönümü işinin sistemi. Bakı: ADPU, 2017.

4. Məmmədzadə R. Müəllimin peşə etikası. Bakı: Maarif, 1992.
5. Левитов Н.П. Вопросы изучения учителя. М.: Учпедгиз, 2005.

Т.Б.Эминли

Особенности организации работы выбора педагогической профессии школьников

Резюме

В статье отражены особенности совместной деятельности учителя с родителями во время организации работы выбора педагогической профессии. Выявлено, что к педагогическим профессиям более склонны девушки. Главной причиной этому то, что родители профессию учителя считают для девушек более приемлемым, чем для парней. Нехватка в школах учителей мужского пола является одним из факторов, отрицательно действующих на качество обучения и воспитания.

Статья может быть также интересна учителям высших учебных заведений и исследователям.

T.B.Eminli

Organization on the direction of the pedagogic vocation of the pupils

Summary

During the pedagogic profession in the article was reflected the teachers activity to the parents and their feature. It was known that for the pedagogic vocation tendency most of all are girls and for the girls the teachings are most acceptable but for the boys consider that they are non-professional. One of the main factor influences in the training and education degree are the minority of men teachers in the schools.

The article can be interesting both secondary and school teachers and also for the investigators.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 04.05.2021

M.İ.ƏMRAHOV
tarix üzrə elmlər doktoru, professor
e-mail: mayisemrah@gmail.com

AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu
(Bakı şəh., H.Cavid pr., 31)

M.M.ƏMRAHOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

XIV-XV ƏSR AZƏRBAYCANIN MƏDƏNİ HƏYATINA BİR BAXIŞ

Açar sözlər: *Nəsimi, dövr, mədəniyyət, pedaqoji fikir, təhsil.*
Ключевые слова: *Насими, эпоха, культура, педагогическое мысл, образование.*
Key words: *Nasimi, period, culture, pedagogical thought, education.*

Təhsil tarixinə qısa nəzər. Azərbaycanda mütəşəkkil təlim və tərbiyə sisteminin yaranması barədə mənbələrdə konkret məlumat olmasa da, məlumdur ki, təlim-tərbiyə işi, əsasən, zərdüşti məbədlərində–atəşgədələrdə aparılırdı (2). Dövrün ən mötəbər və məşhur atəşgədəsi-Azərqoşnəsb Azərbaycanda yerləşirdi. X əsrin böyük ərəb tarixçi-coğrafiyaşünaslarından olan əl-Məs'udinin (8, s. 49-50) (…-956) "Kitab ət-tənbih və əl-işraf" və Yaqut əl-Həməvinin (1179-1229) (12, s. 25-26.) "Mo'cəm əl-boldan" əsərlərində, eləcə də Əbu Duləf Mis'ər ibn əl-Mühəlhilin (X əsr) (12, s.14) "İkinci kitab" adlı əsərində verilən müvafiq məlumatlardan da bu nəticəyə gəlmək olur ki, vaxtilə Şiz (Gəncək) şəhərində yerləşən möhtəşəm və əzəmətli bir mədəniyyət və təlim kompleksi zərdüşti məbədi (Azərqoşnəsb) olmuşdur. Azərbaycanda VII yüzilliklərə qədərki orta əsrlərə aid mədəniyyət, maarif və pedaqoji fikir, həmin dövrlərdə zərdüşti ideologiyası və maarifi ilə yanaşı, Yaxın və Orta Şərqdə də inkişaf edən mədəniyyət və maarifin təsirindən kənarda qalmamış (16,s.338-349), VII əsrdə Yaxın və Orta Şərqdə islamiyyətin yayılması ilə bağlı Azərbaycanda təlim, təhsil və pedaqoji fikir islam mədəniyyəti ilə bağlanmış, İslam mədəniyyəti bütün müsəlman xalqlarının görkəmli mütəfəkkir nümayəndələrinin və maarifpərvər dövlət xadimlərinin səyləri nəticəsində yaranmışdır. Bu mədəniyyətin yaranmasında Azərbaycan alimlərinin də xidmətləri az olmamışdır.

VII-XIV əsrlərdə Azərbaycanın ərəb və fars dillərində yazan şairləri, filosofları və alim müdərrislərinin (müəllimlərinin) yetişməsində onların şəxsi istedadları ilə yanaşı islam mədəniyyətinin böyük rolu olmuşdur. Həmin dövrdə meydana gəlmiş ərəb-farsdilli Azərbaycan mədəniyyəti nümyəndələri Xətib Təbrizi (1030-1109), Eynəlqüzat Miyanəci (1099-1131), Şihabəddin Sührəvərdi (1154-1191), Xaqani Şirvani (1120-1199), Nizami Gəncəvi (1141-1209), Siracəddin Urməvi (1198-1283), Qasım Ənvarın (…-1434) ərəb-fars dillərində yazdıqları əsərləri ilə dini, ədəbi və fəlsəfi düşüncə sahəsində islam mədəniyyətinin inkişaf tarixinə qiymətli töhfələr vermişlər.

XII əsrin axırlarından başlayaraq, Azərbaycanda məktəb və mədrəsə təhsili keçmiş əsrlərə nisbətən sürətlə inkişaf etməyə başlamış və XIII əsrin axırları və XIV əsrin əvvəllərində nisbətən yüksək səviyyəyə çatmışdır. XIII-XIV əsrlərdə Azərbaycanda nəhəng təhsil ocaqları və elmi mərkəzləri təsis edilmiş və fəaliyyətlərini davam etdirmişlər. Bu təhsil və elm mərkəzlərində müxtəlif Şərq ölkələrindən də cəlb edilmiş tələbələr ilahiyyat, təbabət, riyaziyyat, nücum və ədəbiyyat fənləri üzrə təhsil alır, adlı-sanlı alimlər və filosoflar riyaziyyat, astronomiya və fəlsəfə sahəsində elmi və pedaqoji işlərlə məşğul olurdular. Nəsirəddin

Tusinin rəhbərlik etdiyi Marağa Elmlər Akademiyası, Fəzlullah Rəşidəddinin başçılıq etdiyi Təbriz Rəb'i Rəşidi Universiteti belələrindəndir. (9)

XIII-XIV əsr Azərbaycanında fəlsəfə, məntiq, riyaziyyat, astronomiya, tarix, ədəbiyyat, musiqi, rəssamlıq və memarlıq sahələrində yetişən bir çox şair, ədib, alim və müdrik qocaların adlarına həmin dövrün ərəb və fars səyyahları, bioqraf və tarixçilərinin əsərlərində və bir sıra təzkirələrdə rast gəlirik. Yaqut Həməvi "Mo′cəm ol-boldan" adlı kitabında Marağa şəhərində "Mədrəsələr, xaneqahlar, ədiblər, şairlər, mühəddislər və fəqihlər" olmasını qeyd etmişdir (17, s.477). O, Təbriz, Xoy, Səlmas, Urmiya Mərənd, Ərdəbil, Bərdə, Şirvan, Gəncə, Beyləqan, Naxçıvan, Bakı, Şəki və Azərbaycanın sair şəhərlərindən danışarkən buralarda mədrəsələrin mövcud olmasını xəbər vermişdir.

XIII əsrin axırları-XIV əsrin əvvələrində Azərbaycanda maarif sahəsində yüksəliş daha artıq gözə çarpır. Bu dövrün mühüm xüsusiyyətlərindən biri Azərbaycanda ədəbi irsin ana dilində təşəkkül tapması, həmin istiqamətdə maarifin və təhsilin inkişafı məsələsinin şair, alim və ictimai xadimləri böyük maarif əhəmiyyəti daşıyan təşəbbüslər göstərməsindən ibarətdir. Tarixi faktlar göstərir ki, XIV əsrin əvvəllərində Təbrizdə və Azərbaycanın digər şəhərlərində yeni məktəb və mədrəsələr açılmışdır. Məsələn, həmin dövrdə Təbrizin elmi dairələrində Çin, Hindistan, Orta Asiya və ərəb ölkələrindən gəlmiş alimlərə daha tez-tez rast gəlmək olurdu. Dünya şərqşünaslarının diqqət nəzərində duran "Came ət-təvarix" kitabı da müxtəlif xalqların nümayəndələrinin iştirakı ilə Fəzlullah Rəşidəddinin rəhbərliyi altında bu dövrdə Təbrizdə hazırlanmışdır. 1301-ci ildə Bakıdakı Cümə-məscidi yanında tikilmiş mədrəsə (11, s.172) belələrindəndir. XIV əsrin əvvəllərində Azərbaycanda tikilmiş Molla Əhməd məscidi (11, s.172), Molla Nəsrulla məscidi (11, s.172) və bu kimi "Molla" titulunu daşıyan məscidlər də vaxtı ilə təlim ocaqları olmuşlar.

XIII əsrdə Marağa akademiyasının meydana gəlməsi xalqın zəngin keçmişinə əsaslanmışdır. Marağa Elmlər Akademiyası dünya elm və mədəniyyət tarixində orta əsrlərin nümunəvi akademiyalarından biri olmuşdur. XIII-XIV əsr Təbriz və Sultaniyyə təhsil müəssisələri elmi-pedaqoji quruluşca Tusinin başçılıq etdiyi Marağa elm ocağını təqlid etmişlər.

XIII əsrin axırları və XIV əsrin əvvəllərində bir sıra dəqiq elmlər və fəlsəfə Azərbaycanın bəzi təhsil ocaqlarında tədris olunmuşdur. Təbrizin Rəb′e Rəşidi Darülfununu o cümlədəndir. XIV əsrdə Azərbaycanın Sultaniyyə mədrəsələrində tədris vəsaiti kimi istifadə olunan müdərris Şəms əd-din Məhəmməd ibn Məhmud Amolinin "Nəfayes əl-fonun fi ərayes əl-oyun" adlı kitabında riyaziyyat, nücum, kimya, fizika, psixologiya, pedaqogika, ədəbiyyat nəzəriyyəsi, dilçilik, tarix, ilahiyyat və sairədən bəhs edilmişdir.

Pedaqoji fikrin inkişafı. Dünya ədəbiyyatında, əsasən, siyasi xadim və tarixçi, Orta Şərq xalqlarının elmi-mədəni irsi ilə yaxından tanış olan didaktik mütəfəkkir kimi tanınmış *Fəzlullah əbu-l-Xeyr Rəşid əd-Din* XIII əsrin ikinci yarısı və XIV əsrin əvvəllərində Azərbaycanda fəaliyyət göstərən ensiklopedist alimlərdən biri idi. Onun əsərlərində Nizami Gəncəvi və Sədi Şirazi kimi orta əsr dahilərinin şerlərinə, eləcə də Qabusnamə əsərində olan bir çox tərbiyəvi fikirlərə təsadüf edilir.

Şah *Qasim Ənvar Sərabi Təbrizinin* etik-fəlsəfi əsərləri sufizm təriqəti ilə bağlı yazılsa da, onlarda tərbiyəvi məsələlər çox geniş yer tutduğundan Azərbaycanın pedaqoji ədəbiyyat tarixində mühüm mövqe kəsb edir.

Qasim Ənvar 1356-cı ildə Sarabda anadan olmuş, təhsilini Ərdəbil şəhərində məşhur Sufi liderlərindən olan şeyx Sədrəddin Ərdəbilinin yanında təkmilləşdirmiş, dünyagörüşlərinin ilk inkişaf çağlarında sufizm ideologiyasının mötəbər mənbələrindən sayılan şeyx Əbülqasim Cüneyd Baqdadi-Nəhavəndi (607-698), Bayezid Bəstami (875-ci ildə vəfat etmişdir) və şeyx Abdullah Ənsarinin (1006-1088) əsərlərindən təsirlənmişdir.

Q.Ənvar şerlərinin məzmunundan məlum olur ki, sufi məktəbinin nümayəndələrindən biri kimi o, sadəcə olaraq bu mövqeyi müdafiə etməklə kifayətlənməmiş, orta əsrlər ədəbiyyatında çox geniş yayılmış əxlaq və şəxsiyyətin dəyişməzliyi fikrinə qarşı çıxmışdır.

İ.Nəsimi əsərlərində təlim-tərbiyə məsələlərinin qoyuluşu (XIV əsr). Nəsimi təxminən 1369-1370-ci illərdə Şamaxıda anadan olmuşdur. İnsan tərbiyəsi – insanın əqli-əxlaqi cəhətdən təkmilləşməsi, bu təkamülə mane olan amillərin ifşası Nəsiminin əsərlərində əsas yer tutmuşdur. Nəsiminin şerlərində sufi panteizminin rassionalizmindən qidalanan dünyəvilik ideyaları və insan haqqında təlim çox mühüm yer tutur. Buna görə də onun əsərlərində təlim-tərbiyə motivləri xüsusi olaraq diqqəti cəlb edir.

Nəsiminin əsərləri böyük pedaqoji gücə malikdir. Onun əsərlərində azadfikirlilik ideyası tərənnüm edilir, gerilik buxovlarına qarşı üsyankar duyğular təzahür edir. Bu səbəbdən də Nəsiminin şeirləri, onun mübariz istiqamətdə inkişaf etmiş elmi-fəlsəfi dünyagörüşü Şah İsmayıl Xətai, Qövsi Təbrizi və b. ədiblərin və maarifpərvər xadimlərin əsərlərinə təsir etmişdir.

Nəsimi ilahi qüvvənin insanda təcəssümünü ifadə etməyə çalışmış, onun baxışlarında insan yaradıcı varlıq kimi təzahür etmişdir. Şairin fikrincə, bu yaradan və müqəddəs varlığın hüquqi və etiqad sərbəstliyi kimsə tərəfindən hədələnməməli və qəsb edilməməlidir. İnsanı varlığın ən qüdrətli və təkmilləşmiş surəti (obrazı) hesab edən Nəsimi

Mərhəba insan-i kamil canımın cananəsi,

Aləmin jismi sədəfdir, sənmisən dürdanəsi, (3, s.258) – deyərək oxucu və dinləyicilərini məhz insanın özünü, onun kəmal və mə'rifətini sitayiş etməyə çağırırdı.

Nəsimi "əql-i külli" əks etdirən kamil insan şəxsiyyətini allahın təcəssümü, onu toxunulmaz, "dürdanə" hesab edir.

Kişi kim mərifətdə kamil olmaz,

Ona nur-i inayət vasil olmaz. (3, s.532) – yazan Nəsimi insan haqqındakı tezisini qüsurlu şəxsiyyətlərə şamil etmir, qüsurlu adamları özünütərbiyə etməyə çağıraraq

Ey xəstə könül, dərdinə dərman tələb eylə,

Gör can dilər isən yeri canan tələb eylə. (3, s.178) – yazırdı

"Elm", "fəzl" və "bacarığı" (hünəri) "mərifət"in tərkib hissələri kimi nəzərə alan Nəsimi kamil insani – "arif", onun biliyini – "mərifət" adlandırırdı. Həqiqi və saxta biliklər arasındakı fərqi başa düşməyi tələb edən şair

Mərifətdir xalis altun, sikkəsi fəzl-ü hünər,

Altunu tanı dəğəldən arı dinar istəmə. (3, s.189) – deyirdi.

Nəsimi "hikmət"i (məntiq, riyaziyyat, təbiiyyat, ilahiyyat) əsl bilik hesab etmişdir. Özünü bu biliklərin alim müəllimi (alem-e tə'lim-e elm-e elm əl-əsma) kimi oxucularına təqdim etmişdir. Nəsimi

Adəmi xakidən əsma öyrənənlərdir mələk,

Divin əsli o idi ki, öyrənmədi əsmamızı. (3, s.245) yazaraq, Əsma təliminin mələk yetişdirdiyini, onu öyrənməyənlərin isə divlərə, pozğun adamlara çevriləcəyini bildirirdi. Buna görə də təhsilin ardınca gedən gəncliyə müraciət edən Nəsimi onu "əski təlimdən" (sırf dini təhsildən) çəkinməyə və Nəsimilərdən təlim almağa dəvət edirdi. Nəsimiyə görə bilik ancaq xalqa xidmət etməlidir.

Nəsimi məktəb və mədrəsələrdəki təlimin vəziyyətilə bilavasitə maraqlanmış, mövcud təlim sistemi, təlim üsulları və tədris planlarındakı yeknəsəkliklə razılaşmadığını bildirmiş, təhsil məzmununun dini səciyyəsini, tədris planlarındakı fənlərin məzmunca bir-birini təkrar etməsini pisləmişdir.

Nəsimiyə görə əxlaq tərbiyəsi hər şeydən üstündür. Onun fikrincə, tamahkarlıq, ikiüzlülük, yaltaqlıq, zülmkarlıq, ədalətsizlik kimi mənfi keyfiyyətlərin yerinə xeyirxahlıq, cəsarət və qorxmazlıq, vətənə məhəbbət və xalqlar dostluğu kimi bəşəri duyğular formalaşdırıb inkişaf etdirmək vacib idi.

Nəsiminin Azərbaycan dilində yazdığı şerləri və fars dilində divani, xüsusilə "Bəhr üləsrar" əsəri böyük tərbiyəvi əhəmiyyətə malikdir. Şairin təbliğ etdiyi bir sıra əxlaqi keyfiyyətlər haqqında fikirləri indi də aktuallığını itirməmişdir.

Mədəni inkişaf. XV əsrdə Azərbaycan mədəniyyətinin iki mərkəzi-Cənubi Azərbaycan və Aşağı Qarabağ formalaşırdı. XIV-XV əsrlərdəki Azərbaycan mədəniyyətinin mənbəyi dil ilə bağlı idi.

XIV-XV əsrlərdə şəhərlərin genişlənməsi ilə kərpic və daş inşaatı inkişaf edirdi. Yerli memarlıq məktəblərinin ənənələri bu dövrlərə aid bürc formalı türbələrdə (Bərdə, Qarabağlar və Xaçındərbətli türbələri), Ramana qalasının, həmçinin ikiyaruslu və günbəzli quruluşa malik olan Diribaba türbəsinin, Təbrizdə Göy məscid, Sultaniyyədə Olcaytu Xudabəndə türbəsi, Gəncə cümə məscidinin memarlığında davam etdirilirdi.

XV əsrdə Bakı, Şamaxı kimi şəhərlərdə miniatür sənəti inkişaf edirdi. XIII-XIV əsrlərdə Xorasanda yaşamış İzzəddin Həsənoğlu azərbaycandilli ədəbiyyatın banisi hesab edilirdi. Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamış hürufizm tərəfdarı İmadəddin Nəsiminin müasirləri – Mustafa Zərir, Qazi Bürhanəddin və Şah Qasım Ənvar da Azərbaycan dilində şeirlər yazırdılar.

XV əsr şairi Xətai Təbrizinin özü də Azərbaycan dilində şeirlər yazan Ağqoyunlu hökmdarı Sultan Yaquba həsr etdiyi "Yusif və Züleyxa" poeması Azərbaycan dilində yazılmış ilk poemalardan biri hesab edilir. Sultan Yaqubun sarayında həmçinin Əlişir Nəvai üslubu ilə Azərbaycan dilində yazmış Kişvəri və Həbibi yaşamışdır.

Azərbaycan mədəniyyətində aşıq ənənəsi Aşıq Qurbaninin dövründə, XV-XVI əsrlərdə inkişaf etməyə başladı.

XV əsrdə Azərbaycanda mədəniyyət, xüsusilə təhsil sahəsində əldə olunan uğurlar Azərbaycana gəlmiş Avropa səyyahlarının da diqqətindən yanyınmamışdır. 1403-cü ildə Əmir Teymurun yanına səfir göndərilmiş Klavixo, İtaliya taciri Jozafat Barbaro Azərbaycanda olmuşlar. Onların yazıları vasitəsilə Avropa xalqları Azərbaycan xalqı, dövrün təhsil sistemi, ümumilikdə mədəniyyəti haqqında nisbətən geniş məlumat əldə etmişlər.

Ədəbiyyat

1. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989
2. "Azərbaycan müəllimi" qəz., Bakı, 1981, 7 oktyabr
3. İmadəddin Nəsimi. Əsərləri, II c. Bakı, 1973
4. Mahmudov Malik. Ərəbcə yazmış Azərbaycanlı şair və ədiblər. VII-XII əsrlər. Bakı, 1983
5. Məlikova Rasimə. XIX əsr rus şərqşünaslığı və Xaqani Şirvani. Bakı, 1978
6. Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, 1978
7. Məmmədov Zakir. Siracəddin Urməvi. Bakı, 1990
8. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, 1974
9. Yə'qubi Ə.R. Azərbaycanda ilk akademiya. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1982, 23 iyul
10. Агаева Н.А.. Азербайджанские языковеды средневековья. Баку, 1990
11. Ашурбейли Сара. Очерк истории средневекового Баку. Баку,1964
12. Буниятов З. Обзор источников по истории Азербайджана. Баку, 1964
13. Из истории средневековой восточной философии (редактор: З.Б.Геюшев). Баку, 1989
14. Кулизаде З. Мировоззрение Касими Анвара. Баку, 1976
15. Оруджева Л.М. Аз-Занъанинин Мабадиу фит-тасриф. Баку, 1977
16. Пигулевская Н. Города Ирана в раннем средневековье. М. Л., 1956
17. Йакут ал-Хамави. Му'джам ал-Булдан; Хамдаллах Казвини. Нузхат ал-Кулуб. (Перевод с арабского З.М. Буниятова и П.К. Жузе). Баку, 1983

М.И.Амрахов, М.М.Амрахова

Один взгляд на культурную жизнь Азербайджана XIV-XV-х веков

Резюме

В статье бросив взгляд на историю педагогической мысли и просвещения средних веков до VII столетий возникновение системы организованного обучения и образования в Азербай-

джане, деятельность научных центров и крупных образовательных учреждений, учрежденных в Азербайджане за XIII-XIV века, указывается фактами многочисленных ученых и мудрецов в сфере философии, логики, математики, астрономии, истории, литературы, музыки, живописи и архитектуры. Это основано тем, что в конце XIII века и в начале XIV века подъем в сфере просвещения в Азербайджане быстро бросается в глаза, литературное наследие Азербайджана развивается на родном языке, в Тебризе и в других городах Азербайджана усиливается культурно-просветительное движение, а в начале XIV века в городах Азербайджана открываются новые учебные заведения и медресе.

В статье в произведениях И. Насими особое место отводиться постановке вопросов по образованию и обучению, и с помощью примеров указаны педагогическая сила произведений Насими, олицетворение идеи свободной мысли, проявление мятежных ощущений против цепи невежества, борьба поэта против нездоровых религиозных убеждений поэта, и его воздействие на творчество последующих литераторов.

В части культурного развития статьи внимание уделено формированию ашукской традиции, развития литературы, строительства памятников архитектуры, формирования двух центров азербайджанской культуры – Южного Азербайджана и нижнего Карабаха.

M.I.Amrahov, M.M.Amrahova

A review to cultural life of Azerbaijan in XIV-XV centuries

Summary

Article was devoted to establishment of the organized training and upbringing system in Azerbaijan by considering the enlightenment and pedagogical thinking history concerning medieval ages up to VII centennials, activity of the great education centers and institutions established in Azerbaijan in XIII- XIV centuries and activity of the several scientists and wise elders became professional in the philosophy, logics, mathematics, astronomy, history, literature, music, drawing and architecture spheres. It is grounded that, improvement in the enlightenment sphere in Azerbaijan was more noticeable in the end of XIII centuries and in the beginning of XIV centuries, literary heritage of Azerbaijan was found out in native language, cultural-enlightement movement is strenghtened in Tabriz and other cities of Azerbaijan. New education institutions and centers were opened in the cities of Azerbaijan in the beginning of XIV century.

Moreover, article was devoted to the placing of the training and education issues in Nasimi's masterprices, and pedagogical strength of Nasimi's masterpieces, agitation of independent thinking idea, the manifestation of the rebellious feelings against the fetters of backwardness and its affection to the creativity of the further literature masters were shown with samples.

In the cultural development part of the article, brief consideration was made to the formation of the South Azerbaijan and Ashaghi Garabagh, two centers of Azerbaijan culture, construction of architectural monuments, development of literature, and also formation of ashiq tradition.

Rəyçi: ped.e.d., prof. F.N.İbrahimov

Redaksiyaya daxil olub: 20.04.2021

S.C.ƏZİMOVA
e-mail: sema.azimova.9@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

ORTA İXTİSAS MƏKTƏBİ ŞAGİRDLƏRİNDƏ İCTİMAİ FƏALLIQ TƏRBİYƏSİNİN İMKANLARI

Açar sözlər: *ictimai fəallıq, özünüidarə, kollektiv, tələbə şurası, komissiya, yaradıcılıq.*
Ключевые слова: *социальная активность, самоуправление, коллектив, студенческий совет, комиссия, творчество.*
Key words: *social activism, self-management, team, student council, commission, creativity.*

Orta ixtisas məktəbi tələbələrinin həyatında ictimai fəallıq tərbiyəsinin müstəsna rolu var. Tələbələrin ictimai fəallığı heç də yalnız sosial problem deyil, eyni zamanda psixoloji, pedaqoji problemdir. Akad. M.M. Mehdizadə yazırdı: "Şəxsiyyətin fəal həyat mövqeyinin təzahürü formalarından biri ictimai-siyasi fəallıq mövqeyindən ibarətdir. Şəxsiyyətin malik olduğu qabiliyyətlərin hərtərəfli inkişaf etdirilməsi, onun hərtərəfli fəaliyyət göstərməsini, hətta əmək növlərinin dəyişdirilməsini tələb edir...

Qabiliyyətləri hərtərəfli inkişaf etdirmək üçün, əməyin dəyişməz qanunundan istifadə etmək birinci dərəcəli tədbir olmalıdır. Yəni şagirdlərin təlim əməyini, idrak fəaliyyətini məktəb həyatında icra edilməsi mümkün olan başqa əmək növlərilə, o cümlədən ictimai-siyasi fəaliyyət, ictimai-faydalı işləri ilə sıx surətdə bağlamaq» (3, s.30) lazımdır.

İctimai fəallıq anlayışına tərif verməzdən əvvəl onunla sıx bağlı olan və onun əsasında dayanan "fəal", "fəallıq", "fəaliyyət" anlayışlarını nəzərdən keçirək.

"Azərbaycan dilinin izahlı lüğət"ində "fəal" sözü aşağıdakı şəkildə aydınlaşdırılır: "Fəal - işlək, çalışqan, işcil, fəaliyyətli, daimi fəaliyyət göstərən, çox iş görən, çox işləyən" (1, s.136).

Fəallıqa təkidli, enerjili fəaliyyət kimi yanaşmaq mümkündür. "Azərbaycan dilinin izahlı pedaqoji lüğət"ində fəallıq sözünün mənası aşağıdakı kimi açılır: "fəallıq-işcillik, çalışqanlıq, fəaliyyət, aktivlik" (2, s.271) deməkdir.

Fəallıq, həqiqətən işcillik, çalışqanlıqdır. Lakin lüğətdəki kimi bu anlayışın "fəaliyyət", "aktivlik" kimi nəzərdən keçirilməsi ilə razılaşmaq olmur. Əvvəla, ona görə ki, "fəaliyyət" özü ayrıca məhfumdur.

İkincisi, "aktivlik" rusca "aktiv" sözündən götürülmüşdür, eyni mənaları ifadə edir. Başqa sözlə, fəallığın rusca variantıdır, rus sözünə Azərbaycan dilində olan "lik" şəkilçisi əlavə edilmişdir.

Fəallıq şəxsiyyət üçün səciyyəvi sayılan təbii haldır. İnsanın fəallığı orqanizmin və cəmiyyətin tələbləri əsasında müəyyən olunur. Şəxsiyyətin fəaliyyətinin mənbələrinə və hərəkətverici qüvvələrinə dair məsələlər insanın fəallığında mühüm rola malikdir.

"Pedaqoji ensiklopediya"da fəallığa belə tərif verilir: "İnsanda fəallıq zəruri keyfiyyətdir: öz şəxsi tələbatlarına, baxışlarına, məqsədlərinə uyğun olaraq ətraf mühiti dəyişmək bacarığıdır" (3, s.61). Lüğətdə eyni zamanda diqqət bütün bunların əmək, təlim, yaradıcılıq və s. intensiv fəaliyyətlə sıx bağlılığına yönəldilir.

Fəallıq bioloji baxımdan canlı orqanizmlərin xassəsi kimi öz həyati tələbatlarını ödəmək məqsədi ilə xarici qıcıqlandırıcıların təsirinə cavab vermək baxımından bütün canlılara xasdır.

İnsanda fəallıq ətraf aləmi dəyişməklə bağlıdır. O, yaradıcılıqda, ictimai həyatda, əməkdə, təlimdə, təzahür edir.

Ətraf aləmlə qarşılıqlı fəaliyyətini həyata keçirməkdə fəallıq şəxsiyyət, o cümlədən böyüyən nəsil üçün zəruri olan xüsusiyyətlərdən biri kimi özünü göstərir. Fəallıq bütün yaş dövrlərində insanı müşayiət edir.

Başlanğıcda uşağın fəallığı impulsiv (az dərk olunmuş) səciyyə daşıyır və çox vaxt reproduktiv xarakterə malik olur. O, öz tələbatlarını və ətrafdakıların tələbat-larını yerinə yetirmək üçün özünə və ətraf predmetlərə sahib olmağa yönəlmişdir.

Uşaqlara tədricən mürəkkəbləşməkdə olan, lakin onların gücləri çatan tələblər verilməlidir. Elə şərait yaratmaq mümkündür ki, uşaq fəal olmağa özü can atsın, fəallığa çatmağın yollarını müstəqil şəkildə düşünüb tapsın. Bu zaman o, öz fəaliyyətinin faydalılığını, təbii ki, anlayacaq, onun səmərəliliyinə əmin olacaq, nəticələrini qabaqcadan təsəvvür edəcək. Əgər uşaqlarda başlanmış işi başa vurmaq bacarığı tərbiyə edilməzsə, fəallıq əvəzinə boş yerə vurnuxmaq kimi səmərəsiz cəhd yaranacaq.

Pedaqoji təmayüllü orta ixtisas məktəbi tələbələrində ictimai fəallıq tərbiyəsinin təşkilində özünüidarədir. Özünüidarə bir pedaqoji anlayış kimi necə başa düşülməlidir? «Azərbaycan dilinin izahlı lüğət»ində özünüidarə «hər hansı bir təşkilatın, cəmiyyətin, təsərrüfat, yaxud inzibati vahidinin və s. öz daxili işlərini yerli qüvvələrlə həll etmə hüququ» (1, s.462) kimi nəzərdən keçirilir. Məsələyə pedaqoji baxımdan yanaşdıqda həmin fikri belə ifadə etmək mümkündür: özünüidarə dedikdə məktəbin, o cümlədən pedaqoji təmayüllü ali tədris müəssisəsinin öz həyatını daxili qüvvələrlə, o cümlədən tələbə oğlan və qızların köməyilə təşkil etmə hüququ anlaşılır.

«Pedaqoji ensiklopediya»da özünüidarəyə belə tərif verilir: «… özünüidarə şagirdlərdə məsuliyyət hissini, təşəbbüskarlığı, təşkilatçılıq qabiliyyətini inkişaf etdirir, kollektivdə təşkilatçıların sayını artırır, təhsildə, əməkdə və məktəbin bütün işlərində ən yaxşı əməli göstəricilərin qazanılmasına yardım edir. Özünüidarə … ictimai münasibətlərdə, yeni doğulan nə varsa, məktəb həyatına gətirir» (2, s.789).

Y.Talıbov yazır: məktəb özünüidarəsi bütün məktəbliləri əhatə etməlidir və beləliklə də, yalnız seçilmiş bir komissiyanın işinə çevrilməlidir. Əksinə, ümumi yığıncaqlar yalnız fövqəladə hallarda və ya seçkilər üçün deyil, müntəzəm olaraq keçirilməlidir. Bu yığıncaqlarda mütləq məktəbliləri maraqlandıran bütün məsələlər müzakirə edilməli, məktəbliləri maraqlandıran, məktəblilərin görəcəkləri ictimai iş müəyyən olunmalı, həmin iş elə buradaca ayrı-ayrı qruplar arasında bölüşdürülməlidir. İşi elə hesabla bilmək lazımdır ki, hər bir məktəbli bu işi ümumi işin, müəyyən kiçik də olsa bir hissəsini görsün və ümumi yığıncaq qarşısında hesabat versin (5, s.152).

Özünüidarənin başlıca məğzi yuxarıda nümunə gətirdiyimiz iki iqtibasda öz əksini tapmışdır və irəli sürülən fikirləri eyni zamanda tələbə özünüidarəsinə də aid etmək mümkündür. Ümumiyyətlə götürdükdə, özünüidarə: tələbə şurasının işinin məzmununu zənginləşdirir; tələbələrə təşkilatçılıq vərdişləri aşılayır, onlarda idarəetmə və rəhbərlik, icraetmə və ümumiyyətlə, tapşırılan işə məsuliyyət hissləri yaradır; tələbələrdə təşəkkül tapmış kollektivçilik hisslərinin inkişafına kömək göstərir, onlar kollektivin mənafeyi naminə iş görməyə öyrəşir, vətənpərvər olurlar; imkan verir ki, gənclər təhsil aldıqları universitet və institutda məktəbdaxili həyatlarını özləri qursunlar; cəmiyyətimizə layiq yeni keyfiyyətli insanların yetişməsi işində ali məktəblərə öz köməyini göstərir; tələbələrdə şüurlu intizam yaradır; tələbələrdə ictimai fəallıq üçün vacib olan bacarıq və vərdişləri formalaşdırır.

Tələbə şurası gənclərin tələbə özünüidarəsinin icraedici orqanı hesab olunur.

GDU-da tələbə şurası tədris işinin həyata keçirilməsində, növbətçiliyin, sanitar-sağlamlıq, mədəni-kütləvi tədbirlərin təşkilində və həyata keçirilməsində pedaqoji kollektivə kömək göstərirdi. Tələbə şurasında işlər gənclərin özünüidarə prinsipinə əsasən qurulur.

Psixologiya elmləri doktoru prof. R.İ. Əliyev ali məktəblər üçün «Psixologiya» dərs vəsaitində yazır: «…Kollektivin təşəkkülü iki mühüm mərhələdən ibarətdir… Birinci mərhələdə emosional amillər daha cəlbedici olur. Bu dövrdə intensiv şəkildə psixoloji oriyentasiya gedir,

positiv münasibətlər yaranır. İkinci mərhələdə isə kognitiv proseslər mühüm əhəmiyyət kəsb edir. Bu dövrdə hər kəs yalnız potensial və ya real emosional ünsiyyət obyekti deyil, həm də müəyyən sosial norma və ustanovkaların daşıyıcısı kimi özünü təqdim edir» (4, s.146).

Özünüidarə prinsipi əsasında qurulmuş tələbə kollektivində bu məsələlərin diqqət mərkəzində saxlanılması vacibdir.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti, 4-cü cild. Bakı, Elm 1987.
2. Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğət. Bakı. OKA, Ofset, 2005.
3. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləş-dirilməsi yolları. Bakı: Maarif, 1982, 384 s.
4. Əliyev R. İ. Psixologiya: Ali məktəblər üçün dərs vəsaiti. Bakı, Qamma servis, 2003.
5. Talıbov Y.R., Sadıqov F.B., Quliyev S.M. Gənclərin milli-mənəvi tərbiyəsi problemi. Bakı, "Ünsüzadə", 1999, 271 s.

С.Дж.Азимова

Возможносьти воспитания общественной активности у студентов средно-специализированных школь

Резюме

В статье самоуправление изучено как средство воспитания общественной активности у студентов. Определено что, одним из важных условий для общественной активности студентов необходимо развитие самоуправления у студентов.

В статье отмечено, что успех формирования общественной активности студентов зависит организации самоуправления студентов. Поэтому, очень важна хорошая организации студенческих советов, правильное определение конкретных полномочий и обязанностей каждой комиссии и забота коллектива педагогическим решениям комиссий.

S.J.Azimova

Personality control is the method of public activities of students

Summary

In article were studied the problem of research of personality control as the method of public activities of students. Have been determined, that this element-control of person is one of the basic features of improvement of personality of students.

Also in the paper noted the importance of development of this characteristics in students as the main element. That is why the right formation, also regulation of commission, organizing committees of students organsations, unions is so nesessary.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 10.04.2021

S.T.FEYZULLAYEVA
e-mail: feyzullayeva_seadet@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Ə.Rəsulzadə pr. 305)

MÜHAZİRƏ – ALİ MƏKTƏBLƏRDƏ TƏLİMİN ƏSAS FORMASI KİMİ

Açar sözlər: *təlim prosesi, təlimin təşkili formaları, mühazirə, mühazirənin məqsədi, mühazirənin növləri, mühazirələrin əhəmiyyəti, mühazirələrin kriteriləri, mühazirələrin çatışmazlıqları, əks arqumentlər.*

Ключевые слова: *процесс обучение, формы организации обучение, лекция, цель лекции, виды лекций, пользы лекции, критерии лекций, недостатки лекций, противоположенные аргументы.*

Key words: *learning process, forms of training organization, a lecture, the purpose of the lecture, types of lectures, importance of lectures, criteria of lectures, shortcomings of lectures, counter-arguments.*

Elmi-texniki tərəqqinin bu günki inkişaf səviyyəsində müasir insana verilən tələblər - kompitensiyalar dəyişməkdə davam edir. Təhsilin məqsədləri cağdaş dövrün tələblərinə uyğun dəyişdiyindən, metodların da təkminləşməsinə ehtiyac duyulur. Məlum olduğu kimi təlim metodları təlim prosesinin optimallaşdırılması və təhsilin keyfiyyətinin yüksəldilməsi üçün istifadə edilir.

Mühazirələr ali məktəblər üçün ən səmərəli metodlar olmuşdur və bu gündə öz yararlığını saxlayır, təlim məqsədlərinə uyğun olaraq daima təkminləşdirilir. Sokrat, Hipokrat, Aristotel, Qalen, İ.Kant, İbn Sina, Qaliley öyrənmə prosesində mühazirələrdən peşəkarlıqla istifadə etmişlər. Qərb renesansından əvvəl başlanmış müsəlman renesansı dövründə Bağdad Akedemiyasının İbn Rüşt, Əl-Fərabi, Əl-Zəkəriyyə kimi filosofları həm də mühazirələri ilə bütün dünyada məşhur olmuşdur. J.J.Russo, T.A. Timiryazev, İ.Mendeleyev, L.Vıqotski maraqlı mühazirələri ilə tarixdə qalmışlar. Azərbaycannın pedaqoji fikir tarixində böyük rolu olan M.M.Mehdizadənin, Ə.Y.Seyidovun, M.Ə.Muradxanovun, M.C.Mərdanovun, A.O.Mehrabovun, H.M.Əhmədovun, Ə.Ə.Ağayevin, N.M.Kazımovun, Z.İ.Qaralovun, Y.Ş.Kərimovun, Y.R.Talıbovun, B.A.Əhmədovun, A.M.Həsənovun, Ə.Ş.Həşimovun, A.N.Abbasovun, Ə.X.Paşayevin, F.A.Rüstəmovun, M.İ.İlyasovun, H.Ə.Əlizadənin, L.N.Qasımovanın, O.Q.Həsənlinin, H.H.Əhmədovun, K.A.Məmmədovun, F.N.İbrahimovun, R.L.Hüseynzadənin, R.H. Məmmədzadənin, M.M. Həsənovun mühazirələri haqlı olaraq bir peşəkarlıq işi kimi çoxlarının rəğbətini qazanmışdır.

Mühazirə - mühazirə (lat. Lectio - oxu deməkdir) təlimin əsas təşkili formalarından biridir. F.N.İbrahimovun (2, s.259) fikirincə mühazirə zamanı müəllim faktlar nümayiş etdirir, onların təsvirini verir, mühakimə yürüdür, ehtimallar irəli sürür, onların həqiqi olub-olmadığını isbat edir, tutuşdurur, müxtəlif nöqteyi-nəzərlərə şagirdlərin diqqətini cəlb edir, suallar vasitəsi ilə onlarda marağı gücləndirir. M.M.Mehdizadə, H.Əhmədov, Ə.Əlizadə, F.N.İbrahimov,Y.Kərimov, F.Rüstəmov və digərləri problemi görmə, onun həllində öz rolunu müəyyən etmə xüsusiyyətlərini mühazirənin ən üstün tərəfləri kimi qiymətləndirmişlər.

Müsair rus pedaqoqlarından A.İ.Danilova görə mühazirə-təlim materiallarının müəllimin şifahi, monoloq, sistemli, ardıcıl şəkildə, həmçinin film və slaydlarla nümayışi ilə müşahidə olunan təqdimatını özündə əks etdirir (7, s.1). Y.Kratov belə hesab edir ki, mühazirə təlimin didaktik dövriyəsinin əsas həlqəsidir (8, s.1). Heç təsadüfi deyil ki, mühazirələr müasir ali məktəb həyatında "qayanar nöqtələr" adlandırılır. İstənilən mühazirə üçün materialın geniş həcmli olması və məntiqi əlaqələrin mürəkkəbliyi, şaquli və üfiqi inteqrasiya səciyyəvidir. Mühazirələrin təşkilinə verilən ***tələblərə*** aşağıdakılar aiddir :

- fənn proqramı və tematik plana müvafiqliyi;
- elmilik və müasir elmi səviyyə(informasiyalılıq);

- dəqiq strukturu və ardıcıl olaraq sualların məntiqi açılışı;
- dəqiq ideya-nəzəri istiqamətin müəyyənləşdirilməsi;
- kifayət qədər sübutların, faktların, nümunələrin olması və arqumentləşdirlimənin aparılması, isbatların olması;
- problemli vəziyyətin yaradılması, onun düzgün qoyuluşu, ziddiyətlərin açılması;
- inandırıcılıq, düşünməyə sövq etmə, müstəqil işləməyə kömək etmə;
- konkret auditoriya üçün(yaş, psixoloji mühit, ixtisas, peşə və s.) anlayışlı olması, aydın dildə çatdırılması;
- konkret mövzuların öyrənmə mühitinin bütün amillərini nəzərə alaraq metodik işlənməsi;
- dəqiq və lokanik yekunlaşmanın aparılması;
- fəal öyrədici mühitin yaradıması məqsədilə idrakı stimulə edən metodların, audio, vizual vasitələrin səmərəli istifadəsi;
- konkret mövzunun səciyyəsi;
- lektorun ünsiyyət və nitq mədəniyyəti, öz işini sevməsi, innovasiyalara açıq olması :
- fənn proqramı və tematik plana uyğunluğu

Lektorun malik olmalı bacarıqları F.N.İbrahimov (2, s.17) aşağıdakı kimi təsnif etmişdir:

1) məlumatverici bacarıq və vərdişlər;
2) səfərbəredici bacarıq və vərdişlər;
3) inkişafetdirici bacarıq və vərdişləri;
4) istiqamətləndirici bacarıq və vərdişlər.

Mühazirənin üç əsas məqsədi var. Digərləri isə bunlardan tərəmə hesab edilə bilər. Bunlardan birincisi – nəzəri və tədbiqi biliklərin müvafiq təhlillərlə birlikdə tələbələrə çatdırılması, ikincisi – idarki proseslərin stimullaşdırılması ilə yeni baxışların yaradılmasına nail olunması, üçüncüsü isə şəxsiyyətin müxtəlif xüsusiyyətlərinın hərtərəfli və davamlı inkişafına nail olunmasından ibarətdir.

Təlim prosesinin səmərəliliyinin artırılması üçün sadalanan məqsədlərin vəzifələrlə vəhdətdə götürülməsi vacibdir.

Vəzifələr məqsədin məzmununu, mahiyyətini dəqiq təsəvvür etməyə imkan verir. Mühazirə (Y.Kratovova görə) informasiyalılıq, orenatasiyaedici, metodoloji, motivasiyaedici, tərbiyəedici, inişafetdirici ***vəzifələri*** daşıyır.

Mühazirənin ***strukruru***: giriş (problemin qoyuluşu), əsas hissə (sualın açılışı), yekun (nəticənin alınması) hissələrdən ibarətdir.

1. *Giriş* – hissədə məqsəd auditoriyanı təlim materialı ilə maraqlandırmaq və onun öyrənilməsinə hazırlamaqdır (Bu ifadan qabaq tarın köklənməsinə bənzəyir). Bu prosesin tərkibinə daxildir:

1.1. Mühazirənin mövzusunun formalaşdırılması, onun ixtisas sahəsində əhəmiyyəti, öyrəniləcək yeniliyin və onun səviyyəsi;

1.2. Mühazirənin məqsədinin müəyyən edilməsi;

1.3. Özündə əsas sualları birləşdirən mühazirə planının hazırlanması;

1.4. Tələbələrin müstəqil öyrənməsini təmin edəcək vasitələrin – əsas və əlavə ədəbiyyat siyahısının, internet saytlarının adlarının verilməsi;

1.5.Təkrar-əlaqələndirmə (retrospeksiya) keçmiş mühazirədə araşdırılmış sualların yada salınması, onun yeni materialla əlaqələndirlməsi, digər elmlərlə inteqrasiyanın aparılması

2. *Əsas hissədə* – problemin açılışı, mətindəki əsas fikirlərin izahı, təhlillər və arqumentləşdirmənin aparılması, faktların və nümunlərin təqdim olunması və sübutların aparılması həyata keçirilir. Bu mərhələdə açılacaq sualların təhlili, əsas fikirlərin mənimsənilməsi elə ustalıqla təşkil edilməlidir ki, tələbə əsas fikirin bütün məziyyətlərini anlasın və müstəqil olaraq mövzuya aid daha nələrin öyrəniləcəyini elə mühazirə zamanı müəyyən edə bilsin.

3. *Yekun hissə* – mühazirənin sonunda nəticələrin çıxarılması ilə aparılır və material ümumiləşdirilir. Nəticələr aydın, lokanik lakin hərtərəfli olmalıdır. Nəticələri şifahi, yazılı və ya auditoraiya ilə birlikdə çıxarılması məqsədəuyğun hesab edilir. Eləcə də sonda tələbələrin suallarının dinlənilməsi təşkil edilir.Bunu mühazirənin gedişi zamanı da etmək olar.

Mahazirələrin müxtəlif ***növləri*** vardır:

- Giriş mühazirə
- Şərh(obzor) mühazirə
- Təkrar mühazirə
- Mini mühazirə
- İstiqamətlənmiş mühazirə
- İkili (dualitik) mühazirələr
- Mühazirə - mətbuat konfransı
- Mühazirə -mətbuat konfransı(presskonferensiya)
- Mühazirə situasiya
- Mühazirə-tədqiqat
- Mühazirə-məsləhət
- Mühazirə- dialoq
- Mühazirə -şou
- Dərs-mühazirə - tədbiqetmə
- Vizual mühazirə (4, s.221)

Mühazirənin digər təlim formalarından bir çox üstün cəhətləri vardır. Buraya böyük həcmli materialın geniş auditoriyaya çatdırılması, vaxta qənaət və büdcəyə qənaət, canlı ünsiyyətdən istəfadə edərək auditoriyaya güclü təsir etmə , dialoji, dinləmə və mədəniyyəti, müqayisə etmə və öz fikirini müəyyən etmə bacarığının formalaşması, lektorun peşəkarlığının və şəxsi keyfiyyətinin üzə çıxaması, təfəkkürün bütün formalarının - mətiqi, tənqidi və yaradıcı innkişafı üçün əlverişli olması kimi cəhətlər aiddir.

Mühazirənin bəlkə də ***ən çətin tərəfi ondadır ki,*** dərs vaxtı auditoriyanın lektorun şəxsiyyətini tanıma imkanı digər təlim metodlarından çoxdur. F.Rustəmov belə hesab edir ki, mühazirənin gedişi və effektivliyi alı məktəb müəlliminin şəxsiyyətindən çox asılıdır (4, s.219). Öz təcrübəmdən deyə bilərəm ki, mühazirə güzkü kimidir, müəllim özünü orada çox aydın görə bilir. Müəyyən bir sahədə biliyin az olması, dərin və ya geniş olmaması, vizuallığın az olması, diqqətin düzgün paylanmaması, nitqindəki nöqsan və ya motivasiyanın zəifliyi tez özünü göstərir. Buraya fiziki hazırlığı da əlavə etsək tam yerinə düşər. ***Ona görə lektor özünü davamlı tərbiyə və inkişaf etdirmək məcburiyyətində qalır.***

Bəzi pedaqoqlar mühazirənin mənfi tərəfləri üzərində çox müzakirələr aparırlar. Düşünürəm ki, buna heç bir ehtiyac yoxdur. Çünki istənilən təlim forması və metodu məhz müəyyən olunmuş təlim prosesi üçün təlim şəraitinin bütün komponentləri nəzərə alınaraq, tamla üzvi əlaqələndirilərək seçildikdə daha səmərəli olur. Pedaqoji prosesdə hər təlim forması **və *metodunun öz təyinatı,*** öz yeri var. Necə deyərlər, kəsmək üçün çox ələt var. Ancaq hər alət bir əmək fəaliyyəti üçün nəzərdə tutulur. Bununla belə, *bəzi* pedaqoq, psixoloqların aşağıdakı ***arqumentləri*** gətirərək mühazirənin ***çatışmayan*** tərəflərini qeyd edirlər:

1. lektor başqalarını onun öz fikirini passiv qəbul etməyə sövq edir. Mühazirə nə qədər yaxşı olsa (emosianallıq, inandırıcılıq, faktlar) bu təsir o qədər çox olur;
2. mühazirə müstəqil düşünmə qabiliyyətini öldürür;
3. mühazirəni yalnız material dərslikdə olmasa və ya az verilsə təşkil etmək olar;
4. tələbələrin az bir hissəsi mövzunu mənimsəyir, digərləri isə mexaniki əzbərləyir, tez unudurlar;
5. lazımi qeydlərin aparılması bəzən diqqətin yayılmasına səbəb ola bilir;
6. lektorun monoloqu uzun və üzücü olur.

Mühazirə haqqında bildiklərimizi təhlil edərək, bu arqumentlərə ***əks arqumentlər*** göstərə bilərik:

1-ci fikir üçün əks arqument. Ayrı-ayrı fənlərdə elə mözular var ki, onları yalnız abzor (şərh) mühazirədə olduğu kimi əyani vəsaitlərdən şəkil, tablo, sxem və s. istifadə etməklə şərh etmək lazımdır; Məsələn, lektor "uşaq anatomiyası və fiziologiya" fənnindən "Anatomiya elminin inkişaf tarixi və digər elmlərlə əlaqəsi" mövzusunu tabloların, fotoların, sxemlərin nümayişi ilə izah edir. Bu mövzu üçün ən səmərəli üsul elə budur. Digər tərəfdən passiv mühazirəni aktiv etmək üçün kifayət qədər metodlar və tərzlər var. Fəal mühazirələr üçün problemli vəziyyətin yaradılması, beyin həmləsi, müzakirələr və s. səciyyəvidir ki, onlar da məhz interaktivlik üçün həyata keçirilir. Eyni zamanda şərhi vizuallaşdırmaq və müddətini insanın psixofizioloji imkanlarına uyğunlaşdırmaq lazımdır;

2-ci fikir üçün əks arqument. Peşəkar lektor mühazirəni təhsil və təlim prosesinin əsas prinsiplərini, mövzunun məqsədini əsas götürərək qurur. Belə halqda tələbələr lektorun fikirinin ardınca getməsi elə mühazirənin məqsədinin reallaşmasına xidmət etmiş olur. Ikinci tərəfdən əgər həqiqəti tapmağa həsr edilən mühazirədən söhbət gedirsə onda yenə də peşəkar lektor həqiqəti tapmaq üçün mütləq müxtəlif yanaşmalardan istifadə edəcək, müxtəlif mövqeləri ortaya qoyacaq, ziddiyyətlər içərisindən həqiqəti tələbələrlə birlikdə tapaçaq. Hətta ənənəvi mühazirələr monoloq formasında olsa da burada da sual verməyə yer verilir. Bu isə müstəqil düşünəyə və nəticə çıxarmağa sövq etmənin ən səmərəli üsullarından biri kimi qiymətləndirilir.

3-cü əks arqument. Hətta dərslikdə lazımi səviyyədə verilməsinə baxmayaraq lektor tərəfindən şərhə ehtiyac duyulan kifayət qədər çətin mövzular var. Əksinə inkişaf metodların və təhsilalma formalarının təkminləşməsini tələb edəcək. Bu zaman metod və iş formalarının təkminləşdirilərək dəyişdirilməsi müzakiə obyekti ola bilər.

4-cü əks arqument. Məlumdur ki, istənilən təlim forması və ya metodunun səmərəsiz təşkili tələbələrin öyrəniləcək mövzudan yayındıra bilər. Digər tərəfdən nə qədər səmərəli metod seçilsə belə daxili motivasiya olmadan heç bir uğur və keyfiyyətdən danışmaq olmaz. Döğrudur, xarici motivasiya, sövq etmələrlə daxili motivasiyanı müəyyən qədər yaratmaq olar. Lakin tələbələrin irsiyyəti, dərk etmə formaları və maraqları təbii olaraq müxtəlifdir. Odur ki, heç bir təlim forması və ya metodundan 100% keyfiyyət gözləmək olmaz. Söhbət *balanslaşdırılmış təlim metodlarından və daha yüksək keyfiyyət göstəricisindən gedə bilər*. M.Qorki bütün müvəffəqiyyətin açarının daxili motivasiya olduğunu və bunub ən çətin iş olduğunu demişdir. Deməli, mütəxəssis tərbiyəsi təkcə optimal daxili və xarici amillərdən asılı deyil, bu eyni zamanda tələbənin daxili psixi qanunauyğunluqlarından asılıdır (3, s.519).

5-ci əks arqument. Qeydlər mühazirə vaxtı aparılmaya da bilər. Bunun üçün mühazirə mətnlərinin əvvəlcədən kağız və ya elektron formada verilməsi, tək oxumaqdan (monoloq) uzaq olma, təkrar, diqqətin formalaşdırılması üsulları – sual vermə, drama qurmaq, nitqin ahənginin dəyişdirilməsi, emosianallığın dəyişdirilməsi, zarafat, pauza, hadisələrin danışılması ilə bu problemi aradan qaldırmaq mümkündür. Bəzi müəlliflərin əksinə olaraq F.N.İbrahimov hesab edir ki, mühazirənin mühüm yerlərinin ustalıqla qeydə alması tələbələri diqqətli olmağa alışdırır. Mühazirədə məntiqi yadda saxlama tərzləri, isbatlar, faktların qruplaşdırılması, sistemə salınması, ümumiləşdirilməsi, müqayisələr üstünlük təşkil edir. Buna görə də mühazirə zamanı tələbələrin mövzunu mənimsəmə dərəcəsini yoxlamaq məqsədi ilə suallarla onlara müraciət edilməsinə haqq qazandırmaq lazımdır.

6-cı əks arqument. Müasir texnologiyalar və metodlarla mühazirəni canlı təşkil etmək üçün imkanlar vardır. Xüsusilə, interaktiv mühazirələr məqsədə çatmaq üçün geniş imkanlara malikdir. Hazırda mühazirənin vərəq və ya elektron formasını əldə etmək asandır. Belə olduqda mühazirə passiv formadan çıxır və fəal formaya keçərək problemli – tədqiqat xarakteri daşmağa başlayır. Həmçinin yuxarıda sadalanan mühazirə növlərindən istifadə etmək lazımdır. Müəlim tələbələri və işini çox sevdiyi halda mühazirə təşkil edə bilər. Bu incəsənət

kimidir. Sevməsən və qabiliyyətlər olmasa mühazirə hər iki tərəf üçün uzun və üzücü prosesə çevriləcək.

Ancaq unutmayın ki, görüntü xarici amil olsa da kökü daxildədir. Bilik, mədəniyyət, səmimiyyət, elmi və intellektual səviyyə, niyyət kimi keyfiyyətlər olmasa müsbət təsir bağışlamanız mümkünsüzdür. Qısa müddət təəssürat müsbət ola bilər. Necə deyərlər su durulanda dibi aydın görünür. Əmin olun ki, "suyun durulması" üçün auditoriyanın kifayət qədər vaxtı var. Deyirlər ki, söz əvvəl yaranıb, ancaq mən elə düşünürəm ki, sevgi əvvəl yaranıb və bu sevgi sözün yaranmasına zəmin yaradıb. Deməli, lektor yaxşı alim, müəllim yox, həm də şəxsiyyət olmalıdır.

Nəticə. İnteraktiv təlim qabaqlayıcı, fəal təlimdir. Müasir mühazirələrin təşkilində fəal təlimin prinsipləri əsas götürülməlidir (2, s.10). Müasir mühazirələr interaktiv olmalı və C.Dyu, L.C.Vıqotski, Z.Veysova (2, s.2), F.N.İbrahimov, H.Əhmədov, Y.Kərimov, F.Rüstəmov, S.Bədiyevin (1, s.2) dediyi kimi öz ardınca inkişafı aparmalıdır. Müasir mühazirələr fəal təlimin pedaqoji, psixoloji, sosioloji vəzifələrini nəzərə alaraq təşkil edilməlidir. İstər distant istərsə də ənənəvi təhsildə müasir dövrün tələblərinə cavab verən mühazirələrin rolu əvəzsizdir.

Ədəbiyyat

1. Bədiyev S.R. Yeni təlim texnologiyaları dərslərdə. Şəki, 2006.
2. İbrahimov F.N, Hüseynzadə R.L. Pedaqogika. (Ali məktəb tələbələri üçün dərslik) I cild. Bakı: Mütərcim, 2013.
3. Paşayev Ə.X, Rüstəmov F.A. Pedaqogika yeni kurs. (Pedaqoji universitetlərin və ali pedaqoji təktəblərin tələbələri üçün dərs vəsaiti). Bakı: Çaşıoğlu, 2002.
4. Rüstəmov F.A., Dadaşova T.Y. Ali məktəb pedaqogikası. (Magistratura pilləsi üçün dərs vəsaiti). Bakı: Nurlan, 2007.
5. Veysova Z. A. Fəal təlim. Müəllimlər üçün vəsait. Bakı, Unicef, 2009.
6. Данилов А.И. Требования к лекции, семинару и практическому занятию. 2015.
7. Я. Кратов. "Формы организации учебного процесса в вышей школе". Педагогика и психология высший школы. Инфра-Москва, 2016.

С.Т.Фейзуллаева

Лекция – как основная форма обучение в высщих учебных заведениях

Резюме

Статья посвящена организации лекций, являющихся одним из основных форм обучения в высших учебных заведениях. Автор анализирует разные подходы педагогов к аксеологии лекций, отмечает роль, цель, виды и критерии организации их в высших школах. В статье выяснены структуры и правила организации лекций, а также преимущество их разных форм. В конце автор пришел к выводу о том, что в современном мире интерактивные лекции имеют больше возможностей, чем другие виды лекции.

S.T.Feyzullayeva

Lecture - as the main form of training at universities

Summary

The article is dedicated to the lectures, which are one of the main forms of training at universities. The author analyzes the views of teachers on lectures, explores the importance, the purpose, the types of lectures in higher education and the requirements for their organization. The article clarifies the structure and organization of various lectures, noting the advantages of each of them. In the end, the author came to the conclusion that interactive lectures have more opportunities in modern times.

Rəyçi: ped.e.d., prof. F.N.İbrahimov

Redaksiyaya daxil olub: 16.04.2021

E.R.HACIYEVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

PEDAQOJİ İRSİMİZDƏ MİLLİ-QÜRUR HİSSİNİN FORMALAŞDIRILMASI PROBLEMİNİN QOYULUŞU

Açar sözlər: *maarifçi, formalaşması, milli süur, pedaqoji irs, ənənə.*
Ключевые слова: *просветитель, формирование, национальное сознание, педагогическое наследие, традиция.*
Key words: *educators, formation, national consciousness, the pedagogical inheritance, tradition.*

İnsan ictimai tərəqqi kontekstində, ictimai inkişafın gedişində şəxsiyyət səviyyəsinə yüksəlir. Onun qarşıya qoyduğu məqsəd və məram şüurlu dərketmə prosesində üzə çıxır. İnsan kimliyini dərk etdikcə kamilləşir, xaraktercə yeni məzmuna malik əxlaqi sifətlər sahibinə çevrilir. Həyat hadisələrindən özünün məntiqi zövqünə uyğun nəticələr çıxarıb bütövləşir. Özünü bir fərd kimi duyub qiymətləndirir, arzu və istəklərinin arxasınca mənalı ömür sərf edərək, yaşayışının mənasını bu yolla başa vurmağa cəhd edir. O, özünün tarixi keçmişi, indisini və gələcəyini aydın dərk edib qiymətləndirir. Belə halda şəxsiyyətin xarakterində milli-qürur, milli-mənlik şüuru formalaşır, ruhi aləmi yeni milli məzmun çaları alıb, cəmiyyət hadisələrinə milli dərketmə prizmasından nəzər salır. Müstəqil şəxsiyyətin ən vacib həyati keyfiyyətlərinin daşıyıcısına çevrilən mühüm psixoloji-idraki xüsusiyyətlər bu zəmindən nəşət alıb müasir gəncliyin ruhi aləmini, mənəvi təkamülünü təzələyir və ona milli ləyaqət, milli namus, milli həya, milli təəssübkeşlik kimi nəcib zəruri xislət bəxş edir. Bunun nəticəsi olaraq gənclərimizdə milli-özünüdərk, özünəqayıdış və milli-qürur prosesləri gücələnir. Bunu 44 günlük Vətən müharibəsinin nəticələri də bilavasitə sübut etdi.

Milli-qürur hissinin formalaşdırılması dedikdə, biz, mənsub olduğumuz xalqın milli təfəkkür tərzinə, milli ləyaqətinə yiyələnməyi nəzərdə tuturuq. Öz soykökünə sıx bağlılığı, hər yerdə və hər zaman öz xalqının düşüncə tərzinə, milli ruhuna, adət-ənənələrinə uyğun davranmağı, fəaliyyət göstərməyi və bununla iftixar etməyi milli-qürur hissinin əsas meyarları hesab edirik.

Bu zəmindən ümumbəşəri əxlaqi keyfiyyətlərin-humanizmin, demokratizmin, xəlqiliyin, bəşəriliiyn, insaniliyin, xeyirxahlığın, dini fütuhatın, məhəbbət və nifrətin əldə olunmasında, mənimsənilməsində hər bir xalqın vətənpərvərliyi ilkin olaraq milli hisslər zəmini üzərində qurulmuş, bu müqəddəs hissdə doğma Vətənə, doğma xalqa, onun tarixinə, dini etiqadına, mənəvi dünyasına və dilinə qızğın məhəbbət, hədsiz sədaqət xisləti çulğalaşmalıdır.

Azərbaycan maarifpərvərlərinin həyati düşüncə tərzində, milli-istiqlal harayında, maariflənmə ideyalarının yayılmasında bu problemlərin əhəmiyyəti böyükdür. Millilik odur ki, insan öz mayasının hardan yoğrulduğunu hiss etsin, duyub qiymətləndirməyi bacarsın. Bu münasibətlə vaxtilə deyilmiş bir kəlamı xatırlamaq yerinə düşər: "… Azərbaycanlılar milliyyət etibarilə Türk, din etibariylə İslam, mədəniyyəti etibarıyla şərqlidirlər. Kəndi ləhcəyi-məxsusəsi ilə Anadolu Türkcəsinə yaxın şivə ilə qonuşan Azərbaycan Türkü, müxtəlif şivələrə malik olduğu yerlərə nisbətlə müxtəlif isimlər daşıyan böyük Türk ağacının budağıdır…" (2, s.7).

XIX əsrin sonu, XX əsrin əvvəllərində tərtib edilmiş dərslik və qiraət kitablarında "Vətən dili" (1888), "Bəsirətül-Ətfal" (1901), "Birinci il" (1909), "İkinci il" (1908), "Üçüncü il" (Yeni məktəb-1900), "Uşaq çeşməyi" (1907), "Gülzar" (1912), "Balalara hədiyyə" (1912) milli xalq düşüncəsində olan milli mənəvi sərvətlər toplanmışdır. Yeni nəslin əxlaqi keyfiyyətlərinin-xəlqiliyin, humanizmin, milli azadlığın, milli-mənliyin, milli qürurun aşılanmasında bu dərsliklərin hər birinin özünəməxsus böyük rolu olmuşdur. Milli-mənəvi dəyərləri, o cümlədən milli qüruru ana dilinin, sadə xalq dilinin əsas mənbəyi hesab edən

dərslik müəllifləri (A.O.Çernyayevski, S.Vəlibəyov, R.Əfəndiyev, F.Köçərli, A.Şaiq, A.Səhhət, M.Mahmudbəyov) ana dilindən söz düşəndə ilk növbədə xalq dili xalqın milli mənliyi, azadlığı məsələsini irəli sürürdülər. Dərsliklərdə və mətbuat səhifələrində K.D.Uşinskinin "Xalqın dili, onun mənəvi həyatının heç bir vaxt solmayan və daim çiçəklənən, tarix sərhədlərindən çox uzaqlarda başlanmış boyasıdır. Dildə bütün xalq, onun vüqarı və bütün vətəni canlanmış olur" fikrini daha geniş şəkildə təbliğ edirdilər.

Hər birimizə aydındır ik, keçmiş, indiki və gələcək nəsillər mənəvi keyfiyyətlər və eləcə də əxlaq haqqında toplanmış, tarixin imtahanlarından çıxmış, büllurlaşmış həmin təcrübə materiallarına əsaslanır, onları təfəkkür süzgəcindən keçirir, saf-çürük edib əxlaqi saflığı üçün ondan istifadə edir. Bu mənada tarixi təcrübə sınaqlarından keçib bizim dövrə qədər gəlib çatmış milli oyanış mənbələri ancaq keçmişə aid olmayıb, həm də gələcəyə aiddir (T.Ə. Nəbiyeva).

Haqqında bəhs olunan tarixi dövrün məşhur maarifpərvərlərinin yaradıcılığında bu cəhətdən xarakterik olan həyat hadisələri sırasında milli-əxlaqi səciyyə daşıyan məsələlərin şəhri mühüm yer tuturdu. Onların əxlaqi səciyyə daşıyan pedaqoji fikri və düşüncələrində xalqı düşünmək, elin qeyrətini çəkmək və bununla qürur duymaq, millətin qayğısına qalmaq, onun parlaq istiqbalı uğrunda fədakarlıqla çalışmaq, ictimaiyyətin xeyrinə olan işlərə daha möhkəm girişmək, bu yolda heç bir şeydən çəkinməmək, hətta, lazım gələrsə bu məslək, bu ideya yolunda candan belə keçmək təbliğinə geniş yer verilirdi.

Felyetonda əsas məqsədlərdən biri kimi öz doğma ana dilinə xor baxan burjua ziyalılarının ifşası, milli düşüncədən, milli qeyrətdən uzaq, rəncirə düşən üzdəniraq gənclərin dolaşıq əməlləri tənqid olunur, mədəni həyatı təzələşdirməyin ən başlıca yolu olan maarifçilik ideyalarını geniş yaymaq, köhnə, mürtəce adət və ənənələrə atəş açmaq, dil azadlığı uğrunda qətiyyətlə çalışmaq, dilimizin saflığını qorumaq, demokratik fikirləri müdafiə, birinci növbədə xalqın mənafeyini, onun qururunu əsas tutmaq üçün özündən əvvəlki maarifpərvərlərin M.F.Axundovun, H.B.Zərdabinin, S.Ə.Şirvaninin, N.B.Vəzirovun, F.Köçərlinin bu barədəki fikirlərinə haqq qazandırır, onların bu yolda çəkdikləri zəhməti çox yüksək qiymətləndirirdi.

Bütün bu deyilən məsələləri müasir həyat hadisələri ilə vəhdətdə götürərkən onu qeyd etməliyik ki, tarixi dövrun sələflərinin öz dövrlərinə görə qiymətli ideyaları bu gün milli əxlaqımızın bütün cəhətlərini işıqlandırmaq yolunda dəyərli töhfədir. Bu irsdən faydalanmaq nəcib və müqəddəs işdir.

İndi respublikamızda gedən inqilabi dəyişikliklər prosesində uşaq və gənclərin tərbiyəsinə diqqət xeyli artmışdır. Çünki ölkədə təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya etdiyi bir dövrdə cəmiyyət üzvlərində milli qeyrətin, milli-qürur hissinin olması çox mühüm bir şərtdir. Belə bir milli qürur hissi dövlətin gələcəyi olan gənc nəslə aşılanan tərbiyədən çox asılıdır. Cəmiyyətin sosial-iqtisadi və mənəvi inkişafının yeni mərhələsində məktəbin sosial rolunun artması, gənc nəsillə kompleks şəkildə aparılan tərbiyəvi işin, məktəbin ailə ilə əlaqələrinin getdikcə mürəkkəbləşməsi bütün tərbiyəvi iş sisteminə yanaşmanın genişlənməsini zəruri edir. Bu cəhətdən məktəbli şəxsiyyəti kompleks tərbiyə nümunəsində, məktəbin ailə ilə əlbir fəaliyyəti nəticəsində formalaşdırılmalıdır. Əlbəttə, bundan başqa, hər bir ailə və məktəb özü də tərbiyə işinin ayrı-ayrı sahələri üzrə mövcud iş quruluşundan və nümunəsindən faydalanmağı da inkar etmir.

Bu cəhətdən uşaqlarda elmi dünyagörüşün, milli-mənlik şüurunun, milli-qürur hisslərinin formalaşması amilləri də müstəsna əhəmiyyət kəsb edir. İndi milli təhsil konsepsiyasının uğurla həyata keçirildiyi Təhsil Qanununa uyğun milli tərbiyənin geniş istiqamətdə tədqiq və tətbiq edildiyi, xalqın qiymətli adət-ənənələrinin, milli bayramlarının, dini etiqadlarının özünə qaytarıldığı, tarixin açılmamış qatlarının aşkarlandığı bir dövrdə uşaqlarda milli-mənlik şüuru, milli-qürur hissi kimi mənəvi keyfiyyətlərin formalaşdırılması zəruri həyati tələbatdan irəli gəlir.

Respublikamızın demokratikləşmə və müstəqillik yolunda inamlı addımlar atmağın ən vacib və labüd şərtlərindən biri kimi milli tərbiyə zəminində pedaqoji fikir nümayəndələrinin tarixin sınaqlarından çıxmış fikirlərinə istinad etmək bu gün çox vacib həyati tələbatdır. İllər boyu

bizi soykökümüzdən ayıran sovet təhsil sistemi milli şüurumuzu, mənliyimizi, qururumuzu məhv etmiş, öz tariximiz, mədəniyyətimiz əvəzinə, başqalarını öyrənmiş və təbliğ etmişik.

Hazırkı şəraitdə ailə, məktəb və ictimaiyyət arasında milli-mənlik, milli-qürur şüurunun qoyuluş tərzinin hansı forma və metodlarla həyata keçirməyin imkan və vasitələrini də ciddi şəkildə mənimsəməliyik.

Ədəbiyyat

1. Rüstəmov F.A. Azərbaycanda pedaqoji elmin inkişaf tarixindən. B., 1992.
2. Rəsulzadə M.Ə. Azərbaycan Cumhuriyyəti. İstambul, 1990.
3. Əhmədov H.M. Azərbaycanda pedaqoji fikrin inkişaf tarixi. B., ADPU, 2007.
4. Abbasov A.N. Milli əxlaq və ailə etikası. B., Mütərcim, 2016.

Э.Р.Гаджиева

Постановка проблемы формирования сознания национального достоинства в педагогическом наследии

Резюме

В статье исследуется педагогическое наследие азербайджанских просветителей. Исследовано формирование национального сознания. Выдвинуты важные факторы, которые значительны по сей день. Из исследования можно прийти к выводу: возможно в взаимосвязанной форме в школе и семье старшеклассникам передать о том, как береглось и сохранялось время от времени, в течения тысячелетий традиции государственности.

E.R.Hajiyeva

Statement of a problem of formation of consciousness of national advantage in pedagogical the inheritance

Summary

In article the pedagogical inheritance of the Azerbaijani educators is researched. Formation of national consciousness is researched. The important factors which are significant to this day are put forward. From this ressearch mayle took this conclusion: i tis possible with connection form in school and family to say about this to the children that, how historically developed different state atributes.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 23.04.2021

A.Ə.HÜSEYNOVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

DEMOQRAFİK AMİLLƏR VƏ ŞAGİRDLƏRİN AİLƏ TƏRBİYƏSİ

Açar sözlər: *demoqrafik amillər, şagirdlərin fəlim fəaliyyəti, natamam ailələr, çətin tərbiyə olunan uşaqlar, müəllim-şagird münasibətləri.*

Ключевые слова: *демографические факторы, учебная деятельность учащихся, неполные семьи, трудные дети, отношения учителя и ученика.*

Key words: *demographical features, education activities of pupils, single families, difficult bringing up children, attitudes between teachers and pupils.*

30 ildir ki, ərazimizin xain ermənilər tərəfindən işğal olunması, 30 illik müharibənin, xeyli sayda şəhid və həlak olanlarımızın nəticəsində doğum indeksi aşağı düşmüş, demoqrafik amillərlə bağlı boşanma əmsalı və miqrasiya artmış, dünya miqyasında miqrasiya daha intensiv xarakter daşımağa başlamışdır. Ona görə də XXI əsrdə demoqrafik proseslərdə köklü keyfiyyət və kəmiyyət dəyişikliyi baş vermişdir. Bu dəyişiklər cəmiyyətin bütün inkişaf mərhələlərində baş vermişdir. Lakin XXI əsrdə bu dəyişikliklər bütün ölkələrdə sabit xarakter daşımamış, tez-tez dəyişdiyi üçün əhalinin həyat fəaliyyətinə bu və ya digər dərəcədə təsir etmişdir. XXI əsrdə demoqrafik amillərin stabil xarakter daşımaması əhalinin həyat fəaliyyətində əlavə çətinliklərlə müşahidə olunur. Təsadüfi deyildir ki, artıq keçən əsrin 70-ci illərindən etibarən demoqrafik proseslərin psixoloji, ekoloji, siyasi, coğrafi və s. nəticələrinə xüsusi diqqət yetirilir. Maraqlıdır ki, demoqrafik amillərin pedaqoji nəticələri də ayırd edilir. Sevindiricidir ki, bu problem keçmiş SSRİ məkanında ilk dəfə azərbaycanlı pedaqoq alim H.Ə. Əlizadənin diqqətini cəlb etmişdir (2, s.53-70). H.Ə. Əlizadənin tədqiqatları bizim üçün özünəməxsus maraq kəsb edir. Lakin təlimdə geridə qalma problemi H.Ə. Əlizadənin tədqiqat məqsədindən kənar olduğu üçün, o bu problemə dolayı yolla toxunmuşdur. K.E. İqoşev və Q.M. Minkovskinin demoqrafik amillərin pedaqoji nəticələri haqqında fikirləri də maraqlıdır. Onlar qeyd edirlər ki, "az-uşaqlılıq - müasir ailədə baş verən yeganə dəyişiklik deyil Boşanma, ər və ya arvadın birinin ölümü və nigahdan kənar doğum nəticəsində natamam ailələrin sayı artmışdır" (4). Müəlliflər ailədə yaranmış çətinlikləri ailə tərbiyəsi baxımından təhlil etməyi daha məqsədəuyğun sayırlar. Halbuki qeyd olunan demoqrafik amillərin neqativ təsirini təkcə ailənin qüvvəsi ilə aradan qaldırmaq mümkün deyil. Digər alimlərin tədqiqatlarında problemə xüsusi diqqət yetirilməmişdir. Halbuki, pedaqoji təcrübədən məlum olduğu kimi, son illərdə köklü dəyişikliklərlə xarakterizə olunan demoqrafik amillər şagirdlərin təlimdə geridə qalmasına xüsusi şərait yaradır.

Deyilənlərdən aydın olur ki, təlimdə geridə qalma ciddi pedaqoji problem olub, məktəbin pedaqoji işinin səmərəsini olduqca aşağı sala bilər. Eyni zamanda, məktəb şagirdin təlimdə geridə qalmasını vaxtında aradan qaldıra bilməzsə, bu pedaqoji cəhətdən çox ağır nəticələrə gətirib çıxara bilər. Bu istiqamətdə geridə qalan şagirdlərə müəllimlər ciddi fikir verməli, onların geridə qalmalarının səbəblərini vaxtında müyyən etməli və həmin amillərin neqativ təsirlərini aradan qaldırmalıdırlar.

Müşahidələrdən aydındır ki, Gəncədəki 1 №-li məktəb müəllimlərinin iş təcrübəsi də bizim tədqiqat baxımından xüsusi əhəmiyyət kəsb edir. Müəllimlər şagirdlərin dərsdən sonrakı vaxtlarını küçədə keçirməməsi üçün şagirdləri müxtəlif dərnəklərə cəlb edirlər. Belə ki, məktəbdə dərnəklər fəaliyyət göstərir. Dərnəklərdə uşaqların marağı əsasında tədbirlərin keçirilməsinə üstünlük verilir. Müəllimlər bir məsələyə diqqətimizi cəlb etdilər. Yəni onlar demoqrafik amillərin şagirdin təlim fəaliyyətinə neqativ təsirlərinin aradan qaldırılması istiqamətin-

də elmi-metodiki ədəbiyyatın olmamasından narahat olduqlarını bildirdilər. Onların narahatçılığı təbiidir.

Görünür, bu istiqamətdə elmi metodiki vəsaitlərin çoxaldılıb məktəblərə yayılması günün pedaqoji zərurətlərindən biridir. Lakin qabaqcıl pedaqoji təcrübənin kütləvi şəkildə yayılmasının çoxlu rəngarəng forma və yolları vardır. Təəssüf ki, həmin forma və yollardan məktəb müəllimləri heç də həmişə faydalanmırlar. Halbuki "qabaqcıl təcrübənin ümumiləşdirilməsi və tətbiq edilməsi ilə təkcə məktəb direktorları deyil, eyni zamanda, ictimai təşkilatların rəhbərləri, xalq təhsili orqanlarının işçiləri, qabaqcıl müəllimlər də müvəffəqiyyətlə məşğul ola bilərlər" (5, s.120). Bu baxımdan biz pedaqoji təcrübənin digər müəllimlər tərəfindən öyrənilməsi və tətbiq edilməsi üçün onların mühazirələrinin təşkilinə də xüsusi qayğı ilə yanaşdıq.

Beləliklə deyilənlərdən məlum olur ki, məktəb müəllimləri təlimdə geridə qalan şagirdlərlə görülən iş sahəsində müəyyən təcrübə toplasalar da, onların demoqrafik amillərin neqativ təsirlərinin aradan qaldırılması baxımından iş təcrübəsini o qədər də qənaətbəxş saymaq olmaz. Müəllimlərin yalnız 18%-i bu ya digər dərəcədə demoqrafik amillərin təsirlərini nəzərə alır və neqativ təsirlərin aradan qaldırılması istiqamətində müəyyən pedaqoji işlər aparırlar. Lakin həyata keçirilən bir çox pedaqoji işlər sistemli xarakter daşımadığı üçün nəticəsi heç də həmişə faydalı olmur.

Azərbaycan əhalisi uzun əsrlər boyu kiçik kənd, qəsəbə və şəhərlərdə yaşamışdı. Əsrlərin sınağından çıxmış belə həyat tərzi iki cəhətdən xüsusi maraq kəsb edirdi. Yaşayış massivində (kənd, qəsəbə və şəhər) demək olar ki, hamı bir-birini tanıyırdı, hətta onu da demək mümkündür ki, belə hallarda əhalinin hamısını bir-biri ilə qohumluq əlaqələri bağlayırdı. Əhalinin bir-birini tanıması və qohumluq əlaqələri belə həyat tərzində sosial nəzarət prinsipinin mövcudluğu ilə nəticələnmişdir. Sosial nəzarət insanların həyat fəaliyyətində özünəməxsus pedaqoji çalarlara malik idi. Miqrasiya nəticəsində əhalinin kütləvi şəkildə bir yaşayış məskənindən digər yaşayış məskəninə köçməsi, şəhərlərin böyüməsi, kənd əhalisinin yeniləşməsi və s. sosial nəzarətin yox olmasına səbəb oldu.

Uzun əsrlər boyu hər bir ailə qohum ailələrinin (dayının, əminin, bibinin, xalanın, babanın, nənənin və b. əhatəsində yaşamışdır. Əhalinin həyat fəaliyyətində bu cəhət özünəməxsus pedaqoji əhəmiyyəti ilə fərqlənirdi. Belə ki, əmilərin, bibilərin, dayıların, xalaların uşaqları demək olar ki, günün əksər hissəsini bir yerdə olurdular. Eyni (yaxın) ailə adət-ənənələrinə, mədəniyyətinə malik uşaqların günlərinin əksər hissəsini bir yerdə keçirməsi, onların hər birinin ünsiyyət tələbatının ödənməsi və bu əsasda uşaqlararası münasibətlər sisteminin düzgün formalaşması üçün xüsusi şərait yaradırdı. Ailə qruplarından hər biri (əmi, dayı, xala, bibi, baba, nənə və s.) bu uşaqların hamısına öz doğma övladı kimi həm nəzarət edir, həm də onların fəaliyyətinin düzgün təşkilinə rəhbərlik edirdi. Uşaqlar, demək olar ki, nəzarətsiz qalmırdılar. Fikir verin, ailələrin həyat tərzi elə təşkil edilmişdir ki, uşaqların tərbiyəsi baxımından bu gün, demək olar ki, bütün pedaqoqlar tərəfindən qəbul edilən "tərbiyə-fəaliyyət və ünsiyyətlə sıx əlaqədədir" qanunauyğunluğun reallaşması üçün tam şərait yaranırdı.

Şəhərlərin böyüməsi Azərbaycanda nuklear ailə tipinin xüsusi çəkisinin artmasına səbəb oldu. Tədricən ailənin müxtəlif demoqrafik tipləri yaranırdı.

Ailədə bir neçə nəsil – bir, iki, üç, dörd və s. nəsil yaşaya bilər. Əgər ailədə üç və daha çox nəsil (məsələn: baba-nənə, ata-ana, uşaqlar) yaşayırsa, belə ailə - mürəkkəb ailə adlanır. Ailədə bir (ər-arvad) və iki (ata-ana və uşaqlar; ana və uşaqlar; ata və uşaqlar) nəsil yaşayırsa, belə ailə nuklear ailə sayılır.

Son illər pedaqoqlar daha tez-tez ailənin tiplərinə müraciət edirlər. V.İ.Smirnov bu istiqamətdə ailənin aşağıdakı tiplərinə üstünlilk vermişdir:

- Uşağın sayından asılı olaraq: - uşaqsız, biruşaqlı, az uşaqlı (2-3 uşaq) və çox uşaqlı (3 və daha artıq);

- Ailənin tərkibindən asılı olaraq: - bir nəsilli (ancaq ər-arvad), ikinəsilli (valideynlər və uşaqlar), üç və daha artıq nəsilli (valideynlər, onların valideynləri və uşaqlar);

- Ailənin quruluşundan asılı olaraq: - tam (ata, ana və uşaqlar), natamam (ana və ya ata uşaqla), nigahdan kənar (natamam ailənin bir variantı: uşaq nigah qeydiyyatından keçməmişdən əvvəl anadan olur);

- Ailədə qarşılıqlı münasibətlərin xarakterindən asılı olaraq: uğurlu və uğursuz ailə - ənənəvi bölgü, - ahəngdar, dağılmaqda olan, dağılmış, natamam ailə.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı, Mütərcim, 2016.
2. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı, BDU-nun nəş., 1979.
3. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Bakı, Səda, 2018.
4. Игошев К.Е., Минковский Г.М. Семья, дети, школа. М., Юридическая литература, 2009.
5. Внедрение достижений педагогики в практику школы. Под ред. Гмурмана В.Е. М., Педагогика, 2011.

А.А.Гусейнова

Демографические влияния и семейная воспитания учащихся

Резюме

В статье исследованы факторы, нарушающие целостность семьи, а также выявлены причины появления неполных семей. Далее изучены уровень влияния этих факторов на учебную деятельность учащихся, определены пути их устранения. Данная статья имеет значение в практике современного преподавания и образования в школьном и семейном воспитании.

A.A.Huseynova

Influence of demographical features to the education activities of pupils

Summary

In article have been revealed the factors, disturbed the completeness of the modern families, also causes of formation of incomplete families. Learned the levels of influence of these factors to the education activities of pupils and defined the abilities of their elimination. This article is very useful for teachers- tutors, chives of schools, also for fusiliers.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 06.04.2021

A.M.HÜSEYNZADƏ
e-mail: huseynzadeaytac879@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MƏKTƏBLİLƏRDƏ TOLERANTLIĞIN FORMALAŞDIRILMASININ NƏZƏRİ MƏSƏLƏLƏRİ

Açar sözlər: *tolerantlıq, kiçikyaşlı məktəbli, dözümlülük, dözümlü münasibət, şəxsiyyətin inkişafı.*
Ключевые слова: *толерантность, младшеклассник, терпимость, терпимое отношение, развитие личности.*
Key words: *tolerance, primary school education, tolerance, tolerance attitude, personality development.*

Cəmiyyətdə müxtəlif qarşıdurmaların kəskinləşməsi, sosial və dini münaqişələrin artması hər bir ölkənin xarakterik xüsusiyyətlərindəndir. Belə bir şəraitdə məktəblilərdə tolerantlığın tərbiyə olunması müasir təhsilin ən vacib və aktual vəzifələrindən biridir ki, məhz bəşəriyyətin yaşaması onun həllindən asılıdır. Bu baxımdan kiçikyaşlı məktəblilərdə tolerantlığın formalaşdırılması problemini aktual hesab etmək olar. Kiçik məktəbyaşlı uşaqlarda tolerantlığın əsaslarının formalaşdırılması ən çətin pedaqoji problemlərdən biridir. Onun həlli pedaqogika tərəfindən uşaq və gənclərin tolerantlıq tərbiyəsinə dair toplanılmış təcrübənin (3) dəstəyi ilə yanaşı, həm də bəşəri fəlsəfi təfəkkürün potensialını, tolerantlığın əsaslarının formalaşdırılması üçün tarixi-mədəni və sosial mədəni kontekstin dərk olunmasında əsas təşkilati prinsip kimi sistemliliyi də nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, fəlsəfəyə ilk öncə tərbiyə problemlərini, o cümlədən tolerantlıq münasibətlərini dərk etmək xarakterik olsa da, bu keçmiş dövrün mütəfəkkirləri üçün mərkəzi problem olmamışdır. Antik dövrün fəlsəfəsi müxtəlif pedaqoji fikirlərlə zəngindir. Xüsusən də, gənclərin tərbiyəsinə Demokrit, sofistlər, Sokrat, Platon, Aristotel və başqaları daha çox diqqət yetirmişlər.

Antik dövrdə insanlarda olan etiqadçılığa əsasən alimlər bu qənaətə gəlmişlər ki, tərbiyə cəmiyyətə daxil olan proseslərin tərkib hissəsidir (yaxud da sosiallaşmasıdır). Ona görə də, müasirlik nöqteyi nəzərdən antik dövrdə vətəndaşın "böyüməsi" mənzərəsini, yaşlı nəsil tərəfindən dəyərli etik norma və qaydaların kiçik yaşlı nəslə məqsədyönlü ötürülməsi kimi şərh etmək olar. Antik dövrdə incəsənətə vətəndaş və insan tərbiyəsinin ən güclü vasitəsi kimi baxılırdı, fərdin milli, mədəni, və ya dini mənşəyindən asılı olmayaraq antik dövrün sonlarında insan şəxsiyyətinin mütləq dəyəri anlayışı tədricən formalaşmağa başlayır. Belə ki, Apuleyin traktatında və "Qızıl eşşək" ("XI kitabda Metomorfozalar") adlı məşhur romanında ardıcıl şəkildə insan şəxsiyyətinin ayrılıqda dəyəri və digər xalqlara, dinlərə və mədəniyyətlərə qarşı hörmət etməyin vacibliyi barədə fikirlər vardır.

Antik dövrdən bu günə qədər pedaqogikanın inkişaf məsələləri, o cümlədən şəxsiyyətlərarası və millətlərarası münasibətlər fəlsəfi məsələlər ilə birbaşa bağlı olmuşdur. Bu, ümumiyyətlə elmi biliklərin, xüsusən də fəlsəfə və pedaqogikanın formalaşması və inkişafının ümumi xüsusiyyətlərindən irəli gəlir.

Fəlsəfə meydana gəldiyi gündən onun tərkibində bütöv insan fəaliyyəti haqqında bir elm olan tərbiyəyə dair biliklər sistemi inkişaf etmişdir: insanda dünyaya, cəmiyyətə, adamlara, əməyə, təbiətə, sevimli peşəyə, özünə qarşı müəyyən münasibətlərin formalaşmasına dair. Bununla yanaşı, fəlsəfi biliklər həm də insanın ətraf aləmlə, cəmiyyətlə əlaqəsinin yaranmasına, şəxsiyyətin özünü dərketməsinin inkişafına köməklik edir. Təbiidir ki, fəlsəfi əsaslardan kənarda həqiqi tərbiyə nəzəriyyəsi mövcud deyildir. Ona görə də pedaqoji fikir bütün

tarix boyu müxtəlif xalqların təlim-tərbiyə sistemlərinə dair çoxlu empirik təcrübə ilə zənginləşərək, şəxsiyyətin tərbiyəsinə yönəlmiş şəxsi pedaqoji sistemini hazırlamış və yaratmışdır.

Pedaqoji fikir tarixinin görkəmli tədqiqatçısı prof. F.A. Rüstəmovun araşdırmalarından da (1) görünür ki, XII-XIII əsrlərin sxolastik fəlsəfəsi (Pyer Abelyar, Foma Akvinski və b.), Qərbi Avropaya nüfuz etmiş VIII-XIV əsrlərin şərq-müsəlman fəlsəfəsi də ("Qurani Kərim", Nizami Gəncəvi, Nəsirəddin Tusi və b.) Avropa pedaqoji fikrinin (həm də dünyəvi) inkişafına təkan vermişdir. Orta əsrlər dövründə tərbiyə məsələləri Şərqdə Mədrəsələrlə, Avropada isə Kilsələrlə sıx bağlı olub, əvvəlcə filosof-ilahiyyətçilər tərəfindən inkişaf etdirilmiş, tam dini çalarlar daşımış pedaqoji ideyalar müsəlman din xadimləri və kilsə doqmaları tərəfindən təzyiqə məruz qalmış və buna uyğun olaraq bütün insanların Allah qarşısında bərabərliyi təsdiq olunmuşdur. Bununla yanaşı, çox nadir istisnalar olmaqla, dini dözümsüzlük ideyaları üstünlük təşkil edirdi. Müsəlman aləmində Məhəmməd Peyğəmbər(ə.s.) dinindən, etiqadından, hansı xalqın nümayəndəsi olmaqdan asılı olmayaraq bütün insanlığa xitap edərək adamları azadlığa, bərabərliyə, dözümlülüyə, birgə yaşayışa, mərhəmətə, birliyə, qarşılıqlı xeyirxahlığa, digər dinlərə hörmətə, mehribançılığa, gözü toxluğa, dini dözümlülüyə və s. çağırırdı. İnsan cəmiyyətinin əsası kimi dözümlülüyə dair pedaqoji ideyaların sonrakı inkişafı İntibah dövrünün (XIV-XVI əsrlər) mütəfəkkirlərinin yazılarında öz əksini tapmışdır.

İntibah dövrünün fəlsəfəsində humanist pedaqoji ideyalar səslənilir (Avropada Vitterina de Feltre, Fransua Rable, Mişel de Monten, Yaxın Şərqdə, o cümlədən Azərbaycanda İmadəddin Nəsimi, Əssar Təbrizi, Əvhədi Mərağai, Şah İsmayıl Xətai və b.), insan şəxsiyyətinin hərtərəfli olması vurğulanırdı. Qeyd etmək vacibdir ki, milli, dini və sosial mənşəyindən asılı olmayaraq, insanın vahid təbiətinin tanınması çox zaman əmək tərbiyəsinin gedişində üzə çıxarılmış və əsaslandırılmışdır. Buna görə də İntibah və Yeni dövrün bir çox sosial-fəlsəfi konsepsiyaları pedaqoji sistem və konsepsiyaların yaranmasının əsası oldu. Belə ki, XVIII əsrin humanisti, yazıçısı və siyasətçisi Tomas Morun utopik sosializmi (işgəncəli ölümünə görə XX əsrdə katolik kilsə tərəfindən şəhidlərin sırasına daxil edilmişdir) ümumi icbari təhsil və əmək tərbiyəsi konsepsiyasının meydana gəlməsinin əsası oldu. Bunun ardınca eyni ilə F. Bekonun sensualist fəlsəfəsi əyani təlimin əsasına çevrildi. Ayrı-ayrı sahələr üzrə fənlərin tədrisinə və tərbiyə sisteminin inkişafına imkan verən pedaqoji tədqiqatların aparılmasına, həmçinin pedaqoji ideyalar üçün təcrübəni yeganə mənbə elan etməyə imkan verən ən güclü stimul isə C. Lokkun əsərləri oldu. Alman alimi İmmanuel Kant şəxsiyyətin özünüdəyərləndirməsi prinsipini təsdiq etdi, təhsildə fəaliyyətin başlanğıcı ideyası isə Fridrix Şellinqinin əməyinin nəticəsi kimi meydana gəldi. H. Hegelin sayəsində pedaqogikada tarixçilik ideyası geniş yayılır. İstehsalat sahəsində əmək tərbiyəsi və politexnik təlim ideyası R. Ouenin yaradıcı təkanı sayəsində meydana çıxır. K. Marksın və F. Engelsin təlimləri isə keçmiş SSRİ-də bütün kommunist tərbiyə sisteminin əsasına çevrilir ki, bu da sosialist pedaqogikasının fəlsəfi əsaslarının yaranmasına gətirib çıxarmışdır.

Təlim-tərbiyə məsələləri həmişə rus mütəfəkkirlərinin də böyük marağına səbəb olmuşdur. XVI əsrdən etibarən Rusiyada təhsil müəssisələri üçün ilk proqramlar yaradılır, tədricən elmlər qruplara bölünür. XVIII yüzillikdə isə, maarifçilik islahatları mərhələsində Rusiyada dövlət məktəbləri yaradılır, peşə təhsilinin metodikası təşəkkül tapır. Bu işdə Peterburq Elmlər Akademiyasının və uşaqların təhsil və tərbiyəsinə yanaşmaların hazırlanmasında Moskva universitetinin (o cümlədən, onun faktiki yaradıcısı M.V. Lomonosovun) rolu çox böyük olmuşdur. XVIII yüzilliklərdə rus təhsilinin ən keyfiyyətli yaradıcılarından biri olan İ.İ. Beskovun rolunu da xüsusilə qeyd etmək lazımdır.

XIX əsrin sonu və XX əsrin əvvəlləri rus müəllimliyinin pedaqoji görüşlərinin çiçəkləndiyi dövrdür. Bu zaman Rusiyada fəlsəfi cəhətdən təhsil problemlərinin dərk olunmasına, o cümlədən mədəniyyətlərarası və dinlərarası qarşılıqlı təsir məsələlərinə həsr olunmuş, müəyyən mənada bir-birinə tənqidi və polemik münasibəti olan ən məhşur əsərlər meydana çıxır. Bu əsərlər sırasına L.N. Tolstoyun "Tərbiyə haqqında" (5), N.A. Dobrolyubovun

"Tərbiyədə nüfuzun əhəmiyyəti barədə"(2), V.V. Rozanovun "Maarifçiliyin tənəzzülü" (4) və bir çox başqalarının əsərlərini daxil etmək olar.

XIX əsr rus pedaqogikasının (baxmayaraq ki, dövlət dini olan provaslav dini ilə əlaqəsi mövcud idi) xarakterik xüsusiyyətləri dinlərarası dünyanı qorumaq və mühafizə etmək, eyni zamanda müasir mədəniyyətin təməlinə diqqət yetirmək idi. XIX əsr Rusiya pedaqogikasının öz dini pedaqogikası ilə münasibətləri çox gərgin idi: hərçənd mədəniyyətin dini əsaslarına diqqət qorunub saxlanılsa da, dünyəvilik tendensiyalarına meyl bütün XIX yüzillik boyunca davam etmişdir.

Tədqiqatın metodikasından, onun məzmunundan, alınan elmi nəticələrdən ibtidai siniflərdə tərbiyəvi işlərin təşkili prosesində, uyğun metodik vəsaitlərinin nazırlanmasında, ali pedaqoji məktəblərdə münazirə mətnlərinin tərtibində istifadə etmək olar.

Ədəbiyyat

1. Rüstəmov F.A. Pedaqogika tarixi. Bakı, Ünsiyyət, 2014.
2. Добролюбов Н.А. О значении авторитетов в воспитании // Педагогические сочинения. М., 1999.
3. Касьянова Е.И. Социально-философские основания толерантности; Автореф. дисс… доктора философ. наук. Чита, 2009.
4. Розанов В.В Сумерки просвещения. М.: Педагогика, 2010.
5. Тольстой Л.Н. В чем моя вера? Сб. статей / Сост., вступ. ст. коммент. Б.Ф. Сушкова.- Тула: Приок. кн. изд-во, 2009.

А.М.Гусейнзаде

Теоретические задачи формирования толерантности у школьников

Резюме

В статье определено, что одной из наиболее сложных педагогических проблем является формирование основ толерантности у младшеклассников. Его решение, в дополнение к опыту, накопленному педагогикой в области воспитания толерантности детей и молодежи, также предусматривает потенциал человеческого философского мышления в качестве ключевого организационного принципа в понимании историческо-культурного и социокультурного контекста для формирования основ толерантности.

A.M.Huseynzade

Theoretical issues of tolerance formation among schoolchildren

Summary

In article has been noted, that one of the most difficult pedagogical problems is the formation of the basics of tolerance in schoolchildren. The solution, in addition to the experience gained by pedagogy in child and youth tolerance, also envisions the potential of human philosophical thinking as a key organizational principle in understanding the historical, cultural and social cultural context for the formation of the basics of tolerance.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 17.04.2021

F.N.İBRAHİMOV
pedaqogika üzrə elmlər doktoru, professor

N.B.CƏBRAYILOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

KORPORATİV TƏLİMDƏ ŞAGİRDLƏRİN İDRAKİ FƏALİYYƏTƏ VƏ ÜNSİYYƏTƏ CƏLB EDİLMƏSİ

Açar sözlər: *nəzəriyyə, müasir didaktika, fəal təlim, interaktiv təlim, Korporativ təlim, qrup işi, fasilitasiya qaydaları, elmi izahat, elmi uzaqgörənlik.*

Ключевые слова: *теория, современная дидактика, активное обучение, интерактивное обучение, совместное обучение, групповая работа, правила фасилитации, научное объяснение, научное предвидение.*

Key words: *theory, modern didactics, active training, interactive learning, cooperative training, group work, facilitation rules, scientific explanation, scientific foresight.*

Mövzunun aktuallığı. Korporativ xüsusiyyətli təlimdə şagirdlərin idraki fəaliyyətə və ünsiyyətə cəlb edilməsinin çağdaş zamanımızda pedaqoji fikrin inkişaf səviyyəsinə dayanan nəzəri əsasları qismən işlənilmişdir və onun daha mükəmməl hala gətirilməsinə ehtiyac duyulmaqdadır. Bu isə Korporativ xüsusiyyətli təlimin təşkil və idarə olunmasında, pedaqoji praktikada yanlışlıqların mövcudluğuna səbəb olur. Mükəmməl təlim sisteminin alt sistemi qismində Korporativ xüsusiyyətli təlim tipinin təbiətinin açılması pedaqoji praktikanın tələbatıdır.

Tədqiqat materialları üzrə interpretasiya. Müasir didaktikanın əsas məqsədi təhsil prosesi və onun həyata keçirilməsini ehtiva edən sistemin-pedaqoji gerçəkliyin (xüsusi halda pedaqoji prosesin) öz aralarında qarşılıqlı əlaqələnən qanunlar sistemini kəşf və izah etməkdir. Belə ki, didatika sözügedən proseslər üzrə ayrı-ayrı fakt və hadisələrə deyil, predmetin strukturuna, onun mahiyyətinə bütövlüklə aid olur. Müasir didaktikanın səciyyə daşıyan momentləri problem, ideya, prinsip, qanunlar və bu nəzəriyyədən çıxarılan nəticələrdir. Hazırda praktik pedaqoqların fəaliyyətlərinin əsasına qoymuş olduqları nəzəriyyə pedaqoji aspektli elmi tədqiqatın empirik səviyyəsində əldə edilən nəticələr əsasında yaradılmışdır. Bu nəticələr nəzəriyyədə ümumi ideyalar əsasında birləşdirilərək vahid sistemə salınır və nəzəriyyəyə daxil edilən abstraksiya ideallaşdırma və digər prinsiplər əsasında daha da dəqiqləşdirilir.

Bütün sistemlər kimi, təhsil və təlim nəzəriyyəsi də müəyyən tərkib, başqa sözlə, ona xas olan elementlər arasındakı əlaqə və münasibətlərin məcmusu ilə xarakterizə olunur, tərkibinə və ya məzmununa onun əsas və spesifik anlayış və müddəaları daxil olur. Müasir didaktikanın xüsusi terminlər vasitəsi ilə ifadə olunan anlayışlarında predmet sahəsinə daxil olan hadisələrin xassə və münasibətləri, xüsusi növ cümlələr formasında ifadə olunan əsas müddəalarında isə tam sistem olmaq etibarilə onun predmet sahəsinin qanunauyğun qaydaları və strukturu əks olunur. Bu müddəalardan daha ümumi və fundamental olanlar prinsip adlanıb, nəzəriyyənin məntiqi təşkilində əsas, müqəddəm şərtlər rolunu oynayır. Qeyd etmək yerinə düşər ki, nəzəriyyənin strukturu yalnız cümlə və terminlərin məntiqi münasibətlərini deyil, həmçinin pedaqoji gerçəkliyin nəzəri inkişafının müxtəlif forma, vasitə və üsulları arasındakı münasibətləri də əhatə edir.

Vurğulamaq yerinə düşər ki, nəzəriyyə bilik sistemi olmaq etibarilə müəyyən predmet sahəsinə malik olmaqla gerçəkliyin müəyyən sahəsini adekvat və tam təsvir etməli, başqa sözlə, bu sahənin tədqiqindən alınmış təcrübi məlumatlar nəzəriyyənin əsas prinsip, anlayış, abstraksiya, ideallaşdırma və aksiomları vasitəsilə təsvir olunmalı, nəzəriyyəyə daxil olan

müxtəlif komponentlərin qarşılıqlı əlaqəsi izah edilməlidir (5), (3). Müasir didaktika bu cəhətləri özündə ehtiva edir.

Müasir didaktika şagirdləri müəyyən qədər fəallaşdıran, təlimdə müvəffəqiyyət qazanmağa imkan verən ənənəvi sistemdən bütövlükdə imtina etmək demək deyildir. Ənənəvi sistemin müsbət cəhətlərindən istifadə edərək yeni yanaşmanın, yeni təlim texnologiyalarının, innovasiyaların pedaqoji, psixoloji əsaslarını işləmək və nəticəyönümlü, şagirdə istiqamətlənmiş təlim-tərbiyə prosesinin elmi əsaslarının müasir tələblərə uyğun araşdırmaların aparılması sayəsində ərsəyə gətirilmişdir. Bu nəzəriyyə üzrə reallaşan sistem əsaslanır: təfəkkürün inkişafına səbəb olacaq konstruktivizmə; şagirdlərin sosial inkişafına səbəb olacaq Korporativ təlimə; biliklərin müstəqil əldə edilməsi üçün şəraitin yaradılmasına; bilik və bacarıqların müstəqil şəkildə əldə edilməsinə; müəllimin təşkilatçı, koordinator, bəzi hallarda arbitr rolunda çıxış etməsinə. (2).

Bu nəzəriyyəyə dayanan təlim prosesini aktivləşdirmək üçün düşünmə qabiliyyətini inkişaf etdirmək, yaradıcılığa həvəsləndirmək və öyrənməyə maraq yaratmaq məqsədini güdən müəllim, şagirdi təlimə cəlb edəcək müəyyən metod, texnika və proseduralardan istifadə etməlidir. Şagird təlimin fəal iştirakçısı olmaq üçün hazırlanmalıdır. Müəllim şagirdə dünyanı başa düşməkdə və qazandığı bilikləri real həyat şəraitinə tətbiq etməkdə yardım göstərməlidir. Yeni texnologiyalar tədris strategiyasının yerinə yetirilməsinə istiqamətləndirildiyindən, onlar nəzərdə tutulmuş təlim məqsədlərinə nail olmaqda əsas alət rolu oynayır.

Müasir didaktikaya uyğun mövcud təlim sisteminin müxtəlif alt sistem təbiətli tip və alt tipləri özünə transformasiya etdiyini iddia etmək olar. Bunların sırasına problemli təlimi, alqoritmik təlimi, proqramlaşdırılmış təlimi, fəal təlimi, inteqrativ təlimi, inkişafetdirici təlimi, Korporativ təlimi, inklüziv təlimi və s. aid etmək olar. Yeri gəlmişkən qeyd edək ki, "təlim tipləri", "təlim yanaşmaları", "təlimin alt sistemləri" ilə bağlı verilən şərhlərdə pedaqoqlar arasında fikir ayrılıqları da yox deyildir. Korporativ xüsusiyyətli təlimdə (Bizim subyektiv anlamımıza görə, mükəmməl təlim sisteminə (interaktiv təlim sisteminə) nəzərən Korporativ təlim alt tipdir (kiçik sistemdir). Burada böyük və kiçik sistemlərarası dialektika mövcuddur. Fəal təlim tipi ilə Korporativ təlim tipi vahidin tərəfləri kimi birləşdikdə interaktiv tip təzahür edir. Şagirdlərin idraki fəaliyyətə və ünsiyyətə cəlb edilməsinin çağdaş zamanımızda pedaqoji fikrin inkişaf səviyyəsinə dayanan nəzəri əsasları qismən işlənilmişdir.

Struktur və məntiqi, təhlili, nəzəri biliyin xüsusiyyətlərini daha tam şəkildə müəyyənləşdirməyə imkan verən bu əsaslar, bütün bilik sistemi ilə həm bir sıra ümumi, həm də spesifik cəhətlərə malikdir. Sözügedən əsaslar pedaqoji gerçəkliyin müəyyən sahəsinə (Korporativ təlimə) daxil olan elementlər və onlrın arasındakı invariant asılılıqları təsvir və izah edən, bu sahədə kəşf olunan qanunları vahid bir başlanğıcda birləşdirən bilik sistemidir. Biz Korporativ xüsusiyyətli təlimdə şagirdlərin idraki fəaliyyətə və ünsiyyətə cəlbedilməsinin nəzəri əsasları dedikdə, elmi biliyin keyfiyyətcə xüsusi forması, aidiyyəti predmet sahəsinin mühüm, başqa sözlə, qanunauyğun, ümumi və zəruri daxili əlaqələrini əks etdirən, öz aralarında məntiqi surətdə əlaqələnən fərziyyələrin müəyyən sistemi kimi mövcud olan həqiqi biliklər sistemini nəzərdə tuturuq. Fikrimizcə, nəzəri əsaslar hadisələr qrupunu təsvir və izah edən geniş bilik sahəsinə aiddir.

Korporativ təlim zamanı şagirdlər yalnız birgə fəaliyyət göstərdikləri digər şagirdlərlə eyni vaxtda öz məqsədlərinə çata bilərlər. Korporativ əsaslı öyrənmə təlim tapşırığının elə təşkilini tələb edir ki, şagirdlər dərsin məqsədinə özünün və kiçik qruplardakı yoldaşlarının səyləri nəticəsində nail olsunlar. Korporativ təlimə aid öyrənmə modeli D.Conson və R.Conson tərəfindən yaradılmışdır. Onlar Korporativ öyrənməyə daxil edilməli beş komponent müəyyən etmişlər:

- müsbət qarşılıqlı asılılıq (şagirdlər səmərəli nəticələrə nail olmaqla digər qrup üzvlərindən eyni dərəcədə, qarşılıqlı şəkildə asılı olduqlarını bilməli və buraya məqsəd, tapşırıq, ehtiyat (material, məlumat), rol, mükafat, qarşılıqlı asılılıqlar daxil edilməlidir);

- şagirdlərin üz-üzə qarşılıqlı fəaliyyəti;
- fərdi məsuliyyət (hər qrup üzvü məsuliyyət barədə aydın təsəvvürə malik olmalıdır);
- şagirdlərin müvafiq şəxsiyyətlərarası və kiçik qrup bacarıqları ilə təlimatlandırılması (qrupdaxili davranış qaydaları);
- qrupun fəaliyyəti (şagirdlərin qrupun necə işləməsini qiymətləndirmək, üzvlərin işlərinin faydalı olub-olmamasını müzakirə etmək üçün vaxtı olmalıdır) (2, s.467).

Müasir didaktikanın (bu, həm də mükəməl təlim sisteminin alt tipi kimi təzahür edən Korporativ təlimin ümumi nəzəri əsasıdır) izahedicilik qabiliyyəti elmi biliyin inkişafının bir sıra xüsusiyyətlərindən (xüsusi çətinliklərdən, nəzəriyyədə əks olunan hadisənin müşahidəsinin bilavasitə həyata keçirilə bilməməsindən) irəli gəlir. Müasir didaktikanın əlamətlərindən olan izahat həm də elmi tədqiqatın mühüm metodudur. Vurğulamaq yerinə düşər ki, predmetin mahiyyətinin, onun daxili təbiətinin və inkişaf qanunlarının açılmasında izahat böyük əhəmiyyət kəsb edir.

Hadisəni izah etmək – bu, hər şeydən əvvəl, onun mahiyyətinin tabe olduğu qanunları açmaq deməkdir. Nəzəriyyə ona görə elmi izahatın əsasını təşkil edir ki, o hadisələrin mahiyyətinin sistemləşdirilmiş inkişafıdır, onun müddəa, prinsip, qanun, anlayış və kateqoriyalarında gerçəkliyin mühüm əlaqə və münasibətləri əks olunur. Hadisələrin izah edildiyi qanunların xarakterindən asılı olaraq izahatın müxtəlif növləri bir-birindən fərqləndirilir. İzahatın ən geniş yayılmış növləri səbəbiyyət, funksional və struktur izahatlardır (5).

Onu da vurğulayaq ki, müasir təhsil və təlim nəzəriyyəsi (müasir didaktika) təcrübədə, praktikanın gedişində yoxlanıla bilir. Əslində bu əlamət onun məzmununu həqiqət, inkişaf və təkmilləşmə qabiliyyəti baxımından xarakterizə edir. Qeyd edək ki, sözügedən nəzəriyyənin yoxlanıla bilməsi həm nəzəriyyənin məzmunu ilə onun əks etdirdiyi real obyektlərin xassələri və münasibətləri arasında uyğunluq yaradılması deməkdir, həm də onun məhdudluğunun və gələcək imkanlarının aşkar edilməsi ilə üzvi surətdə bağlıdır.

Müasir didaktika təcrübi faktlarla uzlaşır. Amma onun daha da təkmilləşdirilməsi istisna olunmur. Yeni kimi dəyərləndirilən bu nəzəriyyə ədalət naminə söylənilməlidir ki, "qabaqgörən" əlamətlidir. Bu da məlumdur ki, "izahat" kimi "elmi qabaqgörənlik" də elmi nəzəriyyənin çox mühüm funksiyalarındandır. Belə ki, elmin vəzifəsi yalnız keçmiş və indiki hadisələri açmaq və izah etməklə məhdudlaşmayıb, həm də gələcəyi qabaqcadan görməkdən ibarətdir. Elmi qabaqgörənlik elmi izahatdan ayrılmaz olub, həmişə onun əsasında qurulur.

Bizə məlum olan elmi mənbələrin təhlilindən qənaətə gəlmək olur ki, müasir təlim nəzəriyyəsi əsasında reallaşan Korporativ təlimin təşkilat forması da yeni pedaqoji təfəkkürün inkişaf mərhələlərinə uyğun şəkildə dəyişmələrə məruz qalmışdır.

Burada bir qədər haşiyəyə yer verməyə lüzum görürük. Söyləyək ki, birinci mərhələdə ənənəvi didaktik sistemin elmi-tənqidi təhlili axarında dərsin optimallaşdırılması başlıca psixoloji və pedaqoji problem kimi xüsusi əhəmiyyət kəsb edirdi. Ənənəvi dərsin alternativi kimi müasir dərs (həm də Korporativ təbiətli təlimin təşkilat forması olaraq) anlamı da bu mərhələdə yaranmışdı. Müasir dərs haqqında təsəvvürlərin formalaşması yeni pedaqoji təfəkkürün bərqərar olmasında həlledici əhəmiyyətə malik olmuşdur. Onun başlıca ölçüləri öz əksini, ilk növbədə, müasir dərs konsepsiyasında tapır. "*Müasir dərs*" anlamında *"müasir*" sözünün özünəməxsus evristik mənası var.*"Müasir dərs*" "*bu günkü dərs*" demək deyildir. Zamanın uğurlarına söykənən dərsə müasir dərs deyilir (*bu, Korporativ təbiətli fəal təlimin təşkilat formasıdır* – F.İ.,N.C.). Bu anlamda, adətən, bir-biri ilə üzvi surətdə bağlı olan iki cəhəti ayırd edirlər. Çox vaxt müasir dərs dedikdə, onu təkcə dərsin elmi-nəzəri səviyyəsini yüksəltmək, müasirləşdirmək kimi başa düşürlər. Dərs özünün elmi-nəzəri səviyyəsinə görə zəmanənin uğurlarını əks etdirməlidir. Bu şəksizdir. Lakin müasir dərs anlamını təkcə bu kökdə izah etmək birtərəfli olardı. Söhbət pedaqoji fenomendən gedir. "Müasir" sözü də məhz dərsi səciyyələndirir. Bu, istər psixoloji və pedaqoji, istərsə də dilçilik baxımından belədir. Dərs

təkcə özünün elmi-nəzəri səviyyəsinə görə deyil, həm də pedaqoji konsepsiyasına-yeni pedaqoji təfəkkür ölçüləri ilə qurulmasına görə müasir olur (1)

Müasir dərs konsepsiyasının müxtəlif yönümlərdə təhlili axarında yeni problemlər əmələ gəlmişdir. Bir həqiqət artıq bütün aydınlığı ilə dərk olunurdu: təhsilin nəzəri-metodoloji paradiqmalarını dövrün ölçüləri ilə yenidən qurmadan öz-özlüyündə dərsin müasirləşdirilməsi istənilən effekti vermir (*və verə də bilməzdi*!).

Yeni pedaqoji təfəkkürün inkişafında mahiyyətcə yeni (ikinci) mərhələ əmələ gəlir. Müasir təhsil konsepsiyasının işlənilməsi və müasir dərs konsepsiyasının məhz bu konsepsiya kökündə işlənilməsi ikinci mərhələnin ana xəttini təşkil edir. Hətta birinci mərhələdə xüsusi aktuallıq kəsb edən anlamlar (məsələn, şagirdlərin idrak fəaliyyətinin aktivləşdirilməsi və s.) ikinci mərhələdə yeni mənalarda səslənir. Şagirdlərdə nəzəri təfəkkürün inkişafı önəmli məsələ kimi meydana çıxır və şəxsiyyət baxımından dəyərləndirilir (1).

Onu da qeyd edək ki,"***müasir dərs***" anlayışından istifadə olunması pedaqoji tədqiqatçılar (nəzəriyyəçilər) və praktiklər tərəfindən birmənalı qarşılanmır: dərsə tələblərin dəyişməsindən, onun məktəbin çağdaş vəzifələrinə uyğun qurulmasından və müvafiq terminologiyadan istifadə olunmasından bəhs olunmasına daha çox üstünlük verilir.

Ənənəvi anlamda təhsil, əsasən, təlim-tərbiyə prosesi kimi məna daşıyırdı. Hazırda bu prosesə həm də insan şəxsiyyətini inkişaf etdirməyə istiqamətlənmiş fəaliyyət sahəsi kimi yanaşma üstünlük təşkil etməyə başlamışdır. Bu da təhsil formalarına, onun təşkili ilə bağlı baxışlara, təkmilləşdirmə yönümlərinə təsirsiz qalmamışdır.

Çağdaş zamanımızda fəal (interaktiv) təlim ideyasının üstün mövqe qazanması da məhz sözü gedən təsirlərlə bağlıdır. Yeri gəlmişkən onu da vurğulayaq ki**,** *"*müasir dərs*"* fəal (interaktiv) təlimin təşkilat forması olan *"*fəal dərs*"* anlayışına sinonim kimi işlədilir (1).

XIX əsrin çağırışlarına uyğun təlim əksər nəzəriyyəçi pedaqoq-alimlər, metodistlər, müəllimlər, digər təhsil işçiləri tərəfindən "interaktiv təlim" (təhsilalanların idraki fəallığının maksimum (onların potensial imkanlarına uyğun səviyyədə) təmin olunması bu sistemin əsas (əlaməti olaraq qəbul edilir) anlayışı kimi ifadə olunur. Bu, mükəmməl təlim sisteminin modeli kimi dərk oluna bilər. Elmi mənbələri, pedaqoji ədəbiyyatı araşdırarkən, pedaqoji ictimaiyyətin nümayəndələri ilə həmsöhbət olarkən bu qənaətə gəlməli olursan.

Bir qədər haşiyə çıxaraq qeyd edək ki, həmin modelin (təhsilin həyata keçirilməsi yolunun) təşkilat forması olan dərsin paradiqmaları bunlardır: təhsilalanlara subyekt kimi yanaşma; dialoji yanaşma; ekzistensiallıq (insan təbiətinin bütövlüyünün nəzərə alınması); inteqrativlik; inkişafetdirici xarakterin təmin edilməsi; pedaqoji kadrların müasir tələblərə cavab verən səviyyədə formalaşdırılması; tədris-təlim prosesinin fundamentallığı; təlimin "subyekt-subyekt" (*"S- S"*) xarakteri daşıması; iştirakçıların bütün dərs zamanı fəallığı; dərsin əvvəlində problem situasiyanın yaradılması və onun gedişinin problemin həllinə yönəldilməsi; dərsin tədqiqat şəklində keçirilməsi; şagirdlərin düşündürücü və istiqamətləndirici suallar vasitəsilə yeni biliklərin müstəqil kəşf edilməsinə yönəldilməsi; dərsin dialoq şəklində aparılması; müəllim və şagirdlər arasında qarşılıqlı əməkdaşlığın, əks-əlaqənin müntəzəm mövcudluğu; qrup işindən geniş istifadə olunması, şagirdlərin birgə fəaliyyəti; təlim vasitələrinin və tapşırıqların müxtəlifliyi və yeniliyi; iş vərəqlərindən istifadə olunması; biliklərin yaradıcı tətbiqi və s. (7). Sadalanan keyfiyyətlərə dayanan dərs "müasir dərs" hesab edilir.

Təlimin təşkili ilə bağlı vurğulanan xüsusiyyətləri ona bir sıra üstünlüklər gətirir: bu prosesdə şagirdlər müstəqil düşünmək və sərbəst nəticə çıxarmaq imkanı qazanırlar; bütün proses boyu şagirdlərin idrak fəallığı təmin olunur; şagirdlər az vaxt ərzində daha çox məlumat mənimsəmək imkanı tapırlar; şagirdlərdə tədqiqat vərdişləri formalaşır və inkişaf edir; şagirdlər arasında, şagirdlərlə müəllim arasında əməkdaşlığın və qarşılıqlı hörmətin formalaşması baş verir.

Korporativ təlimin təşkilat forması olan dərsdə şagirdlərin qrup işi "müəllim-şagird" dialoqundan imtina edilməsini və "müəllim-qrup-şagird" üçlük münasibətlərinə keçilməsini

nəzərdə tutur. Qrup işi zamanı şagirdlərin fəaliyyətinin birgə xarakter daşıması onlara müxtəlif problemləri birgə həll etməyi öyrədir (3, s.643-645).

Qrup işinin müsbət tərəfləri: bütün iştirakçıların işə cəlb olunması, şagirdlərin fəallıq və təşəbbüskarlığının artması; təlimdə diferensasiya prinsipini həyata keçirmək imkanının yaxşılaşması; şagirdlərdə ünsiyyət qabiliyyətlərinin və sosial keyfiyyətlərin formalaşdırılmasına müsbət təsir göstərən mühitin mövcudluğu; əməkdaşlıq vərdişlərinin formalaşdırılması (şagirdlər bir-biri və müəllim ilə bilavasitə təmasda olur, əməkdaşlıq edə bilir); qruplar arasında yaxşı mənada rəqabət motivasiyasının yaranması; fikir mübadiləsi aparılması imkanının mövcudluğu (qarşılıqlı nəzarət, yardım və məlumat mübadiləsi prosesləri baş verir); qrup işinin müvəffəqiyyətinin hər kəsdən asılılığı (bu, şagirdlərin məsuliyyət hissini artırır); şagirdlərdə öyrənmə fəaliyyətinə həvəs və marağın artması (idrak motivasiyası ünsiyyət motivasiyası ilə birləşir və öyrənmə motivasiyasını gücləndirir); mövzunun müxtəlif qavrama üsullarına yönəldilməsi; şagirdlərin idrak fəaliyyətinin inkişafı üçün şəraitin yaxşılaşması; biliyi müstəqil əldə etmək imkanının, fəaliyyətin sərbəstliyinin mövcudluğu; hər şagirdin öz fikrini bildirmək imkanının yaranması; şəxsi keyfiyyətlərin açılmasına kömək mühitinin bərqərar olması; qarşılıqlı öyrənmə, anlama imkanının mövcud olması (şagirdlər öz bilik və bacarıqları ilə bir-birini dəyərləndirir); müxtəlif mövqelərdən çıxış etmək bacarığının formalaşması, qoyulan problemin hərtərəfli açılmasına imkanın yaranması; vaxtdan səmərəli istifadə olunması (qısa müddətdə geniş həcmdə məlumatı əldə etməyə imkan yaradır); şagirdin fərdi xüsusiyyətlərinin və bacarıqlarının nəzərə alınması; şagirdlərdə özünü idarə qabiliyyətlərinin formalaşması; yeni şəraitə və başqa insanlara uyğunlaşma bacarıqlarının formalaşması; demokratik münasibətlərin aşılanması üçün müvafiq mühitin yaranması; əks-əlaqə və qiymətləndirmə proseslərinin daha geniş və dəqiq meyarların vasitəsi ilə həyata keçirilə bilməsi, özünün və başqalarının işinin obyektiv qiymətləndirilməsi bacarığının aşılanması; yeni bilik mənbələrindən (həmçinin hər şagirdin öz bilik və şəxsi təcrübəsindən) təlim prosesində istifadə olunması. (6).

Bu isə tədris prosesində bütün iştirakçılara öz qabiliyyətlərini gerçəkləşdirmək, özlərinə inam əldə etmək, özlərini dəyərli şəxsiyyət kimi dərk etmək, problemin həlli üçün vacib olan fərdin və qrupun qarşılıqlı tamamlama prinsipinin mənimsənilməsi imkanının yaradılması hesabına insanın şəxsiyyət kimi inkişafını təmin edir. Qrup təliminin diferensiasiyasının müxtəlif formaları mövcuddur. Birinci halda sinif tərkibinə görə hərəkətli kiçik qruplara bölünür və qrupların hər biri eyni təlim materialına müxtəlif üsullarla yiyələnir. İkinci halda isə qruplar müxtəlif materiallar üzərində eyni problemi öyrənir, onu müxtəlif nöqteyi-nəzərdən keçirirlər. Qruplarda işin təşkilinin müxtəlif variantlarını qeyd etmək olar:

- ✓ Bütün qruplar öyrənilən mövzuya aid müxtəlif tədris materialları ilə işləyirlər.
- ✓ Material çox vacib və ya qruplara bölünməsi üçün kifayət qədər böyük deyilsə, bütün qruplar eyni zamanda onunla işləyir.

Qrup işinin uğurla həyata keçirilməsi üçün müəllim aşağıdakı qaydalara riayət etməlidir:

Təşkilati aspektlər: işin təşkilini dəqiq ölçüb-biçmək: məqsədləri, planı və işin müddətini müəyyən etmək; qrup işi üçün zəruri materialları (qrup işi üçün tapşırıqları, iş vərəqləri və s.) hazırlamaq (iş vərəqi fəal (interaktiv) təlimin həyata keçirilməsi zamanı şagirdlərin tədqiqat işini təşkil edən, yönəldən vasitədir. Kiçik qruplara verilən problem və onun həllinin nəticələri iş vərəqində əks olunur); qruplara bölmək üsulunu dərsin məqsədlərinə uyğun olaraq öncədən müəyyən etmək; iştirakçıları qruplara bölmək və yerləşdirmək; qrup üzvlərinin vəziflərini düzgün bölmək; işin yerinə yetirilməsi üzrə dəqiq məlumat vermək və bunu lövhədə (və ya digər vasitələrdə) yazmaq; qrup işinin qaydalarını müəyyən etmək (*və ya yada salmaq*); qrup işinin nəticələrinin mübadiləsi mərhələsi üçün şərait yaratmaq; qiymətləndirmə meyarını iştirakçıların diqqətinə çatdırmaq. (2, s.478-479)

Müəllimin davranış aspektləri: qrupların işini müəyyən etmək və ona nəzarət etmək; zərurət yarandıqda şagirdlərin işinə müdaxilə etmək, qrup işi prosesində yaranan problemləri vaxtında aşkar etmək və həmin problemlərin həllinə köməklik göstərmək; şagirdlərə yönəldici

suallar vermək, onları axtarışa istiqamətləndirmək; şagirdlərin suallarına cavab vermək, zəif şagirdlərə daha çox diqqət yetirmək; qrup üzvlərinin suallarına cavab vermək, çətinliyi olanlara kömək etmək; şagirdlərin və qrup işinin gedişinin müsbət və mənfi cəhətlərini qeyd etmək və qiymətləndirmə zamanı bunu müzakirə etmək (4, s.195-196)

Şagirdlər üçün də qrup işinin müəyyən qaydaları mövcuddur və bunlara əməl olunmalıdır. Şagirdin davranış aspektlərinə aid edilir: qrup işi zamanı fəal olmaq; götürülmüş öhdəliyi yerinə yetirmək və öz davranışına görə məsuliyyət daşımaq; bir-birini diqqətlə dinləmək; birgə işləmək, əməkdaşlıq etmək, bir-birlərinə kömək etmək, dəstək vermək; kollektiv surətdə qrupun öz məqsədlərinə uğurla nail olmasına kömək etmək; öz nöqteyi-nəzərini söyləmək; bir-birlərinin ideyalarına hörmətlə yanaşmaq; öz fikirlərini, ideyalarını biliklə (faktlarla) təsdiq etmək; xoş münasibətlər mühitinin yaradılmasına kömək etmək, şəxsi tənqidə, neqativ şərhlərə və təhqirlərə yol verməmək; münaqişəyə yol verməmək, sözün müsbət mənasında rəqabət aparmaq; problemin həlli zamanı kompromis yollar axtarmaq; kənar söhbətlərə yol verməmək, müəllimin verdiyi mövzu üzrə danışmaq; iş zamanı intizama riayət etmək; qrup işi qaydalarına tabe olmaq. (2, s.481)

Bu sistem fasilitasiya əsaslanır: müəllim və şagirdlərin birgə əməkdaşlığına; müəllim və şagirdlərin qarşılıqlı hörmət və etibarına; şagirdlərin olduqları kimi qəbul edilməsinə və müəllim tərəfindən onların daim dəstəklənməsinə; şagirdlərin qabiliyyətlərinə olan inama; təfəkkürün stimullaşdırılmasına; şagirdlərdə öyrənmə stimulunun və motivasiyanın yaradılmasına; onların sinif mühitinə, müəllimin xüsusi həssas münasibətinə uyğunlaşmasına.

Qeyd edək ki: fasilitasiya qrupda diskussiyanın təşkili, fəallaşdırılması, səmərəli yönəltmə prosesidir; fasilitasiya prosesinin xüsusiyyəti ondan ibarətdir ki, dərsdə məlumatı fasilitator yox, qrup çatdırır; fasilitatorun mövqeyi, onun əsas funksiyası – fikrin təhrik edilməsi və onun lazım olan istiqamətə yönəldilməsidir; fasilitasiya yanaşması idraki və yaradıcı tələbatların tam ödənilməsinə, yəni şagirdlərin öz qabiliyyətlərini gerçəkləşdirməsinə yönəlməkdir; müəllim-fasilitator uşaq tərəfindən biliklərin əldə edilməsi prosesində bələdçi rolunu yerinə yetirir. (7).

Korporativ təbiətli təlim prosesində qrupun tədqiqat işi üçün ayrılmış vaxt bitdikdən sonra fasilitator tərəfindən tapşırığın icrasının başa çatdığı bildirilir və şagirdlər informasiyanın təqdimatına başlayırlar. Bu mərhələnin əsas məqsədi bütün şagirdləri yeni faktlar və tapıntılarla tanış etməkdir. İnformasiya mübadiləsi yalnız o zaman səmərəli ola bilər ki, sinif fəal dinləməyə və əks-əlaqə yaratmağa köklənmiş olsun. Bunun üçün hələ təqdimatın başlanğıc mərhələsində şagirdlərə təqdimat mərasimindəki vəzifə bölgüsü barədə təlimat verilməlidir. Daha çox şagirdin sözügedən prosesdə fəal iştirakını təmin etmək üçün onlara (şagirdlərə) təqdimatı keçirən öyrəncilərə sual vermələrini təklif etmək olar. Ən yaxşı sualı verən şagirdi hansısa şəkildə mükafatlandırmaq da olar.

Təqdimatın nəticələrinin qeyd edilmə formalarını müəllim öncədən planlaşdırmalıdır. Əgər təqdimat zamanı iş vərəqlərindən istifadə edilirsə, bunlar lövhədən asılmalıdır. Mövcud mərhələnin sonunda təqdimatların əks olunduğu bütün iş vərəqləri lövhədən asılmalı və tapılmış əsas faktlar lövhədə (və ya digər yerdə məqsədəuyğun şəkildə) qeyd edilməlidir. Bu, sonrakı mərhələnin – informasiyanın müzakirə və təşkilinin ilkin məcburi şərtidir. Təqdimatın keçirilməsi zamanı müəllim tərəfindən bir sıra səhvlərə yol verilə bilər, belə səhvlər işin səmərəliliyinə mənfi təsir göstərir. Məsələn: təqdimat zamanı müəllim diqqəti yalnız çıxış edənlərə yönəltmiş olur; müəllim vaxta qənaət etmək məqsədilə bütün təqdimatlara ardıcıl qulaq asır, fikir mübadiləsi üçün vaxt və imkan vermir; təqdimat zamanı qrup üzvləri iş vərəqlərini lövhədən asır və lövhənin önündə toplaşaraq arxaları sinifə tərəf öz qeydlərini ucadan oxuyurlar (Bu halda müəllim də arxasını sinifə (şagirdlər çoxluğuna) çevirməyə məcburdur ki, iş vərəqi ilə tanış olsun. Bunun nəticəsində təqdimatı izləməli olan şagirdlərin (əslində, prosesin həmin məqamı üçün daha maraqlı tərəfin) diqqəti və informasiyanı qavraması pozulur); müəllim təqdimata bir növ rəsmiyyət xatirinə qulaq asır, ifadələrin yığcamlığı və aydınlığı üçün düzəlişlər etməyə çalışmır, yəni təqdimat mədəniyyətini formalaşdırmağa səy

göstərmir; hər bir təqdimatdan sonra müəllimin özü onu şərh edir, qiymətləndirir və ya tapılmış cavablara öz münasibətini bildirir (7).

Öyrəncilərə digər şagirdlərin (təqdimat edənlərin) işləri barədə öz fikir və münasibətlərini bildirmək imkanı verilməlidir. Fikir mübadiləsi prosesində müəllimin rolu aparılmış tədqiqat haqqında özünəməxsus fikrini söyləmək deyil, informasiyanın şagirdlər tərəfindən daha yaxşı qavranılması və başa düşülməsi üçün optimal şəraiti təmin etməkdən ibarətdir. Bu zaman müəllim keçirilən təqdimatın keyfiyyəti barədə öz qiymətverici rəyini söyləyə bilər (əks-əlaqə yaradar).

Tədqiqatın elmi yeniliyi. Mükəmməl təlim sisteminin (interaktiv təlim sisteminin) alt sistemi qismində Korporativ xüsusiyyətli təlim tipinin elmi-nəzəri xüsusiyyətləri açıqlanmışdır.

Tədqiqatın praktik əhəmiyyəti. Korporativ xüsusiyyətli təlimdə şagirdlərin idraki fəaliyyətə və ünsiyyətə cəlb edilməsinin çağdaş zamanımızda pedaqoji fikrin inkişaf səviyyəsinə dayanan nəzəri əsaslarının sistemli yanaşma əsasında işlənilməsi praktik pedaqoqların yanlışlıqları aradan qaldırılmasına müsbət təsir göstərəcəkdir.

Ədəbiyyat

1. Əlizadə Ə.Ə.Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004.
2. Feyziyev C.Ə., İbrahimov F.N., Bədiyev S.R. Didaktika. Dərs vəsaiti. Bakı: Mütərcim, 2011.
3. İbrahimov F.N., Hüseynzadə R.L.Pedaqogika. Dərslik. I hissə. Bakı: Mütərcim, 2014.
4. İbrahimov F.N.Ümumtəhsil məktəblərində riyaziyyatın kurikulum modelinə əsaslanan tədrisi metodikası. Dərs vəsaiti. Bakı: Mütərcim, 2016.
5. Nəsirov V.H., Məmmədov Ə.V. Elmi idrakın metod və formaları. Bakı: Maarif, 1980.
6. Veysova Z. Məktəb müəllimləri üçün fəal təlim kurslarına giriş kursu. UNİCEF-lə birgə layihə. Bakı: Meqa-Print, 2004.
7. Veysova Z.Fəal (interaktiv) təlim. Müəllimlər üçün vəsait. UNİCEF, 2009.
8. Şorn F. Və başqaları. Fəal təlim. Bakı, 2003.
9. Копнин П.В. Ггносеологические и логические основы науки. М.: Мысль, 1974

Ф.Н.Ибрагимов, Н.Б.Джабраилова

Вовлечение студентов в познавательную деятельность и общение в совместном обучении

Резюме

В статье совмесьное обучение рассматривается как совершенная обучающая система – подсистема интерактивного обучения, отмечая, что сочетание активного обучения и совместного обучения как части единицы определяют интерактивную систему обучения, высказываются мнения о ее общей теории, приведены научные объяснениято правилах организации деятельности студентов в малых группах, преимущества групповой работы и стиль воздействия учителя на студентов в форме фасилитации.

F.N.Ibrahimov, N.B.Jabrayilova

Involvement of students in cognitive activity and communication in cooperative learning

Summary

The article approaches cooperative learning as a perfect learning system – a subsystem of interactive learning, noting that the combination of active learning and cooperative learning as aspects of the unit determines the interactive learning system, opinions are given to its general theory, scientific explanations are given to the rules of organization of students' activities in small groups, the advantages of group work and the teacher's style of influence on students in the form of facilitation.

Rəyçi: r.e.d., dos. R.A.Rasulov

Redaksiyaya daxil olub: 08.02.2021

F.N.İBRAHİMOV
pedaqogika üzrə elmlər doktoru, professor

G.B.QARAYEVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

İNKLÜZİV TƏHSİLİN METODOLOGİYASININ İNTERPRETASİYASI

Açar sözlər: *xüsusi qayğıya ehtiyacı olan uşaqlar, normallaşdırma modeli, sosial model, təlim metodologiyası, sistem-struktur, mükəmməl sistem, alt sistem.*

Ключевые слова: *дети с особыми потребностями, модель нормализации, социальная модель, методика обучения, система-структура, совершенная система, подсистема.*

Key words: *children with special needs, normalization model, social model, learning methodology, system-structure, perfect system, subsystem.*

Mövzunun aktuallığı. Təhsil ehtiyaclarının təmin olunması hər kəsin haqqıdır, onun əlçatanlığı sayəsində insan haqqına qovuşa bilir. Təhsil dəyər, nəticə, proses və sistem kimi ümumi hazırlığa malik sağlam uşaqların, xüsusi qayğıya ehtiyacı olanların, istedadlıların, yaşlıların, ümumiyyətlə, hamının həyata və təhsil mühitinə inteqrasiyasını təmin etməlidir. Belə imkandaşıyıcılıq keyfiyyətlərini özündə ehtiva edən təhsilin metodologiyası mövcud olmadığından təhsilalanların müxtəlif təbəqələrinin, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşağın təhsil ehtiyaclarının ödənilməsi məntiqinə dayanan tam (təşkilatlanmış sistem) mövcud deyildir. Xüsusi qayğıya ehtiyacı olan uşağın inklüziv təhsilin tarixinə nəzər salan hər kəs çətinlik çəkmədən anlaya bilir ki, bu məsələnin həllinə yönələn axtarışlar davam etməkdədir və bu proses–axtarış istiqamətləri davamlı şəkildə dəyişmələrə məruz qalmışdır. Odur ki, inklüziv təhsil metodologiyasının elmi şərhinin verilməsi, onun təbiətinə aydınlıq gətirilməsi aktual tədqiqat məsələsidir.

Tədqiqat işi üzrə şərh. Xüsusi qayğıya ehtiyacı olan uşağın inklüziv təhsil tarixinin təhlilindən aydın olur ki, bu məsələnin həllinə müxtəlif yanaşmalar mövcud olmuşdur:

– orta əsrlərdə cəmiyyət xüsusi qayğıya ehtiyacı olan uşaqlara qarşı mərhəmət hissi ilə yanaşmışdır;

– bir neçə əsr sonra bu yanaşmanı–cəmiyyətin xüsusi qayğıya ehtiyacı olan uşaqlara mərhəmət hissini, onların öyrənmə bacarıqlarını önə çəkmək addımı əvəz etmişdir;

– XIX əsrin 70-80-ci illəri–XX əsrin əvvəllərində cəmiyyət xüsusi qayğıya ehtiyacı olan uşaqların öyrənmə bacarıqları ilə yanaşı, onları öyrətmək zərurətini də dərk etmişdir;

– Keçən əsrin əvvəlindən həmin əsrin 60-cı illərinədək olan dövrü qayğıya ehtiyacı olan uşaqlar üçün xüsusi təhsil müəssisələrinin yaradılması və onlara fasiləsiz tibbi xidmətlərin göstərilməsi və müalicələrinin təmin olunması təşkil edirdi (Bu zaman sosial və inkişaf adaptasiya amilləri bir qədər arxa plana keçirilmiş oldu);

– 1960-1980-ci illəri əhatə edən növbəti mərhələ "normallaşdırma modeli" kimi tanınır. Bu proses inteqrasiya adlanır.

"Normallaşdırma modeli"nin mahiyyətində aşağıdakı amillər təsbit olunmuşdur:

– xüsusi qayğıya ehtiyacı olan uşaqlar yüksək səviyyəli normal həyata yaxın bir mühitdə yaşamalıdır;

– xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün ən əlverişli şərait öz evləridir;

– hakimiyyət orqanları tərəfindən xüsusi qayğıya ehtiyacı olan uşaqların evdə tərbiyə olunmasına səy göstərilməlidir;

– xəstəliyin dərəcəsindən asılı olmayaraq xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil almaları üçün şərait yaradılmalıdır.

Sonuncu – üçüncü mərhələ keçən əsrin 80-cı illərindən indiyədək davam etməkdə olan müddəti əhatə edir və "sosial model" adlanır: "sosial model" sağlamlıq imkanlarından, ailə vəziyyətindən, bacarıqlarından, dinindən, irqindən asılı olmayaraq bütün uşaqların təhsil prosesində və həyatda bərabərhüquqlu olmasını nəzərdə tutur.

İnklüziv təhsili şərtləndirən dəlillər. Elmi mənbələrdən, o cümlədən "İnklüziv təhsil: reallıqlar, çağrışlar, perspektivlər" mövzusunda internet üzərindən Azərbaycanda 2020-ci ilin dekabr ayında təşkil olunmuş video konfransın iştirakçısı olmuş, beynəlxalq aləmdə tanınan təhsil ekspertlərinin və maraq doğuran məruzələrlə çıxış edən milli mənsublarımızın – təhsil bilicilərinin çıxışlarından əldə olunan informasiyalar əsasında qənaətə gəlmək olur ki, inklüziv təhsilin optimal variantının işlənilməsi ilə bağlı axtarışlar aktual ictimai mahiyyətlidir və inkülziv təhsili aşağıda özünə yer alan dəlillər şərtləndirir:

– İnsanın dəyəri onun bacarıqları və nailiyyətləri ilə ölçülür;
– Hər bir şəxs hiss etmək və düşünmək qabiliyyətinə malikdir;
– Hər kəs ünsiyyət hüququna malikdir və o dinlənilməlidir;
– Bütün insanlar bir-birinə lazımdır;
– Orijinal təhsil yalnız real münasibətlərin kontekstində mövcud ola bilər;
– Bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır;
– Bütün şagirdlər üçün tərəqqiyə nail olmaq onların nə biləcəyindən asılıdır;
– Müxtəliflik insan həyatının bütün aspektlərini gücləndirir.

Nəzəri təhlillərə və təcrübə materiallarına əsaslanan ümumiləşmələr:

– Sağlamlıq imkanları məhdud uşağın xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində təhsil ehtiyaclarının ödənilməsi onun haqqıdır. Təhsil sistemi inklüziv yanaşmaya açıq olmalıdır.

– İnklüziv təhsil alan uşaqların öz yaşıdları olan sağlam uşaqlarla bir yerdə təhsil alması onların hərtərəfli inkişafına səbəb olur. Həmin uşaqlar öz yoldaşlarının nailiyyətlərini təkrarlamağa çalışır, onlar kimi hərəkət etməyə, danışmağa, fəaliyyət göstəməyə özlərində güc-qüvvət axtarırlar. Belə uşaqlar özlərini yararsız hesab etmir, kollektivə adaptasiya olunur, özlərinin gərəkli olduqlarını hiss edirlər.

– İnklüziv təhsil alan uşaqların kollektivə, cəmiyyətə adaptasiyasına müəllim və valideynlər diqqət göstərməlidirlər. Keçirilən tədbirlərdə, yarışlarda belə şagirdləri müəllimlər diqqətdə saxlamalıdırlar. Bütün bunlar onların hərtərəfli inkişafına stimul yaradır.

– İnklüziv təhsilin inkişafını təkmilləşdirmək üçün elmi-nəzəri tədqiqatların aparılmasına və qabaqcıl təcrübənin ümumiləşdirilməsinə və tətbiqinə ehtiyac vardır.

Hüquqi əsaslı çağırışlar. Hər kəsə məlumdur ki, Azərbaycan Respublikasında təhsil hüququnun konstitusiya təminatı vardır, hansı ki bu, ölkəmizdə inklüziv təhsilin də təşkilinə əsas yaradır. İnklüziv təhsil ümumi təhsilin inkişafı prosesidir. Qüvvədə olan qanunvericilik təhsilin bütün uşaqların ehtiyaclarının ödənilməsi baxımından hamı üçün əlçatan olmasını nəzərdə tutur. Bu da xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil almasını təmin edir.

Azərbaycan Respublikasının "Azərbaycan təhsilinin strategiyası"nda sağlamlığı məhdud uşaqların təhsilini yaxşılaşdırmaq məqsədilə görüləcək işlər öz əksini tapmışdır. Bunlar aşağıdakılardır:

–Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inkişaf və inklüziv təlim proqramlarının hazırlanması;

–Xüsusi qayğıya ehtiyacı olan uşaqların həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasının yaradılması;

–Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili və sosial adaptasiyası üçün imkanların təmin edilməsi məqsədi ilə optimal inklüziv təhsil modellərinin tətbiq edilməsi;

– Məktəbəqədər və ümumtəhsil müəssisələri təhsil verənlərinin inklüziv təhsili üzrə məqsədli əlavə təhsilinin təmin edilməsi (4).

Qənaətimizə görə, "Xüsusi qayğıya ehtiyacı olan uşaqların həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasının yaradılması" dövlət strategiyasında özünə yer alan digər vəzifələrin reallaşdırılmasında əsas rolunu oynayır. Çoxillik elmi-pedaqoji araşdırmalarımız və təhsilin müxtəlif sahələrində həyata keçirdiyimiz təşkilati və idarəetmə təcrübəsi bizi belə qənaətə gətirir.

Nəzəri əsaslı tədqiqatda əldə olunmuş məlumatların yenidən işlənilməsi sayəsində formalaşdırılan informasiya (ümumiləşmə):

– Hadisə və proseslərə, onların dərk edilməsinə "sistem-struktur" adlanan baxışla yanaşmaq müasir dövrün səciyyəvi xüsusiyyətidir (5, s.104; 7; 8). Bu yanaşmaya görə, təhsil inklüziv təhsil sisteminə nəzərən geniş sistemdir və inklüziv təhsil sistemini məxsusi alt sistem kimi özünə transformasiya etməlidir.

– Mükəmməl (tam) sistemdə transformasiya olunan inklüziv təhsilin mahiyyəti onu ehtiva edən sistemin elementlərinin və onların davranış əlaqələrinin xarakteri və obyektin şəraitlə əlaqəsinin spesifikliyi ilə müəyyən edilməlidir.

– Təhsil sistemi təkcə struktur və funksiyalarına görə deyil, həm də struktur ilə funksiyanın vəhdətinin necəliyi, bu vəhdətin xarakteri ilə məxsusilik kəsb edir.

– Elementlərin davamlı, mühüm, zəruri olan qarşılıqlı təsiri alt sistem kimi mövcud olan inklüziv təhsilin necəliyini də səciyyələndirir.

– Təhsil sisteminin idarəedənlərə və idarəolunanlara ayrılan altsistemləri elə məxsusi dialektik vəhdətdə olmalıdır ki, həm geniş spektrli qabiliyyətlərə, həm də xüsusi qayğıya ehtiyacı olan uşaqları vahidin tərəfləri kimi əhatə etsin.

– Bu sistemdə uşaqlar sağlam və xüsusi qayğıya ehtiyacı olanlara bölünməməlidir, uşaqları ümumtəhsil siniflərinə qəbul edərkən onların ehtiyaclarına diqqət yetirmək və həmin ehtiyacları nəzərə alaraq hər biri üçün xüsusi məqsəd formalaşdırmaq zəruridir.

– İnklüziv təhsil uşağın xüsusi ehtiyaclarının müəyyənləşdirilməsindən başlamalı, müəyyən olunan və sistem halına gətirilən ehtiyacların reallaşdırılması prosesi sağlamlıq imkanı məhdud olan uşağı sinif kollektivinin inteqrativ üzvünə çevirməlidir.

– Təhsilalanlar üçün bərabər şəraitin yaradılması təhsilin həyata keçirilmə prinsipidir. Bu prosesdə sağlamlıq imkanları məhdud uşağın təhsil ehtiyaclarının ödənilməsinin vacibliyi və sözügedən prosesin humanist mahiyyəti təhsili idarəedənlərə, valideynlərə və cəmiyyətə aydın olmalı, onlar funksiyalarını həssaslıqla yerinə yetirməlidirlər.

– Bunun üçün bir sıra arzuolunmaz streotiplərlə yanaşı, inklüziv təhsil sisteminin idarəedənlər altsisteminə daxil olan imkandaşıyıcı şəxslərin, xüsusən müəllim və tərbiyəçilərin həm nəzəri, həm də texnoloji hazırlıqlarında mövcud olan çatışmazlıqlar aradan götürülməlidir.

– İstər cəmiyyətin inklüziv təhsillə bağlı baxışlarında yanlışlıqların mövcudluğu, istər valideynlərin övladının sağlamlıq imkanlarının məhdudluğuna mükəmməl idraki yanaşmasının yetərincə olmaması, istərsə də pedaqoji prosesi həyata keçirməli mütəxəssislərin hazırlıq səviyyəsinin qüsurlu olması tam və onun ehtiva etdiyi alt inklüziv təhsil sistemində "tam-hissə" dialektikasının pozulmasına səbəb olur.

– Sistemdə elementlər, altsistemlərarası əlaqələrin pozulması onun səmərəliliyinə xələl gətirir, sağlamlıq imkanları məhdud olan uşaq hansısa xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində sinif kollektivinin inteqrativ üzvünə çevrilməmiş olur.

– İnklüziv təhsil ictimai mahiyyətli sistemdir və məxsusi emercentliyə malikdir. Onun emercentliyi sadəcə olaraq bəşər təcrübəsinin hansısa standartlar əsasında idarəolunan tərəfə ötürülməsilə bağlı deyildir, sistemə daxil olan uşağın təhsil ehtiyaclarının ödənilməsini hədəfləməsindədir.

– Təhsil ehtiyacları yalnız sağlamlıq imkanları məhdud olan uşaqlara aid edilən anlayış da deyildir. Bu, müxtəlif səviyyələrdə sağlamlıq imkanları olanların hər birinə aiddir.

Əgər sağlamlıq imkanının ən məhdud halını sıfırla, məhdudluğun yoxluq halını birlə simvollaşdırsaq, uşaqların sağlamlıq imkanları (0;1) açıq intervalında yerləşmiş olar. Hansı ki, burada uşağın sağlamlıq imkanı simvolik olaraq qəbul etdiyimiz "sıfıra" və "birə" bərabər deyildir, sıfırla birin arasındadır.

Uşağın təhsil ehtiyacı ilə onun sağlamlıq imkanı, inkişaf potensialı arasında vəhdət onun daxil olduğu təhsil prosesinin idarə olunmasının əsas əlamətidir. Hər bir müəllim və tərbiyəçinin idrak məsələsinə çevrilmiş sözügedən vəhdətin reallaşdırılması ona görə zəruridir ki, təhsilin həyata keçirilməsi ilə bağlı ayrılmış zaman kəsiyindən faydalanmaq ayrılıqda götürülmüş hər bir uşağın haqqıdır. Uşağın təhsil ehtiyacları onun fəaliyyət və ünsiyyətə necə cəlb olunmasından asılı olaraq ödənilir. Uşaq məhz bu yönümlü sosial fəallığında öz imkanlarını inkişafının yeni müstəvisinə keçirmiş olur, təhsil ehtiyaclarının ödənilməsi nöqteyi-nəzərdən faydalanmış olur. Qısa şəkildə söyləmiş olsaq "imkan-hərəkət-yeni keyfiyyət" modeli işlək hala gəlmiş olur.

Tədqiqatın elmi yeniliyi. İddia edirik ki, elmi-nəzəri səciyyə daşıyan bu işdə ilk dəfə olaraq inklüziv təhsilin metodologiyasının işlənilməsi məsələsinə "sistem –struktur" yanaşma (dialektik metodun xüsusi istiqaməti kimi) tətbiq olunmuşdur və bu əsasdan əldə olnmuş müddəalar aidiyyəti üzrə pedaqoji fikrin inkişafına müsbət təsir edə biləcək dəyərləri özündə ehtiva edir.

Tədqiqatın praktik əhəmiyyəti. Bu sahədə müxtəlif istiqamətlərdə fəaliyyət subyektləri öz imkandaşıyıcılıq funksiyalarına yön verərkən təqdim olunan metodologiyadan və formuləolunmuş müddəalardan faydalana bilərlər. Bu, həm təhsilin mükəmməl sisteminin emercent xüsusiyyətlərinin qorunmasına, həm də alt sistem kimi inklüziv təhsilin səmərəliliyinin yüksəlməsinə töhfəsini vermiş olar.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. II Bölmə, III fəsil, maddə 42. Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2002.

2. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, 2009.

3. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu". (Bakı, 5 iyul 2001-ci il tarixdə imzalanmış, 19 iyul 2001-ci il tarixli 540 nömrəli fərmanla qüvvəyə minmişdir).

4. Azərbaycan təhsilinin strategiyası. Bakı: Elm, 2010.

5. İbrahimov F.N. Təlimdə alqoritmik və evristik fəaliyyətin optimal nisbətlərinin əsaslarına dair oçerklər. Bakı, "Mütərcim", 1998, 398 s.

6. İbrahimov F.N., Hüseynzadə R.L.Pedaqogika (dərslik, 2 cilddə). I cild. Bakı, "Mütərcim", 2013,708 s.

7. Mirzəcanzadə A.X. İxtisasa giriş. Bakı, Bakı Universiteti Nəşriyyatı, 1990, 368 s.

8. Həsənova İ.M. Sağlamlıq imkanları məhdud olan uşaqların cəmiyyətə adaptasiyası (Metodik vəsait). Bakı: ADPU, 2012

Ф.Н.Ибрагимов, Г.Б.Гараева

Интерпретация методики инклюзивного образования

Резюме

В статье обращено внимание на историю «инклюзивного образования детей с особыми потребностями» и на то, что выработать оптимальное решение этой проблемы не так просто. Указываются аргументы в пользу инклюзивного образования, правовая база, подчеркивается важность создания методологии инклюзивного обучения, обеспечивающей интеграцию детей с особыми потребностями в жизнь и образовательную среду, представлена информация (обобщение) которая формируется путем обработки данных из теоретических исследований.

F.N.Ibrahimov, G.B.Garayeva

Interpretation of the methodology of inclusive education

Summary

The article focuses on the history of "inclusive education of children with special needs" and points out that the development of the optimal solution to this problem is not so simple. The arguments for inclusive education, the legal basis are indicated, the importance of creating an inclusive learning methodology that ensures the integration of children with special needs into life and the educational environment is emphasized, the information (generalization) formed through the processing of data from theoretical research is presented.

Rəyçi: r.e.d., dos. R.A.Rasulov

Redaksiyaya daxil olub: 08.02.2021

S.R.İSGƏNDƏROV
e-mail: sadiqisgenderov99@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

İCTİMAİ FƏALLIĞIN SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *ictimai fəallıq, bacarıq, şəxsiyyətin fəaliyyəti, ictimai tapşırıq, yaradıcılıq, qabiliyyət, təşəbüskarlıq.*
Ключевые слова: *социальная активность, навыки, деятельность личности, социальная активность, творчество, талант, инициатива.*
Key words: *social activism, skills, personality, activity, social engagement, creativity, talent, initiative.*

İctimai fəallıq şüurla, imkanlarla və qabiliyyətlərlə bağlıdır. İctimai fəallığa fəal praktik fəaliyyət nəticəsində nail olmaq mümkündür və o, şəxsi maraqla şərtlənir. Bu istiqamətdə ardıcıl iş lazımdır.

Dövlətimizin təhsilə dair qərar və göstərişlərində tələbələrdə ictimai fəallığın, özünüidarənin inkişaf etdirilməsinə diqqət yetirmək tələb olunur. Respublika Təhsil Nazirliyi də bu istiqamətdə müvafiq tədbirlər görür və görməkdədir. Bu məsələnin vacibliyi "Azərbaycan Respublikasının təhsil sistemində tərbiyə işinin inkişaf proqramı"nda da xüsusi vurğulanır.

Akad. Q.İ. Şukina şəxsiyyətin fəaliyyəti və inkişafı problemləri üzrə elmi-nəzəri araşdırmaları ümumiləşdirərək fəaliyyətin obyektiv-subyektiv təhlili əsasında göstərmişdir ki, tərbiyə prosesi onun (tərbiyənin) şəxsiyyətin inkişafına öz təsirini hərtərəfli əhatə edən müxtəlif növlərinin mövcudluğunu tələb edir. Müəllif fəaliyyətin strukturunun təhlilini vermiş, uşağın inkişafına hər bir konstruktiv komponentin təsiri xarakteristikasını açmışdır (2, s.92-95).

Fəaliyyətin ictimai məqsədləri onların sosial inkişafının ən mühüm amilinə çevrilir. Fəaliyyətin motivləri şəxsiyyətin tələbatlarında və maraqlarında ifadə olunaraq, onun obyektiv məqsədlərinə uyğun gəlməlidir. Fəaliyyətin məzmunu uşağı biliklərlə, təcrübə ilə zənginləşdirərək, dünyagörüşünü genişləndirir. Fəaliyyətin üsulları, əməliyyatları, bacarıqları onun müvəffəqiyyətini təmin etdiyi təqdirdə daim təkmilləşməlidir. Fəaliyyətin nəticəsi şəxsiyyətin inkişafının, biliklərinin, münasibətlərinin, qiymətləndirmə və özünüqiymətləndirməsinin göstəricisidir.

İctimai faydalı fəaliyyətdə tələbələr təşəbbüskarlıq, yaradıcılıq təzahür etdirir, uğuru müstəqil qazanmaq istiqamətində sevinc əldə edir, öz əməyinin ictimai əhəmiyyətini görür.

Şəxsi maraqlarından məmnun qalmaq, ictimai faydalı fəaliyyətdə bacarığını, qabiliyyət və istedadını göstərmək son nəticədə həmişə ictimai əhəmiyyətli məqsəd və vəzifələrin həllinə istiqamətlənir. Qabiliyyət və istedad bir-birilə sıx tellərlə bağlıdır. Prof. Ə.Ə. Əlizadə yazırdı: «İstedadın açarı qabiliyyət problemindədir. İstedadın nüvəsini qabiliyyətlər təşkil edir. «Qabiliyyət-istedad» psixoloji araşdırma üçün özünəməxsus dixotomiyadır» (1, s.45-46). Tələbələrdə təşkilatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi zamanı bu cəhət diqqət mərkəzində dayanırdı.

Fəaliyyətdə gəncin fəal mövqeyi, eləcə də fəaliyyətin özü həm obyektiv və həm də subyektiv cəhətlərə malikdir. Obyektiv cəhət–tələbənin fəaliyyətdə iştirakının forması, yaxud səviyyəsidir: o, kollektiv işdə təşkilatçı, icraçı, həmçinin sadəcə iştirakçı ola bilər. Subyektiv cəhət – ictimai faydalı fəaliyyətin tələbə şəxsiyyətinin dəyişil-məsinə, yeni şəxsiyyət təzahürlərinin (bilik, bacarıqların, motivlərin, münasibətlə-rin) öyrənilməsinə təsiri səviyyəsində ifadə olunur. Tələbə ictimai faydalı fəaliyyətdə subyekt kimi çıxış edir, tədbirləri, tapşırıqları düşünən, planlaşdıran, həyata keçirən, onlara nəzarət edən şəxslərlə həmmüəllif, həmfikir olur.

Tələbələrin təşəbbüskarlığının nəzərə alınması və inkişaf etdirilməsi gənclərdə ictimai fəallığın formalaşdırılmasının son dərəcə zəruri şərtidir. Bu sahədə də sabit və daimi motivlər böyük rol oynayır. Təşəbbüskarlığın meydana gəlməsində başlıca olaraq motivlərin 3 tipi qeyd edilə bilər: bilavasitə ictimai, bilvasitə ictimai və eqoistik. Bilvasitə - ictimai motivlər qrupuna daxil olan tələbələr təşəbbüskarlıq göstərməklə özünütəsdiq tələbatına yiyələnir, ətrafdakılarda hörmət və nüfuz göstərməyə, kollektivdə üstün mövqe qazanmağa can atırlar. Eqoistik motivlərdə məhdud maraqlar, çətinliklərdən yaxa qurtarmaq, müsbət xasiyyətnamə almaq arzusu əsas yer tutur.

Tədqiqatdan aydın oldu ki, təşəbbüskarlığın qeyd olunan tiplərinin əsasında aşağıdakı meyarlar dayanır:

1) motivasiya komponentlərinin inkişaf səviyyəsi və təşəbbüskarlıqla bağlı davranışın təşkili üsullarının təşəkkülü;

2) təşəbbüskarlığın mərhələlərinin mövcudluğu;

3) təşəbbüskarlığın meydana çıxmasında üstünlük təşkil edən fəaliyyət tipi;

4) təşəbbüskarlıqla bağlı hərəkətlərin ilk fazasına sosial-psixoloji şərtlərin (şəraitin) təsiri;

5) təşəbbüskarlığın meydana gəlməsinə uğurun və uğursuzluğun təsiri;

6) təşəbbüskarlığın meydana gəlməsində inamın dərəcəsi;

7) məsuliyyət daşıması;

8) təşəbbüskarlıqla bağlı hərəkətlərin müstəqillik dərəcəsi;

9) təşəbbüskarlıqda çeviklik (irəli sürülən təkliflərin dəyişdirilməsinin mümkünlüyü);

10) təşəbbüskarlıqla bağlı davranışın genişliyi, təşəbbüskarlıq hərəkətlərinin davamlılığı;

11) təşəbbüskarlığın meydana gəlməsində intensivlik.

İctimai təşəbbüskarlığın əsas keyfiyyət və kəmiyyət səciyyəsi onun I-IV kurs tələbələrində inkişafının 3 səviyyəsini ayırd etməyə imkan vermişdir: yüksək, orta, aşağı.

Tədqiqatın gedişində müəyyən olundu ki, ictimai fəaliyyətdə tələbələrdə təşəbbüskarlığın inkişaf etdirilməsinin əsas şərti təşəbbüskarlığın məqsədyönlü təşkilidir. İctimai fəaliyyətin optimallaşdırılması təşəbbüskarlıq cəhdlərinin şəxsiyyətlər daxili və sosial-psixoloji determinallarına təsir göstərir. Başqa sözlə, kompleks yanaşma mövqeyindən ictimai fəaliyyət zamanı tələbələrin təşəbbüskarlığı inkişaf edir. İctimai fəaliyyətdə tələbələrdə təşəbbüskarlığın təzahürünə daha çox sosial-psixoloji amillər təsir göstərir.

Fəallığın bütün təzahürlərlə formalaşmasını təmin etmək üçün aşağıdakılar zəruridir: a) tələbələrdə fəallığa tələbat tərbiyə etmək, onun zəruriliyini anlamaq (tədris-idraki, ictimai-siyasi, ictimai-əmək və elmi yaradıcı) və ona maraq; b) bu fəaliyyət növlərinin ictimai-əhəmiyyətli motivlərini formalaşdırmaq; c) fəaliyyətin göstərilən növlərinə hazırlığı təmin etmək (biliklərlə silahlandırmaq və onların əsasında elmi dünyagörüşün, bacarıq və vərdişlərin formalaşdırılması); ç) özündə zəruri cavabdehlik və tələbkarlığı inkişaf etdirmək; d) fəaliyyətin bütün növlərində təşəbbüskarlıq və icraçılıq tərbiyə etmək.

İctimai fəallığın səviyyəsini müəyyən etmək üçün, hər şeydən əvvəl şəxsiyyətin davranışında motivlərin qarşılıqlı əlaqəsinin və fəaliyyətlərinin təhlili əsasında müvafiq obyektiv meyarları müəyyən etmək lazımdır.

Tədqiqatçıların bir çoxu zəruri meyarlara daxil edirlər: fəaliyyət faktı, insanın fəaliyyətə dəyərli münasibəti və ictimai-siyasi fəaliyyətə sərf olunan vaxtın həcmi və ardıcıllığı.

Tədqiqat zamanı aydın oldu ki, Gəncə Dövlət Universitetinin tələbələrində dünyagörüşün formalaşdırılmasında xeyli dərəcədə ictimai elmlər üzrə mühazirələr əsas rol oynamışdır. Tədqiqatın gedişində müəyyən olundu ki, ali məktəbə yeni tələbələr qəbul edilərkən ictimai təşkilatlar və akademik qrupların kuratorları bir çox hallarda məktəb və ali məktəb arasında ictimai fəaliyyət üzrə varisliyi təmin etmirlər. İctimai işdə fasilə tələbələrin ictimai fəallığının

inkişafı və təzahürü səviyyəsini aşağı salır, bu isə fəalların azalmasına və itirilməsinə gətirib çıxarır.

Ədəbiyyat

1. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər: psixopedaqoji məsələlər Bakı: ADPU, 2006.
2. Şukina A. Q. Məktəb pedaqogikası. Pedaqoji institutlar üçün dərs vəsaiti. Bakı, Maarif 1999.
3. Костикин Г. С. Воспитание и развитие. Общие основы педагогики. М. Педагогика 1911.

С.Р.Искендеров

Социально-психологические особенности общественной активностьи

Резюме

В статье изучена инициатива студентов высших педагогических заведений и ее психологические особенности. Определено, что если общественная деятельность молодежи будет иметь духовное и идеалистическое содержание, если во время общественной деятельности для студентов будет предоставлен максимум свободы, инициативы, условия творчества, то процесс формирования общественной деятельности студентов будет более интенсивной форме воплощена в жизнь.

Статья наряду с обогащением педагогической теории имеет ценное практическое значение. Статьей могут пользоваться контингент студентов и учителей высших учебных заведений.

S.R.Isgenderov

Social (public) activity and his socio-psychological features

Summary

In article were studies the initiative ability of students of the higher education establishments and its psychological features problems. Have been determined, that if activities of students has moral and ideology characteristics, then during the process of public creation students would have features as freedom, initiative abilities, creative patterns, also students could do more for formation of public activities.

Article has richness feature for pedagogical theory, also practical importance. It is useful for students and teachers of higher education establishments.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 07.04.2021

N.R.İSMAYILOVA
pedaqogika üzrə fəlsəfə doktoru
e-mail: niay.83@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MÜXTƏLİF İLLƏRDƏ UŞAQLARIN AİLƏ TƏRBİYƏSİ HAQQINDA PEDAQOQLARIN DÜŞÜNCƏLƏRİ

Açar sözlər: *tərbiyə, ailə, pedaqoq, uşaq, illər, düşüncə.*
Ключевые слова: *воспитание, семья, педагог, ребенок, годы, мышление.*
Key words*: upbringing, family, teacher, child, years, thinking.*

Ailə – hansı zaman kəsiyində yaşamamızdan asılı olmayaraq daima aktuallığını saxlayan məsələlərdən biridir. Çünki ailənin mövcudluğu cəmiyyətin var olmasının əsasıdır. Yetişən gənc nəslin ailədə düzgün tərbiyə olunması mühüm pedaqoji problem olmaqla yanaşı, həm də cəmiyyətin, dövlətin vacib hesab etdiyi işdir. Çünki cəmiyyətin inkişafı, onun uğurlu gələcəyi müxtəlif məsələlər aspektindən yetişən nəslin tərbiyəsindən asılıdır.

"Ailə – insanların qarşılıqlı fəaliyyətinin təkrarsız institutudur. Ailə dedikdə, "dəqiq müəyyən edilmiş maraqları və məqsədləri olan mini qrup" nəzərdə tutulur. Ailənin əsas məqsədi – qalib gəlmək, özünü qoruma, ailə üzvlərinin əsas tələbatlarını ödəyə bilmək və nəslin davamını təmin etməkdir.

İnsan cəmiyyətin əsas özəyi olmaqla yanaşı, onun şəxsi keyfiyyətləri də məhz ailədə formalaşır və əxlaqi, mədəni cəhətlər ailədə aşılanır.

Sosioloji mənada ailə nikaha, qohumluğa, uşaqların tərbiyə üçün götürülməsinə qarşılıqlı birgə həyat mənafeyinə əsaslanan insan ittifaqıdır" (6, s.91).

Ailə bir toxumdur ki, ondan cəmiyyət və dövlət meydana gəlir. Ailə həm də bir prosesdir, bir-birinə bağlı insanların kömək halında yeni nəsil yetişdirməsidir. "Ailə bir dövlətdir, dövlət də–ailə" ifadəsi məhz bu iki məfhumun bir-birindən asılı və bir-birinə oxşar olduğunu düzgün bir formada cəmiyyətə ötürmüş olur.

"Ailə mürəkkəb mənalı sosial anlayışdır. İnsan şəxsiyyətinin mənəvi tərəqqisi, onun inkişaf etməsi və formalaşması, cəmiyyətdə əldə etdikləri ailədə öz əksini tapır. Ailənin rolu, onun əhəmiyyəti və funksiyaları cəmiyyət dəyişəndə dəyişmir. Azərbaycan mentalitetinə xas olan keyfiyyətlər, dəyərlər, xüsusiyyətlər, məhz ailədə formalaşır, bu ailədə zənginləşir. **F.Köçərli (1863-1920)** ailəyə belə bir tərif vermişdir: "Ailə insanların (ərin, arvadın və uşaqların) tarixən dəyişən, istehsal münasibətlərinin tipi ilə müəyyən edilən və nəsli davam etdirmək, uşaqları tərbiyə etmək, təsərrüfat fəaliyyəti göstərmək kimi vəzifələri həyata keçirən birgə yaşayışların formasıdır" (4, s.29).

Cəmiyyətdə uşağın sosiallaşması üçün o, sosial münasibətlərə daxil olur. Bu baxımdan uşaqlarda insan, dünya, həyat haqqında fikirlər formalaşır. Belə ki, uşaqlar başqa adamları anlamağı, yaşlılara, qadın və kişilərə, kiçik uşaqlara hörmət və kömək etməyi öyrənirlər. Bu baxımdan uşağın sosial-emosional inkişafının bünövrəsi qoyulur.

"Ailədə uşağın sosiallaşması – uşağın ictimai mühitlə tanışlığı, insanın həyat və fəaliyyət təcrübəsini mənimsəməsi prosesidir ki, o, bu prosesdə inkişaf edir, şəxsiyyəti formalaşır.

Bu, çox çətin, çoxtərəfli və mürəkkəb prosesdir. İnsan sosial təcrübəni mənimsəyir və öz təcrübəsində, həyat və fəaliyyətində tətbiq edir. Nəticədə uşağın əqidə və inamı, mənəvi keyfiyyətləri, həyata baxışı formalaşır və cəmiyyətdə normal fəaliyyət göstərir. O, başqaları ilə ünsiyyət və münasibətlərdə olur, əməkdaşlıq edir" (3, s.66).

Mənəvi-əxlaqi keyfiyyətlərin formalaşmasında da tarixən ailə, ailə tərbiyəsi mühüm rol oynamışdır. Sağlam ailə sağlam cəmiyyətin, möhkəm dövlətin əsas dayaqlarından ən vacibidir. Uşaqlar, birinci növbədə, Vətənə və anaya hörmət ruhunda tərbiyə olunmalıdırlar. Bu hörmət ilkin olaraq ailədə yaranır və formalaşır. Eyni zamanda valideynlərinin nümunəsində bunu görən və şahidi olan uşaq da həmin yolda yürüyür. Uşaq atasının böyüklüyünü, ailənin başçısı olduğunu anasının ona münasibətində, ona qayğıkeş xidmətində, anasının böyüklüyünü və əzizliyini isə atasının ona qayğısında, məhəbbət və nəvazişində görməlidir. Yaxşı övlad yetişdirmək üçün yaxşı valideyn yetişdirmək lazımdır.

Bu baxımdan alimlərin, mütəfəkkirlərin və pedaqoqların ailə tərbiyəsi ilə bağlı fikirləri, düşüncələri də müxtəlif olmuşdur. Bunu istər N.Gəncəvi, S.Ə.Şirvani, N.B.Vəzirov, M.P.Vaqif və digərlərinin yaradıcılığında da görmək mümkündür.

Nəsirəddin Tusinin (1201-1274) əsərləri içərisində "Əxlaqi-Nasiri" məzmununun ictimai, iqtisadi, siyasi, əxlaqi, fəlsəfi və tərbiyəvi səciyyəsi baxımından xüsusi əhəmiyyətə malikdir. O, əsərində ailədə övladın bir çox müsbət keyfiyyətlərə yiyələnməsi üçün valideynlərin necə olmasını göstərir. Eyni zamanda ananın ailədə tərbiyəlilik səviyyəsindən başlayır. İlk növbədə uşağa yaxşı bir ad qoyduqdan sonra onun tərbiyə olunması üçün sağlam və ağıllı bir dayəni tapmağı məsləhət görür. O, deyir ki, uşaq süddən ayrıldıqdan sonra hələ əxlaqı korlanmağa vaxt tapmamış onu tərbiyə etməyə, nizam-intizama öyrətməyə başlamaq lazımdır. Uşaq təbiətində olan fitri nöqsanlara görə, pis adətlərə meyl edə biləcəyindən vaxtından əvvəl onun qarşısını almaq, təbiətini nəzərdə tutmaqla əxlaqını saflaşdırmaq gərəkdir, yəni hansı təmiz qüvvə uşaqda özünü əvvəl biruzə verirsə, onun da təkmilləşdirilməsi əvvələ salınmalıdır.

"Nəsirəddin Tusi ailəni bütöv bədənə, ailə üzvlərini də bədən üzvlərinə bənzədir, ailə dolandırmaq sənətini isə sağlam bədən saxlamaq arzusunda olan həkimlik sənəti ilə müqayisə edirdi. Tusinin qənaətincə, həkim insan bədəni və onun üzvləri arasında münasibətin sağlamlığına diqqət yetirdiyi kimi, ailə başçısının vəzifəsi də bütün ailədəki, həmçinin onun üzvləri arasındakı münasibətlərə fikir verməkdən ibarət olmalıdır" (1, s.209).

Xarici ölkələrdə də yaşayıb-yaradan pedaqoqlar, mütəfəkkirlər bu məsələlərə önəm vermiş, onun əhəmiyyətini yüksək dəyərləndirmişlər. XX əsrin əvvəllərində P.F.Lesqaft, P.F.Kapterev və başqalarını bu sıraya aid etmək olar.

"Ailə tərbiyəsi mövzusunda Ümumrusiya Pedaqoji Konqresləri keçirilir. Onlardan birini **Pyotr Fedoroviç Kapterev (1847-1918)** təşkil etmişdir. 1875-ci ildə "Narodnaya Şkola" (xalq məktəbi – N.İ.) jurnalında yazırdı ki, bir ailədə uşaq böyütmək doğulduğu andan başlamalıdır. Ancaq valideynlər çox vaxt uşağın mənəvi təsirindən, təhsilin fiziki tərəfi ilə məhdudlaşırlar. Valideynlər uşağın inkişafında baş verən bütün prosesləri bilməlidirlər. "Bu bilik olmadan",–deyə yazırdı Kapterev, "təhsil mümkün deyil". "Məktəbdə oyunlar və bədən tərbiyəsi haqqında (1883), "Ailədəki cəza və uşağın növünün inkişafına təsiri haqqında" (1884), "Məktəb növləri" ("Ailə tərbiyəsi"nin birinci hissəsi) (1884), "Məktəbəqədər uşaqların bədən tərbiyəsi üçün dərslik" (1888) kimi kitablarında o, ailə tərbiyəsinin, fiziki inkişafın əsaslarını işləyib göstərir və ümumiləşdirmələr aparır" (8).

Kapterevin ailə tərbiyəsi ilə bağlı işlərinə baxdıqda belə bir nəticəyə gəlmək mümkündür ki, o, həmin dövr üçün labüd olan elmi məsələləri seçmişdir. Kapterevin fəaliyyətində ailə tərbiyəsi birtərəfli deyildi. Belə ki, o, burada kasıb, varlı və s. təbəqədən olanların tərbiyəsini analiz edir və onları əsas sayırdı.

Onun ailə tərbiyəsi haqqında olan görüşlərində bir sıra konsepsiyalar əsas götürülürdü: tərbiyə institutlarının sistemində tərbiyənin yeri, məqsədi, məzmunu, ailədə uşaqların tərbiyəsinin istiqaməti, prinsiplər, metodlar, formalar, priyomlar və ailədə uşaq tərbiyəsinə təsirin üsulları.

Məktəbəqədər yaşlı uşaqların ailə tərbiyəsində valideynlərin onlara verdiyi sevginin vacibliyi də Kapterev yaradıcılığında mühüm yer tuturdu. O, qeyd edirdi ki, ancaq ailə tərbiyəvi cəhətdən mühüm məsələləri–sevgi, nəvaziş, diqqət və s. uşaqlara aşılaya bilər.

Kapterevin önəmli hesab etdiyi məsələlərdən biri də uşağa verilən sevgidə həddi aşmamaqdır.

İnsana ilk təhsil verən institut ailədir. Sonra isə məktəbdir, hansı ki, tərbiyənin və təhsilin davamı kimi xarakterizə olunur. Bəs ailədəki tərbiyə necə gedir? Yaxşı, ya pis? Ailə, həm də məktəb uşağın təbiətini, onun yaş dövrü ilə bağlı olan özəllikləri bilirlərmi? Əgər bilirlərsə, yanaşma tərzi necə olur?

Qarşıya qoyulan suallarla bağlı alimin fikirləri də müxtəlif olmuşdur. Belə ki, o, deyirdi ki, uşağın öyrənilməsi ilk olaraq anadan olan gündən ona olunan qulluqla seçilməlidir. Pyotr Fedoroviç Kapterev belə qənaətə gəlmişdir ki, təzə anadan olmuş uşağa düzgün qulluq və tərbiyə üçün onun istək və tələbatlarını bilmək vacibdir.

Kapterevin "Ailə tərbiyəsi və təhsilinin ensiklopediyası" adlı əsəri vardır, hansı ki, kitabın hər buraxılışı çox vacib sualların şərhinə həsr olunmuşdur. Ensiklopediyanın buraxılışlarında aşağıdakı məsələlər müzakirə edilirdi:

I. "Rusiya, Almaniya, Fransa, İngiltərə, Şimali Amerika və Finlandiyada ailə tərbiyəsinin qoyuluşu məsələləri.

II. Fiziki tərbiyə və uşağa gigiyenik qayğı: uşaq orqanizminə qarşı anatomik-fizioloji yanaşma; uşağın yuxusu; dərinin ümumi qulluğu; saç və dırnaqlar; gözlərə, dişlərə qulluq; normal uşaq ayaqqabısı; uşaqlar üçün fiziki çalışmalar; uşaq yaşının xəstəlikləri; uşaqların əsəb problemləri və s.

III. Mənəvi tərbiyə: ağıl və mənəvi inkişaf, tərbiyə, uşaq oyunları və əyləncələri, onların təyini və seçilməsi; ailədə cəzalandırma; vərdişlər, onların təyini və tərbiyəsi; uşaqların kaprizləri və qıcıqlanmaları; uşaqların ailədə dini tərbiyəsi; uşaqlarda doğruçuluğun inkişafı.

IV. Uşaqların ilk təhsili: ailə təhsilinin ilkin əsası (ailənin öyrətməsi); kiçik yaşlı uşaqlara rəqəm və sayların öyrədilməsi; ailə tərbiyəsində musiqi; kiçik yaşlı uşaqlara təbiətin öyrədilməsi; uşaq bağçası və bostan; ailədə doğma dilin öyrədilməsi; ailədə xarici dillər; uşaqların oxusu haqda; qızlara ev işlərinin öyrədilməsi.

V. Ümumi suallar: uşaq təbiəti, irsiyyət, ailənin məktəbə münasibəti; uşağın qəlbi; uşağın xarakteristikası; ailə tərbiyəsinin məsələləri və əsası; ailə münasibətləri və onların tərbiyəvi təsiri; şəhər və kənd uşaq tərbiyəsində əsas iş kimi; geri qalan uşaqlar, bunun səbəbləri və onu dəf etməyin yolları" (5).

Rus pedaqoqu, həkim, uşaq xarakterinin tədqiqi sahəsində çalışmış mütəxəssis **P.F.Lesqaft (**1837-1909**)** uşaqlara münasibətdə valideynlərin ailədə uşağın davranışına təsir göstərən altı mövqeyini ayırmışdır:

"1. Əgər valideynlər uşaqlara diqqət yetirmir, onları alçaldır, onların ehtiyaclarına etinasız yanaşır, onlarla hesablaşmır, onların təlim-tərbiyəsinə cüzi də olsa, əhəmiyyət vermirlərsə, bu cür ailələrdə uşaqlar ikiüzlü və yalançı böyüyürlər, onlarda çox vaxt yüksək olmayan intellektual səviyyə və ya əqlin inkişafdan geri qalması müşahidə olunur.

2. Əgər valideynlər daim uşaqlarını tərifləyir, əzizləyir, onları kamillik nümunəsi hesab edirlərsə, uşaqlar eqoist və səthi böyüyürlər. Hədsiz heyranlıq mövqeyi uşaqda son dərəcə güclü özünəəminlik, öz şəxsiyyəti haqqında yüksək fikir yaradır.

3. Sakitlik, xoşbəxtlik və harmoniyanın hökm sürdüyü, valideynlər arasında münasibətlərin həqiqi məhəbbət və ehtiram əsasında qurulduğu ailələrdə, yetkinlik yaşına çatmış uşaqlar yumşaqürəkliliyi və dərin təfəkkürü ilə seçilirlər. Onlar daim öyrənməyə, biliklərə yiyələnməyə can atırlar.

4. Valideynlər daim uşaqdan narazı qalanda, onu məzəmmət və töhmətləndirəndə, hər məsələdə təqsirkar biləndə, uşaq bu cür münasibətə cavab olaraq qaba hərəkət etməyə, itaətsizlik göstərməyə başlayır, qəlbinin dərinliyində həmişə qəzəb və inciklik yaşayır, o, əsəbi və emosional baxımdan problemli böyüyür.

5. Valideynlər uşağı hədsiz əzizləyir və qoruyur, hər istəyini yerinə yetirir, yaşını nəzərə almadan onunla körpə kimi rəftar edir, sərbəstliyinə əngəl törədirsə (məsələn, hətta çəkməsini sərbəst geyməyə imkan vermirlərsə), bununla da onlar onun əqli və fiziki fəallığını məhdudlaşdırırlar. Uşaqlar tənbəl, sosial baxımdan yetişməmiş, real həyatın üzünə baxmaq qabiliyyəti olmayan şəxs kimi böyüyürlər.

6. Maliyyə çətinlikləri uşaqlara münasibətdə valideynlərin mövqeyinə, məhəbbətlərinin ifadəsinə təsir göstərmirsə, uşaqlar zəhmətkeş, emosional baxımdan sakit, təvazökar böyüyürlər. Lakin aşağı həyat səviyyəsi ailə münasibətlərinə təsir göstərirsə, məhəbbət, valideyn qayğısı həmin evi tərk edirsə, uşaqlar özlərini bədbəxt, atılmış hiss edir, gələcəyə bədbin, ümidsiz və kədərlə baxırlar" (7).

P.F.Lesqaft bədən tərbiyəsi, uşağın fiziki inkişafı sahəsində işləri ilə də məşhur idi. Çünki o, gimnaziya, daha sonra isə Tibbi-Cərrahiyyə Akademiyasında təhsil alıb, geniş biliyə sahib olmuşdur.

Lesqaftın düşüncələrində mühüm yer tutan məsələlərdən biri də budur ki, əgər tərbiyəçi və müəllim öz üzərinə uşaq tərbiyə etmək kimi mühüm vəzifəni götürürsə, bu zaman bir çox nüanslara diqqət yetirmək lazımdır. Müəllimin uşağı yaxşı başa düşməsi üçün ilk olaraq onun psixikasını, potensialını bilməlidir. Deyilən psixi inkişaf məsələsi ona görə mühümdür ki, əgər tərbiyəçi uşağın psixoloji inkişafının şərtlərini bilməsə, o, çıxılmaz bir yolda qala bilər. Eyni zamanda uşağa qarşı fərdi şəkildə də yanaşmalıdır.

Lesqafta görə, tərbiyəçilərin böyük bir qismi özlərinin pedaqoji yanaşmalarında olan nöqsanları görməzdən gəlirlər. Belə ki, onlar uşaqda olan hər hansı problemi irsiyyət, anadangəlmə pozulma, uşaq təbiəti ilə əlaqələndirirlər. Sanki bununla onlar özlərini sakitləşdirirlər və mühüm bir işi boyunlarından atmış olurlar. Əslində isə bunun səbəbini araşdırmaq çox vacib məsələdir.

Y.İ.Tixeyeva (1865-1941) "dil tərbiyənin əsas mövzusudur"; uşaqların dilinin inkişafı, ana dilinə məhəbbət, sağlam ədəbi zövqün tərbiyə edilməsi – "ən başlıca və birinci dərəcəli mühüm işdir",–deyə bildirirdi. Ailənin, uşaq bağçasının və məktəbin bu işdə əlbir olmasının zəruriliyini irəli sürürdü. Uşaqlar ailə tərbiyəsində erkən yaşlardan etibarən düzgün nitq vərdişləri almalıdır. Uşaqların düzgün nitq inkişafında yaşlıların, xüsusilə, anaların nümunəsi çox böyük rol oynayır.

"Valideynlər və ailə üzvləri uşaqların eşitmə orqanlarına qulluq etməli, eşitmə qabiliyyətinin inkişaf etdirilməsinə qayğı göstərməli, uşaqla düzgün danışmalıdırlar: "Heç bir dilucu ilə danışmaq, uşağın dili ilə danışmaq lazım deyil. Uşaqla adi, düzgün, lakin sadə dildə danışmaq lazımdır, başlıca olaraq aramla, aydın və ucadan danışılmalıdır" (2, 201).

Y.İ.Tixeyevanın böyük zəhməti onda özünü göstərir ki, o, məktəbəqədər tərbiyənin didaktik əsaslarını, uşaq bağçası ilə məktəbin tərbiyə işlərinin vəhdəti məsələlərini elmi baxımdan işləmişdir.

A.S.Makarenko (1888-1939) da pedaqoji fikir tarixində öz dəyərli fikirləri ilə tanınan pedaqoqlardan biri olmuşdur. Kollektiv tərbiyə, çətin tərbiyə olunan uşaqlarla iş məsələsi də onun yaradıcılığının leytmotivini təşkil edir. O, vurğulayırdı ki, düzgün tərbiyə bizim xoşbəxt qocalığımız, pis tərbiyə bizim gələcək dərdimiz, bizim gələcək göz yaşlarımızdır. Uşaqların tərbiyəsində ailənin vacibliyi də onun fikirlərinin ana xəttini təşkil edirdi. Makeronko bildirirdi ki, valideynlər bilməlidir ki, uşaqların tərbiyəsi çox vacib məsələdir. Bəzi valideynlər uşaqların tərbiyəsinə heç fikir də vermirlər. Belə hesab edirlər ki, hər şey vaxtında olacaqdır. Tərbiyə işində qətiyyətlə və fəal qüvvə ilə məqsədə doğru getmək tələb olunur. Nəyə nail olmaq istədiyini bilmədən heç bir işi yaxşı görə bilməzsən. O, haqlı olaraq deyirdi ki, uşaqlarınıza tərbiyə verməyə başlamazdan əvvəl öz davranışınızı yoxlayın.

Makarenko yazır ki, bəzi valideynlər uşağı qorxutmaqla, bəzisi sözünü ana vasitəsilə çatdırmaqla, bəzisi öz vəzifəsi ilə lovğalanmaqla və s. yollarla uşaqlar üzərində nüfuzlarını

göstərmək istəyirlər. Bunların heç biri düz deyil. Valideyn nüfuzunun əsası onların həyatı, işi, vətəndaşlıq siması, davranışıdır.

Yekun olaraq qeyd etmək istərdim ki, ailə tərbiyəsinin düzgün formada təşkili görkəmli pedaqoqların fikirlərini nəzərə alınmaqla, daha mükəmməl bir formada həyata keçirilməlidir. Hər bir ailə deyilən cəhətləri nəzərə alıb, işini o istiqamətdə qursa, həqiqətən də gələcək üçün çox nümunəvi bir vətəndaş yetişdirmiş olarlar.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı, Mütərcim, 2010
2. Ağayev M.H. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Bakı, 2011
3. Hüseynzadə R., Allahverdiyeva L. Ailə pedaqogikası. Bakı, 2016
4. Köçərli F. Sosializm cəmiyyətində ailə. Bakı, Azərnəşr, 1959
5. Каптерев П.Ф. Первоначальное воспитание / П.Ф. Каптерев // История русской педагогики. Петроград, 1915
6. Qeybullayev Q.Q. Azərbaycanlılarda ailə və nigah (XIX əsr və XX əsrin əvvəlləri). Tarixi etnoqrafik tədqiqat.
7. https://aztehsil.com/news/4708-uan-trbiysind-ail-mhitinin-rolu-n-qdrdir.html
8. https://janebartosh.ru/az/semeinoe-vospitanie-19-nachala-20-veka-stanovlenie-semeinogo-vospitaniya-v/

Н.Р.Исмаилова

Мысли преподавателей о семейном образовании детей разных лет

Резюме

В статье исследуются взгляды педагогов на семейное воспитание детей в разные годы. В сознании каждого главный вопрос - это правильное воспитание и развитие ребенка в семье. При этом отмечается, что семья является первичной структурной единицей общества, которая является основой личности. Именно в семье воспитываются дети, дети получают первый социальный опыт и формируются как личности.

N.R.Ismayilova

Pedagogues' thoughts on family education of children in different years

Summary

The article investigated the views of educators on the family upbringing of children in different years. In the minds of everyone, the main issue is the proper upbringing and development of the child in the family. At the same time, it is noted that the family is the primary structural unit of society, which is the basis of personality. It is only in the family that children are brought up, and children acquire their first social experience and are formed as individuals.

Rəyçi: ped.f.d. S.Əliyeva

Redaksiyaya daxil olub: 03.03.2021

E.Q.KƏSƏMƏNLİ
e-mail: elvira.kesemenli97@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

CƏFƏR CABBARLININ MİLLİ-TƏRBİYƏVİ İDEYALARI VƏ MÜASİR MƏKTƏB TƏRBİYƏ SİSTEMİNDƏ ONUN ROLU

Açar sözlər: *Azərbaycan ədəbiyyatı, milli-tərbiyəvi ideyalar, Cəfər Cabbarlı irsi, vətənpərvərlik, məsuliyyət hissi.*

Ключевые слова: *Азербайджанская литература, национально-воспитательные идеи, наследие Джафара Джаббарлы, патриотизм, чувство ответственности.*

Key words: *Azerbaijani literature, national-educational ideas, JafarJabbarli's heritage, patriotism, sense of responsibility.*

XX əsrin əvvəllərində yaşayıb yaratmış Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında müəllim, məktəb, təhsil, vətənpərvərlik, qadınların maariflənməsinin və təhsilə cəlb olunmasının vacibliyi, təlim və tərbiyəyə aid qiymətli fikirlər vardır. Bir çox görkəmli şəxslərin pedaqoji görüşləri tədqiq edilmiş, məktəbdə onların fikirlərindən istifadənin zəruriliyi əsaslandırılmışdır. Həmin əsərlərdə pedaqoqlarla yanaşı, Nizami, N.Tusi, Füzuli, M.F.Axundov, A.Bakıxanov və başqalarının pedaqoji fikirlərinə də müraciət edilir. Azərbaycan mütəfəkkirlərinin böyük əksəriyyəti öz əsərlərində təlim, tərbiyə və təhsil, məktəb, müəllim şəxsiyyəti məsələlərinə toxunulmuşdur. Bu sahədə Azərbaycanın görkəmli dramaturqu Cəfər Cabbarlı xüsusi rol oynamışdır.

Məlum olduğu kimi, tərbiyənin tərkib hissələri sırasında mənəvi tərbiyə əhatəliliyinə və məzmun zənginliyinə görə xısusi yer tutur. Mənəvi tərbiyənin qarşısında duran vəzifələr də genişdir. Buraya vətənpərvərlik, düzlük və doğruçuluq, yoldaşlıq və dostluq, sadəlik və təvazökarlıq, xeyirxahlıq, humanizm, böyüyə hörmət, əməksevərlik, igidlik və mərdlik, qəhrəmanlıq, borc və məsuliyyət hissləri, ədalətə yiyələnmək, vicdanlı olmaq və s. bu kimi keyfiyyətləri inkişaf etdirmək və formalaşdırmaq kimi mühüm vəzifələr daxildir. Bütün bu məsələlərə C.Cabbarlı irsində geniş yer ayrılmışdır.

Xoşbəxtlik, səadət mənəvi sərvətlər arasında çox mühüm yer tutur. Ta qədimdən insanlar xoşbəxtliyə nail olmaq barədə fikirləşmiş, ona çatmağı arzulamış, səadətə yiyələnməyin yollarını aramışlar. Etika elminin gəldiyi nəticəyə görə, bəşər övladı ən qiymətli mənəvi sərvətdirsə, onun həyatında önəmli rol oynayan xoşbəxtlik növbəti, çox dəyərli sərvətdir. Səadət, xoşbəxtlik insanın ən zəruri tələbatı, arzu, istək və mənəviyyatının elə bir sahəsini təşkil edir ki, ondan kənarda insanın həyatı öz mənasını itirir. Sokrat və qeyriləri xoşbəxtliyi mütləq ruhi dincliklə eyniləşdirir və qeyd edirdilər ki, insan nəyə görəsə ruhi əziyyət çəkməyib azla qənaətlənsə xoşbəxtliyə çatar.

Heraklitə görə, xoşbəxtlik yalnız hissi zövqlərdən ibarət olsaydı, onda gərək yeməyə noxud tapan öküzlər özlərini daha xoşbəxt sanardılar.

Var-dövlət hərisi olan şəxslərdən fərqli olaraq filosoflar xoşbəxtliyi kobud hiss və ehtirasların ödənilməsi vasitəsi kimi nəzərdən keçirmirdilər.

Xoşbəxtlik haqqında Lüdviq Feyerbaxın dəyərli fikirləri vardır. Onun qənaətinə görə, xoşbəxtlik insanın əsas məqsədinə çevrilməlidir. Bu mənada xoşbəxtlik mənəvi normalarla, əxlaq qaydaları və prinsipləri ilə son dərəcə bağlıdır.

Lakin xoşbəxtliyi təkcə şəxsi xoşbəxtliklə məhdudlaşdırmaq düzgün deyildir. Başqalarının, yaxınlarının sıxıntı keçirdiklərini, əzab çəkdiklərini, dərdli olduqlarını görüb necə xoşbəxt olmaq mümkündür? Axı "Bədbəxtlər arasında xoşbəxtlik yoxdur" (N.Vəzirov).

V.Q.Belinskinin belə bir qənaəti diqqəti cəlb edir ki, "Əgər bizim həyatımızın bütün məqsədi yalnız bizim şəxsi xoşbəxtliyimizdə olsaydı, bizim şəxsi xoşbəxtliyimiz isə yalnız sevgidən ibarət olsaydı, onda həyat həqiqətən qəbirlərlə, sındırılmış qəlblərlə dolu, qaranlıq bir səhra olardı, cəhənnəm olardı".

"Xoşbəxtlik nədir?" sualına cavab axtarmaq bir növ "həyatın mənası nədədir?" sualı üzərində düşünmək deməkdir.

L.N.Tolstoyun "Anna Karenina" romanının proloqunda göstərilir: "Xoşbəxt adamların hamısı eyni cür xoşbəxtdir, bədbəxtlərin hərəsi bir cür bədbəxtdir".

Cəfər Cabbarlının qəhrəmanları da xoşbəxtliyə nail olmaq uğrunda mübarizə aparırlar. Lakin onların hərəsi xoşbəxtliyi bir cür başa düşür.

Bu axarda xoşbəxtlik və bədbəxtlik məhfumları bir-birilə qarşılaşdırılır. Kim xoşbəxtdir, kim bədbəxtdir? (Öz nəzərlərində və digərlərinə görə).

Sara ("Solğun çiçəklər") xoşbəxtdir. Bəhram onu, o, Bəhramı sevir, hələ onun qara günləri başlamamışdır. Bəhramla birlikdə olduğundan heç nədən qorxmur, Bəhram da onu əmin edir: "Sənin xoşbəxtliyin mənim həyat və səadətim deməkdir" Bəhram da xoşbəxtdir. Dünyanın ən gözəl, ismətli, sədaqətli, xoşrəftarlı, nümüməvi davranışlı qızı könlünü ona vermişdir. Lakin hadisələr dəyişir, Bəhramın xoşbəxtlik, səadət, bəxtiyar həyat haqqında təsəvvürləri də dəyişir. O, xoşbəxtliyi gözəl, əxlaqlı, ailənin dirəyi, sütunu olacaq qızda, qızlarda deyil, var-dövlətdə; mənəvi sərvətdə deyil, maddi sərvətdə tapacağı qənaətinə gəlir: "Əmimin vaxtında mən yoldaşlarımın arasında milyoner balası idim. İndi əlli manata xidmət edərsəm, mənə gülməzlərmi? Sultan bəy mənim əmimin pulu ilə dolanıb, indi onun yanında xidmət edəcəyəm?" - deyə düşünərək, xoşbəxtliyin qapılarını öz əli ilə üzünə - qapayır, onu bədbəxtliyə aparan yolu seçir.

"Qapılar arxasında gizlənib qeyrətini, kişiliyini pula satan məlun" (Əbdülün sözləri). Bəhram ondan soyuduqca Sara da xoşbəxtliyin tədricən onu tərk etdiyini anlayır. Çətinliklər, məhrümiyyətlər, təhqirlər bir-birini əvəz edir. Aldadılaraq, xəyanət edilərək atasını, sonra var-dövlətini, sevgilisini əlindən alırlar. Ata evindən qovularaq bir daxmanın küncünə atılır: "İndi adamsız kənizlər kimi qaranlıq daxmada can üstündədir. Çörəyi yeyirlər, artıq qalsa ona göndərirlər, qalmasa, yaddan çıxıb gedir". Bəhram da arzuladığı xoşbəxtliyə ("Sara kimi bir mələyi sevərdim, fəqət pul, güzəran burada, şənlik, şuxluq burada; varlıq, səadət, xoşbəxtlik həp bu tərəfdə!") çata bilmir, axırda başa düşür ki, səadət, xoşbəxt həyat üçün təkcə var-dövlət, zəngin ev-eşik, eyş-işrət kifayət deyil ("O milyonlar ki, səadətin açarı deyildir"). Saranın ölümü onu silkələyir, özünü özünə qaytarır, "gəlinlik pərdəsi qaranlıq məzara döndərilən" Saranın və özünün bədbəxtliyinə bais olan Pərini boğub öldürür.

Ədəbi-bədii irsi ilə tanışlıqdan görünür ki, dramaturq kamil bir şəxs olmaq üçün insana bir çox tələblər verir, onun bir sıra nəcib keyfiyyətlərə yiyələnməsini vacib bilir. Eyni zamanda mənfi sifətlərdən uzaq olmağı hər bir şəxs üçün zəruri sayırdı. Yaramaz adamlar, öz xoşbəxtliklərini başqalarının bədbəxtlikləri, göz yaşları, iztirabları üzərində quran simasız, əyyaş, pozğun əxlaqlı şəxslər ədibin əsas tənqid hədəfləridir. Aslan gecəsini-gündüzünə qatıb qardaşı Fərhadı ayaq üstə qaldırır, onu oxudub peşə sahibi edir. Aslanın xidmətlərini qiymətləndirmək əvəzinə Fərhad ona xəyanət edir, həm onun, həm də bacısı Züleyxanın ölümünə bais olur. Dövlət bəy ("Aydın"), İmamyar ("Yaşar"), Hacı Əhməd, İbad, Şərif ("Almaz"), Dilbər ("Sevil"), Haris ("Trablis müharibəsi və ya Ulduz") və b. hərəsi özünəməxsus mənfi obrazlar, əxlaqca naqis insanlardır. Belələri üçün şəxsi mənafe, şəxsi rifah hər şeydən yüksəkdə durur, öz məqsədlərinə çatmaq üçün hər cür alçaq hərəkətlərə hazırdırlar. C.Cabbarlı bu kimi obrazları yaratmaqla insanlara anlatmaq istəyir ki, həyatda xeyir və şər qüvvələr vardır, xeyirə yol açmaqla yanaşı şər qüvvələrin hiylələrinə uymamaq, onlarla mübarizə aparmaq lazımdır.

C.Cabbarlı məktəblə ailənin, müəllimlərlə valideynlərin əlbir işini yüksək qiymətləndirirdi. "Almaz" dramı bu barədə aydın təsəvvür yaradır. Görkəmli dramaturq müəllimdən öz

vətəndaşlıq borcunu düzgün anlamağı, peşəsindən irəli gələn vəzifələri başa düşməyi və onları yerinə yetirməyi tələb edirdi.

Ədəbiyyat

1. Arif M. Cəfər Cabbarlının yaradıcılıq yolu. Bakı: Azərbaycan Dövlət Universitetinin nəşri, 1956, 352 s.
2. Cabbarlı C. Mənim tanrım gözəllik. Bakı, 2000, 283 s.
3. Əhmədov H.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Maarif, 2000.
4. Talıbov Y.R.. Sadıqov F.B., Quliyev S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Ünsiyyət, 2001.

Э.Г.Кесеменли

Национально-воспитательные идеи Джафара Джаббарлы и его роль в современной системе школьного воспитания

Резюме

В национально-воспитательных вопросах широкое место было отведено наследию Джафара Джаббарлы, одного из самых ярких представителей Азербайджанской литературы XX века. Это наследие имеет широкие возможности для дальнейшего развития и формирования таких качеств, как усвоение патриотизма, честности и правдивости, товарищества и дружбы, простоты и скромности,доброты, гуманизма, уважения к старшим, трудолюбия, героизма и отваги, чувстве долга и ответственности, справедливости, честности и так далее.

E.G.Kasamanli

Jafar Jabbarli's national-educational ideas and modernityits role in the school education system

Summary

National-educational issues are given a wide place in the legacy of Jafar Jabbarli, one of the most prominent representatives of XX century Azerbaijani literature. This heritage teaches students in Azerbaijani schools patriotism, honesty and truthfulness, companion ship and friendship, simplicity and humility, kindness, humanism, respect for elders, diligence, courage and bravery, heroism, sense of duty and responsibility, justice, honesty and so on. has ample opportunities for further development and formation of such qualities.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 15.04.2021

G.B.MEHDİYEVA
e-mail: gulnar.mehdiyeva999@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

AZƏRBAYCAN PEDAQOJİ FİKRİNDƏ MƏNƏVİ KEYFİYYƏTLƏRİN İNKİŞAF ETDİRİLMƏSİNİN VACİBLİYİ HAQQINDA

Açar sözlər: *tərbiyənin tərkib hissələri, mənəvi tərbiyə, mənəvi tərbiyənin vəzifələri, təvazökarlıq, igidlik və mərdlik tərbiyəsi.*

Ключевые слова: *компоненты воспитания, нравственное воспитание, задачи нравственного воспитания, воспитание скромности, отваги и смелости.*

Key words: *components of education, moral education, tasks of moral education, education of humility, courage and bravery.*

Məlum olduğu kimi, tərbiyənin tərkib hissələri sırasında mənəvi tərbiyə əhatəliliyinə və məzmun zənginliyinə görə xısusi yer tutur. Mənəvi tərbiyənin qarşısında duran vəzifələr də genişdir. Buraya vətənpərvərlik, düzlük və doğruçuluq, yoldaşlıq və dostluq, sadəlik və təvazökarlıq, xeyirxahlıq, humanizm, böyüyə hörmət, əməksevərlik, igidlik və mərdlik, qəhrəmanlıq, borc və məsuliyyət hissləri, ədalətə yiyələnmək, vicdanlı olmaq və s. bu kimi keyfiyyətləri inkişaf etdirmək və formalaşdırmaq kimi mühüm vəzifələr daxildir.

Bütün bu məsələlərə XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Cəfər Cabbarlı irsində geniş yer ayrılmışdır.

Xoşbəxtlik, səadət mənəvi sərvətlər arasında çox mühüm yer tutur. Ta qədimdən insanlar xoşbəxtliyə nail olmaq barədə fikirləşmiş, ona çatmağı arzulamış, səadətə yiyələnməyin yollarını aramışlar. Etika elminin gəldiyi nəticəyə görə, bəşər övladı ən qiymətli mənəvi sərvətdirsə, onun həyatında önəmli rol oynayan xoşbəxtlik növbəti, çox dəyərli sərvətdir. Səadət, xoşbəxtlik insanın ən zəruri tələbatı, arzu, istək və mənəviyyatının elə bir sahəsini təşkil edir ki, ondan kənarda insanın həyatı öz mənasını itirir. Sokrat və qeyriləri xoşbəxtliyi mütləq ruhi dincliklə eyniləşdirir və qeyd edirdilər ki, insan nəyə görəsə ruhi əziyyət çəkməyib azla qənaətlənsə xoşbəxtliyə çatar.

Heraklitə görə, xoşbəxtlik yalnız hissi zövqlərdən ibarət olsaydı, onda gərək yeməyə noxud tapan öküzlər özlərini daha xoşbəxt sanardılar.

Var-dövlət hərisi olan şəxslərdən fərqli olaraq filosoflar xoşbəxtliyi kobud hiss və ehtirasların ödənilməsi vasitəsi kimi nəzərdən keçirmirdilər.

Xoşbəxtlik haqqında Lüdviq Feyerbaxın dəyərli fikirləri vardır. Onun qənaətinə görə, xoşbəxtlik insanın əsas məqsədinə çevrilməlidir. Bu mənada xoşbəxtlik mənəvi normalarla, əxlaq qaydaları və prinsipləri ilə son dərəcə bağlıdır.

Lakin xoşbəxtliyi təkcə şəxsi xoşbəxtliklə məhdudlaşdırmaq düzgün deyildir. Başqalarının, yaxınlarının sıxıntı keçirdiklərini, əzab çəkdiklərini, dərdli olduqlarını görüb necə xoşbəxt olmaq mümkündür? Axı "Bədbəxtlər arasında xoşbəxtlik yoxdur" (N.Vəzirov).

V.Q. Belinskinin belə bir qənaəti diqqəti cəlb edir ki, "Əgər bizim həyatımızın bütün məqsədi yalnız bizim şəxsi xoşbəxtliyimizdə olsaydı, bizim şəxsi xoşbəxtliyimiz isə yalnız sevgidən ibarət olsaydı, onda həyat həqiqətən qəbirlərlə, sındırılmış qəlblərlə dolu, qaranlıq bir səhra olardı, cəhənnəm olardı".

"Xoşbəxtlik nədir?" sualına cavab axtarmaq bir növ "həyatın mənası nədədir?" sualı üzərində düşünmək deməkdir.

L.N. Tolstoyun "Anna Karenina" romanının proloqunda göstərilir: "Xoşbəxt adamların hamısı eyni cür xoşbəxtdir, bədbəxtlərin hərəsi bir cür bədbəxtdir".

Cəfər Cabbarlının qəhrəmanları da xoşbəxtliyə nail olmaq uğrunda mübarizə aparırlar. Lakin onların hərəsi xoşbəxtliyi bir cür başa düşür.

Bu axarda xoşbəxtlik və bədbəxtlik məhfumları bir-birilə qarşılaşdırılır. Kim xoşbəxtdir, kim bədbəxtdir? (Öz nəzərlərində və digərlərinə görə).

Sara ("Solğun çiçəklər") xoşbəxtdir. Bəhram onu, o, Bəhramı sevir, hələ onun qara günləri başlamamışdır. Bəhramla birlikdə olduğundan heç nədən qorxmur, Bəhram da onu əmin edir: "Sənin xoşbəxtliyin mənim həyat və səadətim deməkdir" (4, s.62). Bəhram da xoşbəxtdir. Dünyanın ən gözəl, ismətli, sədaqətli, xoşrəftarlı, nümüməvi davranışlı qızı könlünü ona vermişdir. Lakin hadisələr dəyişir, Bəhramın xoşbəxtlik, səadət, bəxtiyar həyat haqqında təsəvvürləri də dəyişir. O, xoşbəxtliyi gözəl, əxlaqlı, ailənin dirəyi, sütunu olacaq qızda, qızlarda deyil, var-dövlətdə; mənəvi sərvətdə deyil, maddi sərvətdə tapacağı qənaətinə gəlir: "Əmimin vaxtında mən yoldaşlarımın arasında milyoner balası idim. İndi əlli manata xidmət edərsəm, mənə gülməzlərmi? Sultan bəy mənim əmimin pulu ilə dolanıb, indi onun yanında xidmət edəcəyəm?" (4, s.76) - deyə düşünərək, xoşbəxtliyin qapılarını öz əli ilə üzünə -qapayır, onu bədbəxtliyə aparan yolu seçir.

"Qapılar arxasında gizlənib qeyrətini, kişiliyini pula satan məlun" (Əbdülün sözləri). Bəhram ondan soyuduqca, Sara da xoşbəxtliyin tədricən onu tərk etdiyini anlayır. Çətinliklər, məhrümiyyətlər, təhqirlər bir-birini əvəz edir. Aldadılaraq, xəyanət edilərək atasını, sonra var-dövlətini, sevgilisini əlindən alırlar. Ata evindən qovularaq bir daxmanın küncünə atılır: "İndi adamsız kənizlər kimi qaranlıq daxmada can üstündədir. Çörəyi yeyirlər, artıq qalsa ona göndərirlər, qalmasa, yaddan çıxıb gedir". Bəhram da arzuladığı xoşbəxtliyə ("Sara kimi bir mələyi sevərdim, fəqət pul, güzəran burada, şənlik, şuxluq burada; varlıq, səadət, xoşbəxtlik həp bu tərəfdə!") çata bilmir, axırda başa düşür ki, səadət, xoşbəxt həyat üçün təkcə var-dövlət, zəngin ev-eşik, eyş-işrət kifayət deyil ("O milyonlar ki, səadətin açarı deyildir"). Saranın ölümü onu silkələyir, özünü özünə qaytarır, "gəlinlik pərdəsi qaranlıq məzara döndərilən" Saranın və özünün bədbəxtliyinə bais olan Pərini boğub öldürür.

Cəfər Cabbarlı həmişəyaşar sənətkardır. Onun yaradıcılığı təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlara malikdir. Ədib xüsusi pedaqoji əsər yazmasa da istər hekayələrində, istər "Qız qalası" poemasında, lirik və satirik şerlərində, istərsə də dramlarında müəllim şəxsiyyəti, tərbiyəçinin və tərbiyə olunanın həyatda fəal mövqe tutması, təhsil, məktəb haqqında dəyərli fikirlər irəli sürmüşdür.

Ədəbi-bədii irsi ilə tanışlıqdan görünür ki, dramaturq kamil bir şəxs olmaq üçün insana bir çox tələblər verir, onun bir sıra nəcib keyfiyyətlərə yiyələnməsini vacib bilir. Eyni zamanda mənfi sifətlərdən uzaq olmağı hər bir şəxs üçün zəruri sayırdı. Yaramaz adamlar, öz xoşbəxtliklərini başqalarının bədbəxtlikləri, göz yaşları, iztirabları üzərində quran simasız, əyyaş, pozğun əxlaqlı şəxslər ədibin əsas tənqid hədəfləridir. Aslan gecəsini-gündüzünə qatıb qardaşı Fərhadı ayaq üstə qaldırır, onu oxudub peşə sahibi edir. Aslanın xidmətlərini qiymətləndirmək əvəzinə Fərhad ona xəyanət edir, həm onun, həm də bacısı Züleyxanın ölümünə bais olur. Dövlət bəy ("Aydın"), İmamyar ("Yaşar"), Hacı Əhməd, İbad, Şərif ("Almaz"), Dilbər ("Sevil"), Haris ("Trablis müharibəsi və ya Ulduz") və b. hərəsi özünəməxsus mənfi obrazlar, əxlaqca naqis insanlardır. Belələri üçün şəxsi mənafe, şəxsi rifah hər şeydən yüksəkdə durur, öz məqsədlərinə çatmaq üçün hər cür alçaq hərəkətlərə hazırdırlar. C. Cabbarlı bu kimi obrazları yaratmaqla insanlara anlatmaq istəyir ki, həyatda xeyir və şər qüvvələr vardır, xeyirə yol açmaqla yanaşı şər qüvvələrin hiylələrinə uymamaq, onlarla mübarizə aparmaq lazımdır.

C. Cabbarlı hər bir şəxsin, o cümlədən qızların, təhsillə əhatə olunmasını vacib sayır, elmə, maarifə, təhsilə mane olanları satirik qələmlə, kəskin nifrətlə tənqid edirdi. Cabbarlının qənaətinə görə, məktəb təkcə şagirdlərə dərs verməklə öz işini məhdudlaşdırmamalı, yerləşdiyi ərazidə (kənddə, qəsəbədə, şəhərdə) yeniliyin carçısı, fəal ictimai işin təşəbbüsçüsü və təşkilatçısı, ziyalıları, valideynləri abadlığa, cəmiyyətin tərəqqisinə səfərbər edən mədəni-maarif ocağıdır.

C. Cabbarlı məktəblə ailənin, müəllimlərlə valideynlərin əlbir işini yüksək qiymətləndi-

rirdi. “Almaz” dramı bu barədə aydın təsəvvür yaradır. Görkəmli dramaturq müəllimdən öz vətəndaşlıq borcunu düzgün anlamağı, peşəsindən irəli gələn vəzifələri başa düşməyi və onları yerinə yetirməyi tələb edirdi.

Diqqətəlayiq haldır ki, hələ ötən əsrin 30-cu illərində C. Cabbarlı məktəblilərin vaxtaşırı tibbi müayinədən keçirilməsini (Almaz: “Temurtaş doktordur, mənim xahişimə görə uşaqlara baxırdı, sabah da baxacaqdır”) lazım bilirdi. Onun nöqteyi-nəzərincə, müəllim təkcə yetirmələrinin təhsilinə deyil, həm də sağlamlığına qayğı göstərməlidir. Uşaq sağlam olduqda təlim vəzifələrini daha səmərəli yerinə yetirir.

C. Cabbarlı dərsdən sonra şagirdlərlə müxtəlif, rəngbərəng tədbirlərin həyata keçirilməsinin tərəfdarı idi. Heç də təsadüfi deyildir ki, Almaz (“Almaz”) təlimdən sonrakı vaxtlarda uşaqlarla oyunlar təşkil edirdi. Məktəbdə onlar rəqs edir, mahnı oxuyurdular.

C. Cabbarlıya görə, müəllim saf əxlaqlı, savadlı və uşaqlara münasibətdə qayğıkeş, mehriban və eyni zamanda tələbkar olmalıdır. Rüşvətə uymaq, yaxud dərs dediyi şagirdin valideynindən maddi təmənna ummaq pedaqoji peşə sahibi üçün ən qüsurlu, bağışlanılmaz günahdır. C. Cabbarlı “Can onun, cəhənnəm tanrının. Onunku elə odur ki, bir ərizə yazasan, alasan bir motal pendirini, yeyəsən malını, çıxardasan canını” fəlsəfəsi ilə kənd camaatı haqqında fikir yürüdən məktəb müdiri Mirzə Səməndəri ifşa edir.

Ədəbiyyat

1. Abbasov A.N., Məmmədzadə R.R., Məmmədli L.A. Pedaqogika: Müntəxabat. Dərs vəsaiti. Bakı: Mütərcim, 2021. 608 s.
2. Əliyev, R.İ,. Əliyeva G.B. Şəxsiyyət psixologiyası. Bakı: ADPU-nun nəşriyyatı, 2010. 144 s.
3. Ağayev Ə.Ə. Fərhad Ağazadənin pedaqoji görüşləri. Bakı: Maarif, 1987. 162 s.
4. Cabbarlı C. İlk dram əsərləri. Bakı: Azərbaycan EA nəşriyyatı, 2007. 292 s.
5. Əhmədov H.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Maarif, 2001. 482 s.
6. İsayev İ.N. Abbas Səhhət və xalq maarifi. Bakı: Nurlan, 2001. 157 s.

Г.Б.Мехтиева

О важности развития нравственных качеств в педагогической мысли Азербайджана

Резюме

В статье показано, что среди компонентов воспитания нравственное воспитание занимает особое место в силу своей комплексности и содержательности. Широки и задачи, стоящие перед нравственным воспитанием. Это включает в себя патриотизм, честность и правдивость, товарищество и дружбу, простоту и скромность, доброту, гуманизм, уважение к старшим, трудолюбие, отвагу и смелость, героизм, чувство долга и ответственности, освоить справедливость, быть честным и т. д. Сюда входят такие важные задачи, как развитие и формирование перечисленных качеств.

G.B.Mehdiyeva

On importance of developing moral qualities in pedagogical thought of Azerbaijan

Summary

In article has been shown, that among the components of education, spiritual education has a special place due to its comprehensiveness and richness of content. The tasks facing moral education are also wide. This includes patriotism, honesty and truthfulness, companionship and friendship, simplicity and humility, kindness, humanism, respect for elders, diligence, courage and bravery, heroism, a sense of duty and responsibility, justice, honesty and other important tasks such as developing and shaping qualities.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 06.04.2021

N.R.MƏMMƏDOVA
e-mail: memmedovanermin1080@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MİLLİ SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏR VƏ İNTEQRASİYA

Açar sözlər: *sosial tərbiyə, sosial psixologiyası, ailə tərbiyəsi, şagird şəxsiyyəti, inteqrasiya.*
Ключевые слова: *социальное воспитание, социальное психология, семейное воспитание, личность учащихся, интеграция.*
Key words: *national education, psychology of national, family education, the identity of students, inteqration.*

Müasir dövrdə müstəqil və suveren dövlətimizin qarşısında duran mühüm dövləti məsələlərdən biri də Azərbaycan dövlətinin siyasi qüdrətini daha da möhkəmlətməkdir. Bu qlobal və həyati problem çoxsaylı etnik qrup və millətlər arasında düzgün, nəzəri cəhətdən əsaslandırılmış vahid milli ideoloji siyasət yeridilməsini tələb edir. Respubilkamızda milli ideoloji məsələlərlə bağlı meydana çıxan pedaqoji problemləri vaxtında görmək, onların azərbaycanlıların sosial-psixoloji xüsusiyyətləri və başlıca keyfiyyətlərinə əsaslanan milli tərbiyə konsepsiyası baxımından tərbiyə etmək, vətəndaş tərbiyəsi prinsiplərindən irəli gələn məsələlərə düzgün yanaşmaq və uğurla həll etmək milli siyasətimizin başlıca istiqamətlərini təşkil edir.

Şəxsiyyətin müvəffəqiyyəti evində, nəsil arasında, kənarda insanlarla yaratdığı sədaqətli dostluq münasibəti ilə ölçülür. Bir nəfərin üzaq bir yerdən tutduğu dost ailəvi dostluğa çevrilir. Əgər el-oba həmin qonağı bəyənsə o, bütün kəndin dostuna çevrilir. Həmin kənddən olan hər bir kəs eyni zamanda həmin dostun ən hörmətli qonağı ola bilər.

Azərbaycanın çox görkəmli psixoloq-alimi,professor Ramiz Əliyevin qeyd etdiyi kimi," nə yaxşı ki, bu xüsusiyyətimiz indi də qalıb. Özü də S. Benetin təsvir etdiyi kimi. Görünür bu xüsusiyyət bizim xalqın genindədir. Əsrlər boyu beləcə dəyişmədən davam edir". A. Dumanın vaxtilə azərbaycanlılarda göstərdiyi bir cəhət Seula Benetin də diqqətindən yayınmır. Bu da sözübütövluk, söz verdin əməl etməlisən prinsipinə sadiqlikdir. S. Benet yazır: "Azərbaycanlılarda söz vermək, zamin olmaq, şifahi razılıq ciddi məsələdir. Söz verdin gərək yerinə yetirəsən. Dilindən kağız verməyə, onu sənədləşdirməyə, imzalamağa ehtiyac yoxdur".

Bir çox xarici səyyah və alimlərin də nəzərindən qaçmayan belə bir keyfiyyət var: bəzən azərbaycanlı valideynlər uşağa qarşı soyuq, laqeyddir. İctimaiyyət içərisində, kənar adam yanında valideynin uşağı qucağına götürməməsi, əzizləməməsi soyuqluq kimi başa düşülür. Qəbul etməliyik ki, bu döğrudan da belədir. Bizdə övladını açıq-saçıq əzizləmək, nəvaziş göstərmək qəbahət sayılır. Lakin bu heç də uşağa laqeyidlik deyil. Elə həmin adamlar, başqalarının uşaqlarını əzizləyir, nəvaziş göstərir.

Seula Benetin diqqətini cəlb edən cəhətlərdən biri də azərbaycanlılarda ataya-ailə başçısına hörmət və ehtiramın vacib sayılması ilə bağlıdır (3). Övladlar atanın hüzurunda hörmətlə dayanır, ona ehtiram göstərirlər.

Övlad hansı vəzifədə çalışsa da, özü ailə başçısı olsa da, ata qarşısında papiros çəkmir, öz uşağını əzizləmir. Belə münasibət qardaşlar arasında da davam edir. Kiçik qardaş özündən böyük qarşısında hörmətlə dayanır, ona ehtiram göstəri.

Burada hörmət, ehtiram məsuliyyətlə, cavabdehliklə vəhdətdə olur. Neçə onilliklərdir ki, qapalı mühitdə yaşayan, neçə yüzilliklərdir ki, kənar təsir və təzyiqlərə məruz qalan Azərbaycan xalqı həm ictimai-siyasi vəziyyətlə bağlı, həm də özünün özünə qarşı laqeydliyindən irəli gələn səbəblərdən özü haqqında az şey bilir. Ona görə də xalqqımız haqqında əcnəbilərin söylədikləri, bizi necə qavradıqları, eyni zamanda, özümüzü tanımaqda, pis və yaxşı cəhət-

lərimizi özümüzün görməyimizdə bu fikirlər kömək edir. Axı, bir planetdə yaşayıb, başqa xalqlardan təcrid olunub yaşamaq qeyri-mümkündür.

Son illərdə bu buz yavaş-yavaş sınır. Biz özümüz də başqa yerlərdə, başqa ölkələrdə özümüz haqqında müəyyən rəy yaratmağa çalışırıq. Yenidən dünya ictimaiyyətinin nəzər-diqqəti Azərbaycana yönəlib. Azərbaycan xalqı da özünə yenidən nəzər salmağa, özünün imkanlarını saf-çürük etməyə başlayıb (3).

Hər bir xalqın özünü hifz etməsi, bir xalq kimi yaşaması adət-ənənələri qorumasından çox asılıdır. Təcavüzə məruz qalan, müstəqilliyini itirən xalqı yalnız kökünə, özünə bağlılıq xilas edə bilər. Adət-ənənəni qoruya bilmək, xalqı məhv olmaqdan qorumaq deməkdir.

Gözəl adət-ənənələrimizdən biri də, babaların dili ilə desək, "Zəifə mərhəmət göstər, yoxsula əl tut",. "Döyüşdə ölsən əzab çəkərəm, döyüşdən qaçsan mən şərəfsiz olaram" məsəlidir. Namusu şərəfi uca tutardı bu xalq. Şərəfli iş üstə qaçaq düşəni el qoruyardı. Belə bir iş üstə qaçaq düşən kəs hansı kəndə pənah aparsa, o şəxs bütün kəndin qonağı hesab edilərdi. Əgər onun başına bir iş gəlsəydi, bütün kənd rüsvay olardı. Azərbaycanlılarda ata-ana tərifi, ən yaxın dostun tərifindən uca tutulur.

Vaxtilə azərbaycanlılar var-dövlətə laqeyid, dünya malına aludə olmamaları ilə başqa xalqlardan fərqlənərmiş. Onlar üçün başlıca şey ləyaqət və şərəf imiş. Kişi yaxşı atı və silahı ilə fəxr edərmiş.

Prof. R.İ. Əliyevin belə bir mükəmməl ümumiləşdirməsi ilə hamı razı olmalıdır ki, "beynin potensial imkanlarına görə azərbaycanlılar dünyadakı bütün xalqlar içərisində öncüllərdəndir. Azərbaycanın indiki təhsili, elmi, mədəni, texniki imkanları onun sivilizasiyalı ölkələrdən biri olmasına imkan yaradır" (4).

Lakin, onun qeyd etdiyi kimi, "elə xasiyyətlərimiz də var ki, bizi məhvə doğru sürükləyir. Onlardan birincisi unutqanlıq, ikincisi biganəlikdir". Əlbəttə kafirə bel bağlamaq olmaz, həyat da bunu sübut edir.

Milli xüsusiyyətlər, keyfiyyətlər, milli şüur, milli xarakter ötəri olmayıb, uzun bir tarixin, çoxəsrlik zamanın məhsuludur. O, insanın qanına hopur, yaddaşına həkk olunur, silinmir. Hətta, belə demək mümkünsə, instinkt halı daşıyır.

Azərbaycanlı psixologiyasında bir süstlük, ətalət, məsuliyyətdən qaçmaq da var. Ümummilli liderimiz Heydər Əliyev bunu belə ifadə etmişdir: " ... bizim məğlubiyyətlərimiz bir tərəfdən Azərbaycan Ordusunun döyüşən hissələrinin bir çox yerlərdə gücsüzlüyü nəticəsində baş vermiş, digər tərəfdən, bu ərazidə yaşayan vətəndaşların, bizim soydaşlarımızın öz torpaqlarını qorumaq, saxlamaq əvəzinə dərhal qaçmaq, yurdlarını qoyub didərgin düşmək əhval-ruhiyyəsi ilə əlaqədar olmuşdur." (1, s.536). İmdad diləmək, başqalarına üz tutmaq, fəaliyyətsizlik də var bu psixologiyada. Başqalarının, onun əvəzindən, özünün edəsi olduğunu kiminsə görəsi təmənnası, yalvarışı da var. Azərbaycan xalq pedaqogikasında qeyd edildiyi kimi, qədim türklərdə də belə keyfiyyətlər olmayıb. Doğrudur onların da müəyyən qüsuru olub, unutqanlıq, ruhdan düşmək, həlledici anda sayıqlığı itirmək və s. Şübhəsiz ki, bu keyfiyyətlər türk xarakteri ilə mühit arasındakı ziddiyyətdən yaranıb.

Məlumdur ki, indi sərhədlər açılıb, dünyaya inteqrasiya imkanı yaranıb, qloballaşma prosesinə qoşulmuşuq. Bu prosesə insanlarımız ikili yanaşırlar. Bəziləri bunu alqışlayır, nəhayət ki, bizim də avropalılar kimi yaşayacağımızı gözləyirlər. Digərləri şivən qoparıb deyirlər: "Ay aman, getdi əldən din, iman. Qoy avropalılar, gəlib bizdən öyrənsinlər". Gəlin, hər iki mövqeyə hörmət və ehtiramla yanaşaq. Hər iki tərəfin fikirlərinə azacıq da olsa münadibət bildirək.

Əvvəla, onu deyək ki, qloballaşma, inteqrasiya qaçılmaz, qarşısıalınmaz bir prosesdir. Ondan qaçmaq demək olar ki, mümkün deyil. Onun qarşısını almaq heç bir xalqın, heç bir dövlətin imkanı daxilində deyil. Lakin öz milli dəyərlərini, milli mənəviyyatını qorumaq şərtilə. İndi dövlətlər və xalqlar arasıda əlaqə və münasibətlər elə bir həddə çatıb ki, bunsuz mümkün deyil. Deməli, əlaqə və münasibət qurulan xalqların milli xüsusiyyətlərini öyrənmək

zəruridir. Axı, onları bilmədən onlarla münasibət qurmaq, həm də uğur qazanmaq qeyri-mümkündür. İnteqrasiyadan, qloballaşmadan qaçmaq özünütəcridə, "özünüintihara" bərabərdir. Milli dəyərlərini, milli mədəniyyətini qoruya bilməmək də eyni dərəcədə təhlükəlidir. Və ya qərb biz

Qərbə inteqrasiyada hansı sosial tələblər olunur? İlk növbədə təhsil Avropa standartlarına uyğunlaşdırılmalı və tədricən Avropa dəyərlərinə, normalarına uyğun gələn təhsil sistemi yaradılmalıdır. Paralel olaraq bu dəyişiklikləri təmin edən hüquqi mexanizm işlənməlidir. Sosial sistem bütövlükdə yeni sistemin tələblərinə uyğun qurulmalıdır. Vacib məsələlərdən biri də bütün sahələrdə islahatların eyni vaxtda, kompleks şəkildə həyata keçirilməsi ilə bağlıdır. Bunlardan birinin həyata keçirilib, digərinin sonraya saxlanılması o deməkdir ki, təhsil sistemi işləməyəcək. Bununla yanaşı, sitemin necəliyi onun pedaqoji ictimaiyyət tərəfindən necə dərk olunması ilə əlaqədardır.

Ədəbiyyat

1. Əliyev H.Ə. Qətiyyətin təntənəsi (sənədli xronika). Bakı, 1995.
2. Kazımov N.M. Tərbiyənin elmi-pedaqoji əsasları. Bakı, Maarif, 2003.
3. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı, Maarif, 2005.
4. Əliyev R.İ. Mentalitet. Bakı, Nurlan, 2012.

Н.Р.Мамедова

Национально и социо-психологической характер и интеграция

Резюме

В статье исследованы семьи, столкнувшиеся с различными демографическими проблемами республики (смерть одного или обоих родителей, развод, жизнь отдельно от родителей, беженство, принудительное переселение, изменение место жительства из-за социальных проблем и др.). Также исследованы потребности самореализации и самоутверждения у детей из таких семей и выявлены современные требования к педагогической работе в направлении улучшения образования и воспитания школьников из подобных семей.

N.R.Mammadova

National socio-psychological features and to integration

Summary

In article have been researched the problems in the area some main features of demographical problems in our republic such as children with parents kinds. Also were investigated the ways of pedagogical works in the field of experience and education of pupils about problems of family, main directions of using this process.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 08.04.2021

S.S.MƏMMƏDOVA
e-mail: qocayevasevinc30@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

ŞAGİRDLƏRİN HÜQUQ TƏRBİYƏSİNİN VƏZİFƏLƏRİ

Açar sözlər: *hüquq tərbiyəsi, tərbiyənin vəzifələri, hüquq tərbiyəsi üzrə sənədlər,tərbiyənin mərhələləri, əxlaq normaları.*

Ключевые слова: *юридическое воспитание, обязанности воспитания, документы по юридическому образованию, этапы воспитания, нормы морали.*

Key words: *law, education, functions of education, document on law education, periods of education, moral norms.*

Müasir pedaqogikada hüquq tərbiyəsinin vəzifələri belə göstərilir: hüquqa və hüquq normalarına aid gənc nəsildə hissiyatın və biliklərin formalaşdırılması; qanunçuluğa inamın artırılması; hüquq normalarına əməl edilməsi; qanunçuluğun pozulması hallarına qarşı barışmazlıq (4).

Müşahidələr göstərir ki, hüquq tərbiyəsinin ilk mərhələsində hüquqa aid, hüquq normalarına aid uşaqlarda hissiyyat yaradılmalıdır. Uşaqlar anlamalıdırlar ki, cəmiyyətdə, o cümlədən adamlar arasında davranış əxlaq normaları ilə yanaşı, hüquq normalarına uyğun tənzimlənir. Hər bir uşaq hiss etməlidir ki, cəmiyyətdə hüquq normaları mövcuddur. Hüquq tərbiyəsi gənc nəsldə hüquq normalarına dair hissiyatı hüquq normalarına aid konkret biliklərə çevirməlidir. Gənc nəsl cəmiyyətdə hüquq normalarının varlığını nəiniki duymalı, həm də bu normaların nədən ibarət olduğunu bilməlidir. Bilməlidir ki, məsələn, hər hansı formada olursa-olsun müharibə təbliğatı aparmaq – üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır; yaxud, Azərbaycan Respublikasının silahlı qüvvələri sırasına həqiqi hərbi xidmətə növbəti çağırışdan boyun qaçırma – beş ildən səkkiz ilədək müddətdə azadlıqdan məhrum etmə ilə cəzalandırılır; və ya əmək qabiliyyəti olmayan valideynlərin saxlanması üçün məhkəmə tərəfindən müəyyən edilmiş vəsaiti verməkdən qəsdən boyun qaçırma – bir ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Hüquq tərbiyəsi əsasında yeniyetmələr başa düşməlidir ki, hüquq normalarını bilmək və onlara əməl etmək cəmiyyət və əmin-amanlıq üçün vacibdir. Və əksinə, hüquq normalarına laqeyd qalmaq, yaxud onlara əməl etməmək cəmiyyətdə qarmaqarşıqlığa, özbaşnalığa, cəzasızlığa, əxlaqsızlığa səbəb olur.

Hüquq normalarına əməl etməyin zəruriliyini dərk edən məktəbli nəticə olaraq Azərbaycan Respublikasının dövlətçiliyini, ictimai quruluşunu, onun siyasi və iqtisadi sistemini, mülkiyyəti, vətəndaşların hüquq və azadlıqlarını hər cür cinayətkar qəsdlərdən qorumuş olur.

Həyat faktları göstərir ki, hüquq normalarını bilmək və onlara əməl olunma-sının zəruriliyini başa düşmək vacib olsa da, hələ kifayət deyil. Hüquq tərbiyəsi üzrə işi başa çatdırmaq üçün yeniyetmə və gənclər hüquq normalarına praktik şəkildə əməl edilməsi prosesinə qoşulmalıdırlar. Onlar heç bir hüquq pozuntusuna yol verməməlidirlər.

Orta ümumtəhsil məktəblərində daxili nizam-intizam qaydalarına tam əməl edilməsinə, tədris tapşırıqlarının şagirdlər tərəfindən yüksək səviyyədə yerinə yetirilməsinə hüquq normalarının əməl edilməsinin bazası kimi baxılma-lıdır. Tədris müəssisəsində daxili nizam-intizam qaydalarını pozmağa meylli olan şagirdlər arasında hüquq normalarına məhəl qoymayanlar çoxluq təşkil edirlər. Orta ümumtəhsil məktəblərində daxili intizam qaydalarına əməl edilmə dərəcəsi ilə hüquq normalarına əməl edilmə dərəcəsi arasındaki asılılıq nəzərə alındıqda hüquq tərbiyəsi zamanı daha çox uğur qazanmaq mümkün olur. Bir sözlə, gəncliyin hüquq

fəallığını artırmaq, onu qanunçuluğun və birgəyaşayış qaydalarının mühafizəsində fəal iştirak etməyə hazırlamaq gərəkdir.

Tədqiqat göstərdi ki, hüquq tərbiyəsi o vaxt başa çatmış hesab edilir ki, şagirdlər nəinki hüquq normalarını bilsin və onlara əməl etsin; bundan əlavə, onlar qanunçuluğu qorumağı bacarsınlar, qanun pozuntularına qarşı barışmaz mövqe tutsunlar.

Görkəmli pedaqoqlarımızdan olan A.Abbasov və H.Əlizadəyə görə hüquq tərbiyəsinin vəzifələri bunlardır: Azərbaycan Respublikası Konstitusiyası və ölkənin digər qanunları, vətəndaşların hüquq və vəzifələri, azadlıqları haqqında ümumi anlayış yaratmaq; gənc nəslin öz hüquq və vəzifələrini dərk etmələri, həyata keçirilmə yollarını bilmələri, onlara verilən hüquq və azadlıqlardan istifadə etməklə bərabər, öz vəzifələrini də yerinə yetirmələrinə nail olmaq; hüququn sahələri (dövlət hüququ, cinayət hüququ, mülki hüquq, ailə hüququ, əmək hüququ və s.) ilə şagirdləri tanış etmək; dövlətin müəyyən-ləşdirdiyi və dövlət tərəfindən mühafizə olunan məcburi rəftar qaydalarını məktəblilərə öyrətmək; məktəb intizamının və davranış mədəniyyəti qaydaları-nın pozulması hallarına, kobud, ədalətsiz hərəkətlərə mənfi münasibət formalaş-dırmaq; asayiş keşiyində dayanan adamların funksiyalarını başa salmaq, həmin şəxslərə, onların əməyinə hörmət hissi tərbiyələndirmək; qanunu, hüquq qaydalarını, birgəyaşayış normalarını pozmağa görə vətəndaşlıq məsuliyyətini formalaşdırmaq; gənc nəslə özünün və başqalarının davranışında nəyin yaxşı, nəyin pis, nəyin ədalətli, nəyin ədalətsiz olduğunu anlatmaq və s. (2, s.151).

Şagirdlərin hüquq normalarına riayət etmək, qanunun tələblərini gözləmək, öz hüquq və vəzifələrini anlamaq ruhunda tərbiyə edilməsi vaxtilə mənəvi tərbiyə üzrə aparılan işin məzmununa daxil idi. Hüquqi şüuru formalaşdırmaq, hüquq mədəniyyəti yaratmaq mənəvi tərbiyənin başlıca vəzifələrindən sayılırdı. Ayrıca "huquq tərbiyəsi" anlayışı mövcud deyildi və bu ifadə XX əsrin 70-ci illərindən geniş surətdə işlənməyə başladı və huquq tərbiyəsi mənəvi tərbiyədən ayrılaraq tərbiyənin müstəqil tərkib hissəsi statusu aldı.

Hüquq tərbiyəsinin ümumi tərbiyənin ayrıca sahəsi, müstəqil tərkib hissəsi kimi götürülməsi onun qarşısında duran vəzifələrin genişlənməsi, qanunun tələblərini yerinə yetirməyin son dərəcə vacib olmasının hər bir şəxsə, o cümlədən məktəblilərə şüurlu surətdə dərk etdirilməsi; hüquq tərbiyəsi üzrə işin məzmunca zənginləşməsi zərurətə çevrildi.

Respublikamızda pedaqoji elmin inkişafında xüsusi xidməti olan prof. F.B.Sadıqovun "Pedaqogika" (3) adlı dərs vəsaitində yazılır: "Hüquq tərbiyəsinin məqsədinə va məzmununa aid yuxarıda deyilənləri nəzərə alaraq ümumtəhsil məktəblərində onun başlıca vəzifələrini müəyyənləşdirə bilərik. Konkret olaraq həmin vəzifələr bunlardır: şagirdlərin hüquq düşüncəsini formalaşdırmaq, onlara hüquqi mədəniyyət, hüquq normaları, dövlət, idarəçilik, ictimai asayişin və qanunçuluğun mühafizəsi, siyasi baxışından və milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların qanun qarşısında bərabərliyi, birgəyaşayış qaydaları və s, haqqında müvafiq nəzəri məlumat vermək; qüvvədə olan hüquq əsasında təşəkkül tapmış ictimai münasibətlər sisteminə, konstitusiyaya şagirdlərdə rəğbət və məhəbbət hissi doğurmaq; onlarda ədalətli hüquq normalarına və qanunlara sözsüz əməl etməyə tələbat oyatmaq; uşaqların sosial-hüquqi fəallığını yüksəltmək, onları respublikamızdakı qanunçuluğun və birgəyaşayış qaydalarının mühafizəsində fəal iştirak etməyə hazırlamaq; məktəbliləri hüquqi qanunçuluğun hər hansı pozuntularına, qanunsuz aktlara qarşı fəal mübarizə ruhunda tərbiyələndirmək və onları konstitusiya hüquqlarından səmərəli istifadə etməyə alışdırmaq.

Sadalanan vəzifələri günün tələbləri səviyyəsində həyata keçirmək məktəbdə qanunçuluq prinsiplərinin reallaşmasına, əmək və təhsil intizamının möhkəmləndiril-məsinə müsbət təsir göstərər." (3, s.182).

Hüquq tərbiyəsi hüquqi biliklər və hərəkətlər vasitəsilə böyüyən nəsildə qanunçuluğa riayət vərdişləri, hüquqi təfəkkür formalaşdırır. Hüquq tərbiyəsi hüquq normalarına aid bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesidir. Hüquq tərbiyəsi şagirdlərdə belə bir əqidəni formalaşdırır ki, hüquq qanunlarını pozan hər bir kəs, kimliyindən asılı olmayaraq, lazımi

cəzasını almalıdır. Ədalətli cəmiyyətdə münasibətlər (dostluq, qohumluq və s.) deyil, hər şeyi qanun həll edir. Buna görə də hüququn başlıca vəzifəsi cəmiyyətdə mövcud olan ictimai münasibətləri qoruyub saxlamaqdan ibarətdir.

Beləliklə, hüquqi biliklərin təbliğatı hüquq torbiyəsinin ən mühüm formasıdır. Hüquqi təbliğat – hüquqi maariflənmənin, hüquqi şüuru yüksəltməyin və hüquq pozuntularının qarşısını almağın zəruri vasitəsidir. Yüksək hüquqi şüurun aşılanması üçün hüquqi təbliğat nəinki lazımdır, habelə vacibdir. Lakin təkcə hüquqi təbliğatla məhdudlaşmaq da düzgün olmazdı. Bu, hüquq tərbiyəsi işinin məzmununu bəsitləşdirər, şagirdlərdə, bilavasitə ictimai fəaliyyətə sövq edən adət və vərdişlər formalaşdırmazdı.

Tədqiqatdan məlum oldu ki, sinifdənxaric tədbirlər prosesində şagirdlərin hüquq tərbiyəsinin daha səmərəli təşkilinə mühazirə və söhbətlər, tematik gecələr, görüşlər, disputlar və şifahi jurnallar vasitəsilə də nail olmaq olar.

Ədəbiyyat

1. Abbasov A.N. Şagirdlərin hüquq tərbiyəsi. Seçilmiş pedaqoji əsərləri. 3-cü cild. Bakı: Mütərcim, 2003.

2. Abbasov, A.N. Pedaqogika: Müntəxabat. Dərs vəsaiti. / A.N.Abbasov, R.R.Məmmədzadə, L.A.Məmmədli. Bakı: Mütərcim, 2021.

3. Sadıqov F.B. Pedaqogika. Bakı: Təhsil, 2016.

4. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: OKA Ofset, 2009.

С.С.Мамедова

Обязанности юридического воспитания школьников

Резюме

В статье выяснена суть содержания юридического воспитания школьной молодежи на основе государственных документов и современных педагогических теорий. Также прокомментированы пути и возможности прививания юридического воспитания школьной молодежи. Статья может быть полезна не только педагогам, но и родителям.

S.S.Mammadova

Functions of law education of pupils

Summary

In article lighted the structure of law education of pupils-students on the basis public documents and contemporary pedagogical theories. Also were described the ways and methods of improvement of law education of pupils-youth. Article is useful for pedagogs, also parents.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 09.04.2021

Ü.M.MƏMMƏDOVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., H.Əliyev pr. 429)

TƏRBİYƏDƏ SOSİAL MÜHİTİN ROLU

Açar sözlər: *ailədaxili mühit, müəllim-şagird münasibətləri, ailə dəyərləri, ailədəki laqeyidlik, ailədəki tabeçilik.*

Ключевые слова: *родительская среда, отношения учитель-ученик, семейные ценности, безразличное отношение внутри семьи, подчинение внутри семьи.*

Key words: *family atmosphere, relationship between teachers and students, family values, family carelessness, family submission.*

Məktəblilərin mənəviyyatı, onların şəxsiyyəti ilk öncə ailənin sosial-psixolji mühitində, birbaşa valideynin təsiri altında formalaşır. Yəni ailə mühiti, ailədaxili münasibətlər, ailənin maddi imkanı, ailə üzvülərinin həyata, əməyə, fəaliyyətə və sairəyə münasibəti yeniyetmənin də həmin sahələrə münasibətinə, mənəviyyatına öz təsirini göstərir.

Məktəblilərin mənəviyyatı məktəbdən, təlim-tərbiyə prosesindən, müəllimlə-rin kimliyindən də asılıdır. Məktəbdə nə tədris edilir, nəyi təbliğ, nəyi tənqid edirlərsə, o da yeniyetməyə təsirsiz qalmır. Yeniyetmə mənəviyyatı ictimai mühitin təsirinə də məruz qalır. Cəmiyyətin tələbləri izsiz qalmır, yeniyetməni tərbiyə edir.

İqtisadi durum yeniyetmə mənəviyyatını formalaşdırır. Yeniyetmə ailənin yaşaması üçün nələrdənsə imtina etməlidir, gücü, inkanı çatan qədər ailəyə kömək etməlidir, yoxsa hər şeyi özününkü, hamının özünün borclusumu hesab edir? Bu cür təzadlardan fərqli mənəviyyat formalaşır. Deməli, yeniyetmə mənəviyyatı mühitin təsiri altında formalaşır. Bunlarsa birbiriylə sıx şəkildə bağlıdır. Hazırda respblikamızda gedən proseslər yeniyetmə mənəviyyatı və şəxsiyyətinə öz təsirini göstərir və bundan sonra da göstərəcəkdir.

Müşahidələr, valideyn və yeniyetmələrlə apardığımız söhbətlər təsdiq edir ki, həm yeniyetmələr, həm də valideynlər mənəvi tərbiyə sahəsində əvvəlkilərdən fərqli bir sıra keyfiyyətlərə, onların tərbiyəsinə üstünlük verirlər.

İndi yeniyetmələrin tərbiyəsində uzunmüddətli, gələcəkdə nəticəsini göstərəcək və praktik əhəmiyyət kəsb edən yaxın və az vaxt dairəsində səmərə verəcək meyillər başlıca yer tutur. Valideynlər, ata, ana, ər-arvad münasibətlərində də bir sıra dəyişikliklər baş verir ki, buda yeniyetmələrin mənəvi tərbiyəsinə təsir göstərir. Əgər əvvəl ana, qadın daha çox evdə, uşaqlarının yanında olurdusa, indi o, əri ilə birlikdə ailənin təminatı, çörək qazanılması üçün "fəaliyyətə qoşulmuşdur".

"Biz yeniyetmə oğlu və qızı olan valideynlərə aşağıdakı sualla müraciət etdik. Siz övladlarınızdan nəyi tələb edir, onlarda hansı keyfiyyətləri tərbiyə etmək istəyirsiniz?".

Sorğu keçirilən valideynlərin böyük əksəriyyətinin övladlarına verdikləri tövsiyyələr və tərbiyə etmək istədikləri keyfiyyətlər müxtəlifdir.

Valideynlərin təhsili və ailənin maddi imkanı səviyyəsi fərqlidir. Ali təhsilli valideynlərin, həm ata, həm də ananların böyük əksəriyyəti övladlarının təhsil ardınca getmələrinə mənfi münasibət bəsləmiş, övladlarını "iş adamı", "müstəqil görmək" istədiklərini söyləmişlər. Qızları olan ali təhsilli valideynlərin çoxu qızlarının xoşbəxtliyini sağlam ailə qurmalarında görürlər. Onları xoşbəxt ailə qurmaq üçün "hazırladıqlarını", bunun üçün qızlarında əməksevərlik, qayğıkeşlik, üzüyolalıq, təsərrüfatçılıq, mehribançılıq kimi keyfiyyətlər tərbiyə etmək istədiklərini söyləmişlər. Qızları olan valideynlərin bir qrupu onların təhsil almalarını zəruri saymışlar. Onlar da ailə xoşbəxtliyini təhsilə bağlamışdır. Lakin onların qızlarında tərbiyə etmək istədikləri keyfiyyətlər əvvəlkilərdən fərqlənir. Onların fikrincə, qızları müstəqil,

sərbəst həyatdan baş çıxaran olmalıdırlar. Ailə qurarkən ərdən az asılı olmalıdırlar. Bir neçə valideyn, ümumiyyətlə, bu barədə fikirləşmədiyini, övladına ruzi qazanmaqla məşğul olduqlarını bildirmişlər. Kiçik bir qrup valideyn isə hələ götür-qoy etdiklərini, hələ ona çox qaldığını göstərmişlər. Qızlara təhsil verməyin zəruri olduğunu bildirən valideynlərin böyük qismi ailənin maddi vəziyyətinin yaxşı və orta olduğunu bildirənlərdir. Yalnız kiçik bir hissəsi pis yaşadığını, lakin mümkün qədər qızını oxutduracağını bildirmişdir.

Yeniyetmələrin tərbiyəsi, nəçi olmaları barədə ata və anaların fikirlərində də müxtəliflik vardır. Anaların böyük əksəriyyəti övladlarının təhsil almalarını vacib saymışlarsa da, ataların onlardan az hissəsi təhsili vacib hesab etmişdir. Analar qızın xoşbəxtliyini həm təhsildə, həm də ailə qurmaqda görmüşsə, oğlanın xoşbəxtliyini pul qazanmaq və ailə qurmaqda görmüşlər. Atalar isə oğlan üçün birinci yerə ailəni dolandıra bilmək bacarığını qoymuşlar.

Beləliklə, valideynlərlə aparılan sorğunun nəticələri göstərdi ki, valideynlə-rin bu sahədə maraqlarının azalması, xüsusilə, kəskin şəkildə hiss edilir.

Nəzəri cəlb edən digər cəhət isə övladlarının xoşbəxtliyini, xüsusilə, qızları-nın səadətini ailə qurmaqda axtaran valideynlərin faizinin artmasıdır. Ata və analar oğlanlarının həyatda daha çox müstəqil, sərbəst, işgüzar "biznesmen" olmalarını, qızlarını isə ailədə daha çox üzüyola, səliqəli, məişət işlərindən baş çıxaran görmək istəyirlər. Görünür ki, burada milli özünəqayıdış müəyyən rol oynayır.

Yeniyetmələrin mənəvi tərbiyəsində asudə düzgün vaxtın təşkili də vacib şərtlərdəndir. Asudə vaxt deyərkən məktəblinin dərsdənkənar vaxtı nəzərdə tutulur.

Əvvəlki illərdə yeniyetmə məktəblərin asudə vaxtı məktəb və müəllimlər, pioner və komsomol təşkilatı valideyn və ictimai təşkilatlar tərəfindən ciddi nəzarətə alınır, onun səmərəli keçirilməsi üçün müəyyən şərait yaradılırdı. Məktəbdəki müxtəlif dərnək və bölmələr şagirdləri həm qabiliyyət və arzularına görə, həm də həmin dərnəklərin fəaliyyət göstərməsi üçün könüllü, yaxud da məcburi şəkildə işə cəlb olunurdu. Ailədə isə valideynlər onlara nəzarət edə bilirdilər. Milis və digər orqanlar da onları, əsasən, nəzarətdən kənarda qoymurdu. Bundan başqa ictimaiyyət də öz təsirini göstərirdi. Yeniyetmələrin özlərinin təlim maraqları nisbətən indikindən yüksək olduğundan onlar bədii, elmi-kütləvi ədəbiyyatı mütaliə edir, vaxtlarının bir hissəsini dərsə hazırlaşmağa sərf edirdilər. Yerdə qalan asudə vaxt isə yoldaşları ilə əylənməyə, idman yarışmalarına, kinoya baxmağa sərf edirdilər. Beləliklə, həm sərbəst vaxt nisbətən az qalırdı, həm də nəzarət kifayət qədər idi.

İndi isə asudə vaxta şəxsiyyətin təkmilləşməsi, mənfi tərbiyə üçün məkan, zaman kimi yanaşılır.

Ümumiyyətlə, şagirdlərin böyük hissəsinin dərsə hazırlaşmaq üçün sərf etdikləri vaxt xeyli azalmışdır. Bu isə özlüyündə onların təlim müvəffəqiyyətinin azalması ilə nəticələnir. Bunun nə ilə bağlı olması həm obyektiv, həm də subyektiv amillərlə bağlıdır. Obyektiv səbəb kimi cəmiyyətdə gedən proseslər, iqtisadi çətinlik, qaçqınlıq problemi və s. öz təsirini göstərir. Digər cəhət nəzarətin zəif olması ilə bağlıdır. Həm ailə, həm məktəb, həm də müvafiq təşkilatlar bu sahədə nəzarətlərini zəiflətmişlər.

Subyektiv səbəblər isə şagirdlərin maraqları, ailənin vəziyyəti və s. ilə bağlıdır. Şagirdlərlə aparılan sorğunun nəticələri göstərir ki, təlimə münasibətdə onların fikirləri müxtəlifdir. Bəziləri oxumağın əhəmiyyətsiz olduğunu, onsuz da gələcəkdə təhsillərini davam etdirə bilməyəcəklərini, bəziləri isə məşğul olmağı üstün tuturlar. Digər qrup şagirdlər isə dərs ləvazimatının tapılmadığını və s. bildirirlər.

Beləliklə, yeniyetmələrin asudə vaxtı ilə bağlı alınan nəticələri belə ümumiləşdirmək olar:

– yeniyetmələrin asudə vaxtı sistemsiz, özbaşına buraxılmışdır. Nə ailə, nə məktəb, nə də aidiyyəti olan təşkilatlar bu məsələyə ya diqqət yetirə bilmir, ya da yetirmək istəmirlər;

– Yeniyetmələrin təlimə marağı xeyli azalmışdır. Bunun isə həm obyektiv, həm də subyektiv səbəbləri vardır. Məktəblərdəki dərnəklər, birliklər fəaliyyətsiz haldadır. Asudə vaxtdan mənəvi tərbiyə vasitəsi kimi istifadə edilmir.

Daha səmərəli model isə, professor Ramiz Əliyevin göstərdiyi kimi, belə olmalıdır: "Uşağın üzərində hökm etmə, onun yanında yox, onunla birlikdə ol!". Məqsəd isə şəxsiyyət formalaşdırmaq olmalıdır. Bu isə uşağın psixoloji müdafiəsi, fərdi xüsusiyyətlərin nəzərə alınmasından keçir. Belədə bilik, bacarıq, vərdiş məqsəd yox, inkişafda vasitə olur. Əməkdaşlığa əsaslanan ünsiyyət üsulu isə anlama, uşağın fikrinə hörmətlə yanaşmaqdan ibarət olur. Əməkdaşlıq bütün tərəfləri, iştirakçıları zənginləşdirir. Bu prosesdə uşaq həm də özü özünün tərbiyəsilə məşğul olur.

Ədəbiyyat

1. Abbasov, A.N. Milli əxlaq və ailə etikası. Dərslik. Bakı, Mütərcim, 2016.
2. Əliyev, R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı: Təhsil, 2015.
3. Əliyev, R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı: Araz, 2014.
4. Психология личности: Тексты / Под.ред. Ю.Б. Гиппенрейтер. М.: МГУ, 2012.

У.М.Мамедова

Роль социальной среди в воспитании

Резюме

Процессы, происходящие внутри семьи, непосредственно влияют на качества обучения в школе. Не зная климат и среду, в которой воспитывается ребенок, невозможно решать проблемы ученика в школе. С этой точки зрения надо изучать и анализировать все внутрисемейные отношения, чтобы формировать механизм обучения и воспитания ученика в школе.

U.M.Mammadova

The role of the social environment in upbringing

Summary

The process take place within of the family direct influence to the quality of the schooling. It is impossible to solve all the problems of a student. Who do not aware of climate and environment where he is brought up. It is necessary to analyze of all family relations from this point of view to form a mechanism of student education.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 09.05.2021

J.A.MURADOVA
e-mail: jalemuradova929@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

VALİDEYNLƏRİNİ İTİRMİŞ UŞAQLARLA APARILAN PEDAQOJİ İŞİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *demoqrafik amillər, şagirdlərin fəlim fəaliyyəti, natamam ailələr, çətin tərbiyə olunan uşaqlar, müəllim-şagird münasibətləri.*

Ключевые слова: *демографические факторы, учебная деятельность учащихся, неполные семьи, трудные дети, отношения учителя и ученика.*

Key words: *demographical features, education activities of pupils, single families, difficult bringing up children, attitudes between teachers and pupils.*

Müşahidələr göstərir ki, tərbiyəçilər uşaq evlərində yaşayan uşaqların demoqrafik xarakteristikasını bu və ya digər dərəcədə nəzərə alsalar da, onlara münasibət sahəsində pedaqoji məharət baxımından ciddi səhvlərə yol verirlər. Pedaqoji ədəbiyyatda (3, 4) səhvlərin xarakterinə görə həmin tərbiyəçilər aşağıdakı kimi qruplaşdırılır: 1.Tərbiyəçi özünün uşağa olan münasibətini həddindən artıq psixolojiləşdirir, onu "yetim", "yazıq" və s. kimi sözlərlə xarakterizə edir; 2. Tərbiyəçi uşaqla münasibətlərini gərginləşdirməməyə çalışır: ona tələbkarlıqla yanaşmır, güzəştə gedir; 3. Tərbiyəçi uşağın tərbiyəvi fəaliyyətini bilavasitə onun ailə vəziyyəti ilə əlaqələndirir, onun davranış və rəftarını "Ot kökü üstə bitər", "Özünü atasına oxşadır", "Elə ananın belə də qızı olar" kimi birtərəfli ölçülərlə izah edir.

Birinci və ikinci qruplara daxil etdiyimiz tərbiyəçilər müəyyən meyarlara görə bir-birindən fərqlənsələr də, onların pedaqoji xarakteristikalarında ümumi cəhətlər var. Hər iki halda tərbiyəçilər uşaqlarla qarşılıqlı münasibətlərdə pedaqoji və psixoloji cəhətdən düzgün mövqe tutmur, öz münasibətlərinin motivlərini çox vaxt belə izah edirlər: "Uşağa qayğı göstərirəm", "Halına acıyıram", "İstəyirəm ki, fikir çəkməsin", "Axı, uşaqdır, könlünü alıb ovunduraram".

Belə uşaqlara tərbiyəçilər valideyn kimi yanaşmalıdırlar. Valideyn kimi yanaşmaq mahiyyətcə müxtəlif ölçülərə əsaslanır. Onlardan birincisi elmi-pedaqoji meyarlarla, ikincisi isə güzəran təcrübəsi ölçüləri ilə müəyyən olunur. Bu ölçüləri düzgün qiymətləndirmək üçün bir cəhəti qeyd etməmək olmaz. Tərbiyəçi, şübhəsiz, uşağa qayğı ilə yanaşmalıdır. Uşaq onun baxışlarında, nəfəsində ana (və ya ata) hərarəti hiss etməlidir, lakinyetim uşağa "yazıq balam" deyə-deyə oxşamaq, əzizləmək, göz yaşı axıtmaq mənasızdır. Uşağın ətrafında "yetimlik", "yazıqlıq" ovqatı, ab-havası yaratmaq uşağın özü haqqındakı təsəvvürünü dəyişmir.

Gəncə şəhərində yerləşən uşaq evində aparılan tərbiyəvi işlər qənaətbəxşdir. Bu uşaq evində əsas diqqət uşaqların tərbiyəsi və inkişafına yönəlmişdir. Pedaqoji kollektivin üzvləri çalışırlar ki, uşaqlarda xeyirxah, insani keyfiyyətlər, Vətənə, təbiətə məhəbbət hissi, humanistlik, insanpərvərlik tərbiyə olunsun. Onlar uşaqlara özlərini harada necə aparmalı olduqlrını öyrədirlər. Belə təşkil olunmuş işin nəticəsi kimi nümunə gətirilir ki, uşaqlar Qalaaltında dincələrkən ətrafdakılar onların tərbiyəsinə, qayda-qanuna riayət etməsinə həsəd aparırmışlar. Onlar stol arxasında özlərini mədəni aparır, nəzakətlə danışır, yoldaşlarına qayğıkeşliyi ilə diqqəti cəlb edirdilər.

Qeyd etdiyimiz uşaq evində uşaqların inkişafına, tərbiyəsinə xidmət edən bir sıra dərnəklər, dzü-do, uşu, karate üzrə idman bölmələri fəaliyyət göstərir. Xarici dillərin öyrənilməsi, müsiqi, xalça toxumaq, kompyuter savadı, tikiş, toxuma üzrədərnəklər uşaqlara mühüm həyati bacarıq və vərdişlər aşılayır.

Uşaq evində xalça toxuma dərnəyində məşğul olan uşaqların böyük nailiyyətlərini qeyd etmək lazımdır. Kiçik xalça toxuyanların emalatxanasında divardan dahi Nizami Gəncəvinin şəkli əks olunmuş xalça asılmışdır. Uşaqlar ona baxaraq eynilə ona bənzər xalça toxuyublar. Burada surət bəzi cəhətlərinə görə orjinaldan da yaxşı alınıb. Buna uşaqların xalçaçılıq sənətinə məhəbbəti səbəb olmuşdur. Burada ikinci tərbiyəvi cəhət ortaya çıxır – dahi Nizami Gəncəvini uşaqlara tanıtdırmaq. Həmin prosesdə uşaqlar həm də Nizami Gəncəvinin kim olduğu haqqında ətraflı məlumat alır, milli-mənəvi dəyərlərimizdən bəhrələnirlər.

Uşaq evində uşaqların təlim-tərbiyəsini təkmilləşdirmək, dünyagörüşünü genişləndirmək məqsədilə onların mütaliəsinə də böyük diqqət yetirilir. Burada müxtəlif peşələrə aid ədəbiyyatla zəngin kitabxana yaradılmışdır. Uşaqların mütaliəsi müşahidə olunur və istiqamətləndirilir.

Tərbiyəçilər məsləhət görürlər ki, uşaqları təbiətin gözəlliyindən, incəsənətdən, insanlara münasibətdən zövq almağa alışdırmaq lazımdır, onlara adekvat sosial cəhətdən mümkün olan formada stress vəziyyətindən çıxmaq yolları öyrədilməlidir. Uşaq evində, internatda olanlar çox vaxt öz vəziyyətini anlayaraq stresə düşürlər. Müxtəlif tərbiyə vasitələrindən istifadə edərək onları bu vəziyyətdən çıxarmaq zəruridir.

Uşaq evinin tərbiyəçilərinin fikrincə, prosesdə iştirak edənlərin humanistləşdiriməsinə, ilk növbədə, dialoq və həmrəyliyənail olmaqla mümkündür. Bu vaxt dialoq partnyorların mövqeyinin bərabərliyini, ünsiyyətdə olan adamların bir-birinə müsbət münasibətini, partnyorluğun olduğu kimi qəbul edilməsini, bir-birinə hörmət və etibar mübadiləsini nəzərdə tutur. Bu da imkan verir ki, dialoq iştirakçıları hər hansı situasiya haqqında eyni fikrə gəlsinlər. Uşaq evinin pedaqoqlarının fikrincə, müsbət qarşılıqlı əlaqə tərbiyəsində həmrəylik tərbiyəsinin üstün cəhətləri çoxdur. Təcrübə göstərir ki, bu vaxt hər iki tərəfin müsbət cəhətlərinə istinad edilir. Belə münasibətlər xeyirxah və etibarlı, demokratik olur, hər iki tərəf fəal şəkildə bir-birinə müsbət qarşılıqlı təsir göstərir.

Uşaqların tərbiyə edilməsində Şəki şəhəri qarışıq tipli internat məktəbinin pedaqoji kollektivinin onların valideynləri və qohumları ilə əlaqənin təşkili sahəsində müsbət təcrübəsi vardır. Məlumdur ki, uşaq evində, internatda yaşayan hər bir yetim və ya təkvalideynli uşaq fikir çəkir. Onlar, ilk növbədə, ailədə normal şəraitdə böyüyən, valideynləri ilə birlikdə yaşayan uşaqlarla rastlaşdıqda stres vəziyyətinə düşür, özünü ailədən təcrid olunmuş hesab edir, valideyin və qohumlarına qarşı onlarda nifrət hissi yaranır. İnternatın müəllimləri belə hesab edirlər ki, uşaq belə hisslərlə böyüdükdə nəinki valideyn və qohumlardan, hətta bütün insanlardan, cəmiyyətdən təcrid olunmuş şəkildə yaşamağa meyl göstərəcək. Buna isə yol vermək olmaz.

İnternatda bu istiqamətdə bir neçə ildir ki, iş aparılır. Belə uşaqların valideynləri və qohumları ilə münasibətlərinin davam etdirilməsi internatın pedaqoji kollektivinin əsas fəaliyyət istiqamətlərindən biri olmuşdur. Tərbiyəçilər həm uşaqların özləri, həm də valideynləri, qohumları ilə iş aparmağı qərara aldılar və bu işin həyata keçirilməsi üçün xüsusi tədbirlər planı hazırladılar.

Doğrudur, bu fəaliyyət prosesində tərbiyəçilər ailənin bərpası funksiyasını qarşıya məqsəd qoymur, lakin çalışırlar ki, valideynləri internata cəlb etsinlər, valideyn və qohumların uşağa münasibətini dəyişsinlər, uşağa kömək göstərsinlər ki, o, öz həyatında ailənin yerini və rolunu hiss etsin. Bu problemi həll edərkənuşaqda qohumlarına və yaxınlarına maraq və məhəbbət yaranmasının, onun insan cəmiyyətinin bir hissəsi kimi, müəyyən bir nəslə malik olmahissiyatının oyanıb möhkəmlənməsi çox vacib məsələdir.

Pedaqoqlar valideynlərin qiymətləndirilməsində və başa düşülməsində uşaqlara kömək edir, onların internata düşmələrinin səbəblərini açıqlamağa çalışırlar, çünki uşaqlara keçmiş ailələri haqqında məlumat vermək lazımdır. Bir çox hallarda valideynlərini itirmiş uşaqlar özlərinin belə çətin vəziyyətə düşmələrində günahı ailələdə görürlər. Bu hal incimə hissinə gətirib çıxarır. Qarşılıqlı fəaliyət onagətirməlidir ki, tərbiyə olunanlar və valideynlər arasındakı aqressiv münasibət dəyişsin və uşaqlar uşaq evinə düşmələrinin səbəbini aydın təsəvvür

etsinlər ("Valideynlərin qarşılarına çıxan çətinlikləri həll edə bilmədiklərinə görə mən internatda yaşayıram"). Belə olduqda uşaqlar internatda yaşamaqla ailəsinə kömək etmiş olduqlarını anlayırlar.

Uşaq evində uşaqlar müxtəlif mahnı bayramlarında iştirak edirlər. Orada gəlcəyin gözəl müğənniləriyetişir. Onların ifasında xalq mahnılarını dinləmək adama zövq verir. Tərbiyəçilər belə hesab edirlər ki, uşaqların əmək və estetik tərbiyəsində xalçaçılıq dərnəyinin rolu çox böyükdür. Bu qədim el sənətinin incəlikləri uşaqlara həvəslə öyrədilir və bunun nəticəsində tocunulmuş xalçalar əlvan naxışları və nəfisliyi ilə diqqəti cəlb edir.

Ədəbiyyat

1. Əliyev P.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı, Təhsil, 2006, 264 s.
2. Əliyev P.B., Talıbova X., Məmmədova Ş. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla tərbiyə işinin təşkili. Bakı, Mütərcim, 2011, 111 s.
3. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Nəzəriyyə, Metodika, Axtarışlar. Bakı: Səda, 1998, 344 s.
4. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı: Maarif, 1993, 232 s.
5. Ковальчук А.В., Рукавишникова Н.Т., Журавлев В.И. Педагогическая коррекция агрессивного поведения подростков. Ярославль, 2004, 342 с.

Ж.А.Мурадова

Особенности работ в детей потерявший родителей

Резюме

В статье исследованы факторы, нарушающие целостность семьи, а также выявлены причины появления неполных семей. Далее изучены уровень влияния этих факторов на учебную деятельность учащихся, определены пути их устранения. Данная статья имеет значение в практике современного преподавания и образования в школьном и семейном воспитании.

J.A.Muradova

Features of forming of the work has been deprived of parent patronage

Summary

In article have been revealed the factors, disturbed the completeness of the modern families, also causes of formation of incomplete families. Learned the levels of influence of these factors to the education activities of pupils and defined the abilities of their elimination.

This article is very useful for teachers- tutors, chives of schools, also for fusiliers.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 08.04.2021

A.T.NƏZƏROVA
dosent

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

FƏAL TƏLİMƏ ƏSASƏN AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ YOLLARI

Açar sözlər: *Azərbaycan dili, fəal təlim, metodika, kurikulum, məzmun xətləri.*
Ключевые слова: *азербайджанский язык, активное обучение, методология, курикулум, линии содержания.*
Key words: *Azerbaijani language, active learning, methodology, curriculum, content lines.*

XXI əsrin əvvəlləri Azərbaycan təhsil sistemində əsaslı surətdə dəyişikliklərin baş verdiyi bir dövrdür. Sürətli inkişaf digər sahələrdə olduğu kimi təhsil sahəsində də onun məzmununa yeni yanaşmanı tələb edir. Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə əsaslanmaqla keyfiyyətini yüksəltmək, məzmununu müasir tələblər səviyyəsində qurmaq üçün təhsil islahatları həyata keçirilir. Dünya təhsil məkanında şəxsiyyətin inkişafında yalnız sadə bilik, bacarıqlar deyil, dəyərlər, səriştələr mühüm məqamlar kimi qiymətləndirilir.

Hazırda respublikamızda dünya təhsil sisteminin yeni modellərindən, təlim metodlarından istifadə etməklə qurulur və təkmilləşdirilir. Onda məzmun və struktur dəyişiklikləri aparılır. Dünyanın mütərəqqi təhsil modellərindən biri "kurikulum" sistemidir. "Kurikulum" latın sözüdür, mənası "yol", "istiqamət", "kurs" deməkdir, ingilis lüğətlərində "təlim kursu", "proqram" kimi verilmişdir. Avropa ölkələrində təhsilin əsasını təşkil edən konseptual sənəddir. Sənədin məzmununda standartlar, təhsil alanların hazırlığına qoyulan tələblər, qiymətləndirmə məsələləri əhatə edilir. Alimlər qeyd edirlər ki, "kurikulum" 1876-cı ildən başlayaraq bir termin kimi istifadə olunmağa başlayıb. 1960-1970-ci illərdən başlayaraq geniş yayılmış bir nəzəriyyə kimi formalaşmışdır. 1918-ci ildə Amerika Birləşmiş Ştatlarında ilk fənn kurikulumları meydana gəlmişdir.

Azərbaycan təhsil sistemində islahat proqramı keçən əsrin 90-cı illərindən başlayaraq həyata keçirilir. 2005-ci ildə Kurikulum Mərkəzi yaradılmış və respublikada kurikulum hərəkatına başlanılmışdır. Kurikulum islahatı təhsil islahatının əsas istiqamətlərindən biridir və bu islahat aşağıdakı mərhələlərdən keçmişdir: I mərhələ – 1999-2003-cü illəri əhatə edir və öyrədici-innovativ mərhələ adlanır. II mərhələ – 2004-2007-ci illəri əhatə edir və hazırlıq mərhələsi adlanır. III mərhələ – 2003-2013-cü illəri əhatə edir və tətbiqetmə mərhələsi adlanır.

Beləliklə, 2006-cı il 30 oktyabr tarixində "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası ("Milli Kurikulumu") sənədi təsdiq olundu. Respublikamızın təhsil həyatında 2007-ci ildə I-IV siniflər üçün fənn kurikulumları hazırlanaraq təsdiq olunması böyük hadisəyə çevrilmişdir. Bu təşəbbüslərin nəticəsində "Milli Kurikulum"lar yarandı. "Milli Kurikulum" – təhsilimizin hər bir pilləsindəki fəaliyyətlərin həyata keçirilməsinə imkan yaradan və onları istiqamətləndirən konseptual sənəddir. Xarakterinə görə milli kurikulumlar iki yerə ayrılır: fənnyönümlü və şəxsiyyətyönümlü.

Fənnyönümlü kurikulumlar məzmununa görə elmi anlayışların mənimsədilməsi ilə, şəxsiyyətyönümlü kurikulumlar bilavasitə həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir. Fənnyönümlü kurikulumların keyfiyyətində bilik və bacarıqların miqdarı və həcmi əsas rol oynayır. Fənnyönümlü kurikulumlardan daha çox ixtisaslar, təmayüllər üzrə təhsilalma da istifadə olunur. Şəxsiyyətyönümlü kurikulumlar həyati bacarıq və vərdişlərin formalaşdırılmasına imkan yaradan minimum biliklərin həcmini müəyyənləşdirir. Azərbaycan təhsil sahəsində kurikulumlara ciddi konseptual sənəd kimi yanaşılır və bu sənəddə ilkin olaraq fənnin məzmununa yer ayrılır. Ümumtəhsil məktəblərində artıq neçə ildir ki, fənn kuriku-

lumları tətbiq edilir. Fənn kurikulumları ayrı-ayrı fənnlərin bütövlükdə xüsusiyyətlərini əhatə edən kurikulumlardır. Fənn kurikulumlarının məzmunu şagird fəaliyyətinin izlənməsinə, nailliyyətlərin qiymətləndirilməsinə imkan yaradır. Fənn kurikulumlarının məzmunu və strukturu aşağıdakı kimidir:

– "Giriş

– Fənnin məqsəd və vəzifələri, onun əhəmiyyətinin əsaslandırılması.

– Fənnin xarakterik xüsusiyyətləri.

– Fənnin məzmunu.

– Təhsil pilləri üzrə ümumi təlim nəticələri.

– Fənn üzrə məzmun xətləri və onların əsaslandırılması.

– Hər bir sinif üzrə ümumi təlim nəticələri (əsas məzmun standartları).

– Ümumi təlim nəticələri əsasında zəruri minimum və daha yüksək səviyyəli alt standartların müəyyənləşdirilməsi və əsaslandırılması.

– Fənlərarası və fəndaxili inteqrasiya.

– Ümumi təlim nəticələrinə əsasən şagird nailiyyətlərinə verilən minimum tələblərin təsviri" (2, s.40).

Fənn kurikulumları konseptual xarakter daşıdığı üçün məzmunda hər bir fənnin təlimi ilə bağlı olan problemlərə aid məsələləri ümumiləşdirir. Hər bir fənn üzrə bütün fəaliyyətləri istiqamətləndirir. Fənn kurikulumlarınının özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır. Həmin xüsusiyyətlər aşağıdakılardır:

1. Fənn kurikulumları nəticəyönümlü xarakterə malikdir.
2. Fənn kurikulumları şagirdyönümlülüyü ilə seçilən sənəddir.
3. Fənn kurikulumları konseptual sənəddir.
4. Fənn kurikulumları inteqrativ xarakter daşıyır.
5. Fənn kurikulumları qabaqlayıcı xarakter daşıyır.

Ümumtəhsil məktəblərində əsas və aparıcı fənlərdən biri ana dilidir və buna görə də milli kurikulumlar ana dilindən başlayır. Ana dilimiz düşünmə, öyrənmə, danışma vasitəsidir. Ana dili fənninin məqsəd və vəzifələrini müəyyənləşdirən və ona doğru istiqamətlənmiş standartların reallaşması üçün zəruri fəaliyyətləri əhatə edən konseptual sənəd ana dili fənn kurikulumları adlanır. Ana dili fənn kurikulumları hazırlanarkən təhsil sahəsində həyata keçirilən islatahların ümumi prinsipləri, məzmunu və ona yeni yanaşmalar əsas götürülmüşdür. Bu sənəddə ana dilinin məqsəd və vəzifələri ilə yanaşı, fənnin xarakterik xüsusiyyətləri, məzmun xətləri, standartlar, müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına aid nümunələr, qiymətləndirmə normaları verilmişdir.

Əsas təhsil pilləsində ifadəli, şüurlu, düzgün, aydın oxu, düzgün yazılı nitq vərdişlərinin inkişaf etdirilməsi, əhəmiyyətli olan dilçilik anlayışları və qaydalarının mənimsənilməsi, şagirdlərin idrak fəaliyyətinin və ünsiyyət bacarıqlarının inkişafı təmin edilir. Nəticə olaraq ana dili düşünmə, öyrənmə, danışma vasitəsinə çevrilir və buna görə də ana dilinin bir fənn kimi təlim əhəmiyyəti böyükdür. Şagirdlər ana dili vasitəsi ilə milli-mənəvi sərvətlərimizi öyrənir, yüksək əxlaqi dəyərlərə yiyələnirlər. Azərbaycan dili bizim milli diriliyimiz və varlığımızdır. Şagirdlərdə dilimizə qarşı sevgi, məhəbbət, ehtiram yaratmaq üçün müəllim ilk növbədə dilimizin zənginliyinin, böyüklüyünün vurğunu olmalıdır. Fənnin tədrisi prosesində şagirdlərə bu barədə geniş məlumat və biliklər verilməlidir. Dilimiz xoş, avaz yaradan səs sisteminə, zəngin və rəngarəng söz ehtiyatına, stabil qrammatik quruluşa malik bir dildir. Şagirdlər ana dilini mükəmməl bilməklə təfəkkürünü mühüm fikir və ideyalarla zənginləşdirir, söz ehtiyatını artırır, nitqini məntiqi surətdə qurur. Bunun nəticəsində, şagirdlər ana dili vasitəsilə təfəkkürünü, yaddaşını, düşünmə qabiliyyətini inkişaf etdirə bilir və şagirddə idraki bacarıqlar tərbiyə olunur. Müşahidə və təcrübələr göstərir ki, şagirdlərin həm təlimdə, həm də tərbiyə işində müvəffəqiyyətli olması ana dili fənninin tədrisindən, onun məzmunundan

asılıdır. Bu isə müəllimin ustalığından, hər mövzuya yaradıcı məsuliyyətindən, psixoloji dəstəyindən asılıdır.

Ana dilimizin köməyi ilə şagirdlərdə vətənimizə, milli-mənəvi dəyərlərimizə, qəhrəmanlarımıza, tarixi-mədəni abidələrimizə, əmək adamlarına, adət-ənənələrimizə sədaqət, haqqa, ədalətə hörmət və məsuliyyət tərbiyə edilir. Bu fənnin tədrisi prossesində insanpərvərlik, yoldaşlıq, dostluq hisləri, yaradıcılıq işində fəal iştirak meyli tərbiyə olunur. Yanaşı fənlərin rahat mənimsədilməsi üçün bünövrə yaradır. Orta ümumi təhsil məktəblərində ana dili dərsləri elə qurulmalıdır ki, bir tərəfdən şagirdlərin bir şəxsiyyət kimi yetişməsinə səbəb olsun, digər tərəfdən cəmiyyətdə fəal iştirak etmək, öz yerini tapmaq üçün zəruri olan biliklərə yiyələnsinlər. Ana dili dərsləri şagirdlərə elə bilik, bacarıq və vərdişlər verməlidir ki, onlar həmin bilik, bacarıq və vərdişlərdən həyatda, cəmiyyətdə və bütün fəaliyyətlərində məharətlə istifadə etməyi bacarsınlar. Ana dili tədrisinin şagirdlərin təfəkkürünü müəyyənləşdirməkdə və onun inkişaf yolunu təyin etməkdə ümumi təlim sistemində çox mühüm rolu vardır. Həqiqətən də ana dilində sərbəst yazıb oxumaq və öz fikrini ifadə edə bilmək bacarıqları cəmiyyətdə fəal iştirak etmək üçün zəmin rolunu oynayır.

Ana dilinin ümumi təhsil məktəblərində digər bir əhəmiyyəti ondan ibarətdir ki, tədris olunan digər fənlərin müvəffəqiyyəti ana dili fənninin tədrisindən asılıdır. Şagirdlərə tədris olunan hər bir fənnə aid bilik və bacarıqlar ana dilinin yaddaş süzgəcindən keçməlidir. Ana dilimizi dərindən, mükəmməl bilmədən digər fənləri mənimsəmək çətinlik yaradır. Ana dilində düzgün oxu və yazı bacarığının formalaşması digər fənlərin daha yaxşı mənimsənilməsinə kömək olur.

Fəal təlimə əsasən Azərbaycan dilinin əsas məqsədi şagirdlərə yuxarıda qeyd etdiyimiz kimi düzgün oxuyub yazmağı öyrətmək və onların nitqini inkişaf etdirmək, ünsiyyət bacarığı formalaşdırmaqdır. Ümumi orta məktəb fənlərinin qarşısında duran əsas ümumi vəzifə geniş dünyagörüşlü vətəndaş, əsl insan yetişdirməkdən ibarətdir. Bu vəzifələrin həyata keçirilməsində Azərbaycan dili fənninin üzərinə ağırlıq düşür.

Azərbaycan dili fənnin qarşısında duran vəzifələrdən biri "şagirdlərin təfəkkürünü, müstəqil mühakimə yürütmək bacarığını formalaşdırmaqdır. Fənn müəllimi bütün imkanlardan istifadə etməklə şagirdlərin təfəkkürünü, müstəqil fikir yürütmək bacarığını, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməlidir. Digər vəzifə isə şagirdləri həyata, cəmiyyətə əməli cəhətdən hazırlamaqdır. Şagirdlərə ana dili fənnini elə mənimsətmək lazımdır ki, aldıqları bilik, bacarıq və vərdişləri cəmiyyətdə gündəlik fəaliyyətlərində istifadə edə bilsinlər. Təlimlə yanaşı onun tərbiyəedici imkanları müəllimin diqqətindən qaçmamalıdır.

Qeyd etdiyimiz vəzifələrlə yanaşı ana dili təliminin aşağıdakı ümumi vəzifələri var: "1) Şagirdlərdə ünsiyyət mədəniyyətini formalaşdırmaq; 2) Şagirdləri müstəqil həyata, şüurlu peşə seçiminə hazırlamaq; 3) Şagirdlərdə elmi-metodik irsimizə, ana dilinə, tarixi keçmişimizə məhəbbət, milli və ümumibəşəri dəyərlərə ehtiram hissi yaratmaq; 4) İnformasiya-kommunikasiya texnologiyalarından, texniki vasitələrdən, ictimai-iqtisadi biliklərdən gündəlik fəaliyyətdə səmərəli istifadə etmək bacarığını təmin etmək" (1, s.39). Qeyd edilmiş ümumi vəzifələr isə hər bir mövzunun tədrisində son səviyyəyə qədər davam etməlidir.

Fəal təlimə əsasən Azərbaycan dili təlimin qarşısında duran konkret vəzifələr aşağıdakılardır: "1) Şagirdlərdə ifadəli və şüurlu oxu, aydın, səlis, düzgün şifahi və yazılı nitq vərdişlərinin inkişaf etdirilməsi; 2) Nitqin leksik, qrammatik və üslubi baxımdan əhəmiyyətli olan dilçilik anlayışları və qaydalarının mənimsənilməsi; 3) Mətndaxili və mətndənkənar dil hadisələri zəminində şagirdlərin idrak fəaliyyətlərinin, ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi; 4) Dil faktları əsasında ana dilinə məhəbbət və hörmət hissinin formalaşdırılmasının təmin edilməsi" (4, s.50).

Fəal təlim prosesinin strukturu, təşkili, onun mərhələlərlə öyrədilməsi, onun məzmununa müəllimin yaradıcı yanaşmasından asılıdır. Məhz bunun reallaşdırılması üçün Azərbaycan dili təliminin məqsəd və vəzifələrinə uyğun olaraq məzmun xətləri təyin edilmişdir. Məzmun

xətləri dedikdə hər bir fənn üzrə təlimin bütün mərhələlərindən keçən "qırmızı xətlər" nəzərdə tutulur. Azərbaycan dili fənn kurikulumunda məzmun xətləri aşağıdakılardır: 1) Dinləyib – anlama və danışma; 2) Oxu; 3) Yazı; 4) Dil qaydaları

Qeyd olunan məzmun xətlərindən ilk üçü nitq bacarıqlarını formalaşdırmaq üçün dördüncü – dil qaydaları isə bu bacarıqları əldə etmək üçün vasitə və əsas şərt kimi qiymətləndirmək olar. "Məzmun xətləri" üzrə standartlaşmış bacarıqlar özünü iki formada göstərir: "1) hər bir təhsil səviyyəsi və siniflərin yekununda şagirdlərdən gözlənilən ümumi nəticələr; 2) konkret siniflər üzrə mənimsənilməsi nəzərdə tutulmuş ən zəif bacarıqları ifadə edən əsas və alt standartlar şəklində açıqlanmışdır" (3, s.57-58).

"Dinləyib-anlama və danışma". İnsanlar ətraf aləm haqqında məlumatları oxu və dinləmə bacarıqları vasitəsilə qəbul edib mənimsəyirlər. Məzmun xətti danışanın ifadə etdiyi fikri anlamaq, ona münasibət bildirmək kimi qabiliyyətlərin üzərində qurulmuşdur. Dinləmə şifahi nitqin beyində mənalandırılmasıdır. Anlama şifahi nitqdə fakt, hadisələrə diqqətlə yanaşmaq, aydın olmayan məqamları, bərpa edib yadda saxlamaq, mahiyyətini anlayıb yenidən canlandırmaq kimi bacarıqlara istinadən aşılanır. Dinlənilən mətnlə bağlı fikir yürütmək dinləmə–danışma bacarıqlarını sintez etməyə imkan verir. Danışma şagirdlərin bildiklərini, düşündüklərini şifahi nitq vasitəsilə ifadə etmək bacarığıdır. İnsana uğur gətirən vacib bacarıqlardan biri də səlis və düzgün danışmaqdır. Sözlərin, ifadələrin düzgün seçimi fikrin ardıcıllığı, məntiqliliyini, nitq etiketlərinin gözlənilməsi kimi qabiliyyətlərə əsaslanır.

"Oxu" məzmun xəttində şagirdlərə sözə həssas yanaşmaq, sözün məna çalarlarını müəyyən etmək kimi bacarıqlar aşılanır. Bu bacarıqlar əsasında hər bir şəxsin intellekti formalaşır. "Oxu" məzmun xətti müxtəlif üslublarda yazılmış mətnlərin məzmun və struktur elementlərinin müstəqil qavranılmasına imkan yaradır. Ana dilimizdə yazılmış elmi-kütləvi və ədəbi-bədii nümunələrə marağı dərinləşdirməyə, ümumi nitq mədəniyyətinin inkişafı üçün lüğət ehtiyatını daha da zənginləşdirməyə xidmət edir. Şagirdlərdə oxu bacarığı "oxu texnikasının inkişafı" və "şüurlu oxu" vasitəsilə inkişaf etdirir. Azərbaycan dili dərslərində "səsli oxu", "səssiz oxu", "rollar üzrə oxu" və s. üsullardan istifadə edilir.

"Yazı" məzmun xətti də danışma kimi özünüifadə bacarığıdır. Bu məzmun xəttində əsas tələb duyğu və düşüncələrin dil normalarına uyğun yazılı şəkildə ifadəsidir. Şagirdlər yazı bacarıqlarını nəqli, təsviri və mühakimə xarakterli rabitəli mətnlər yazmaqla nümayiş etdirirlər. Bu məzmun xətti şagirdlərin tədqiqatçılıq və təşkilatçılıq bacarıqlarını nümayiş etdirməyə imkan yaradır.

"Dil qaydaları" nitq vərdişlərinin inkişafına kömək edir. Bu məzmun xətti dilimizin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı zəruri olan biliyin yığcam şəkildə şagirdlərə çatdırılmasını təmin edir.

Dil qaydaları ilə bağlı alt standartlar yazı bacarıqları ilə üzvi şəkildə reallaşdırılmışdır. Fəal təlimə əsasən Azərbaycan dili fənn kurikulumunda dərsliklər üzrə verilən dil qaydaları nitqdən ayrı şəkildə əzbərlənməməsi, şifahi və yazılı nitqdə müvafiq situasiyalarda tətbiq olunmaq üçün öyrənilməsi verilmişdir.

Ədəbiyyat

1. Balıyev H.B., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Qismət, 2014, 384s.
2. Həsənov M., Cəfərova N., Bəhmənova C. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları. Metodik vəsait. Bakı, 2014, 76s.
3. Kazımov A.S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. Dərs vəsaiti. ADPU. Bakı, 2013, 186s.
4. Məmmədova A. Azərbaycan dili və onun tədrisi metodikası üzrə mühazirə mətnləri. (bakalavr pilləsi üçün). Dərs vəsaiti. Bakı: Zəngəzurda, 2019, 340 s.

А.Т.Назарова

Способы обучения азербайджанскому языку на основе активного обучения

Резюме

Согласно активному обучению, основная цель азербайджанского языка - научить школьников правильно читать и писать и развить их речь, сформировать коммуникативные навыки. От творческого подхода преподавателя к его содержанию зависит структура и организация активного учебного процесса, его поэтапное обучение. Для этого были определены направления содержания в соответствии с целями и задачами преподавания азербайджанского языка. Линии содержания - это «красные линии», которые проходят все этапы изучения каждого предмета.

A.T.Nazarova

Ways of teaching Azerbaijani language based on active training

Summary

According to the active training, the main purpose of the Azerbaijani language is to teach students to read and write correctly and to develop their speech, to form communication skills. The structure and organization of the active learning process, its step-by-step teaching, depends on the teacher's creative approach to its content. To achieve this, content lines have been identified in accordance with the goals and objectives of the Azerbaijani language teaching. Content lines are "red lines" that go through all stages of learning in each subject.

Rəyçi: dos. S.H.Qafarova

Redaksiyaya daxil olub: 18.05.2021

A.Y.QARAYEVA
e-mail: adelkara27@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

YENİYETMƏLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ İSLAM DƏYƏRLƏRİNDƏN İSTİFADƏ

Açar sözlər: *İslam dəyərləri, əxlaq tərbiyəsi, Məhəmməd Peyğəmbərin (ə.s.) kəlamları, dini ayinlər, tərbiyəvi motivlər.*

Ключевые слова: *Исламские ценности, нравственное воспитание, высказывания пророка Мухаммеда, религиозные обряды, воспитательные мотивы.*

Key words: *Islamic values, moral education, sayings of the Prophet Muhammad, religious ceremonies, educational motives.*

İslam dəyərləri, Məhəmməd Peyğəmbərin (ə.s.) kəlamları uşaqlarda əxlaq tərbiyəsinin formalaşmasına böyük təsiri vardır. Peyğəmbərin bu başlıq altında verilmiş kəlamlarında insani münasibətlərin incəliklərinə toxnulur, bu barədə gözəl tövsiyələr verilir. Peyğəmbər hamının və hər bir kəsi bir-biri ilə mehriban olmağa, bir-birinə qayğı göstərməyə, pis işlərdən, pis əməllərdən çəkinməyə çağırmışdır. O, eyni zamanda, ailə münasibətlərinə dair məsləhətlər vermişdir.

Peyğəmbər hər şeydən əvvəl deyirdi: "Valideynlərinizi sevin, onlara hörmət edin, qəriblərə, yoxsullara kömək göstərin, nə xəsis, nə də israfçı olun, xoş əxlaq olun, adam öldürməyin, qəyyum olduğunuz yetimlərin pulunu yeməyin".

Peyğəmbər uşaqları tərbiyə edirdi ki, dünyada hər şeydən gözəl nemət, hər kəsdən yaxın adam anadır. Peyğəmbər bildirirdi ki, ananı hər bir kəsdən artıq sevmək lazımdır. O deyirdi: "Əvvəlinci anamdır, anamdır, anamdır, sonra atamdır, bundan sonra yaxınlıq dərəcəsinə görə qohum əqrabamdır". Əsabələrindən biri Peyğəmbərdən soruşmuşdur: "Hər hansı bir kəsin ən yaxın adamı kimdir?" Peyğəmbər demişdir: anadır.- Bəs ondan sonra ən yaxın adam kimdir? Peyğəmbər yenə də eyni cavabı vermişdir. – Bəs ondan sonra? Peyğəmbər üçüncü dəfə də: anadır, - demişdir. Bundan sonra isə atanın, qohum-əqrabaların yaxın olduğunu bildirmişdir (5, s.118). "Əgər atanla anan eyni vaxtda səni çağırsa, əvvəlcə ananın yanına get" (5, s.102).

Yaxud da Peyğəmbərin digər bir kəlamı: "Bir adam anasının, atasının üzünə şəfqətlə baxarsa, Allah ona qəbul olunmuş həcc savabı sayar".

Bunlardan əlavə islam dini uşaqlarda mərhəmətli olmaq, rəhmli olmaq, lazım gələrsə xəstəyə baş çəkmək kimi əxlaqi keyfiyyətləri də aşılayır. Məhəmməd Peyğəmbər deyir ki, xəstənin yanına gedib gələndən sonra özünü cənnətdə hiss edəcəksən. Uşaqları tərbiyə edir ki, xəstə yoldaşlarınızı unutmayın, tez-tez onlara baş çəkin, ancaq çox oturmayın, çünki xəstənin yanında çox oturmaq xəstəyə narahatlıq gətirir, xəstə narahat olur.

Məsələn, Peyğəmbərin (ə.s.) kəlamlarından birində deyilir: "Bir xəstənin hal-əhvalını soruşmağa gedən, oradan qayıdanda cənnət bağında gəzmiş hesab olunur" (1, s.126).

"Savab baxımından ibadətin ən üstünü xəstəyə baş çəkməyə gedəndə onun yanından tez qalxmaqdır. Deməli, xəstənin yanında çox oturmaq, onu söhbətə tutmaq, onu narahat etmək düzgün deyildir" (1, s.123).

İslamın yüksək qiymətləndirdiyi və uşaqlara aşıladığı əxlaqi keyfiyyətlərindən biri də insanpərvərlikdir. İslam öyrədir ki, insan insanları sevməlidir, insanları sevən adam, pis əməllər etməz. Hər bir kəs özündən zəifə kömək etməli, böyüyə ehtiramla yanaşmalı, darda olana kömək etməlidir.

Məhəmməd Peyğəmbərin (ə.s.) kəlamlarında deyilir: "Başqalarının sağ-salamat olmasını istə, sən də buna nail olarsan" (3, s.3). "Bir müsəlman aldadan, yaxud ona qarşı hiylə işlədən, yaxud ona zərər yetirən bizdən deyildir" (3, s.5). "Bir mil yol get, bir xəstənin hal-əhvalını soruş, iki mil get, iki adamın arasını düzəlt, onları barışdır, üç mil get, Allah yolunda din qardaşlarından birini ziyarət et." (3, s.10).

Bu kəlamlarda Məhəmməd Peyğəmbər (ə.s.) tövsiyə edir ki, heç kəsə pislik arzu etmə, özünə rəva bilmədiyini başqasına arzu etmə, heç kəsi aldatma, heç kəsə yalan danışma, Peyğəmbər deyir ki, yalanı o zaman demək olar ki, bu yalan kiminsə həyatını xilas edəcəkdir.

İslamda yüksək qiymətləndirilən və uşaqlara aşılanan əxlaqi keyfiyyətlərdən biri də doğruçuluqdur, düzlükdür. Bu nəcib keyfiyyətlər min illər ərzində bəşər cəmiyyətinin inkişafında, zəhmətkeş insanların birgə yaşayışlarının zəruri tələblərindən doğmuş və xalq mənəviyyatı üçün səciyyəvi olmuşdur. İslam uşaqlara öyrədir ki, yalan danışmaq pislik etmək kimi bir şeydir, o deyir ki, yalan danışan adamın yeri cəhənnəmdir. Məsələn, Məhəmməd Peyğəmbərin kəlamlarında belə deyilir: "Doğruçu olun, çünki doğruçu olmaqla yaxşılıq etmək bərabərdir. Həm doğru danışanın, həm də yaxşılıq edənin yeri cənnətdir. Dilinizə yalan gətirməyin, çünki yalan danışmaq pislik etmək kimi bir şeydir, yalan danışanlar və pislik edənlər cəhənnəmlikdir. Tanrıdan yapışın, yahşı adamlara inam etiqaddan sonra can sağlığı diləyin, çünki bu iki şeydən başqa insan üçün xeyirli bir şey yoxdur" (4, s.126). Məhəmməd Peyğəmbər həm də deyir ki, bir-birinizə həsəd aparmayın, lovğalanmayın, bir-birinizə qənim çıxmayın, bir-birinizə arxa çevirməyin. Tanrı qulları, Tanrı necə buyurmuşsa, eləcə də qardaş olun." (4, s.126). Məhəmməd Peyğəmbər həm də öz kəlamlarında bütün insanlara, o cümlədən uşaqlara tövsiyə edir ki, " Ancaq iki şeyi: doğru sözü və doğru yolu əsas tut. Həqiqət sözün ən gözəli Allah sözüdür. Tutulan doğru yolun ən gözəli Məhəmmədin axtarıb tapdığı həqiqət yoludur. Məhəmməd Peyğəmbər (ə.s.) öz kəlamlarında həm də bizi tərbiyə edir ki, özündən zəifləri görəndə onlara əl tut, onlara kömək et. O söyləyir: "Hansı əmək yaxşıdır? - İnsanın ürəyini sevindirmək, acları yedirtmək, darda qalanları kömək etmək, əldən düşənlərin kədərlərini azaltmaq və ziyan çəkənlərin səhvini düzəltmək" (2, s.45).

Məhəmməd Peyğəmbər buyurur ki: "Allahın ən çox sevdiyi ev, içərisində yetimin hörmət gördüyü evdir", "Allahın nəzərində ən sevimli yemək, üstünə çox əl uzanan yeməkdir". Bununla islam dininin banisi bildirir ki, hər kəs, özündən zəif olana kömək etsin, lakin Peyğəmbər buyurur ki, bunu etdikdə o gileylənməməli, tez-tez bunu gözə soxmamalıdır. O deyir: "Kim bir yetimi, yaxud iki yetimi evində saxlayıb böyüdürsə və çəkdiyi əziyyətə görə gileylənmirsə o, cənnətə gedər" (2, s.131).

"Allah kimin əli ilə müsəlmanı sıxıntıdan qutarırsa, o adamı həm bu dünyada, həm də axirət dünyasından qutarar, xilas edər" (2, s.131). Yaxud: "Acların deyil, yalnız toxların dəvət edildiyi ziyarət məclislərindəki yemək, ən pis yeməklərdir" (2, s.117).

Məhəmməd Peyğəmbər (ə.s.) buyurur ki, Allahın bütün yaratdıqlarına acımayın, əgər müsəlman qardaşlarınızdan ürəyindən nə isə keçirsə və həmin şeyi ona vermək imkanı varsa, bunu ondan əsirgəmə. Məhəmməd Peyğəmbər (ə.s.) deyir: "Birisi, müsəlman qardaşını könlündən keçən şeylərlə yedizdirirsə, cəhənnəm əzabından azad olar; (6, s.139) "Mömini sevindirmək, onun borcunu ödəmək, onu ehtiyacdan qutarmaq (onu sıxıntıdan qutarmaq) ibadətlərin ən üstünləridir" , "Şübhə yoxdur ki, verilən sədəqə dilənçinin əlinə düşməzdən əvvəl Tanrıya agah olur" , "Allah deyir ki, məndən rəhm istəyirsinizsə, bütün yaratdıqlarıma acıyın" (6, s.130).

Yaxud " Ulu Tanrı, əgər bir qulun qəlbinə mərhəmət verməyibsə, o qul hər şeydən məhrumdur". Burada Həzrəti-Peyğəmbər bildirir ki, hər bir kəs mərhəmətli olmalıdır, mərhəmətli olmaq insana Tanrı tərəfindən verilir. Tanrı tərəfindən insana mərhəmət verilmirsə, həmin adam dünyada hər şeydən məhrumdur. İslam həmçinin insanların bir zəifə, bir yoxsula yardım etməsini bir aylıq ibadətə bərabər edir. Məhəmməd Peyğəmbər buyurur: - "Qulun qardaşına bir günlük yardımı, onun bir bucağa çəkilib bir ay ibadətlə məşğul olmasından xeyirlidir" (6, s.131).

"Allah sıxıntıya düşənin yardımına qoşulanı sevər" (6, s.144).

Həmçinin, islam bildirir, insan öz əlinin zəhməti ilə özünə ruzi qazanmalıdır, uşaqları da tərbiyə edir ki, zəiflərə, gücsüzlərə kömək etsinlər ki, onlar dirçəlsinlər, özlərinə öz əllərinin zəhməti ilə ruzi qazanmağa onlara kömək etsinlər.

"Birimizin ip götürüb dağa qalxması, orada kol-kos qırması, onu satandan sonra qazancını yeməsi və bu qazancdan sədəqə verməsi xeyirlidir" (3, s.5).

İslam uşaqlara belə tövsiyə verir: "Qəlbinin incə olmasını, ehtiyaclarının ödənilməsinin istəyirsənsə, yetimin halına acı, əlini başına çəkib onu oxşa, yediyin şeydən ona da ver, qarnını doyur, belə etsən qəlbin də incələşər, ehtiyacın da ödənilər" (4, s.10). Burada islam uşaqlara tövsiyə edir ki, mərhəmətli insan olmaq üçün insanın qəlbi incə olmalıdır. Bunun üçün o, özündən zəiflərin halına yanmalı, əlindən gələni onlar üçün etməlidir.

Ədəbiyyat

1. Qüdrətov O., Qüdrətov N. Məhəmməd Peyğəmbər: Həyatı və kəlamları. Bakı, 1990.
2. Seyidov F. Ə. Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair. Bakı, 1997.
3. 1411-1412, 1991-1992. "Təqvim".
4. Qurani-Kərim. Bakı, Azərnəşr, 1992.
5. Qurani Kərim (Azərbaycan Türkcəsində açıqlama). Bakı, Azərnəşr, 1993.
6. Əhmədov Əhmədağa. Nakamül-Quran (I kitab). Bakı, Öyrətmən, 1994.

А.Ю.Караева

Использование исламских ценностей в потриотической воспитании подростков

Резюме

В статье высказаны высоконравственные и воспитательные изречения из Корана, суть которых интерпретируетсяс точки зрениясовременных воспитательных требований и показаны формы и места использованияэтих изречений.

Статья имеет теоретическое и практическое значение в моральном воспитании школьников.

A.Y.Garayeva

Use of Islamic values in the education of adolescents

Summary

Article expressed highly moral and educational sayings from the Koran, which are interpreted from the point of view of modern educational requirements and shows the form and place the use of these sayings.

The article has a theoretical and practical significance in the moral education of students.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 09.04.2021

T.Ə.QULİYEVA
e-mail: tahiraaztu@gmail.com

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

TƏLİM PROSESİNDƏ TƏLƏBƏLƏRDƏ MİLLİ-MƏNƏVİ MƏDƏNİYYƏTİN FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN İMKANLARI VƏ YOLLARI

***Açar sözlər**: təlim prosesi, tələbələr, milli-mənəvi mədəniyyət, milli-mənəvi mədəniyyətin formalaşdırılması, sosiallaşma.*
***Ключевые слова**: учебный процесс, студенты, национально-духовная культура, формирование национально-духовной культуры, социализация.*
***Key words**: educational process, students, national spiritual culture, formation of national spiritual culture, socialization.*

Tələbələrdə milli-mənəvi mədəniyyətin tərbiyə olunmasında təlim prosesinin özünəməxsus rolu vardır. Ali təhsil müəssisələrində bu iş mühazirə və seminar məşğələlərinin köməyi ilə həyata keçirilir. Mühaziraçi professor, dosent, baş müəllim ayrı-ayrı mövzuların tərbiyələndirici imkanlarından faydalanaraq tələbələri milli-mənəvi mədəniyyətə yiyələndirməklə onların sosiallaşması qayğısına qalır.

Biz ali təhsil müəssisələrinin Azərbaycan tarixi, ədəbiyyat, uşaq ədəbiyyatı, pedaqogika, psixologiya, milli əxlaq və ailə etikası və ailə pedaqogikası fənlərinin nəzərən keçirdiyimiz problem baxımından imkanlarını araşdırdıq, dərslər, mühazirə və seminar məşğələləri müşahidə olundu.

Azərbaycan tarixi fənni üzrə iyirminci yüzilliyin əvvəllərində ictimai-siyasi vəziyyətin kəskinləşməsi və sosial və milli əsarətə qarşı mübarizə məsələləri nəzərdən keçirilərkən tələbələrə məlum olmuşdur ki, I dünya müharibəsində hərbi əməliyyatlar Rusiyanın xeyrinə inkişaf etmirdi. Rusiyada güclənən iqtisadi və siyasi böhran Azərbaycandakı siyasi vəziyyətə də təsir edirdi.

Rusiya müharibəni uduzurdu. Port-Artur artıq bir neçə ay idi ki, mühasirəyə alınmışdı. Amansız dəniz döyüşləri nəticəsində Port-Artur ağ bayraq qaldırdı. Rusiya məğlub oldu. Mühazirədə Port-Arturun müdafiəsinin diqqət mərkəzinə gətirilməsi səbəbsiz deyildi. Müəllim Port-Arturun müdafiəçiləri arasında çoxsaylı azərbaycanlı əsgər və zabitlərin olduğunu tələbələrə çatdırmaq, onları həmin şəxslərin igidlik, mərdlik, cəsurluq nümunələri əsasında tərbiyə etmək istəyirdi. Həmin zabitlərdən bir çoxu Azərbaycan Demokratik Cümhuriyyətinin mövcudluğu illərində milli orduda xidmət etmişdilər.

Tələbələr Səməd ağa Mehmandarovun adını çəkirlər.

Tələbə Təhminə: Səməd ağa Mehmandarov Port-Arturun müdafiəsində 7-ci Şərqi Sibir artilleriya divizionunun komandiri idi. Sücaəti, hərbi strategiya və taktika baxımından kamilliyinə görə seçilirdi. Səmədağa Mehmandarov o zamanlar cəbhənin müdafiə rəisi general-mayor Kondratenkonun ən inamlı və cəsur köməkçilərindən biri sayılırdı. Az keçmiş o, Port-Arturun Şərq cəbhəsinin artilleriya rəisi vəzifəsinə gətirildi, general-mayor rütbəsinə layiq görüldü.

Tələbə Nərgiz: Port-Arturun müdafiəsində Səmədağa Mehmandarovdan heç də geridə qalmayan bir komandir də şöhrət tapmış, "Artilleriyanın Allahı" adını almışdı. Həmin hərbi sərkərdə Əlağa Şıxlinski idi. O, qala qarnizonu batareyasının komandiri idi. Tez bir zamanda topçu zabit, kapitan rütbəsindən general rütbəsinə yüksəlmişdi.

Tələbə Ofelya: XX əsrin əvvəllərində baş vermiş Rusiya-Yaponiya qarşıdurmasında azərbaycanlılar iştirak etmişlər. 2-ci Dağıstan süvari alayının komandiri polkovnik Hüseyn xan Naxçıvanski və polkovnik İlyas bəy Ağalarovun adlarını çəkə bilərik.

Azərbaycan tarixi üzrə mühazirə və seminar məşğələlərində nəzərdən keçirilən məsələlərdən biri də 1918-ci ildə Azərbaycan cəmiyyətində demokratik dəyişikliklərin başlanması idi. Həmin il Azərbaycan öz müstəqilliyinə qovuşmuş, Şərq aləmində ilk dəfə demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdı. Tələbələr bu cümhuriyyətlə bağlı materiallarla həvəslə tanış olmuş, tədqiqatçılıq fəaliyyəti göstərmiş, yeni məlumatlar toplamışlar. İstər seminar məşğələlərində, istərsə də mühazirələrdə fəal olmuş, müstəqillik, idrak fəallığı nümayiş etdirmişlər. Bütün bunlar milli-mənəvi mədəniyyətin formalaşması və bu əsasda tələbə gənclərin sosiallaşması üçün zəngin imkanlar açır.

Tələbə Pərvanə Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixinə aydınlıq gətirir: cümhuriyyət xalqımızın Çar Rusiyasına qarşı milli azadlıq mübarizəsi sayəsində Şimali Azərbaycanda meydana gəlmişdi. Müstəqil dövlət müsəlman Şərqində ilk parlament respublikası hesab olunur. Paytaxtı ilk əvvəllər Gəncə şəhəri, daha sonra Bakı idi. Həmin vaxtlar Cənubi Qafqazda azərbaycanlıların elliklə yaşadıqları ərazilər 150 min kv. km idi. 1918-ci ildə Cənubi Qafqazda müstəqil dövlətlər yarananda torpaqlarımızın bir hissəsində Ermənistan Xalq Cümhuriyyəti təşkil olundu. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qədim mədəniyyət mərkəzlərimizdən biri olan və keçmiş İrəvan xanlığının paytaxtı İrəvanı ermənilərə güzəştə getmək məcburiyyətində qaldı.

Tələbə Rəvanə: Bakıda ADR-nin Parlamentinin formalaşdırılması gündəmdə idi. Müxtəlif fikirlər vardı. Eser partiyasının Bakı Komitəsi belə sərsəm və təslimçi qənaətdə idi ki, Azərbaycanın öz müqəddəratını yalnız Federativ Rusiya təyin edə bilər. Bu, qəbuledilməz bir təklif idi. Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti 1918-ci il dekabrın 7-də öz fəaliyyətinə başladı. Dünya dövlətləri tərəfindən hələ tanınmamasına baxmayaraq cümhuriyyət mövcudluğunu və demokratiya prinsiplərinə sadiqliyini dünyaya bəyan etdi.

Tələbə Gülər: Parlamentin birinci iclasını Milli Şuranın və "Müsavat" fraksiyasının sədri Məhəmməd Əmin Rəsulzadə açdı. M.Ə. Rəsulzadə öz çıxışında dövlətin qarşısında dayanan son dərəcə zəruri məsələlərlə bağlı qənaətlərini dedi. Əlavə etdi ki, dövlətin əsas məqsədi azadlıq və müstəqillik ideyalarını gerçəkləşdirməkdir.

Tələbələrdə milli-mənəvi mədəniyyətinin formalaşmasında və bu əsasda onlarda sosiallaşmanın təşəkkül tapmasında II Dünya müharibəsinin azərbaycanlı döyüşçüləri və zabitlərinin nümunəsi də əvəzsiz rol oynayır. Odur ki, II Dünya müharibəsinin Azərbaycandan olan iştirakçılarının həyat və fəaliyyəti, igidlikləri ilə tanışlığa fikir verilirdi. Tələbələr tədqiqatçılıq fəaliyyətinə qoşulur, topladıqları məlumatları seminar məşğələlərində yoldaşlarına çatdırırdılar. Diqqət yetirək:

Tələbə Sevinc: İkinci Dünya müharibəsi zamanı Kamal Qasımov Prut çayı yaxınlığında faşistlərin ara verməyən atəşlərinə baxmayaraq, altı nəfər döyüşçü yoldaşı ilə üç körpünü partlatmış, qeyri-bərabər vuruşmaya tab gətirərək, düşmənin çaydan keçməsinə imkan verməmiş, dördüncü gün əlbəyaxa döyüşdə qəhrəmancasına həlak olmuşdur.

Tələbə Rəsul: leytenant Hüseynbala Əliyev Leninqrad səmasının müdafiəçilərindən idi. O, şəhər üzərindəki hava döyüşlərində dörd düşmən təyyarəsini sıradan çıxarmışdı. 1941-ci il iyulun 17-də döyüş tapşırığına əməl edib geriyə dönərkən daha üç düşmən təyyarəsi ilə rastlaşır. Faşist təyyarələrindən daha ikisini vurur. Üçüncü təyyarənin üzərinə tarana gedir. Hüseynbalanın təyyarəsinin kabinəsində top gülləsi partladığından üç ölümcül yara alır. Lakin təyyarəsini yerə endirməyə macal tapır, amma həlak olur. Hüseynbala Əliyev eyni zamanda alman-faşist işğalçılarının 10 tankını, 2 zirehli maşınını, 5 zenit topunu, 26 avtomobilini məhv etmiş, 190 əsgər və zabitini öldürmüşdü.

Tələbə Lamiə: Moskva uğrunda döyüşlərdə Azərbaycan döyüşçüləri xüsusi fədakarlıq göstərirdilər. Tank hissəsinin komandiri kapitan Həzi Aslanovun hünəri son dərəcə diqqətəlayiq idi. Onun rəhbərliyi altında Xarkov və Stalinqrad ətrafındakı qanlı vuruşlarda 55-ci tank briqadasının döyüşçüləri düşmənə sarsıdıcı zərbələr vurmuşlar. Həzi Aslanovun tankçıları döyüşərək 40 km-dən artıq yol qət edib Stalinqrad-Salsk dəmir yolunu tutmuş, faşistləri Sta-

linqrad qruplaşmasının mühüm magistralından kənara atmışlar. 1942-ci ildə Aslanovun tankçıları Kotelnikovo ətrafındakı döyüşlərdə almanların 30 əks-hücumunun qabağını almış, bir batalyon piyada qoşunu, 30 tankı, 50 avtomobili məhv etmişlər. Həmin döyüşdəki igidliyinə görə podpolkovnik Həzi Aslanov Sovet İttifaqı Qəhrəmanı adını almışdır. 1944-cü il martın 13-də isə tank qoşunları general-mayoru hərbi rütbəsi almışdır. Aslanovun tankçıları Rostov, Taqanroq və Yelqava şəhərlərinin, Belorusiya və Pribaltika respublikalarının düşməndən azad olunmasında, Kursk vuruşmasında fəallıq, fədakarlıq və qəhrəmanlıq göstərmişlər.

Feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsi də Həzi Aslanovun və onun başçılıq etdiyi tank briqadasının adı ilə bağlıdır.

Tələbə Ziyafət: Həzi Əhəd oğlu Aslanov iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Alman-faşist işğalçıları o zaman SSRİ-ni işğal etmişdi, bu ölkə ilə müharibə aparırdı. Faşistlər düşmənimiz hesab olunurdu. Fəqət daxilimizdə də düşmənlər vardı. Xəlvəti qəhrəmanlarımıza, vətənsevərlərimizə zərbələr vurur, hətta həyatlarına qəsd edirdilər. SSRİ-yə üzv olduğumuz illərdə general-mayor Həzi Aslanov haqqında bir çox həqiqətlər gizli qalmışdı. Müstəqillik əldə etdikdən sonra həmin həqiqətlər bizə məlum oldu. Aşkara çıxarıldı ki, Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilibmiş. Fəqət on illərlə bu barədə danışılmayıb. Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi ilə bağlı fərmanın üzə çıxarılmasında yazıçı-rejissor, professor Musa Bağırovun xidməti böyükdür. Həzi Aslanova SSRİ-nin ən böyük mükafatının - Sovet İttifaqı Qəhrəmanı adının verilməsi ilə Fərmanın gizlədilməsi erməni xəyanətkarlığının, millətçiliyinin nəticəsi idi. Moskvada vəzifə kürsülərində oturduqlarından əllərinə girəvə düşmüşdü, azərbaycanlılara ziyan vururdular.

Tələbə Zülfiyyə: Həzi Aslanovun ölümü də müəmmalı imiş. O, Stalinqraddan Baltik sahillərinədək cəbhələrdə olmuş, vuruşmuşdu. O, 1945-ci il yanvarın 24-də Latviyanın Priyekule yaxınlığında döyüş meydanından xeyli kənarda uzaqdan açılan zenit qurğusunun atəşi ilə vurulmuşdu. Yaralanan zaman Həzi Aslanovun əhatəsində 15 nəfərə yaxın yüksək rütbəli zabit varmış. O, haradasa 23 saat sağ qalmışdır. Həzi Aslanovu Moskvaya xəstəxanaya aparmaq üçün təyyarə göndərilməsinə baxmayaraq, o zaman cəbhənin komandanı olan erməni Baqramyanın əmrinə əsasən təyyarə işə salınmamış, nəticədə Həzi Aslanov qanaxmadan dünyasını dəyişmişdir.

1941-ci il dekabr ayının əvvəllərində Moskva uğrunda qızğın döyüşlərin gedişində baş serjant İsrafil Məmmədov ağlasığmaz igidlik göstərmişdir. Onun xidmət etdiyi hissə Novqorod vilayətinin Pustınka kəndi yaxınlığında rabitə xəttini və komanda məntəqəsini müdafiəsinə cəlb olunmuşdu. Sovet döyüşçülərinin mövqelərinə hücum edən təxminən min nəfər faşist əsgəri 30-40 metr yaxına buraxılaraq sıradan çıxarıldı. Şiddətli döyüş haradasa doqquz saat davam etdi. İsrafil Məmmədovun komandirliyi altında olan kiçik dəstə düşməni 100 metrə qədər geri qovdu, fəqət düşmən yenidən hücuma keçdi. Vəziyyət çox ağır idi. sovet döyüşçülərinin yarısı həlak olmuşdu. Hərbi sursat çatışmırdı. İsrafil düzgün qərar qəbul etdi. Düşmən 10-15 metr yaxına buraxıldı və onlara yaxın məsafədən aramsız atəş açıldı. İsrafildən savayı 5 nəfər döyüşçü sağ qalmışdı. Özü və yoldaşları düşmən üzərinə atıldılar. Çoxlu hitlerçi öldürüldü. Sağ qalanlar geri çəkildilər. 10 saat ərzində düşmən batalyonunun hücumunun qarşısını alındı, yüzlərlə düşmən əsgəri və zabiti öldürüldü. Bu döyüşdə İsrafil Məmmədov təkcə özü 700 faşisti məhv etmişdi. Bu hünərinə görə 1941-ci il dekabrın 11-də ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi. O, ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı idi.

Biz eyni zamanda ali təhsil müəssisələrinin Azərbaycan uşaq ədəbiyyatı fənn proqram və dərsliyini də nəzərdən keçirdiyimiz problem baxımından araşdırdıq. Fənn üzrə proqram və dərsliyin öyrənilməsindən görünür ki, "Azərbaycan uşaq ədəbiyyatı" üçün səciyyəvi olan mövzular aşağıdakılardır: "Uşaq ədəbiyyatına giriş", "Şifahi xalq ədəbiyyatı uşaq mütaliəsində", "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatında uşaq mütaliəsi nümunələri", "XIX əsrdə Azərbaycan uşaq ədəbiyyatı", "XX əsrin əvvəllərində Azərbaycan uşaq ədəbiyyatı" (1900-

1920), “1920-1940-cı illərdə Azərbaycan uşaq ədəbiyyatı”, “İkinci dünya müharibəsi illərində Azərbaycan uşaq ədəbiyyatı”, “XX əsrin 50-ci illərində Azərbaycan uşaq ədəbiyyatı”, “XX əsrin 60-cı illərindən bu günədək Azərbaycan uşaq ədəbiyyatı”, “Cənubi Azərbaycan ədəbiyyatında uşaq mütaliəsi nümunələri”.

Bu fəsillərdə əsərləri öyrənilməsi nəzərdə tutulan yazıçı və şairlərin yaradıcılıq nümunələrinin, hər birinin, eyni zamanda folklor nümunələrimizin tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması və bu əsasda onlarda sosiallaşmanın tərbiyə olunması baxımından imkanları vardır.

Müəllim Nizami Gəncəvinin həyat və yaradıcılığını tədris edərkən, tədris proqramının tələbinə görə, şairin “Kərpickəsən kişinin dastanı”, “Simnarın dastanı”, “Sultan Səncər və qarı”, “Zalım padşahla zahidin dastanı”, “Nuşirəvan və bayquşların söhbəti”, “Şahın dostluğu, “Xeyir və şər” mənzum hekayələrini diqqət mərkəzinə gətirir.

“Sultan Səncər və qarı” və “Nuşirəvan və bayquşların söhbəti” mənzum hekayələri hakimiyyətdə olan şəxslərə gözü açıq olmağı, idarəetmə məsələlərində nəzarətetməyə fikir verməyi, xalqın taleyini fikirləşməyi, məmurların özbaşınalığına yol verməməyi məsləhət görür.

Mənzum hekayədən göründüyü kimi, nəinki darğa azğınlıq edir, zülmkarlıqda şah ondan da geri qalmırmış. Odur ki, atalarımız demişlər: “Balıq başdan iylənər”.

Seminar məşğələsində Abbasqulu Bakıxanovun həyat və yaradıcılığı ilə tanışlıq zamanı onun digər mənzum hekayələri ilə yanaşı “Ümidin boşa çıxması” əsəri üzərində xüsusi dayanılır. Bu mənzum hekayə də tərbiyələndirici, təhsilləndirici imkanlara malikdir. Qeyri-adi almalardan padşaha pay gətirilən Həsən zindana atılır. Səfərdə olan padşah bu hadisədən gec xəbər tutur və dərhal onu azad edir. Həsəni onun hüzuruna gətirirlər. Padşah onun nəcib hərəkətini (ona qeyri-adi almaları pay gətirməsini) təqdir edir, deyir ki, xəzinədən ən qiymətli hədiyyə seçə bilər. Həsən xəzinədən bir balta və bir də Quran kitabı götürür. Padşah təəccüblənir. Həsən aydınlaşdırır: “Bu balta ilə mənim zindanda əzab-iztirab çəkməyimə bais olan alma ağacını kəsəcəyəm. Quran kitabına gəldikdə isə, qohum-əqrəbama, övladlarıma bu Qurana and içdirəcəyəm ki, nə xana, nə şaha ümid bəsləməsinlər, onlardan mərhəmət diləməsinlər”.

Milli-mənəvi mədəniyyətin tərbiyəsi şərtlərinin müəyyənləşdirilməsində əsas istiqamətlərdən biri tərbiyəvi mühitin formalaşdırılmasıdır. Bu istiqamətdə aparılan işlər o zaman uğurlu sayıla bilər ki, mühitin hər bir komponenti əvəzolunmaz və digəri ilə qarşılıqlı əlaqədə olsun. Komponentlərin qarşılıqlı əlaqəsi tərbiyəvi fəaliyyətin təşkili zamanı mümkün ola bilər ki, bu da incəsənətin birgə yaradıcılığı ilə pedaqoji prosesin subyektlərinin münasibətlərində özünü büruzə verir. Əsas məqsəd milli-mənəvi mədəniyyətin səviyyəsinin qaldırılmasıdır.

Milli-mənəvi mədəniyyətin formalaşmasında *ikinci şərt*–tələbələrin milli-tərbiyəedici fəaliyyətə cəlb olunmasıdır. Bu zaman aşağıdakılar nəzərə alınmalıdır: tərbiyəvi tədbirlərin planlaşdırılmasında özünü göstərən ehtiyac, maraq, tələbənin arzu və meyli; fəaliyyətin aksioloji məzmununun tamlığı; tələbələrin subyektiv mövqelərinin inkişafına yönəlmiş tərbiyəvi işlər; tərbiyəvi tədbirlərin kollektiv planlaşdırılmasında tələbənin ehtiyacının, marağının, meylinin nəzərə alınması; fəaliyyətin aksioloji məzmununun dolğunluğu; təlimdənkənar yaradıcı fəaliyyətin təşkili zamanı sosial-mədəni fəaliyyətin tərbiyəvi imkanlarından faydalanmaq; tələbələrin subyekt mövqelərinə tərbiyəvi işlərin yönəlməsi; təlimdənkənar işlərdə tərbiyəvi təsirlərdə fərdiləşdirmə və diferensiallaşma əsasında dəyər emosiyaların stimullaşdırılmasında vasitələrin tətbiqi.

Problemin aktuallığı. Yeni pedaqoji təfəkkür şəraitində tələbələrin sosiallaşması problem aktuallığı ilə seçilir.

Problemin elmi yeniliyi. Təlim prosesində tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin imkanları və yolları diqqət mərkəzinə gətirilir.

Problemin praktik əhəmiyyəti. Məqalə doktorant və dissertantlar, magistrantlar üçün faydalı ola bilər.

Ədəbiyyat

1. Abdullayeva G. Siyasi sosiallaşma və bu prosesə təsir edən amillər // Bakı: Xalq qəzeti. 2013, 2 iyul.

2. Ağayev Ə.Ə. Azərbaycan elmi-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemləri / Ə.Ə. Ağayev. Bakı: Avropa, 2005. 288 s.

Т.Э.Гулиева

Возможности и пути работы над формированием национально-духовной культуры у студентов в процессе обучения

Резюме

Одним из основных направлений в определении условий воспитания национально-духовной культуры является формирование образовательной среды. Работу в этом направлении можно считать успешной только в том случае, если каждый компонент среды незаменим и взаимодействует друг с другом. Основная цель - поднять уровень национальной и духовной культуры.

Второе условие формирования национально-духовной культуры - вовлечение учащихся в национально-просветительскую деятельность.

T.A.Guliyeva

Opportunities and ways of working on the formation of national spiritual culture among students in the learning process

Summary

One of the main directions in determining the conditions for the upbringing of national spiritual culture is the formation of the educational environment. Work in this direction can be considered successful only if each component of the environment is irreplaceable and interacts with each other. The main goal is to raise the level of national and spiritual culture.

The second condition for the formation of a national spiritual culture is the involvement of students in national educational activities.

Rəyçilər: p.e.d., prof. A.N.Abbasov,
p.f.d. L.A.Məmmədli

Redaksiyaya daxil olub: 18.05.2021

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

V.M.VƏLİYEV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

İNSANIN QÜVVƏ İMKANLARININ ASILI OLDUĞU FAKTORLARA DAİR

Açar sözlər: *hərəki fəaliyyət, xüsusiyyətlər, vərdiş, bacarıq, təlim.*
Ключевые слова: *двигательная деятельность, особенности, навык, умение, обучение.*
Key words: *motor activity, characteristics, habit, skill, training.*

İnsanın qüvvə imkanlarının asılı olduğu faktorların öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu faktorları dəqiq müəyyənləşdirmək və müəllim-məşqçi fəliyyətində bunlardan səmərəli istifadə etmək müasir tələblər baxımından da çox vacibdir.

Bu mövzu ilə bağlı azərbaycan alimlərindən D.F.Novruzovun, N.V.Məcidovun, Z.H.Rızayevanın, Q.M.Cəfərovun və xarici ölkə alimlərindən V.V.Kuznitsovun, Y.V.Verxoşanskinin, L.P.Matveyevin, V.M.Zatsiorskinin, A.P.Kupsovun, A.Q.Stankov və başqalarının irəli sürdükləri fikirlər məqsədəuyğun və səmərəlidir.

İnsanın sərbəst hərəkətdə göstərə biləcəyi qüvvə həm xarici faktorlardan (müqavimətin qiyməti, linklərin uzunluğu, hava – iqlim şəraiti, günlük və illik dövrlər), həm də daxili faktorlardan (əzələlərin strukturu, əzələ kütləsi, əzələdaxili əlaqələndirmə, əzələlərarası uzlaşma, əzələlərin reaktivliyi, enerji mənbələrin qüvvəsi) asılıdır.

Qüvvənin inkişafını və təzahürünü şərtləndirən əsas xüsusiyyətlərinə N. Məcidov "İcra olunan hərəkətlərin və icra rejiminin səmərəliyi"ndə əlavə etmişdir (1, s.22).

Boksçularda qüvvənin inkişaf etdirilməsi haqqında mütəxəssislər yazır: "Boksçunun gücünün (burada qüvvə nəzərdə tutulur - Y.S.,V.V.) inkişaf etdirilməsində güləşmə, ağırlıqqaldırma idman növlərinin hərəkətlərindən istifadə etmək olar" (2, s.92; 3, s.92).

Qüvvənin inkişaf etdirilməsi üçün məşqin təsirindən canlanmış olan daxili faktorlara nəzər salaq.

Əzələlərin strukturu. Strukturuna və metabolik keyfiyyətlərinə görə əzələ liflərinin iki əsas tipini: qırmızı və ağ – ayırd edirlər. Qırmızı rəngli liflər oksidləşmə proseslərin enerjisi hesabına yığılırlar. Onların tərkibində oksigenlə zəngin olan əzələ zülalı – mioqlobilin çoxluq təşkil edir. Bu, onların uzunmüddətli və səmərəli işləmək qabiliyyətinə zəmin yaradır. Onların aşkarlaya biləcəkləri cəhdlərinin göstəricisi və onların yığılma sürəti nisbətən aşağıdır, bu da onları "ləng" və ya ləng yığılan (LY) liflər adlandırmağa imkan verir.

Qırmızılardan fərqli olaraq, ağ əzələ lifləri, əsasən, anaerob enerji mənbələrin hesabına yığılırlar. Onların yığılma sürəti və qüvvəsi qırmızılarınkindən dəfələrlə yüksəkdir. Son zamanlarda ağ və ya tez yığılan (TY) lifləri iki tipə (TY_a və TY_b) bölürlər. TY_a tipli liflər oksidləşdirici – qlikolitik enerji mənbələrinin hesabına tez və qüvvətli şəkildə yığılırlar. Onlar sürətli və qüvvəli, eyni zamanda da ləng və dözümlü liflərin keyfiyyətlərini özlərində birləşdirirlər. Qeyd etmək lazımdır ki, bu zaman hər bir keyfiyyət "sırf" cəld və "sırf" ləng əzələ liflərin imkanları ilə müqayisədə olduqca aşağıdır. TY_b tipli lifləri klassik cəld və qüvvəli əzələ lifləri adlandırmaq olar. Demək olar ki, onlar ancaq anaerob enerji mənbələri hesabına yığılırlar. Bunun hesabına onlar cəldlikdə və qüvvədə digər liflər üzərində üstünlüyə nail olsalar da, dözümlülükdə onlara uduzurlar. Məhz buna görə də, görkəmli ağıratletlərin, sprinterlərin, tullananların əzələlərində TY_b tipli ağ əzələ liflərin kəmiyyəti nisbətən çoxdur.

Hər bir insanda müxtəlif tipli əzələ liflərin faiz nisbəti genetik şəkildə determinə edilib və qüvvə məşqləri prosesində dəyişilməz olaraq qalır. Bununla bərabər, uzunmüddətli qüvvə məşqləri nəticəsində ağ liflərin sahəsinin qırmızı liflərin sahəsinə nisbətən artır, bu da öz növbəsində ağ əzələ liflərin işçi hipertrofiyasına dəlalət edir (Uilmor, Kostill, 2001).

Əzələ kütləsi. Mütləq qüvvənin inkişafı əzələ kütləsinin artması ilə paralel şəkildə baş verir. Ümumi bioloji qanunauyğunluğa əsasən daha böyük kütləsi olan orqanizmlər daha böyük qüvvəyə malikdirlər. Güləş, ağırlıqqaldırma və digər idman növlərində çəki dərəcələrinin tətbiq edilməsi təsadüfi deyildir. Bunun tətbiqinin əsas məqsədi müxtəlif çəkili idmançıların potensial imkanlarının bərabərləşdirilməsindən ibarətdir. Bədən kütləsi – potensial qüvvə müsbət asılılıq yaxşı məşq etmiş insanlarda daha çox üzə çıxır **(şək. 1).** Daha az məşqli insanlarda o heç də görsənməyə bilər.

Ayrıca götürülmüş əzələnin qüvvəsi onun köndələn kəsiyinin kvadratına bərabər olması qüvvənin insan bədəninin kütləsindən asılılığını izah edir. İxtisaslaşdırılmış qüvvə məşqi prosesində əzələ kütləsini mühüm dərəcədə artırmaq olar. Belə ki, orta fiziki inkişaflı kişilərdə əzələ kütləsi bədənin ümumi kütləsinin 40%-ni, görkəmli ağırlıqqaldıranlarda 50-55%-ni, görkəmli kulturistlərdə isə 60-70%-dək təşkil edir. Xüsusiləşdirilmiş məşq yolu ilə əzələ kütləsini artıraraq biz mütləq qüvvənin artmasına müsbət təsir göstərmiş oluruq. Eyni zamanda da, əzələ kütləsinin artması ilə nisbi qüvvə artmır, əksinə, bir qayda olaraq, azalır **(şəkil 1 bax).** Nisbi qüvvənin azalması insanın öz bədən kütləsinin bədən həcminə, yəni onun xətti ölçülərinin kuba proporsional olması ilə izah edilir. Qüvvə isə xətti ölçülərin kvadratına (əzələnin köndələn kəsiyi) proporsionaldır. Buradan qüvvənin artma tempi bədən kütləsinin artma tempindən aşağı olduğu görünür. Bununla əlaqədar olaraq nisbi qüvvənin aparıcı rol oynadığı hərəkətlərlə müqayisədə yalnız əzələ kütləsinin artırılması hesabına qüvvə imkanlarının artırılması az perspektivli olacaq.

Əzələdaxili əlaqələndirmə. Hər bir hərəkət siniri özündə bir çox ayrı-ayrı motoneyronları birləşdirir. Hər bir motoneyron şaxələnərək müəyyən miqdarda əzələ liflərini innervasiya edir. Şaxələndirmələri və innervasiya etdiyi əzələ lifləri ilə birlikdə hər bir motoneyronu hərəkət vahidi (HV) adlandırırlar.



Şəkil 1. Mütləq (1) və nisbi (2) nəticələrin ağırlıq qaldıranların bədən kütləsindən asılılığı (ikinövçülük üzrə 01.01.2000. dünya rekordların vəziyyətinə əsasən)

Qeyd etmək lazımdır ki, müxtəlif əzələlərin HV strukturuna, qüvvə imkanlarına və aktivləşdirmə xüsusiyyətlərinə görə mühüm dərəcədə fərqlənirlər. Məkanda, zamanda və cəhdlərin qiymətinə əsasən incə əlaqələndirmə ilə hərəkətlərin icra olunmasını təmin edən əzələlər əsasən çox miqdarda HV (2 – 3 minədək) və onlardakı az miqdarda olan (5-10-dan 40-50-ə kimi) əzələ liflərindən ibarətdirlər. Hərəkətlərin nisbətən kobud əlaqələndirməsini təşkil edən əzələlər isə HV az miqdarından (500-1500) ibarət olsalar da, hər bir HV əzələ liflərinin daha çox miqdarından (1,6-2,0 minədək) ibarətdir. Bu da ki müxtəlif HV qüvvə imkanlarının böyük fərqlərini müəyyən edir (Platonov, Bulatova, 1995).

Əzələ sıxılması prosesi HV aktivləşməsinin müəyyən ardıcıllığı ilə səciyyələnir. Əhəmiyyətsiz müqaviməti aradan qaldırdıqda, aşağı səviyyəli qıcıqlanmaya (saniyədə 10-15 impuls) malik olan ləng HV fəallaşırlar. Müqavimət artdıqda MSS qıcıqlandırma impulsların daxil edilməsi güclənir (saniyədə 45-55 impulsadək) və işin icrasına daha çox cəld yüksəksəviyyəli HV daxil edilir. Beləliklə, əzələdaxili əlaqələndirmə, müqaviməti qırmaq məqsədilə mümkün qədər çox hərəkət vahidlərinin cəlb olunmasına yönəldilən, hərəkət vahidlərinin qıcıqlanmasının sinxronlaşdırılmasından ibarətdir.

Əzələlərin sərbəst gərginliyi zamanı işə cəlb olunan HV miqdarı məşqetmənin səviyyəsindən asılıdır. Belə ki, məşq etməyən adamlarda maksimal qüvvə gərginliyi zamanı işin icrasına HV 30-50% cəlb olunduğu zaman, yaxşı məşq etmiş insanlarda bu göstərici 80-90%-ə çatır.

Müəyyən hərəki fəaliyyətdə maksimal qüvvənin 20-25% təşkil edən müqaviməti dəf etdikdə işin icrası LY liflərin yığılmasının sinxronlaşdırılması hesabına baş verir. Maksimal mümkün olan qüvvənin 25-40% təşkil edən müqaviməti dəf etdikdə işin icrasına TY_a liflər cəlb edilir. Sonda, müəyyən hərəkətdə müqavimət maksimal qüvvənin 40%-dən çox olduqda işin icrasına TY_b liflər cəlb edilir. Submaksimal (maksimalın 80-90%) və maksimal müqaviməti qırdıqda motoneyronların aktiv impulslarının sinxronlaşdırılmasının ən yüksək səviyyəsinə nail olmaq olar.

Əzələlər arası əlaqələndirmə. Onun mahiyyəti aşağıdakılardan ibarətdir: xüsusi hərəki fəaliyyətin optimallaşdırılması üçün sayılı əzələlərin – sinergistlərin həyəcanlandırılmasını sinxronlaşdırmaq; antaqonist–əzələlərin fəallığının əngəlləşdirmək; müvafiq kinematik bağın əzələlərinin rasional ardıcıllıqla işə cəlb etmək; hərəkətsiz olmalı oynaqlarda fiksasiyanı təmin etmək; iş fazasının optimal amplitudunun və qüvvənin işə salınmasının məsləhət görülən hissəsinin seçilməsi; müxtəlif kinematik əlaqələrdə səylərin vurğulanmasının əlaqələndirilməsi; əzələlərin elastik xüsusiyyətlərinin (metabolik olmayan enerji) istifadə edilməsi. Bunun nəticəsində kumulyativ qüvvə anı artır. Cəhdlər zaman vahidində cəmlənir və hərəki fəaliyyət prosesində rasional şəkildə təzahür edir. Əzələlərarası əlaqələndirməni təkmilləşdirmək məqsədi ilə müvafiq tapşırıqda maksimal qüüvvənin 30-80%-dək ağırlaşdırılma göstəricisi olan çalışmaların icrası daha səmərəlidir (Ozolin, 1970 и др.).

Qüvvənin nisbətən aşağı təzahürləri ilə işin icrasında çox sayda xırda hərəki vahidlərin iştirakı, əzələ fəaliyyətin effektiv tənzimlənməsinə və yüksək səviyyəli əlaqələndirmə ilə hərəkətləri icra etməyə imkan verir. Gərginliyin daha yüksək səviyyələrində (maksimalın 80%–dək) işə böyük hərəkət vahidləri cəlb edilir, bu da hərəkətlərin tənzimlənməsinin effektivliyini və onların əlaqələndirməsini mühüm dərəcədə aşağı salır.

Əzələlərin reaktivliyi. Onun mahiyyəti əzələlərin dartılması zamanı gərilmə enerjisini toplayaraq sonradan onların yığılma qüvvəsini artıracaq olan əlavə bir qüvvə kimi istifadə olunmasındadır. İlkin dartınma əzələlərin gərilmə deformasiyasını yaradaraq onlarda müəyyən gərginlik potensialın (qeyri-metabolik enerji) yığılmasına köməklik göstərir. Əzələlərin yığılmasının başlanması ilə bu gərginlik potensialı onların dartınma qüvvəsini mühüm dərəcədə artıraraq işin səmərəliliyinin artırılmasına kömək edir (Komi, 1992). Amortizasiya fazasında əzələlərin dartınması nə qədər aktiv olsa (optimal çərçivədə) və əzələlər nə qədər tez olaraq güzəştli işdən öhdəsindən gəlmə işinə keçsələr, onların yığılma qüvvəsi bir o qədər yüksək olar. Qeyd etmək lazımdır ki, skelet əzələləri öz uzunluğunun 30-40%-dək yığıla və

ya dartına bilərlər. Əzələnin ilkin dartınması olmadan yaranan qüvvəyə nisbətən, 15-25%-lik əvvəlki dartılması onun səmərəli yığılmasına və daha yüksək qüvvənin yaranmasına optimal şərait yaradır. Lakin əzələnin ilkin dartınmasının böyük (30%-dan artıq) olması sonrakı yığılmada qüvvə anının nəinki artmasına, bəlkə də azalmasına səbəb ola bilər.

Əzələlərin reaktivliyi partlayış və sürət qüvvə təzahürlərinə mühüm dərəcədə təsir göstərir. O, belə bir yükləmə göstəriciləri ilə məşqləri icra edərkən yaxşı inkişaf edir, bu da bir yanaşmada 4 dəfədən 10 dəfəyə qədər yüksək sürətlə dəfələrlə onun öhdəsindən gəlməyə imkanı verir (Verxoşanski, 1977; Lines, 1997; и др).

Enerji mənbələrin qüvvəsi. Səmərəli qüvvə işi müxtəlif enerji mənbələrin istifadəsi ilə əlaqədardır. Qısamüddətli gərgin qüvvə və sürət–qüvvə işi fosfatlı enerji materialları ilə (ATF, KF) təmin olunur. Daha uzunmüddətli qüvvə işi qlikogenlərin anaerob və aerob parçalanması hesabına baş verir. Keyfiyyətli qüvvə məşqi əzələlərdə enerji maddələrinin ehtiyyatlarının toplanmasına imkan yaradır. Belə ki, məşqsiz əzələ KF ümumi kütləsinin 5%-dək toplaya bilər. Yaxşı məşq etmiş insanların əzələlərində isə KF göstəricisi hər bir əzələnin ümumi çəkisinin 1,5%-dək ola bilər. Gərgin qüvvə ilə icra olunan işdə əzələlərdə qlikogenin ehtiyyatlarının 80-100% artmasına zəmin yaradar (Finorenov, 1981; Xartmann, Tyunnemann, 1988 и др.).

İnsanın qüvvə imkanlarının təzahürlərində vegetativ funksiyaların rolu lazımi səviyyədə tədqiq edilməmişdir. Eyni zamanda orqanizmin qüvvə keyfiyyətlərinin inkişafında aerob səmərəliliyin mühüm olduğunu da qeyd etmək lazımdır. Aerob səmərəliyin ancaq kifayət qədər olan səviyyəsi bir məşğələdə və ya bitişik məşqlər sistemində qüvvə hərəkətlərin dəfələrlə təkrarlanması zamanı bərpa proseslərin səmərəliyinin əsasını təşkil edir. Mövcud olan ədəbiyyat mənbələrinin təhlili göstərmişdir ki, əzələ qüvvəsinin artması əzələ kütləsinin artmasından bir il geri qalır. Qeyd etmək lazımdır ki, bu tam orqanizmdə və əzələnin mikrostrukturlarında baş verən proseslərin yaş xüssiyyətləri ilə əlaqədardır. Ona görə də məktəblilər üçün istənilən fiziki yük məhdudlaşdırılmalı və dəqiq dozalaşdırılmalıdır.

Bütün bu qeyd olunanlardan müəllim–məşqçi kontingenti öz praktik fəaliyyətlərində səmərəli istifadə edə bilsələr, onda daha güclü idmançıların yetişməsinə nail ola bilərlər.

Ədəbiyyat

1. Məcidov N.B. İdman nəzəriyyəsi. Bakı: “Nərgiz” nəşriyyatı, 2009, 148 s.
2. A.Q.Abiyev, T.X.Babanlı, E.A.Hüseynov. Boks. Dərslik. Bakı, 2006.
3. Вокс. Учебник для ин-тов физической культуры. Под общей редакцией Дегтярева И.П. М.: «Физкультура и спорт», 1979, 287 с.
4. Сальников Г.П. Физическое развитие школьеиков. М.: Просвещение, 1968, 347 с.
5. Сухарев А.Г. Здоровье и физическое воспитание детей и подростков. М.: Медицина, 1991, 272 с.
6. Зациорский В.М. Физическое качества спортсмена «физкультура и спорт» М., 1970.
7. Матвеев Л.П. Теория и метдика физического воспитания «физкультура и спорт». М., 1976.

Я.Б.Самедов, В.М.Велиев

О факторах, от которых зависит сила человека

Резюме

В статье конкретно объясняются внешние и внутренние факторы, от которых зависит сила человека, основные характеристики, определяющие развитие и проявление силы и два основных типа мышечных волокон в соответствии с их метаболическими характеристиками. Также анализируется с точки зрения мышечной массы, внутримышечной координации, межмышечной координации, мышечной реактивности и силы источников энергии, регулирующих и тренировочных характеристик.

Y.B.Samadov, V.M.Valiyev

On the factors on which individual's power depends

Summary

The article specifically explains the external and internal factors on which individual's power depend, the main features that determine the development and manifestation of force and two main types of muscle fibers according to their metabolic characteristics. It is also analyzed in terms of muscle mass, intramuscular coordination, intermuscular coordination, muscle reactivity and the strength of energy sources, regulatory and training features.

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 12.04.2021

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

QÜVVƏ KEYFİYYƏTLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ METODİKASINA DAİR

Açar sözlər: *qüvvə, fiziki keyfiyyətlər, hərəkət, məşq.*
Ключевые слова: *сила, физические качества, движения, тренировка.*
Key words: *force, physical qualities, movements, training.*

Qüvvə beş əsas fiziki keyfiyyətlərdən biridir. İnsan fəliyyətində mühüm əhmiyyət kəsb edir. Bu fiziki kefiyyətləri müxtəlif idmana dair ədəbiyyat mənbələrində fiziki və ya hərəki qabiliyyətlər kimi də adlandırırlar.

İdman növündən asılı olaraq məşğələlərdə tətbiq edilən qüvvə hərəkətləri həcminə, istiqamətinə və xarakterinə görə dəyişir. Buna misal olaraq güləşçilərdə qüvvənin inkişaf etdirilməsi ilə bağlı D.F.Nofuzovun fikrini qeyd etmək olar. O, yazırdı: "Rəqibin müqavimətini dəf etmək, yaxud əzələ qüvvəsi hesabına ona təsir və əks təsir göstərmək qabiliyyətinə güləşçinin qüvvəsi deyilir" (2, s.95).

Qüvvə ilə bağlı "İdman gimnastikası" dərsliyində deyilir: "Qüvvə–əzələləri inkişaf etdirə bilən gərginlik dərəcəsi ilə xarakterizə olunur" (1, s.158).

Ədəbiyyat mənbələrində qüvvənin inkişaf etdirilməsini bir neçə istiqamətdə təsnif edirlər. Məsalən, L.P.Matveyev qüvvəni artırmağın metodlarını ümumiləşdirərək, "ekstensiv" və "intensiv" istiqamətləri xüsusi qeyd edir. V.M.Zatsiorski maksimal qüvvə gərginliyi ilə müşahidə edilən: maksimal, təkrar, dinamik və izometrik səy metodlarına üstünlük verir. Y.V.Verxoşanski xüsusi qüvvə hazırlığını belə təsnif edir: mütləq, sürət və partlayış qüvvəsi, qüvvə dözümlüyünü inkişaf etdirən metodlar. V.V.Kuznetsov isə bu metodları – ümumi qüvvə, məqsədyönlü və xüsusi qüvvə hazırlığına bölmüşdür.

Qüvvənin ümumi xüsusiyyətləri. İnsanın istənilən hərəkət fəaliyyəti mərkəzi sinir sisteminin (MSS) və hərəkət aparatının periferik hissələrinin, o cümlədən, skelet-əzələ aparatının uzlaşdırılmış fəaliyyətinin nəticəsidir. MSS qıcıqlandırma impulsları yaranır və motoneyronlar və aksonlar vasitəsilə əzələ liflərinə daxil olurlar. Bunun nəticəsində, əzələlər, bədənin ayrı-ayrı hissələrinin və ya tam olaraq bədənin məkanda yerdəyişməsinə imkan yarada bilən müəyyən bir güclə gərginləşirlər. Qüvvənin kəmiyyətindən və tətbiq olunma istiqamətindən asılı olaraq hərəkətin sürəti və xassələri dəyişilir. Beləliklə, insan əzələ gücünü istifadə etməsə, heç bir hərəki fəaliyyəti yerinə yetirə bilməz. Qüvvə–bütün digər fiziki keyfiyyətlərin (cəldliyin, dözümlüyün və s.) bu və ya digər şəkildə açığa çıxmasının asılı olduğu inteqral fiziki keyfiyyətdir. "Qüvvə" dedikdə nə başa düşülür?

Mexanikada "qüvvə" anlayışı cisimlərin qarşılıqlı əlaqəsinin ölçüsünü, onların hərəkətlərinin səbəbini, hərəkətin mexaniki xassələrini (*m* kütləsi olan cismə *F* qüvvəsi təsir edir) əks etdirir.

Fiziologiyada əzələ qüvvəsi altında onların inkişaf etdirə biləcəkləri maksimal gərginliyi anlayırlar. Əzələ gərginliyinin xarici görünüşünü (qüvvəni) nyutonla ölçürlər.

Fiziki tərbiyə nəzəriyyəsində "qüvvə" anlayışı insanın müəyyən bir hərəki məsələlərin həllinə yönəldilmiş sərbəst hərəkətlərinin keyfiyyət xassələrini əks etdirir. Buna əsaslanaraq "qüvvə" anlayışını aşağıdakı kimi müəyyən etmək olar.

Əzələ fəaliyyəti hesabına müəyyən bir müqaviməti qırmaq və ya ona əks təsir göstərmək bacarığı "qüvvə" adlanır.

Z.H.Rzayeva və Q.M.Cəfərov "qüvvə" haqqında belə yazırlar: "Qüvvə bir fiziki keyfiyyət kimi insanın müqaviməti dəf etmək, yaxud əzələ hesabına müqavimətə qarşı fəaliyyət göstərmək bacarığıdır" (3, s.92).

İnsan bədəninin çəkisi ilə eyni olan yerin cazibə qüvvəsi; dayağa təsir etdikdə onun reaksiyası; ətraf mühitin əks təsiri; əşyaların, idman ləvazimatının ağırlıq kütləsi; öz bədəninin və ya onun hissələrinin və digər cisimlərin ətalət qüvvəsi; rəqibin müqaviməti və s. müqavimət şəklində çıxış edə bilərlər.

Bir insan nə qədər çox müqavimət aşa bilərsə, bir o qədər qüvvətli hesab edilir. İnsanın fiziki hazırlığının artması ilə əzələlərin təsir etdikləri qüvvə, hərəki fəaliyyətdən və dayaq-hərəkət aparatının iş xassələrindən asılı olaraq, daha çox nəzərə çarpacaq xüsusiyyətlərə sahib olmasını göstərir.

Müxtəlif hərəki fəaliyyətlər üçün keyfiyyətcə spesifik olan əsas təzahür növləri mütləq, sürət, partlayıcı qüvvə və qüvvə dayanıqlığıdır.

Qüvvə dözümlülüyün növlərindən birinə aid edilməsi məqsədəuyğundur. Lakin ixtisaslaşdırılmış ədəbiyyatda bu keyfiyyət qüvvə qabiliyyəti kimi qəbul edilir. Buna görə də biz bu təsnifata əməl edirik.

İnsanın qüvvə keyfiyyətlərinin belə şəkildə ayrılması olduqca şərtidir. Onlara xas olan keyfiyyət spesifikliyinə baxmayaraq, onların arasında həm özünün biruzə verilməsində və həm də inkişaflarında müəyyən qarşılıqlı əlaqə mövcuddur. Xalis təmiz (tam) şəkildə onlar özünü nadir halda biruzə verər. Daha sıx olaraq onlar insanın bir çox hərəki fəaliyyətinin komponenti şəklində təzahür edirlər.

İnsanın mütləq qüvvəsi – onun ən yüksək müqaviməti qırmaq və ya sərbəst əzələ gərginliyi hesabına onunla qarşılıqlı əlaqəni yaratmaq bacarığıdır.

Qüvvənin ən yüksək göstəricilərini insan, hərəkətin xarici görünüşü ilə müşahidə olunmayan və ya səlis, asta hərəkətlərlə, məsələn, arxası üstə uzanaraq ştanqın iki əllə qaldırılması, olduğu kimi əzələ gərginliyini inkişaf etdirə bilər. Böyük xarici müqaviməti qırmaq zərurəti olduqda, mütləq qüvvənin təzahürü üstünlük təşkil edir. Belə ki, İslandiya qranit lövhələrin qaldırılması yarışları ilə məşhurdular və kütləviliyi ilə seçilirlər. 1992 – ci ildə İ.Perurena başının üzərinə 315 kq kütləsi olan daşı qaldırmaqla qüvvənin təzahürünün özünəməxsus rekordunu təyin etdi.

Müxtəlif bədən kütləsinə malik olan insanların qüvvəsini müqayisə etmək üçün nisbi qüvvə göstəricisindən istifadə edirlər.

Nisbi qüvvə – insanın bədən kütləsinin hər kiloqramına düşən mütləq qüvvənin miqdarıdır.

Məkanda insanın öz bədəninin yerdəyişməsi ilə əlaqədar olan hərəki fəaliyyətdə nisbi qüvvə mühüm rol oynayır. Bədənin bir kiloqram kütləsinə düşən qüvvə nə qədər çox olsa, onun məkanda yerdəyişməsini icra etmək və ya müəyyən bir vəziyyətdə saxlamaq daha asan olur. Məsələn, gimnastik halqalarda əllərin yanlara açılaraq dayanma ("xaç") hərəkətləri yalnız müvafiq əzələ qruplarının nisbi qüvvəsi bədən kütləsinin 1 kq çəkisinə yaxın olan idmançılar icra edə bilərlər. İdmançıların bədən kütləsinə görə, çəki dərəcələrinə görə bölündükləri idman növlərində nisbi qüvvə mühüm məna kəsb edir.

Bu və ya digər fiziki tapşırığın səmərəli şəkildə icra olunması üçün dəf edilən müqavimətin qüvvəsi az olduqda və ya əzələ gərilməsinin tezliyi, ya da ki dözümlülük daha böyük üstünlük təşkil etdikdə lazım olan maksimal qüvvənin göstəriciləri daha az olur. Məsələn, ancaq sürət hərəkətləri mühüm (maksimal qüvvənin 30–70% xarici müqaviməti qırmaq məcburiyyətində olduqda, maksimal və sürət qüvvələrin səviyyələri arasında müsbət əlaqə yaranır. Bundan əlavə, belə vəziyyətlərdə maksimal və sürət qüvvələr arasında mənfi qarşılıqlı əlaqə də yarana bilər (Xartmann, Tyunnenmann, 1988).

Maksimal qüvvə ilə dözümlülük arasındakı qarşılıqlı əlaqələrdə də oxşar vəziyyət müşahidə olunur. Xarici müqavimət maksimal qüvvənin 50%-i təşkil etdiyi zaman o müsbətdir,

xarici müqavimət maksimal qüvvənin 25%-i təşkil etdikdə isə mənfi ola bilər (Platonov, 1997).

İnsanın sürət qüvvəsi – onun olduqca böyük sürətlə mülayim müqavimətləri qırmaq bacarığıdır.

İlk baxışdan adama elə gəlir ki, sürət qüvvəsi sürətin və cəldliyin kompleks şəkildə təzahürüdür. Əslində isə o xarici müqavimətin göstəricilərinin müəyyən diapazonunda yerləşən qüvvənin spesifik təzahürüdür (Verxoşanski, 1988; Platonov, Bulatov, 1995 и др.). Belə ki, müvafiq hərəkətdə xarici müqavimət maksimal qüvvənin 15–20%-dən az olduqda ağırlaşdırılmış hərəkətin sürəti ancaq sürət imkanlarından asılıdır. Müəyyən bir hərəkətdə xarici müqavimət maksimal qüvvənin 70%-dən artıq olduqda bu müqavimətin dəf edilmə sürəti, əsasən, maksimal və partlayış qüvvənin inkişafı səviyyəsindən asılı olur. Buradan belə bir nəticəyə gəlmək olar ki, müəyyən hərəkət fəaliyyətində insanın sürət qüvvəsini xarici müqavimətin maksimal qüvvəsinin 15-20%–dən 70%-dək dəyişən diapazonunda olduqda tez dəf etməsi ilə izah etmək olar. O, dövri çalışmaların sprinter məsafələrində və onlara oxşar hərəkət fəaliyyətlərində hərəki fəaliyyətin effektivliyinin təmin edilməsində üstünlük təşkil edir. Xüsusilə də, qaçış zamanı addımların uzunluğu ayaq əzələlərinin sürət qüvvəsinin inkişaf səviyyəsindən asılı olacaq. Çoxsaylı tədqiqatlarda müəyyən edilmişdir ki, daha aşağı ixtisaslı idmançılardan fərqli olaraq ixtisaslı idmançıların qaçış sürəti eyni olduqda onların addımlarının uzunluğu daha çoxdur, eyni ixtisaslı qaçışçılarda isə qaçışın sürətinin artması addımların uzunluğunun artması ilə olduqca sıx əlaqədardır.

İnsanın partlayış qüvvəsi – onun olduqca qısa vaxt ərzində ən yüksək cəhd göstərmək bacarığıdır.

Yüksək qüvvətli əzələ gərginliyini tələb edən hərəki fəaliyyətlər zamanı o mühüm rol oynayır. İlk növbədə bunlar müxtəlif hoppanma və tullama hərəkətləridir. Boksda səmərəli zərbə icra etdikdə, güləşdə rəqibin tarazlığını pozduqda, qılıncoynatmada hücumda sancma hərəkətləri icra etdikdə və s. partlayış qüvvəsi böyük rol oynayır.

Partlayış qüvvəsinin aparıcı rol oynadığı bir çox fiziki çalışmalarda hərəkətin əsas fazasında əzələlərin partlayıcı sıxılmasının aşkarlanmasından əvvəl mexaniki dartınma baş verir. Məsələn, nizə və ya qumbara (məşğələ qumbarası) atmaqdan əvvəl idmançı qüvvətlə qulaylanır. Bu vəziyyətdə hərəki fəaliyyətin iş effekti əzələ işinin güzəşt rejiminin öhdəsindən gəlmək rejiminə cəld keçmək bacarığı ilə müəyyən edilir. Bu zaman əzələlərin sonradan yığılma qüvvəsini artırmaq üçün dartılmanın elastik potensialından istifadə edilir. Əzələlərin bu spesifik xüsusiyyəti "əzələ reaktivliyi" adlanır (Verxoşanski, 1977; Komi, 1992 və s.).

İnsanın fiziki keyfiyyəti kimi qüvvə dözümlülüyü – onun istehsal, idman və digər hərəki fəaliyyətin müəyyən şəraitində daha effektiv şəkildə mülayim xarici müqaviməti qırmaq bacarığıdır.

Bu zaman əzələlərin funksionallığının müxtəlif xassələri; lazım olan duruşun (qamətin) saxlanılması, partlayış cəhdlərinin təkrarlanması, müəyyən gərginlikli dövrü iş və s. nəzərdə tutulur.

Qüvvə dözümlülüyünün ən yüksək keçiriciliyi sinir-əzələ aparatın işinə xas olan çalışmalarda müşahidə olunur. Keçiricilik əmsalı tapşırığın müddətindən və xarici müqavimətin göstəricisindən asılıdır. Tapşırığın icra olunma müddəti çox, xarici müqavimət göstəricisi az olduqda, hərəkət fəaliyyətinin bir növündən digərinə müsbət qüvvə dözümlülüyün keçirilməsi daha yaxşı əks olunur və əksinə–tapşırığın icra olunma müddəti az, onların icrası zamanı xarici müqavimət göstəricisi çox olduqda, qüvvə dözümlülüyün keçirilməsi daha az olur.

Əzələlərin iş rejimindən asılı olaraq statik və dinamik qüvvəni fərqləndirirlər. Əzələlər gərildikdə, bədənin, onun hissələrinin və ya insanın qarşılıqlı əlaqəsi olduğu cisimlərin yerdəyişməsi olmadıqda statik qüvvə müşahidə olunur. Müqavimətin qırılması bədənin və ya onun hissələrinin məkanda yerdəyişməsi ilə müşahidə olunursa, söhbət dinamik qüvvədən gedir.

Qüvvənin inkişafında tətbiq edilən metodlar həm ayrı-ayrılıqda, həm də müxtəlif növbələşmələrlə tətbiq edilərsə və bu zaman o idmançıların hərtərəfli fiziki inkişafına yüksək təsir etmiş olar.

Ədəbiyyat

1. Nərimanov B.Ə., Əliyeva S.Ə., Nərimanov E.Ə. İdman gimnastikası (İxtisasçılar və ümumi kurs tələbələri üçün dəkslik). Bakı: "Müəllim" nəşriyyatı, 2004. 294 s.

2. Novruzov D.F. Güləşmə: Ali məktəblər üçün dərslik və dərs vəsaitləri seriyasından. Bakı: Maarif, 1992. 328 səh.

3. Z.H.Rzayeva, Q.M.Cəfərov. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası. Bakı, 2004. 182 s.

4. Матвеев Л.П. Теория и методика физической культуры (общие основы теории и методики физического воспитания; теоретико-методические аспекты спорта и профессиональео-прикладных форм физической культуры); Учеб. для ин-тов.физ. культуры. М.: Физкультура и спорт, 1991. 543с.

5. Матвеев Л.П. Теория и методика физической воспитания Том 1 Общие основы теории и методики физического воспитания; Учеб. для ин-тов.физ. культуры. М.: Физкультура и спорт, 1991. 543с.

Я.Б.Самедов

О основе методики развития силовых качеств

Резюме

В этой статье говорится о развитии физических качеств. Также раскрывается передача физических качеств, диалектическая связь физических качеств в медико-биологической литературе, в физической культуре и спорте. Были проанализированы научные источники по данной теме. Рекомендуется иметь ввиду определенные операции по методике развития физических качеств. Таким образом, в этой статье развитие сила было исследовано на методической основе.

Y.B.Samadov

On the methodological foundations of the development of force quality

Summary

The article is dedicated to improving of physical qualities. At the same time, the article informs about transmission of the physical qualities about dialectical communication between physical qualities in physical education and sport and in biomedical literature. Scientific sources on this topic have been investigated**.** Thus in this article, the development of force was investigated on a methodological basis.

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 12.04.2021

G.N.SÜLEYMANOVA
e-mail: resadsuleymanov863@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MƏKTƏBLİ GƏNCLƏRİN GƏLƏCƏK AİLƏ HƏYATINA HAZIRLANMASININ PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *tərbiyə, təfəkkür, şəxsiyyətin formalaşdırılması, ailə tərbiyəsi, yaş xüsusiyyətləri.*
Ключевые слова: *воспитание, воображение, формиравание личности, семейное воспитание, возрастные особенносте.*
Key words: *education, imagination, the formation of personality, family education, age peculiarities.*

Ailə cəmiyyətin ilkin özəyidir. Cəmiyyətin möhkəm olmasından ötrü isə ilk növbədə onun özəyi, dayaqları möhkəm olmalıdır. Beləliklə, ölkənin sosial-iqti-sadi və siyasi potensialı ailələrin saflığından, möhkəmliyindən, onların psixoloji və mənəvi iqlimindən çox asılıdır. Müstəqil həyata qədəm qoymaq gənc nəsl üçün heç də yalnız müəyyən peşəni seçməkdən ibarət deyildir, həm də ailə həyatına hazır olmağı nəzərdə tutur. Lakin bir çox hallarda ailə həyatına hazırlıq məsələlərinə lazımi səviyyədə fikir verilmir.

İstər dünyada, istərsə də gənc müstəqil respublikamızda boşanma halları gündən-günə artır. Alimlər, pedaqoqlar, psixoloqlar, hüquq mühafizə orqanlarının əməkdaşları və b. boşanmaların, ailə ixtilaflarının səbəblərini gənclərin ailə həyatına lazımi səviyyədə hazırlanmaması ilə izah edirlər. Azərbaycanda qədim zamanlardan başlayaraq, gənc nəslin ailə həyatına hazırlanması vəzifəsini valideynlərin özləri yerinə yetirirdilər. Uşaqlar erkən yaşlardan etibarən ailə qanunları ilə yaşayır, ilk titrək addımdan, hər hansı sözdən, öyüd-nəsiəhətdən, göstərişdən ailə həyatının yazılmamış qanunlarını öyrənirdilər.

Qız uşağı əsas etibarilə anasının, oğlan da öz növbəsində atasının yolunu təkrar ediridi. Ailə ənənələrini nəinki möhkəm, həm də çox yeknəsəq idi. Ana gələcək müstəqil ailə həyatı üçün zəruri olan bütün şeyləri müəyyən dərəcədə qızına öyrədə bilirdi. Oğlan isə bir növ atasını yamsılayırdı.

Ətrafdakı xeyirxah adamların əməllərini təkrar etmək, yaşlılara baxıb öyrən-mək – "Ailə" elminin sirləri uzun müddət oğlan və qızlara heç də mürəkkəb olmayan belə üsullarla öyrədilmişdir.

Ailə münasibətləri sahəsində əsrlər boyu xalq adət və ənənələri mövcud olmuşdur. Belə adətlər "ər-arvad", "gəlin-qayınana", "ata-uşaqlar", "bacı-qardaş" kimi çoxşahəli insan münasibətlərinin tənzim olunmasında mühüm rol oynayırdı. Bu sahədə hakim sinfin mənafeyini güdən dini ehkamlardan, hüquqi qaydalardan fərqli olaraq, xalq adət və ənənələri insan münasibətlərində, namus, şərəf, ləyaqət, ismət, həya və s. mənəvi cəhətləri yüksək qiymətləndirir, onların inkişafına kömək edirdi.

Azərbaycan xalqı ailə qurularkən nigahın bağlanmasına həmişə əxlaqi məna vermişdir. Belə ki, nigah münasibətinə girmədən ailə yaratmağı düzgün sanmamış-dır. Bu da təbiidir. Çünki belə ailələrdə gələcək uşaqların tərbiyəsi pozulur, ər-arvadın ailə qarşısında məsuliyyət hissi azalır, həm də nigah bağlamadan cinsi yaxınlığa yol vermək bağışlanılmaz günah sayılır.

Keçmişdə Azərbaycanda ailə məişətində bir neçə nigah forması özünü göstərirdi. Belə ki, monoqam (yunanca "mono" – tək və "qamos" – nigah sözlərin-dən olub təknigahlıq deməkdir) nigah forması zəminində endoqam və ekzoqam nigah qaydaları və adətləri (levirat, sorarat, beşikkərtmə, köbəkkəsmə) mövcud olmuşdur.

Keçmişdə Azərbaycan məişətində ekzoqam nigahlar da (kənar, ögey nigah) geniş yayılmışdır. Nəzərdən keçirilən ədəbiyyatlar göstərir ki, ekzoqam nigah endoqam nigahdan

xeyli əvvəl yaranıb (4, s.509-511). "XIX əsrdə Azərbaycan ailə-məişət münasibətlərində saxlanmış bir sıra adət və ənənələr sübut edir ki, ekzoqamiya bizim xalqımıza aid olan nigah forması olmuşdur" (5, s.17).

Köbəkkəsmə və beşikkərtmə də bu və ya digər dərəcədə Azərbaycan məişəti üçün səciyyəvi olmuşdur. Oğlan və ya qızın köbəyi düşərkən onları bir-birinə deyikli edirlər. Bu mərasim, bir qayda olaraq, yaxın qohumların, eləcə də dostların övladları arasında həyata keçirilirdi. Dostluq və qomluq münasibətlərini daha da möhkəmləndirmək məqsədi güdürdü.

Beşikkərtmə vaxtı oğlan anası bələkdəki qızı öz köynəyinin yaxasından keçirirdi. Bu oğlana qızı ad eləmək üçün kifayət edirdi.

Göstərmək lazımdır ki, nigahın istər levirat və istərsə də sororat formaları son illərə kimi Azərbaycan xalqının məişətində, xüsusilə ucqar kəndlərdə qalmaqda idi. İndi belə hallar nadir hadisəyə çevrilmişdir. Endoqram nigaha isə hələ də rast gəlinir. Özü də bu izdivacın əsas təşəbbüskarları, keçmişdəki kimi, valideünlər olurlar. İkiqat qohumluq elmi cəhətdən düzgündürmü?

Keçmişdə həmin suallar cavab vermək çətin idi. İnsanlar heç bu barədə düşünmürlər də. Əmiqızı ilə əmioğlunu evləndirmək psixoloji cəhətdən də rahat idi. Uşaqlarından bir yerdə böyümüş gənclər asanlıqda bir-birinə isnişdilər, ailə həyatı üçün böyük əhəmiyyətə malik bir çox problemlər, məslən, gəlin-qayınana, gəlin-baldız problemləri və s. də öz-özünə həll olunurdu. Lakin bununla belə, tibbi müşahidələr göstərirdi ki, qohum ailələrdə xəstə uşaqlara daha çox təsadüf olunur.

Müasir tibb elmi "ikiqat qohumluğu" – yaxın qohumla evlənməni zərərli hal sayır. İkiqat qohumluq bilavasitə irsiyyət prblemi ilə bağlıdır. İrsiyyət – əlamətlərin nəslə keçməsinə deyilir, o, nəsillər arasında varisliyə təminat verir. Müşahidələr göstərir ki, qohum olmayanlar arasasındakı nigahlara nisbətən qohumlararası nigahlarda irsi ailə xəstəlikləri 4-5 dəfə çoxdur. Lakin həm də cəsarətlə demək olar ki, əgər nigah münasibətinə girən gənclər sağlamdırsa da, onların yaxın qohum olmasına baxmayaraq uşaqları sağlam doğulacaq, nigah uğursuzluqla nəticələnməyəcəkdir.

Hazırda müasir azərbaycanlı ailələrdə qohumlararası nigahların sayı hədsiz dərəcədə azalmışdır, gənclər belə nigaha artıq köhnəlmiş, keçmişin zərərli qalığı kimi baxır, belə nigahlardan imtina edirlər.

Keçən əsrdə olduğu kimi, bu gün də respublikada nigah patrilokal xarakterə malikdir. Bunu necə başa düşməli? Toydan sonra gəlin, adətən ərin evinə köçür. Xüsusən şəhərlərdə ara-sıra matrilokal adətə rast gəlinir.

Azərbaycanda qızın, qadının mənəvi kamillyinə; əxlaqi saflığına tarixən kişi ləyaqətinin, namusunun, qeyrətinin göstəricisi kimi baxmışlar. Öz şərəfini, ismətini ucuz tutan qızların qadınların yüngülxasiyyətliliyi isə ailəyə tənə gətirmişdir. Ataların "qız üz qızardar", "Xəstəlik üz qızartmaz, qızardar qız adamı", "Arvadın isməti, ərin izzəti", "Qazan qarası gedər, namus qarası getməz", "Dünyada hər şey satılıb-alınar, namusdan başqa" və s. sözləri meydana gəlmişdir.

Keçmiş zamanlarda, qayda-qanunun olmadığı, insani hüquqlarının tapdalandığı bir şəraitdə qız böyütmək çətin idi. Namusu hər şeydən yüksək qiymətləndirən ata və analar qız uşağını göz bəbəyi kimi qoruyurdular, böyüyəndə adına söz çığacağından həmişə ehtiyyat edirdilər və təbii ki, anadan qız doğulmasını istəməzdilər. Gəlin köçən qız üçün də yeddi oğul və yalnız bircə qız arzulayırdılar.

Qız şərəfi və qadın isməti kimi nəcib keyfiyyətlərin qorunub saxlanması sevgi və ailə münasibətlərini rövnəqləndirir. Qızlıq şərəfi və qadın isməti olmadan saf məhəbbəti, təmiz aə möhkəm ailəni təsəvvürə gətirmək qeyri-mümkündür. Şərəfli və ismətli olmaq qıza və qadına baş ucalığı gətirir. Nəzakətli və mərifətli, ciddi və təvazökar qızlara hamı hörmətlə yanaşır. Onlar oğlanların nüfuzunu qazanır, həmin oğlanlara müsbət təsir göstərirlər. Oğlanlar isə təbii

ki, belə qızların yvnında özlərini ağır aparır, danışıqlarının sərhəddini gözləyir, hərəkət və davranışlarında səhvlərə yol verməməyə çalışırlar.

Dardüşüncəlilik və mədəniyyətin çatışmazlığı yüngülxasiyyətliyə və yelbeyinliyə gətirib çıxarır. Ötəri hissin əsiri olanlar, məhəbbətdə ağılı deyil, hissi əsas götürənlər ictimaiyyətin nəzərində haqlı olaraq pislənir. Təsadüfi deyilməmiş-dir ki, ağıl ilə həya ekiz qardaşdır, birini itirsən, digərini tapa bilməzsən. Belələri həyatda xoşbəxtliyə və səadətə də çata bilmirlər.

Ər-arvadın şəxsi səadəti, gələcək ailənin, uşaqların xoşbəxtliyi, ümumiyyətlə onların bir şəxsiyyət kimi necə təşəkkül tapmasından çox asılıdır. Ailədə ər-arvad bir gün deyil, orta hesabla 32-40 il birgə ömür sürür. Azərbaycan uzunömürlülər diyarı kimi tanınır. Respublikada 100 ildən artıq birlikdə ömür sürmüş adamlar vardır. Belə ailələrlə yaxından tanış olduqda yəqin edirsən ki, ailə qurulan ilk gün-dən ər və arvad bir-birinə mhribanlıq və sədaqət göstərmişdir.

Ədəbiyyat

1. Abbasov A. N. Milli əxlaq və ailə etikası. Bakı, Mütərcim, 2016.
2. Əliyev R.İ. Mentalitet. Bakı, Təhsil, 2012.
3. Sadıqov F.B., Həsənli O.Q. Tərbiyəşünaslıq. Dərs vəsaiti. Bakı, Elm və təhsil, 2015.
4. Семёнов И.Ф. Как возникло человечество. М, Знание, 2006.
5. Quliyev H.A. Azərbaycan ailə məişətinin bə'zi məsələləri. Bakı, Elm, 2008.
6. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı, Maarif, 2016.

Г.Н.Сулейманова

Педагогические особенности подготовки школьников в семейной жизни

Резюме

В статье прояснены проблемы подготовительных работ школьной молодежи к семейной жизни, выявлены и обоснованы педагогические особенности по решению данных проблем. Статья очень актуальна для учителей – практики и для родителей. Статьей также могут пользоваться и исследователи.

G.N.Suleymanova

Pedagogical features of preparing of pupils to the future family life

Summary

In article researched the problems of preparing of pupils to the family life, also the solving of these problems and their pedagogical basis with these charac – also to parents. Also from article can use the researchers.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 08.04.2021

Ü.L.VƏLİYEVA
e-mail: ulviyyeveliyeva@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN AİLƏ TƏRBİYƏSİNİN XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Açar sözlər: *kiçikyaşlı məktəbli, ailə tərbiyəsi, uşaq intizamsızlığı, valideyn qayğısı, məsuliyyət hissi, gün rejimi.*
Ключевые слова: *школьник младшего возраста, семейное воспитание, детская недисциплинированность, родительская забота, чувство ответственности.*
Key words: *schoolchildren, family upbringing, child indiscipline, parental care, sense of responsibility.*

Kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsində onların intizamsızlığı nəzəri cəlb edir. Sual oluna bilər ki, biz nə üçün kiçik yaşlı məktəblilərin ailə tərbiyəsində məhz onların intizam tərbiyəsini ön plana çəkmişik. Bu bir danılmaz həqiqətdir ki, el arasında deyildiyi kimi, intizam olmayan yerdə heç bir müsbət keyfiyyətdən söhbət gedə bilməz. Məhz buna görə də biz uşaqların intizam tərbiyəsi ilə bağlı məsələləri ön plana çəkmişik və bu sahədə qarşıya çıxan çətinliklərin aradan qaldırılması yollarını tədqiqatımıza əsasən araşdıracağıq.

Müşahidələrimiz göstərir ki, ailədə valideynlər uşaqların intizamsız hərəkətlərinin (sözə baxmamaq, oyuna və oyuncaqlara aludə olmaq, vaxtında yeməmək, vaxtında yatmamaq, dərslərə vaxtında hazırlaşmamaq, bacı-qardaşlarla, qonşu uşaqları ilə yola getməmək, nalayiq işlərlə məşğul olmaq və s.) qarşısını almaq üçün bir sıra üsullardan və priyomlardan istifadə edirlər. Həmin üsullardan biri rejimdən səmərəli və düzgün istifadə etməkdir.

Yaxından tanış olduğumuz və müntəzəm əlaqə saxladığımız bir neçə ailədə valideynlər uşaqlarının intizamlı olmasına nail olmaq üçün onları kiçik yaşlarından rejimə alışdırmağa çalışırlar. Həmin ailələrdə rejimə vaxtında yemək, yatmaq, oynamaq, ev tapşırıqlarını yerinə yetirmək daxil edilmişdir. Belə uşaqların rjimə düzgün əməl etmələri üçün ailənin bütün üzvləri müəyyən edilmiş vaxtlarda özləri də üzürsüz səbəbdən rejimi pozmağa çalışırlar. Valideynlər işləri elə təşkil edirlər ki, hər hansı bir səbəbdən (əlbəttə üzürlü) ailənin hər hansı bir üzvü (istər ata, ana, baba, nənə və ya böyük qardaş və baçı) rejimə düzgün əməl edə bilmədikdə (yatmaq, yemək, və s. vaxtı pozduqda) ailənin o biri üzvlərindən üzür istəyirlər. İşin belə ciddi şəkildə təşkili həmin ailələrdə yemək, yatmaq, oynamaq, məşğul olmaq vaxtlarına düzgün əməl edilməsi tədricən rejimə alışmaq adətinə çevrilir. Beləliklə, illər keçdikcə, uşaqlar böyüdükcə rejimə əməl etmək onların həyat tərzinə, davranışlarının tərkib hissəsinə, ehtiyaclarına çıvrilir. Rejimin ailədə möhkəm yer tutması üçün valideynlər uşaqlar qarşısında müəyyən tələblər qoyurlar. Məsələn hər gün səhər saat 7-də yatağından uşaq özü qalxmalı, yuyunmalı, yatağını yığışdırmalı, səhər yeməyini yeməli, dərslərini təkrar etməli və sonra məktəbə getməlidir. Uşaq məktəbdən qayıtdıqdan sonra günorta yeməyi yeməli, sonra 1-1,5 saat yatmalı, qalxdıqdan sonra dərslərini hazırlamalı, bundan sonra sərbəst və müstəqil surətdə oynaya bilər, televiziya verlişlərinə baxa bilər və s. Tanış olduğumuz ailələrin bəzilərində həyətyanı sahə olduğu üçün 9-12 yaşlı uşaqlar bağçada müəyyən işlər görür (ağaclara, güllərə qulluq edir, tərəvəz becərməklə məşğul olur və s.), valideynlərin əmək tapşırıqlarını yerinə yetirirlər və s.

Müşahidələrimiz göstərdi ki, uşaqlar qarşısında eyni tələblərin qoyulması və onlara hamı tərəfindən sözsüz əməl olunması üzərində ciddi nəzarət uşaqlar arasında möhkəm intizamın yaranmasına səbəb olur. Belə ailələrdə müəyyənləşdirilmiş qaydalara dönmədən əməl olunması uşaqlarda faydalı adət və vərdişlərin yaranmasına da kömək göstərir.

Valideynlərin digər qayğısı öz uşaqlarında düzlük və doğruçuluq tərbiyəsinə ciddi və məsuliyyətlə yanaşmaları olmalıdır.

Yaxından tanıdığımız, məsləhətlərimizi diqqətlə dinləmiş, tərbiyə məsələləri ilə əlaqədar keçirdiyimiz tədbirlərdə müntəzəm və fəal iştirak etmiş valideynlər öz uşaqlarında görmək istədikləri, böyük qayğı və müvəffəqiyyətlə tərbiyə etdikləri yüksək əxlaqi keyfiyyətlərdən biri də düzlük və döğruçuluq olmuşdur. Həmin ailələrdə boya-başa çatmış uşaqların müstəsnasız olaraq hamısı valideynlərin yorulmaz səyi və bacarığı nəticəsində əxlaqi saflıq, düzlük və döğruçuluq hər şeydən üstün tutulmuşdur.

Tanınmış teleaparıcı Elçin Əlibəyli qeyd edir ki, "TV imici məsələsində etik nüfuz çox önəmlidir. Proqram haqqında rəy tematikasına, məzmun xüsusiyyətlərinə, yalnız biçim və üsluba görə deyil, cəmiyyətin qəbul etdiyi qaydalar, onun hadisəyə və insana münasibəti əsasında qurulur. Auditoriyanın mənəvi səviyyəsi, TV-nin etik imici ilə düz mütənasibdir. Amma ondan aşağı düşməsi yolverilməzdir... TV idarəçiliyində reytinq və ictimai rəy arasında balanslaşdırma aparmaq yolu ilə yayımın tənzimlənməsi çox vacibdir. İctimai rəyin xoşuna gələn, aktual olan, tədris və sosial-pedaqoji mahiyyət kəsb edən proqramların yerləşdirilməsi yalnız reytinqli verilişlərdən əldə olan gəlirlə mümkündür... Kütlənin marağında isə sensasiya, qalmaqal, sirr, ifşa, savaş, vulqarlıq və cinayət durur. Bu danılmazdır. Məhz bu tip proqramlar kütlə içində tezliklə uğur qazanır. TV-nin isə öz növbəsində bu marağın ardınca düşüb yalnız bunun üzərində yayımı qurması da doğru olmazdı. Lakin rəqabət və reytinq uğrunda savaş TV-ləri buna təhrik edir" (2).

"Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsində teleradio yayımının əsas prinsipləri - milli-mənəvi dəyərlərin qorunması, peşə etikasına və əxlaq normalarına riayət edilməsi, həmçinin proqramların keyfiyyətli olmasına diqqət ayrılır. Bu qanunun 5-ci fəsli ölkə ərazisində teleradio yayımının həyata keçirilməsi şərtlərini, proqrama verilən tələbləri, uşaqların və yetkinlik yaşına çatmayanların qorunması, reklam və digər məsələləri tənzimləyir. Burada 32-ci maddədə proqram üçün qoyulmuş tələblər sırasında maarifçilik və mədəniyyət məsələlərinə üstünlük verilməsi, proqramların tarazlaşdırılması yolu ilə efirin kommersiya, informasiya, yaxud digər eynitipli verilişlərlə yüklənməsinin qarşısının alınması, habelə milli-mənəvi dəyərlərin qorunması, sosial yayımların təşkil edilməsi vacib şərtlər kimi göstərilmişdir. Bu qanunun 6-cı fəslində isə yayımçının hüquq və vəzifələri müəyyənləşdirilmişdir (3).

"Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda əks olunan prinsiplərə təəssüf ki, lazımi səviyyədə riayət olunmur. Bir sıra telekanallarda xalqın milli mentalitetinə, islam dəyərlərinə zidd olan teleproqramların nümayiş olunması mütəxəssislər, eyni zamanda, tamaşaçılar tərəfindən haqlı olaraq tənqid olunsa da, hələlik istənilən nəticə əldə olunmayıb. Doğrudur, bir neçə il öncə akademik Ramiz Mehdiyevin yazdığı "Azərbaycanın efir məkanı: problemlər və vəzifələr" adlı məqaləsindən sonra Azərbaycan telekanallarında müəyyən dərəcədə dəyişiklik olsa da, amma bir müddət ötdükdən sonra hər şey yenidən "öz əvvəlki axarına" qayıtdı.

Tamaşaçıların zövqünü korlayan, ümumilikdə milli-mənəvi dəyərlərə zidd olan verilişlər barədə akademik R.Mehdiyev öz məqaləsində qeyd edirdi ki, "Bu verilişlərin əksəriyyəti ictimai əhəmiyyət kəsb etməyən mövzulara həsr olunur, müəyyən mənada cəmiyyətdə neqativ tendensiyaların yayılmasına istiqamət verir, gənclərin və yeniyetmələrin zövqünü, dünyagörüşünü korlayır, təlim-tərbiyəsinə mənfi təsir edir. Həmin verilişlərdə tamaşaçılara şou-biznes nümayəndələrinin dəbdəbəli həyat tərzi təbliğ olunur, onların bir-biri ilə münasibətləri, mübahisələri araşdırılır. Əksər əyləncə verilişlərinin ixtisaslı kadrlar tərəfindən deyil, aparıcılıq edən müğənni və ya şou-biznes nümayəndələrinin iştirakı ilə təşkil olunması yaxşı hal kimi qəbul olunmur. Çox hallarda bu tipli aparıcıların davranışlarından gənclər özləri üçün nümunə götürməyə çətinlik çəkirlər... Maarifləndirmə xarakterli proqramlarda biznes maraqları üstünlük təşkil etməməli, daha çox maraqlı verilişlərlə tamaşaçı auditoriyasının rəğbətinin qazanılması qarşıya məqsəd qoyulmalıdır. Televiziya təkcə informasiya vermək və yaxud əyləndirməklə işini bitmiş hesab etməməlidir. O, həmçinin tamaşaçısını düşündürməyi, istiqamətləndirməyi bacarmalıdır" (4).

Əlbəttə, televiziya kanallarında qeyri-etik hallara yol verilməsi, yersiz sözlərin işlədilməsi, ümumiyyətlə hər hansı bir efirə zidd olan xoşagəlməz hadisələrin baş verməsi televiziyalarda qeyri-peşəkarların olmasından və ya onların öz işlərinə məsuliyyətsiz yanaşmalarından xəbər verir. Qeyd edək ki, istənilən verilişin əsas siması teleaparıcı olsa da, amma verilişə cavabdeh olan digər şəxslər də vardır. Burada, çəkiliş zamanı verilişin redaktoru və rejissoru birbaşa studiyada, çəkiliş məkanında baş verən hər bir olaya cavabdeh məsul şəxslər hesab olunurlar. Doğrudur, birbaşa yayımda baş verən xoşagəlməz hallara nəzarət etmək bir qədər çətin olsa da, amma montaj üsulu ilə hazırlanan verilişləri əvvəlcədən tənzimləmək və efirə daha yaxşı şəkildə vermək mümkündür. Burada, istər aparıcı, istərsə də hər hansı bir qonaq çəkiliş prosesində səhvə və ya hansısa ciddi yanlışlığa yol verə bilər. Belə olan halda bu görüntülərin efirə verilib-verilməməsinə yalnız verilişin redaktoru və rejissoru qərar verə bilərlər.

Nəzərə almaq lazımdır ki, istənilən teleaparıcı, hətta o, öz işinin peşəkarı olsa belə, hər şeydən əvvəl insandır. Çəkiliş zamanı bu və ya digər səbəbdən hansısa yaranmış gərginlik nəticəsində əsəblərini ələ almaq ona çətin ola bilər. Amma bütün hallarda teletamaşaçını bu kimi problemlər maraqlandırmır. Tamaşaçı televiziyadan onun zövqünü oxşaya biləcək verilişlərin olmasını istəyir.

Məsələn, tanınmış teleaparıcı Elçin Əlibəylinin "Space" televiziyasının efirində yayımlanan "El bizim, sirr bizim" adlı verilişində müğənni Maral Tahirqızı ilə yaşanan qalmaqal cəmiyyətdə, xüsusən də sosial şəbəkələrdə geniş müzakirəyə səbəb olaraq birmənalı qarşılanmamışdır.

Şübhəsiz ki, görünür bu verilişin efirə hazırlanmasında cavabdeh olan şəxslər lazımi səviyyədə öz işlərinə nəzarət etməyiblər. Əgər montaj zamanı efirə verilməsi məqbul sayılmayan kadrlara lazımınca diqqət edilsəydi, həmin hissəni kəsmək və ya redaktə etməklə xoşagəlməz halın qarşısını almaq olardı.

Baş vermiş olayla bağlı teletənqidçi, əməkdar jurnalist Qulu Məhərrəmli televiziyalarda aparıcıları qızıl qaydalara riayət etməyə çağıraraq qeyd etmişdi ki, "Televiziyalardakı bu məsələlərlə bağlı ümumi deyə bilərəm ki, istənilən aparıcı verilişinin formatından və məqsədindən aslı olmayaraq, dəvət etdiyi qonaqlara hörmətlə yanaşmalıdır. Bu, televiziyanın

çox adi bir tələbidir... Aparıcı müzakirə olunan məsələdə az da olsa tərəf kimi çıxış etməməlidir. Yəni, istənilən ictimai müzakirənin qaydası budur. Bu, istər konfrans formasında olsun, istər debat olsun, istərsə də tok-şou olsun fərqi yoxdur, qayda eynidir. Aparıcı tərəf kimi çıxış etməli deyil".

Bu kimi halların daha çox şou tipli qalmaqallı verilişlərdə baş verməsi hər kəsə bəlli məsələdir. Professor Q.Məhərrəmli Azərbaycan televiziyalarında qalmaqal yaradacaq verilişlərin yaranma səbəblərinə münasibət bildirərək qeyd edir ki, "Dəfələrlə bununla bağlı tənqidlər yer alıb. ... bizim televiziya mühitində suni şəkildə qalmaqal yaratmaqla belə hesab olunur ki, guya, çox reytinq qazanılır və reklam yığıla bilir. Televiziyada müəyyən qızıl qaydalar var ki, bu qaydalar televiziyada mütləq gözlənilməlidir. Bu qaydaları gözləməyən proqramlar və bu qaydalara riayət etməyən aparıcılarla bağlı hər zaman problemlər ortaya çıxıb" (5).

Azərbaycan televiziyalarında yaşanan etik problemlər yalnız verilişlərdə baş verən qeyri-etik olaylardan ibarət deyil. Bura ədəbi dilin qorunması ilə əlaqədar etik problemlər də daxildir.

Məsələn, ötən il "Azərbaycanın teleradio məkanında ədəbi dilin qorunması" layihəsi çərçivəsində AZTV-dən başqa 6 ümümrespublika televiziya yayımçısında - İctimai TV, ATV, Space TV, Lider TV, Xəzər TV və ARB TV-də yayımlanan verilişlərin dili monitorinqə cəlb olunub. Milli Televiziya və Radio Şurası iyun-iyul aylarında teleradio proqramlarının monitorinqinin nəticələrinə diqqət edəndə məlum olur ki, bütün telekanallar ədəbi dil normalarını dilin bütün səviyyələri üzrə - istər fonetik, istər leksik, istər qrammatik, istərsə də üslubi səviyyədə pozurlar. Aparılmış monitorinqin nəticəsinə görə qeydə alınmış 850 faktdan 371 fonetik, 175 leksik, 200 qrammatik, 104 üslubi səviyyədə olan pozuntulardır (6).

Əlbəttə, Azərbaycan televiziya kanallarında etik normalara riayət edilməsi və onun tənzimlənməsi üçün bir sıra tədbirlər həyata keçirilir.

Məsələn, Milli Televiziya və Radio Şurası (MTRŞ) televiziyalarda etik normaların qorunmasını ayrıca qəbul olunmuş qaydalarla tənzimləyir. Qeyd edək ki, "Etik normaların pozulmasına dair qaydalar 2006-cı il martın 1-də qəbul olunub. Qaydalara görə, efirdə ədəbsiz ifadə və hərəkətlər varsa, o zaman telekanal cərimələnir. Bu qaydalar saat 07:00-la 23:00 arasında efir saatları üçün keçərlidir. Əgər qeyd edilən hallar saat 23:00-dan sonra pozularsa, o zaman MTRŞ-ın sansksiya tətbiq etmək səlahiyyəti yoxdur. Efirdə baş verən etik pozuntu hallarına görə cərimələrin miqdarı İnzibati Xətalar Məcəlləsi ilə müəyyənləşir: İnzibati Xətalar Məcəlləsinin 187-1-ci maddəsinə əsasən, kanal 1000-2000 manat arasında cərimələnir. MTRŞ hər gün kanalları izləyir, monitorinq aparır. Həftəlik və aylıq hesabatlar hazırlayır. Əgər pozuntu varsa, o zaman şuranın iclasında bu məsələ müzakirəyə çıxarılır və qərar qəbul edilir".

Cərimələrlə bağlı televiziya tənqidçisi, professor Qulu Məhərrəmli bildirir ki, "bunun həm yaxşı, həm də pis tərəfi var. Belə ki, televiziya etik pozuntuya görə cərimələnərsə, istər-istəməz səfərbərlik yaranacaq, canlı efir üçün aparıcıları daha diqqətlə seçəcəklər. Pis tərəfi isə odur ki, zaman keçdikcə televiziya bu cərimələnməyə öyrəşə bilər".

Əslində telekanal rəhbərləri özləri etik normaların qorunması üçün, televiziya daxilində buna kifayət qədər nəzarət etmiş olsalar, problem daha yaxşı öz həllini tapmış olar.

Məsələn, İctimai Televiziyanın mətbuat xidmətinin rəhbəri Tahir Məmmədov qeyd edir ki, "İTV"nin efirində etik normaların qorunmasına çox ciddi riayət olunur: "İctimai yayımda etik normalar daha həssas məsələdir. Buna təkcə qanunvericilikdən irəli gələn tələb kimi baxmaq olmaz, həm də fərdi yanaşmaq lazımdır. Hər bir verilişin mövzusundan tutmuş ən xırda detala, ən xırda görüntüyə qədər hər şeyə nəzarət olunur. Xırda bir pozuntu olsa belə həftəlik iclasda müzakirəyə çıxarırıq, buna qiymət verilir... İctimai Televiziyanın yayım şurası da efirə nəzarət edir, təklif və iradlarını bildirir" (7).

Aparılan araşdırmalara əsasən onu qeyd edək ki, Azərbaycan televiziya kanallarında yayımlanan verilişlərdə etik problemlərin aradan qaldırılması istiqamətində nə qədər tədbirlər

həyata keçirilsə də, reytinq və qeyri peşəkarlıq səbəbindən efirlərdə baş verən etik pozuntuların qarşısını almaq olmur. Bu üzdən də problem tam olaraq öz həllini tapmır.

Sonda belə qənaətə gəlirik ki, etik normalara riayət olunması üçün, televiziya rəhbərləri televiziyadaxili nizam-intizamı təmin etsələr və ya bu problemə qarşı kifayət qədər ciddi nəzarət etmiş olsalar, eyni zamanda, telviziya peşəkarları ilə televiziya tədqiqatçıları bir araya gələrək vaxtaşırı ictimai müzakirələr aparsalar problem daha tez aradan qaldırılmış olar.

Ədəbiyyat

1. Azərbaycanda telekanallarla bağlı mühüm yenilik - Nuşirəvan Məhərrəmli açıqladı
https://sonxeber.az/91297/azerbaycanda-telekanallarla-bagli-muhum-yenilik-nusirevan-meherremli-aciqladi
Tarix: 28 iyun 2018
2. Elçin Əlibəyli, Reytinqin sənin - taleyin sənin...
http://elchinalibeyli.blogspot.com/2013/08/reytinqin-snin-taleyin-snin.html
4 avqust 2013
3. Mübariz Əhmədov. Azərbaycanda jurnalist etikası: problemlər və vəzifələr. Bakı: Mütərcim, 2017, s.115.
4. Ramiz Mehdiyev. Azərbaycanın efir məkanı: problemlər və vəzifələr. "Azərbaycan" qəzeti, 07 oktyabr 2009.
5. Aparıcı dəvət etdiyi qonaqlara hörmətlə yanaşmalıdır
https://www.interpress.az/maqazin/page/6/95454-aparc-dvt-etdiyi-qonaqlara-hrmtl-yanamaldr-qulu-mhrrmli.html#.W9TCkTF-qM8
7 may 2018 (15:58)
6. Xoşqədəmin “sponsur”u, “Space”in “dəyiq” xəbərləri - Aparıcıların qüsurları https://azvision.az/news/124090/xosqedemin-sponsuru,-spacein-deyiq-xeberleri-aparicilarin-qusurlari.html 16:50 16 Avqust 2017
7. TV-lər və etik normalar
http://hafta.az/index2.php?m=yazi&id=85545
Tarix: 13.02.2013 | Saat: 15:40:00

М.А.Ахмедов

Этические проблемы на телеканалах Азербайджана

Резюме

Одна из тем, которая волнует общество в наше время и является одной из самых обсуждаемых в социальных сетях, - это то, что количество некачественных, непривлекательных и неэтичных программ на телеканалах превышает количество образовательных.

Согласно результатам проведенных исследований, сколько бы ни было принято мер по устранению этических проблем в программах, транслируемых на азербайджанских телеканалах, предотвратить этические нарушения в эфире невозможно из-за вопроса рейтинга и непрофессионализма.

В представленной статье делается вывод о том, что проблема может быть решена быстрее, если руководители телекомпаний будут поддерживать внутреннюю дисциплину и строгий контроль за соблюдением этических норм, а также проводить регулярные публичные обсуждения с экспертами.

M.A.Ahmedov

Ethical issues on Azerbaijani TV channels

Summary

One of the topics that worries society in our time and is one of the most discussed on social networks is that the number of low-quality, unattractive and unethical programs on TV channels exceeds the number of educational ones.

According to the results of the research, no matter how many measures are taken to eliminate ethical problems in programs broadcast on Azerbaijani TV channels, it is impossible to prevent ethical violations on the air due to the issue of rating and lack of professionalism.

The presented article concludes that the problem can be resolved more quickly if the managers of TV companies maintain internal discipline and strict control over the observance of ethical standards, as well as conduct regular public discussions with experts.

Rəyçi: filol.f.d., dos. Ə.Ç.Ağamirzəyev

Redaksiyaya daxil olub: 16.04.2021

M.ƏLİYEV
professor

Ş.TAHİRQIZI
dosent

AMEA-nın Mərkəzi Elmi Kitabxanası
(Bakı şəh., H.Cavid pr., 129)

KİTABXANA İŞİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Açar sözlər: *Heydər Əliyev, İlham Əliyev, kitabxana, AMEA, Mərkəzi Elmi Kitabxana, müstəqillik illərində kitabxana işi, kitabxana siyasəti.*
Ключевые слова: *Гейдар Алиев, Ильхам Алиев, библиотека, НАНА, Центральная научная библиотека, библиотечное дело в годы независимости, библиотечная политика.*
Key words: *Heydar Aliyev, Ilham Aliyev, library, ANAS, Central Scientific Library, library work in the years of independence, library policy.*

Ulu öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətində Azərbaycanda kitabxana işinin inkişaf etdirilməsi məsələsi xüsusi yer tuturdu. Dahi şəxsiyyətin bu sahədəki əvəzedilməz xidmətləri iki mərhələyə ayrılır:

1) Sovet hakimiyyəti illərində kitabxana işini inkişaf etdirməsində Heydər Əliyevin xidmətləri;

2) Müstəqillik illərində kitabxana işinin inkişafında Heydər Əliyevin rolu.

Heydər Əliyev ümumsovet siyasəti fonunda bu sahədəki fəaliyyətini böyük əzmlə bir neçə istiqamətdə həyata keçirirdi:

– dövlət büdcəsindən kitabxanaların saxlanılmasına və inkişafına ayrılan xərcləri artırırdı;

– yeni nümunəvi kitabxana binalarının tikintisini genişləndirirdi;

– kitabxana fondlarının zənginləşdirilməsinə diqqəti artırmağı tövsiyə edirdi;

– kitabxana işçilərinin, xüsusən, kənd yerlərində işləyənlərin ali təhsil almalarına əlverişli şərait yaradırdı;

– böyük və tarixi qədim olan kitabxanaların yubileylərini keçirirdi və s. (1, s.87).

Ulu Öndərin qayğısı nəticəsində kitabxana işi üçün ayrılan xərclər ildən-ilə artırılır, yeni binalar tikilirdi. Məhz Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan 1970-1980-ci illərdə özünün ən yüksək inkişaf səviyyəsinə çatmışdı. Həmin dövrdə respublikamızda demək olar ki, hər il kitabxana binaları tikilirdi. 1975-ci ildə kitabxanaların sayı 110 vahid artırıldı. Həmin məqsədlə büdcədən 14,2 mln. manat ayrıldı. 1979-cu il planına nisbətən 1980-ci ildə 6,5% artımla 32, 9 mln. manat vəsait ayrıldı (2, s.1). Həyata keçirilən tədbirlər nəticəsində 1976-1980-ci illərdə Azərbaycanda dövlət büdcəsi hesabına 415 kitabxana binası tikildi. Sosial-mədəni tədbirlər üçün ayrılan xərclər 11574 mln. manat artırıldı (3).

1981-ci ildə kitabxana işinin inkişafı üçün dövlət büdcəsindən 36,4 mln. manat ayrıldı. Həmin ildə təkcə mədəniyyət nazirliyinin xətti ilə 80 kitabxana açıldı. Ümumiyyətlə, 1970-1980-ci illərdə Azərbaycanın bütün rayon mərkəzlərində vahid tipli kitabxana binaları tikildi.

H.Əliyevin hakimiyyəti illərində kitabxana fondlarının artırılmasına, xarici ölkələrdən kitab, jurnal və elmi məcmuələrin alınmasına xüsusi fikir verilirdi. Bütün bunların nəticəsində sovet hakimiyyəti illərində Azərbaycan kitabxanalarının fondlarının zənginləşdirilməsinin zirvə nöqtəsi məhz həmin illərdə oldu. Müqayisə üçün belə fakt əhəmiyyətlidir ki, əgər 1923-cü ildə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının (indiki Milli Kitabxananın)

fondunda 20 min 441 nüsxə, 1940-cı ildə 612 min 207 nüsxə kitab var idisə, 1973-cü ildə bu rəqəm 3 mln. nüsxəyə çatdırılmışdı (1, s.88).

Azərbaycan KP MK bürosunun 1973-cü il 19 dekabr tarixli iclasında M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 50 illiyinin keçirilməsi barədə qərar qəbul edildi. Yubiley tədbirinin keçirilməsi respublikada kitaba olan marağı daha da artırmaqla yanaşı xalqın mənəvi xəzinəsinin qorunması və inkişafına göstərilən diqqət və qayğının göstəricisi idi.

H.Əliyev eyni zamanda Azərbaycanda ali təhsilli kitabxanaçıların hazırlanmasına xüsusi önəm verirdi. Belə mövqe kitabxaların ali təhsilli kadrlarla təmin edilməsi və ümumi mədəni səviyyəsinin yüksəldiməsi məqsədini güdürdü.

H.Əliyev hakimiyyətə gələrkən Azərbaycanda cəmi 3019 kitabxanaçı fəaliyyət göstərirdi. Onların da yalnız 1436 nəfəri ali təhsilli idi (1, s.88). Azərbaycan rəhbəri bu vəziyyətin düzəldilməsi istiqamətində qətiyyətli tədbirlər həyata keçirdi. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Kitabxanaçılıq fakültəsinə tələbə qəbulu planı artırıldı. Kənd rayonları üçün müsabiqədənkənar qəbul yerləri ayrıldı. Artıq 1980-ci illərin əvvəllərində Azərbaycanda ali təhsilli kitabxanaçıların ümumi çəkisi üstünlük təşkil edirdi. Hətta ən ucqar dağ kəndlərinin kitabxanaçıları ali təhsil almağa başlamışdılar.

Tanınmış kitabxanaşünas alim, professor A.Xələfov yazır: “Kitabxana işinin qocaman mütəxəssislərindən, yüksəkixtisaslı kitabxanaçı kadrlar hazırlayan ali təhsil işçilərindən biri kimi böyük iftixar və minnətdarlıq hissi ilə demək istəyirəm ki, ölkəmizdə yüksəkixtisaslı kitabxanaçı kadrların hazırlanmasında H.Əliyevin xidmətləri əvəzedilməzdir. O, respublikada rəhbərliyə gəldikdən sonra 60-cı illərdə ləğv edilmiş kitabxanaları bərpa etmək, yeni kitabxanalar açmaqla yanaşı, yüksəkixtisaslı kitabxanaçı kadrların yetişdirilməsi işinə də xüsusi diqqət yetirməyə başladı. Azərbaycanın kənd rayonlarında yüksək ixtisaslı kadrların olmamasını nəzərə alan H.Əliyev qısa bir zaman içərisində Bakı Dövlət Universitetində fəaliyyət göstərən kitabxanaçılıq fakültəsinin genişləndirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, qəbulun artırılması üçün xüsusi göstəriş vermişdi” (4, s.23).

“H.Əliyevin şəxsi təşəbbüsü ilə Bakıda Kitab Evi açıldı. Bu münasibətlə keçirilən tədbirdə H.Əliyevin iştirak etməsi onun kitaba, xalqın maariflənməsinə və mənəvi xəzinəsinə ciddi əhəmiyyət verdiyini göstərirdi. H.Əliyevin həmin məsələyə diqqəti sayəsində qısa müddətdə Azərbaycan rayonlarının siması başdan-başa dəyişmişdi. Heç əbəs deyil ki, Moskvada oxuyan tələbə və aspirantlarla 1979-cu ilin dekabr ayında keçirilən görüşdəki nitqində H.Əliyev deyirdi: “Söhbət yeni … mədəni-maarif və məişət obyektləri tikintisindən gedir... söhbət Azərbaycan kəndinin simasının əsaslı surətdə dəyişdirilməsindən gedir” (5, s.1).

Heç bir mübaliğəyə yol vermədən demək olar ki, Azərbaycan kəndində ən yüksək mədəni inkişaf məhz H.Əliyevin hakimiyyəti illərində baş vermişdir. Məhz həmin dövrdə Azərbaycan kitabı kənddə yaşayan hər bir ailənin həyatına möhkəm daxil oldu. Azərbaycan xalqı daha çox mütaliə edən xalqa çevrildi. Azərbaycanda baş verən yüksək mədəni tərəqqini hətta xarici ölkələrin tarixçiləri də qeyd edirdilər. Tanınmış polyak tarixçiləri B.Baranovski və K.Baranovski Azərbaycanda yüksək mədəni inkişafın məhz 1970-ci illərdə olduğunu xüsusi vurğulayırdılar (6, s.236).

70-80-ci illərdə Azərbaycan Elmlər Akademiyasının fəaliyyətində baş verən böyük dəyişikliklər, maddi-texniki bazasının əsaslı surətdə yaxşılaşdırılması onun inkişafına böyük təsir göstərmiş, akademiyanın bütün strukturlarının işində böyük irəliləyiş baş vermişdi.

Göstərilən illərdə akademiyanın çox mühüm elmi bazası olan elmi kitabxananın işində də böyük canlanma baş vermis, elmi kitabxana nəinki respublikanın, həmçinin keçmiş SSRİnin ən böyük elmi kitabxanaları səviyyəsinə yüksəldilmişdi. Məhz bu dövrdə akademiyanın kitabxanası yeni binaya köçürülmüş, çox qiymətli və müasir avadanlıqla təmin edilmiş, yeni kitabxana texnikası ilə təchiz olunmuşdu. Öz fəaliyyətində müasir dövr kitabxana işi sahəsində baş verən yenilikləri dönmədən işinə tətbiq edən, yeni kitabxana texnologiyası ilə zənginləşən, kitabxana xidmətinin müasir problemlərindən bacarıqla istifadə edən kitabxana

tamamilə yeni tipli elmi informasiyanın müəssisəsinə çevrilmiş, yüksəkixtisaslı akademiya oxucularının ən çox sevdiyi, istifadə edildiyi bir elm xəzinəsinə çevrilmişdi. Belə bir faktı qeyd etmək yerinə düşər ki, AMEA-nın kitabxanası həm respublikamızda, həm də SSRİ miqyasında ilk dəfə olaraq akademiya kitabxana şəbəkəsini mərkəzləşdirməyə nail olmuşdu.

Mərkəzləşmə nəticəsində Mərkəzi Kitabxananın maliyyə vəziyyətinin sabitləşməsi kitabxana fonduna xarici dillərdə ədəbiyyat alınmasını xeyli yaxşılaşdırmışdı. Hər il kitabxanaya daxil olan ədəbiyyatın 10-12 faizini xarici dillərdə kitablar təşkil edirdi. Bu isə öz növbəsində alimlərə dünya elminin və texnikasının son nailiyyətləri ilə tanış olmaq imkanı verirdi. 1970-80-ci illərdə kitabxananın fəaliyyətində baş verən müsbət keyfiyyətlərdən biri də beynəlxalq kitab mübadiləsinin təşkili olmuşdur. Kitabxana zəngin və məzmunlu mübadilə fondu yaratmağa müvəffəq olmuşdu ki, bu da respublikamızın kitab sərvətini dünyanın ən böyük kitabxanalarına göndərməyə imkan yaratmışdı. Belə ki, 70-ci illərin axırlarında kitabxana dünyanın 50 ölkəsinin 570 müəssisəsi ilə kitab mübadiləsi edirdi. Bunların arasında 28 elmlər akademiyası, 120 universitet və institut, 29 milli kitabxana, 209 kitab ticarəti müəssisəsi, 23 nəşriyyat və firma, 27 muzey və başqa müəssisələr var idi.

Mərkəzləşmə illərində akademiya kitabxanasında meydana gəlib formalaşan və demək olar ki, oxuculara kitabxana xidmətinin təşkilində mühüm mərhələ hesab edilən elmi-texniki informasiya xidmətinin yaradılması olmuşdur. Uzun illərdən bəri elmi-texniki informasiya xidmətini həyata keçirməyə çalışan kitabxana bu işin formalaşmasına 60-cı illərin axırlarından başlamış, ardıcıl olaraq iş aparmış, təcrübə qoymuş, nəhayət, 1973-cü ildə oxuculara informasiya xidməti işini müvəffəqiyyətlə həyata keçirən elmi-texniki informasiya xidmətini yaratmağa müvəffəq olmuşdur. Mərkəzi Elmi Kitabxana 1976-cı ildən respublikada ilk dəfə olaraq bu sistemi qismən də olsa avtomatlaşdırmağa başladı. 1980-1984-cü illərdə akademiya kitabxanası bu sistem vasitəsi ilə 300 elmi problem üzrə 289 elmi-tədqiqat laboratoriyasının 3000-ə qədər elmi işçisini müntəzəm olaraq cari informasiya ilə təmin etmişdir. Bu dövrdə kitabxana respublikamızda elmi kitabların təbliğində xüsusi mövqeyə malik olmuş, elmi ədəbiyyatı təbliğ etmək üçün kitabxananın tarixində ilk sərgi salonu təşkil edilmişdi.

Göstərilən illərdə Azərbaycan Elmlər Akademiyasının həyatında baş verən böyük inkişaf və tərəqqi kitabxananın işinə də müsbət təsir etmiş, kitabxananın maddi-texniki bazası möhkəmlənmiş, yeni bina və avadanlıqla təchiz edilmişdi. Bu dövrü kitabxananın həyatında yeni inkişaf mərhələsi hesab etmək olar. Kitabxana məhz bu illərdə yeni ədəbiyyatla fasiləsiz və mükəmməl təmin olunmaqla, müasir avadanlıqdan istifadə edərək kitab fondlarını yenidən qurmuş, minlərlə kitab qapalı otaqlardan çıxarılaraq kitabxana rəflərində işlək hala gətirilmişdi. Kitabxananın məlumat-biblioqrafiya aparatı, kataloq-kartotekaları yenidən təşkil və redaktə edilərək müasir tələbatlara cavab verə bilən operativ vasitəyə çevrilmişdi. Akademiyanın kitabxana sistemində elmi işçilərə və mütəxəssislərə xidmət etmək üçün 27 növ yardımçı kataloq və kartoteka yaradılmışdı.

Həmçinin 1974-cü ildə kitabxananın tarixində ilk dəfə olaraq kitabxanaşünaslıq və biblioqrafiya elmi-tədqiqat şöbəsi yaradılmış, kitabxanaya aspirant hazırlamağa icazə verilmişdi. Kitabxanada fəaliyyət göstərən bu şöbə kitabxanaşünaslığın və biblioqrafiyanın müasir problemlərinə dair tədqiqat aparmış, elmi məcmuələr nəşr etmiş, biblioqrafik göstəricilərin “”Elm və mədəniyyət xadimləri ” seriyasını yaratmışdı.

MKS-nin nəşriyyat fəaliyyətinin genişlənməsi respublikamızda kitabxanaşünaslığın, biblioqrafiyaşünaslığın, kitabşünaslığın və informasiya işinin inkişafına müsbət təsir göstərirdi. Elmi-tədqiqat və biblioqrafiya şöbəsi ildə 20-30 çap vərəqi həcmində elmi əsərlər və biblioqrafik göstəricilər nəşr edirdi.

Bütün bu göstərdiklərimiz bir daha təsdiq edir ki, 70-80-ci illərdə AMEA-nın Mərkəzləşmiş Kitabxana Sistemi kitabxana fondunun təşkili, komplektləşdirilməsi, qorunub saxlanılması, xidmət işinin səmərəliliyinin yaxşılaşdırılması, kitabxananın maddi-texniki bazasının

möhkəmləndirilməsi, elmi-tədqiqat və metodik işin inkişaf etdirilməsi sahəsində çox böyük uğurlar əldə etmişdir.

Bu dövrdə kitabxana işi sahəsində uğurların əldə edilməsi bilavasitə görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən istiqamətləndirilən dövlət siyasətinin nəticəsi idi.

Ümumiyyətlə, H.Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu 1969-1982-ci illərdə respublikada 1155 kitabxana tikilib xalqın istifadəsinə verilmişdi. Həmin illərdə kitabxana işinin inkişaf səviyyəsi dəfələrlə yüksək idi. Bu dövrdə 38,8 milyon nüsxə kitab fonduna malik 4245 kütləvi kitabxana fəaliyyət göstərirdi. 15 il müddətində kütləvi kitabxanaların sayı 1322 ədəd artmış, kitab fondu isə 13,4 milyon nüsxə çoxalmışdı. 1981-ci ildə respublikamızda bütün növdən (kütləvi, elmi, təhsil, texniki və s.) olan kitabxanaların sayı 8905 ədəd, kitab fondu isə 29,8 milyon nüsxə olmuşdur.

Prof. A.Xələfov həmçinin qeyd edir ki, "Respublikamız bu göstəricilərə görə də SSRİ respublikaları içərisində əvvəlinci yerlərdən birinə yüksəlmişdi. Bu göstəricilərin arxasında böyük yaradıcı əmək, iqtisadi-mədəni inkişaf, ciddi təşkilatçılıq işi, Azərbaycan mədəniyyətinə, kitab və kitabxana işinə xalq qayğısı, xalqın böyük oğlu H.Əliyevin iradəsi dayanmışdı. Kitabxana işi sahəsində əldə edilmiş ciddi nailiyyətlərin, böyük kəmiyyət və keyfiyyət göstəricilərinin, əhaliyə kitabxana xidmətinin təşkilində baş verən proseslərin və qazanılmış nailiyyətlərin elmi təhlili məhz bu dövrün (1970-1985) respublikamızda kitabxana işinin tarixində yeni mərhələ – Heydər Əliyev mərhələsi olduğunu söyləməyə imkan verir." (4, s.50-51).

Müstəqillik illərində ikinci dəfə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi kitabxana işi sferasında da inqilabi çevriliş etdi.

Bu illərdə Heydər Əliyev kitabxanaların ləğv olunmasının qarşısını aldı, onların qorunub saxlanılmasını təmin etdi. 1993-1999-cu illər Azərbaycanda kitabxana işinin tarixinə kitabxanaların qorunub saxlanılması uğrunda mübarizə dövrü hesab olunur. Kitabxanaların özəlləşdirilməsi, onların binalarının başqa məqsədlər üçün istifadə olunması Heydər Əliyevin fərmanı ilə qadağan edildi. Ölkədə mövcud kitabxana şəbəkələri qorunub saxlanıldı. Kitabxana işi tarixində həmin dövr 1993-1999-cu illəri əhatə edir. Məhz bu illərdə Azərbaycan dövləti keçid dövrünün hər cür çətinliklərinə baxmayaraq, bir sıra ictimai təşkilatların kitabxana şəbəkələri istisna olmaqla, dövlət kitabxana şəbəkələrini qorumağa müvəffəq oldu" (4, s.83).

Kitabxanaya yüksək qiymət verən Heydər Əliyev demişdir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyət, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir. Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram. Kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm (7, s.397).

Ulu öndərin kitabxanalara qayğısını, respublikanın bütövlükdə kitabxana sisteminin və şəbəkələrinin qorunub saxlanılması sahəsində həyata keçirdiyi tədbirlər diqqəti cəlb edir. Ölkəmizdə Ulu Öndərin hakimiyyəti dövründə "1 milli kitabxana, 3 respublika əhəmiyyətli sahəvi kitabxana, 74 şəhər və mərkəzi rayon kitabxanası, 3744 kənd kitabxanası fəaliyyət göstərmişdir. Orta hesabla əhalinin hər 700 nəfərinə bir stasionar kitabxana düşürdü. Kitabxanaların fondunda 35,9 milyon nüsxə kitab (sənəd) toplanılmışdı. Bir il ərzində kitabxanalara 121,76 nüsxə kitab, 22 min nüsxə audiovizual sənəd daxil olmuşdur. Bu ədəbiyyatın 101,18 nüsxəsini Azərbaycan dilində ədəbiyyat təşkil etmişdir" (4, s.92).

Beləliklə, Heydər Əliyevin dövlət kitabxana siyasəti respublika miqyasında aparılan kitabxana işinin əsasını təşkil edir. Kitabxana işinə dair dövlət siyasətinin formalaşdırılmasında Azərbaycan Respublikasının Konstitusiyası əsas qanunvericilik bazası rolunu oynayır. Ölkə vətəndaşlarının mədəni sərvətlərdən istifadə etmək hüquqları Konstitusiyanın 40-cı və 50-ci maddələrində şərh olunmuş, kitabxanaların hüquqları təsbit edilmiş, onların qarşısında insanlara kitabxana və informasiya xidmətinin yüksək səviyyədə, maneəsiz, qüsursuz və vaxtında təşkil edilməsi vəzifəsi qoyulmuşdur.

1996-cı ildə Azərbaycanda "Kitabxana işi haqqında" qərar, 1998-ci ildə isə ölkəmizin tarixində ilk dəfə olaraq "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul edildi. 29 dekabr 1998-ci ildə ölkə prezidenti Heydər Əliyev tərəfindən imzalanmış və həmin gündən qüvvəyə minmiş qanun, həmçinin "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə 12 mart 1999-cu il tarixli fərman qanunun ayrı-ayrı maddələrinin yerinə yetirilməsinə cavabdeh olan dövlət orqanlarını müəyyənləşdirmişdir.

"Kitabxana işi haqqında" Qanun dövlət siyasətinin əsasıdır. Bu qanun Azərbaycan Respublikasında müasir dövrdə kitabxana işi üzrə dövlət siyasətini əks etdirir. Qanunda deyilir: "Bu Qanun Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanaların maliyyələşdirmə mənbələrini, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir" (8, s.245).

Bu gün məhz həmin Qanuna əsaslanan respublika əhəmiyyətli kitabxanalarımız öz oxucularına kitabxana xidmətini təşkil etməklə yanaşı, dövlətin kitabxana siyasətinin hazırlanması və həyata keçirilməsində, kitabxanaların metodik təminatında yaxından iştirak edirlər.

Ulu öndər Heydər Əliyevin siyasi kursunun və mütərəqqi ideologiyasının layiqli davamçısı olaraq Azərbaycan Respublikasının prezidenti İlham Əliyev bütün sahələrdə olduğu kimi, ölkəmizdə kitab nəşri işinə və kitabxanaların inkişafına böyük töhfələr verməkdədir. Buna nümunə olaraq onun 12 yanvar 2004-cü ildə imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamını, eləcə də 6 oktyabr 2008-ci ildə imzaladığı "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" kimi sənədləri göstərmək olar.

Həmçinin, Prezident İlham Əliyevin AMEA Mərkəzi Elmi Kitabxanasına da xüsusi diqqət və qayğısı vardır. Belə ki, İlham Əliyev 29 aprel 2011-ci il tarixli sərəncamla Mərkəzi Elmi Kitabxanaya yeni və müasir tipli binanın tikintisi üçün Prezidentin Ehtiyat Fondundan 2 milyon manat vəsait ayırmış, həmin ilin noyabrında yeni binanın təməlqoyma mərasimində iştirak etmişdir. 2011-2013- cü illərdə Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə MEK binasının tikintisinə 34 milyon manat vəsait ayrılmışdır.

Ümumi sahəsi 28 min kvadrat metr olan yeni binanın açılışında Prezident İlham Əliyev iştirak etmiş, ona yeni binada fəaliyyətə başlayan Mərkəzi Elmi Kitabxananın ilk oxucu bileti təqdim olunmuşdur (9).

Bütün bunlar onu göstərir ki, bu gün Azərbaycanda kitab nəşri və kitabxanaçılıq fəaliyyəti önəmli və tarixi ənənələrə malikdir. Məhz bu baxımdan Ulu öndər Heydər Əliyevin əməli işlərinin məntiqi nəticəsi olaraq prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi siyasət öz bəhrələrini verəcək, bu günün və gələcəyin əsasını təşkil edəcəkdir.

Ədəbiyyat

1. Azərbaycan SSR-in 1980-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1978-ci il büdcəsinin yerinə yetirilməsi haqqında. // "Kommunist" qəzeti. 1979. 21 dekabr. №290 (17329). s. 1.

2. Azərbaycan SSR-in 1981-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1979-cu il büdcəsinin yerinə yetirilməsi haqqında //"Kommunist" qəzeti. 1980. 13 noyabr. №261 (17597).

3. Baranovski B. Historia Azerbejdzani. Wroslaw, Zaklad Narodowy im Ossolinskich Wydawnietwo, 1987. p. 236.

4. H.Ə.Əliyevin Moskvada təhsil alan Azərbaycan tələbələri və aspirantları ilə görüşündəki nitqi // «Kommunist» qəzeti. 1979. 5 dekabr. №277 (17316). s.1

5. Heydər Əliyev. Müstəqillik yollarında. Bakı: Azərbaycan, 1997. III cild. s.397.

6. Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006. 312 s.

7. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu // Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006. s. 245.

8. Qasımlı M.C. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2006. 608 s.
9. www.azertag.az

М.Алиев, Ш.Тахиркызы

Роль Гейдара Алиева в развитии библиотечной работы

Резюме

В статье анализируются серьезные достижения в области библиотечной работы за годы правления общенационального лидера Гейдара Алиева, большие количественные и качественные показатели, успехи в библиотечном строительстве, нормативно-правовые акты о библиотечной работе. В статье также обсуждается достойный продолжатель политического курса Гейдара Алиева и прогрессивной идеологии. Исследовано внимание и забота Президента Ильхама Алиева о книжной и библиотечной работе.

M.Aliyev, Sh.Tahirgizi

The role of Heydar Aliyev in the development of library work

Summary

The article analyzes the serious achievements in the field of library work during the years of national leader Heydar Aliyev's rule, great quantitative and qualitative indicators, successes in library construction, legal and normative acts on library work. The article also discusses the worthy successor of Heydar Aliyev's political course and progressive ideology. The attention and care of President Ilham Aliyev for books and library work was investigated.

Rəyçi: ped.f.d., dos. K.Aslan

Redaksiyaya daxil olub: 24.05.2021

A.Ə.MEHDİYEVA
tarix üzrə fəlsəfə doktoru, dosent
e-mail: ayten-69@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

XAÇ YÜRÜŞLƏRİ MÜASİR TÜRK TARİXŞÜNASLIĞINDA

Açar sözlər: *xaç yürüşləri, türk, tarixşünaslıq, Avropa dövlətləri, Yaxın Şərq, xaçlılar və müsəlmanlar.*
Ключевые слова: *крестовые походы, тюрки, историография, европейские государства, Ближний Восток, крестоносцы и мусульмане.*
Key words: *Crusades, Turkic, historiography, European states, Near East, crusaders and Moslems.*

Xaç yürüşləri Orta əsrlər tarixində mühüm əhəmiyyət daşımışdır. Bu yürüşlər feodalizm cəmiyyətinin doğurduğu bir çox problemin həllinə yönəlmiş və dini şüarlar altında həyata keçirilmişdir. Xudavəndənin qəbrinin xilas edilməsi, din qardaşlarının azad olunması və Müqəddəs torpaqların geri qaytarılması şüarları altında aparılan hərbi əməliyyatların real məqsədinin qarət, torpaqların işğalı və mövcud problemlərin Şərq ölkələrinin hesabına həlli planları məhz bu yürüşlər zamanı üzə çıxmışdır. Bu baxımdan xaç yürüşləri tarixinin araşdırılması müasir tarixşünaslıqda böyük maraq doğurur. Xüsusilə müasir Türkiyə Respublikasında bu məsələnin araşdırılması problemin öyrənilməsinə yönələn çoxsayda tədqiqatın ortaya çıxmasına şərait yaratmışdır.

XX əsrin 70 – 80-ci illərindən başlayaraq Türkiyə tarixşünaslığında Işın Demirkent xaç yürüşləri ilə bağlı tədqiqatlar aparmışdır. İstanbul Universiteti Ədəbiyyat fakültəsinin Tarix bölümünü bitirən bu alim xaç yürüşlərini müxtəlif aspektlərdən araşdırmışdır. Onun "Urfa Haçlı Kontluğu Tarihi" adlı əsəri əvvəlcə bir cilddə (1987) (5) nəşr edilmişdir. Sonradan bu mövzunun tədqiqini davam etdirərək müəllif həmin əsəri 2 cilddə – "Urfa Haçlı Kontluğu Tarihi (1098 – 1118)" (1990) və "Urfa Haçlı Kontluğu Tarihi (1118 – 1146)" (1994) çap edilməsinə nail olmuşdur. Müəllif iki cildlik əsərində xaç yürüşləri zamanı yaradılan xaçlı dövlətlər, xüsusilə xaçlıların qurduqları ilk dövlət olan Edessa qraflığının tarixini hərtərəfli araşdırmışdır. Işın Demirkent ərazisi çox da böyük olmayan, Edessa (Urfa), Tell-Bəşir və ətraf əraziləri əhatə edən bu qraflığın tarixinin öyrənilməsini genişləndirərək, mövzunu "Türkiye Selcuklu Hükümdarı Sultan I. Kılıç Arslan" adlı digər əsərində davam etdirmişdir (4). Işın Demirkent 1997-ci ildə İstanbulda nəşr etdirdiyi "Haçlı Seferleri" adlı əsərini tamamilə xaç yürüşlərinə həsr etmişdir (3). Böyük tarixi irsin yaradıcısı olan Işın və onun həyat yoldaşı Nezih Demirkentin şərəfinə "Dünya qazetesi" 2012-ci ildən etibarən "Demirkent Ödülleri" verməyə başlamışdır (2).

Prof. Işın Demirkentin zəngin irsinin öyrənilməsi müasir Türkiyə tarixşünaslığında davam edir. Belə ki, 2008-ci ildə İstanbulda nəşr edilən və müəllifi Abdülkerim Özaydın olan "Prof. Dr. Işın Demirkent anısına = İn memory of Prof. Dr. Ishın Demirkent" (9) adlı əsərdə Işın Demirkentin yaradıcılığı təhlil edilmişdir. Bu isə müəllifin zəngin irsinin müasir dövrdə də aktual olduğunu təsdiq edir. Kitab 2008-ci ildə türk, 2014-cü ildə isə türk və ingilis dillərində nəşr olunmuşdur.

Abdülkerim Özaydın xaç yürüşlərinin öyrənilməsini özünün "I Haçlı Seferinin Başarıya Ulaşmasında Böyük Selcuklular'ın İçinde Bulunduğu Siyasi ve İçtimai Şartların Rölü" adlı əsərində davam etdirmişdir (10). Özaydının fikrincə, I xaç yürüşünün uğurla nəticələnməsinin bəzi səbəbləri olmuşdur: 1. Böyük Səlcuq imperatorluğunda mərkəzi hakimiyyətin zəifləməsi. Sultan Məlikşahdan sonra (1092) onun oğulları və hakimiyyətə yaxın qüvvələr arasında taxt uğrunda mübarizə sərtləşmişdir. Qədim türklərin hakimiyyətin formalaşması qaydalarını

mənimsəmələrinə baxmayaraq, səlcuqlarda taxta çıxmaq məsələsində konkret qayda yox idi. Taxt uğrunda mübarizə mərkəzi hakimiyyəti zəiflədərək xaçlılara qarşı müqavimət göstərməyə imkan verməmişdir; 2. Həsən Sabbahın başçılığı ilə batinilərin fəaliyyəti və onların dövlətə vurduğu zərər nəticəsində mərkəzi hakimiyyətin zəifləməsi. Həsən Sabbah mütəşəkkil təşkilat quraraq dövlətə ciddi zərər vurmuş və xaçlılarla mübarizəni əngəlləmişdir; 3. Əmirlərin bölücü siyasəti nəticəsində dövlətin zəifləməsi. Böyük iqta sahibi olan əmirlər həm sultan, həm də öz aralarında mücadiləyə girir, aztorpaqlı olduqda hökmdara qarşı üsyan qaldırırdılar; 4. Yüksək dövlət məmurlarının yeritdikləri siyasət. Bu barədə Nizamülmülk "Siyasətnamə" əsərində ətraflı məlumat vermişdir. Onun batinilər tərəfindən qətlə yetirilməsindən sonra yalnız öz mənafeyini düşünən vəzirlərin iş başına gəlməsi dövlətin nüfuzuna kölgə salmış və xaçlı işğallarına qarşı lazımi tədbirlərin görülməsinə mane olmuşdur; 5. Müxtəlif tayfalarının törətdiyi zorakılıq, qarət və talan uğrunda aparılan mübarizə, müxtəlif əmirlər və macərapərəstlərə tərəf meyl edilməsi və siyasi görüşlərin tez-tez dəyişməsi gərginliyə səbəb olmuşdur. Dövlət xaçlılarla mübarizə aparmaq əvəzinə, öz qüvvəsini bu cür hallara qarşı yönəltməyə məcbur idi; 6. Xatunlar və digər saray qadınlarının apardıqları intriqalar. Mərkəzi hakimiyyətin zəifləməsində onların siyasi fəaliyyəti mərkəzi hakimiyyəti gücdən salmışdır. Bu baxımdan Məlikşahın xanımı Terken xatunun fəaliyyəti diqqəti cəlb edir. O, 4-5 yaşında olan oğlu Mahmudu hakimiyyətə gətirmək məqsədilə xəlifə, üləma və komandanlara təzyiq etmək üçün hər vasitəyə əl atmış, sultanın böyük oğlu Berkyaruqa qarşı ciddi mübarizə aparmışdır. Bütün bunlar dövlətin nüfuzunun sarsılmasına səbəb olmuşdur; 7. Məzhəb çatışmaları. İstər şiə və sünnilər, istərsə də sünni məzhəbi daxilində gedən çatışmalar islam toplumunun xaçlılara qarşı birgə çıxış etməsinə imkan verməmişdir (11).

Digər türk tarixçisi Mehmet Yılmaz 2016-cı ildə nəşr etdirdiyi "IV Haçlı Seferinin Balkanların Etnik Yapısına Etkileri" adlı əsərində xaç yürüşlərinin əsil mahiyyətini açıqlayan IV Xaç yürüşünə diqqəti cəlb etmişdir. Bu yürüş ərəfəsində Bizans imperiyasının Trabzon, İznik və Epir olmaqla üç hissəyə bölünməsini əsas götürən M.Yılmaz Balkanlar üzərində də nəzarətin itirildiyini bildirmişdir. 1204-cü ildə baş verən IV Xaç yürüşündən sonra Venesiya və Genuyanın himayəsi altına düşən Bizans artıq donanma və ordu yaratmaq iqtidarında olmamışdır. Bu Balkanlarda bolqar, serb və bosniyalılar faktiki olaraq müstəqil idilər. Epirdə yaşayan albanlar da oxşar vəziyyətdə olmuşlar. Bu səbəbdən qeyd olunan xaç yürüşündən sonra Bizansın əlində, əsasən, rum əhalisinin yaşadığı ərazilər qalmışdır. Bizans imperiyası sonradan bərpa edilsə də, mövcud olduğu müddət ərzində onun mövqeyi daha da zəifləmişdir. Bu səbəbdən osmanlıların yarımadaya gəlişi asanlaşmışdır. Türklərin gəlişi ilə Balkanlarda etnik vəziyyət daha da kəskinləşmişdir. Dinlərini dəyişməyə məcbur edilməyən bu etnik qruplar Osmanlı imperiyasının tərkibində XX əsrin əvvəllərinə qədər öz mövcudluğunu saxlamışdır (8).

Xaç yürüşləri tarixinə həsr olunmuş digər əsər "Çıkarların Gölgesində Haçlı Seferleri"dir. Müəllifi tədqiqatçı Aydın Usta olan bu əsər Yeditəpə Yayınevində nəşr olunmuşdur. Avropada dini təşəbbüs kimi başlayan, siyasi, sosial və iqtisadi səbəblərlə şərtlənən Xaç yürüşləri dünya tarixinin ən çox davam edən hadisələrindən biri olmuşdur. "Yeni qonşular"ın məqsədini anlamayan müsəlmanlar onları siyasi rəqibləri və işğalçılar kimi qiymətləndirmişlər. Əsərin müəllifi Aydın Ustanın sözlərinə görə, bundan istifadə edən xaçlılar Qüdsü (Yerusəlim) tutmuş və Yaxın Şərqdə yerləşməyə başlamışlar. Əvvəlki coşqu və dini həyəcanlar keçdikdən sonra, mövcud reallıqlar, əslində, bir-birindən çox da fərqli olmayan güc və iqtidar adına yaradılan siyasi ittifaqlarla bağlı olmuşdur. Müsəlmanlar tərəfindən Nurəddin, Mahmud b. Zəngi, Saləddin Eyyubi və Məmluklar, xaçlılar tərəfindən IX Lüdoviq və b. istisna olmaqla, 200 il ərzində bu mücadiləyə yön verən, siyasi və iqtisadi maraqlara dayanan qarşılıqlı əlaqələr olmuşdur. Müəllif Xaç yürüşləri zamanı baş verənlərlə günümüzdə Yaxın Şərqdə olanlar arasında ciddi fərqin olmaması qənaətinə gəlmişdir (13).

Xaç yürüşləri ilə bağlı daha bir əsər Cüneyt Kanat və Devrim Burçakın müəllifi olduqları və 2018-ci ildə nəşr olunan "Sorularla Haçlı Seferleri"dir. Adı çəkilən əsərdə Şərq

və Qərb dünyasının xaç yürüşlərindən əvvəl də dəfələrlə toqquşması göstərilmişdir. Lakin bu dəfə Qərb xristianları, Şərq isə müsəlmanları təmsil etmişdir. Belə ki, qarşıdurmanın "inanc" üstündə baş verməsi hər kəsin diqqətinə çatdırıldıqda tərəddüd yaranır: Verilən bu məlumatlar, əslində, reallığı əks etdirirmi? Bu və ya digər suallarla üzləşən müəlliflər eyni zamanda dövrümüzə qədər Qərb dünyasının təşkil etdiyi xaç yürüşlərilə bağlı əsərlərin əksəriyyətində hansı səbəbdən "inanc" məsələsinin ön plana çəkilməsinə də cavab tapmağa çalışmışlar. Qərb tədqiqatçıları, tarixçilər bu məsələni mümkün qədər ön planda saxlamağa çalışmış və bununla hansı reallığı gizlətmək istəmişlər? Digər tərəfdən, türk tədqiqatçıları xaç yürüşlərinin dövrümüzə qədər uzanması və ondan arqument kimi istifadə olunması səbəblərinin tapılmasına diqqət yetirmişlər. Müasir dövrdə Yaxın Şərqdə baş verən savaşlar və bu səbəbdən məhv olan insanlar, yaranan xaos və s.-nin Orta əsrlər xaç yürüşləri ilə əlaqəsinin olması fikrinin aktuallığı ortaya çıxmışdır. Türk tədqiqatçıları Anadolunun türklər tərəfindən fəthinin bu yürüşlər ilə bağlılığını tapmağa çalışmışlar. C.Kanat və D.Burçak öz tədqiqat əsərində xaç yürüşlərinin mahiyyətini açmış, yürüşlər ərəfəsi və gedişatında Şərqdə iqtisadi vəziyyəti xarakterizə etmiş, 8 xaç yürüşünün hər birinin tarixini ayrılıqda vermiş və Yaxın Şərqdə xaçlıların varlığının sona yetməsinin səbəblərini göstərmişlər. Müəlliflər öyrənilən mənbə və materiallar əsasında fərqli suallar qoymaqdan çəkinməmişlər. Bu baxımdan xaç yürüşləri zamanı müsəlmanlar və xaçlılar arasında ittifaqlar yaranması, yürüşlərə rəhbərlik edən xaçlı başçılar arasında ziddiyyət və qarşıdurmaların baş verməsi, tərəflərin istifadə etdikləri silahlar, regionda yaşayan xristianların tutduqları mövqe, türklərin xaç yürüşlərinə münasibəti, bu yürüşlərdə xaçlıların nümayiş etdirdikləri əxlaqi dəyərlər, müsəlmanların xaç yürüşlərinə, əsasən, qarətçi səfərlər kimi baxması, haşhaşlar (assasinlər), İtaliya şəhər-dövlətlərinin mövqeyi, xaçlı dövlət və ordenlərin hansı məqsədlə yaranması, xaçlılar və müsəlmanlar arasında mədəni təsirin olması və s. problemlər də işıqlandırılmışdır. Tədqiqatlarda ümumiləşdirmələr də aparılmışdır (7).

Türkiyə tarixşünaslığında Haçlı Seferleri kimi tanınan xaç yürüşləri tarixinin öyrənilməsinə marağın artması mövzu ilə bağlı çap olunan əsərlərin sayının çoxluğu ilə izah oluna bilər. Bu baxımdan Kalkedon Yayınları tərəfindən 2011-ci ildə buraxılan "Haçlı Seferleri" kitabı diqqəti cəlb edir. Əsərin müəllifi Mike Painedir. Kitab türk dilinə Cumhur Atay tərəfindən tərcümə edilmişdir (12). Kitabda İslam dünyası və Şərqdə vəziyyət təhlil edilmiş, növbə ilə xaç yürüşlərinin hər biri barədə ətraflı məlumat verilmişdir. Müəllif həm I Xaç yürüşündən sonra yaradılan "Doğudakı Latın krallıqları", həm də IV Xaç yürüşü nəticəsində formalaşan Latın krallığı, Cocuk Haçlı Seferi, eyni zamanda xaç yürüşləri, xüsusilə I, III və s. "Geri planları"na diqqət yetirmişdir. O, 7 xaç yürüşünün təşkil edildiyi, Akranın süqutu və "Deniz Ötesinin yıkışı" məsələləri, bundan sonra regionda formalaşan vəziyyət haqqında ətraflı məlumat vermişdir. Əsərdə xüsusilə 1291-ci ildə Akranın süqutu ətraflı təsvir olunmuş, qalanın alınması üçün minlərlə döyüşçünün buraya cəlb olunması, Məmlüklərin qala müdafiəçilərinin müqavimətini qıraraq Akraya daxil olmaları və xaçlıların necə qaçdıqları verilmişdir. Xaç yürüşləri Avropanın inkişafında önəmli dövrü göstərmiş və Avropa dövlətlərinin digər ölkələrin daxili işlərinə qlobal miqyasda müdaxiləsi istiqamətində atılan ilk addımlar olmuşdur. Avropanın müxtəlif ölkələri məhz bu yürüşlərdən sonra zəngin və güclü imperatorluq və dövlətlərə çevrilmişdir. Xaçlılar "Tanrının işini görən" kimi hərəkət etmişlər. İqtisadi amilləri əsas götürən tədqiqatçılar bu "əməllər"in arxasında daha "dərin maraqlar"ın olmasını ön plana çəkmişlər. Müəllif xaç yürüşlərinin Yaxın Şərq tarixində qoyduğu əsaslara dayanaraq müasir dövrdə baş verən hadisələrin analoqunu aparmışdır (12, s.12-13).

"Dünya Savaş Tarihi (1097-1444)" mövzu ilə bağlı çoxcildlik əsərdir. Əsərin V cildi məhz xaç yürüşləri tarixinə həsr olunmuşdur. Burada papa II Urban tərəfindən Avropa dövlətlərinə Yerusəlimi ələ keçirmək və İslamın yayılmasının qarşısını almaq çağırışı edildikdə, yüzilliklər ərzində davam edəcək və siyasi-iqtisadi nəticələr verəcək hadisələr zəncirinin əsasının qoyulması göstərilmişdir. Səlcuqlar, Eyyubilər və Osmanlılara qarşı təşkil olunan xaç yürüşləri – Avropa və Yaxın Şərqdə avropalıların başladıqları müharibələr əsərdə tədqiqat ob-

yektinə çevrilmişdir. Burada ingilis-fransız süvarilərinin Dorile (Eskişehir) (1097) döyüşündən başlayaraq Sultan II Muradın Osmanlı ordusunun Avropa dövlətlərinin birləşmiş qüvvələrini əzdiyi Varna döyüşü (1444) ilə sona çatan vaxt kəsimində baş verən xaç yürüşləri təhlil edilmişdir. Əsərdə I Xaç yürüşü Antioxiya (1098), Qüds (1099) və Harran (1104) müharibələri ilə təmsil olunduğu halda, xaçlı və müsəlman dövlətləri arasında gedən hərbi əməliyyatlara Sarmeda (1119), Mongisard (1177) və Saləddin Eyyubinin xaçlı ordusunu darmadağın etdiyi Hittin (1187) döyüşləri xüsusilə vurğulanmışdır. Katarlara qarşı törədilən Beziers qətliamı (1209) və IX Lüdoviqin topladığı xaçlı ordusunun Mənsurədə "hezimete uğraması" (1250) kimi az öyrənilən xaç yürüşlərinin "renkli öyküleri" də burada öz yerini almışdır. Müəlliflər hadisələri daha geniş müstəvidə öyrənmiş və Avropada aparılan digər xaç yürüşlərini tədqiqata cəlb edərək 400 illik dinlər savaşını tamamlamışlar. Müharibələr, dövrün tanınmış şəxsiyyətləri və döyüş taktikalarını əyani şəkildə öyrənmək üçün 200-dən artıq xəritə, rəsm və fotoşəkillə birlikdə Səlcuqlar, Eyyubilər və Osmanlılara qarşı təşkil olunan xaç yürüşləri tarixinə həsr olunmuş bu kitab yalnız mövzu ilə məşğul olan alimlərə deyil, həm də Orta əsrlər tarixinin müxtəlif problemlərini öyrənən tədqiqatçılar üçün nəzərdə tutulmuşdur (6).

Xaç yürüşləri elan olunduqdan sonra türklər qərblilərlə təmasda olmuşlar. Bu təmaslar yalnız hərbi əməliyyatlar zamanı olmamışdır. Xaçı qəbul edərək savaşmaya gələn qərblilər və Şərqdə yerləşən latınlar türklərlə diplomatik, iqtisadi, sosial və mədəni əlaqələr yaratmışlar. Bu reallığın qəbul edilməsi və xaçlıları ilk qarşılayanların türklər olmasına rəğmən tarixçilər bəzən qeyd olunan problemə laqeyd münasibət bəsləyirlər. Qərb tarixşünaslığında xaç yürüşlərinə xüsusi önəm verilmişdir. Yüzlərlə qərbli din xadimi bu hadisələrə kilsə və xristianlıq adına qürur mənbəyi kimi yanaşmışdır. Müasir dövrdə xaç yürüşlərinin dözümsüzlük və ya qaranlıq dövr kimi təqdim olunması ilə yanaşı, onları Fransanın Şərqdəki mədəni təsirinin "şəfəq"i kimi qiymətləndirən müəlliflər də mövcuddur. Bu baxımdan tanınmış fransız tədqiqatçısı Claude Cahenin "Haçlı Seferleri Zamanında Doğu Ve Batı" əsəri böyük maraq doğurur. Əsər məhdud xarakter daşımamış, əksinə I Xaç yürüşündən Moğol istilasına qədər olan dövrdə Ortadoğu mərkəz olmaqla Şərq dünyası və Qərb aləmi arasında mövcud olan siyasi, hərbi, sosial, iqtisadi, ticari, dini və s. əlaqələr və onların doğurduğu nəticələrə xüsusi diqqət yetirilmişdir (1).

Beləliklə, Xaç yürüşləri və onlarla bağlı olaraq Anadolu da daxil olmaqla Yaxın Şərqdə siyasi, iqtisadi və mədəni sahələrdə qarşıya çıxan bütün çətinliklərə (dil problemindən maddi imkansızlığa, qərəzli mövqedən başlamış elm sahəsində meydana çıxan çatışmazlıqlaradək) baxmayaraq, türk tarixşünaslığında bu məsələlər tədqiqata cəlb olunmuş, təhlil edilmiş və onlara qiymət verilmişdir. Müxtəlif dillərdə olan mənbələr türk dilinə çevrilmiş və mətnlər tərcümə edilərək türk tədqiqatçılarının ixtiyarına verilmişdir. Bu baxımdan hadisələrə fərqli istiqamətlərdən yanaşmaq və mövzu ilə əlaqədar yeni nəticələr çıxarmaq üçün əlverişli şərait yaranmışdır.

Ədəbiyyat

1. Cahen Claude. Haçlı Seferleri Zamanında Doğu Ve Batı. Çev. Mustafa Daş. Yeditepe Yayınevi, 1.Baskı, 2018, 480 s.

2. Demirkent Işın. Akademisyen. Tarihçi // https://www.biyografya.com /biyografi/ 14898 (Müraciət tarixi: 01.IV.2021)

3. Demirkent Işın. Haçlı Seferleri. İstanbul: Dünya 1997, 306 s. ISBN:9789757632542

4. Demirkent Işın. Türkiye Selcuklu Hükümdarı Sultan I. Kılıç Arslan. Ankara: TTK, 1996. – 80 s. ISBN: 9789751608208

5. Demirkent Işın. Urfa Haçlı Kontluğu Tarihi. Ankara: TTK, 1987, 170 s.

6. Devries Kelly, Dickie İain, Jestice Phyllis, Jorgensen Christer, Pankovic Michael, Dougherty Martin J. Dünya Savaş Tarihi (1097-1444). Haçlı Seferleri C.V. Timaş Yayınları, 1.Baskı, 2012, 224 s.

7. Kanat Cüneyt, Burçak Devrim. Sorularla Haçlı Seferleri. Yeditepe Yayınevi. 3.Baskı, 2018, 320 s.

8. Mehmet Yılmaz. IV.Haçlı Seferinin Balkanların Etnik Yapısına Etkileri. Selcuk University, 2016 // https://dergipark.org.tr/tr/pub/usad/issue/28214/ 299569 (Müraciət tarixi: 01.IV.2021)

9. Özaydın Abdülkerim. "Prof. Dr. Isın Demirkent anısına = İn memory of Prof. Dr. Ishın Demirkent". İstanbul: Dünya yayıncılık, 2008, 740 s. ISBN: 9789753043861

10. Özaydın Abdülkerim. I.Haçlı Seferinin Başarıya Ulaşmasında Büyük Selcuklular`ın İçinde Bulunduğu Siyasi və İçtimai Şartların Rölü. Selcuk University, 2016// https://dergipark.org.tr/tr/pub/usad/issue/0/299555 (Müraciət tarixi: 01.IV.2021)

11. Özaydın Abdülkerim. I.Haçlı Seferinin Başarıya Ulaşmasında Büyük Selcuklular`ın İçinde Bulunduğu Siyasi ve İctimai Şartların Rölü //http://tara.sdu.edu.tr/vufind/ Record/dergipark-article-299555 (Müraciət tarixi: 01.IV.2021)

12. Paine Mike. Haçlı Seferleri. 1.Baskı. Kalkedon Yayınları, 2011, 120 s.

13. Usta Aydın. Çıkarların Gölgesinde Haçlı Seferleri. Yeditepe Yayınevi, 2.Baskı, 2016, 328 s.

А.А.Мехтиева

Крестовые походы в современной турецкой историографии

Резюме

События, происходящие в настоящее время в мире, делают необходимым обращение в историческое прошлое. С этой точки зрения, в последние годы в турецкой историографии привлекает внимание наличие интереса к некоторым вопросам, в том числе крестовым походам, которые занимают важное место в истории средневековой Европы. Крестовые походы стали важным этапом существенных изменений в истории Европы и обусловили вступление европейских государств в глобальном масштабе в новый политический этап. Одновременно труды европейских историков были переведены на турецкий язык и представлены к рассмотрению исследователей. В этих произведениях была дана обширная информация о каждом из крестовых походов, отведено место многочисленным картам и пояснительным текстам.

A.A.Mehdiyeva

Crusades in modern Turkish historiography

Summary

The events occurred in the world in modern time make necessary to appeal to the ancient history. From this point of view, during last period the problems, also Crusades took the important part in the history of the Middle Ages of Europe attracts the attention in Turkish historiography. The Crusades became the important period of essential changes in the history of Europe and stipulated for entering of the European states in a new political stage in global scale. At the same time the works of European historians had been translated into the Turkish language and taken into consideration of the scholars. The large information had been given in these works of each of the Crusades, also various maps and explanatory texts had been done.

Rəyçi: prof. N.C.Mehdiyeva

Redaksiyaya daxil olub: 15.04.2021

S.R.MƏLİKOV
e-mail: seid.melikov.1996@gmail.com

Azərbaycan Turizm və Menecment Universiteti
(Bakı şəh., Koroğlu Rəhimov 822/23)

OLİMPİYA OYUNLARININ TARİXİ VƏ TURİZMƏ TƏSİRİ

Açar sözlər: *turizm, idman turizmi, olimpiya oyunları, ÜDM, gəlir.*
Ключевые слова: *туризм, спортивный туризм, олимпийские игры, ВВП, выгода.*
Key words: *tourism, sport tourism, olympic games, GDP, profit.*

Turizm insanların əyləncə, istirahət, təhsil və s. səbəblərə görə pul qazanmaq məqsədi güdmədən öz yaşayış yerlərini 24 saat müddətindən az olmayaraq tərk etmələridir. Son dövrlərdə Olimpiya oyunları insanların səyahət etmələrinə təsir göstərən amillərdən biridir. Hər 4 ildən bir keçirilən və idman dünyası üçün ən böyük hadisə sayılan bu yarışları izləmək üçün milyonlarla turist yarışların keçirildiyi məkana axın edir. Olimpiya oyunlarının tarixi çox qədimdir. Bu yarışlar ilk dəfə qədim Yunanıstanda e.ə. 776-cı ildə baş tutmuşdur (5, s.3). Əldə edilən ən qədim yazılı mənbələr yarışların məhz bu tarixdə başladığını göstərdi. Yarışlar Yunanıstanın "Olimpia" bölgəsində başlanmış və daha sonra bu bölgənin şərəfinə Olimpiya oyunları adlandırılmışdır. Oyunlar qədim Yunanıstan tanrısı "Zevs"in şərəfinə təşkil olunurdu. Yarışlar Roma imperiyasının Yunanıstanın işğal etdiyi dövrə qədər, təxminən 1300 il boyunca təşkil olunmuşdur. İlk Olimpiya oyunlarının proqramına güləş, atletika, disk atma, at yarışları kimi müxtəlif idman növləri daxil edilmişdir. Yarışların təşkil olunduğu dövrdə yeni yollar salınmış, idman kompleksləri tikilmiş və bununla da ilk turizm infrastrukturları yaradılmışdır. Həmin dövrlərdə müxtəlif regionlardan (indiki Türkiyə, Misir, Şimali Afrika, Rusiya ərazilərindən) turistlər yarışları izləmək üçün Yunanıstana gəlirdi və bu da özlüyündə qədim Yunanıstan iqtisadiyyatının inkişafına zəmin yaradırdı. Olimpiya oyunları 394-cü ildə Roma imperatoru Teodosis tərəfindən ləğv olunmuşdur. Romalılar Yunanıstanı işğal etdikdən sonra şəhərlərdə tikilmiş olan idman kompleksləri amfiteatrlara çevrilmişdir (5, s.4).

Müasir olimpiya oyunları isə ilk dəfə 1896-cı ildə Afina şəhərində təşkil olunmuşdur. Olimpiya oyunları yay və qış olimpiya oyunları olmaqla iki yerə ayrılır. Hazırki dövrə qədər 28 Yay Olimpiya Oyunları baş tutmuşdur. Yay Olimpiya Oyunlarının ən çox keçirildiyi ölkə ABŞ-dır. ABŞ 4 dəfə bu yarışlara ev sahibliyi edib (1904-St.Louis, 1932-Los-Angeles, 1984-Los-Angeles, 1996-Atlanta). Bu günə qədər yalnız 5 ölkə keçirilən bütün Yay Olimpiya Oyunlarında iştirak etmişdir. Bunlar Avstraliya, Fransa, Böyük Britaniya, Yunanıstan və İsveçrədir. Oyunların medal sıralamasına isə ABŞ başçılıq edir. Onlar bu yarışlarda 2523 medal qazanıblar (1022 qızıl, 795 gümüş və 706 bürünc). Bu günə qədər keçirilən Yay Olimpiya Oyunlarının siyahısı isə belədir: 1896 Afina, 1900 Paris, 1904 St.Louis, 1908 London, 1912 Stokholm, 1920 Anvers, 1924 Paris, 1928 Amsterdam, 1932 Los Anceles, 1936 Berlin, 1948 London, 1952 Helsinki, 1956 Melbrun, 1960 Roma, 1964 Tokyo, 1968 Mexiko, 1972 Münxen, 1976 Monreal, 1980 Moskva, 1984 Los Anceles, 1988 Seul, 1992 Barselona, 1996 Atlanta, 2000 Sidney, 2004 Afina, 2008 Pekin, 2012 London, 2016 Rio de Janeyro (6).

Təşkil olunan Qış Olimpiya Oyunlarının sayı 23-ə bərabərdir. İlk Qış Olimpiya Oyunları 1924-cü ildə Fransanın Şamoni şəhərində təşkil olunmuşdur. Qış Olimpiya Oyunlarına ən çox ev sahibliyi edən ölkə ABŞ-dır. Bu ölkədə Qış Olimpiya Oyunları 4 dəfə keçirilmişdir (1932-Lake Placid, 1960-Squaw Valley, 1980-Lake Placid, 2002-Salt Lake City). Yalnız 12 ölkə təşkil olunan bütün Qış Olimpiya Oyunlarında iştirak edib: Avstriya, Kanada, Finlandiya, Fransa, Böyük Britaniya, Macarıstan, İtaliya, Norveç, Polşa, İsveç, İsveçrə, ABŞ. Qış Olimpiya oyunlarında ən çox medal qazanan ölkə Norveç sayılır. Skandinaviya təmsilçiləri bu

yarışlarda 368 medal qazanıb (132 qızıl, 125 gümüş, 111 bürünc). Bu günə qədər keçirilən Qış Olimpiya Oyunlarının siyahısı isə belədir: 1924 Chamonix, 1928 St.Moritz,1932 Lake Placid, 1936 Partenkirchen, 1948 St.Moritz, 1952 Oslo, 1956 Cortina dAmprezzio, 1960 Squaw Valley, 1964 İnnsbruck, 1968 Grenoble, 1972 Sapporo, 1976 İnnsbruck, 1980 Lale Placid, 1984 Sarayevo, 1988 Calgary, 1992 Albertville, 1994 Lillehammer, 1998 Nagano, 2002 Salt Lake City, 2006 Turin, 2010 Vankuver, 2014 Soçi, 2018 Pxenyan (6). Olimpiya oyunlarının simvolu 5 olimpiya halqası sayılır. Hər bir halqa bir qitəni təmsil edir:

- Mavi halqa – Avropa qitəsi
- Qara halqa – Afrika qitəsi
- Qırmızı halqa – Amerika qitəsi
- Sarı halqa – Asiya qitəsi
- Yaşıl halqa – Avstraliya qitəsi

Olimpiya oyunları dünyanın ən böyük idman tədbiri sayılır. Bu yarışlara ev sahibliyi etmək üçün ölkələr arasında güclü rəqabət mövcuddur. Yarışlara ev sahibliyi edəcək ölkə namizəd ölkələr arasında seçilir. Beynəlxalq Olimpiya Komitəsinin verdiyi qərarla səsvermə gizli şəkildə aparılır və bir müddət sonra ev sahibliyi hüququna yiyələnmiş ölkə ictimaiyyətə açıqlanır. Yarışların keçiriləcəyi ölkə və ya şəhər yarışların keçirildiyi dövrdə 200-dən çox ölkənin idmançılarını, turistlərini qəbul edir. Bu ölkədə mədəniyyətlərarası əlaqənin güclənməsinə səbəb olur. Olimpiya oyunlarını təşkil etmək ölkədə idman mədəniyyətinin formalaşmasına böyük təsir göstərir. Eyni zamanda ölkənin iqtisadi, siyasi, sosial-mədəni inkişafına kömək edir. Məhz bu səbəblərdən Olimpiya oyunlarına ev sahibliyi etmək üçün ölkələr arasında qızğın rəqabət gedir. Ev sahibi ölkə (şəhər) turizm infrastrukturunun inkişafı və həmçinin ölkə ərazisinə gələn turistlərin sayının artırılması üçün geniş imkanlar qazanır. Dünyanın müxtəlif yerlərindən yarışların keçirildiyi bölgəyə gələn turistlər bu ərazinin iqtisadi cəhətdən güclənməsinə şərait yaradır. "Avropa Tur Operatorlar Birliyinin" apardığı araşdırmalara görə yarışların keçirildiyi bölgənin ÜDM-si yarışlar dövründə 1-12% arası artır. Turistlərin həmin bölgəyə axını təkcə yarışların keçirildiyi dövrdə deyil, həmçinin yarışlardan sonra da davam edir. Yarışlar bir növ həmin bölgənin reklamına çevrilir və müsbət imicin formalaşmasına gətirib çıxardır. Aşağıdakı qrafikdə Atlanta, Barselona, Sidney və Seul şəhərlərində keçirilən Olimpiya oyunları dövründə və həmçinin həmin oyunlardan 1 il əvvəlki və sonrakı müddətdə ölkəyə gələn turist sayları göstərilmişdir. Qrafik ölkələrin müxtəlif illər üçün olan statistik məlumatlarına əsasən hazırlanmışdır. Mənbə olaraq həmin ölkələrin statistika komitəsinin məlumatlarından istifadə edilmişdir (1):



Şəkil № 1

Qrafikdən göründüyü kimi Olimpiya oyunlarından sonrakı dövrlərdə də turistlərin bu ölkələrə axını davam edir. Avstraliya Turizm Komitəsinin verdiyi statistik məlumatlara əsasən yarışların keçirildiyi dövrdə ölkəyə 1.6 milyon turist gəlmiş və bu turistlər ölkə iqtisadiyyatına təxminən 3.5 milyard dollar xeyir vermişlərdir. Həmçinin Avstraliya hökumətinin apardığı siyasət nəticəsində ölkə növbəti illərdə turizm sahəsindən 2.1 milyard dollar gəlir götürmüşdür. Yarışların təşkili üçün isə 170 milyon dollar xərclənmişdir. Sidney Olimpiya oyunlarından sonraki illərdə ölkəyə gələn turistlərin sayında 10% artım müşahidə olunmuşdur (4, s.15). 1996-cı ildə baş tutmuş Seul olimpiya oyunlarından sonra isə bu artım 10.4% olmuşdur. 2012-ci ildə keçirilmiş London olimpiya oyunları dövründə isə İngiltərə hökumətinin xalis gəliri 890 milyon funt sterlinq olmuşdur. Həmin ildə ölkəyə gələn turistlərin idman və mədəni tədbirlərə xərclədikləri məbləğ isə təxminən 2.4 milyard funt sterlinq idi. Barselona şəhəri də olimpiya oyunlarından sonra ən çox inkişaf etmiş şəhərlərdən biridir. Müqayisə üçün qeyd edək ki, 1990 – 2000-ci illər aralığında Barselona şəhəri turist sayında ən çox inkişaf göstərmiş şəhər olmuşdur. 1990 və 2000-ci illər aralığında şəhərə gələn turistlərin sayında 104.9 %-lik artım müşahidə olunmuşdur. Həmçinin 1996-cı ildə keçirilmiş Atlanta Olimpiya Oyunları şəhərin iqtisadiyyatına 5 milyard dollarlıq gəlir gətirmişdir (7). Məhz bu rəqəmlər Olimpiya oyunlarının turizmə və eyni zamanda ölkələrin iqtisadiyyatına necə böyük təsir göstərdiyinin bir nümunəsidir. Olimpiya oyunları turistlərin sayının və turizm gəlirlərinin artmasına şərait yaradır. Həmçinin yeni turizm destinasiyalarının yaranmasına və mövcud destinasiyaların inkişafına təkan verir. Lakin olimpiya oyunları heç də hər zaman ölkələrə turist axınlarının yaranmasına səbəb olmur. Buna ən gözəl nümunə olaraq biz 2004-cü ildə Olimpiya oyunlarının vətəni olan Yunanıstanda təşkil olunan yarışları misal göstərə bilərik. Yarışlardan əvvəl bura çoxlu turist gələcəyi gözlənilsə də yarışlar dövründə turist gecələmələrinin sayı paytaxt Afina şəhərində hər gün üçün 15.000 nəfər olmuşdur (2, s.38). Bu azalmalar eyni zamanda yunan adalarında da müşahidə edilmişdir. Bunun əsas səbəbi də ölkədə mövcud olan iqtisadi və siyasi durum idi. Bu səbəblər ölkəyə daha az turistin gəlməsinə gətirib çıxarmışdır.

Hələlik son Olimpiya oyunları Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmişdir. Braziliyada keçirilən bu yarışlar ölkə iqtisadiyyatına müsbət mənada böyük təsir göstərmişdir. Yarışlar zamanı ölkəyə gələcək turistlərin rahatlığını təmin etmək məqsədi ilə Rio-de-Janeyro şəhərində 70 yeni otel tikilmiş və turizm sektoruna 5 milyard dəyərində yatırım edilmişdir. Yeni tikilmiş otel və idman komplekslərində təxminən 16 min insan işə başlamışdır ki, bu da özlüyündə ölkənin iqtisadi-sosial həyatına təsir göstərmişdir. 2016-cı il ərzində Braziliyaya 6.6 milyon turist gəlmişdir və bu ötən illə müqayisədə 4.8%-lik artım demək idi. Eyni zamanda ölkə həmin il turizmdən 6.2 milyard dollarlıq gəlir götürmüşdür və bu 2015-ci illə müqayisədə 6.2% artım demək idi (6).

2020-ci ildə keçirilməsi planlaşdırılan Tokyo olimpiya oyunları isə dünyanı cənginə alan koronavirus pandemiyasına görə 2021-ci ilə təxirə salındı. Pandemiya təkcə idman turizminə deyil, eləcə də bütün turizm sahələrinə mənfi təsir göstərdi. Dünya Səyahət və Turizm Konsulluğunun (WTTC) 2020-ci il üçün açıqladığı yekun statistikada bu pandemiyaya görə 142.6 milyon nəfərin öz iş yerini itirdiyi və turizm sektorunun 3.8 milyard dollar dəyər itirdiyi bildirilirdi. Eyni zamanda beynəlxalq səyahətlərdə 65%, daxili səyahətlərdə isə 33% azalma baş vermişdir. Yaponiya hökuməti 2020-ci il üçün ölkəyə 40 milyon turistin gələ biləcəyi ilə bağlı məlumat yaymışdır, lakin pandemiya ölkənin Olimpiya oyunları və turizm ilə bağlı bütün planlarının üstündən xətt çəkdi. Olimpiya oyunlarının təxirə salınması yapon iqtisadiyyatında 6 milyard dollarlıq geriləməyə səbəb oldu.

Nəticə etibarı ilə Olimpiya oyunları idman turizmində və ümumilikdə turizm sektorunda önəmli yerə malikdir. Olimpiya oyunlarını qəbul etmək üçün dünyanın aparıcı idman və turizm ölkələri milyonlarla dollar pul xərcləyirlər. Olimpiya oyunlarının ölkə iqtisadiyyatına verdiyi xeyir göz qabağındadır. Yarışlar keçirilən ölkəyə 200-dən artıq ölkənin vətəndaşının gəlməsi ölkənin nəinki iqtisadi, həmdə sosial-mədəni inkişafına da müsbət təsir göstərir.

Ölkəmiz bu vaxta kimi 2015-ci ildə keçirilən Birinci Avropa Olimpiya Oyunlarına ev sahibliyi etmişdir. Yarışlarda 50 ölkənin idmançıları iştirak etmişdir. Statistika komitəsinin açıqladığı statistik məlumatlara əsasən, 2015-ci ildə təxminən 2 milyon nəfər Azərbaycana turizm məqsədi ilə səyahət etmişdir. Bu da öz növbəsində ölkə iqtisadiyyatının inkişafına şərait yaratmışdır. Hal-hazırda ölkəmiz növbəti illərdə ölkədə olimpiya oyunlarının təşkil edilməsi üçün tədbirlər görür, ölkədə yeni olimpiya-idman kompleksləri tikilir, idman turizminin inkişafı üçün yatırımlar edilir. Qarşıdakı illərdə ölkəmizdə Olimpiya oyunlarının keçirilməsi ölkədə turizmin uzunmüddətli inkişafına şərait yaradacaqdır.

Ədəbiyyat

1. Deloitte. Tourism Hospitality and Leisure-Executive Report. Issue 3, 15. 2004.
2. Duran, P. The impact of the Games on tourism. 2005.
3. Fourie, J., & Santana-Gallego, M. The Impact of Mega-Events on Tourist Arrivals. 2010
4. Haynes, J. Socio-economic impact of the Sydney 2000 Olympic Games. 2001
5. Mesut Özdemir – Turizmin Tarihsel Gelişimi.
6. https://www.olympic.org/
7. https://www.olympic.org/news/the-legacy-of-atlanta-1996
8. https://journalistsresource.org/studies/government/infrastructure-government/economic-and-cultural-benefits-of-the-olympics-research-roundup/

С.Р.Маликов

История олимпийских игр и влияние на туризма

Резюме

В статье представлена информация о влиянии Олимпийских игр на туризм и возможностях его развития. Статистические данные были получены в сфере туризма за тот же период из разных городов, где проводились Олимпийские игры, а также проанализированы доходы городов от туризма во время Олимпийских игр. Также изучалось влияние пандемии коронавируса на туризм и сообщалось о потенциале нашей страны для проведения Олимпийских игр.

S.R.Malikov

History of Olympic Games and effect on tourism

Summary

The article provides information about the impact of the Olympic Games on tourism and the opportunities for its development. Statistics were obtained in the field of tourism for the same period from different cities where the Olympic Games were held, and also analyzed the income of cities from tourism during the Olympic Games. The impact of the coronavirus pandemic on tourism was also studied and our country's potential for hosting the Olympic Games was reported.

Rəyçi: t.e.n. İ.İ.Mədətov

Redaksiyaya daxil olub: 27.04.2021

Р.С.АХУНДОВ
доцент
e-mail: rafik-akhundov@mail.ru

Азербайджанский государственный экономический университет
(г. Баку, ул. Истиглалият, 6)

МЕЖДУНАРОДНЫЕ СВЯЗИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ НА СОВРЕМЕННОМ ЭТАПЕ

Ключевые слова: *сотрудничество, диаспора, конференция, традиции.*
Açar sözlər: *əməkdaşlıq, diaspora, konfrans, ənənələr.*
Key words: *cooperation, diaspora, conference, traditions.*

Азербайджан располагается на стыке цивилизаций и культур между Востоком и Западом и это отразилось на нашей истории, культуре и международных связях. Развитие и укрепление этих связей отвечало интересам страны и поэтому находилось в центре постоянного внимания руководства страны. Подтверждением этого являлось участие азербайджанской делегации в работе Международного Форума, проходившего в Московском государственном университете им. М.В.Ломоносова в марте 2018 года. Форум был посвящен прошлой, настоящей и будущей роли университетов и гармонизации глобального научно-образовательного, технологического и гуманитарного пространства в современную эпоху.

К участию в работе форума были приглашены ректоры и президенты ведущих российских и зарубежных университетов, представители научных организаций, академических кругов, государственных органов, известные ученые и общественные деятели – всего более 1,5 тысячи участников и гостей. На форуме было зачитано приветствие Президента Российской Федерации В.Путина. Открыл форум фундаментальный доклад ректора МГУ имени М.В.Ломоносова академика Виктора Садовничего, посвященный истории, сегодняшнему и завтрашнему дню науки. В.Садовничий проанализировал глобальные тенденции развития внешней школы, обрисовал роль российского высшего образования в мировом образовательном процессе, подчеркнул, что история Московского университета как колыбели национального университетского сообщества чрезвычайно богата людьми и свершениями. Ректор МГУ оценил готовность университетов как сосредоточения лучших интеллектуальных сил противостоять глобальным вызовам, таким, как риски цифровизации, экологические проблемы, развитие искусственного интеллекта. 25 марта 2018 года на пленарном заседании форума выступила ректор Бакинского филиала МГУ, вице-президент Национальной Академии Наук Азербайджана (НАНА) академик Наргиз Пашаева. Ее доклад был посвящен роли университетов в гармонизации глобального научно-образовательного, технологического и гуманитарного пространства. Наргиз Пашаева заявила: «На сегодняшний день в век инноваций, именно гуманитарные науки, социально важные науки имеют колоссальное значение в глобальном мире. Любые достижения или неудачи точных наук, инновативных проектов, рано или поздно, упираются и пересекаются с гуманитарными составляющими. Этические, нравственные, духовные постулаты гуманитарных учений, критерии оценок, школа ценностей гуманитарных наук играют роль тормозов, когда эйфория, пусть даже гениального ума, может не устоять перед соблазном проехать на красный предупредительный знак. (1)

В рамках форума прошел съезд Евразийской ассоциации университетов, насчитывающей 30 летнюю историю. Ассоциация объединяла 139 университетов Азербайджана, Грузии, Казахстана, России, Молдовы, Туркменистана и других стран. Высшим руководящим органом Евразийской ассоциации являлся Съезд Ассоциации. За время существования в Москве, Баку, Киеве, Ашхабаде, Минске и других городах прошли 13 съездов Ассоциации и основным вопросом на повестке дня являлось укрепление международных связей Азербайджанской Республики с евразийскими странами (2).

В январе 2019 года в Бакинском государственном университете с приглашением находилась делегация из Франции под руководством декана юридического факультета университета Лион-2, профессора Гийони Протьера. Исполняющий обязанности ректора БГУ Фируддин Гурбанов, подчеркнув достижения Азербайджана в области науки и образования, заявил о важности реформ, проводимых в сфере высшего образования в рамках Болонского процесса, к которому Азербайджан присоединился в 2005 году. Ф.Гурбанов, отметив свое участие в конференции министров Европейского пространства высшего образования в Париже в мае 2018 года, подчеркнул эффективность этого мероприятия в определении общих ценностей для высшего образования на ближайшие 10 лет. По его мнению, особое внимание должно быть уделено применению программ двойного диплома, академической мобильности между университетами Европы. Говоря о международных связах БГУ, Ф.Гурбанов особо отметил важность расширения сотрудничества с французскими университетами. Профессор Гайони Протьер поделился своими впечатлениями о посещении Азербайджана, дал высокую оценку состояния дел в азербайджанской высшей школе, выступил за укрепление взаимовыгодных международных связей двух стран. По итогам переговоров были определены перспективы межвузовских связей и подписан протокол о намерениях между юридическим факультетом БГУ и юридическим факультетом университета Лион -2 по подготовке кадров на ступени магистратуры по программе двойного диплома в области «Права интеллектуальной собственности». Протокол включил в себя такие вопросы, как реализация совместных программ, обмен преподавателями и студентами, поведение семинаров, симпозиумов, конференций, обмен специалистов по программе двойного диплома. (3)

В апреле 2019 года в американском городе Чикаго состоялся I сельскохозяйственный форум Иллинойс-Азербайджан, в работе которого участвовала делегация возглавляемая министром сельского хозяйства АР и Представителями 14 малых и средних компаний Азербайджана. Благодаря этому форуму азербайджанские сельхозпроизводители получили возможность выйти со своей продукцией на рынки штатов Иллинойс и Оклахома. Таким образом, в торговых отношениях между Азербайджаном и США существовала позитивная динамика, инвестиции США в экономику республики превысили 10 млрд. долларов, а Государственный нефтяной фонд АР вложил более 7 млрд. долларов США в финансовый рынок этой страны. В мае 2019 года между Американо-азербайджанской торговой палатой и Азербайджанским государственным информационным агентством (АЗЕРТАДЖ) было подписано соглашение, предусматривающее сотрудничество в проведении пропагандистской работы с азербайджанскими бизнесменами, проживающими в США (4).

Эти контакты усиливали экономическое сотрудничество двух стран, расширяли международные связи Азербайджанской Республики. В мае 2019 года по инициативе Азербайджанского центра культуры имени Гейдара Алиева в столице Узбекистана Ташкенте был организован медиатур для группы узбекских журналистов, посетивших до этого Баку и ряд регионов Азербайджана. Корреспондент телеканала Назира Баймурадова в своем репортаже рассказала слушателям о Азербайджане, его традициях и культуре. Говоря об истории Ичери Шехер, журналистка сравнила его с Иран Кала в

старинном узбекском городе Хива, а также с Самаркандом и Бухарой. Ведущая передачи рассказала телезрителям о Шехидляр Хиябани, о сыновях и дочерях, отдавших жизнь во имя территориальной целостности и независимости Азербайджана. Телезрителям также была предоставлена подробная информация об экономическом потенциале каспийской республики. Одним из нюансов, особенностей, вызвавших интерес у узбекских слушателей, стало то, что автор передачи совместно с местными жителями участвовал в приготовлении азербайджанских блюд, пел азербайджанские песни. Таким образом, видеорепортаж на узбекском языке об Азербайджане, показанный по узбекскому телеканалу «Культура и познание», способствовал укреплению дружбы между двумя государствами и народами, укреплению взаимовыгодных международных связей Азербайджанской Республики. (5)

Стремительный рост миграции, происходящий в мире в эпоху глобализации, заставлял говорить о «диаспоризации мира» как об одном из сценариев развития человечества. Резкое увеличение масштабов миграции шло параллельно с консолидацией иммигрантских этнических сообществ, в результате чего число диаспор в мире непрерывно увеличилось. Но диаспора – это не просто «кусочек» одного народа, проживающего среди другого народа, это этническая общность, которая имела такие важные характеристики, как национальная самобытность развитие языка, культуры, сознания. Большую значимость для диаспоры имела социальная функция – деятельность по социальной защите членов диаспоры, охране их прав согласно «Декларации прав человека», провозглашенной ООН. В наши дни все большее значение приобретала политическая функция диаспор, которая проявлялась в форме лоббирования интересов Азербайджана. Каждый азербайджанец, находясь далеко от родного очага, глубоко почитал свои традиции, хранил и берег родной язык, радовался успехам республики. Вопросы деятельности диаспорских организаций находились в поле постоянного внимания первой леди Азербайджана Мехрибан Алиевой, удостоенной ордена «Дружба» за заслуги в укреплении азербайджанско-российских отношений. Только в республике Дагестан в настоящее время проживало и работало около 10000 граждан Азербайджана. При поддержке руководства Дагестана местная национально-культурная автономия ежегодно отмечала государственные и народные праздники Азербайджана, такие как Новруз Байрам, День Азербайджанской республики, день рождения национального лидера Гейдара Алиева. (6)

Одним из деловых людей, много сделавших для укрепления дружбы и сотрудничества между Российской Федерацией и Азербайджанском, являлся генеральный директор первого в России автомобильного завода по производству автомобилей класса люкс AuRus, Адыль Ширинов. Возглавлял Ульяновский автомобильный завод (УАЗ) и ООО «Форд Соллерс» (завод по сборке автомобилей форд) в России, он много делал для укрепления деловых отношений между двумя странами. По его мнению, Азербайджанская Республика за годы независимости добилась больших успехов не только и не столько за счет природных ресурсов, но прежде всего за счет глубоко продуманной экономической политике и политической стабильности.

По его мнению, в Азербайджане имелись прекрасные места для отдыха, но существующая туристическая индустрия не соответствовала этим возможностям. В республике имелись отличные гостиницы повышенной комфортности, но было недостаточное количество отелей доступных классу (7).

21-24 ноября 2019 года вице-президент АР Мехрибан Алиева Совершила официальный визит в Российскую Федерацию. За большие заслуги в развитии и укреплении связей и отношений между АР и РФ она была удостоена ордена Дружбы. Российско-азербайджанские отношения и связи охватывали широкий спектр: экономическое взаимодействие, гуманитарную сферу, взаимную поддержку на международной арене.

В 2018 году российско-азербайджанский товарооборот составил 2,6 млрд.долларов США, прирост за 9 месяцев 2019 года составил 26%. Объем российских инвестиций в АР составил 4,9 млрд. долларов США, азербайджанских – 1,2 млрд. К числу совместных проектов можно отнести SOCAR, Polymer, модернизированные предприятия «Азерхимик» сборку и производство грузовых автомобилей «Камаз», строительство первой очереди завода лекарственных препаратов «Р-фарм» (8).

В работе X российско-азербайджанского межрегионального форума проходившего в Москве в ноябре 2019 года, приняли участие представители 30 регионов Российской Федерации, что свидетельствовало о хороших возможностях и перспективах азербайджанской экономики на российском рынке. В ходе форума состоялись «круглые столы» на темы «Сотрудничество в сфере промышленности», «Перспективы взаимной деятельности в сельском хозяйстве», «Развитие сотрудничества в области туризма», «Сотрудничество в гуманитарной сфере» (9).

В рамках официального визита Мехрибан Алиевой в 24 ноября 2019 года прошла 8-я Московская биеннале современного исскуства, партнером которой являлся знаменитый австрийский музей Альбертина. Этот музей представил картины 11 известных художников X X века. Всего было представлено более 50 работ 34 художников из 11 стран. Участники мероприятия ознакомились с мультимедийными инсталляциями азербайджанских художников Орхана Мамедова «Идея сохранения эстетики» и Лейлы Алиевой «Вечность». В работе Мамедова использовались орнаменты более 50 ковров, относящихся к различным периодам азербайджанской истории. В произведении «Вечность», подготовленном в жанре видеоарт творческим коллективом в количестве 20 человек под руководством Лейлы Алиевой, говорилось о смелости людей, их смекалке и творческим способностям (10).

14 ноября 2019 года в Баку начал работу II Саммит религиозных лидеров мира. В его работе участвовали Ильхам и Мехрибан Алиевы. Проведение столь значимого мероприятия в Азербайджане свидетельствовало о важной роли страны в развитии межкультурного диалога, религиозном и этническом многообразии и мультикультуральных ценностях и толерантности. Построенная в 743 году Шамахинская джума мечеть являлась одной из самых первых мечетей в исламском мире. Одна из первых церквей на Кавказе, церковь, относящийся к Кавказской Албании, находилась в окрестностях Шеки. Также в Азербайджане во времена царского режима были построены русские православные церкви, еврейские синагоги, католическая церковь. Таким образом, межрелигиозный диалог в Азербаджане имел свою глубокую историю и традиции.

Президент АР Ильхам Алиев обращался к участникам и гостям II саммита, заявил: «Считаю, что одно из основных направлений заключается в недопущении религиозной дискриминации, использовании религии в политических целях, придании конфликтам религиозной окраски, разрушении в ходе конфликтов историко-религиозных памятников, ведении совместной борьбы с ксенофобией, исламофобией, антисемитизмом и пропаганде традиционных ценностей. Считаю, что отмеченные мною вопросы отражают политику Азербайджана в данном направлении. (11)

Таковы вкратце некоторые аспекты развития международных связей Азербайджанской республики на современном этапе.

Литература

1. «Бакинский рабочий», 2019, 28 марта
2. «Бакинский рабочий», 2019, 28 марта
3. «Каспий», 2019, 17 мая
4. «Бакинский рабочий», 2019, 17 мая
5. «Бакинский рабочий», 2019, 17 мая

6. «Новое время», 2019, 16 августа
7. «Новое время», 2019, 29 августа
8. «Бакинский рабочий», 2019, 26 ноября
9. «Бакинский рабочий», 2019, 23 ноября
10. «Бакинский рабочий», 2019, 26 ноября
11. «Бакинский рабочий», 2019, 15 ноября

R.S.Axundov

Müasir mərhələdəki Azərbaycan Respublikasının beynəlxalq əlaqələri

Xülasə

Azərbaycanın beynəlxalq əlaqələri uzun tarixə malikdir. Sivilizasiyaların, mədəniyyətlərin, dinlərin qovuşuğuna qovuşuğuna yerləşən Azərbaycan dözümlüdür. Azərbaycanda millətlərarası və dinlərarası əlaqələrin möhkəmləndirilməsinə yönəlmiş çoxsaylı beynəlxalq tədbirlər keçirilmişdir. Azərbaycan diasporunun nümayəndələri ölkənin beynəlxalq əlaqələrini möhkəmləndirdi və beynəlxalq nüfuzunu artırdı.

R.S.Akhundov

International relations of the Republik Azerbaijan at the present stage

Summary

Azerbaijan`s international relations have a old-ctnturies history. Azerbaijan located at the crosstoads of civilizations, cultures, religions distinguishe by tolerance. Azerbaijan held numerous international events aimed at strengthening interethnic and interreligious ties. Representatives of the Azerbaijani diaspora strengthened international relations of the country and increased its international prestige.

Рецензент: д.и.н., проф. В.Гасанов

Redaksiyaya daxil olub: 05.04.2021

MÜNDƏRİCAT – СОДЕРЖАНИЕ

DİLÇİLİK – ЛИНГВИСТИКА

V.V.ABBASOVA
İNGİLİS DİLİNDƏ SOSİAL-KULTUROLOJİ METAFORALAR 3
A.Q.ABDULLAYEVA
SİNTAQMIN SÖZ, SÖZ BİRLƏŞMƏSİ VƏ CÜMLƏYƏ MÜNASİBƏTİNƏ DAİR 11
R.İ.BAĞIROVA
ALMAN DİLİNDƏ İŞLƏNƏN PARTİSİPLƏRİN ATTRİBUTİV XÜSUSİYYƏTLƏRİ 15
G.V.ƏHMƏDOVA
ALMAN DİLİNDƏ TƏYİN BUDAQ CÜMLƏLƏRİNİ FORMALAŞDIRAN VASİTƏLƏR 20
G.N.HÜSEYNOVA, K.İ.ƏLƏKBƏROVA
ONOMASTİK VAHİDLƏR BƏDİİ İFADƏ VASİTƏLƏRİ KİMİ 26
N.M.İMANOVA
VİRTUAL DİLÇİLİYİN İKİNCİ VƏTƏN (QARABAĞ) MÜHARİBƏSİNDƏ ROLU 30
F.İSMAYİLOVA
AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ XƏBƏRLİYİN İFADƏ VASİTƏSİ 35
M.O.MƏMMƏDLİ
MÜASİR İNGİLİS DİLİNDƏ YARIM MODAL FEİLLƏR 41
R.X.MƏMMƏDZADƏ
KOQNİTİV DİLÇİLİKDƏ ZAMAN VƏ MƏKAN ANLAYIŞININ
KONSEPTUAL XÜSUSİYYƏTLƏRİ 47
G.Z.RƏHİMOVA, S.Ə.TAHİROVA
MƏDƏNİYYƏTLƏRARASI ÜNSİYYƏTDƏ VASİTƏSİZ NİTQ AKTININ
İSTİFADƏSİNƏ DAİR 53
Z.S.SALAMOVA
LEKSİK SEMANTİKADA “GÖZƏLLİK” KONSEPTİNİN İFADƏSİ 57
İ.Ə.ŞIXIZADƏ
BƏDİİ ÜSLUBDA DİALEKTİZMLƏRİN İŞLƏNMƏSİ 63
H.H.TANRIVERDİYEVA
İNGİLİS VƏ AZƏRBAYCAN MƏTBUATINDA METONİMİYALAR 67
M.T.UMUDOVA
STANDART İNGİLİS DİLİNDƏ METAFORİK İSTORİZMLƏR 75
E.K.ZÜLFÜQAROVA
İNGİLİS DİLİNDƏ NƏQLİ VƏ ÜMUMİ SUAL CÜMLƏLƏRİNDƏ POZİTİV
VƏ NEQATİV MÜNASİBƏT MƏNALARINI REALLAŞDIRAN
İNTONASİYA KONTURLARINA DAİR 79
Н.А.БАГИРОВА
СПЕЦИФИКА ПЕРЕВОДА ИДИОМ НА РУССКИЙ ЯЗЫК 83
И.И.ГАНБАРОВА
О ТРАДИЦИОННЫХ И СОВРЕМЕННЫХ ЛИНГВИСТИЧЕСКИХ НАПРАВЛЕНИЯХ 88
G.R.JAHANGIROVA
CULTURE’S INFLUENCE ON THE BUSINESS CONTEXT 92

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА

S.N.ASLANOVA
MİLLİ ADƏT-ƏNƏNƏLƏRİMİZ XARİCİ MƏNBƏLƏRDƏ 96
Ş.T.BÜNYADOVA
XAQANİ VƏ MƏHSƏTİNİN ƏSƏRLƏRİNDƏ BƏZƏKLƏR 100
S.İSMİZADƏ
ÇİNUA AÇEBENİN "PARÇALANMA" ROMANINDA "İBO CƏMİYYƏTİ"NİN
MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİN TƏSVİRİ 103
F.Ə.KAZIMLI
ETNİK-MİLLİ ƏNƏNƏLƏRİN TƏZAHÜRÜ 107
İ.A.MƏCİDOVA
STİVEN KİNQİN HEKAYƏLƏRİNDƏ QORXU JANRININ TƏZAHÜRÜ 111
Х.И.АЛИЕВА
АНГЛИЙСКАЯ ПРОЗА XX ВЕКА 114
Р.Ф.АСАДЗАДЕ
ТИПОЛОГИЯ ХАРАКТЕРА В ПОВЕСТИ «БУРЯ» Ж.М.Г.ЛЕКЛЕЗИО 117
Л.М.МАМЕДОВА, Ш.М.КУЛИЕВА
ХУДОЖЕСТВЕННОЕ СВОЕОБРАЗИЕ РОМАНА А.С.ПУШКИНА
«КАПИТАНСКАЯ ДОЧКА» 125

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПЕДАГОГИКА. МЕТОДИКА. ПСИХОЛОГИЯ

İ.V.ABDULLAYEVA
TƏHSİLİN KEYFİYYƏTİNİN MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ 129
T.ABDULLAYEVA
AŞAĞI KURS TƏLƏBƏLƏRİNDƏ İNGİLİS DİLİNİN
LEKSİK ASPEKTİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI 132
A.B.ALLAHVERDİYEVA
PEDAQOJİ PROSESDƏ MÜƏLLİM VƏ ŞAGİRD FƏALLIĞI ARASINDAKI ƏLAQƏ 136
S.N.ATAYEVA
ŞAGİRDLƏRƏ MÜQAYİSƏ BACARIQLARINI AŞILAMAĞIN İMKANLARI 140
A.X.AXUNDOVA
DƏRSDƏNKƏNAR SOSİAL PEDAQOJİ İŞİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ 143
L.H.BAĞIROVA
TƏRBİYƏYƏ TƏSİR EDƏN SOSİAL-PSİXOLOJİ AMİLLƏR 146
Ü.B.BAĞIROVA
MÜASİR DÖVRDƏ GƏNCLƏRİN HƏRBİ-VƏTƏNPƏRVƏRLİK
TƏRBİYƏSİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ 149
L.M.CƏFƏROVA
MƏKTƏBLİ GƏNCLƏRİN İCTİMAİ FƏALLIQ TƏRBİYƏSİ 152
T.M.ƏHMƏDOVA
AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ MÜRƏKKƏB CÜMLƏLƏRDƏ
BUDAQ CÜMLƏLƏRİN MÜQAYİSƏLİ ÖYRƏNİLMƏSİNİN TƏDRİSİ METODİKASI 155
Z.S.ƏLİYEV
MƏKTƏBLİLƏRLƏ MİLLİ-MƏNƏVİ TƏRBİYƏ İŞİNİN
TƏŞKİLİNİN XÜSUSİYYƏTLƏRİ 160
A.R.ƏLİYEVA
DİDAKTİKANIN TƏLİM METODLARININ YENİLƏŞDİRİLMƏSİ
VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI PROBLEMLƏR 163

S.A.ƏLİYEVA
YENİYETMƏLƏRDƏ MİLLİ TƏRBİYƏNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ 167

T.B.EMİNLİ
ŞAGİRDLƏRİN PEDAQOJİ PEŞƏYÖNÜMÜNÜN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ 170

M.İ.ƏMRAHOV, M.M.ƏMRAHOVA
XIV-XV ƏSR AZƏRBAYCANIN MƏDƏNİ HƏYATINA BİR BAXIŞ 173

S.C.ƏZİMOVA
ORTA İXTİSAS MƏKTƏBİ ŞAGİRDLƏRİNDƏ
İCTİMAİ FƏALLIQ TƏRBİYƏSİNİN İMKANLARI 178

S.T.FEYZULLAYEVA
MÜHAZİRƏ – ALİ MƏKTƏBLƏRDƏ TƏLİMİN ƏSAS FORMASI KİMİ 181

E.R.HACIYEVA
PEDAQOJİ İRSİMİZDƏ MİLLİ-QÜRUR HİSSİNİN
FORMALAŞDIRILMASI PROBLEMİNİN QOYULUŞU 186

A.Ə.HÜSEYNOVA
DEMOQRAFİK AMİLLƏR VƏ ŞAGİRDLƏRİN AİLƏ TƏRBİYƏSİ 189

A.M.HÜSEYNZADƏ
MƏKTƏBLİLƏRDƏ TOLERANTLIĞIN FORMALAŞDIRILMASININ
NƏZƏRİ MƏSƏLƏLƏRİ 192

F.N.İBRAHİMOV, N.B.CƏBRAYILOVA
KORPORATİV TƏLİMDƏ ŞAGİRDLƏRİN İDRAKİ FƏALİYYƏTƏ
VƏ ÜNSİYYƏTƏ CƏLB EDİLMƏSİ 195

F.N.İBRAHİMOV, G.B.QARAYEVA
İNKLÜZİV TƏHSİLİN METODOLOGİYASININ İNTERPRETASİYASI 202

S.R.İSGƏNDƏROV
İCTİMAİ FƏALLIĞIN SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ 207

N.R.İSMAYILOVA
MÜXTƏLİF İLLƏRDƏ UŞAQLARIN AİLƏ TƏRBİYƏSİ HAQQINDA
PEDAQOQLARIN DÜŞÜNCƏLƏRİ 210

E.Q.KƏSƏMƏNLİ
CƏFƏR CABBARLININ MİLLİ-TƏRBİYƏVİ İDEYALARI
VƏ MÜASİR MƏKTƏB TƏRBİYƏ SİSTEMİNDƏ ONUN ROLU 215

G.B.MEHDİYEVA
AZƏRBAYCAN PEDAQOJİ FİKRİNDƏ MƏNƏVİ KEYFİYYƏTLƏRİN
İNKİŞAF ETDİRİLMƏSİNİN VACİBLİYİ HAQQINDA 218

N.R.MƏMMƏDOVA
MİLLİ SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏR VƏ İNTEQRASİYA 221

S.S.MƏMMƏDOVA
ŞAGİRDLƏRİN HÜQUQ TƏRBİYƏSİNİN VƏZİFƏLƏRİ 224

Ü.M.MƏMMƏDOVA
TƏRBİYƏDƏ SOSİAL MÜHİTİN ROLU 227

J.A.MURADOVA
VALİDEYNLƏRİNİ İTİRMİŞ UŞAQLARLA APARILAN PEDAQOJİ İŞİN
TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ 230

A.T.NƏZƏROVA
FƏAL TƏLİMƏ ƏSASƏN AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ YOLLARI 233

A.Y.QARAYEVA
YENİYETMƏLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ
İSLAM DƏYƏRLƏRİNDƏN İSTİFADƏ 238

T.Ə.QULİYEVA
TƏLİM PROSESİNDƏ TƏLƏBƏLƏRDƏ MİLLİ-MƏNƏVİ MƏDƏNİYYƏTİN FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN İMKANLARI VƏ YOLLARI 241

Y.B.SƏMƏDOV, V.M.VƏLİYEV
İNSANIN QÜVVƏ İMKANLARININ ASILI OLDUĞU FAKTORLARA DAİR 246

Y.B.SƏMƏDOV
QÜVVƏ KEYFİYYƏTLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ METODİKASINA DAİR 251

G.N.SÜLEYMANOVA
MƏKTƏBLİ GƏNCLƏRİN GƏLƏCƏK AİLƏ HƏYATINA HAZIRLANMASININ PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ 255

Ü.L.VƏLİYEVA
KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN AİLƏ TƏRBİYƏSİNİN XÜSUSİYYƏTLƏRİNƏ DAİR 258

С.И.АГАЕВА
О РОЛИ РАЗВИТИЯ НАВЫКОВ КРИТИЧЕСКОГО ЧТЕНИЯ У СТУДЕНТОВ ПЕРВОГО КУРСА ЯЗЫКОВОГО ФАКУЛЬТЕТА 261

И.Э.ГАСАНОВА
МЕЖКУЛЬТУРНАЯ КОММУНИКАЦИЯ КАК ОСОБЫЙ ВИД ОБЩЕНИЯ В АЗЕРБАЙДЖАНЕ 265

Д.Б.ДЖАВАДОВА, Н.А.ИБРАГИМОВА
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИМЕННЫХ ЧАСТЕЙ РЕЧИ НА УРОКАХ РУССКОГО ЯЗЫКА В АЗЕРБАЙДЖАНСКОЙ ШКОЛЕ 270

İCTİMAİ ELMLƏR – ОБЩЕСТВЕННЫЕ НАУКИ

M.A.ƏHMƏDOV
AZƏRBAYCAN TELEVİZİYA KANALLARINDA YAYIMLANAN VERİLİŞLƏRDƏ ETİK PROBLEMLƏR 274

M.ƏLİYEV, Ş.TAHİRQIZI
KİTABXANA İŞİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU 280

A.Ə.MEHDİYEVA
XAÇ YÜRÜŞLƏRİ MÜASİR TÜRK TARİXŞÜNASLIĞINDA 286

S.R.MƏLİKOV
OLİMPİYA OYUNLARININ TARİXİ VƏ TURİZMƏ TƏSİRİ 291

Р.С.АХУНДОВ
МЕЖДУНАРОДНЫЕ СВЯЗИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ НА СОВРЕМЕННОМ ЭТАПЕ 295

Nəşriyyat redaktoru: **Əzəmət Həsənov**

Texniki redaktor: **Günel Muxtarova**

Çapa imzalanıb: 22.06.2021. Format: 84x108 1/16.
Həcmi: 19 ç.v. Tiraj: 300.

TƏRCÜMƏ VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Hörmətli müəlliflər!

«Humanitar elmlərin öyrənilməsinin aktual problemləri» adlı ali məktəblərarası elmi məqalələr məcmuəsində çap olunmaq üçün elmi məqalələrin qəbulunu davam etdirir. Məcmuəyə **dilçilik, ədəbiyyatşünaslıq, pedaqogika, psixologiya, fəlsəfə və ictimai elmlərin aktual problemləri**nə dair məqalələr daxil edilir.

Məqalələr aşağıdakı şərtlərlə qəbul edilir:

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.
- Məqalələrin həcmi 5 səhifədən az olmamalıdır.
- Məqalələr kompüterdə yığılmış formada elektron daşıyıcıda təqdim edilməlidir (Word proqramında, səhifənin ölçüləri – A4, şrift 14, sətirlərarası məsafə 1,5 interval, sağ və soldan 2 sm, yuxarı və aşağıdan 3 sm.; Azərbaycan dilində mətnlər Times New Roman, Times-Latin, rus və ingilis dillərində mətnlər Times New Roman şrifti ilə).
- Məqalələrdə istinad və mənbələrin göstərilməsi vacibdir. İstinad və mənbələr bu qaydada göstərilir:

1. Ədəbiyyat siyahısı mətnin sonunda əlifba sırası ilə verilir.
2. İstinad olunan ədəbiyyat nəşr olunduğu dildə verilir.
3. Ədəbiyyatlar AAK-nın tələbləri əsasında göstərilir:
   Məs.: **Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 1997.**
   Nağısoylu M.N. Abbasqulu ağa Bakıxanovun "Riyazül-Qüds" əsəri orijinaldır, yoxsa tərcümə // «Mütərcim» jurnalı, №1-2, 18 mart 2003-cü il, s. 34-35.
4. İstinad olunmuş ədəbiyyatın nömrəsi və səhifəsi mətnin içində göstərilir. Məs.: (**5, s. 112**).

- Məqalənin əvvəlində Azərbaycan, rus, ingilis dillərində 5-6 açar söz göstərilməlidir.
- Məqalənin sonunda məqalənin yazıldığı dildən başqa iki dildə (Azərbaycan dilində yazılmış məqalələrə ingilis və rus dillərində; məqalə rus dilində yazılıbsa, Azərbaycan və ingilis dillərində, məqalə ingilis dilində yazılıbsa, Azərbaycan və rus dillərində) xülasə verilməlidir.
- Məqalədə müəllifin elmi dərəcəsi, elektron poçt ünvanı, işlədiyi təşkilatın adı və ünvanı dəqiq göstərilməlidir.
- Məqalələrə bu sahə üzrə elmi dərəcəsi olan mütəxəssisin və ya müvafiq elmi müəssisənin Elmi Şurası rəy verməlidir.

Ünvan: **Bakı şəh., Rəsul Rza küç., 125/139b**
tel.: 596 21 44
e-mail: mutarjim@mail.ru
Məcmuənin elektron variantı: **www.mutercim.az**